**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

# HEYDƏR ƏLİYEVİN MƏDƏNİYYƏT SİYASƏTİ ADLI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI

**Konfrans Azərbaycan xalqının ümummilli lideri HEYDƏR ƏLİYEVİN 100 illik yubileyinə həsr olunur**

**Konfrans Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 3-29-50/1D-04/2023**
**tarixli 06.02.2023 qərarına əsasən**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilmişdir**

**Bakı – 2023**

## TƏŞKİLAT KOMİTƏSİ

**Ceyran Mahmudova – ADMİU-nun rektoru, professor (sədr)**
**Nigar Rüstəmova – Tədris işləri üzrə prorektor, dosent**
**Sədaqət Əliyeva –Elm və yaradıcılıq işləri üzrə prorektor, dosent**
**Gülşən Əliyeva-Kəngərli – Beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektor, professor**
**Gülşən Qafarova – Elm və yaradıcılıq ifa işləri şöbəsinin müdiri, dosent**

# M Ü N D Ə R İ C A T

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .**
**Rafael Hüseynov**. Onun kimi ola bilməyin çətinliyi............
**Teymur Kərimli.** İmadəddin Nəsimi irsinin təbliği Heydər Əliyevin mədəniyyət siyasətinin mühüm tərkib hissəsi kimi............
**Alev Çakmakoğlu Kuru.** “Bir millet iki devlet” sözlerinin türk sanatındakı izleri.
**Gülşən Əliyeva-Kəngərli.** Möhtəşəm 100 il və bütün zamanların ədəbi irs təlimi
**Asif Rüstəmli.** Cəfər Cabbarlı yaradıcılığı ulu öndərin dəyərləndirmə müstəvisində
**Mehmet Yüce.** Azerbaycan-Türkiye ilişkilerinin gelişiminde Haydar Aliyev’in rolü
**Nurcan Baykuş Savaşaneril.** Haydar Aliyev’in Atatürk sevgisi
**Məryam Əlizadə.** Heydər Əliyev və Azərbaycan teatrı
**Xaləddin Sofiyev.** Qloballaşma şəraitində beynəlxalq təhsilin təşkili
**Elman Quliyev.** Ümummilli lider Heydər Əliyevin Atatürkə münasibəti Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmləndirilməsində mühüm mərhələ kimi...
**Nizami Məmmədov Tağısoy.** Heydər Əliyevin siyasi baxışlarında Azərbaycan ədəbiyyatına qayğı məsələləri
**Uzun Yılmaz Ulvi.** Haydar Aliyev’in türk dünyasındaki rolü ve Haydar Aliyev dönemi Azerbaycan ekonomisi
**Hakan Kaya.** Haydar Aliyev’den günümüze Azerbaycan’da beşeri sermaye ve inovasyonun gelişimi
**Gülbəniz Babaxanlı**. Hüseyn Cavid irsinin böyük qayğıkeşi
**Камола Акилова.** Культурная политика Азербайджана и Узбекистана периода независимости: схожие приоритеты и отличительные особенности
**Эркин Нуриддинов, Азер Адыгезалов.** Гейдар Алиев – инициатор идеи «Азербайджанства»
**Aybəniz Əliyeva-Kəngərli.** Heydər Əliyevin dövlətçilik nəzəriyyəsində klassik irs problemi....
**Baha Ahmet Yılmaz.** Siyasal iletişimde kurtarıcı liderlik kavramı: Haydar Aliyev'in Türk dünyası.
**Tahirə Həsənzadə.** Ulu öndər Heydər Əliyev Azərbaycanda xatirə-ev muzeylərinin yaradıcısıdır
**Salatın Əhmədli.** Heydər Əliyev və islamın Azərbaycan modeli
**Əzizağa Nəcəfzadə.** Nizamişünaslığa dövlət qayğısı Heydər Əliyevin mədəniyyət siyasətinin mühüm tərkib hissəsidir
**Dilafruz Kurbanova.** Outstanding personality of a powerful state
**Vəfa Xanoğlan.** Heydər Əliyev irsində tarix və müasirlik..............
**Sədaqət Əliyeva.** Azərbaycanda dövlət qadın siyasəti
**Ruhiyyə Hüseynova.** Heydər Əliyev və Azərbaycan mədəniyyəti
**Aygül Hüseynova.** Xalqın tarixini əbədiləşdirən bədii salnamələr
**Sadir Məmmədov.** Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı....
**Sevinc Həsənova.** Milli sərvətimiz olan ana dilimiz azərbaycançılığın mənəvi əsasıdır
**Elçin Qafarlı.** Heydər Əliyev və Türkiyə-Azərbaycan ortaq dəyərlərinə münasibət məsələləri
**Etibar Musayev.** SSRİ-də totalitar ideoloji şəraitində milli mənəvi dəyərlərin dirçəldilməsində Heydər Əliyevin rolu.....
**Гульшан Алиева-Кенгерли, Ляйля Калиакбарова, Айсулу Калдаякова**. Роль Г.Алиева в интеграции Азербайджана в тюркский мир
**Gülxarə Əhmədova.** Heydər Əliyev və mədəniyyətə qayğı məsələsi.........
**Adil Sadıxov.** Heydər Əliyevin azərbaycançılıq ideyası.....
**Gülnarə Hüseynova.** Heydər Əliyev – mədəniyyət xalqın böyük sərvətidir

**Fatimat Məmmədova.** Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti məsələlərinin kulturoloji aspektləri
**Xəzər Zeynalov.** Naxçıvan rəssamlarının yaradıcılığında Heydər Əliyev obrazı
**Rəşad Qardaşov.** Ali məktəb kitabxanalarının informasiya resurslarının inkişafında Heydər Əliyev mərhələsi
**Ələmdar Bayramov, Aysel Həsənova.** Heydər Əliyevin multikulturalizm siyasəti kitabxana-informasiya fəaliyyəti sistemində
**Rəşad Əsgərov, Bağır Babayev.** Heydər Əliyev və Azərbaycanın etnik-dini müxtəliflik modeli: udinlər
**Pərvanə Məmmədova.** Azərbaycan mədəniyyəti Heydər Əliyevin siyasi baxışları müstəvisində
**Namiq Abbasov.** Mütəşəkkil xalq, mübariz ordu birliyini yaradan lider
**Təranə Əliyeva.** Heydər Əliyevin nəzəri irsində milli-mənəvi dəyərlər
**Gülçin Kazımi.** Heydər Əliyev və mədəni elita
**Tamilla Əsgərova.** Heydər Əliyevin mədəniyyət siyasətində müəllif hüququ: predmeti və funksiyaları
**Şahanə Həsənova.** Heydər Əliyev Azərbaycan mədəniyyətinin və incəsənətinin himayədarı kimi.
**Ulduz Qəhrəmanova.** Heydər Əliyev və Azərbaycan ədəbiyyatı..
**Nərgiz Rəsulova.** Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan gəncliyinə nümunədir.
**Natiq Mürsəlov.** Heydər Əliyevin kitabxana işi sahəsində dövlət siyasətinin normativ-hüquqi əsasları
**Səkinə Aydınova.** Heydər Əliyevin siyasi diskursunda "Qaçqın" konseptinin milli-mənəvi dəyərlər aspektindən verballaşması...
**Gülnar Əhmədova.** Heydər Əliyev və Azərbaycanda iqtisadi dirçəliş..........
**İrane Memmedova.** Azerbaycanlık ideolojisinin kültürel gelişimi ve milli liderin mirasında hoşgörü
**Günel Hümmətova (Pəniyeva).** Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası...
**Esmira Məmmədova.** Heydər Əliyevin fəaliyyəti dövründə şəxsiyyətin mənəvi tərbiyəsinin əsas istiqamətləri haqqında
**Sabir Əsədov.** Heydər Əliyev və cənubi Azərbaycan ədəbiyyatı
**Zarema İbrahimova.** Heydər Əliyevin Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə verdiyi yüksək dəyər.
**İnarə Səfiyeva.** Heydər Əliyevin mədəni irsimizin qorunmasında rolu
**Vəfa Yüzbaşıyeva.** Heydər Əliyev və Azərbaycan rəssamları
**Ellada Hacıyeva.** Heydar Aliyev and the Azerbaijani model of multiculturalism
**Elza Fərzəliyeva.** Heydər Əliyev və Azərbaycan mədəniyyəti
**Solmaz Əliyeva.** Ümummilli lider Heydər Əliyev Azərbaycan multikulturalizmin siyasi banisi kimi
**Sevinc Muxtarova.** Azərbaycan multikulturalizminin siyasi banisi
**Pərvanə Muradi.** Azərbaycan təsviri sənətində Heydər Əliyev fenomeni
**Baxış Ələsgərov, Yaqub Səmədov.** Azərbaycanda kitabxana-informasiya sahəsinin inkişafında Heydər Əliyevin rolu
**Günel Kərimli, Gülnarə Qurbanova.** Azərbaycan mədəniyyətinin himayədarı
**Nurlana Bağırova.** Qarabağın memarlıq abidələri ulu öndər Heydər Əliyevin mədəniyyət konsepsiyasının tərkib hissəsi kimi
**Yeganə Hüseynova.** Heydər Əliyev və ədəbiyyat
**Günel İsrafilova.** Heydər Əliyev və Azərbaycan incəsənəti
**Gülşən Nəsirova.** Multicultural policy of the Republic of Azerbaijan and foreign policy of the country during Heydar Aliyev's presidency
**Cəmilə Əzizova.** Ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin təbliğində biblioqrafik vəsaitlərdən istifadənin əhəmiyyəti
**Nadir Xalıqov, Səidə Əhmədova.** Azərbaycan mülki aviasiyasının memarı

**Aysu Bülbülzadə.** Heydər Əliyev və Azərbaycan Respublikasında dövlət quruculuğu
**Leman Zeynalova-Memmedzade, Turkanbayim Ahmadli.** The role of Heydar Aliyev's speech in our language
**Konul Mammadzadeh.** Heydar Aliyev's view of film art
**Гезяль Гусейнова.** Роль Гейдара Алиева в сплочении тюркского мира
**Aynur Ələkbərova.** Heydər Əliyevin gənclər siyasətinin konseptual təhlili
**Kəmalə Məmmədova.** Heydər Əliyev irsinin təbliği kitabxanaların marketinq fəaliyyətində
**Ali Sidibe.** Heydar Aliyev, the leader who did not stack off responsibilities

## Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd

edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 29 sentyabr 2022-ci il**

**UOT 82**

**Rafael Hüseynov**
**akademik**
**E-mail: rafaelhuseyn@yahoo.com**

# ONUN KİMİ OLA BİLMƏYİN ÇƏTİNLİYİ

...XX əsrin birinci yarısı başa çatıb, ikinci yarısı başlayırdı.

Yox, bu, sadəcə təqvim hadisəsi deyildi.

İkinci Dünya müharibəsi yenicə sona çatmışdı. İnsanların qırışığı təzə-təzə açılırdı. Çöhrələrə yenidən təbəssüm, kənd-kəsəyə toy-düyün qayıdırdı. Hələ insanlar fərqində deyildilər və sadə adamlar bunu bilə də bilməzdilər ki, elə İkinci Dünya savaşı bitincə, onun toz-dumanı hələ axıracan toxtamamış Üçüncü Dünya müharibəsi başlayar. Ancaq əvvəlki savaşdan fərqli olaraq, bu müharibədə nə top-tüfəng olacaq, nə mərmilər partlayacaq, nə atəşlər gurlayacaq. Başlanan "soyuq müharibə" başa çatan müharibədən qat-qat uzun çəkəcək və bir neçə on ilə sığan bu savaşın da bitməsi, elə əvvəlki odlu müharibədən sonra olduğu kimi, dünyanın təzədən bölüşdürülməsinə, xəritələrin yenidən biçilib-çəkilməsinə gətirib çıxaracaq.

XX yüzilin iki yarım əsrinin hər biri sanki bütöv bir əsr kimi idi. Bir əsr içində iki əsr. Bu əsrin iki dünya müharibəsi sığışan birinci parası ilə ikinci qismi bütün cəhətləri ilə fərqli olacaq. Dünya da dəyişəcək, insanlar da başqalaşacaq. Və 1950-ci illərin ikinci yarısının başlanmasıyla Vaxt sərhədinin yeni bir layına düşdüklərini insanlar da, dünya da bütün ayrıntılarıyla bir də bu əsrin sonunda, yeni minilliyin əvvəlində, olub keçənlərə ötmüş zamanın hündürlüyündən nəzər salanda hiss edəcək.

1951-ci il idi, 28 yaşlı baş leytenant Heydər Əliyevin özünə o vaxt məlum olmasa da, indi həmin ömür əvvəlindən sonunacan gözümüz önündə canlandırıla bildiyindən, anlayırıq ki, həyatının onu o edəcək mühüm mərhələsinə məhz o vaxt qədəm basıb. Buracan olanlar hazırlıqmış. Həyatının növbəti böyük mərhələsinə mötəbər bünövrə tədarüküymüş.

1951-ci il mart ayının ilk günlərində Azərbaycan SSR Dövlət Təhlükəsizlik Nazirliyi İkinci Baş İdarəsi rəisinin müavini general-leytenant Rayxmanın imzasıyla Azərbaycan dövlət təhlükəsizlik nazirinin adına tam məxfi qrifli məktub gəlir.

Sovet İttifaqında mərkəzləşdirilmiş idarəçilik sistemi fəaliyyətdə idi. Hər respublikadakı kinostudiyanın siyahısında hansı aktyorların olduğundan Moskvada xəbərdar idilər, onda qalmış Mərkəzin tam diqqətində saxladığı xarici kəşfiyyat sahəsi ilə bağlı əyalətlərdə yaşayan və istifadəsi mümkün şəxslər ola.

Moskva respublika Dövlət Təhlükəsizlik Nazirliyi 2-ci şöbəsinin vaxtilə alman əsirliyində olmuş, orada kəşfiyyatçılıq təlimi görmüş "Radist" ləqəbli agentindən istifadə etmək zəruriyyətinin yarandığını bildirərək bu şəxsin istər bioqrafiya məlumatları, istərsə də şəxsi keyfiyyətləri baxımından Türkiyəyə atılmağa tam uyğun gəldiyini vurğulayırdı. Agentin xaricdə olan bütün tanışları, buradakı bütün qohumları haqqında məlumatlarla yanaşı, onun xaricə ötürüləcəyi təqdirdə danışa biləcəyi bir neçə variantlı "hekayət" və Azərbaycanla bağlı hansı məlumatları verə biləcəyi barədə arayış tələb olunurdu.

O çağlar idi ki, Sovet İttifaqı ən qatı düşmənləri sırasına qatdığı NATO-nun üzvü olan Türkiyə ilə Azərbaycan arasında sərhədləri zahirdə göründüyündən də qalın və keçilməz etmişdi. Həm də bu məxsusi məhdudlaşdırma yalnız sərhəd dirəkləriylə bitmirdi. Azərbaycanla Türkiyəni bir-biri üçün daha əlçatmaz edə biləcək ən sərt tədbirlər görməkdən çəkinmirdilər. Əvvələn, Kreml eyni köklü, eyni qanlı, təxminən eyni dildə danışan Türkiyə türkləri ilə azərbaycanlıların bir-birlərinə məhəbbətlərindən agah idi. Digər tərəfdən, bilirdilər ki, Azərbaycan siyasi mühacirətinin başlıca simaları Türkiyədə cəmləşib. Ondan da xəbərdar idilər ki, alman əsirliyində olmuş və həbs ediləcəyi hürküsünü gözü altına alaraq Vətənə

qayıtmaqdan çəkinən, eləcə də qayıdacaqları təqdirdə mütləq həbsə atılacaqlarını, bəlkə "vətən xaini" damğası ilə ən ağır cəzaya düçar olacaqlarını yəqin bilən keçmiş azərbaycanlı legionerlərin bir çoxu da məhz Türkiyəyə sığınıb.

Ona görə də Moskvanın Türkiyə ilə bağlı hərbi və iqtisadi səciyyəli kəşfiyyat məlumatları toplamaqla bərabər, siyasi mühacir və legionerlərlə əlaqədar əllərinin altındakı bilgiləri daim təzələməyə ehtiyacı da vardı.

O əsr başa çatmamış SSRİ də tar-mar oldu, bu mənfur siyasət də aradan getdi, Azərbaycanda bir kəsi pantürkist adlandıraraq ləkələyə bilmək kimi çürük fitnəkarlıqlar da keçmişə çökdü, hətta sabiq legionerlərə də xainlər kimi baxılması vərdişi kənara atıldı, güzəştli "bu da bir tale imiş" düşüncəsiylə mütəvazi yanaşma bərqərar oldu. Ancaq tarix də tarixliyində qalır. Və dünəni aydın görmək və doğru dərk etməkçün bu qapalı səhifələrə bələd olmaq da lazımdır.

...1951-ci ildə Azərbaycan Dövlət Təhlükəsizlik Nazirliyi 2-ci şöbəsinin bilavasitə İran və Türkiyə üzrə işləyən 6-cı bölməsinə gənc Heydər Əliyev yenicə rəis təyin edilmişdi və şöbəsinin xətti ilə Moskvaya göndəriləcək, altında bir yığın başqa daha yuxarı kürsülərdə əyləşən rəislərin də imzası olan sənədlərin hamısını məhz o hazırlamalı idi. Təbii ki, bu, bir neçə qat məsuliyyət demək idi. Sənədlər elə hazırlanmalı idi ki, vəzifələrə uyğun mərtəbə-mərtəbə imzalandıqca nə buradakı rəislərdə hansısa narazılıq yaratsın, nə də daha mühümü, Moskvada peşəkarlıq baxımından hər hansı tərəddüd oyatsın.

Agentlərlə bağlı olan məlumat səciyyəli arayışları hazırlamaq xüsusi çətinlik vəd eləmirdi. Amma istənilən əməliyyatda inandırıcı "hekayət"i qoşub düzmək, ağıllı fəaliyyət planı tərtib etmək həmişə qəlizdir və bu, yalnız peşəkar səriştələr deyil, həm də yaradıcı istedad umur.

Heydər Əliyev bu işin ən misilsiz ustalarından olmuşdu və ona xas yaradıcılıq qabiliyyəti və araşdırıcılıq imkanları üstəgəl – iti fəhm, mahiyyəti, cövhəri anındaca tuta bilmək bacarığı daim onu seçdirmişdi. Hər hansı əməliyyatla bağlı "hekayət" uydurmaq və bunun yetərincə inandırıcılığına, təbiiliyinə nail olmaqçün gərək həm də bir qədər yazıçı olasan, həm də ssenariçi olasan, həm də rejissor olasan.

Üstünə "Duel" yazılmış bu dördcildlik iş ki yeddi onillik əvvəl cərəyan etmiş hadisələrin mənzərələrini dirildir, vərəq-vərəq çevrildikcə Heydər Əliyevin elə gənclik çağlarından necə əhatəli düşünən, necə çevik zəkalı, necə hədəfə sarı dürüst yönəldən təxəyyül sahibi olduğunu nişan verməkdədir.

Kim idi adı Moskvanın da kartotekalarında münasib agent kimi keçən "Radist"?

1916-cı il təvəllüdlü "Radist"in atası İrandan Azərbaycana 1911-ci ildə çörəkpulu ardınca gəlmişdi. 1930-cu ilədək İran vətəndaşı kimi qalsa da, bir daha geri qayıtmamışdı. "Radist" Astraxanbazarda (indiki Cəlilabadda) təvəllüd tapmış, elə orada 6 sinif bitirmişdi, hərbi xidmətə 1937-ci ildə çağırılıb 1939-da tərxis olunsa da, 1941-1945 müharibəsi başlananda yenidən əsgər paltarı geyəsi olmuşdu.

1941-ci ilin avqustunda əsgər aparılmış, radistlər kursunu bitirdikdən sonra (ona gizli adı da elə buna işarəylə vermişdilər) komandanlığın düşmənlə təmas xəttinə yaxın hissələrdə tapşırıqlarını yerinə yetirməkçün Krım cəbhəsinə göndərilmişdi. Lakin tezliklə əsir düşmüş və 1942-ci ildən 1945-ci ilə qədər almanlarla işləmişdi. Onu 1943-cü ildə alman kəşfiyyat orqanı "Seppelin"in kəşfiyyat məktəbini bitirdikdən sonra 1943-cü ildə sovet ordusunun içərilərinə atmaq nəzərdə tutulubmuş. Ancaq alman ordusunun Şimali Qafqazdakı məğlubiyyətindən sonra bu plan təxirə salınır və o, daxil olduğu qrupla birlikdə "Zandberq SS düşərgəsi"nə göndərilir.

1943-cü ildə o, "Azərbaycan Milli Komitəsi"nin seçiləcəyi konqresə sıravi bir deputat kimi yola düşür. 1945-ci ilin aprelində həmin qrupla birgə əvvəlcə İtaliyanın Verona şəhərinə yola salınır. Az sonra oradan da Almaniyanın Qokendorf kəndinə gedərkən dəstədən ayrı düşür, amerikanlara qoşulur və 1945-ci ildə Sovet İttifaqına təhvil verilir.

Sovet xüsusi xidmət orqanları ilə əməkdaşlığa 1945-ci ilin sentyabrından başlayır və əməkdaşlığa cəlb edilərkən alman kəşfiyyatının bir çox əməkdaşları haqqında dəqiq məlumatları bölüşməklə yanaşı, milli legionların rəhbər heyəti, eləcə də onunla kəşfiyyat məktəbində oxumuş 150 nəfər haqqında məlumatlar verir. Onun məlumatları əsasında 50-dən çox alman kəşfiyyatçısı ifşa edilir. O, iradəli, cəsur, qətiyyətli, möhkəm hafizəli bir şəxs kimi xarakterizə olunurdu və sərhədin o tayına atılmağına da razılıq vermişdi. Xüsusi xidmətlərin, hətta bu gün – üstündən iri zaman adladığına görə baxmağa icazə verilən işlərinin də qapalı bir tərəfi, bəzən o idarənin içərisindəkilərin belə axıracan agah olmadığı sirləri var.

B.Süleymanzadə (ad şərtidir) doğrudanmı almanlara əsir düşmüşdü, ya əvvəldən onun kəşfiyyatçı kimi hazırlanaraq məhz əsir düşməsi, almanlarla əməkdaşlığa razılıq verməsi nəzərdə tutulmuşdu? Bu sualın cavabı araşdırdığım qovluqlarda yoxdur. Söz yox, mövzunun bilavasitə içində olan Heydər Əliyev bu gizlincdən bixəbər deyilmiş.

Ehtimallarımın yaranması da səbəbsiz deyil. Mehdi Hüseynzadə də, elə bu cavan kimi, cəbhəyə göndərilməzdən əvvəl kəşfiyyat kurslarını keçmişdi, cəbhəyə gedəndən az sonra o da əsir düşmüşdü, o da orada almanların kəşfiyyat məktəbini bitirmişdi və ola da bilsin ki, faşistlərin arasında bu tərəfdən gələn müəyyən gizli tapşırıqları da icra etmişdi və günlərin birində kartların açılması qorxusu yarananda qoşulmuşdu italyan və yuqoslav partizanlarına, həm sovetin, həm almanın kəşfiyyat məktəblərini görmüş püxtə döyüşçü kimi qəhrəmanlıqlar göstərərək "Mixaylo" kimi şöhrətlənmişdi.

Bunlar özülsüz fərziyyələr deyil. Mehdi Hüseynzadənin almanların içərisinə atılmış ən qabil kəşfiyyatçılardan biri olmasını "Xatirələr və düşüncələr" adlı memuarlarında marşal Georgi Konstantinoviç Jukov təsdiqləyirdi.

Yəqin, sovetin məqsədi bu imiş ki, göndərilən agent orada özünü buradan qaçıb gedən kimi qələmə versin, dindirmələrdən sonra Türkiyə kəşfiyyatı ilə işləməyə razılıq versin. Belə hallar da az olmayıb ki, həm o, həm bu kəşfiyyat bəlli bir adamın həm o, həm bu tərəfə işlədiyini bilsə də, hər iki tərəfə sərf edəcək həddə qədər belələrindən də istifadəni mümkün saymışlar.

"Radist" sərhədi necə keçir, orada onunla günlər, həftələr boyu dindirmələr necə aparılır, təzədən geriyə hansı tapşırıqlarla, necə atılır, orada nələrin şahidi olur, kimlərlə görüşür, gəlib burada orada başına gələnlərdən nə danışır, – çoxhissəli maraqlı bir filmin mövzusu olacaq qədər cəlbedicidir. Ancaq o uzun mətləb film olarsa seriallıq, yazıyla yerli-yataqlı ifadə edilərsə, bir kitablıq genişlik istədiyindən, müxtəsər olaraq indiki halda vacib saydığımız bir neçə məqam üzərində dayanırıq.

Baş leytenant Heydər Əliyevin "Radist" üçün tərtib etdiyi plan sanki detektiv süjetli, nəfəs dərmədən baxılası film kimidir. "İş"də həmin planın makinada çap olunmuş nüsxəsi ilə yanaşı Heydər Əliyevin öz əlyazmasındakı qaralaması da qalır. Səliqəli, aydın xətti ilə qələmə aldığı bu yazısında arada Heydər Əliyev hansısa sözləri, ifadələri pozur, daha tutarlılarını əlavə edir, əməliyyat layihəsindəki hər cizgini sonacan cilalayır.

"Plan"a yazılmış ön sözdən aşkar olur ki, oxşar işləri elə qarşı tərəf də vaxtaşırı yerinə yetirmiş və sübutu da Azərbaycana sərhəd boyunca son dövrdə atılmış bir neçə dəstənin tutulması olmuşdur. Bir neçə dəstə tutulsa da (onlar əsasən elə azərbaycanlılardır, bəzilərinin adları da işdə gözə dəyir), ələ keçməyənlər də olurmuş və cildləri vərəqlədikcə onu da hiss edirəm ki, çekistlər belə halların varlığını istisna etmirlər.

Plana görə, "Radist" sərhədi gecə vaxtı, Araz çayı üzərindən Ermənistan ərazisindən keçməli idi. Cibində pasportu, hərbi bileti, bir az sovet pulu, üstü qarmaqlı, yəni əvvəllər qadın zinəti kimi istifadə edilmiş 4 qızıl beşlik.

Heydər Əliyevin qurduğu və rəhbərliyin də həm Bakıda, həm Moskvada bəyəndiyi hekayət (ruscada bu termin adətən, "legenda" – "əfsanə" kimi verilsə də, mən "hekayət"i daha məqbul sayıram) belə idi ki, "Radist" sərhədi keçincə zastavaya yaxınlaşmalı və elə etməlidir ki, onu görüb nəzarətə götürsünlər.

Dindirmə zamanı SSRİ-dən qaçmasını belə izah etməlidir ki, əsirlikdə olub, almanlara xidmət edib, indi qorxur ki, onu da alman əsirliyindən sonra, Vətənə qayıdan bir çox başqaları kimi, həbsə alarlar, həmin səbəbdən də qaçmağa qərar verib. Güman edilir ki, "Radist"i ilk dindirmədən sonra sorğu-sualı davam etdirmək üçün MƏH-ə – Milli Əmniyyət Hizmətinə təhvil verəcəklər. Orada "Radist"ə hansı suallar verilə bilər, onları necə cavablandırmaq lazımdır, ssenarisini də zabit Heydər Əliyev ən kiçik ayrıntılarına qədər təsvir edib.

Maraqlıdır ki, "Radist" bir müddət Türkiyədə qaldıqdan sonra Azərbaycana qayıdanda onunla yenə ilk olaraq Heydər Əliyev görüşür. Sərhədin o tərəfinə keçəndən sonra orada onun qarşısına hansı sualların qoyulduğunu, "Radist"in bu suallara nə cavablar verdiyini, cavablardan çıxaraq dindirənlərin əlavə hansı sualları dilə gətirdiyini soruşur, bütün bunların hamısını stenoqrafik hesabata çevirir. Heyrətlənirsən, qarşı tərəfin verdiyi suallar bir yana, həmin suallardan doğacaq əlavə sualları da Heydər Əliyev anlaşılmaz bir bəsirətliliklə qabaqcadan sezibmiş.

Məsələn, "Radist" deməli idi ki, Bakıda Dağüstü parkda gecə gözətçisi işləyir, gündüzlərsə xırda alverlə məşğul olur, arada da qol saatlarının təmiri ilə çax-çux edir.

Heydər Əliyevin zənninə görə, "Radist"dən Bakıdakı məşhur saatsazlardan kimləri tanıdığını xəbər almalı idilər. O isə yalnız məşhurların deyil, lap az tanınan ustaların da böyük bir dəstəsinin adını çəkməli, inandırıcılıq üçün onlardan bəzilərinin özünəməxsus məziyyətlərindən də həvəslə bəhs etməli idi.

Necə fərz edilmişdisə, o təhər də olur.

Heydər Əliyev əməliyyatın hekayətində yazmışdı ki, sənin həqiqətən saatsaz olduğunu müəyyənləşdirməkçün həmin anlarda olmasa da, bir neçə gün sonra guya təsadüfən hansısa qol saatını təmir adıyla verib nəticə gözləyəcəklər. Bu da irəlicədən necə düşünülmüşdüsə, elə o cür də olur.

"Səninlə orada – Almaniyada legionda olmuş, kəşfiyyat məktəbində təlim görmüşlərin adlarını soruşacaqlar. Burada vətən xaini kimi həbs olunmuşların – Ziyad Muradxanovun, Gülhüseyn Hüseynovun, Şıxbala Eyvazovun, Kamal Əlibəyovun, Qulam Hüseynovun, Zirəddin Bağırovun, Əli Məlikovun, Cəfər Axundovun adlarını çək, söylə ki, onların başına gələnlərə şahid olandan sonra qaçmağı qət etdim".

Soruşurlar, "Radist" də necə öyrədilmişdi, elə o cür də cavab verir.

Bu adların hər birini öz kanalları ilə araşdırsaydılar, görəcəkdilər ki, hər birinin haqqında "Radist"in danışdıqları həqiqətdir ki, var.

"Sənə sərhədi necə keçməyi kim öyrətdi" sualını da verəcəklər.

Dəqiq ad deməlisən: K.Yusifzadə" (ad şərtidir).

Bu, "Yupiter" adlı agent idi ki, o da alman əsirliyində, legionda xidmətdə olmuşdu. Qarşı tərəfin xüsusi xidmət orqanlarının buradakı adamları vasitəsilə "Radist"in dindirmələrdə verdiyi məlumatların hər hansı birini yoxlamaq cəhdi olarsa, onlar elə səmtə yönəldilməli idi ki, məhz "Radist"in dedikləri yüzfaizli təsdiqini tapsın.

Belə yoxlamaların, dəqiqləşdirmələrin olacağı isə mütləq idi. Çünki "Radist"i qarşı tərəfə onların istifadə edə biləcəyi agent kimi sırımaq niyyət edilirdisə, gərək o, hər yoxlamadan təmiz çıxa idi. İşdi-şayəd, kimsə nə şəkildəsə "Yupiter"i arayıb tapsaydı (və onu Bakıda tapmaq elə çətin bir iş deyildi), bir agent olaraq əvvəlcədən məlumatlandırılmış olduğundan elə "Radist"in dediyini deyəcəkdi.

"Yupiter" köhnə dostu "Radist"in sərhəddən keçirilmə məsələsini guya vaxtilə Ermənistanda yaşamış, 1949-cu ildə azərbaycanlılar oradan çıxarılarkən Bakıya köçüb gəlmiş, amma o tərəflərlə əlaqələri qalan qohumu Q.Zeynalzadənin (ad şərtidir) üç min manat pul müqabilində təşkil etdiyini bildirəcəkdi.

Nəzəri cəhətdən əgər Q.Zeynalzadənin özü ilə kimsə danışsa, qılığına girərək söz qopara bilsəydi, o da nə lazımdır, onu deyəcəkdi. Çünki bu adam da həqiqətən Ermənistandan olan, indi Bakıda

məskunlaşmış bir şəxs idi, Araz üzərindən o taya keçməyin də bütün mümkün yollarına beş barmağı kimi bələd idi və həm də bir DTN agenti idi ki, ləqəbi "Şahsabahlı".

Yəni bütün detallar elə incəliklə, elə sahmanlı sıralanmışdı ki, sonra əl altından "Radist"in bir silsilə məlumatlarını yoxlayan Türkiyə tərəfinin kəşfiyyatı əmma qoyulası məqam tapmamışdı və o səbəbdən də qərara almışdı ki, bu adamdan öz agenti kimi yararlana bilər. Türkiyədə olan Azərbaycan siyasi mühacirətinin təmsilçilərinin də əksəri "Radist"i şəxsən tanıdıqlarından onunla bağlı orada aparılan araşdırmalar müsbət nəticə verəcəkdi, ondan istifadə edilməsi qərarına gəlinəcəkdi.

Bu müfəssəl "hekayət"i mütaliə etdikcə əmin olursan ki, Heydər Əliyev cavan yaşında artıq həm Avropada, həm İran və Türkiyədəki siyasi mühacirətimizin, demək olar ki, bütün nümayəndələri haqda geniş təsəvvürə və biliyə malik imiş. Çünki bilməsəydi, belə bir sanballı plan da tərtib edə bilməzdi. Həmin məlumatları o dövrdə ala bilməyin yeganə qaynağı isə elə Təhlükəsizlik Nazirliyinin arxivi idi. Həmin qapalı sənədlərə də gənc əməkdaş kimi Heydər Əliyevin yolu təzəcə açılmışdı.

Baxın ki, bu geniş və dərin bilikləri qazana bilmək, qafasına zəruri informasiyaları, faylları bir kompüterə yükləyən kimi, yığa bilmək üçün o, hər gün usanmadan, yorulmadan, bezmədən neçə saat çalışırmış.

"Radist" xaricə keçəcəyini, təbii ki, ailəsinə də deməməli idi. O ərəfədə hərbi komissarlıqdan çağırış gəlməli idi ki, Qazaxıstana 6 aylıq radio-rabitəçilər kursuna göndərilirsiniz. "Radist" də ailəsinə bildirməliydi ki, bəs bu, çox sərfəli bir ezamiyyətdir, ayda 1.500 manat da təqaüd veriləsidir ki, onu da sizə göndərəcəm.

Bu təfərrüatlar da əhatəli "hekayət"in inandırıcı bəndləri arasında öz yerini almışdı.

1951-ci il dekabrın 26-dan 27-nə keçən gecə, saat 4-də "Radist" rezin qayıqla Arazı üzüb keçir, sərhədçilərə təslim olur. Onu Ərzurumda xəstə əsgər adı ilə xüsusi nəzarət altında bir palatada yerləşdirirlər və 4 ay ərzində, demək olar ki, onunla hər gün dindirmələr aparılır. Adətən də gecə saatlarında.

Bu işi vərəqlədikcə o vaxt sovetin dili ilə düşmən kimi təqdim edilmiş, indi isə müasir milli tariximizin bilinməli səhifələri, yadda saxlanmalı bir silsilə adları da qarşımıza çıxır.

"Radist"in Türkiyədə olarkən görüşdüyü adamlardan biri 1895-ci il təvəllüdlü, AXC dönəmində Gəncə və Ağdaşın pristavı olmuş, 1930-cu illərdə öz silahlı dəstələrini yaradaraq sovet hökumətinə qarşı qaçaqçılıq etmiş, sonra isə qardaşları və bir dəstə silahdaşı ilə Türkiyəyə mühacirət etmiş Qiyas bəy Cahandar bəy oğlu Şıxlinski idi. 1946-cı ilə aid məlumatlardan üzə çıxır ki, Qiyas bəyin İqdır kəşfiyyat məntəqəsinin rəisi Hüsni bəylə çox sıcaq münasibətləri varmış və Azərbaycanda antisovet gizli fəaliyyətin təşkili səmtində birgə iş aparırlarmış.

Bunları istiqlal tariximiz üçün əhəmiyyət daşıyan soraqlar kimi açıram ki, bu həqiqət də bilinsin – millətimiz heç zaman müti olmayıb, sovetin ən qəddar zamanlarında da müstəqilliyimizin bir gün yenə qayıdacağına, üçrəngli bayrağımızın təzədən ucalacağına inamla fədakar mübarizələrini davam etdirib.

Bu cildlərdə milliyyətcə kürd olan, 1900-cü il təvəllüdlü, 1917-ci ilin 17 iyununda başının 499 nəfərlik dəstəsi ilə İrandan SSRİ-yə keçmiş, məsləkdaşları ilə birlikdə Özbəkistanda yaşayan Şeyx Məhəmməd oğlu Molla Mustafa Bərzaninin də adı keçir. Ona görə xatırlayıram ki, 1946-cı ilin dekabrında Cənubi Azərbaycanda Milli Hökumət şah qüvvələri tərəfindən amansızlıqla devrilərkən həmin bu Molla Mustafa İranın hökumət qoşunlarına mərdliklə müqavimət göstərib.

...1952-ci il aprelin 23-də "Radist"i əsgər geyimində örtülü maşında bir neçə yüksək çinli xüsusi xidmət əməkdaşının müşayiəti ilə Ərzurum şəhərindən Qarsa, oradan da Şahnair sərhəd batalyonunun qərargahına gətirirlər. Aprelin 24-də o, SSRİ-də yerinə yetirməli olduğu xüsusi tapşırıqla Qızılçakçak rotasının qərargahına göndərilir, oradan da Mehmedabad sərhəd postuna aparılır və qaranlıq düşəndən sonra libası dəyişdirilir, mülki geyimdə "Radist" sovet ərazisinə atılır.

Ona tapşırıq verilmişdi ki, Azərbaycandakı hərbi hissələrin sayı və harada yerləşməsi, hərbi hissələrin adları və nömrələri, onların komandirləri haqqında məlumatlar toplasın. Tapşırıq vermişdilər ki,

növbəti dəfə qayıdanda özü ilə iranlı siyasi mühacirlərin qəzetlərinin bir neçə nömrəsini götürsün və keçmiş müsavatçılardan kimisə özü ilə bu tərəfə gətirməyə nail olmağa çalışsın.

Heydər Əliyevin "Radist"in gördüyü işlər haqda hesabatları ilə tanış olandan sonra 1953-cü il yanvarın 23-də SSRİ DTN-dən Bakıya bu agentdən istifadənin yeni mərhələsi ilə bağlı məktub gəlir.

1955-ci il iyunun 10-da "Radist" Türkiyəyə təkrarən göndərilişi ilə bağlı Moskvaya dəvət edilir. Və Moskvadan artıq başqa təxəllüslə – "Volqin" kimi qayıdır.

1955-ci il oktyabrın 21-də yenidən atılır Türkiyəyə. 1955-ci ilin 28 oktyabrından etibarən onu mütəmadi danışdırırlar. Dindirmələr 1955-ci ilin son dekabr günlərində bitir. 1956-cı il iyunun 12-dən 13-nə keçən gecə "Volqin" sərhədi növbəti dəfə pozur. Bu dəfə Türkiyədən Azərbaycana keçir. Bundan əvvəlcə o, İstanbulda olmuşdu, Türkiyə və Amerika kəşfiyyatları ona SSRİ-də yerinə yetirməli olduğu tapşırıqların siyahısını təqdim etmişdi.

O səliqə ki bu cildlərdəki sənədlərdə 1952-1953-cü illərdə var, 1954-1955-ci illərdəkində yoxdur. Çünki 1954-1955-ci illər bu qurumda Heydər Əliyevə qarşı təqiblərin başlandığı dövr idi, məqsədləri də onun axırına çıxmaqdı. Ancaq bacarmırlar. Heydər Əliyev yenə qayıdır, yenə yüksəliş pillələri ilə ucalmağa başlayır. Bu cildlərdə yer alan – Moskvadan mövzu ilə bağlı göndərilən xidməti yazışmalarda altda generalların imzalarıdır. Bu, görülməli işə Mərkəzin diqqətinin səviyyə göstəricisidir. Bakıdan göndərilən cavabların ən mühümlərinin icraçısı baş leytenant Heydər Əliyev. Bu da cavan bir insanın yaşından qabağa gedərək hansı öncül, aparıcı səviyyəyə çatmasının göstəricisi! Bu qovluqlar ki açıram, bu cildlər ki vərəqləyirəm, onları məndən əvvəl dönə-dönə açıblar, baxıblar, hələ üstəlik bu cildlərdən bir dərs vəsaiti, bir ülgü kimi yararlanıblar. Amma bütün bunlar hansısa kitabxanada, qiraətxanada deyil, bəlli idarənin kənar adamların yol tapması müşkül olan sükutlu divarlarının arasında baş verib. Həmin cildlər 70 il əvvəlin yadigarı olsa da, hələ də üstündən məxfilik möhürü silinməyib, indiyədək qıraq gözlərə görünmədən qalmaqdadırlar.

Dövlət təhlükəsizliyi şəbəkəsində çalışan daha yaşlılar bu cildləri heyranlıqla vərəqlədikcə daha cavanlara "öyrənin, belə olmağa alışın" öyüdünü veriblər. Ancaq belə olmaq nə dildə deyildiyi qədər asandır, nə də bir insanın ən inadcıl canatmalarından axıracan asılıdır. Heydər Əliyevin bir vaxtlar yerinə yetirdiyi işlərdən indi bir dərslik kimi bəhrələnmək olar. Amma onlardan dərs alaraq yeni nəsə edə bilməkçün həm də gərək səndə o böyük şəxsiyyətə xas xüsusiyyətlərdən izlər, işartılar ola. Yəni gərək sənin də payına lap əzəldən, Heydər Əliyevdə olan sayaq, Allahın bəxş etdiyi parlaq istedad işığı, qabiliyyət, fəhm düşə.

Sonra – miqyaslı düşüncə, dərin təfəkkür.

Sonra – fədakar zəhmətsevərlik.

Sonra – qulpundan yapışdığın işə sonsuz sevgi.

Sonra – tutduğun yolda ardıcıllıq, qətiyyət, əzm, iradə!

Onun kimi ola bilmək çox çətindir.

Ya bəlkə elə olmaqçün məhz o cür, o keyfiyyətlərlə birgə doğulmaq gərəkdir?!

**UOT 82-1/-9**

**Teymur Kərimli**
**akademik**
**E-mail: t.h.kerimli@gmail.com**

# İMADƏDDİN NƏSİMİ İRSİNİN TƏBLİĞİ HEYDƏR ƏLİYEVİN MƏDƏNİYYƏT SİYASƏTİNİN MÜHÜM TƏRKİB HİSSƏSİ KİMİ

**Xülasə:** Ümummilli lider Heydər Əliyevin mədəniyyət siyasətinin mühüm tərkib hissəsi Azərbaycan ədəbiyyatına: istər klassik, istərsə də müasir ədəbi irsimizin təbliğinə qayğısı idi. Ulu öndər ədiblərimizin yaradıcılığının öyrənilməsi və şəxsiyyətinin daha geniş sferada tanıdılması istiqamətində işin təkcə ölkədə deyil, onun sərhədlərindən kənarda da intensiv təşkilinə böyük önəm verirdi. Bu məqsədlə klassiklərimizin əsərlərinin müxtəlif xarici dillərdə nəşri, dramaturqlarımızın pyeslərinin dünya səhnəsində oynanılması, müğənnilərin xarici qastrollarda Azərbaycan şairlərinin əsərlərini ifa etməsinə xüsusi diqqət yetirilirdi.

Nəsiminin 600 illik yubileyi Ulu Öndərin səyi və qeyrəti ilə qlobal miqyasda – YUNESKO səviyyəsində keçirilmişdi. Bu mütərəqqi ənənənin davamı olaraq Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 11 yanvar 2019-cu il tarixində böyük şairin 650 illik yubileyi münasibətilə "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" xüsusi Sərəncam imzaladı. Bu isə ulu öndər Heydər Əliyevin mədəniyyətimizə, ədəbiyyatımıza, klassiklərimizə verdiyi önəmin onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin bariz nümunəsidir.

**Açar sözlər:** Heydər Əliyev, İmadəddin Nəsimi, mədəniyyət siyasəti, Nəsimi irsi, Nəsimi yubileyi

Ümummilli lider Heydər Əliyevin mədəniyyət siyasətinin mühüm tərkib hissəsi Azərbaycan ədəbiyyatına: istər klassik, istərsə də müasir ədəbi irsimizin təbliğinə qayğısı idi. Ulu öndər ədiblərimizin yaradıcılığının öyrənilməsi və şəxsiyyətinin daha geniş sferada tanıdılması istiqamətində işin təkcə ölkədə deyil, onun sərhədlərindən kənarda da intensiv təşkilinə böyük önəm verirdi. Bu məqsədlə klassiklərimizin əsərlərinin müxtəlif xarici dillərdə nəşri, dramaturqlarımızın pyeslərinin dünya səhnəsində oynanılması, müğənnilərin xarici qastrollarda Azərbaycan şairlərinin əsərlərini ifa etməsinə xüsusi diqqət yetirilirdi. Heydər Əliyev ədiblərimizin yubileylərinin dünya miqyasında keçirilməsi təşəbbüsləri ilə də çıxış etmiş, hələ Azərbaycan Sovet İttifaqının daxilində olarkən xalqımızın mədəniyyət vasitəsi ilə beynəlxalq sferada tanıdılmasına müvəffəq olmuşdu.

1973-cü ildə klassik Azərbaycan ədəbiyyatının nümayəndələri arasında ilk dəfə Nəsiminin anadan olmasının 600 illik yubileyi bilavasitə Heydər Əliyevin xidməti sayəsində beynəlxalq humanitar-mədəni təşkilatın – YUNESKO-nun təntənəli tədbirləri planına daxil edildi. Həmin il sentyabrın 22-də Heydər Əliyevin də iştirakı ilə Bakının mərkəzi meydanlarından birində gələcək Nəsimi abidəsinin təməli qoyuldu. Bir neçə il sonra isə yenə də onun iştirakı ilə bu əzəmətli abidənin açılış mərasimi oldu. Şairin 1973-cü ilin payızında keçirilən yubiley tədbirlərində tanınmış sovet şairlərindən N.Tixonov, N.Qribaçov, Maksim Tank, "Kuryer YUNESKO" jurnalının baş redaktoru Sendi Koffler, keçmiş SSRİ xalqları ədəbiyyatlarının bir sıra görkəmli nümayəndələri iştirak edirdilər. Sonralar İraqda Azərbaycan mədəniyyətinin səlahiyyətli nümayəndəsinə çevrilən İraq-türkman şairi Əbdüllətif Bəndəroğlu da ilk dəfə Nəsimi yubileyi zamanı Bakıya gəldi və bundan sonra onun Azərbaycanla artıq 25 ildən çox davam edən əməkdaşlığının bünövrəsi qoyuldu.

Azərbaycan ədəbiyyatının digər klassikləri kimi Nəsimi yubileyinin də ədəbiyyatımıza və mədəniyyətimizə ən böyük töhfəsi yubiley münasibətilə nəşr edilən kitablar oldu. Şairin ana dilli yaradıcılığını bütünlüklə ehtiva edən üç cildlik əsərlərinin elmi-tənqidi mətni mərhum Cahangir Qəhrəmanov tərəfindən hazırlandı və yubiley günlərində çap edildi. Bakıda və Moskvada Nəsimi əsərləri Azərbaycan və rus dillə-

rində çapdan çıxdı. Şairin yaradıcılığının ayrı-ayrı səciyyəvi nümunələri ingilis, fransız, alman və s. dillərə tərcümə olundu. Akademik Həmid Araslının yazdığı "İmadəddin Nəsimi" elmi-kütləvi əsəri də bir sıra aparıcı dünya dillərinə tərcümə edilərək yayınlandı. Xalq şairi Qabilin monumental "Nəsimi" poeması da, milli kinomuzun uğurlarından sayılan "Nəsimi" filmi də 1970-ci illərdə Azərbaycan mədəniyyətindən keçən cazibədar Nəsimi dalğasında yaranmışdı.

Nəhayət, akademik Bəkir Nəbiyevin tərtib etdiyi Nəsimi haqqında məqalələr toplusu (rus dilində) da bu ədəbiyyat bayramının diqqətəlayiq nəticələrindən biri idi [5]. Həmin kitabda Azərbaycan alimlərinin Nəsiminin dövrünə, mühitinə, şəxsiyyətinə, onun təbliğ etdiyi hürufilik dini-fəlsəfi təliminə, şairin əsərlərinin dil və üslub xüsusiyyətlərinə həsr olunmuş məqalələri ilə birlikdə qonşu respublikaların bir sıra tanınmış söz ustalarının Nəsimi ilə, bütövlükdə isə dünya ədəbiyyatı tarixində özünəməxsus yeri olan orta əsrlər Azərbaycan poeziyası ilə bağlı ürək sözləri öz əksini tapmışdı.

1993-cü ildə – Nəsimi yubileyinin keçirilməsindən 20 il sonra, Azərbaycan Elmlər Akademiyasının ziyalıları ilə görüşündə Heydər Əliyev bu tədbirin istər o dövr üçün, istərsə də mədəni inkişafımızın sonrakı dövrləri üçün böyük əhəmiyyətini bir daha vurğulayaraq demişdi: "Yenə də qeyd edirəm ki, tariximiz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq. Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdı! Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir. Mən təkcə şairlər haqda danışmaq istəmirəm. Nəsimi də yalnız şair deyil, həm də alim, filosofdur" [2].

Nəsimi ilə bağlı keçirilən geniş miqyaslı tədbirlər Azərbaycan mədəniyyətinin istər keçmiş SSRİ məkanında, istərsə də onun hüdudlarından kənarda tanıdılması yolunda mühüm vasitə idi. Yubileydə iştirak edən moskvalı şair Lev Ozerov Nəsimini "dünya lirikasının Koperniki" adlandırmışdı [1, səh.44]. Digər respublikaların təmsilçilərinin də xalqımız və ədəbiyyatımız barəsində fikirləri eyni dərəcədə yüksək idi. Ümumiyyətlə, Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərdə Nəsimi təntənələri də daxil olmaqla, Azərbaycan ədəbiyyatı və mədəniyyəti klassiklərinin yubileylərindən qədim ənənələrə malik ədəbiyyatımızın keçmişini və inkişaf yolunu göstərmək üçün çox böyük məharətlə istifadə olunurdu. Bu isə öz növbəsində xalqımıza və mədəniyyətimizə çoxsaylı və nüfuzlu dostlar qazandırırdı. Nəhayət, Nəsimi də daxil olmaqla, klassiklərin irsinin sistemli nəşri və tədqiqi ədəbiyyat tariximizin ardıcıl şəkildə, bütün şəxsiyyətləri və hadisələri ilə birlikdə sistemli olaraq öyrənilməsini və təbliğini təmin edirdi. Bu isə özlüyündə, bütövlükdə Azərbaycan xalqının və hər şeydən öncə, ölkənin gələcəyi olan gənc nəslin milli qürur duyğularının daha yüksək səviyyədə tərbiyə edilməsinə əlverişli şərait yaratmaqla xalqın gələcək mənəvi inkişafını təmin etməyə yardım göstərirdi.

Yeri gəlmişkən qeyd edək ki, klassik Azərbaycan ədəbiyyatına, xüsusən onun ən böyük və fəci nümayəndələrindən biri olan Nəsiminin həyat və yaradıcılığının öyrənilməsinə və təbliğinə bu cür sevgi, sayğı və qayğı Heydər Əliyev məktəbinin ən böyük yetirməsi olan, Heydər Əliyevin istər daxili, istərsə də xarici siyasi kursunun layiqli davamçısı və inkişaf etdirəni, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də yüksək səviyyədə həyata keçirilməkdədir. 2008-ci ilin noyabr ayında Hələb şəhərində Nəsimi yaradıcılığına həsr edilmiş Beynəlxalq elmi konfransın keçirilməsi bu sevginin və qayğının ən bariz təzahürüdür [3].

Bu konfransın faydalı cəhətlərindən biri də o oldu ki, Suriyada daha çox din uğrunda şəhid kimi tanınan Nəsimi, Azərbaycan alimlərinin elmi məruzələrindən sonra həm də böyük bir şair, söz sənətkarı kimi ərəb elmi dairələrinə tanıdıldı, onun yaradıcılığı, poetik irsində özünə yer tapan yüksək humanist fikirlərlə tanış olmaq arzusu ədəbi dairələrdə baş qaldırdı. Düzdür, ona qədər Suriya alimlərindən Qələçinin (çox güman ki, türk əsilli) Nəsimi haqqında ərəb dilində nəşr olunmuş kiçik monoqrafiyasında onun bədii yaradıcılığına da toxunulmuşdu, ancaq aydındır ki, bu, Nəsimi poeziyasının ideya və obraz zənginliyini

təqdim etmək üçün heç də kifayət deyildi. Nəsiminin bir sənətkar və filosof kimi insana bəslədiyi sevgi duyğuları, kamil insan tərbiyə etmək arzuları, şairin öz əsərlərinin örnəyində əyani olaraq dinləyicilərin nəzər-diqqətinə çatdırıldı. Qeyd edildi ki, Nəsiminin humanizmi, insan sevgisi bir çox sufi şairlərində olduğu kimi mücərrəd, mistik xarakter daşımayıb, konkret obyektə – kamil insana yönəlmişdir və böyük şair istər zamandaşlarını, istərsə də özündən sonra gələn nəsilləri bədii sözün qüdrəti ilə məhz bu ruhda tərbiyə etmək istəyir və bununla da özündən öncə yaşayıb yaratmış böyük humanist şair və filosofların mütərəqqi ənənələrini davam və inkişaf etdirir. “Mərhəba, insani-kamil, canımın cananəsi; aləmin cismi sədəfdir, səninisən dürdanəsi?!” – [4, səh. 49] deyən şair antroposentrist fikirlərini bu cür bədii örnəklərin vasitəsi ilə öz oxucularına çatdırmağa nail olmuşdur.

Hələb konfransının bir əlamətdar cəhəti də, Nəsiminin 640 illik yubileyi ərəfəsində keçirilməsi idi. Bu, bir növ, yubiley qabağı elmi qüvvələrin sınağa çəkilməsi, Nəsimi irsi üzərində tədqiqatların səviyyəsinin və perspektivlərinin müəyyənləşməsi oldu. Məlum oldu ki, böyük humanist şairin həyat və yaradıcılığının öyrənilməsi, təbliği və nəşri problemlərinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdə narahatlıq doğurması heç də əsassız deyilmiş. Doğrudur, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə [6] 25 min tirajla çap olunan kitablar arasında Nəsiminin ikicildliyi də artıq nəfis şəkildə işıq üzü görmüşdür.

Ədəbiyyat tariximiz üçün onu da qeyd etmək yerinə düşər ki, Nəsimi irsinin öyrənilməsi, təbliği, Nəsimi mavzoleyinin dünya standartları səviyyəsində təmiri və bərpası haqqında yüksək Prezident təşəbbüsünün irəli sürülməsindən sonra bu yöndə alimlərin üzərinə düşən vəzifələrin icrası baxımından yeni bir canlanma özünü göstərməkdədir.

Artıq qeyd etdik ki, Nəsiminin 600 illik yubileyi Ulu Öndərin səyi və qeyrəti ilə qlobal miqyasda – YUNESKO səviyyəsində keçirilmişdi. Bu mütərəqqi ənənənin davamı olaraq Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 11 yanvar 2019-cu il tarixində böyük şairin 650 illik yubileyi münasibətilə “Azərbaycan Respublikasında 2019-cu ilin “Nəsimi ili” elan edilməsi haqqında” xüsusi Sərəncam imzaladı [7]. Bu sərəncamda da ümummilli liderin nəsimişünaslığa verdiyi töhfə belə vurğulanır: “Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılmışdır” [7].

İlham Əliyevin bu sərəncamından sonra da həm ölkəmizdə, həm də xaricdə Nəsimin əsərləri müxtəlif dillərdə nəşr olundu, onun şəxsiyyəti və irsi ilə bağlı çoxsaylı tədqiqatlar yazıldı, şairin əzəmətli təsvirini əks etdirən möhtəşəm sənət əsərləri yaradıldı, külliyyatını əhatə edən əlyazmalarının surətləri ölkəmizə gətirildi və b. mühüm işlər yerinə yetirildi. Bu isə ulu öndər Heydər Əliyevin mədəniyyətimizə, ədəbiyyatımıza, klassiklərimizə verdiyi önəmin onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin bariz nümunəsidir.

**Ədəbiyyat siyahısı:**

1. İmadəddin Nəsimi (Seyid Əli ibn Seyid Məhəmməd): Biblioqrafiya /Tərt. ed.: M.Vəliyeva, G.Əfəndiyeva, G.Misirova; elmi red. K.Tahirov; ön söz. müəl. T.Kərimli. – Bakı, 2019. – 648 s.
2. Kərimli T., Quliyev V. Dahiyə dirilik bəxş edən Dahi. 525-ci qəzet. – 2019. – 7 mart. – s.4.
3. Mehparə. Bakıda II Beynəlxalq Nəsimi Elmi Konfransı keçirildi. Mədəniyyət. – 2009. – 18 dekabr. – s. 6.
4. Nəsimi İmadəddin. Seçilmiş əsərləri, iki cilddə, II cild, “Lider nəşriyyat”, Bakı – 2004
5. Имадеддин Насими: Сборник статей / АН АзССР, Музей литературы им.Низами; ред.: В.М.Богуславский; сост. Б.А.Набиев. – Баку: Элм, 1973. – 224 с.

6. “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 12 yanvar 2004-cü il. https://e-qanun.az/framework/5427
7. “Azərbaycan Respublikasında 2019-cu ilin “Nəsimi ili” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 11 yanvar 2019, https://president.az/az/articles/view/31507

**Teymur Karimli**

## PROMOTION OF IMADDIN NASIM'S HERITAGE AS AN IMPORTANT PART OF HAYDER ALIYEV'S CULTURAL POLICY

**Summary:** An essential component of national leader Heydar Aliyev's cultural policy was his concern for promoting Azerbaijani literature, both classical and modern literary heritage. The great leader attached great importance to the intensive organization of work not only in the country but also beyond its borders to study the creativity of our writers and introduce their personalities to a broader sphere. For this purpose, special attention was paid to the publication of the works of our classics in various foreign languages, the performances of the plays of our playwrights on the world stage, and the singers performing the works of Azerbaijani poets on foreign tours.

Nasimi's 600th anniversary was held on a global scale – at the UNESCO level, with the efforts and zeal of the Great Leader. As a continuation of this progressive tradition, on January 11, 2019, the President of the Republic of Azerbaijan, Ilham Aliyev signed a special Decree on the declaration of 2019 as the "Year of Nasimi" in the Republic of Azerbaijan on the occasion of the 650th anniversary of the great poet. This is a clear example of the great leader Heydar Aliyev's importance to our culture, literature, and classics, which has been successfully continued by his worthy successor, President Ilham Aliyev.

**Key words:** Heydar Aliyev, Imadedin Nasimi, cultural policy, Nasimi's legacy, Nasimi's anniversary.

**EOS 7.01/.09**

**Alev Çakmakoğlu Kuru**
**Türk Dünyası Uygulama ve Araştırma Merkezi Müdürü, professor**
**E-mail: alevkuru@gazi.edu.tr**

## "BİR MİLLET İKİ DEVLET" SÖZLERİNİN TÜRK SANATINDAKI İZLERİ

**Açar sözlər**: Türk Sanatı, Milli Değerler, Azerbaycan-Türkiye

1991 yılında bağımsızlığını yeniden kazanan Azerbaycan'ı 9 Kasım 1991'de tanıyan ilk ülke Türkiye oldu. Ardından hemen başlayan, giderek güçlenen diplomatik ilişkileri, eğitim, kültür, askeri, ekonomik hemen her alanda ikili anlaşmalar ve iş birlikleri takip etti. Ama Azerbaycan ve Türkiye'de yaşayan Türkler arasındaki bağ, bütün resmi ilişkilerin ötesinde ve üstünde öz kardeşliğin geçmişten günümüze uzanan varlığını taşıdı. Türkiye Cumhuriyetinin kurucusu ve ebedi lideri Gazi Mustafa Kemal Atatürkün 1921 yılında "Azerbaycan'ın sevinci bizim sevincimiz, kederi bizim kederimizdir" sözünün yıllar sonra Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı Haydar Aliyev tarafından 1994 yılında "Bir Millet İki Devlet" olarak ses bulması Azerbaycan Türklerinin ve Türkiye Türklerinin ortak duygu ve düşüncelerinin özlü birer ifadesi odu.

Bu tebliğde farklı coğrafyalarda iki devlet halinde yaşayan Azerbaycan ve Türkiye Türklerinin üzüntü ve sevinçlerinin sanat eserlerine nasıl yansıdığı üzerinde durulacaktır.

**UOT 82-1/-9**

**Gülşən Əliyeva-Kəngərli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,**
**filologiya elmləri doktoru, professor**
**E-mail: gulshan.aliyeva@admiu.edu.az**

## MÖHTƏŞƏM 100 İL VƏ BÜTÜN ZAMANLARIN ƏDƏBİ İRS TƏLİMİ

**Xülasə:** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin möhtəşəm adı və əzəmətli əməlləri tarix bizdən uzaqlaşdıqca daha möhtəşəm tarix başlayır. Onun Azərbaycan naminə gördüyü işlər barəsində cild-cild kitablar yazılıb və zaman keçdikcə bu cildlərin sayı və sanbalı artacaq. Onun dövlətçilik konsepsiyasında, milli mədəniyyət təlimində xalqın misilsiz milli-bədii sərvəti olan ədəbiyyata diqqət və qayğı önəmli yer tutur.

Heydər Əliyevin otuz ildən artıq bir dövrdəki rəhbərlik fəaliyyəti sübut etdi ki, o, Azərbaycanın müdrik fikirlər xəzinəsi olan ədəbiyyatını nəinki yüksək səviyyədə doğru-dürüst qiymətləndirir, həm də bu milli sərvətə güvənir, ona arxalanır. Heydər Əliyev ədəbiyyata bütöv Azərbaycan və ümumtürk kontekstində yanaşırdı. Bu mənada iki cəhətə diqqəti cəlb etmək istəyirik. Sovet rejiminin, totalitar ideologiyanın kəshakəs vaxtı – 1981-ci ildə Heydər Əliyevin böyük səyi və cəsarəti sayəsində Azərbaycan yazıçılarının VI qurultayının gündəliyinə Cənubi Azərbaycanda ədəbi proses haqqında ayrıca məruzə daxil edilmişdi. Bunun nəticəsi olaraq Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı üzrə katib ştatı, Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda isə “Cənubi Azərbaycan ədəbiyyatı” şöbəsi yaradıldı. Xalq yazıçısı, akademik M.İbrahimovun rəhbərlik etdiyi bu şöbə az vaxtda dörd cildlik “Cənubi Azərbaycan ədəbiyyatı antologiyası”nı hazırlayıb çap etdirdi. Bu, təkcə ədəbi-tarixi əhəmiyyətli bir fakt deyil, bütöv Azərbaycan naminə irəli atılmış böyük siyasi addım, vətənpərvərlik nümunəsi, taleyüklü məsələyə əsl rəhbər münasibəti idi. Tarixin və ideoloji təzyiqlərin bütün dönəmlərində Heydər Əliyev Azərbaycan ədəbiyyatını, xalqın malik olduğu zəngin, çoxşaxəli mədəniyyəti ümumşərq, ümummüsəlman və ümumtürk kontekstindən ayırmamış, ona genetik və mənəvi vəhdətdə nəzər salmışdır. O, 1996-cı ildə Bakıda türk dünyası yazıçılarının III qurultayında inam və iftixarla deyirdi: “Qədim dövrlərdə “Dədə Qorqud”, “Manas”, “Alpamış”, “Koroğlu” dastanları, xalqlarımızın hamısına mənsub olan şairlərimiz, yazıçılarımız – Nizami, Yunus Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtumqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, onu dünyada tanıdan ölməz əsərlər yaratmışlar...”.

**Açar sözlər:** Heydər Əliyev, bədii ədəbiyyat, ədəbiyyat siyasəti, azərbaycançılıq fəlsəfəsi

2023-cü il Azərbaycan tarixinə prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə “Heydər Əliyev ili” kimi daxil oldu. Bu il tarix içində tarixdir – Heydər Əliyevin anadan olmasının 100 illiyi tarixi. Ulu öndər öz tarixini yaratmışdır. Tarix bizdən uzaqlaşdıqca Heydər Əliyev bizə yaxınlaşır. Dahilər də uca dağlar kimidir. Uzaqdan daha əzəmətli görünür.

Dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çox möhtəşəm nəzəri irsi içərisində onun ədəbiyyat konsepsiyası əsas yerlərdən birini tutur. O, ədəbi-mədəni irsə öz dövlət siyasətinin tərkib hissəsi kimi yanaşırdı. Heydər Əliyev ən qədim çağlardan bəri xalqın yaratdığı hər nə varsa, bundan dövlətçilik mənafeləri baxımından uğurla istifadə edirdi. Xüsusilə, hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra dövlət və xalq arasında etibar və etimad körpüsünü, inam dayaqlarını yaradıcı ziyalılar vasitəsilə qururdu. O, əvvəllər də belə idi. Nəinki 1969-cu ildə Azərbaycan SSR-in rəhbəri təyin olunduqdan sonra, habelə ondan da əvvəl – DTK-nın rəhbəri olduğu dövrdə Azərbaycan ədəbiyyatı ilə dərindən maraqlanır, klassik bədii əsərlərimizi oxuyur və mühafizə edirdi.

Heydər Əliyev üçün ədəbiyyat özündə milli-mənəvi dəyərləri hifz edən zəngin xəzinə, xalq həyatının və xalq taleyinin ensiklopediyası idi. Ona görə də Heydər Əliyevin ədəbiyyat konsepsiyası çoxcəhətli bir təlimdir. Hələ sovet dönəmində məhz onun nüfuzu, səyi və təşəbbüsü sayəsində bir qrup yazıçıya keçmiş SSRİ-nin ən böyük mükafatı – Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. S.Rüstəm, R.Rza, S.Rəhimov, M.İbrahimov bu adın sahibi olan sovet ədəbiyyatı klassikləri idi. Məhz onun təşəbbüsü və rəhbərliyi ilə Bakıda C.Cabbarlı, İ.Nəsimi, H.Cavid, N.Nərimanov kimi ədəbi şəxsiyyətlərə monumental heykəllər ucaldıldı.

Heydər Əliyevin ədəbiyyat siyasəti onun ümumdövlət siyasətinin əsas inkişaf istiqamətlərindən biridir. Ulu öndərin ədəbi-nəzəri görüşlərini aşağıdakı əsas istiqamətlər üzrə təsnif etmək olar:

1. Bədii ədəbiyyat (və dil) Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin ideya zəmini və məxəzi kimi;
2. Heydər Əliyev və çağdaş ədəbi proses;
3. Heydər Əliyev və folklor (epos təfəkkürü);
4. Heydər Əliyev və klassik bədii irs.

Azərbaycançılıq – Azərbaycanı yüksəltmək, dünyada tanıtmaq və onun əbədiliyini qorumaqdır ki, Heydər Əliyev bütün ömrünü bu müqəddəs və ali məqsədə həsr etmişdir. Bu yolda o, bədii ədəbiyyatımızın böyük imkanlarına əzmlə güvənirdi: “Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim hissiyyatlar oyatmağa çalışmışlar, milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan gəlir”. Beləliklə də, Heydər Əliyevin azərbaycançılıq konsepsiyası çoxəsrlik Azərbaycan ədəbiyyatının bədii-fəlsəfi əsasları zəminində bərqərar olurdu.

Qeyd etməliyik ki, ümumiyyətlə, Azərbaycanın fəlsəfi fikri daha çox bədii ədəbiyyatın bətnində formalaşıb. “Avesta”, “Kitabi-Dədə Qorqud” abidələri, Xaqani, Nizami, Nəsimi, Füzuli, M.F.Axundzadə və s. kimi şəxsiyyətlər təkcə böyük yazıçılar deyil, eyni zamanda böyük filosoflar idi. XI əsrin böyük ədəbiyyatşünası, şərhçilik məktəbinin banisi Xətib Təbrizi öz araşdırmalarını ümumən ərəbdilli poeziya üzərində qururdu ki, bura Azərbaycan şairləri də daxil idi. Ümumiyyətlə, klassik Şərq ədəbiyyatına yanaşmada belə bir prinsip nəzərə alınmalıdır: bir var ərəb poeziyası, bir də var ərəbdilli poeziya. Məsələn, Məvali şairlərin əksəriyyəti azərbaycanlılar idi. Eyni mülahizəni fars poeziyası və farsdilli poeziya barəsində də söyləmək olar. Məsələn, farsdilli poeziyanın zirvəsi Nizami Gəncəvi azərbaycanlı idi…

Artıq qeyd etdik ki, Heydər Əliyevin təkcə dilə və ədəbiyyata yox, ümumən ictimai və humanitar elmlərə müraciət və münasibətinin təməl daşında milli dövlətçilik təlimi olan azərbaycançılıq ideologiyası dayanırdı. O, Dünya azərbaycanlılarının I qurultayındakı (10 noyabr 2001) məşhur nitqində demişdir: “Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyət onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, zəngin milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq” [3, s.162]. Beləcə, Heydər Əliyevin ədəbiyyat konsepsiyası və mədəniyyət nəzəriyyəsi, onun ana dili haqqındakı baxışları da məhz azərbaycançılıq fəlsəfəsi kontekstində daha aydın dərk olunur. “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli Prezident fərmanında belə yazılıb:

“Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, qayğı ilə əhatə etməlidir.

Bu onun vətəndaşlıq vəzifəsidir. Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir” [3, s.166-167].

Heydər Əliyev təkcə bütövlükdə ədəbiyyata, ədəbi-bədii irsə deyil, müasiri olduğu hər bir istedadlı sənətkara bir azərbaycançı kimi, sənətkar və vətəndaş kimi baxırdı. Onun XX əsrin yazıçıları haqqında fikirlərini oxuyanda XIX əsrin böyük rus şairi, “Sovremennik”in baş redaktoru Nekrasovun məşhur kəlamı yada düşür: “Sən şair olmaya bilərsən, lakin vətəndaş olmağa borclusan”. Vətəndaş və yazıçı! Heydər Əliyevin müasir ədəbi proses konsepsiyasında bu müddəa başlıca yer tutur. Yalnız M.Araz kimi “bir qayaya söykənmişəm, deyirəm kaş // bax beləcə daşa dönəm yavaş-yavaş” deyən, yaxud “Vətən daşı olmayandan // olmaz ölkə vətəndaşı” çağırışı ilə ədəbiyyat cəbhəsinə atılan şairlər təkcə ədəbiyyata yox, həm də xalqa, millətə, tarixə və dövlətçiliyə xidmət göstərə bilər.

Hələ hakimiyyətə gəldiyi ilk dövrlərdə – Azərbaycan yazıçılarının V qurultayındakı nitqində (5 iyun 1972-ci il) o, böyük ruh yüksəkliyi ilə deyirdi: “…respublikanın nailiyyətlərində yazıçılarımızın da xidməti böyükdür” [1, s.23] O, yazıçıların əməyini, dövlətçilikdə və ümumən cəmiyyətdə rolunu yüksək qiymətləndirməklə bərabər, həm də prinsipial mövqedən nöqsanları da tənqid edirdi. Qurultaydakı nitqində üzbəsurət demişdi: “Azərbaycan Yazıçılar İttifaqında yaradıcılıq məsələlərinin müzakirəsi bəzən ümumi xarakter daşıyır, lazımi dərəcədə konkret olmur. Bəzən yoldaşlar «münasibətləri korlamaqdan» ehtiyat edərək əsərə açıq qiymət verməkdən çəkinir və prinsipsizlik mövqeyinə enirlər. Ədəbi tənqidimiz bəzən lazımi yüksəklikdə olmur, ayrı-ayrı əsərlərin ciddi nöqsanları, ideya-bədii qüsurları haqqında öz rəyini cəsarətlə ifadə etmir” [1, s.23]. Bu elə bir dövr idi ki, elə həmin il Sov. İKP MK-nın məşhur “Ədəbi-bədii tənqid haqqında” qərarı qəbul olundu, hər yerdə ədəbi tənqidin problemləri, metodoloji zəifliyi təhlil predmetinə çevrildi. Heydər Əliyevin uzaqgörənliklə söylədiyi fikirlər ədəbi tənqid haqqında qərarda söylənilənlərlə üst-üstə düşürdü.

Heydər Əliyev ədəbiyyata, sənətkar şəxsiyyətinə tarixilik kontekstində yanaşan, bədii fikrin tarixi-fəlsəfi qüdrətini hər şeydən üstün tutan şəxsiyyət idi. 1975-ci ildə Azərbaycanda sovet ədəbiyyatı günlərində söylədiyi məşhur nitqində demişdi: “Tarixin bir-birinə qovuşdurduğu əsrlər bir çox xalqların oğul və qızlarını məhəbbətlə tərənnüm edən Nizami dühasının ölməz əsərlərini, Füzulinin insanpərvərlik və xeyirxahlıq dolu misralarını, Nəsiminin fəlsəfi fikirlə zəngin lirikasını, Xaqaninin məhəbbət və iztirab tərənnüm edən poemalarını, Vidadi və Vaqifin xalq yaradıcılığı çeşməsindən qidalanan ölməz şeirlərini bizə gətirib çatdırmışdır. Tarix tələbkar ittihamçıdır. Hökmdarlar, saray əyanları, zülmkarlar unudulub getmişlər. Azərbaycanın böyük mütəfəkkir və humanist şairlərinin təravətdən düşməyən misraları isə bu gün də öz hikməti və insanpərvərlik ruhu ilə dünyanı heyran qoyur” [1, s. 71].

Ədəbi-tarixi prosesə belə baxış, heç şübhəsiz ki, konseptual xarakter daşıyır və böyük perspektivlərə malikdir. Əlbəttə, Heydər Əliyevin ədəbiyyat və mədəniyyətlə bağlı bütün məruzə və çıxışlarının özünəməxsus orijinal, dəyərli cəhətləri var. Bununla yanaşı, biz belə hesab edirik ki, Azərbaycan yazıçılarının VII qurultayında (12 iyun 1981-ci il) söylədiyi geniş və parlaq nitq onun ədəbiyyat haqqında proqram əsəridir. Burada ədəbiyyatın cəmiyyətdə və tarixdə rolu, sözün tarixilik və müasirlik imkanları kontekstində yazıçı taleyi problemləri nəzərdən keçirilir. Bu nitqdəki (əslində sanballı məruzədir!) bəzi tezislərə nəzər salmadan Heydər Əliyevin ədəbiyyat konsepsiyasını düzgün şərh etmək olmaz. Məsələn: “Müasir Azərbaycan ədəbiyyatında cərəyan edən proseslər mühüm və diqqətəlayiq proseslərdir: onlar özləri ilə yenilik gətirir. Bədii söz sənətkarlarının gerçəkliyi daha dolğun əhatə etməyə, həyatı daha dolğun şəkildə təsvir etməyə, adamlar və zaman haqqında həqiqəti bərbəzəksiz deməyə səy göstərdiklərini xüsusilə nəzərə çarpdırmaq istəyirəm….

Cəmiyyətin mənəvi tələbatının artması, ədəbiyyatın milyon-milyon adama ideya-mənəvi və estetik təsiri imkanlarının genişlənməsi dövrümüzün mühüm əlamətidir. Beləliklə, bədii sözün siyasi, ictimai siqləti artır…

Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır. Əvvəlki nəsillərin istedadı və əməyi ilə yaradılmış bütün sərvətləri mənimsəmədən… müvəffəqiyyətlə irəli

getmək olmaz. Tarix ən qüdrətli və təsirli tərbiyə vasitələrindən, şüurları və həyat mövqelərini formalaşdırmaq vasitələrindən biridir…”.

Açıq demək lazımdır ki, Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir. Etiraf etməliyik ki, xüsusilə bu sonuncu iraddan sonra həm romançılıqda, həm dramaturgiyada, həm də kino sənətində tarixi mövzulara maraq intensiv surətdə gücləndi. Həm də Heydər Əliyev bu fikirdə idi ki, hər yazıçını tarixi mövzuya yaxın buraxmaq olmaz. Yalnız istedadlı, tarix qarşısında məsuliyyəti bütün ciddiliyi ilə duyan, tarixi həqiqətləri əks etdirən, bədii və peşəkarlıq imkanlarına malik yazıçılar tarixi mövzuda uğurlu əsər yazmağa müvəffəq ola bilərlər. Heydər Əliyevin ədəbi proses təlimində ədəbi tənqidin yeri dəqiq qeyd olunur: “Müasir ədəbi-bədii prosesi tənqidçilərin, ədəbiyyatşünasların fəal və faydalı işi olmadan təsəvvür etmək mümkün deyildir... İctimai, bədii-estetik zövqləri formalaşdırmaq, incəsənətdə sönüklüyə, durğunluğa, xalturaya, yabançı baxışlara qarşı mübarizə aparmaq işində ədəbiyyatşünasların və tənqidin rolunu gücləndirmək lazımdır. Tənqidi sözün nüfuzu bir çox cəhətdən tənqidin obyektivliyi ilə, qərəzsizliyi ilə müəyyən olunur. Xeyirxahlıqla yanaşı ciddiyyət, professional tələbkarlıq – ədəbi tənqid məhz belə olmalıdır” [1, s.147].

Artıq qeyd etdik ki, Heydər Əliyev müasiri olan sənətkarlarla görüşür, onları müstəqil dövlətimizin orden və medalları ilə təltif edir, eyni zamanda müxtəlif yubileylər münasibəti ilə keçirdiyi tədbirlərdə onların ədəbi-tarixi prosesdəki mövqeyini, xidmətlərini səlis mühakimələrlə dəyərləndirirdi. Bəzi faktları ulu öndərin mənalı deyimlərini qeyd etməklə xatırlayaq. Məsələn, 6 oktyabr 1993-cü ildə Məmməd Araza 60 illiyi münasibəti ilə “Qırx ildən çoxdur ki, dərin fəlsəfi lirikanız çağdaş Azərbaycan poeziyasını zənginləşdirməkdədir”, xalq yazıçısı İlyas Əfəndiyevə 80 illiyi münasibəti ilə (25 may 1994-cü il) “Dünya mədəniyyətinə ölməz dühalar bəxş etmiş qədim Odlar Diyarında xalqın məhəbbətini qazanmaq, sənət zirvəsinə ucalmaq olduqca çətin və şərəflidir. Siz fədakar əməyiniz sayəsində bu şərəfə nail olmuşsunuz”, xalq yazıçısı İsmayıl Şıxlıya 75 illiyi münasibəti ilə (4 iyul 1994-cü il) “Siz istetdadlı yazıçı, müdrik və mahir pedaqoq, mübariz vətəndaş kimi xalqın qəlbində əbədi məskən salmışsınız” söyləmişdi.

Heydər Əliyev 16 aprel 1995-ci il tarixdə Məmməd Arazın yaradıcılıq gecəsində geniş məzmunlu çıxış edərək, bütövlükdə ədəbi yaradıcılığa dərin qiymət verib. “İstiqlal şairi” adı ilə çap olunmuş bu çıxışda oxuyuruq: “Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Xəlil Rzanın – bu üç şəxsin adını mən fərəhlə çəkirəm. Dünən mən üç fərman vermişəm. Bildiyiniz kimi, müstəqil Azərbaycanın ən yüksək ordeni “İstiqlal” ordenidir. İndiyə qədər bu ordenlə heç bir vətəndaş, heç kəs təltif olunmayıbdır. Dünən isə mən fərman verərək Bəxtiyar Vahabzadəni, Məmməd Arazı, mərhum Xəlil Rzanı “İstiqlal” ordeni ilə təltif etmişəm. Bu bir təsadüf, … mənim tərəfimdən birdən qəbul olunmuş qərar deyil. Bu haqda mən çox düşünmüşəm” [1, s.250]. Heydər Əliyev adı çəkilən şairlərə öz əsərlərində hələ sovet dönəmində, xüsusilə 60-cı illərdə istiqlalçılıq ideyaları, milli-mənəvi özünüdərk tərənnüm etdiklərinə görə böyük qiymət verirdi.

O, yazıçıları həm də müasirliyinə görə qiymətləndirirdi. Maqsud İbrahimbəyovun 60 illiyinə həsr olunmuş mərasimdə “Xalqımızın tarixində ən görkəmli yeri mədəniyyət, ədəbiyyat tutur” adı ilə çap olunmuş nitqində (14 may 1995-ci il) M.İbrahimbəyovun müasir bir yazıçı kimi ədəbi-ictimai qiymətini verərək yazıçılıq fenomeni haqqında demişdir: “Bilirsiniz, yaradıcılığa bir peşə kimi baxmaq olmaz. Yaradıcılıq fitri istedadla bağlıdır. Şair olmaq, musiqiçi olmaq – bunları oxumaqla öyrənmək olmaz. Mən bilirəm ki, Maqsud da, Rüstəm də ədəbiyyat institutunu bitirməyiblər. Bunlar ikisi də mühəndis olub. Ancaq fitri istedadlarına görə yazıçılıq yoluna, ədəbiyyat, mədəniyyət, incəsənət yoluna düşüblər…” [1, s.263].

Əlbəttə, bu fikir artıq marksist fəlsəfədən xeyli uzaq, bədii yaradıcılığın vergi olduğunu təsdiq edən mötəbər bir qənaətdir. Həqiqətən də şairlik ixtisası, yazıçılıq peşəsi yoxdur. Şairlik istedadı var, vəssalam.

Heydər Əliyev xalq şairi Nəbi Xəzriyə anadan olmasının 70 illiyi ilə əlaqədar (17 dekabr 1995-ci

il) təbrikində yazmışdır: "Sizin bəşəri duyğuları vəsf edən şeir və poemalarınız, xalqımızın qəhrəmanlıq tarixini tərənnüm edən səhnə əsərləriniz insanlarda ruh yüksəkliyi və gələcəyə sarsılmaz inam doğurur. Tükənməz ilhamla yaratdığınız əsərlərdə həmişə mənəviyyat problemləri ön planda durmuş, yaşadığımız dövrün, zamanın nəbzi duyulmuşdur" [1, s.264].

Ulu öndər 19 dekabr 1995-ci ildə 60 yaşı tamam olmuş Y.Səmədoğlunu "Müasir Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan görkəmli yazıçı", "fitri istedada, yüksək intellektə malik olan bir yazıçı və siyasətçi", milli azadlıq hərəkatının fəal xadimi kimi qiymətləndirir.

Ədəbi ictimaiyyətə yaxşı məlumdur ki, şair Qabil öz duzlu-məzəli söhbətləri, gözəl poeziyası ilə təkcə oxucuların yox, bir çox müasirlərinin, o cümlədən ümummilli lider Heydər Əliyevin rəğbət və hörmətini qazanmış sənətkar idi. 7 yanvar 1997-ci ildə Qabilin yubiley gecəsində söylədiyi "Müasir poeziyamızın görkəmli nümayəndəsi" adlı nitqində Heydər Əliyev səmimiyyətlə demişdir: "Mən bu yubiley gecəsinə təkcə Qabilə hörmət naminə gəlməmişəm. Buraya həm də incəsənətimizlə, ədəbiyyatımızla, şeirimizlə görüşmək üçün gəlmişəm. O vaxt mən Qabilə dedim ki, sən əsl kişisən. Bu elə belə söz deyil. Bu mənim əvvəlki dövrdə, qurultaylarda, müxtəlif tədbirlərdə yazıçılarla görüşlərimdə müşahidələrimin nəticəsi idi və beynimdə Qabil haqqında toplanmış bir fikir idi" [1, s.355].

Çox dəyərli bir faktı da qeyd etməklə ulu öndər və ədəbi-tarixi proses məsələsinə yekun vurmaq istəyirik. Heydər Əliyev 1997-ci il sentyabrın 20-də türk dünyasının böyük alimi İhsan Doğramacı ilə birlikdə xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" tamaşasına baxmış və tamaşadan sonra çıxış etmişdir. "Çox dəyərli, xalqımız üçün lazımi əsər" adı ilə çap olunan bu çıxış öz müasirliyi və tarixiliyi ilə onun irsində diqqətəlayiq yer tutur. Ümummilli lider səmimi-qəlbdən demişdi: "Bu gün siz çox gözəl bir əsər təqdim etdiniz. Mən sizi bu əsər, bu tamaşanız münasibəti ilə təbrik edirəm. Çox dəyərli və bu gün xalqımız üçün lazımi əsərdir. Şübhəsiz ki, biz bu gün ilk növbədə bu əsərin müəllifini – böyük yazıçımız, dramaturqumuz İlyas Əfəndiyevin xidmətlərini qeyd etməliyik, onun xatirəsini yad etməliyik. Mən bu gün İlyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük bir irs, böyük sərvətlər qoyub getmişdir. Güman edirəm ki, bunu xalqımız heç vaxt unutmayacaqdır" [1, s.368-369].

Biz belə hesab edirik ki, bu dəyərləndirmə kamil bir metodoloji başlanğıc kimi xalq yazıçısı İ.Əfəndiyev haqqında yazılacaq monoqrafiya və dissertasiyaların nəzəri əsasında dayanmalıdır. Həqiqətən də, İ.Əfəndiyev yarım əsrlik böyük və bütöv bir epoxa idi – yeni üslublu nəsr, yeni formalı milli teatr epoxası…

Yaşı bilinməyən, tarixi bəlli olmayan çoxəsrlik şifahi xalq yaradıcılığı, folklor örnəklərimiz, epos təfəkkürümüz haqqında fikirlər, onların təsiri və tədqiqi ilə bağlı problemlər Heydər Əliyevin ədəbi-nəzəri görüşlərində mühüm yer tutur. Folklorşünas-alim M.Qasımlı Heydər Əliyevin folklora münasibətinin xarakterini "Kitabi-Dədə Qorqud" eposunun timsalında tarixi-metodoloji baxımdan doğru açıqlayaraq yazır: "Ümummilli liderimiz Heydər Əliyevin mədəniyyətimizin tarixi köklərinə, o cümlədən də folklor qaynaqlarımıza həssas, diqqətcil münasibəti "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı fikir və mülahizələrində də özünü əyani şəkildə göstərir. Ulu öndərin "milli varlığımızın mötəbər qaynağı" adlandırdığı "Kitabi-Dədə Qorqud" eposuna böyük ehtiram və məhəbbətlə yanaşması təbii bir qanunauyğunluqdan doğurdu: bu möhtəşəm folklor abidəsində öz inikasını tapmış milli-mənəvi dəyərlər xalqımızın tarixi kimliyini qürurverici bir görüntü ilə əks etdirdiyindən müstəqil Azərbaycan dövlətçiliyi baxımından dünəni, bu günü və sabahı çevrələyən bütün zamanlar üçün böyük siyasi-ideoloji əhəmiyyətə malikdir" [2, s.79].

Fikrimizcə, bu çox doğru qənaətdir. İkinci cəhəti də biz belə qeyd edərdik: Heydər Əliyev "Kitabi-Dədə Qorqud"a, "Manas"a yalnız epos təfəkkürümüzü əks etdirən folklor abidəsi kimi baxmır, bəlkə də daha çox dünya türklərini kök və mənəvi cəhətdən birləşdirən tarixi təməl daşı kimi dəyərləndirirdi. O, təkcə müştərək dastanlarımıza deyil, məsələn, dahi şair M.Füzuliyə də bu yöndən yanaşırdı. O, 2 noyabr

1994-cü ildə Türkiyə Böyük Millət Məclisindəki çıxışında demişdi: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi türk dünyası parçalanmış olduğu bir halda türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətinin (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq, bu günlərə gətirib çıxarmışdır" [2, s.92]. Bu, danılmaz bir həqiqətdir.

Rumi, Füzuli, Nəvai kimi klassiklər bütün türklərə məxsusdur, hər bir türk övladının, hər bir türk qövmünün klassik sənətkarıdır. Eləcə də, "Kitabi-Dədə Qorqud", "Manas", "Koroğlu" və s. kimi monumental eposlar məhz belə ədəbi abidələrdir. "Eposun əsas mahiyyətini qəhrəmanlıq ideologiyası təşkil edir" – deyən Heydər Əliyev "Kitabi-Dədə Qorqud" həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir" nəticəsinə gəlir. Bu kontekstdə Heydər Əliyevin bir konseptual mülahizəsi ümumən irsə münasibətin tarixi-ideoloji düsturu səviyyəsində maraq doğurur: "Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir" [4, s.6].

Belə mədəni irsin parlaq nümunələrini yaradanlardan Aşıq Ələsgərin 150 illiyinin (1972), Aşıq Alının 180 illiyinin (1981) keçirilməsi, onların əsərlərinin çap olunub xalqa çatdırılması Heydər Əliyevin aşıq sənətimizə, folklor irsimizə olan qayğısının misilsiz təzahürü idi.

Epos mədəniyyətinin türk xalqlarının vahid kökü üstündə təşəkkül tapdığını Heydər Əliyev bir də 28 avqust 1995-ci ildə Bişkekdə "Manas" dastanının 1000 illik yubiley təntənələrində çıxışında inamla qeyd etmişdir: "Manas" dastanın 1000 illik yubileyi qırğız xalqının böyük tarixini dünyaya bir daha nümayiş etdirir. Qardaş qırğız xalqı "Manas" dastanının qoyduğu yolla gedir. Min il, əsrlərdən-əsrlərə böyük yol keçmiş "Manas"ın dahi fikirləri, dahi sözləri bu yolu daim işıqlandırmışdır. "Manas" qırğız xalqının müdrikliyinin rəmzidir, zəkasının, qəhrəmanlığının, cəsarətinin rəmzidir. "Manas" qırğız xalqının daim vətənpərvər olduğunu, azadlıqsevər, ədalətsevər olduğunu bütün dünyaya nümayiş etdirir. "Manas" qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, islam dünyasının böyük mənəvi sərvətidir. "Manas", eyni zamanda, Azərbaycan xalqına məxsusdur, Azərbaycan xalqının da mənəvi, mədəni sərvətidir. Manas bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır… "Manas"ın dili bizim hamımızın dilidir" [4, s.17-18].

Bu mülahizələr türk dastan mədəniyyətinə, dünya epos düşüncəsinə yanaşmanın ən düzgün yoludur. Türkün siyasi birliyinə, turançılığın hələ mümkün olmadığı bir dövrdə türkün mədəni birliyinə nail olmaq türkçülüyün əsas qayəsidir. Türk mənəvi birliyi tarixi zərurətdir. Bu da həm epos mədəniyyətimizdə, həm folklorun digər janrlarında, həm də ana dilli – türkdilli klassik ədəbiyyatımızda əsas bədii-fəlsəfi ideya kimi yüksək poetik formalarda öz ifadəsini tapır.

## Ədəbiyyat siyahısı:


1. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, Ozan, 1999. – 200 s.
2. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı, Bakı, Şərq-Qərb, 2009. – 320 s.
3. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002. – 274 s.
4. Apoyev B. Heydər Əliyev və Nizami Gəncəvi / B. Apoyev; elmi red. M.İ.Yusifov; Gəncə Dövlət Universiteti. – Bakı: Şərq-Qərb, 2020. – 232 s.
5. Abdulla K. Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud" dastanı / Abdulla K. ADA Universiteti. – Bakı: Şərq-Qərb, 2020. – 283 s.

6. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan filologiyası" mövzusunda respublika elmi konfransının materialları: Bakı, 22 may 2020-ci il / H.A.Əsgərov, S.H.Orucova, S.Ə.Abdullayeva [et al.]; Bakı Dövlət Universiteti. – Bakı: BDU nəşriyyatı, 2021. – 748 s

7. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin azərbaycançılıq ideologiyası filoloji fikir kontekstində" mövzusunda respublika elmi konfransının materialları: Bakı, 17 may 2021-ci il / E. Məmmədov, S. Orucova, R. Quliyeva [et al.]; Bakı Dövlət Universiteti. – Bakı: BDU nəşriyyatı, 2021 –520 s.

8. Paşayev Q. Xilaskarlar / Q.M.Paşayev; red. N.Q.Cəfərov; ön sözün müəl. İ.Ə.Həbibbəyli; AMEA Nizami adına Ədəbiyyat İnstitutu. – Bakı: Təhsil, 2021. – 136 s.

9. Cəfərov N. Sözümüzün Ali Baş Komandanı: seçilmiş məqalələr / N.Q.Cəfərov; red. D.Osmanlı; Azərbaycanda Atatürk Mərkəzi. – Bakı: Elm və təhsil, 2021. – 200 s.

**Gulshan Aliyeva-Kangarli**

## MAGNIFICENT CENTURY AND THE LESSON ON LITERARY HERITAGE OF ALL TIMES

**Summary:** Exceptional merits and enormous contributions of the National Leader of Azerbaijan Heydar Aliyev increased in value and significance with the passing of time. Many books have been written about the work of Heydar Aliyev who dedicated his entire life to the development of Azerbaijan and the number will surely grow in the future. Literature which is considered as the cultural heritage occupies a significant place in his concept of statehood and national-cultural vision. During his leadership activities that lasted over 30 year,s he did not only paid great significance to literature that is deemed as the treasure that contains wise and mature ideas but also relied on this example of national value.

Heydar Aliyev's approach to literature was based on the idea of the entof ire Azerbaijan and all Turks. It is worth mentioning two significant aspects. Due to his efforts and courage, in 1981, during the period of the Soviet regime and totalitarian ideology, a separate report on the literary process in South Azerbaijan was included in the agenda of the 6th congress of Azerbaijani writers. As a result, a secretary position on South Azerbaijani literature was created in the Union of Writers, and a "Literature of South Azerbaijan" department was established in the Nizami Institute of Literature of the National Academy of Sciences. The department, headed by the honoured writer, academician M. Ibrahimov, prepared and published the four-volume "Anthology of South Azerbaijani Literature" in a short time. This was not only a significant literary and historical development, but a great political step taken for the sake of the entire Azerbaijan, an example of true patriand otism, leadership attitude to a fateful issue. During a period of historical and ideological pressures, Heydar Aliyev did not allow the literature, rich culture, and heritage of Azerbaijan to be separated from the concepts and principles of Pan-Easternism, Pan-Islamism and Pan-Turkism and based his vision on the idea of genetic and spiritual unity. During his speech at the III Congress of Turkic World Writers held in Baku in 1996 he proudly mentioned the following: "Back in ancient times, the epic tales of "Dade Gorgud", "Manas", "Alpamysh", "Koroglu", our great poets and writers - Nizami, Yunis Emre, Alisher Navoiy, Fuzuli, Nasimi, Mahtymguly, Abay and others created immortal works that reflect the history and moral values of our people and make them known throughout the world...".

**Key words:** Heydar Aliyev, fiction writing, literature policy, Azerbaijani philosophy

**UOT 82**

**Asif Rüstəmli**
**AMEA-nın Ədəbiyyat İnstitutu**
**filologiya elmləri doktoru, professor**
**E-mail: asifr.@mail.ru**

# CƏFƏR CABBARLI YARADICILIĞI ULU ÖNDƏRİN DƏYƏRLƏNDİRMƏ MÜSTƏVİSİNDƏ

**"Cəfər Cabbarlı mədəniyyətimizin, ədəbiyyatımızın böyük, dahi insanlarından biridir"**
**Heydər Əliyev**

**Xülasə:** Məqalədə ümummilli lider Heydər Əliyevin Cəfər Cabbarlının yaradıcılığına olan marağı araşdırılır və faktlar sistematik şəkildə təqdim edilir.

Ümummilli lider Heydər Əliyev Cəfər Cabbarlının bədii yaradıcılığının yerini, mövqeyini, əhəmiyyətini, ədəbi prosesdə təsirini yüksək qiymətləndirmişdir. O, Cəfər Cabbarlının dramaturgiya və ədəbiyyatın inkişafında böyük əməyi olduğunu bildirib. Ulu öndər dramaturq yaradıcılığını, onun milli identifikasiyanın inkişafındakı rolunu yüksək qiymətləndirir.

**Açar sözlər:** Ulu öndər, Heydər Əliyev, böyük dramaturq, Cəfər Cabbarlı. "Sevil"

Ümummilli lider, ulu öndər, dövlətçiliyimizin müəllimi və memarı Heydər Əliyev hələ yeniyetməlik, gənclik illərindən bədii yaradıcılığın bütün sahələrinə dərin maraq göstərmiş, parlaq istedadı, tükənməz zəhməti sayəsində hər kəsə nəsib olmayan unudulmaz uğurlara imza atmışdır. O, bədii ədəbiyyatı, teatrı, rəssamlığı, memarlığı çox sevirdi, bəzən də, coşub çağlayan təbini, istedadını bu yaradıcılıq sahəsində sınaqdan keçirməkdən zövq alırdı. Ötən əsrin 30-cu illərində Naxçıvan Pedaqoji Texnikumunda Heydər Əliyevlə eyni kursda təhsil alan Səfərəli Babayev sonralar xatırlayırdı: "...Heydər Əliyev texnikumda təşkil edilən bütün tədbirlərdə fəal iştirak edirdi. O, səhnəyə çıxıb gur səslə, aydın tələfüzlə şeirlər söyləyəndə tələbə və müəllimlərlə ağzınadək dolu olan zal sükuta qərq olurdu. Ümumnaxçıvan tədbirlərinə nümayəndə göndərmək lazım olanda qiraət ustası Heydər Əliyevi göndərirdilər, o da texnikumu layiqincə təmsil edirdi" (1, 67).

Gənc Heydər Əliyevin ədəbiyyata, mədəniyyətə, incəsənətə olan sarsılmaz sevgisi, bu yaradıcılıq sahələri ilə sıx mənəvi tellərlə bağlılığı şübhəsiz ki, hələ onun gənclik vaxtlarında, ötən əsrin 30-cu illərində Naxçıvanın qaynar ədəbi-mədəni mühitindən qaynaqladırdı. Bu dövrdə o, Mirzə Fətəli Axundzadənin dramaturgiyası, Cəlil Məmmədquluzadənin "Ölülər"i, "Molla Nəsrəddin"i, Hüseyn Cavidin fəlsəfi poeziyası, rus, türk və dünya ədəbiyyatı ilə dərindən tanış idi. Akademik Aqil Əliyev qardaşının gənclik illərində ədəbiyyata, teatra vurğunluğunu xatırlayaraq yazırdı: "30-cu illərdə Naxçıvanda klassik əsərlər səhnələşdirilirdi – Şekspirin "Otello" və "Hamlet", Şillerin "Qaçaqlar", Qoqolun "Müfəttiş" və s. əsərlər. Azərbaycan dramaturgiyasına gəlincə, Cəlil Məmmədquluzadənin əsərləri ilə yanaşı, gənclərin beyinlərinə və əhval-ruhiyyələrinə istedadlı dramaturq Cəfər Cabbarlının pyeslərinin qəhrəmanları da güclü təsir göstərirdi. Onun Sevil və Almaz, Aydın və Oqtay surətləri yeni dünyanın adamları, yeni həyatın yaradıcıları idi. Gənclər onlara oxşamağa çalışır, cəmiyyətin yeniləşməsi və dəyişməsi prosesində onlar kimi inamla, fədakarlıqla iştirak etmək istəyirdilər. Gənc Heydər üçün Sevil obrazı – özünün şəxsiyyət azadlığı hüququnu axıradək müdafiə edən, ailədəki ətalətə, geriliyə qarşı qiyam qaldıran, açıqcasına qəti etiraz bildirərək yüksələn qadın surəti olduqca cazibədar idi. Heç də təsadüfi deyil ki, C.Cabbarlının pyesindəki sevimli qəhrəmanı ilə tanışlıqdan 20 il keçəndən sonra cavan, xoşbəxt ata (Heydər Əliyev – A.R.) öz ilkinin adını Sevil qoymuşdur"(2, 75).

İstinad edilən sitatda vurğulandığı kimi ümummilli lider Heydər Əliyev klassik və çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri sırasında böyük dramaturqumuz, şair, nasir, tərcüməçi, teatrşünas, kinossenarist, əməkdar incəsənət xadimi Cəfər Cabbarlının yaradıcılığı ilə hələ gənclik illərindən, həyatının Naxçıvan dövründən tanış olmuş, ictimai-siyasi fəaliyyətinin sonrakı dönəmlərində də, görkəmli sənətkarın əsərlərini təqdir, təhlil etmiş və yüksək dəyərləndirmişdir. Böyük sənətkarın "Aydın", "Almaz", "Yaşar", "Od gəlini", "1905-ci ildə" və digər pyeslərini milli teatr tariximizin parlaq səhifələri adlandıran ulu öndər Azərbaycan Dövlət Dram Teatrının 100 illiyi münasibətilə 1974-cü ilin may ayında təntənəli yığıncaqda söylədiyi nitqdə C.Cabbarlının "Sevil" əsəri haqqında akademik Aqil Əliyevin xatırlatdığı kimi böyük məhəbbətlə müşahidələrini, təəssüratlarını teatrsevərlərin diqqətinə çatdırırdı: "Azərbaycan qadınının azadlığı uğrunda mübarizədə Cəfər Cabbarlının "Sevil" pyesi görkəmli rol oynamışdır. Cabbarlı dramaturgiyasının bədii təsiri, artistlərin və quruluşçuların məharəti o qədər güclü idi ki, səhnə ilə tamaşa salonu arasındakı hədd sanki aradan qalxmışdı. "Sevil" pyesinin tamaşalarında əsərin qəhrəmanı mənfur çadranı, bu "səyyar həbsxananı" başından çıxarıb atanda tamaşa salonundakı qadınların bir çoxu yerindən qalxır və keçmişin bu mənhus mirasını tullayırdı"(3).

Əsərin tamaşaçı şüuruna bədii-psixoloji təsir gücündən, teatrın canlı, emosional qüdrətindən obrazlı deyim tərzi, yeni metaforalar, poetik təfəkkür ilə söz açılması ümummilli liderin uzaqgörən ədəbi-bədii düşüncəsindən, mövzuya peşəkar bələdliliyindən və publisistik səriştəsindən xəbər verir. Azərbaycan teatrının 100 illik yubileyində Heydər Əliyev görkəmli dramaturqun ilk dəfə ədəbiyyatımızdakı yeri, mövqeyi, bədii yaradıcılığının əhəmiyyəti, ədəbi prosesə təsirini yüksək səviyyədə dəyərləndirərək demişdi: "Cəfər Cabbarlının yaradıcılığı dramaturgiyamızın, ədəbiyyatımızın daha da inkişaf etdirilməsinə çox böyük təsir göstərmişdir. Cabbarlı həm Azərbaycan ...dramaturgiyasının, həm də Azərbaycan ...teatrının beşiyi başında durmuşdur. Bizim həyatımız Cəfər Cabbarlı üçün zəngin mövzu mənbəyi idi, o bu həyatdan təkcə yeni ideyalar, süjetlər, konfliktlər deyil, həm də təsvir vasitələri əxz edirdi" (4, 44).

Bu dəyərli düşüncələr bəlkə də ilk dəfə Cəfər Cabbarlı yaradıcılığına ulu öndərin dövlət səviyyəsində verilən qiymət idi. Dövlət başçısı 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəldikdən sonra respublikada ədəbiyyata, mədəniyyətə diqqət və qayğı artırılmış, ölkədə bu sahə üzrə konfranslar, müşavirələr, seminarlar, ongünlüklər davamlı prosesə çevrilmişdir. Xüsusilə ictimai-siyasi sahədə ümummilli liderin zaman sıxlığına baxmayaraq o ədəbiyyatla, mədəniyyətlə bağlı respublika tədbirlərinə həmişə vaxt ayırmış, mötəbər məclislərdə məruzə edərək zaman və sənətkar məsələlərinə, mövzu və qəhrəman problemlərinə açıq, müdrik münasibətini bildirmişdir. Onun 1981-ci ilin iyun ayında keçirilən Azərbaycan Yazıçılarının VII qurultayında "Ədəbiyyatın yüksək borcu və amalı" sərlövhəli geniş, əhatəli və dolğun nitqi məramın aydınlığı, milli məfkurəyə xidmət, mənəvi dəyərlərə ehtiram, yazar əməyinə qayğı hissi aşıladığına görə bu gün də öz aktuallığını, müasirliyini qoruyub saxlayır. Yazıçıların VII qurultayında köklü ədəbi problemlərə toxunan Heydər Əliyev görkəmli dramaturqun "Yeni forma yeni məzmun tələb edir" adlı məşhur məruzəsinə əsaslanaraq demişdir: "Sovet Yazıçılarının birinci Ümumittifaq qurultayında görkəmli Azərbaycan yazıçısı və dramaturqu Cəfər Cabbarlının bu barədə dediyi sözləri yada salaq: "...Hər bir şairin, yazıçının və dramaturqun ən böyük məziyyətlərindən biri onun mövzu seçməyi bacarmasıdır. Yazıçının seçdiyi mövzu onu ilhama gətirməli, onun gördüklərini, duyduqlarını, dövrünün ondan tələb etdiklərini, başqalarının hələ müşahidə etmədiklərini və ya müşahidə edərək bu barədə danışa bilmədikləri şeyləri oxucuya söyləmək imkanı yaratmalıdır. Dövrün ictimai sifarişi adlanan şey budur".

Biz yazıçılardan ən mürəkkəb problemlərin dərindən araşdırılmasını gözləyirik. Adamlarda elmi dünyagörüşün, mənəvi keyfiyyətlərin formalaşması, həyat tərzi prinsipləri və normalarının təsbit olunması kimi problemlərin həllini arzulayırıq" (5, 142).

Cəfər Cabbarlının yaradıcılığında, Heydər Əliyevin ədəbi-siyasi düşüncələrində milli-ədəbi dil məsələlərinin biri-digərini ehtiva etməsi, ictimai gündəmə gətirilməsi, yazıçılar üçün ən gərəkli amil kimi qabardılması milli özünüdərkin başlıca şərti olaraq müstəsna əhəmiyyət kəsb edir. XX əsrin əvvəllərində C.Cabbarlı elə bil gənc həmkarlarına üzünü tutub yazırdı: "Dilimizdə olan ən kobud və yaraşıqsız söz, ən gözəl yabançı kəlmələrdən əziz tutulmalıdır." XX yüzilliyin sonuna yaxın Heydər Əliyev Azərbaycan ədəbiyyatının, mədəniyyətinin görkəmli nümayəndələrinə yazıçıların VII qurultayında müraciət edərək vurğulayırdı: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir" (5, 158).

Böyük öndərin bu düşüncələri söz ustalarına, qələm əhlinə ünvanlananda dövlət müstəqilliyinin bərpasına hələ 20 il var idi. Azərbaycan dilinin zənginləşməsində, istifadə miqyasının genişlənməsində, dövlət dili kimi statusunun möhkəmlənməsində Heydər Əliyevin xidmətləri danılmazdır. O, natiqlik məharəti, dəqiq məntiqi, nurlu zəkası, heyrətamiz yaddaşı, müdrikliyi və mövzuya dərindən bələdliyi ilə ana dilimizin, nitq mədəniyyətimizin ən gözəl nümunələrini yaratmışdır. Hakimiyyətdə olduğu bütün zamanlarda Azərbaycan dilinə üstünlük verən, bu dili Avropa ölkələrinin və beynəlxalq təşkilatların rəsmi məclislərində səsləndirən, ölkədəki yüksək çinli məmurları Azərbaycan dilində danışmağa məcbur edən, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzalayan Heydər Əliyev gənclərə üz tutaraq onlara dönə-dönə tapşırırdı: "...Öz ana dilimizi, Azərbaycan dilini mənimsəmək lazımdır, bu dildə yaxşı danışmaq lazımdır, bu dili ana dili kimi daim duymaq lazımdır, bu dili sevmək lazımdır. Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini də yaxşı bilməz" (5, 376). Onun qəti qənaətinə görə "Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən, xalq, millət ola bilməz" (5, 486). Ümummilli lider dünənə, keçmişə nəzər salaraq müsbət meylləri düzgün qiymətləndirir, hətta əsarət altında, imperiya tərkibində olanda da dilin zənginləşməsində aparıcı amilləri açıq nişan verir və yüksək qiymətləndirirdi. O deyirdi: "Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zaman da, sovet imperiyasının tərkibində olduğumuz zaman da biz bu dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik. Bu, xalqımızın, xüsusən bizim söz ustalarının, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin ən böyük nailiyyətidir" (5, 486).

Heydər Əliyev hələ siyasi hakimiyyətə ilk gəlişindən sonra Azərbaycan dilinin məişət səviyyəsindən dövlət statusu səviyyəsinədək yüksəldilməsində müstəsna xidmətlər göstərdi. Bu müqəddəs işin intişar tapmasında o özü dövlət məmurlarına nümunə olurdu. 1972-ci ildə Azərbaycan yazıçılarının V qurultayında ölkə rəhbərinin doğma ana dilimizdə nitqini ən qocaman ədib və şairlər belə təəccüb və heyrətlə qarşıladılar. Azərbaycan sovetləşəndən sonra hakim dilin rus dili olduğu bir dövrdə dövlət başçısının yazıçıların ali orqanı olan qurultayında ana dilimizdə məruzə etməsini ilk ədəbi-mədəni hadisə adlandırmaq olar. Bu, əslində milli mədəniyyətin, ədəbiyyatın və dilin inkişafı üçün start verilməsinin bariz əlaməti idi. Dilimizin kasıblığına eyham vuraraq özgə, yabançı dillərdə danışanlara, yaradıcılıqla məşğul olanlara cavab ünvanlayan ümummilli lider deyirdi: "Azərbaycanda mövcud olan Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş dildir, böyük söz ehtiyatına malik dildir" (5, 487).

Ümummilli lider Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, lüğət fondunun zənginləşməsində yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidmətlərini həmişə yüksək qiymətləndirirdi. Heydər Əliyevin siyasi hakimiyyəti dövründə Azərbaycanda ən çox şairə, yazıçıya, elm və mədəniyyət xadimlərinə monumental abidələr ucaldılıb, yubiley mərasimləri böyük təntənə ilə qeyd olunubdur. Şübhəsiz ki, onlardan biri də Cəfər Cabbarlıdır.

Azərbaycanda ən möhtəşəm, monumental heykəl, əzəmətli abidə 1982-ci ilin mart ayında C.Cabbarlıya ucaldıldı. Heykəlin açılışında çıxış edən Heydər Əliyev dramaturqun yaradıcılığını yüksək qiymətləndirərək dedi: "Azərbaycan xalqına dirçəliş və səadət gətirən baharın bu gözəl çağında biz sovet mədəniyyətinin görkəmli xadimi Cəfər Cabbarlının abidəsini açırıq. Cəfər Cabbarlı tarixdə misli

görünməmiş müzəffər ictimai ədalət cəmiyyətinin təşəkkül tapdığı, dramatik vəziyyətlərlə dolu olan çox mürəkkəb bir dövrdə ədəbiyyata gəlmişdir. Yeni həyatın təsdiqi uğrunda şiddətli sinfi mübarizədə Cabbarlı yaradıcılığı qədim Azərbaycan torpağının yeniləşməsinin, çiçəklənməsinin parlaq rəmzi oldu... Şair, nasir və dramaturq Cabbarlının yaradıcılığı çoxşaxəlidir. Onun gördüyü işlər sözün əsl mənasında, yorulmaz əmək fədaisinin hünəridir. O, müasir Azərbaycan dramaturgiyasının bünövrəsini qoymuşdur, bu dramaturgiyanın inkişafının əsas istiqamətlərini müəyyən etmişdir. Azərbaycan xalqının və Sovet ölkəsindəki bir çox başqa xalqların teatr mədəniyyətini zənginləşdirən qiymətli töhfələr vermişdir. Bizim bütün müasir dram sənətimiz müəyyən mənada Cabbarlı teatrının bəhrəsidir. Mirzə Fətəli Axundovun və Cəlil Məmmədquluzadənin böyük ənənələrini inkişaf etdirib zənginləşdirən Cabbarlı teatr yaradıcılığının həqiqi novatoru olmuş, Azərbaycan səhnəsində bu gün də gözəl səmərə verən yeni ənənələrin əsasını qoymuşdur.

Azərbaycan kino sənətinin təşəkkülü, o illərin dram və opera səhnələrinin ən yaxşı tamaşaları, parlaq publisistika və dərin professional teatr tənqidi Cabbarlının adı ilə bağlıdır” (6).

Ulu öndər 15 il sonra Cəfər Cabbarlının abidəsi ilə bağlı xatirələrini dilə gətirəcək, bütöv qranitin Ukrainadan tapılması və gətirilməsi ilə bağlı problemin necə çözülməsindən söz açacaqdı. Diqqətə çatdıracaqdı ki, “O vaxt mən bunu etdim və öz həyatımda gördüyüm çoxsaylı işlərin ən dəyərlilərindən biri hesab edirəm. Cəfər Cabbarlı 1934-cü ildə vəfat etmişdir. Mən bunu bir dəfə demişəm, - Azərbaycan ədəbiyyatının, Azərbaycan milli şüurunun inkişafında onun nə qədər böyük xidmətləri olubdur! Onun yaratdığı əsərlər neçə-neçə nəsilləri tərbiyə edib və yüksəldibdir. Bunu hamımız bilirik. Onun yaşadığı binada ev muzeyini 1982-ci ildə biz yaratdıq. Mən bu işlərlə fəxr edirəm” (4, 234).

Heydər Əliyev sözün, sənətkarın qədrini bilən, onu dəyərləndirən dövlət xadimi idi. Şairlər, yazıçılar onu özlərinin ən yaxın dostu, pasibanı hesab edirdilər. 1982-ci ildə respublikadan getdikdən sonra ədəbi-mədəni mühitdə bir süstlük, durğunluq özünü büruzə verməyə başladı.

Bu sətirlərin müəllifinin yaxşı yadındadır. Böyük dramaturq Cəfər Cabbarlının 80 illik yubiley təntənələrini görənlər üçün 90 illik yubileyi 1991-ci il martın 22-də M.F.Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrında çox sönük keçirdi. Hətta, salonun orta hissələrində yerlərin xeyli hissəsi boş idi. Cabbarlı ailəsi Heydər Əliyevin Bakıda olduğunu bildiyi üçün onu yubiley tədbirinə dəvət etmişdi. Yubiley tədbirinin rəsmi hissəsi başlandıqdan xeyli sonra yanında qara dəri gödəkçəli, orta boylu, tökmə bədənli bir nəfərlə (çox güman ki, bu şəxs Bəylər Əyyubov idi - A.R.) gözlənilmədən Heydər Əliyev zala daxil oldu və mənə yaxın sırada boş yerlərdən birində əyləşdi. Salonda xəfif bir pıçıltı sürətlə yayıldı: «Heydər Əliyev gəldi». Yubiley mərasiminin rəsmi hissəsi bitib bədii hissəyə qədər fasilə elan edildikdən sonra mən Heydər müəllimə yaxınlaşıb onu salamladım. C.Cabbarlının çox möhtəşəm heykəlini ucaltdığını, ev muzeyini yaratdığını, təntənəli yubiley mərasimi keçirdiyini minnətdarlıqla yada salaraq ədibin 90 illik yubileyi münasibətilə naməlum və çap olunmayan əsərlərindən ibarət «Ədirnə fəthi» adlı toplu tərtib etdiyimi və üç ildi nəşriyyatda yatıb qaldığını vurğuladım. O, axırıncı məsələyə dərhal reaksiya verərək soruşdu ki, yaxşı, kitab indiyədək nə üçün çap olunmayıbdır?! Mən fikrimi belə əsaslandırmağa çalışdım ki, indiki rəhbərliyin Azərbaycan mədəniyyətinə, Cəfər Cabbarlı irsinə soyuq münasibətinin nəticəsidir. Foyedə isə bizi Cəfər Cabbarlı ev muzeyinin əməkdaşları əhatəyə aldı. Heydər Əliyev böyük sənətkarın qızı Gülarə Cabbarlı ilə çox mehribanlıqla görüşdü, həmin anlardan xatirə olaraq şəkil çəkdirdik. 1994-cü il dekabrın 28-də Cəlil Məmmədquluzadənin ev muzeyinin açılışında Gülarə xanım həmin şəkli dövlət başçısı Heydər Əliyevə təqdim etdi. Prezident şəkilə baxdı və o ağır günləri yada salaraq dedi: “O vaxt sizin vəziyyətiniz mənimkindən yaxşı idi”.

Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı ilə klassik ədəbi irsə, çağdaş ədəbi prosesə, yaradıcı insanlara, böyük sənətkarlara, milli mənəviyyat incilərinə, ədəbiyyatımıza və mədəniyyətimizə münasibət dəyişdi, ılıx bahar nəsimi müstəqilliyini yeni bərpa etmiş, istiqlalına qovuşmuş insanların ictimai-sosial həyatında təbəssüm yaratdı. Qədim və milli ənənələrlə zəngin olan Novruz bayramı dövlət səviyyəsində təntənəli keçirilməyə başladı. Uzun illər təmir adı ilə bağlanan teatrlar qapılarını

tamaşaçıların üzünə taybatay açdı. Musiqili Komediya Teatrının yeni binasının açılışı oldu. "Sevil" operası uğurla tamaşaya qoyuldu. C.Cabbarlının anadan olmasının 100 illiyi ilə əlaqədar Prezident Heydər Əliyev sərəncam imzaladı. Yubiley tədbirləri çərçivəsində böyük sənətkarın "Aydın" pyesi prezidentin ad günü ərəfəsində 2000-ci il 7 may tarixində Azərbaycan Akademik Milli Dram Teatrında tamaşaya qoyuldu. Həmin gün bu sətirlərin müəllifinin toplayıb tərtib etdiyi Heydər Əliyevin "Nəcib mənəvi ideallarıın tərənnümü" (Bakı, "Ozan", 2000, səh. 468) adlı kitabının siqnal nüsxəsi hazır idi. "Aydın" tamaşanın rejissoru, xalq artisti Mikayıl Mirzə kitabı Prezident Heydər Əliyevə təqdim edərək dedi: "Əziz Perzidentimiz. Bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur. Bu, ürəkdən gələn sözdür. Siz bizə həmişə sevinc bəxş etmisiniz. Siz tamaşaya gəlməklə teatrımıza, bizim boynumuza böyük minnət qoydunuz. Sizi bir daha ürəkdən təbrik edirik. Sizə cansağlığı arzu edirik və mən bu gül dəstələrinin üzərinə Azərbaycanın bütün güllərini qoyaraq Sizə ərmağan edirəm. Ədəbiyyat və incəsənət xadimləri ilə görüşləriniz barədə bu toplunu mən tamaşaçıların qarşısında Sizə təqdim edirəm. Bu toplunu Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu buraxmışdır. Bu, siqnal nüsxəsidir, iki saat bundan əvvəl çap edilmişdir. Tamaşaçıların adından mən bu kitabı Sizə bağışlayıram. Kitabın müəllifi (tərtibçisi – A.R.) böyük elmi işçi Asif Rüstəmlidir. Özü buradadır. Bu kitaba görə ona eşq olsun. Bu kitabı teatr kollektivi, incəsənət işçiləri adından Sizə bağışlayıram" (7).

"Cəfər Cabbarlı mədəniyyətimizin, ədəbiyyatımızın böyük, dahi insanlarından biridir" – deyən Prezident Heydər Əliyev həm "Aydın" tamaşasını, həm də yaradıcı kollektivin ifasını müqayisəli təhlil edərək yüksək dəyərləndirmiş, görkəmli dramaturqun ölməz əsərlərinin yeni səhnə həyatını bəyəndiyini bildirmişdir.

Ümummilli liderimizin qədirşünaslıqla qeyd etdiyi kimi Cəfər Cabbarlı Azərbaycan ədəbiyyatının, mədəniyyətinin təkamülünə, mənəvi sərvətlərimizin zənginliyinə milli şüurun təşəkkülünə, vətənpərvərlik duyğularının oyanışına, dilimizin saflığına, azadlıq və istiqlal məfkurəsinin intişarına misilsiz xidmətlər göstərmiş milli sənətkardır. Onun adının əbədiləşdirilməsi istiqamətində görülən titanik işlərdə – möhtəşəm abidəsinin ucaldılmasında, ev muzeyinin yaradılmasında, əsərlərinin tamaşaya qoyulması, nəşri, tədqiqi və təbliği sahəsində ümummilli lider Heydər Əliyevin dəyərləndirmələri, diqqət və qayğısı unudulmazdır.

**Ədəbiyyat siyahısı:**


1. Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. Баку, 2004, ст.67
2. Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. Bakı, "Ozan", 2007, səh. 352
3. Heydər Əliyev. İncəsənət bayramı. Bakı, "Ədəbiyyat və incəsənət" qəzeti, 1974, 2 iyun
4. Heydər Əliyev. Nəcib mənəvi ideallarıın tərənnümü (toplayanı və tərtib edəni A.Rüstəmli), Bakı, "Ozan", 2000, səh. 44 (468).
5. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (toplayanı və elmi redaktoru A.Rüstəmli), Bakı, "Ozan", 2000, səh. 142 (548).
6. Heydər Əliyev. Xalqlar dostluğu və qardaşlığının carçısı. Bakı, "Ədəbiyyat və incəsənət" qəzeti, 1982, 26 mart
7. Azərbaycan Akademik Milli Dram Teatrında "Aydin" pyesinin yeni quruluşda tamaşası. "Xalq" qəzeti, 2000-ci il, 9 may, №103 (23468)

**Asif Rustamli**

# CREATIVITY OF JAFAR JABARLY IN THE VALUATION OF THE NATIONAL LEADER HEYDAR ALIYEV

**Summary:** İn the scientific article is investigated national leader Heydar Aliyev interest from his youth in Jafar Jabbarly´s works. His dramatic works were in his field of vision. The object of this article is systematically studying these facts.

The national leader Heydar Aliyev for the first time in literature highly appreciated the place, position, importance of artistic creativity of Jafar Jabbarly and his influence in the literary process. He said that Jafar Jabbarly had a great part on the development of drama and literature. The great leader highly appreciates the dramatist creativity and its role on the development of national identification.

**Key words:** The national leader, Heydar Aliyev, great dramatist, Jafar Jabbarly, "Sevil"

EOS 332.2

**Mehmet Yüce**
**Bursa Uludağ Üniversitesi Öğretim Üyesi**
**Prof. Dr.**
**E-mail: myuce@uludag.edu.tr**

# AZERBAYCAN - TÜRKİYE İLİŞKİLERİNİN GELİŞİMİNDE HAYDAR ALİYEV'İN ROLÜ

## I. GENEL ANLAMDA TÜRKİYE-AZERBAYCAN İLİŞKİLERİ

Tarihsel süreç için Azerbaycan, Türkiye açısından hep öncellikli konumda olmuştur. Gerek Safevi devleti döneminde gerek Hanlıklar döneminde gerekse Azerbaycan Halk Cumhuriyeti döneminde Azerbaycan'ın Osmanlı Devleti ile ilişkileri hep yoğun bir şekilde devam etmiş ve en zor günlerde bile birbirinin yanında durmayı ve birbirini desteklemeyi bilmişlerdir. Osmanlı devletinin en zor döneminde bile Rus ve Ermenilerin Bakü'yü işgali üzerinde Nuri Paşa Komutasında Kafkas İslam Ordusu göndererek Azerbaycan Halk Cumhuriyeti'nin yanında yer alarak birlikte tarihi bir zafere imza atmışlardır. Azerbaycan Halk Cumhuriyetinin lağvedilerek Azerbaycan SSC kurulması ve Osmanlı Devleti'nin yıkılıp yeni Türk Cumhuriyetinin yeşermesi ile her iki kardeş toplum için yeni bir dönem başlamış olmasına (soğuk savaş döneminde farklı bloklarda yer almalarına rağmen) rağmen iki ülke arasında sınırlı şekilde olsa da bu dönemde ilişkiler devam edegelmiştir. Kardeşlik ilişkileri asla unutmayan Türkiye-Azerbaycan fırsat buldukça kucaklamayı başarmışlardır (Yüce, 2022: 70).

Türk Dünyasına ihtimam ile yaklaşan Atatürk, Azerbaycan'a verdiği önem her zaman dikkat çekici olmuştur. Azerbaycan'a daima büyük sempati ve ilgiyle yaklaşan Atatürk, iki ülke ve halk arasındaki tarihi bağları da dikkate alarak ilişkilerin gelişmesi için azami çaba göstermiştir. Nahçivan'ı "Türk kapısı" olarak adlandıran Atatürk, Kars ve Moskovo antlaşmaları sonucunda Azerbaycan'ın bu arazisinin Ermenistan tarafından işgalini engellemiştir. Burada üzerinde önemli durulması gereken bir konu da Kars Anlaşmasıyla statüsü belirlenen Nahçivan'ın Türkiye ile kara sınırı bulunmaması karşısında Atatürk'ün izlediği politika ile bunu sorunu çözmesidir. Nahçivan'ın Türkiye ile sınırı olmaması Azerbaycan ile Türkiye'nin kara sınırının bulunmaması anlamına gelmekteydi. Bu da Türkiye'nin Nahçivan-Azerbaycan aracılığıyla Türk dünyasına olan bağlantısının kesilmesi anlamına gelmekteydi. Buna razı olmayan Atatürk çok stratejik ve aynı zamanda zor bir adım atarak bu sorunu İran ile hal etme yoluna gitmiş, böylece kesilen bağlantıyı tekrar kurmayı başarmıştır.

SSCB'nin dağılmasında sonra Azerbaycan Parlamentosu, 31 Ağustos 1991'de, ülkenin bağımsızlığını ilan etmiştir. Türkiye, zor şartlar altında yenidünya düzeni içinde yer edinmeye çalışan Azerbaycan'ın bağımsızlığını ilk tanıyan devlet olmuş, Rusya ve İran destekli Ermenistan'ın Karabağ işgali ve Azerbaycan'a saldırması durumunda yine en çok desteği veren ülke olmuştur. Azerbaycan'ın dış politikasında özel bir yere sahip olan Türkiye'nin, aradaki bağlar nedeniyle ülkenin zor dönemlerinde, özellikle de bağımsızlık sonrası süreçte uluslararası kamuoyu oluşturmada büyük yardımları olmuştur. İkinci Karabağ savasında da Türkiye Azerbaycan'a kardeşlik ellini uzatmış ve mevcut imkânlarını kardeş ülke yararına kullanmaya çalışmıştır. Türkiye ile Azerbaycan arasında kurulan ilişkiler ağı iki ülkenin işbirliği alanları artırmış ve stratejik ortaklık düzeyine ulaştırmıştır.

Azerbaycan'ın bağımsızlığına yeniden kavuşmasından bu yana geçen 30 yılı aşkın süreye göz önüne alındığında, iki ülke arasındaki ilişkilerin önemli aşama katettiğini söylenebilir. İki kardeş ülke arasındaki ilişkilerin seyri dört aşamaya ayırarak incelenebilir (Yüce, 2022: 73-74):

İlk aşamada ilişkiler duygu ve ideoloji yoğunluklu olmuştur. İkinci aşamada kişisel ilişkiler ön planda olmuştur. Azerbaycan Devlet Başkanı Haydar Aliyev ile Türkiye Cumhurbaşkanı Süleyman Demirel arasındaki kişisel ilişkiler ikili ilişkilerin esasını teşkil etmiştir. Merhum Cumhurbaşkanı Haydar

Aliyev'in Türkiye ve Azerbaycan için kullandığı "bir millet, iki devlet" sözleri ilişkilerde temel prensip olmuş, ilişkilerin seyri bu ilke çerçevesinde yürümüştür. Üçüncü aşama ise ilişkilerin kurumsallaşması aşamasıdır. Temelleri önceki yönetimler tarafından atılmakla beraber Azerbaycan'da İlham Aliyev, Türkiye'de Recep Tayyip Erdoğan gayretleriyle şekillenen dönemde çok boyutlu işbirliğinin gerçekleştiği dönem olmuştur (Aslanlı, Kurban, 2016:33). Bu döneme damgasını vuran en önemli anlaşma ise doğalgaz anlaşması olmuştur. Şahdeniz 2 yatağından çıkarılan doğal gazın Türkiye ve Avrupa'ya iletilmesini sağlayan, Güney Kafkasya Boru Hattı, Trans Anadolu Doğalgaz Boru Hattı (TANAP) ve Trans-Adriyatik Boru Hattı'ndan (TAP) oluşan Güney Gaz Koridoru inşa edilmesi iki ülke arasındaki ilişkileri stratejik boyuta taşımıştır. Böylece ilişkilerini stratejik müttefiklik üzerinde kuran Türkiye ile Azerbaycan, Bakü-Tiflis-Ceyhan Petrol Boru Hattı, TANAP, Bakü-Tiflis-Kars demir yolu hattı gibi projelere imza atarak ilişkilerini planlanan projelerle güçlendirmişlerdir.

Azerbaycan'ın bağımsızlığına yeniden kavuşmasından bu yana geçen 30 yılı aşkın süreye göz önüne alındığında, iki ülke arasındaki ilişkilerin önemli aşama katettiğini söylenebilir. İki kardeş ülke arasındaki ilişkilerin seyri dört aşamaya ayırarak incelenebilir. İlk aşamada ilişkiler duygu ve ideoloji yoğunluklu olmuştur. İkinci aşamada kişisel ilişkiler ön planda olmuştur. Azerbaycan Devlet Başkanı Haydar Aliyev ile Türkiye Cumhurbaşkanı Süleyman Demirel arasındaki kişisel ilişkiler ikili ilişkilerin esasını teşkil etmiştir. Merhum Cumhurbaşkanı Haydar Aliyev'in Türkiye ve Azerbaycan için kullandığı "bir millet, iki devlet" sözleri ilişkilerde temel prensip olmuş, ilişkilerin seyri bu ilke çerçevesinde yürümüştür. Üçüncü aşama ise ilişkilerin kurumsallaşması aşamasıdır. Temelleri önceki yönetimler tarafından atılmakla beraber Azerbaycan'da İlham Aliyev, Türkiye'de Recep Tayyip Erdoğn gayretleriyle şekillenen dönemde çok boyutlu işbirliğinin gerçekleştiği dönem olmuştur (Aslanlı, Kurban, 2016:33). Bu döneme damgasını vuran en önemli anlaşma ise doğalgaz anlaşması olmuştur. Şahdeniz 2 yatağından çıkarılan doğal gazın Türkiye ve Avrupa'ya iletilmesini sağlayan, Güney Kafkasya Boru Hattı, Trans Anadolu Doğalgaz Boru Hattı (TANAP) ve Trans-Adriyatik Boru Hattı'ndan (TAP) oluşan Güney Gaz Koridoru inşa edilmesi iki ülke arasındaki ilişkileri stratejik boyuta taşımıştır. Böylece ilişkilerini stratejik müttefiklik üzerinde kuran Türkiye ile Azerbaycan, Bakü-Tiflis-Ceyhan Petrol Boru Hattı, TANAP, Bakü-Tiflis-Kars demir yolu hattı gibi projelere imza atarak ilişkilerini planlanan projelerle güçlendirmişlerdir.

Türkiye – Azerbaycan ilişkilerinin dördüncü aşaması ise 44 gün süren 2. Karabağ savaşı ve sonrası dönemdir. Bu dönem Türkiye-Azerbaycan ilişkilerine stratejik derinlik kazanarak iki ülke arasındaki işbirliği düzeyi zirveye taşımıştır. İki ülke ilişkisinde âdete "bir millet, tek devlet gibi hareket eden iki devlet" prensibi hayat bulmuştur. İkinci Karabağ Savaşı sürecinde Türkiye ve Türk halkı Azerbaycan'a en üst düzeyde ve en yüksek sesle siyasi ve manevi destek vermiştir. Cumhurbaşkanı Recep Tayyip Erdoğan'ın "Azerbaycan yalnız değildir.", Dışişleri Bakanı Mevüt Çavuşoğlu'nun "Uluslararası toplum bir şey yapmak istiyorsa Ermenistan'ı derhal Azerbaycan topraklarından çeksin. Azerbaycan isterse destek vermekten çekinmeyiz" şeklindeki açıklamaları, başta Dışişleri Bakanı ve Milli Savunma Bakanı olmak üzere Türkiye'den Azerbaycan'a gerçekleştirilen üst düzey ziyaretler üçüncü güçlerin bu savaşa müdahil olmasını engellemiştir. Zafer sonrası Erdoğan ve Aliyev, 15 Haziran 2021'de Şuşa'da "Şuşa Beyannamesi"ni imzalayarak iki ülke arasındaki ilişkileri daha üst düzeye çıkarmış ve kardeş ülkeleri stratejik müttefik ülke haline getirmiştir.

## II. TÜRKİYE-AZERBAYCAN İLİŞKİLERİNİN GELİŞİMİNDE HAYDAR ALİYEV'İN RÖLÜ

SSCB'nin dağılmasıyla bağımsızlığını yeniden ilan eden Azerbaycan, içinde bulunduğu şartlar ekseninde dönemsel olarak farklı öncelik ve niteliklere sahip bir dış politika izlediği görülmektedir. Doğal olarak Azerbaycan dış politikanın şekillenmesinde dönemin konjonktürel yapısı, siyasi durum, sosyo-ekonomi yapı, küresel ve bölgesel güçlerin izledikleri politikalar gibi birçok unsur rol oynamıştır. Bu ögelerin etkisiyle Azerbaycan bazen Batı eksenli, bazen Rusya eksenli, bazen de Batı ile Rusya arasında

denge kurma esasına dayanan denge politikası izlemiştir. Aslında bu politika sadece Azerbaycan'a özgü olmayıp Post-Sovyet ülkelerinin çoğunda bu yönlü bir dış politika görmek mümkündür. Bağımsızlığın ilk döneminde SSCB sonrası dünya düzeni ile henüz entegre olmayan Azerbaycan, kısa süreli olarak Rusya eksenli bir politika izlenmiştir. Bu belirsiz dönemden sonra dünya ülkeleriyle ve özellikle Batı bloku ile ilişkilerin geliştiren Azerbaycan Rusya karşıtı Batı yanlısı bir politika izlemeye başlamıştır. Ancak Batı'nın bu coğrafyaya yabancı olması ve ülkenin temel sorunlarına karşı bigane davranması tekrar ibrenin Rusya'ya çevrilmesine neden olmuştur. 1993 yılında Haydar Aliyev'in iktidara gelmesiyle Azerbaycan için yeni bir dönem olmuştur. Bu dönemde Azerbaycan, Rusya ile Batı bloku arasında olduğu kadar komşuları ile de denge politikası izlemeye başlamıştır. Bu politika Azerbaycan'ın resmi politikası haline gelmiş ve günümüzde de izlenen temel politika olmuştur. Diğer taraftan Azerbaycan - Türkiye ilişkilerinin kurumsallaşmasında da Haydar Aliyev'in ifade ettiği "bir millet, iki devlet" sözleri temel prensip olmuştur.

Bağımsızlık sonrası Azerbaycan Türkiye ilişkileri 1991–1993 ve 1993 sonrası dönem olarak iki birbirinden farklılık arz eden iki aşamada ele alınabilir. İki kardeş ülke arasında ilk dönemdeki ilişkileri duygusal düzeyde ve idealist bir yaklaşımla gelişmiştir. Güçlü bir uluslararası deneyime sahip olan Haydar Aliyev'in iktidara gelmesiyle Azerbaycan ile Türkiye arasındaki ilişkiler duygusallıktan uzaklaşarak realizme dayalı ve denge esaslı yeniden sistematize edilmiştir. Hem bölgesel gerçekler hem de bölgede etkin olan uluslararası aktörler dikkate alarak, dengeli ilişki kurmaya çaba gösteren Haydar Aliyev'in dış politikası bölgesel ve uluslararası gerçeklere uygun, duygusallıktan ziyade karşılıklı ekonomik, sosyal, kültürel, askeri çıkarlara dayalı ilişkiler üzerine kurulmuştur. Bu nedenle önceki döneme göre Türkçülüğe ve milliyetçiliğe radikal vurguların terk edildiği Aliyev iktidarının ilk zamanlarında Türkiye-Azerbaycan ilişkilerinde soğuk bir dönem yaşanmıştır. Ancak ilerleyen yıllarda Haydar Aliyev ve Süleyman Demirel'in dostluğu iki ülke arasındaki projelerinin gerçekleşmesi açısından büyük rol oynamıştır. Bu dönemde ilişkiler Azerbaycan'ın bağımsızlığının korunması, Karabağ sorunun çözümü, Kafkaslardaki gelişmeler ve ülkelerarası karşılıklı işbirliğini geliştirme hususları üzerinde yoğunlaşmıştır. İki ülke uluslararası camiada birbirini koşulsuz desteklemiş, ekonomik ve ticari ilişkilerde önemli gelişmeler sağlanmış, özellikle BTC Boru Hattı Projesi bu ilişkileri stratejik işbirliğine dönüştürmüştür. 5-8 Mayıs 1997 yılında Aliyev Türkiye'ye resmi ziyarette bulunması esnasında kendisine Türkiye Cumhuriyeti'nin en yüksek ''Devlet nişanı''yla mükâfatlandırılmıştır.

İkinci Karabağ Zaferine giden yolun temel taşlarından biri olan Askeri alanda işbirliğinin gelişimin ivme kazanması da Aliyev iktidarı döneminde gerçekleşmiştir. 10 Haziran 1996'da Türkiye ve Azerbaycan arasında Ankara'da imzalanan "Askeri Eğitim, Teknik ve Bilimsel İşbirliği Antlaşması" iki ülke arasında ileride önemli birçok protokolün yapılması ve strateji işbirliğinin genişletilmesinin önü açmıştır. Böylece Azerbaycan NATO'da en güçlü ordulardan birisine sahip olan Türkiye ile hem NATO çerçevesinde hem de ikili askeri ilişkileri geliştirerek silahlı kuvvetlerini modernize etme imkanı sağlamıştır. Haydar Aliyev döneminde iki ülke arasında yaşanan son gelişmelerden biri de Türk savaş uçakları ve gösteri timinin Bakü'ye yaptığı ziyaret olmuştur. Sonuç olarak günümüzde Türkiye-Azerbaycan arasındaki birçok iş birliği alanının şekillenmesinde Haydar Aliyev döneminde başlatılan projelerin sonucudur.

## Kaynakça:

1. Yüce, Mehmet (2022), Türkiye-Azerbaycan: Kardeşliğin Bayraklara Yansıması, 1. Basım, Bakü: Türk Dünyası Araştırmaları Vakfı, Bakü.
2. Aslanlı, Araz, Kurban, Vefa (2016), "Azerbaycan-Türkiye İlişkileri ve Sivil Toplum Kuruluşları", Marmara Türkiyat Araştırmaları Dergisi, Cilt III, Sayı 1 (Bahar, 2016), ss. 31-43.

EOS 323.2

**Nurcan Baykuş Savaşaneril**
**Dokuz Eylul University, İzmir Vocational School, professor**
**E-mail: nurcan.savasaneril@deu.edu.tr**

# HAYDAR ALİYEV'İN ATATÜRK SEVGİSİ

**ÖZET:** Azerbaycan`da Atatürkçülüğün tanıtılması ve yayılması 1990`lı yılların ortalarından itibaren başlamıştır. Bu dönemin kendine has özelliği Atatürk`ün devlet tecrübesinden bağımsızlığını yeni kazanan Azerbaycan devletinin yararlanması olmuştur. Haydar Aliyev`in Türkiye Cumhuriyeti`nin kurucusu Atatürk`e bakışı yalnız bir büyük devlet önderinin, başka bir büyük devlet liderine yüksek değer vermesi değil, aynı zamanda tarihin yeteri kadar ağır dönemlerinden çıkmış mükemmel bir siyasal-ideolojik tecrübe sisteminin (Atatürkçülüğün) çağdaş dönemin hem lokal (Azerbaycan), hem de küresel talepler açısından değerlendirilmesi gibi de dikkat çekiyor. Bu çalışmada Haydar Aliyev'in Atatürk' e bakış açısı, gerek sözleri ve gerekse devlet politikası açısından incelenecektir.

**Anahtar Kelimeler:** Atatürk, Haydar Aliyev.

**ABSTRACT:** The introduction and spread of Kemalism in Azerbaijan started in the mid-1990s. The peculiarity of this period was the benefit of the newly independent Azerbaijan state from Atatürk's state experience. Heydar Aliyev's view of Atatürk, the founder of the Turkish Republic, is not only that a great state leader gives high value to another great state leader, but also that a perfect system of political-ideological experience (Ataturkism) that has emerged from sufficiently heavy periods of history is both of the contemporary period. It also draws attention as it is evaluated in terms of local (Azerbaijan) and global demands. In this study, Haydar Aliyev's perspective on Atatürk will be examined in terms of both his words and state policy.

**Key words:** Atatürk, Haydar Aliyev.

**UOT 792**

**Məryam Əlizadə**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Əməkdar incəsənət xadimi,**
**Sənətşünaslıq elmləri doktoru, professor**
**E-mail: maryam.a.@mail.ru**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TEATRI

**Xülasə:** Heydər Əliyev teatr sənətinin məna və mahiyyətini, onun insanların qəlbinə, hissinə, əqidəsinə dərin təsirini, tərbiyəvi əhəmiyyətini, ideya-estetik keyfiyyətini dərindən duyurdu, bu sənətin təcrübi və nəzəri əsaslarına yaxşı bələd idi. Ulu öndərin sənət adamlarına hörməti hər zaman hədsiz olub. Azərbaycanın görkəmli sənətkarlarına "SSRİ Xalq artisti", "Sosialist Əməyi Qəhrəmanı" adlarının verilməsinə Heydər Əliyev böyük mənəvi və fiziki qüvvə sərf edib. Bir sözlə o, incəsənət xadimlərinə böyük ehtiram və qayğı ilə yanaşıb.

Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi müddət ərzində keçmiş Sovet İttifaqının ən məşhur teatr kollektivləri ölkəmizə gəlməyə can atırdılar. Bölgələrdə yeni teatrların, Naxçıvanda Hüseyn Cavid, Gəncədə Nizami poeziya teatrlarının yaranması da Heydər Əliyevin sənətə və sənətkara məhəbbətinin, xalqın tarixinə, ədəbiyyatına, incəsənətinə hörmət və ehtiramının, mədəni tərəqqiyə səyinin nəticəsidir. Ümummilli lider Heydər Əliyev ömrünün sonuna qədər Azərbaycan incəsənətinin, o cümlədən Azərbaycan teatrının inkişafı üçün əlindən gələni əsirgəmədi. Onun ölməz ideyaları bu gün də yaşayır, bu gün də bizim yol göstərənimizdir.

**Açar sözlər:** Heydər Əliyev, ümummilli lider, Azərbaycan teatrı, teatr sənəti, teatr-estetik görüşlər, tamaşalar

**"Teatr müqəddəs yerdir! İnsanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə çox böyük rol oynamışdır". Heydər Əliyev [4, s.5]**

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin teatr sənətinə fövqəladə böyük münasibəti var idi. Bu münasibət onun teatr haqqındakı fikirlərində bütün parlaqlığı ilə öz əksini tapıb. O, tamaşaların premyeralarına gələr, tamaşa bitdikdən sonra səhnə arxasına keçər, dramaturqla, rejissorla, rəssamla, ayrı-ayrı aktyorlarla bu sahənin bilicisi kimi söhbət edər, fikirlərini bildirərdi. Ulu öndər ömrünün son günlərinə qədər bu ənənəni davam etdirdi. Heydər Əliyevin teatra hər gəlişi, səhnə arxasında yaradıcı heyətlə görüşləri, söhbətləri, bir qayda olaraq, televiziya vasitəsi ilə xalqa çatdırılırdı. Böyük həvəs, maraq və heyrətlə bu görüşlərə baxırdım. Bu fenomen şəxsiyyətin sənət haqqındakı fikirləri, dramaturqa, rejissora və aktyorlara xoş sözlərlə bərabər, yeri gələndə haqlı iradları o qədər obyektiv, professional səviyyədə tutarlı olurdu ki, mən bir teatrşünas kimi heyranlığımı gizlədə bilmirdim.

Bəli, Heydər Əliyev doğrudan da fenomen bir şəxsiyyət idi. Çox vaxt onu Mustafa Kamal Atatürklə müqayisə edir, onların ruhən bir-birinə yaxın olduqlarını deyirlər. Bu yerdə mən Mustafa Kamal Paşanın bir tamaşadan sonra səhnə arxasına keçib aktyorlarla görüşünü və onu müşayiət edən məmurlara dediyi sözləri xatırladım: "Əfəndilər, onu bilin ki, hər biriniz nazir, millət vəkili, hətta cümhur başqanı da ola bilərsiniz. Amma sənətçi ola bilməzsiniz. Gəlin həyatını bu müqəddəs işə qurban vermiş cocuqları sevək!" [5].

Heydər Əliyev istər Naxçıvanda olduğu, istər DTK orqanlarında çalışdığı, istər Azərbaycana rəhbərlik etdiyi, istər keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu vaxtlarda, istərsə də sonrakı illərdə həmişə, hər yerdə teatra məhrəm olmuş, sənət adamlarına dost münasibəti bəsləmişdi. Baxdığı tamaşadan sonra kollektivlə görüşməyi, fikirlərini bildirməyi, onlara yaradıcılıq müvəffəqiyyətləri arzulamağı özünə borc bilmişdi. Teatrların repertuarlarına ciddi fikir vermiş, klassik əsərlərlə yanaşı, müasir pyesləri də tamaşaya qoymağı məsləhət görmüşdü. Heydər Əliyev teatr sənətinin məna və mahiyyətini, onun insanların qəlbinə, hissinə, əqidəsinə dərin təsirini, tərbiyəvi əhəmiyyətini, ideya-estetik keyfiyyətini dərindən duyurdu, bu sənətin təcrübi və nəzəri əsaslarına yaxşı bələd idi.

Ulu öndərin sənət adamlarına hörməti hər zaman hədsiz olub. Tamaşalara hər gəlişi, fikir söyləməsi teatr kollektivlərini yeni-yeni yaradıcılığa səsləyib. Nəticədə teatrların repertuarları yenilənib, zənginləşib, klassik əsərlərin yozumuna müasir baxış qüvvətlənib. Azərbaycanın görkəmli sənətkarlarına "SSRİ Xalq artisti", "Sosialist Əməyi Qəhrəmanı" adlarının verilməsinə Heydər Əliyev böyük mənəvi və fiziki qüvvə sərf edib. Bir sözlə o, incəsənət xadimlərinə böyük ehtiram və qayğı ilə yanaşıb:

"Mədəniyyət uşaq kimidir. Həmişə tumar və qayğı istəyir. O həssasdır: əlinin tumarı, ürəyinin qayğısı azca azalan kimi hiss edir, küsür, inciyir. Siyasi rəhbər, dövlət xadimi, ölkə başçısı bunu bilməlidir, bir an belə yadından çıxarmamalıdır" [2].

Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi müddət ərzində keçmiş Sovet İttifaqının ən məşhur teatr kollektivləri ölkəmizə gəlməyə can atırdılar. Bir sözlə, ölkənin teatr həyatında əməlli-başlı canlanma baş verirdi.

Bölgələrdə yeni teatrların, Naxçıvanda Hüseyn Cavid, Gəncədə Nizami poeziya teatrlarının yaranması da Heydər Əliyevin sənətə və sənətkara məhəbbətinin, xalqın tarixinə, ədəbiyyatına, incəsənətinə hörmət və ehtiramının, mədəni tərəqqiyə səyinin nəticəsidir.

Gənclik illərindən mədəniyyətə, incəsənətə böyük maraq göstərən Heydər Əliyevdə teatr sənətinə aydın və vicdanlı bir münasibət vardı. O, bu sahədə çalışanlara hörmət və qayğı göstərməklə yanaşı, həm də onları məsuliyyətli olmağa çağırırdı. Teatrdan realist yaradıcılıq, təbiilik tələb etməklə şit, yersiz hərəkətlərə qarşı çıxır, zorla güldürənləri, yaxud süni patetikaya, deklomasiyaçılığa uyanları xoşlamırdı.

1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi münasibətilə Respublika Sarayında (indiki Heydər Əliyev adına sarayda) keçirilən təntənəli yığıncaqda dövlət rəhbərinin teatrımızın tarixi, keçdiyi çətin, mürəkkəb və şərəfli yaradıcılıq yolu haqqında qüdrətli dövlət xadimi, həssas teatrşünas və müdrik siyasətçi baxışı ilə söylədiyi dolğun, mənalı məruzəsi yalnız teatr xadimləri tərəfindən deyil, eyni zamanda teatrı sevən xalqımız tərəfindən də məmnunluqla, heyranlıqla qarşılandı: "Teatr müqəddəs yerdir; tərbiyə ocağıdır. Orada çalışanlar fədakardırlar, fədaidirlər... Teatr xadimləri tamaşaçıya bir söz demək, mədəni səviyyəni yüksəltmək, irəliləyişimizə mane olanlara qarşı mübarizəyə qaldırmaq üçün nə qədər çalışırlar. Heç kim bilmir ki, artist səhnəyə çıxıb rolu tamaşaçı qarşısında oynadığı vaxta kimi nə qədər həyəcan, sevinc keçirir" [6]. Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş Azərbaycan teatrının 100 illik yubileyi respublikamızın həyatında böyük mədəni və siyasi əhəmiyyətli hadisəyə, teatr bayramına çevrildi və yüksək səviyyəli dövlət tədbiri kimi tarixə düşdü.

Heydər Əliyevin geniş erudisiyası, mükəmməl analiz bacarığı və incə bədii-estetik zövqü çox tez bir zamanda onu teatr çevrələrində də danılmaz bir avtoritetə çevirmişdi. Onun baxdığı tamaşalardan sonra yaradıcı heyətlə apardığı söhbətlər aktyor və rejissorlar üçün hər şeydən əvvəl əsl teatral ilə səmərəli ünsiyyət aktına çevrilirdi. Ancaq tamaşadan sonra səhnəyə qalxan və tamaşanın yaradıcı heyəti ilə söhbət edən yalnız dövlət başçısı deyil, ilk növbədə, sənət adamlarının çox sevdiyi, ehtiram bəslədiyi həssas, bilikli və səmimi teatr tamaşaçısı idi. Məhz buna görə, onun "səhnə söhbətləri" həm də Azərbaycan teatr tarixinin faktlarına dönürdü.

Xalq şairi Səməd Vurğunun "İnsan" pyesinin tamaşasına baxıb kollektivlə birgə onun geniş müzakirəsini keçirən Heydər Əliyev tamaşanın hərtərəfli və geniş təhlilini vermişdi. Əsərin o gün üçün əhəmiyyətindən, dramaturji cəhətindən, bədii keyfiyyətlərindən danışdıqdan sonra Mehdi Məmmədovun,

Hökmünə Qurbanovanın ifa tərzindən, sənətkarlıq xüsusiyyətlərindən söz açmış, tamaşa haqqında iradlarını da demişdi. Eləcə də səhnə danışığının Azərbaycan dilinin inkişafındakı rolunu vurğulamışdı; çox sevdiyi aktyor İsmayıl Osmanlıya irad tutub demişdi ki, sənin danışığında məhəlli xarakter hiss olunur, bu yaramaz!

Heydər Əliyevin "səhnə söhbətləri"nə konseptual prizmadan yanaşsaq, burada teatrşünaslığın təməli anlayışlarını aşkarlaya bilərik. Belə ki, Heydər Əliyev pyeslə – tamaşanın ədəbi əsası ilə zaman-məkan sənət növü olan tamaşanın köklü fərqini vurğulayır və əsərin "məzmununu, mənasını" tam dərk etməkdən ötrü onu "yaşamaq" şərtini önə çəkirdi. Səhnə əsərinin özünəməxsus təsir spektrini açıqlayan nitqlərində Heydər Əliyev teatrşünaslıq analizinin təməlində duran əsaslara arxalanırdı. Tamaşanın estetik, psixoloji və mənəvi təsirinin əhəmiyyətini alim dəqiqliyi ilə vurğulayan ulu öndər istənilən tamaşanın başlıca məqsədini – emosional hasilini qeyd edirdi. Tamaşadan həyəcanlanmaq qabiliyyətini ömrü boyu itirməyən ümummilli lider nəinki tarixi şəxsiyyətdir, həm də tarix yaradan şəxsiyyətdir. Görünür elə buna görə də Heydər Əliyev mövzusu zaman-zaman bədii təfəkkürə güclü təsir göstərmiş və göstərməkdədir.

Heydər Əliyev İlyas Əfəndiyevin "Hökmdar və qızı" tamaşasına o vaxt respublikamızda qonaq olan görkəmli alim İhsan Doğramacı ilə birlikdə gəlmişdi. Tamaşadan sonra Heydər Əliyev qonaqla birgə səhnə arxasına gəlib yaradıcı heyəti təbrik etdi. Həmin görüşdə Heydər Əliyev İlyas Əfəndiyev haqqında belə dedi: "İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, sonsuz xidmətlər göstəribdir, dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətləri ilə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o, öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir".

"Qayıdış" adlı sənədli televiziya filmində Heydər Əliyev deyir:

"13-14-15 yaşlarında Naxçıvan Dövlət Teatrının tamaşalarına çox böyük həvəs və maraqla baxırdım. İbrahim Həmzəyevin ifa etdiyi rolların vurğunu idim. Sonralar eşitdim ki, İ.Həmzəyev dram dərnəyi təşkil edib. Mən o dərnəyə yazıldım və həvəslə iştirak etdim.

Mən teatrla gənc yaşlarımdan məşğul olmuşam. Baş rollarda oynamışam, həmişə teatra yaxın və bağlı adam olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdə var" [3].

"Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır" deyən ulu öndər qayğı göstərməklə yanaşı, obyektiv olmağı da qoruyurdu.

Xalq artisti Amaliya Pənahovanın xatirələrində oxuyuruq:

"Azərbaycan Dövlət Akademik Dram Teatrında görkəmli dramaturqumuz İ.Əfəndiyevin "Mahnı dağlarda qaldı" tamaşasının Dövlət mükafatı alması şəxsən H.Əliyevin təşəbbüsü ilə baş tutub. Belə ki, Dövlət mükafatı üzrə komissiya üzvləri bir yerə yığışıb tamaşaya baxa bilməyiblərmiş. Sonra onlar baxmaq istəyəndə Böyük bəy rolunun ifaçısı İsmayıl Dağıstanlı xəstələnir. Tamaşa göstərilmir. Odur ki, dövlət komissiyasının yekun iclasında Heydər Əliyevə təqdim olunan siyahıda "Mahnı dağlarda qaldı" tamaşasının adı olmur. Heydər Əliyev bunun səbəbini soruşduqda komissiya üzvləri bir yerdə tamaşaya baxa bilmədiklərini söyləyiblər. O, üzünü komissiya üzvlərinə tutub deyib: "Mən tamaşanı görmüşəm. Çox bəyənmişəm. Mən tamaşaya baxanda sizin əksəriyyətiniz də teatrda idiniz, tamaşaya baxırdınız. Kim tamaşanı görməyib, yaxud bəyənməyib, qoy sözünü desin". Heç kimin dinmədiyini görən Heydər Əliyev: – Niyə susursunuz? Kim "Mahnı dağlarda qaldı" tamaşasına Dövlət mükafatı verilməsinə razıdırsa, səs versin. Burada adları çəkilən artistlərə etirazınız yoxdursa, gəlin səsə qoyaq". Komissiya üzvləri ayrı-ayrılıqda öz müsbət rəylərini bildirdikdən sonra "Mahnı dağlarda qaldı" tamaşası Azərbaycanın Dövlət mükafatına layiq görülmüş ilk tamaşa oldu".

1981-ci ildə dramaturq İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesinin tamaşasına Azərbaycan KP MK-nın büro üzvləri ilə birlikdə baxan Heydər Əliyev pyesin və tamaşanın orijinal təhlilini vermiş,

ifaçılara öz fikirlərini söyləmişdi: "Siz ilk növbədə bu şairə haqqındakı şayiələrə son qoydunuz. Natəvanı gözəl Azərbaycan qadını kimi bizə təqdim elədiniz, bununla yanaşı, gözəl xan qızının timsalında siyasi baxımdan və onun xan qızına layiq hərəkətləri ilə bizim şərq qadınlarının obrazını yarada bildiniz. Mən buna görə sizə sağ ol deyirəm. Həm də son monoloqunuza görə sağ ol deyirəm" [9]. Son monoloqda iki yerə bölünmüş Azərbaycanın birləşəcəyinə böyük inam səslənirdi.

Sonralar da ayrı-ayrı vaxtlarda Heydər Əliyev Azərbaycan teatrının "Xəyyam", "İblis", "İnsan", "Dəli yığıncağı", "Fərhad və Şirin", "Darıxma, ana", "Şəhərin yay günləri", "Aydın" və s. tamaşalarına baxmış, yaradıcı heyətə öz dəyərli tövsiyələrini vermiş, onları yeni yaradıcılıq uğurlarına ruhlandırmışdı. Onun baxdığı və çox bəyəndiyi son tamaşa isə görkəmli rejissorumuz, Xalq artisti, professor Azər Paşa Nemətovun "Hamlet" tamaşası idi.

Bu məqamda Heydər Əliyevin sənətkarı yeni yaradıcılıq axtarışlarına ruhlandırmaq hünərinə bariz nümunə olan, şahidi olduğum bir hadisəni qeyd etmək yerinə düşər.

Dövlət rəhbərinin Azərbaycan teatrının 100 illik yubileydəki tarixi nitqini söylədiyi zamanda görkəmli rejissor Tofiq Kazımov artıq on il idi ki, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının baş rejissoru idi. Məhz bu məqamda, onun əleyhinə olan bəzi "kəslər" sənətkarın ətrafında yaradıcılıqla bağlı olmayan "işlər" görməyə başladılar. Bu işlərdə səriştəli olan "intriqaçı"lar T.Kazımovu ruhdan salmaq, onu əsəbiləşdirmək, düşünülməmiş, çılğın, emosional addımlar atmağa təhrik etməkdən ötrü xeyli çalışdılar. Bəzi bədxahların məkrli əlləri o vaxtkı hakimiyyətin ali mərtəbələrinə belə çatırdı... T.Kazımovun başının üstünü "qara bulud"lar alırdı. Tədricən yaranan və sənətkarın "gününü qara" edən buludlar bir anın içində parçalandı, havaya sovruldu. T.Kazımovu normal yaradıcı həyata qaytaran ulu öndərimiz Heydər Əliyev oldu. "Şəhərin yay günləri" tamaşasında pərdə axırıncı dəfə bağlanandan sonra Heydər Əliyev adəti üzrə səhnəyə qalxdı: yaradıcı heyət onu alqışlarla qarşıladı, o da cavabında hamıya bir-bir əl çaldı. Yaranmış sükutu pozmağa heç kim cürət etmirdi. Sükutu Heydər Əliyev özü pozdu. Onu müşayiət edən rəsmilərə sarı döndü və konkret olaraq, heç kimə müraciət etmədən uca səslə dedi:

– Bəs deyirdiniz Tofiq Kazımov bir rejissor kimi tükənib?! Mən isə gözəl rejissor işini gördüm.

Birinci katibin bu sözləri sürəkli alqışlar qopartdı. Amma o, əlini qaldırdı və sözünə davam etdi:

– "Şəhərin yay günləri" çox lazımlı, aktual olmaqla yanaşı, əsl bədii əsərdir. Hamınızı təbrik edirəm [1].

Beləliklə, "Şəhərin yay günləri" pyesinin tamaşasına baxdıqdan sonra yaradıcı heyətlə görüşən ölkə rəhbəri Anarın bu pyesini və tamaşanı yüksək qiymətləndirmiş, psixoloji realizm üslubunda yazılmış, ali məktəbə qəbul məsələsinə toxunan, rüşvətxorluğu, əliəyriliyi kəskin tənqid edən bu əsərin əhəmiyyətini vurğulamışdı.

1998-ci il oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Dövlət Musiqili Komediya Teatrının (indiki Akademik Musiqili Teatr) açılış mərasimində də öz mövqeyini bir daha səsləndirmişdi: "Bəlkə, kimsə deyə bilər ki, biz ağır vəziyyətdə olduğumuz bir zamanda nə üçün teatr binasının tikintisinə bu qədər xərc qoyulubdur. Ancaq yox, biz Azərbaycan xalqının mədəniyyətinin inkişafını heç vaxt dayandıra bilmərik. Bizim xalqımız öz mədəniyyəti, elmi ilə yüksəlibdir. Biz mədəniyyətə nə qədər diqqət yetirsək, qayğı göstərsək, mədəniyyət xadimlərinin yaradıcılığı üçün imkanlar yaratsaq, xalqımızı da bir o qədər yüksəldəcək, onun mənəviyyatını daha da zənginləşdirəcəyik.

Müstəqil Azərbaycan dövlətinin Prezidenti kimi mənim siyasətimin böyük bir qolu bundan ibarətdir. Əmin ola bilərsiz ki, bu siyasəti mən durmadan davam etdirəcəyəm" [7].

Heydər Əliyevin dəyərli teatr-estetik görüşləri onun ayrı-ayrı iclaslarda, müşavirə və toplantılarda, plenum və qurultaylarda çıxışları zamanı teatr haqqındakı fikirlərində, ayrı-ayrı sənətkarlarla görüşlərində dediyi sözlərdə, görkəmli sənətkarların yubileylərində göndərdiyi təbrik teleqramlarında, baxdığı tamaşalar barədə mülahizələrində öz dolğun əksini tapıb.

Ümummilli lider Heydər Əliyev ömrünün sonuna qədər Azərbaycan incəsənətinin, o cümlədən Azərbaycan teatrının inkişafı üçün əlindən gələni əsirgəmədi. Onun ölməz ideyaları bu gün də yaşayır, bu gün də bizim yol göstərənimizdir.

Hörmətli prezidentimiz İlham Əliyevin hər bir tədbirdə daxili inam və səmimiliklə bəyan etdiyi "Mən Heydər Əliyev kursunu, Heydər Əliyev siyasətini dönmədən yerinə yetirəcəyəm," sözləri [8], onun mədəniyyət siyasətini həyata keçirmək cəhdi və bacarığı teatrsevər Azərbaycan xalqını və teatr xadimlərini məmnun edən əsas cəhətlərdəndir.

Heç şübhəsiz ki, ulu öndər Heydər Əliyevin böyük diqqət və qayğısı nəticəsində inkişaf etmiş 150 yaşlı Azərbaycan teatrı gələcəkdə daha yüksək sənət zirvələri fəth edəcək.

**Ədəbiyyat siyahısı:**


1. Babayev A. Heydər Əliyev dühasını əks etdirən salnamə. Ədəbiyyat qəzeti. – 2011. – 22 aprel. – s.1, 2.
2. Babayev A. Mədəniyyət və incəsənətimizin Heydər Əliyev zirvəsi. Ədəbiyyat qəzeti. – 2013. – 19 aprel. – s.1-3.
3. Əfəndiyev T. Böyük sənətin böyük hamisi. Respublika. – 2013. – 16 aprel. – s.5.
4. Əliyev Heydər. Mədəni irsimizin keşiyində. II kitab. Bakı, 2001, səh.18, səh.44.
5. Əlizadə M. Heydər Əliyev və Azərbaycan teatrı. 525-ci qəzet. – 2013. – 9 may. – s.4.
6. Allahverdiyeva İ. Yusifova A. "Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır.. 10-03-2021, https://naxcivanxeberleri.com/cemiyyet/53715-teatr-muqdds-yerdir-trbiy-ocagidir-.html
7. Əliyeva M. Xalqımızın mədəni sərvəti. 2023-03-10, 10 Mart Milli Teatr Günüdür. https://respublika-news.az/news/xalqimizin-medeni-serveti
8. Əliyeva Y. 15 oktyabr 2022. Prezident İlham Əliyev Qarabağın və Şərqi Zəngəzurun xilaskarı kimi nüfuz qazandı. https://ikisahil.az/post/354824-prezident-ilham-eliyev-qarabagin-ve-sherqi-zengezurun-xilaskari-kimi-nufuz-qazandi
9. Xanoğlan V. Uzun ömürlü əsərlər müəllifi. 25 May 2018, https://modern.az/az/news/166430/uzun-oumlmuumlrluuml-eserler-muumlellifi-nbspnbspnbsp


**Maryam Alizadeh**

## HEYDAR ALİYEV AND THE THEATER OF AZERBAİJAN

**Summary:** Heydar Aliyev deeply understood the meaning and essence of theater art, its profound impact on people's hearts, feelings, beliefs, educational significance, and idea-aesthetic quality; he was well acquainted with the practical and theoretical foundations of this art. The great leader's respect for artists has always been immense. Heydar Aliyev spent great moral and physical strength to give the titles of "People's Artist of the USSR" and "Hero of Socialist Labor" to prominent artists of Azerbaijan. In short, he treated artists with great respect and care.

When Heydar Aliyev led Azerbaijan from 1969-1982, the most famous theater groups of the former Soviet Union were eager to come to our country. The creation of new theaters in the regions, Huseyn Javid in Nakhchivan and Nizami poetry theaters in Ganja is the result of Heydar Aliyev's love for art and artists, respect for the history, literature, and art of the people and his efforts for cultural progress. Until the end of his life, national leader Heydar Aliyev did everything he could to develop Azerbaijani skills, including Azerbaijani theater. His immortal ideas live on today and guide us today.

**Key words:** Heydar Aliyev, National leader, Azerbaijan theater, theater art, theater-aesthetic meetings, performances

**UOT: 37**

**Xaləddin Sofiyev**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin**
**kulturologiya üzrə fəlsəfə doktoru, professor**
**E-mail: sofiyev.xaleddin@mail.ru**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ BEYNƏLXALQ TƏHSİLİN TƏŞKİLİ

**Biz təhsil sahəsində yeniləşmənin tərəfdarıyıq və**
**dünya təcrübəsindən səmərəli istifadə etməliyik.**
**Ümummilli lider Heydər Əliyev**

**Xülasə:** Bu məqalədə qloballaşma şəraitində beynəlxalq təhsilin təşkili qaydaları və ölkəmizdə beynəlxalq təhsilin inkişaf tarixi öz əksini tapmışdır. Cəmiyyətin indiki inkişaf mərhələsinin spesifikliyi ondan ibarətdir ki, bu gün dünya iqtisadiyyatının idarə edilməsi reallığı inkişaf edib, qlobal institutlar yaranıb. Qloballaşma problemlərinin müzakirəsi prosesində bu fenomenin nəzərdən keçirilməsində aparıcı konseptual yanaşmalar formalaşmışdır: birinci yanaşmada qloballaşma Qərb dəyərlərinin imperializmi ilə əlaqələndirilir, ikincidə, qloballaşma modernləşmədən postmodernləşməyə keçid kimi təhlil edilir. Qlobal təhsil inteqrasiya meyllərinin güclənməsi, ümumi beynəlmiləlləşmə və qloballaşma prosesləri ilə bağlı elmi-texniki inqilabın indiki dövrünün daha bir məhsuludur.

**Açar sözlər:** qloballaşma problemləri, beynəlxalq təhsil, təhsilin inkişafı, təhsil müəssisələri, beynəlxalq akkreditasiya, xaricdə təhsil

Cəmiyyətin indiki inkişaf mərhələsinin spesifikliyi ondan ibarətdir ki, bu gün dünya iqtisadiyyatının idarə edilməsi reallığı inkişaf edib, qlobal institutlar yaranıb. Bu arada, dünya ictimaiyyətinin bir hissəsi təkid edir ki, qloballaşma milli kimliyə meydan oxuyur, xalqlar arasında identiklik böhranına səbəb olur, yoxsul ölkələri firavan dünyadan getdikcə artan geriliyə məhkum edir. Qloballaşma problemlərinin müzakirəsi prosesində bu fenomenin nəzərdən keçirilməsində aparıcı konseptual yanaşmalar formalaşmışdır: birinci yanaşmada qloballaşma Qərb dəyərlərinin imperializmi ilə əlaqələndirilir, ikincidə, qloballaşma modernləşmədən postmodernləşməyə keçid kimi təhlil edilir. Ümumiyyətlə, "anti-qlobalist ruhda davranaraq qloballaşmanı dayandırmaq çağırışı ilə çıxış etmək utopizm, anaxronizmdir" [4, s.25].

XX əsrin 90-cı illərindən qloballaşmanın inkişafı təhsil paradiqmasının dəyişməsinə ciddi təsir göstərdi: "maarifçilik" nəzəriyyəsi "postmodernizm" nəzəriyyəsi ilə əvəz edildi. Siyasətçilər təhsil sahəsində qərarlar qəbul edərkən fərdiləşmə anlayışlarında əks olunan "insan kapitalı" nəzəriyyəsinin postulatlarından uzaqlaşaraq, əməkdaşlıq postulatlaşdıraraq "qlobal təhlükəsizlik" nəzəriyyəsinə keçirlər. XXI əsrdə beynəlxalq təhsil qloballaşmanın ruporuna çevrilir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev müəllim, tələbə və şagirdlərə müraciətində vurğulamışdır: "Mən hələ 2004-cü ildə demişdim ki, biz "qara qızıl"ı insan kapitalına çevirməliyik və bunu əldə etmişik" [2]. Beynəlxalq təhsil bu gün həm xaricdə, həm də öz dövlətinin divarları daxilində, dövlət və qeyri-dövlət təhsil müəssisələrində real vaxt rejimində və onlayn rejimdə əldə edilir. Beynəlxalq təhsil demək olar ki, bütün milli təhsil sistemlərinə daxil olmuşdur [10, s.4].

Qloballaşma şəraitində beynəlxalq təhsilin inkişafının əsas mərhələlərinin təhsilin dəyər kimi dərk edilməsindən xəbər verdiyi konseptual olaraq müəyyən edilmişdir. Qloballaşma şəraitində beynəlxalq

akkreditasiya və təhsil müəssisəsinin keyfiyyətinin beynəlxalq qiymətləndirilməsi alınan təhsilin keyfiyyətinin meyarına çevrilir. Təhsil böyük sosial əhəmiyyət kəsb edir və tədricən yalnız daxili maraqlar sferasından beynəlxalq səviyyəyə qalxır. Müasir ictimai həyatın inkişafının əsas xüsusiyyətlərindən biri təkcə siyasi və iqtisadi münasibətlərə deyil, həm də sosial sahələrdə, xüsusən də təhsil sahəsində münasibətlərə təsir edən dövlətlərarası inteqrasiyadır. Dövlətlərin təhsil sahəsində qarşılıqlı əlaqəsi daha dinamik xarakter alır, belə qarşılıqlı fəaliyyətdə yeni meyllər özünü büruzə verir, əməkdaşlığın yeni formaları və sahələri yaranır. Bu dəyişikliklər müvafiq araşdırmanı, eləcə də əməkdaşlıq zamanı yaranan problemlərin həllini tələb edir. Xüsusilə, vahid Avropa təhsil məkanının qurulması prosesi (Boloniya prosesi) hüquqi, sosial, iqtisadi və mədəni xarakterli ciddi dəyişikliklərə səbəb olur [3, s.3].

İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsil prosesində və nəticədə təhsil sahəsində beynəlxalq əməkdaşlığın xüsusiyyətlərində dəyişikliklərə səbəb olur. Xüsusilə, təhsil xidmətlərinin beynəlxalq ticarətinin miqyası artır. Yeni hadisələr, məsələn, transmilli təhsil yaranır ki, bu da həllini tələb edən bir sıra hüquqi problemlərlə bağlıdır. Boloniya prosesinin aktları və təhsil sahəsində digər inteqrasiya prosesləri xüsusi yer tutur.

Bu gün Avropa, ABŞ, Kanada universitetlərində təhsil almaq çox məqsədəuyğun və prestijlidir: gənclər keyfiyyətli bilik üçün hətta Yeni Zelandiya və Maltaya da gedirlər. Və təbii ki, hər kəs Böyük Britaniyada təhsil xidmətlərinin nə qədər yüksək səviyyədə olduğunu bilir. Xaricdə təhsili seçənlər üçün ən aktual məsələlərdən biri qiymətdir. Bu gün xüsusi istedadlı tələbələr üçün qrant ödəyən xüsusi fondlar var, lakin qrant almaq çox çətindir. Amerika universitetlərində pulsuz aspiranturaya daxil olmaq da son dərəcə çətindir. Buna görə də, ümumiyyətlə deyə bilərik ki, xaricdə öz hesabına təhsil almaq həmişə bahadır və istənilən "sərfəli qiymətə" təklifi dələduzluq və ya fırıldaq kimi qiymətləndirmək lazımdır. Xarici tələbələrin sayına görə lider ənənəvi olaraq ABŞ-dır, ilk beşliyə İngiltərə, Almaniya, Fransa, Avstraliya daxildir, bu rəqəm Çin və Yaponiyada artır. YUNESKO-nun məlumatına görə, dünyada beynəlxalq proqramları seçmiş tələbələrin ümumi sayı artıq 97 milyon nəfərə çatıb və 2025-ci ilə qədər ekspertlərin fikrincə, bu, 2,5 dəfədən çox artmalıdır [9, s.240].

Universitet mənzərəsi indi beynəlxalq əməkdaşlıqdan kənarda ağlasığmazdır. Nümunələr arasında Almaniya tərəfdaşlığı modelinə xüsusilə xarakterik olan tədqiqat layihələri və ikimillətli universitetlər daxildir. Əlbəttə, heç kim ali təhsilə diplomatiyanın aləti kimi baxışı ləğv etmir, lakin onun əhəmiyyəti bununla məhdudlaşmır. Sadəcə elm, texnologiya və bilik transferi kimi sahələrə baxın. Bu sahələr bilik, sosial ədalət və innovasiya ilə idarə olunan dünyada getdikcə daha mühüm rol oynayır. Hazırda ali təhsilin brendləşdirməyə, reytinqlərə və rəqabətə davamlılığa yönəldiyini nəzərə alsaq, "yumşaq güc" anlayışı çox cəlbedici görünür. Çoxları yumşaq gücə bir növ müasir brendinq kampaniyası kimi baxır, hansı ki, müəyyən bir cəmiyyətin mədəniyyət və mediadan həm xarici ictimaiyyəti, həm də tələbələri müəllimlər və tədqiqatçılarla razı salmaq üçün istifadə edir. Digərləri yumşaq gücə neokolonizasiyanın bir forması kimi baxır və ya yumşaq güc imperializmindən danışır. Bir sözlə, ali təhsilin yumşaq güc aləti kimi rolu və istifadəsi müxtəlif yollarla şərh olunur. Və məqsədin nə olmasının fərqi yoxdur – siyasi və iqtisadi üstünlüklər və ya yaxşı ad. Motivasiya əsasdır: yumşaq güc cəlbedicilik hesabına öz maraqlarını və üstünlüyünü təşviq etməkdir.

Ali təhsildə yumşaq gücə ən çox istinad edilən nümunələr Fulbrayt Təqaüd Proqramı, British Council-ın fəaliyyəti, Alman Akademik Mübadilə Xidmətinin (DAAD) təşəbbüsləri və Avropa İttifaqının Erasmus proqramıdır. Bunlar müxtəlif ölkələr arasında qarşılıqlı anlaşma işinə böyük töhfə verən yaxşı imicli tanınmış və nüfuzlu proqramlardır. Bəs onların əsas funksiyası tələbələr, dosentlər, mədəniyyət xadimləri, alimlər, tədqiqatçılar və ekspertlər səviyyəsində mübadilələri dəstəkləməkdirsə, niyə biz onları "yumşaq elektrik alətləri" adlandırırıq? Bəli, əlbəttə ki, ölkələrin maraqlarını nəzərdən qaçırmaq olmaz, amma əslində söhbət bütün tərəflər üçün qarşılıqlı maraqlardan və faydalardan gedir. Beynəlxalq akademik təhsil isə, ilk növbədə, qaliblərin və məğlubların olduğu rəqabət baxımından görünmür. Əsas

diqqət mübadilə və tərəfdaşlığa verilir. Bundan əlavə, müxtəlif ölkələrin, ali təhsil sistemlərinin, tədqiqat müəssisələrinin güclü tərəfləri bütün iştirakçı tərəflər üçün həll yolları və faydalar tapmaq üçün istifadə olunur. Bundan əlavə, müxtəlif tərəfdaşlar üçün fərqli görünə biləcəyi nəzərə alınır.

Hər kəsin vahid şəbəkəyə daxil olduğu və bir-birindən çox asılı olduğu müasir dünyamızda təhsil insan, bilik, təcrübə, innovasiya, iqtisadiyyat, texnologiya, mədəniyyətin trans-sərhəd mübadiləsində vasitəçi rolunu oynayır. Bəşəriyyət epidemiyalar, terrorizm, dövlət suverenliyinin böhranı, yoxsulluq həddində yaşayan bir milyard insan, ekoloji fəlakətlər və iqlim dəyişikliyi kimi qlobal problemlərlə üzləşir.

Son iyirmi ildə bilik cəmiyyəti ideyası haqqında çoxlu müzakirələr aparılıb. Bu postindustrial konsepsiyaya görə, bilik dövlətlərin sosial-mədəni inkişafının və iqtisadi yüksəlişinin mühərrikidir. Biliyə vurğu müasir dünyada təhsilin (ibtidai və orta məktəbdən ali təhsilə qədər) oynadığı mühüm rola işarə edir. "Onu da deyək ki, bilik təkcə yük parametrlərində "boğça" deyil. İnternet sayəsində bilik qazananda elm adamı, gənc jurnalist və tələbə həm də bu biliyi dinləyən narrativləri, konsepləri mənimsəyir" [3, s.119].

Müasir diplomatiyanın dəyişən dünyasında ali təhsil həlledici rol oynayır və bu problemlərin həllinə böyük töhfə verə bilər. Böyük elmi əməkdaşlıq və akademik mobillilik ənənəsi elmi tədqiqat və siyasi şəbəkələrdə, beynəlxalq təhsil mərkəzlərində, birgə proqramlarda, qlobal və ikimillətli universitetlərdəki yeniliklərlə tamamlanır. Bütün bunlar ölkələr və regionlar arasında beynəlxalq əlaqələrin möhkəmlənməsinə böyük töhfə verməlidir, çünki söhbət elm sahəsində istehsaldan, yayılmasından, bilik mübadiləsindən, bir sözlə, diplomatiyadan gedir.

Avropa və dünya təhsil sistemlərinə inteqrasiya və dünya səviyyəli mütəxəssislərin hazırlanması istəyi universitetlərin beynəlxalq əlaqələrin qurulması, təhsil və elmi-tədqiqat işi, mədəniyyət sahəsində xarici tərəfdaşlarla çoxşaxəli əməkdaşlığın təşkili və inkişafı üçün göstərdiyi səyləri müəyyən edir. Müasir təhsil vasitəsi ilə hər bir insanın mədəniyyətin qloballaşması problemini dərk etməsi müxtəlif mədəniyyətlərin eyni vaxtda bir zaman və mənəvi məkanda yaşamasına imkan verəcək, etno-milli qarşıdurmaların, stereotiplərin və dini qərəzlərin yaranmasının qarşısını alacaq, mədəniyyətin inkişafı prosesini gücləndirəcək və təmin edəcəkdir.

Beynəlxalq təhsil almış insan üçün bütün mədəniyyətlər dünya mədəniyyətinin təzahürü və ifadəsi kimi önəmlidir. Bu o deməkdir ki, beynəlmiləl təhsil insanın multikultural tərbiyəsidir. O, insanın hadisələri başqa insanın, başqa mədəniyyətin, başqa sosial-iqtisadi formasiyanın prizmasından qiymətləndirmək bacarığını inkişaf etdirir. Ona görə də beynəlxalq təhsil XXI əsrin yeni nəslinin mütəxəssisinin ümumi hazırlığının tərkib hissəsinə çevrilməlidir [8, s.5].

Beynəlxalq əməkdaşlığın universitetin təhsil mühitinin inkişafına təsirinin əsas göstəricisi kimi başa düşülən "mütəxəssislərin beynəlxalq təhsili" konsepsiyası ilə xarakterizə oluna bilən mütəxəssisin peşə hazırlığının yeni keyfiyyətidir. Nüfuzlu reytinqlərə əsasən, universitetlər arasında ən yüksək yerləri ABŞ və Böyük Britaniya universitetləri tutur. Ən adi xarici universitetdə təhsil almaq tələbələrə nəinki seçdikləri ixtisas üzrə bakalavr dərəcəsi almaq imkanı verir, həm də gənclərə öz həyat təcrübələrini əhəmiyyətli dərəcədə zənginləşdirmək, dünyanın hər yerindən dostlar qazanmaq, mədəniyyət və mədəniyyətlə tanış olmaq imkanı verir.

Beynəlxalq təhsil əməkdaşlığının indiki inkişafı mərhələsində dövlətlər regional müqavilə formasına üstünlük verirlər, universal tənzimləmə isə hələ hərtərəfli xarakter daşımır. Təhsil sahəsində inteqrasiya fəaliyyəti yalnız regional və subregional səviyyədə həyata keçirilir. Problemlərin bəziləri (vahid təhsil məkanının yaradılması, təhsil haqqında sənədlərin tanınması və s.) yalnız regional səviyyədə ən səmərəli şəkildə həll olunur. Təhsil üzrə sazişlərin həyata keçirilməsinin özəlliyi ondan ibarətdir ki, universal və regional səviyyələrdə belə icra beynəlxalq təşkilatların mexanizmindən istifadə etməklə həyata keçirilir və birgə qurumların yaradılması ikitərəfli səviyyə üçün xarakterikdir.

Təhsil sahəsində əməkdaşlığın universal səviyyədə həyata keçirilməsində beynəlxalq təşkilatların tövsiyə xarakterli aktları üstünlük təşkil edir, beynəlxalq müqavilələr isə azdır və əsasən təhsil hüququnun qorunmasına və ayrı-seçkiliyin qarşısının alınmasına həsr olunub. Bu onunla izah olunur ki, beynəlxalq təşkilatlar əməkdaşlıq prosesində təhsil sahəsinin problem və ehtiyaclarına dövlətlərarası sazişlərin uzun müddət işlənməsindən daha çox müvafiq tövsiyələrin qəbulu yolu ilə cavab verirlər.

Cəmiyyətin nəzarəti altında milli və dünya mədəniyyətinin dəyərlərinin mənimsənilməsi prosesində şəxsiyyətin inkişafı üçün xarici və daxili şəraitin formalaşdığı insan həyatının xüsusi sahəsi kimi başa düşülməlidir. Qlobal təhsil inteqrasiya meyllərinin güclənməsi, ümumi beynəlmiləlləşmə və qloballaşma prosesləri ilə bağlı elmi-texniki inqilabın indiki dövrünün daha bir məhsuludur. Onun əsas məqsədləri isə bunlardır:

1) dünyanın bir-birinə zidd qruplara bölünməsini, həmçinin sosial, milli və digər ziddiyyətləri aradan qaldırmaq;

2) insanla təbiət arasında ekoloji fəlakət təhlükəsi yaradan münaqişə;

3) insan ağlının və ruhunun ayrılması.

Başqa sözlə, qlobal təhsilin əsas ideyası öz vətəninin və ümumən dünyanın taleyi üçün yüksək məsuliyyət hiss edən azad və geniş düşüncəli şəxsiyyətin formalaşdırılması ideyasıdır.

Hazırda qlobal təhsil prosesində 1 milyarddan çox məktəbəqədər və məktəb yaşlı uşaq, ali təhsil müəssisələrinin və orta ixtisas təhsili müəssisələrinin tələbələri, 60 milyona yaxın müəllim, təhsil işçisi və universitet professoru, o cümlədən on milyonlarla yardımçı və xidmət personalı iştirak edir. İnsan fəaliyyətinin bütün məlum sahələri arasında yalnız kənd təsərrüfatı məşğul olanların sayına görə təhsillə rəqabət apara bilər [14].

Azərbaycanda "Təhsil haqqında" Qanuna əsasən hazırlanıb və formal təhsilin təşkili məsələlərini tənzimləyir [12]. Bu qanuna görə, formal təhsil dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil formasıdır. Ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili, ali təhsil, yenidənhazırlanma təhsili, təkrar ali və ya orta ixtisas təhsili dövlət təhsil sənədinin verilməsi ilə başa çatdığı üçün formal təhsil hesab edilir.

Formal təhsil qanunvericiliklə müəyyən edilmiş əyani, qiyabi, distant (məsafədən), sərbəst (eksternat) təhsilalma formaları vasitəsilə həyata keçirilir. Ümumi təhsil pilləsində qanunvericiliyə uyğun təşkil edilən şagirdlərin evdə təhsili və fərdi təhsili də formal təhsil hesab edilir [13].

Qloballaşmanın və təhsilin dərk edilməsində mədəni və siyasi-iqtisadi mülahizələrin həlledici əhəmiyyəti qaldığına görə, qloballaşmanı təkcə homojenlik və ya təzyiqçi yuxarıdan-aşağı xüsusiyyətlər kimi deyil, həm də qloballaşmanın mürəkkəb və dinamik yerli və qlobal kəsişmələri kimi başa düşmək üçün mövqelilik və tədqiqat etikası və refleksivlik mühüm tədqiqat problemləri olaraq qalır [6, s.18-19].

Onu da qeyd etmək lazımdır ki, xaricdə təhsil almaq ənənəsi hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlamışdır. Mənbələrdən aldığımız bilgiyə görə, münsiflər heyətinin diqqətlə seçdiyi tələbələrdən 49 nəfərini Almaniyanın, 27 nəfərinə Fransanın, 4 nəfərinə İtaliyanın, 1 nəfərinə İngiltərənin, 6 nəfərinə isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilmələri barədə rəsmi sənəd verilmişdi. Qalan 13 nəfər isə Rusiyaya göndərilməli idi. Rusiyada vətəndaş müharibəsi ilə əlaqədar yaranmış şəraitə görə oraya tələbə göndərmək mümkün olmamışdır. Təəssüflər olsun ki, faktiki bu tələbələrdən neçə nəfərinin hansı ölkəyə, neçəsinin ali təhsilini başa vurduğu, kimlərin vətənə döndüyü, kimlərin mühacirətdə qaldığı, kimlərin nə vaxt dünyasını dəyişdiyi və hazırda onlardan neçə nəfərin salamat qaldığı barədə ortalıqda bizə dəqiq məlumat verən bir mənbə, tədqiqat işi yoxdur [5, s.11].

Sövetlər dönəmində Azərbaycanın əldə etdiyi mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasıdır. Bu məqsədi uğurla həyata keçirmək üçün Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün böyük qruplarla keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdur. O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə

yaxın azərbaycanlı göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdır. 1993-cü ilin iyununda Bakıya qayıdan ümummilli liderin xüsusi diqqət yetirdiyi məsələlərdən biri təhsil sisteminin yaxşılaşdırılması ilə bağlı idi. Buna görə də ulu öndər təhsilin milli tərəqqinin gerçək amilinə çevrilməsi üçün geniş islahatlar proqramının hazırlanaraq reallaşdırılması vəzifəsini qarşıya qoydu. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncamı imzalaması isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlmişdi. Çox qısa müddətdə komissiyanın hazırladığı "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda imzalanaraq qüvvəyə minmişdi. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin etdi [Əliyev M. Xalq qəzeti].

Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı 2021-2022-ci tədris ili üçün 717 nəfər, o cümlədən Macarıstanda 370 nəfər, Türkiyədə 300 nəfər, Rusiyada 213 nəfər təşkil etmişdir. Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində bakalavr və magistr səviyyəsində təhsil alan xarici vətəndaşların sayı isə Türkiyədən 2433 nəfər, İrandan 1038 nəfər, Rusiyadan 475 nəfər, Gürcüstandan 440 nəfər və s. qeydə alınmışdır [11].

Qloballaşmaya və təhsilə yönəlmiş tədqiqatlar geniş spektrli yanaşma və metodlardan, mövzulardan və istiqamətlərdən, eləcə də müxtəlif nəzəri perspektivlərdən və normativ fərziyyələrdən istifadə edir. Qloballaşma dövrünün xronoloji çərçivəyə salınması baxımından onun əsas xüsusiyyətləri mədəni, siyasi-iqtisadi və texnoloji baxışlardan nədən ibarətdir. Bu gün ölkəmizin qarşısında daha yüksək inkişaf səviyyəsinə nail olmaq vəzifəsi durur. Bunun üçün mühüm məsələlərdən biri digər sahələrlə bərabər elm və təhsilin inkişafıdır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış və prezident İlham Əliyev tərəfindən yeni nəfəs gətirilərək uğurla həyata keçirilən müstəqil Azərbaycanın dövlət siyasətinin kökündə elmi prinsiplər öz əksini tapmışdır. Son zamanlar Azərbaycan elm və təhsilində köklü islahatlar aparılmaqdadır.

## Ədəbiyyat siyahısı:

1. Əliyev M. Heydər Əliyev elm, təhsil və mədəniyyətin himayədarı idi. Xalq qəzeti. – 2010. – 16 may. – s.4.
2. Hacıxanlı X. Azərbaycan "qara qızıl"ı insan kapitalına çevirə bilmişdir. Xalq qəzeti. 16 sentyabr 2020.
3. Sofiyev X. Kürəsəl proseslərin transformasiyaları. "Azərbaycan Arxeologiyası və Etnoqrafiyası" jurnalı. AMEA, Arxeologiya və Etnoqrafiya institutu. "Nafta-Press" nəşriyyatı. Bakı-2017 № 2, s.127-133, 2017, 172 səh.
4. Sofiyev X. Qloballaşma paradiqmasının törətdiyi yanaşmalar. s.23-29 "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuə. XXXIV buraxılış. ADMİU-nun mətbəəsi. Bakı-2017, Bakı, 2017, 248 səh.
5. Teyyub Qurban. Yüz tələbə – yüz tale. Bakı, Şur, 2018, 256 səh.
6. ByLiz Jackson. Globalisation and education. Questioning Allegiance.Edition1st Edition. First Published-2019.
7. Кондратюк Анна Владимировна. Международно-правовое регулирование сотрудничества государств в сфере образования. Санкт-Петербург 2007, 195 с.
8. Полищук Игорь Григорьевич. Международное сотрудничество как фактор развития образовательной среды педагогического университета. Санкт-Петербург 2007, 112 с.
9. Рябинина А.М. Экспорт образовательных услуг на мировом рынке образования. Государственное управление. Электронный вестник. Выпуск № 85. Апрель 2021 г. 236-261 с.

10. Шевцов Т. И. Формы организации международного образования в условиях глобализации. Москва 2010, 153 с.
11. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatı. https://stat.gov.az/
12. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/18343 19 iyun 2009-cu il
13. Formal təhsilin təşkili qaydaları. https://edu.gov.az/az/esas-senedler/2302 6 avqust 2010
14. Қазіргі әлемдегі білімнің жаһандануы. Жаһандану және білім. kerchtt-ru.

**Khaleddin Sofiyev**

## ORGANİZATİON OF İNTERNATİONAL EDUCATİON İN THE CONDİTİONS OF GLOBALİZATİON

**Summary:** In this article, the rules of organizing international education in the conditions of globalization and the history of the development of international education in our country are reflected. The specificity of the current stage of development of the society is that today the reality of managing the world economy has developed and global institutions have emerged. In the process of discussing the problems of globalization, leading conceptual approaches have been formed in the consideration of this phenomenon: in the first approach, globalization is associated with the imperialism of Western values, in the second, globalization is analyzed as a transition from modernization to postmodernization. Global education is another product of the current era of scientific and technical revolution related to the strengthening of integration trends, general internationalization and globalization processes.

**Key words:** globalization problems, international education, educational development, educational institutions, international accreditation, study abroad.

**UOT 332.2**

**Elman Quliyev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti,**
**professor**
**E-mail: elman.guliyev1958@gmail.com**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ATATÜRKƏ MÜNASİBƏTİ AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ MÜHÜM MƏRHƏLƏ KİMİ

**Açar sözlər:** Heydər Əliyev, Atatürk, azərbaycançılıq, türkçülük, dövlət siyasəti

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin dahi şəxsiyyət Mustafa Kamal Atatürk haqqında söylədiyi fikirlər bir böyük türkün digər bir böyük türk haqqında, o cümlədən bir dövlətin dövlət təhlükəsizliyini təmin edən, ona əbədi müstəqillik bəxş edən siyasi liderin eyni taleyi yaşamış və eyni missiyanı yerinə yetirmiş başqa bir siyasi lider barəsində analitik düşüncə əsaslı ictimai-siyasi görüşlər sistemini təşkil edir. Heydər Əliyevin Mustafa Kamal Atatürklə bağlı fikirlərində hərtərəfli, eyni zamanda kompleks yanaşmanı izləmək mümkündür. Çünki vətənini və xalqını sevən, ona min bir tellə bağlı olan bir vətəndaş, bir türk və bir uzaqgörən siyasi lider kimi Heydər Əliyevin Türkiyəyə və onun qurucusu Mustafa Kamal Atatürkə sevgiləri səbəbsiz deyildi. 6 may 1997-ci il tarixində Ankarada bir jurnalistin – “Atatürkün adını tez-tez çəkməyiniz nə ilə əlaqədardır?” – sualına Heydər Əliyevin verdiyi cavabda bu sevginin səbəblərini aydın şəkildə görmək mümkündür:

“Mən Türkiyə haqqında, Türkiyə Cümhuriyyəti, onun keçdiyi yol barədə sadəcə olaraq öz fikirlərimi deyirəm. Mən dostam, qardaşam, Mustafa Kamal Atatürk haqqında dediyim sözlər yetərlidir. Əgər istəyirsiniz yenə də deyim”.

Ulu öndər Heydər Əliyev “bir millət iki dövlət” prinsipini əsas götürərək Türkiyə ilə Azərbaycan arasında birliyin, inkişafın, siyasi maraqların təməlində doğmalıq və qardaşlıq münasibətlərinin dayandığına xüsusi önəm vermişdir. Heydər Əliyev Azərbaycanla Türkiyə arasındakı qardaşlığın təməlində milli-tarixi bağlarla yanaşı, Atatürk ideyalarının da mühüm rol oynadığını xüsusi qeyd etmişdir. Heydər Əliyev bir çox çıxış və müsahibələrində Mustafa Kamal Atatürkün “Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir ” sözlərini dilə gətirməklə Atatürk ideyalarında mövcud olan prinsipial Azərbaycan sevgisindən məmnunluq duymuş və Azərbaycanın Türkiyəyə münasibətində eyni mövqedə olduğunu xüsusi şəkildə qeyd etmişdir. Ulu öndər Heydər Əliyevin 8 may 1997-ci il tarixində “Çırağan” və “Suis” otellərində Türkiyənin “TRT”, “Samanyolu”, “NTV” televiziya kanallarının rəhbəri və Türkiyənin iş adamları ilə görüşlərindəki çıxışlarında həm Atatürkə olan rəğbətin şahidi olur, həm də Atatürkün Azərbaycanla bağlı atdığı addımların xarakter və əhəmiyyəti açıqlanır: “Türkiyə də, biz də böyük öndər Mustafa Kamal Atatürkün sözlərini tez-tez xatırlayırıq. O, vaxtilə demişdir ki, Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz də deyirik ki, Türkiyənin dərdi bizim dərdimizdir, Türkiyənin sevinci bizim sevincimizdir. Mustafa Kamal Atatürk nə qədər müdrik adamdır. Bu sözləri hələ 30-cu illərdə demişdir. Onda hələ Ermənistan Azərbaycan arasında belə savaş, münaqişə yox idi, qan tökülmürdü. Ancaq o, – böyük Mustafa Kamal Atatürk 1918-1920-ci illərdə həmin o erməni müəlliflərinin, daşnaklarının azərbaycanlıların başına nə bəlalar gətirdiklərini yaxşı bilirdi. Məhz Mustafa Kamal Atatürkün və onun kimi insanların iradəsi nəticəsində 1918-1920-ci illərdə Türkiyənin Qafqaz ordusu Azərbaycana gəldi, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda azərbaycanlıları erməni qırğınından xilas etdi. Biz bunları unutmuruq”. Mustafa Kamal Atatürkün Azərbaycanla bağlı atdığı addımları sadalayarkən Heydər Əliyevin tarixə səyahəti məqsədli səciyyə daşıyır və bu yanaşma bir neçə baxımdan əhəmiyyət kəsb edir. Bu yanaşmada Atatürkün Azərbaycan sevgisi, türkün türkə qardaşlıq

münasibəti, erməni daşnaklarının Azərbaycanın müxtəlif bölgələrində törətdikləri soyqırımı hadisələri diqqətə çatdırılır və ən başlıcası isə Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyinə inam nümayiş etdirilir.

Heydər Əliyev Atatürkün Türkiyə üçün xidmətlərindən danışarkən onun dövlət quruculuğu fəaliyyətinə xüsusi önəm verir. O, Atatürkün müstəqil dövlət quruculuğu yolunda atdığı addımları alqışlayır, bugünkü Türkiyənin uğurlarının təməlində Atatürk ideyalarının dayandığını fəxr ilə diqqətə çatdırır. Heydər Əliyev Atatürkün dövlət yaratmaq yox, həm də dövləti yaşatmaq və inkişaf etdirmək yollarındakı xidmətlərini də təqdir etmiş, Türkiyənin milli-mənəvi dəyərlərə bağlı olmasında və bəşəri ideyalara inteqrasiyasında Atatürk yolunun əhəmiyyətinə böyük dəyər vermişdir. Heydər Əliyevin 30 oktyabr 1998-ci ildə İstanbulda "Mərmərə" qrupunun Strateji Araşdırmalar Vəqfinin keçirdiyi mərasimdəki nitqində Atatürkün Türkiyənin dövlətçilik tarixində tutduğu mövqe belə dəyərləndirilir: "Mustafa Kamal Atatürk Cümhuriyyəti yaratdı, amma eyni zamanda da onu qurdu, yaşatdı. Şübhəsiz ki, hər bir yeni işi yaratmaq asan deyil. Bu böyük iradə, ağıl, qəhrəmanlıq tələb edir. Ancaq qurulan hər bir şey yaşaya bilmir, Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhuriyyətinin nəinki əsasını qoydu, həm də onu qurdu, onun bütün təsisatlarını yaratdı, onu yaşatdı, böyük dövlət etdi, bugünkü nəsillərə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu". Diqqət etdikdə görürük ki, Heydər Əliyev Atatürkün dövlət quruculuğu fəaliyyətindən danışarkən dövlətçilik üçün vacib olan bütün detallara toxunmuş, Atatürkün qurucu rəhbər obrazını göz önünə gətirməklə Atatürk yolunun uğurlarından bəhs açmış, bugünkü nəsli Atatürkə hədsiz hörmət və sədaqət ruhunda tərbiyələndirməyə çağırış etmişdir: "Böyük öndər Mustafa Kamal Atatürkün xidmətləri bu gün hər kəsin gözünün önünə gəlir. O, hər kəsin ürəyindədir... Biz Azərbaycanda çox sevinirik və fəxr edirik ki, Türkiyə Cümhuriyyəti ardıcılı olaraq, davamlı, sürətlə, inamla Mustafa Kamal Atatürkün yolu ilə gedir".

Heydər Əliyev Atatürk şəxsiyyətinə müasir Türkiyənin və türk xalqının bir zamanlar yaşamış olduğu keşməkeşli tarixi olaylar prosesində dəyər verir, bu məqsədlə onun misilsiz lider və böyük rəhbər keyfiyyətləri üzərində xüsusi dayanır. Eyni taleyi yaşayan insan kimi Heydər Əliyevin Atatürkə bu kontekstdə münasibətində Atatürk ucalığının mahiyyəti və təfərrüatları açıqlanır, tarixi simvola çevrilən Atatürk şəxsiyyətinə olan sevgi və rəğbətin səbəblərinə cavab tapılır. Qeyd etməliyik ki, Heydər Əliyevin natiqlik məharəti, o cümlədən təfərrüatları üzə çıxarıb mahiyyət müstəvisində dəyərləndirmək səriştəsi Atatürklə bağlı hər hansı analitik fikrin ortaya çıxmasını təmin edir. Məsələn, Atatürkün "Yurdda sülh, cahanda sülh, bölgədə sülh" prinsiplərini Azərbaycanın Qafqaz siyasəti üçün örnək hesab edən Heydər Əliyev müəyyən məqamlarda Atatürk yolunun Azərbaycan üçün də əhəmiyyət kəsb etdiyini açıq etiraf etməkdən çəkinmir.

Ulu öndərimiz Heydər Əliyevin 16 aprel 1999-cu il tarixində Türkiyə prezidenti Süleyman Dəmirəl ilə görüşündə söylədiyi nitq bu baxımdan xarakterikdir: "Azərbaycan xarici siyasətində və ilk növbədə Qafqazda apardığı strateji kursunda böyük Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsipləri gerçəkləşdirilərək daim həyata keçirilir".

Heydər Əliyevin Ankarada Atatürk məqbərəsini ziyarət etdiyi zamanlarda, o cümlədən 1997-ci ildə "Nərgiz TV" televiziyasının təsis etdiyi "Dünyada ilin adamı" və 1999-cu ildə Atatürk Beynəlxalq Sülh Mükafatı kimi ali təltiflərin təqdimində etdiyi çıxış və kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində Atatürkə olan sonsuz məhəbbətini bir daha diqqətə çatdırmış, aldığı mükafatın Atatürkün adını daşıdığı üçün indiyə qədər aldığı mükafatlardan üstün hesab etdiyini bəyan etmiş, Atatürk ideyalarının təkcə Türkiyə üçün deyil, həm də Azərbaycan üçün əhəmiyyətli olduğunu vurğulamışdır: "Böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan mükafatı almaq mənim üçün böyük şərəfdir. Hesab edirəm bu mükafat mənim indiyə qədər aldığım mükafatlardan ən alisidir". Heydər Əliyevin Atatürk məqbərəsini ziyarət etdiyi zaman Azərbaycandan gətirdiyi torpağı Atatürk məzarının yanına qoymasını bir neçə baxımdan əlamətdar hesab etmək olar. Bu bir tərəfdən eyni millət anlamında Azərbaycan-Türkiyə qardaşlığını, digər tərəfdən Azərbaycan xalqının Atatürkə olan sevgisini, başqa bir

tərəfdən isə Heydər Əliyevin sözləri ilə desək "Azərbaycanın Mustafa Kamal Atatürkü özünün öndəri, özünün qəhrəmanı, özünün müdrik şəxsiyyəti hesab etməsini" əks etdirir.

Heydər Əliyev Türkiyə və türk dünyası qarşısında xidmətlərinə görə Mustafa Kamal Atatürkü xalqı üçün, torpağı üçün müqəddəslər müqəddəsi hesab etmiş, onun ideyalarına, qoyub getdiyi dəyərli irsinə böyük hörmət və ehtiramını ifadə etmişdir. Heydər Əliyev Atatürkün demokratik dövlət quruculuğundakı xidmətlərini, xarici qüvvələrin təsiri ilə Türkiyəni parçalanmaqdan qurtarmasını, Türkiyəni yeni inkişaf yoluna çıxararaq dünyanın aparıcı dövlətləri sırasında yer almasına nail olmasını və s. təkcə Türkiyə xalqının və Türkiyə dövlətinin deyil, həm də türk dünyasının xoşbəxtliyi hesab edir, bir Azərbaycan türkü və bir Azərbaycan dövlətinin prezidenti olaraq bununla fəxr etdiyini açıq şəkildə bəyan edir: "Biz hamımız bununla fəxr edirik ki, belə bir Türkiyə var, Mustafa Kamal Atatürk Cümhuriyyəti var".

Hesab edirik ki, ümummilli Heydər Əliyevin bu müdrik kəlamları bu gün olduğu kimi gələcəkdə də aktuallığını itirməyəcək və hər bir azərbaycanlının dilində əhəmiyyətli ifadə kimi səslənəcəkdir: "Nə yaxşı ki, Türkiyə var, nə yaxşı ki, Mustafa Kamal Atatürk Cümhuriyyəti var..."

## Ədəbiyyat siyahısı:

1. Heydər Əliyev Atatürk haqqında. Bakı: AzAtaM, 2003
2. Mahmud Kaşğarlı. Divani lüğət-it türk, I cild, Bakı, 2006
3. Mahirə Hüseynova. Missiya. Bakı: ADPU, 2019
4. Nizami Xudiyev. Uğurlu yolun layiqli davamçısı. Bakı: Nurlan, 2007
5. Nizami Hudiyev. Haydar Aliyev: devlet kuruculuğu ve dil politikası. Bakı: AzAtaM, 2005

**UOT-82**

**Nizami Məmmədov**
**Bakı Slavyan Universiteti**
**filologiya elmləri doktoru, professor**
**nizami.mamedov@mail.ru**

# HEYDƏR ƏLİYEVİN SİYASİ BAXIŞLARINDA AZƏRBAYCAN ƏDƏBİYYATINA QAYĞI MƏSƏLƏLƏRİ

**Xülasə:** Diqqət mərkəzinə çəkdiyimiz bu materialda ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinə və ədəbiyyatına münasibətını təhlil edirik. Qeyd edək ki, Heydər Əliyev həm sovet hakimiyyəti illərində – 1969-cu ildən 1983-cü ilə qədər Azərbaycan KP MK Birinci Katibi olduğu dövrdə, 1983-cü ildən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu dövrdə, M.S.Qorbaçovun yenidənqurma siyasəti dövründə Sov. İKP MK-nın Baş katibi kimi onun fikirlərini bölüşmədiyi və bəyənməyib, vəzisəsindən imtina edib aralandığı dövrdə, Ermənistanın silahlı separatçılarının Azərbaycan torpaqlarına soxulub 366-cı Rusiya motoatıçı diviziyasının köməyi ilə Dağlıq Qarabağ ərazilərində Azərbaycanın şəhər və kəndlərini viran qoyduğu illərdə, sovet ordusunun Bakıya qarşı erməni və rus təcavüzünü yüzlərlə dinc əhalını qətlə yetirdiyi vaxtlarda ciddi şəkildə pişləmişdi. 1993-cü ildə xalqın təkidi ilə Respublika rəhbərliyinə qayıtdıqdan sonra Heydər Əliyev bütün şüurlu həyatını dövlətçilik ideyalarının inkişafına, formalaşmasına və milli identifikasiyaya həsr etməklə, həm də azərbaycançılıq modeli və məfkurəsi probleminə, klassik irsə, vətənpərvərlik aspektlərinə, milli sənət nümunələrinin prioritetlərinə, Azərbaycan dilinin inkişafının əsas istiqamətlərinə, folkloruna, epik keçmişinə, Azərbaycan ədəbiyyatının inkişafına və s. sahələrə daha ciddi diqqət yetirmişdir. H.Əliyevin xalqımızın həyatında və tarixində aparıcı rolunu gərəyincə dəyərləndirməklə biz onun Azərbaycan ədəbiyyatın inkişaf problemlərinə nəzər salırıq. H.Əliyevin ədəbiyyat nümayəndələrimizə və nümunələrinə baxışını təhlil etməklə materialda əsasən tezislər şəklində onun qeyd etdiyimiz aspektdə əməyini konkret nümunələr əsasında işıqlandırmağa çalışmışıq.

**Açar sözlər:** ictimai-siyasi və mədəni-ədəbi aspekt, ədəbiyyatın inkişafı, milli maraqlar uğrunda mübarizə, klassik irsin təbliği, yazıçılara qayğı, epik abidələr və xadimlərlə bağlı fikirlər.

Hər bir xalqın siyasi, ictimai, mədəni, maarifçilik və s. istiqamətlərində fəaliyyət göstərmiş elə dərin, zəngin, gördükləri işlər ölçüyəgəlməz şəxsiyyətlər vardır ki, onlar haqqında danışmaq, fikir bildirmək, əməllərindən bəhs edib, oxuculara çatdırmaq böyük dəyanət tələb etməklə, həm də o kəs barədə danışmağın məsuliyyətini dərk etmək son dərəcə vacibdir. Azərbaycanın ictimai-siyasi, təsərrüfat-mədəni, ədəbi-fəlsəfi, mənəvi-əxlaq, psixoloji-etnik düşüncəsində və həyatında böyük bir epoxa təşkil etmiş Azərbaycan KP MK-nın Birinci katibi, SSRİ Nazirlər Sovetinin birinci müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin sədri, Azərbaycan Respublikasının Prezidenti, Ümummilli lider Heydər Əlirza oğlu Əliyev haqqında fikir bildirməyə haqqın çatmalıdır. Biz də buna haqqı olan bir alim kimi bu böyük dövlət və xalq adamının fəaliyyətinin az bir hissəsini bu yazımızda işıqlandırmağa qərar vermişik.

Bəri başdan qeyd edək ki, bu yazının məsuliyyəti, bir tərəfdən, haqqında bəhs edəcəyimiz böyük siyasi liderin nüfuzu ilə bağlıdırsa, digər tərəfdən, məqaləmizin ümummilli liderin 100 illiyinə yubley xarakterli töhfə olması ilə əlaqədardır. Onun haqqında fikir söyləmək həm də ona görə məsuliyyət lidir ki, fəaliyyətinin son dərəcə çoxaspektli sferalarının çeşidli olması ilə bağlıdır.

Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyi bütün kəsimlərdə dövrün özünün xarakterik problemlərinin ortaya çıxması ilə müşayiət olunmuşdur. Hakimiyyətə gəlişi "istiləşmə"

dövrünün sonuna təsadüf edirdisə, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu dövr SSRİ-də problemlərin (siyasi, ictimai, milli, mədəni və s.) kəskinləşməsi dövrünə düşürdü (Alma-Ata, Vilnüs, Tbilisi və s. yerlərdə baş vermiş hadisələr). Onun SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən getməsi o vaxtkı Sov. İKП MK-nın Baş katibi M.S.Qorbaçova öz intellekti və uzaqgörənliyi ilə "mane olması" və eyni zamanda M.S.Qorbaçovun "yenidənqurma"nı "yenidənqırma" çevirib, həmin proseslərini özü bildiyi kimi istiqamətləndirməsinə qarşı etirazı ilə bağlı idi. Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərliyə gələndə isə artıq 20 Yanvar hadisələri, Ermənistanın Sovet siyasi və hərbi rəhbərliyinin dəstəyi ilə Azərbaycana təcavüzü, Qarabağımızda ermənilərin Azərbaycan əhalisinin amansız qətliamları baş vermişdi. Azərbaycan Respublikasının Milli Məclisinə xalqın səsi və qəti istəyi ilə sədr və bundan az sonra Azərbaycan Prezidenti seçiləndə isə o, burada özündən əvvəl ona qalmış ürək açmayan mirasların, üzüntülərin, saysız- hesabsız faciələrin baş verdiyi bir dövrdə gəlmişdi. Belə mürəkkəb, başgicəlləndirici bir mərhələdə Heydər Əliyev həqiqətən özünün bir daha müdrik və uzaqgörən siyasi rəhbər imicini dünya siyasi elitası qarşısında sübut etməyə müvəffəq olmuşdu.

Heydər Əliyev bütün fəaliyyəti ilə xalqın ictimai-siyasi, mədəni-mənəvi həyatında əzəmətli iz qoymuş şəxsiyyətlərdəndir. Onun fəaliyyət spektrləri o qədər çoxaspektli və çoxşaxəlidir ki, onlarla bağlı saysız-hesabsız cild-cild kitablar bağlamaq olar. Amma biz, təbii ki, onların hamısı barədə danışmağı qarşıya məqsəd qoymuruq. Buna görə də biz əsasən Heydər Əliyevin humanitar sahədə fəaliyyət istiqamətlərinin bəzi elementlərini aşağıdakı kimi şərti olaraq təsnif etdikdən sonra ədəbiyyatla bağlı görüşlərinin bir sıra tərəflərini təqdim etməyə səy göstərəcəyik. Onları aşağıdakı kimi diferensiasiya etmək olar:

1. Heydər Əliyevin müstəqil dövlətçilik təlimi;
2. Baxışlarında azərbaycançılıq modeli;
3. Siyasi və mədəni dünyagörüşündə klassik irsə münasibət;
4. Fəaliyyətinin vətənpərvərlik aspektləri;
5. Milli mədəniyyətin inkişaf perspektivləri;
6. Musiqi mədəniyyətimizin başlıca prioritetləri;
7. Azərbaycan dilinin əsas istiqamətləri;
8. Azərbaycan folkloru və eposu düşüncəsi nümunələrinin dəyərləndirilməsin;
9. Azərbaycan ədəbiyyatının inkişafı məsələləri;
10. Azərbaycan dramaturgiyası və teatrının inkişafı ulə bağlı fikirləri və i.a. və s.

Elə buradaca bildirək ki, bu təsnifatın özü də yetərincə şərtidir. Əlbəttə, adlarını çəkdiyimiz istiqamətlərin inkişafı, səciyyəvi xüsusiyyətləri və onların ayrı-ayrı tərəfləri ilə bağlı Heydər Əliyevin çoxsaylı çıxışları, məruzələri kitab halında ortadadır. Odur ki, biz onların hamısı barədə bəhs etməyib, müşahidlərimizi yalnız Azərbaycan ədəbiyyatı kontekstində, Azərbaycan yazıçı və şairlərinin, elm adamlarının Heydər Əliyev haqqında dedikləri üzərində qurmaq fikrindəyik.

Söyləməyə ehtiyac var ki, Heydər Əliyev Azərbaycan ədəbiyyatının inkişafı, ayrı-ayrı görkəmli bədii təfəkkür sahiblərinin (klassiklərdən tutmuş müasirlərə qədər) yaradıcılığı, ədəbiyyat tariximiz, sənətdə tarixilik və müasirlik, şair və yazıçılarımızın əsərlərində milli məfkurə, vətənpərvərlik, xalq təəssübkeşliyi ilə bağlı problemlər bu böyük siyasətçinin məruzə və çıxışlarında daim mühüm yer tutmuşdur. Akad. Bəkir Nəbiyev qeyd edir ki, Heydər Əliyevin otuz beş il ərzində, özünün bildirdiyi kimi, ən çeşidli münasibətlərlə keçirilən ictimai-siyasi, ədəbi-mədəni, elmə, ədəbiyyata, incəsənət xadimlərinin yaradıcılığına həsr olunmuş çıxışlarının dinləyicisi olduğundan bu böyük təfəkkür sahibinin ədəbiyyata baxışlarını aşağıdakı kimi nəzərdən keçirirdi: "Ədəbiyyat və incəsənət, bütünlükdə ictimai fikir sahəsində Azərbaycanın keçdiyi yolun özünəməxsusluqlarını Heydər Əliyev yaxşı bilir, elmi obyektivliyə əsaslanan müasirlik duyğusu ilə təhlil edirdi [5, s. 7].

Bu böyük ictimai-siyasi xadim üçün az qala "Şimali", "Cənubi" Azərbaycan ədəbiyyatı yox, vahid Azərbaycan ədəbiyyatı anlayışı vardı. Bununla bağlı yalnız bircə nümunə gətirmək kifayətdir: "...H.Əliyevin şəxsi təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycan yazıçılarının 1981-ci ildə keçirilmiş VI qurultayının gündəliyinə ilk dəfə olaraq Cənubi Azərbaycandakı ədəbi proses haqqında məsələ salınmış və bu barədə geniş məruzə dinlənilmiş, Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı problemləri ilə məşğul olan xüsusi katib ştatı təsis edilmiş, Akademiyanın Nizami adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatını araşdıran ayrıca şöbə fəaliyyətə başlamışdı" [5, s. 30].

Əlbəttə, Heydər Əliyevin Azərbaycan ictimai, mədəni, ədəbi həyatının elə bir sahəsini fərqləndirmək mümkün deyildir ki, bu əvəzsiz siyasi xadiminin ölkəmizdəki hər hansı problemlərin bu və ya digər sahələrinin araşdırılmasını birinci yerdə, digərlərini ikinci yerdə və daha sonrakı sırada canlandırsın, diqqət mərkəzinə çəksin. Bununla bağlı T.Kərimli və V.Quliyev yazırlar: "...hələ belə bir statistika aparılmayıb ki, Heydər Əliyev mənəvi həyatımızın hansı sahəsinə daha çox önəm verib, o haqda daha ətraflı bəhs edib, onun inkişafına daha çox diqqət yetirib. Bu cür statistika yəqin heç aparılmayacaqda: çünki Heydər Əliyev bir Azərbaycan aşiqi idi və sevgilisinə aid olan heç bir şey onun üçün dərəcələrə bölünmürdü; Azərbaycanla bağlı olan ən kiçik bir cizgi, ilk baxışda əhəmiyyətsiz görünən ən kiçik bir məsələ də onun üçün birinci dərəcəli önəm daşıyırdı. Azərbaycana, Türk dünyasına aid olan ən kiçik təfərrüatlara, ən xırda detallara belə professional səviyyədə bələd olması da məhz bu sevgidən, bu vurğunluqdan qaynaqlanırdı [3, s. 100]. Bununla belə, Heydər Əliyevin bu sevgisində ədəbiyyatın yerinin yetərincə görümlü olduğunu da etiraf etməmək insafsızlaq olardı. Teymur Kərimlinin isə bu kontekstdə aşağıdakı fikirləri maraqlıdır: "Azərbaycan ədəbiyyatı Prezidentimizn ən etibarlı yol yoldaşı olmuşdur və olaraq qalır. Təsadüfi deyil ki, o, özü də dəfələrlə bir şəxsiyyət kimi formalaşmasında, mənəvi cəhətdən kamilləşməsində doğma ədəbiyyatın əvəzsiz rol oynadığını qeyd edib... Azərbaycan ədəbiyyatının bütün dövrləri, bütün şəxsiyyət və hadisələri Heydər Əliyev üçün eyni dərəcədə doğma və yaxın olmuş, onu eyni dərəcədə maraqlandırmışdır. O, folklor haqqında da, klassik və müasir ədəbiyyatın tanınmış nümayəndələri barəsində də eyni sərbəstliklə mülahizə yürüdür... Azərbaycan yazıçılarının müxtəlif nəsilləri də Heydər Əliyevin şəxsində ən tələbkar oxucu və tənqidçilərini, ədəbiyyatın ən yaxın dostunu və təəssübkeşini görürlər [2, s. 39 – 40].

Qeyd etdiklərimiz sübut edir ki, H.Əliyevin məruzələrində, ictimai həyatımızın müxtəlif sferalarını çevrələyən çıxışlarında, çeşidli məkanlarda baş tutan tədbirlərdə və s. o, daim ədəbiyyatımızın problemlərini diqqət mərkəzində saxlamış, ədəbi-bədii-estetik irsimizə, klassik dövr sənətkarlarımızdan tutmuş, yeni ədəbi qüvvələr tərəfindən ədəbiyyatımızın inkişafına, onun özünəməxsus çalar və istiqamətlər qazanmasına, nəşrinə, yayılmasına və təbliğ edilib, dünyada tanıdılmasına son dərəcə böyük qayğıkeşliklə yanaşmışdır.

Təkcə bir faktı nəzərə alaq ki, Azərbaycanda kiril əlifbasının ləğv edilib latın qrafikasına keçid zamanı Heydər Əliyev bununla bağlı bir neçə sərəncamlar vermiş və yazı qaydalarımızın latın qrafikasında aparılmasına klassik dövr ədəbiyyat nümayəndələrindən tutmuş, 2000-ci illərin əvvəllərinə qədər bədii təfəkkür daşıyıcılarının əsərlərinin yenidən latın qrafikasında nəşr olunmasına böyük məsuliyyət və qayğı ilə yanaşmışdır.

Burada biz Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" kimi dünya epos mədəniyyətinin incisi hesab edilən bu müqəddəs qaynağın 1300 illik yubileyinin keçirilməsi, klassik ədəbiyyat nümayəndələrimizin yaradıcılığına verdiyi qiymət və s. kimi məsələlərə böyük Azərbaycanşünasın milli mədəniyyət bahadırlarına hansı qayğı ilə yanaşmasının əvəzsiz fəaliyyətini də qeyd etməliyik. Onun Nizami Gəncəvinin də, klassik dövrün məşhur filosofu Bəhmənyarın da, riyaziyyatçı-astronom Nəsirəddin Tusinin də, lirik poeziyamızın ünlü nümayəndəsi Füzulinin də... qiyamçı hürufi şairimiz Nəsiminin də və onlarca başqalarının yaradıcılığına verdiyi səriştəli dəyərin son dərəcə maraqla qarşılandığını da yada salmalıyıq.

Bu da məlumdur ki, Nizami Gəncəvinin Azərbaycan xalqının yaradıcı dühasına fars şövinistlərinin, erməni daşnaklarının münasibəti heç vaxt birmənalı olmamışdı. Türklərə ümumiyyətlə, Azərbaycan türklərinə xüsusi olaraq öz ədavət hisslərini coşduran bu mənşəyişübhəlilər ələ düşən ən adi fürsət də belə Nizaminin Azərbaycan xalqına heç bir aidiyyatı olmadığını qabardıb dilə gətirdikdə, o, daim bu tipli çıxışların qarşısını qətiyyətlə almışdı. Məsələn, bir rus müxbir "Nizami" adını onun məxsus olduğu xalqa aid etməyib, "Nizami demişkən", ondan sitat gətirdikdə, o, rus jurnalistinin "unudaraq" Nizaminin milli mənsubiyyətini qeyd etmədiyi halda Heydər Əliyev Nizaminin məhz Azərbaycan xalqının bədii təfəkkürünün məhsulu olduğunu dilə gətirmiş, onu jurnalistə yaxından tanıtdırmağı bacarmışdı.

Heydər Əliyev deyirdi: "... Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir, biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq" [3, s. 111].

Yaxşı yadımdadır. 1973-cü ildə biz M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunun (İndiki Bakı Slavyan Universiteti) ikinci kursunda təhsil alırdıq. Həmin ilin payızında YUNESKO xətti ilə dünya şöhrətli şairimiz İmadəddin Nəsiminin 600 illik yubileyi keçirilirdi. Yubiley tədbirləri son dərəcə möhtəşəm təşkil olunmuşdu. Tədbirdə çoxsaylı tanınmış rus sovet şairləri Nikolay Tixonov, Nikolay Qribaçov, urkaynalı Maksim Tank, "Kuryer YUNESKO" jurnalının baş redaktoru Sendi Koffler və SSRİ xalqları ədəbiyyatının bir sıra tanınmış nümayəndələri iştirak etmişdilər. Bu möhtəşəm mədəniyyət hadisisi televiziya və kütləvi informasiya vasitəsi ilə geniş yayımlanırdı. Həmin yubiley tədbirləri məhz Azərbaycan ədəbiyyatının yorulmaz təbliğatçısı Heydər Əliyevin rəhbərliyi altında baş tutmuşdur. Dövrü mətbuat, media nümayəndələri bu yubileyin əzəmətindən bəhs edirdilər. Nəsiminin 600 illik yubileyindən 20 il sonra isə 1993-cü ildə H.Əliyevin Azərbaycan Elmlər Akademiyasında alimlərlə görüşü olmuşdu. Orada H.Əliyev Nəsimi ilə bağlı keçirilən tədbirlərin həm o dövr, həm də sonrakında mədəni inkişafımızda nə qədər önəmli rol oynadığını qeyd etmişdi. Və söyləmişdi ki, Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictiimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir... Nəsimi yalnız şair deyil, həm də alim, filosofdur [3, s. 121].

Heydər Əliyevin Azərbaycan ədəbiyyatına xüsusi qayğı ilə yanaşması onun 1969-cu ildə hakimiyyətə gəldiyi ilk dövrdən başlamış, ictimai-siyasi, ədəbi-mədəni proseslərə qayğı ilə ciddi nəzarət etməsi ilə ortaya çıxmışdır. Elə ilk vaxtlardan o, nəinki özünü böyük siyasi xadim, həm də ədəbi inkişafı mahiyyəti ilə dərk etməyi bacaran təfəkkür sahibi kimi göstərə bilmişdir. Başqa sözlə desək, o, bu sahədə əsil bilici, mütəfəkkir kimi təsir bağışlamış, ədəbi-mədəni sferanın elə bir sahəsi olmamışdır ki, orada o, öz fikir və duyğularını müdrikcəsinə və uzaqgörənliklə ifadə etməsin.

Heydər Əliyev ədəbiyyatımızın bütün yerlərdə problemlərini öz çıxış və məruzələrində peşəkarlıqla incələyirdi. Buna görə də onun ədəbiyyata marağını yalnız vəzifə və səlahiyyət borcundan irəli gələn yanaşma kimi dəyərləndirmək Ümummilli liderin ədəbiyyat üzrə biliklərinə həqiqətdən kənar yanaşma kimi başa düşmək, elə fikri söyləyinin məsələyə praqmatik yöndən yanaşmadığını o ondaca hiss etmək çətin olmazdı.

Çünki Heydər Əliyev ədəbiyyat nümayəndələrinə qayğını ümumxalq, milli mənafe, ümumdövlət və dövlətçilik mənafeyi cəhətdən dəyərləndirir, ədəbi-bədii nümunələrimizdə yer almış mənəvi-əxlaq dəyərlərimizi onun köməyi ilə əyaniləşdirir, xalqımızın dünya çapında necə böyük ədəbi-mədəni ənənələrə sahib olduğunu hamının diqqətinə heç bir şübhə yeri qoymadan çatdıra bilirdi. Prof. Tərlan Novruzov özünün "Heydər Əliyev və ədəbiyyat məsələləri" kitabında bu böyük ictimai-siyasi xadimin fenomenindən və ədəbi şəxsiyyətlərlə bağlı məsələlərdən danışarkən bu qayğının bir neçə mərhələdə özünü göstərdiyini qeyd edirdi [6, s. 95 – 124].

Tədqiqatçının təsnifatında birinci mərhələ 1964-cu ilə qədərki dövrü əhatə edir. Bu həmin dövrdür ki, Heydər Əliyev Azərbaycan Dövlət Universitetində təhsil aldığı illərdə Bəxtiyar Vahabzadə, Xəlil Rza

Ulutürk və bir sıra başqa bu kimi şair və ədiblərimizi müxtəlif real təhlükələrdən qorumuş, B.Vahabzadənin "Yollar və oğullar", "Mərziyə", "Ağlar – güləyən", "Gülüstan", "Təzadlar" və s., R.Rzanın "Sarı dana", "Novruzgülü", "Rənglər", "Qızıl gül olmayaydı"; X.R.Ulutürkün, M.Süleymanlının, Anarın, Elçinin, S.Əhmədlinin və başqalarının milli vətənpərvərlik, cənub mövzusunda, sovet beynəlmiləlçiliyinə, bu rejimə qarşı aparılan ədəbi mücadilələrə görə onları hər hansı təqibdən kənarda saxlaya bilmişdir [6, s. 100 – 101].

Araşdırma müəllifi Heydər Əliyevin ədəbiyyat nümunələri və nümayəndələrinin qorunulmasına verdiyi dəstəyin ikinci mərhələsi kimi 1976-cı ildə Yazıçıların Bakıda keçirilən VI qurultayı dövrünə təsadüf etdiyini söyləyir. Bu dövrdə H.Əliyev bir qayda olaraq Azərbaycanda sovet ədəbiyyatı günlərinin, Rusiya Federasiyasının mədəniyyət günlərinin, S.Vurğun, S.Rüstəm və digər sənət adamlarının yubileylərinin keçirilməsi, onların əsərlərinin böyük tirajla nəşr olunması, Azərbaycanda ədəbiyyat və mədəniyyət günlərinin, klassiklərin yubiley tədbirlərinin, ədəbi şəxsiyyətlərə göstərilən qayğı, SSRİ-nin və Rusiyanın tanınmış sənət adamlarına, böyük nüfuz sahibi olan və təsir dairəsi geniş olan yazıçı, şair və sənət adamlarının bizimkilərlə yaxından dostluğu, əsərlərinin digər dillərə tərcüməsi və təbliğı, məhz Heydər Əliyevin hakimiyyətə birinci dəfə gəldiyi dövrdən daha çox intensivləşir, planlı xarakter alırdı. Və bütün bunlar Heydər Əliyevin ədəbiyyat siyasətinin ana xəttini təşkil edirdi. Klassiklərimizdən tutmuş müasir şair və yazıçılarımızın hər biri haqqında Heydər Əliyevin fikirləri oxucunu, dinləyiçini, tədqiqatçını heyrətə gətirir, onun dərin ensiklopedik biliyə, fenomenal zəkaya malik olmasının göstəricisi olduğunu təsdiqləyirdi [6, s. 118].

Heydər Əliyevin ədəbi-estetik görüşləri, ədəbiyyat, klassik ədəbi irslə bağlı mülahizələri onun peşəkar ədəbi təfəkkürə malik olmasının mühüm göstəricisi kimi qiymətləndirilməlidir. Ayrı-ayrı çıxış, məruzə və kitablarda yer almış ədəbiyyat haqqında söylədiyi fikirlərdən belə bir qənaətə gəlmək olur ki, o, klassik Azərbaycan ədəbiyyatını, qədim və orta əsrlər ədəbiyyatını, XVIII və XIX əsrlər ədəbiyyatını, XX əsrin əvvəlləri, Cümhuriyyət dövrü ədəbiyyatını, XX əsrin sovet dövrü ədəbiyyatını, müstəqillik dövrü ədəbiyyatını, onların xarakterik inkişaf xüsusiyyətlərini dərindən bilirdi.

Heydər Əliyevin ədəbiyyata baxış və münasibətlərindən bəhs etdikdə, heç şübhəsiz ki, biz bu böyük ictimai-siyasi xadimin nəinki milli ədəbiyyatla bağlı fikir və düşüncələrindən, həm də onun folklor nümunlərimiz, eposlarımız, eyni zamanda türk xalqlarının qədim abidələri (məsələn, dünya şöhrətli qırğız qəhrəmanlıq eposu "Manas"ın 1000 illik yubileyində iştirakı, bu əzəmətli abidə haqqında söylədikləri, müştərək dastanları, ədəbiyyat nümayəndələri ilə bağlı fikirləri), klassik və müasir dövrü ilə bağlı bilgiləri, slavyan və rus xalqının, Şərq və Qərb ədəbiyyatının, o cümlədən keçmiş, SSRİ məkanında yaşayan xalqların ədəbiyyatına dərindən bələdliyinin şahidi oluruq.

Bundan başqa, məsələn, Heydər Əliyev sakral abidəmiz "Kitabi-Dədə Qorqud"la bağlı fikirlər irəli sürərkən o, bu epik nümunəmizlə bağlı elə əsaslı mülahizələr səsləndirmişdir ki, sanki həmin fikirləri ictimai-siyasi xadim, dövlət başçısı yox, böyük eposşünas dilə gətirmişdir [1, s. 5 – 12].

Qədim yazılı abidələr və folklor yaradıcılığının tədqiqatçısı Ağaverdi Xəlil "Folklor və dövlətçilik" adlı araşdırmasında orta çağ türk yazılı abidələrində folklor və dövlətçilik, Orxon-Yenisey, "Divani-lüğət-it türk", "Kutadqu-bilik", "Siyasətnamə", "Xəmsə", "Əxlaqi-nasiri", "Oğuznamə", "Kitabi-Diyarbəkriyyə" və s. mənbələrlə yanaşı, "Xətai və dövlətçilik", "Azərbaycancılıq və azərbaycanşünaslıq" kimi bölmələrlə bağlı qənaətlərini ortaya qoyduqdan sonra "Dövlətçilik və mərasim folkloru" bölməsində ayrıca olaraq Heydər Əliyevin dövlətçilik konsepsiyasında foklora necə böyük önəm verdiyi gərəyincə vurğulanır. Müəllif yazır: "İctimai həyatımızın elə sahəsi yoxdur ki, orada Heydər Əliyevin qurucu fəaliyyətinin fundamental nəticələri aydın şəkildə görünməsin. Bu sahələrdən biri də ümumilli liderin mərasim mədəniyyəti sahəsindəki quruculuq fəaliyyətidir" [4, s. 66]. Daha sonra isə A.Xəlil fikirlərinə davam edərək belə bir məsələyə nəzər yetirməyi də zəruri sayır: "Ümummilli liderin müxtəlif mərasimlərdə, görüşlərdə və başqa tədbirlərdə etdiyi çıxışları, söylədiyi nitqləri, verdiyi fərmanlar və göstərişlər üzərində müşahidələrdən aydın olur ki, bu böyük şəxsiyyətin milli-mənəvi quruculuq siyasəti

mükəmməl konseptual əsaslara malikdir: onun strategiyası və taktikası mövcuddur" [4, s. 70]. Əslində tədqiqatçının gəldiyi bu qənaətlərlə biz də razıyıq. Eyni zamanda folklor yazılı ədəbiyyatın özülünü təşkil etdiyindən Heydər Əliyevin folklor mərasimləri ilə bağlı konsepsiyasının strateji kursunda və taktikasında birbaşa ədəbiyyat məsələlərinin əksər tərəflərinin əks olunduğunu görməməkdə mümkün deyildir.

Eyni zamanda həm də belə bir qənaətdəyik ki, Heydər Əliyevin adlarını yuxarıda sadaladığımız sahələrə böyük məsuliyyət və qayğı ilə yanaşması onun içində daim boy verən iki mühüm aspekt məslək və ideoloji düşüncəsini qaynaqlandıran istiqamətlərlə bağlı idi. Onlardan biri dövlətçilik, ikincisi azərbaycançılıq məfkurəsini özündə ehtiva edirdi. Fikrimizcə, o, dövlətçilik və azərbaycancılıq ideoloji düşüncəsini xalqımızın zənqin ictimai-mədəni, mənəvi-əxlaq kefiyyətlərindən gələn özüllər üzərində uğurla qururdu. Bu isə tamamilə yeni fərqli tarixi-ictimai, nəzəri-praktik aspektlərin diqqətlə çözülməsini özündə birləşdirən məsələdir. Qətiyyətlə bildiririk ki, Heydər Əliyevin mahiyyətində bu iki bir-biri ilə üzvi şəkildə birləşmiş komponentlər onun dövlətçilik və azərbaycancılıq ideyalarının nüvəsini təşkil etməklə nəticədə milli ideologiyamızın aparıcı magistralına çevrilə bildi. Çağdaş mərhələdə irətliləyişimiz məhz təfəkkürümüzdə daşlaşmış bu müstəvidə ortaya gələnlərlə formalaşacaq, uğurlar qazanacaqdır.

Qeyd etdiklərimiz bir daha göstərir ki, Heydər Əliyevin folklor, milli-mədəni irs, epos, qədim, klassik, orta əsrlər, yeni dövr, XIX əsr, XX əsrin əvvəlləri, sovet dövrü və XX əsrin sonlarında yaranmış ədəbiyyat nümunələri və ədəbi şəxsiyyətlərin yaradıcılığı ilə bağlı onun ortaya çəkdiyi məsələlər getdikcə daha çox diferensiasiya edilməli və yeni konsepsiyalaşmış müstəvidə təhlil süzgəcindən keçirilməlidir. Buna görə də, hesab edirik ki, Heydər Əliyevin ədəbi-mədəni düşüncə və sənət nümayəndələri ilə bağlı söylədikləri gələcəkdə, daha səmərəli nəzəri baza üzərində tədqiqatlara cəlb edilməlidir.

## Ədəbiyyat siyahısı:

1. Əliyev H. Milli varlığımızın mötəbər qaynağı // Kitabi-Dədə Qorqud ensiklopediyası. İki cilddə, I cild. Bakı, "Yeni Nəşrlər Evi", 2000, s. 5 – 12.
2. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Elm", 1998, s. 39 – 40).
3. Kərimli T., Quliyev V. Heydər Əliyev və klassik ədəbiyyat // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s. 91 – 203.
4. Xəlil A. Folklor və dövlətçilik. Bakı, "Elm və təhsil", 2014, 84 s.
5. Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. Bakı, "Çinar-Çap", 2007, 136 s.
6. Novruzov T. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı, 2007, 400 s.

**Nizami Mammadov**

## HEYDƏR ƏLİYEVİN SİYASİ BAXIŞLARINDA AZƏRBAYCAN ƏDƏBİYYATINA QAYĞI MƏSƏLƏLƏRİ

**Summary:** In the presented material, we analyze the attitude of the national leader Heydar Aliyev to Azerbaijani culture and literature. It should be noted that Heydar Aliyev for a long time during the years of Soviet power, from 1969 to 1983, worked as the First Secretary of the Central Committee of the Communist Party of Azerbaijan, since 1983 he was in the position of First Deputy Chairman of the Council of Ministers of the USSR, during the years of Gorbachev's perestroika, not sharing the opinion of the General Secretary of the Central Committee of the CPSU M.S. Gorbachev, resigned from his post, speaking out against the invasion of the armed forces of Armenia on Azerbaijani lands and the 366th motorized rifle division, which devastated Azerbaijani cities and villages on the territory of Nagorno-Karabakh, condemned the Armenian aggression against sovereign Azerbaijan and against the introduction of Soviet troops into Baku, rampaging in the capital of Azerbaijan, killing hundreds of civilians. In 1993,

at the insistence of the people, having returned to the leadership of the Republic, Heydar Aliyev devoted his entire conscious life to the development and formation of ideas of statehood and national identity, where he paid close attention to the problems of the model of Azerbaijanism, attitude to the classical heritage, patriotic aspects, prospects for the development of national culture, priorities national art, the main directions of the development of the Azerbaijani language, Azerbaijani folklore and the epic past, the development of Azerbaijani literature, and many others. etc. Speaking about the fundamental role of Heydar Aliyev in the life and history of the people, we dwell in more detail on the issue of Heydar Aliyev and the problems of the development of Azerbaijani fiction. Analyzing the activities of H. Aliyev in terms of his views on representatives of literature and samples, we briefly cover the titanic work of an outstanding politician and leader of our state in this aspect.

**Key words:** socio-political and cultural-literary aspect, development of literature, struggle for national interests, propaganda of the classical heritage, concern for writers, thoughts about epic monuments and figures.

**EOS:33**

**Uzun Yilmaz Ulvi**
**Bitlis Eren University, Turkey,**
**professor**
**E-mail: yuuzun@beu.edu.tr**

# HAYDAR ALİYEV'İN TÜRK DÜNYASINDAKİ ROLÜ VE HAYDAR ALİYEV DÖNEMİ AZERBAYCAN EKONOMİSİ

**ÖZET:** Sayın Haydar Aliyev'in; 1969-1982 ve 1993-2003 yılları arasında görevde bulunduğu dönemlerde uygulamış olduğu kalkınma ve ekonomik büyüme politikaları Azerbaycan'ın sosyo-ekonomik gelişiminde önemli etkiler yaratmıştır. Türk Dünyası için önemli bir rol model olan Haydar Aliyev aynı zamanda bugün Azerbaycan Cumhuriyeti'nin küresel ekonomide üstlendiği önemli rol ve başarılarında mimarıdır. Haydar Aliyev'in uyguladığı politikalar Azerbaycan'ın günümüze değin uzanan politik ve ekonomik gücünün belirleyici unsurları olmuştur. Bu düsturdan hareketle bu çalışmada Haydar Aliyev'in Azerbaycan ekonomisinin büyümesi ve kalkınması yönünde attığı önemli adımların günümüz Azerbaycan ekonomisini ne yönde geliştirdiğini ele alınmıştır. Öte yandan günümüzün en önemli siyasi ve ekonomik ortak aktörü olan Azerbaycan Cumhuriyeti özelinde elde edilen çok yönlü başarıların, Türk Dünyası ve Türk Devletleri Teşkilatı üzerindeki yansımaları çalışmada incelenen bir diğer alanı oluşturmaktadır.

**Anahtar Kelimeler:** Haydar Aliyev, Türk Dünyası, Azerbaycan Ekonomisi.

**GİRİŞ** Haydar Aliyev, Azerbaycanın son dönemlerde yetiştirmiş olduğu önemli devlet insanlarından birisidir. Haydar Aliyev bu özelliğinden dolayı hem Azerbaycan'da hemde dünya çapında tanınan ve saygı duyulan önemli bir liderdir. Haydar Aliyev birçok kaynakta sadece Azerbaycan halkının değil, ayrıca tüm Türk Dünyasını oluşturan halkarında lideri olarak bilinmektedir (Ahundova, 2019). Haydar Aliyev'e atfedilen bu önem, Aliyev'in Azerbaycan Devletinin geleceğini inşa ederken aynı zamanda Türk Dünyasınında geleceğinide inşa etmesinden ileri gelmektedir. Bilhassa 1969-1982 ve 1993-2003 yılları arasında görevde bulunduğu dönemlerde uygulamış olduğu kalkınma modelleri ve ekonomik büyüme politikaları ile ülkenin ekonomik krizlerden çıkarak refaha ulaşmasında önemli rol oynayan Aliyev, aynı zamanda Türk Dünyası adına da önemli işlere imza atmıştır. Günümüz Azerbaycan Cumhuriyetinin dünya siyasetinde ve ekonomisinde bu kadar önemli bir yere sahip olmasında ve Türk Dünyasının bir çatı altında toplanarak günümüzün küresel bir gücü haline dönüşmesinde Aliyev'in önemi ve katkısı oldukça büyüktür.

## HAYDAR ALİYEV'İN TÜRK DÜNYASINDAKİ ROLÜ

Haydar Aliyev, Azerbaycanın kuruluşundan günümüze kadar uzanan bu önemli süreçte, ülkesi için önemli büyük projelere imza attığı gibi aynı zamanda Türk Dünyasının da bir çatı altında toplanarak bir güç birliği etrafından toplanması yönünüde de büyük gayret ve çabalar göstermiştir. Bu kapsamda Aliyev "Tek Millet, İki Devlet" inancı ile yola çıkarak Türk Dünyasının bir çatı altında buluşması için çok emek harcamış ve bunu; "Türk Dünyasının birliği önemlidir, dünyada yaşayan 250 milyondan fazla Türk, başta Türkiye olmakla er yada geç tek çatı altında birleşmeliler. Biz bir bütün olduğumuzda hiçbir yabancı ülke dâhili işlerimize karışamaz" (Neimetzade, 2022) sözleri ile ifade ederek bu kutlu yola baş koyduğunu göstermiştir.

Öte yandan Aliyev'in Azerbaycan cumhuriyeti yönetimine geldikten sonra yine bu kapsamda; ülkenin sosyo-ekonomik ve siyasi sorunlarının çözülmesi hususunda Türk Dünyasının mevcut potansiyelinden yararlanılması, Türk Dünyasını ilgilendiren genel sorunlarının çözümünde birlikte hareket edilmesi ve yine Türk dünyasının uluslararası düzeyde tanınırlığını artırmak için her bir bağımsız Türk Devletinin potansiyelinden ayrı ayrı faydanılması gerektiği gibi önemli fikirleri savunarak

günümüze ışık tutumuştur (Acar, 2020). Bunun yanında Aliyev, Türkiye Cumhuriyenin ve Mustafa Kemal Atatürk'ün; Türk Dünyasının birleştirilmesi ve güçlendirilmesi hususunda oynamış olduğu kilit rolü her zaman takdir ederek kendisine örnek almıştır. Bu bağlamda Azerbaycan Cumhuriyetinde "Azerbaycan Atatürk Merkezi" açılarak Türk Dünyasının birliği kapsamında faliyetlerini yürütmesi her iki ülkeninde Türk Dünyasına vermiş olduğu önemi göstermektedir (Adıgüzel, 2007). Merhum Aliyev zamanında, Türkiye Cumhuriyeti ile kurulan sağlam ikili ilişkiler günümüze kadar kardeşlik ve dostluk çerçevesinde yürütülerek, her türlü zor koşullarda beraber olan ve birlikte hareket eden bir birlikteliğe dönüşmüş ve bu durum ikili ilişkilerde en üst seviyenin yakalanmasını sağlamıştır. Azerbaycan ve Türkiye açısından büyük bir önem taşıyan bu ikili ilişkiler aynı zamanda Türk Dünyasının bir çatı altında toplanmasına da olumlu yansımıştır.

Haydar Aliyev ve Mustafa Kemal Atatürk'ün iki ülkenin kardeşliği, dostluğu ve bunun yanında Türk Dünyasının birleştirilmesi hususunda izlemiş oldukları bu önemli stratejik politika, günümüz ülke liderleri tarafından da desteklenerek, bugün bu politikalrın tamamen farklı bir boyut kazandığı görülmektedir. Bu farklı boyut; Azerbaycan Cumhurbaşkanı İlham Aliyev ve Türkiye Cumhurbaşkanı Recep Tayyip Erdoğan'ın birlikte yürütmüş oldukları ileri görüşlü stratejik ve vizyoner politikalarının doğrudan bir sonucu olarak ortaya çıktığı söylenebilir. Bu kapsamda 3 Ekim 2009 yılında Azerbaycan Cumhurbaşkanı İlham Aliyev ve Türkiye Cumhurbaşkanı Recep Tayyip Erdoğan'ın girişimleri ile; Türk Devletleri Nahçivan'da bir araya gelmiş ve gerçekleştirilen toplantı sonucunda "Türk Konseyi" birliği kurulmuştur (Anas, 2020). Bu toplantı özünde Sovyetlerin dağılması ve Türk Devletlerinin bağımsızlıklarını ilan etmeleri ile beraber Türk devletleri arasında başlayan bu çok yönlü önemli ilişkilerin 2009 yılında yapılan toplantı ile resmiyet kazanmasına olanak sağlamıştır. Ayrıca günümüze kadar kendi aralarında birçok toplantı gerçekleştirmiş olan bağımsız Türk Devletleri en son alınan nihayi karar ile "Türk Devletleri Teşkilatı" ismi çatısı altında toplanarak tüm dünayaya; amaç, kapsam ve hedeflerini resmi bir şekilde ilan etmişlerdir. Geçmişten günümüze izlenen doğru politikar nihayetinde Türk Devletlerinin aynı amaç ve kapsam etrafında tek bir çatı altında birleşerek küresel bir güce dönüşmesine katkı sunmuştur.

## HAYDAR ALİYEV DÖNEMİ AZERBAYCAN EKONOMİSİNİN GENEL DURUMU

Azerbaycan'ın toprak bütünlüğünün ve egemenliğinin uzun yıllar boyunca tehdit altında olduğu tüm dünyaca bilinmektedir. Söz konusu bu tehditler Azerbaycan'ın istikrarlı bir şekilde uygulamaya çalıştığı kalkınma ve büyüme politikalarını olumsuz yönde etkileyerek, Azerbaycan ekonomisinin pek çok kez ekonomik krizlerle karşı karşıya kalmasına neden olmuştur (Bayromov, 2010). Öte yandan Sovyetlerin dağılması ile birlikte ülke de aniden serbest piyasa ekonomisine geçilmesi piyasalarda şoko-terapi etkisi yaratmıştır. Bunun haricinde idari yönetimde görülen eksiklikler ve boşluklarla beraber hala o dönemde etkisini sürdüren Dağlık Karabağ krizi, ülke ekonomisine zarar veren diğer olumsuz faktörler olarak sıralanabilir (Azimzadeh, 2019). Diğer yandan Azerbaycan topraklarının petrol ve doğal gaz başta olmak üzere zengin mineral kaynaklarına sahip olmasına rağmen, ülkede görülen bu olumsuzluklardan dolayı, sahip olduğu bu yüksek ekonomik potansiyelin ülke ekonomisine kazandırılamaması ve bunun bir sonucu olarak ülkede görülen ekonomik krizlerde artışların yaşanması toplumda ayrıca derin sosyo-ekonomik sorunların oluşmasına neden olmuştur. Azerbaycan devletinin yaşamış olduğu bu ekonomik sorunlar döneminde yönetime gelen Haydar Aliyev; 1969-1982 ve 1993-2003 yılları arasında görevde bulunduğu dönemlerde uygulamış olduğu kalkınma modelleri ve ekonomik büyüme politikaları ile ülkenin ekonomik krizlerden çıkarak refaha ulaşmasında önemli rol oynamıştır. 1969 yılında göreve başlayan Aliyev; ilk olarak ülkenin ekonomik potansiyelini çok iyi bir şekilde analiz ederek ülkenin var olan bu güçlü potansiyelinin ekonomiye kazandırılmasını sağlamış ve ülkenin milli gelirinin 1969-1982 yılları arası dönemde tam 2,5 kat oranında artmasının önünü açmıştır. Bunun yanında yine aynı dönemde sanayideki üretim hacminin de 7,9 kat oranında artış olduğu görülmektedir (Bugodov, 2017).

Aliyev, ayrıca bu dönemde sermaye yatırımlarına, inşaat sektörüne, alt yapıya, ulaşım ağlarına ve lojistik alanına yapılan yatırımlara önem verdiği gibi aynı zamanda yeni fabrikaların kurulmasına da ağırlık vermiştir. Bunun yanında ayrıca petrol dışı sektörlerinde gelişmesi için farklı politikalar uygulayan Aliyev, ülkede sanayinin gelişmesini, üretimin artmasını ve ekonomide dengeli büyümeyi öncelikli hale getirmiştir. Bu durum ülke ekonomisinin hızla gelişmesini ve toplumun refaha kavuşmasını sağlamıştır. Diğer taraftan halkına büyük değer ve önem veren Aliyev, ülkedeki sağlık hizmetlerine ve eğitim alanlarına da büyük yatırımların yapılmasını sağlayak önemli eğitim krumlarının ve hastanelerinin inşaatlarını geçekleştirirerek kısa süre içerisinde halkın hizmetine açmıştır. Ayrıca ülkede tarım ve hayvancılığın geliştirilmesi ve güçlendirilmesi için gerekli tedbir ve teşvik planlarınıda hayata geçirerek ülkenin bu alanda da güçlenmesini ve söz sahibi olmasını da sağlamıştır (BAKI-UNEC-2021). Fakat Haydar Aliyev'in 1982 yılında görevden ayrılması ve devamında sovyetlerin dağılması ile birlikte ülkede tekrardan sosyo-ekonomik istikrarsızlıkların baş gösterdiği söylenebilir. 1969-1982 yılları arasında önemli işlere imza atan Aliyev, 1993 yılında Azerbaycan halkının oyları ile tekrardan ülke yönetimine gelmiştir. Yönetime tekrar gelen Aliyev; bırakmış olduğu önemli işlere kaldığı yerden başlayarak uygulamış olduğu stratejik ve önemli ekonomi politikaları sayesinde ülkenin var olan sosyo-ekonomik sorunlarının azaltılmasında önemli rol oynamıştır (Beşikçi, 2016). Uygulanan önemli ekonomi politikaları sayesinde; ülkedeki Gayri Safi Yurtiçi Hasılanın 1988 yılından beri ilk defa 1996-2005 yılları arasını kapsayan dönemde yüzde 368'lik bir oranda artış yaşandığı görülmektedir. Öte yandan 1995 yılında, ülkenin kişi başına düşen milli geliri 323 dolar seviyelerinde iken, bu oranın 2003 yılında 865 dolar seviyelerine ulaştığı görülmektedir. Ayrıca 1995-2004 yılları arası dönemde ülkedeki ortalama ücretlerin yüzde 760 oranında bir artışın gerçekleştiğide söylenebilir (Kalaycı, 2013).

Bu dönemde Ayrıca, ülkenin hukuki alt yapısına, kanunlara, yönetmeliklere ve mevzuatlara da önem veren Aliyev, Azerbaycan devletinin sağlam hukuk temellerini atarak ülkenin kurumsallaşmasınında önünü açmıştır. Hukuki yönden güçlenen ülke; doğrudan yabancı sermayenin ülkeye çekilmesinin ve ülkede büyük yabancı yatırımların gerçekleştirilmesinin önünü açarak, ülkede büyük bir ekonomik reformun yaşanmasını sağlamıştır. Dolayısı ile yine budönemde ülkede dış ticaret hacimlerininde arttığı söylenebilir (Azerbaycan Respublikası Xocavend Rayon İcra Hakimiyeti, 2020).

**SONUÇ** Aliyev, tüm hayatını kendi ülkesine ve Türk Dünyasına adayan önemli bir şahsiyet olarak arkasında çok büyük önemli eserler bırakmıştır. Özellikle Azerbaycan devletinin kurulması, bağımsızlığını kazanması ve ülkesinin günümüzde bu kadar güçlü hale gelebilmesi için görevde bulunduğu süre içerisinde önemli projelere imza atan Haydar Aliyev, aynı zamanda Türk Dünyasının da birleştirilmesi ve bir çatı altında buluşturulması içinde büyük gayretler göstermiştir.

Ülke ekonomisi bağlamında; Aliyev döneminde uygulanan ekonomi politikalarının geçmiş dönemlerle kıyaslandığında ülke ekonomisini daha iyi seviyelere taşıdığı görülmektedir. Fakat ülkenin sahip olduğu ekonomik potansiyel özellikle enerji başta olmak üzere tarım ve hayvancılık alanında da çok iyi seviyelerde olduğu görülürken bunun ülke ekonomisine tam olarak kazandırılamaması bazı handikaplarıda beraberinde getirmektedir. Dolayısı ile ülkenin sahip olduğu zengin mineral kaynaklarının daha verimli şekilde kullanılarak buralardan elde edilen gelirlerin reel yatırım alanlarına doğru kaydırılması; istikrarlı ekonomik büyümenin ve kalkınmanın önünü açacağı gibi aynı zamanda ekonomide yaşanması olası handikapların da önüne geçilmesini sağlayacaktır.

Günümüz Azerbaycan Cumhuriyetinin sosyo-ekonomik durumu bizlere; Aliyev'in o dönemlerde almış olduğu kararların bugün ne kadar önemli ve doğru olduğunu göstermektedir. Azerbaycan Cumhuriyetin günümüzde ekonomi başta olmak üzere birçok alanda söz sahibi olmasında ve Türk Dünyasının aynı amaç ve kapsam etrafında buluşarak bir güç birliğine dönüşmesinde Aliyev'in rolü büyüktür. Dolayısı ile bizler bu bağlamda Sayın Aliyev'i Azerbaycan halkı ve Türk Dünyası için yapmış olduğu önemli işlerden dolayı; sadece onu anarak değil, onu iyi bir şekilde anlayarak ve gelecek nesillere en iyi şekilde anlatarak, ona karşı olan vefa borcumuzu yerine getirmiş olacağız.

## Kaynakça

1. Acar, Z.Z. (2020). Türkiye – Azerbaycan ilişkilerinde "Haydar Aliyev", https://yesiligdir.com/yazar/yazi/7547, Erişim Tarihi: 20.03.2023.
2. Adıgüzel, H. (2007). Zirve Haydar Aliyev'in Hayatı, İleri yayınları, İstanbul, http://anl.az/el_en/s-12727.pdf, Erişim Tarihi: 20.03.2023.
3. Ahundova, E. (2019). "Haydar Aliyev: Şahsiyet ve Çağ, Kremlin de Beş Yıl, Dönüş" isimli kitabı, http://www.marmaragrubu.org/elmira-ahundovanin-haydar-aliyev-kitabinin-tanitimi-, Erişim Tarihi: 20.03.2023.
4. ANAS Felsefe Enstitüsü Bilimsel İşlerden Sorumlu Müdür Yardımcısı, Tarih Doktoru, Olağanüstü ve Tam Yetkili Büyükelçi. (2020). https://www.yeniazerbaycan.com/Siyaset_e53032_az.html, Erişim Tarihi: 20.03.2023.
5. Azerbaycan Respublikası Xocavend Rayon İcra Hakimiyeti, 2020. Hayder Aliyev ve Azerbaycanda İgtisadi Dirçeliş.
6. Azimzadeh, A. (2019). Azerbaycan'ın Ekonomik Kalkınmasında Haydar Aliyev Reformları, Akademik Kaynak, https://www.akademikkaynak.com/azerbaycanin-ekonomik-kalkinmasinda-haydar-aliyev-reformlari.html, Erişim Tarihi: 23.03.2023.
7. Bayromov, E. (2010). "Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası",http://anl.az/down/meqale/xalqqazeti/2010/may/119632.htm, Erişim Tarihi: 20.03.2023.
8. Bugadov, T. (2017). Haydar Aliyev Azerbaycan'ın sosyo-ekonomik kalkınma stratejisinin kurucusudur, https://www.yeniazerbaycan.com/Siyaset_e34690_az.html, Erişim Tarihi: 20.03.2023.
9. Neimetzade, E. (2022). Türk dünyasının büyük Evladı, Haydar ALİYEV (2. yazı), https://www.anadolugazete.com.tr/turk-dunyasinin-buyuk-evladi-haydar-aliyev-2-yazi-6121yy.htm, Erişim Tarihi: 20.03.2023.
10. Beşikçi, S.Ö. (2016). Bağımsızlık Sonrası Dönemde Azerbaycan Dış Politikasındaki Stratejik Değişimler ve Yönelimler, Türk Dünyası İncelemeleri Dergisi. 16/2 Kış-Winter 2016.
11. BAKI-UNEC, (2021). "Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar: nəticələr və perspektivlər", 2021.
12. Kalaycı, İ. (2013). Kafdağı'nın Önündeki Ekonomi: Modernleşen Azerbaycan, Avrasya Etüdleri, 43/2013-2 (27-56).

**EOS 330**
**Orcid No: 0000-0002-9084-6987**

**Hakan Kaya**
**Bitlis Eren Universitesi, Türkiye**
**Dr.**
**E-mail: hkaya@beu.edu.tr**

# HAYDAR ALİYEV'DEN GÜNÜMÜZE AZERBAYCAN'DA BEŞERİ SERMAYE VE İNOVASYONUN GELİŞİMİ

**Özet:** Azerbaycan günümüzde hem Türk Dünyası hem de küresel ekonomide önemli bir güç olarak konumlanmaktadır. Azerbaycan'ın sahip olduğu bu büyük gücün ardında Haydar Aliyev'in Azerbaycan'ın sosyo-ekonomik gelişim sürecinde üstlendiği rolün etkileri açıkça görülmektedir. Bağımsızlık sonrası birçok alanda gelişim gösteren Azerbaycan ekonomisi bilhassa yer altı kaynaklarının ülke ekonomisine kazandırılmasıyla hızlı bir büyüme ve kalkınma sürecine girmişse de bazı sosyo-ekonomik alanların geliştirilmesine yeterli ağrılık verilememiştir. Merkezi planlamanın bir sonucu olduğu ileri sürülen bu durum beşeri sermayenin endüstri ihtiyaçlarına cevap verme kabiliyetinin düşük olmasıyla açıklanmaktadır. Bu çalışmada Azerbaycan ekonomisinde beşeri sermaye ve inovasyon kapasitesinin gelişim süreci ele alınmıştır. Beşeri sermaye ve inovasyonun Azerbaycan özelinde tüm Türk Devletleri'nde başta büyüme olmak üzere, işgücü geçişkenliğini artıracağı, katma değeri yüksel mal ve hizmet ihracatına olanak sağlayacağı ve ülkelerim ödemeler dengesi üzerine pozitif katı sağlayacağı öngörülmektedir.

**Anahtar Kelimeler:** Haydar Aliyev, Beşeri Sermaye, İnovasyon

**GİRİŞ** Sovyetler birliğinin dağılmasının ardından bağımsızlığını ilan eden Azerbaycan'ın ekonomik, siyasi ve politik hayatının şekillenmesi sürecinde Haydar Aliyev önemli bir rol üstlenmiştir Bağımsızlığın kazanılmasının ardından 1993 yılında Azerbaycan'ın Cumhurbaşkanlığı görevini üstlenen Haydar Aliyev, bugün Azerbaycan'ın sahip olduğu politik ve ekonomik konumu güçlendiren pek çok önemli adım atmıştır (Kalaycı,2013). Bilhassa iktidara geldiği ilk yıllarda Karabağ'da ateşkes sağlaması, siyasi istikrarsızlıkları sona erdirmesi ve Azerbaycan'ın başta petrol ve doğal gaz rezervleri olmak üzere sahip olduğu yer altı kaynaklarını ülke ekonomisine kazandırması Aliyev'i Azerbaycan'ın en önemli lideri haline getirmiştir (Demirci ve Dikkaya,2013).

Haydar Aliyev, Azerbaycan Cumhuriyeti için dinamik bir kalkınma stratejisinin temelini oluşturan tarihi gelenekleri ve modern kalkınma eğilimlerini birleştirerek, ülkenin ulusal çıkarlarını en üst noktaya çıkartmayı amaç edinmiştir (Ilgar,2022). Ancak Sovyetler Birliği sonrası Azerbaycan ekonomisinin modernleşmesi, kalkınması ve büyümesi sancılı bir süreç içinde gerçekleşmiştir. Bilhassa Karabağ Savaşı'nın neden olduğu ekonomik istikrarsızlık Azerbaycan'ın kalkınma ve ekonomik dönüşüm için ihtiyaç duyduğu yatırımların hayata geçirilmesini yavaşlatmıştır. Sovyet yıllarından kalan yerli üretim ağlarının kopması (Dikkaya ve Çaylak,2008) ve çatışma ortamında yatırımlar için güven olgusunun tesis edilememesi, Azerbaycan'ın kaynak eksikliği ve ülkenin sahip olduğu büyük petrol ve doğal gaz kapasitesinin kullanılamaması Aliyev'in kalkınma ve büyüme hedeflerine ulaşma yönünde karşılaştığı en önemli sorunların başında gelmekteydi. Öte yandan Sovyet-sosyalist geleneğin ardından SSCB'nin merkezi planlama ile yönetilen Azerbaycan'ın dışa açıklık politikası ile birlikte sosyalizmden serbest piyasa ekonomisine geçiş süreci artan enflasyon ile birlikte Kalaycı (2013)'ün tanımıyla "içeride açlık" problemine dönüşmüştü (Kalaycı,2013).

1994 yılında Karabağ Savaşı'nın sona ermesine kadar geçen bu sancılı süreç nihayetinde ateşkes imzalanmasıyla birlikte Azerbaycan ekonomisinin gelişmesinde etkisini göstermiş ve başta petrol üretimi ve petrol ihracatında görülen artış olmak üzere, savunma harcamalarının azaltılarak kaynakların ekonomide daha verimli alanlara doğru yönlendirilmesi, devletin liberalleştirilmesine ve devletin küçülmesine yönelik atılan adımlar Azerbaycan ekonomisi ve politikasının geliştirilmesine olumlu katkı sunmuştur (Demirci ve Dikkaya,2013). Ancak; Azerbaycan'ın ekonomik büyümesinde önemli bir yere sahip olan petrol ve enerjinin yanı sıra yabancı yatırımların teşvik edilmesine yönelik atılan adımlar, hali hazırda büyüme gösteren ekonomide bazı sosyo-ekonomik alanların geliştirilmesini geri planda bırakmıştır. Bu alanların başında beşeri sermaye yatırımları ve inovasyonun geliştirilmesine yönelik AR-GE faaliyetleri yer almaktadır. Beşeri sermaye ve inovasyonun gelişiminin ekonomik büyüme ve kalkınma için önemli fırsatlar barındırması, ülkelerin söz konusu alanlarda gelişim göstermelerini de kaçınılmaz hale getirmiştir. Bu bağlamda çalışmanın izleyen bölümünde beşeri sermaye ve inovasyonun teorik yapısı sunularak, beşeri sermaye ve inovasyonun Azerbaycan ekonomisinde gelişim süreci ele alınmıştır.

## BEŞERİ SERMAYE VE İNOVASYONUN TEORİK YAPISI

Beşeri sermayenin geliştirilmesi ülkenin mevcut yapısal unsurlarının geliştirilmesi için önemlidir. Toplumun üretken güçlerinin bilgi ve becerilerini artırmaya yönelik faaliyetlerin tümünü kapsayan söz konusu kavram ülkenin üretim kapasitesinin artırılması ve kaynakların verimli alanlara yönlendirilmesi süreçlerinde belirleyici bir unsurdur. Günümüz küresel dünya ekonomisinde bilgi faktörünün önemi göz önünde bulundurulduğunda, bilginin geliştirilmesi ve geliştirilen bilginin doğru alanlarda kullanılma biçimi ülkelerin refah düzeyleri üzerinde etkili olan başat unsurlar arasında gösterilmektedir. Beşeri sermayenin gelişimine paralel biçimde ortaya çıkan inovasyon faaliyetleri neticesinde küresel ekonomide daha rekabetçi ekonomilerin ortaya çıktığı literatürde üzerinde önemle durulan konuların başında gelmektedir. Örneğin; Eriksson vd. (2022)'ye göre beşeri sermaye ve inovasyon üretim sürecinde maliyetlerin azaltılması, ürün çeşitlendirmesi ve istihdam üzerinde olumlu etki yaratma potansiyeli nedeniyle en önemli faktörlerin başında gelmektedir. Literatürde içsel büyüme modellerini konu edinen çalışmalar başta olmak üzere, beşeri sermayenin yeniliğin önemli bir parçası olduğuna ve yeniliğin de GSYİH büyümesine katkıda bulunduğu sıklıkla vurgulanmaktadır (Pelinescu,2015). Beşeri sermaye ve inovasyonun birbirini tamamlayıcı niteliği ülkelerin gelişmişlik düzeylerinin belirlenmesi yönüyle de önemlidir. Kimi ülkelerin daha üretken ya da zengin olmaları mevcut beşeri sermaye kapasitesinin çeşitlendirilmesine ve kaynakların optimal alanlara yönlendirilmesiyle ilişkilidir. Arıç vd.(2022)'nin belirttiği üzere Avrupa'nın batısında yer alan çağdaş batı ülkeleri üretkenlik ve refah artışlarını eğitim sistemlerini endüstrinin ihtiyaçlarına göre kurmalarına borçludur. Oysa Sovyetler Birliğinden ayrılan ve 1990 sonrası bağımsızlıklarını kazanan Türk Devletlerinde eğitim planlamasının merkezi otorite tarafından yapılması piyasa ihtiyaçlarının göz ardı edilmesine neden olmuştur. Bu durum ise beşeri sermaye kaynaklarının optimallikten uzaklaşmasına ve uzmanlaşma ve iş bölümüne yönelik üretim biçiminin sona ermesine neden olmuştur (Arıç vd.2022). Oysa içsel büyüme teorilerinde nüfus yapısına bağlı olarak planlanan beşeri sermaye ve beşeri sermaye yatırımlarının büyüme üzerindeki etkisi birden fazla kanalı içermektedir. Beşeri sermayedeki artış üretim sürecinde işgücü verimliliğini artırarak üretimi doğrudan etkilemesinin yanı sıra beşeri sermayenin AR-GE'nin önemli bir girdisi olması nedeniyle teknolojik değişimi hızlandırarak emek verimliliğini dolaylı olarak artırma potansiyeline sahiptir (Cinnirealla ve Streb,2017).

Bugün Azerbaycan'ın küresel ekonomide edindiği önemli güç Haydar Aliyev ekseninde devam etse de beşeri sermaye yatırımları ve inovasyonu artırmaya yönelik faaliyetler tüm Türk Devletlerinde görüldüğü biçimde var olan potansiyelinin altındadır. Azerbaycan hükümetinin birincil hedefi

ekonomik çeşitliliği hızlandırmak, petrol ve doğal gaz gelirlerinin seviyesi ne olursa olsun petrol dışı sektörde de hızlı büyümeyi sürdürmek, rekabet gücünü artırmak ve uzmanlık fırsatlarını genişletmektir. Bu doğrultuda Azerbaycan hükümeti Aralık 2016'da Mesleki Eğitim ve Öğretim (MEÖ) 2016–2025 için Stratejik Yol Haritasını uygulamaya koyarak MEÖ için yeni bir olumlu imaj yaratmak; geliştirilmiş bir kamu-özel ortaklığına dayalı olarak MEÖ sağlayıcıları için bir yönetim yapısı oluşturmak; rasyonelleştirilmiş ve optimize edilmiş bir kamu MEÖ sağlayıcıları ağı oluşturmak; MEÖ sisteminin özel sektör için çekiciliğini artırmak; ve MEÖ profillerinde ileri teknoloji ile donatılacak 10 MEÖ okulunu işler hale getirmek gibi amaçlar belirlemiştir. Bunun yanı sıra Azerbaycan, Avrupa Birliği (AB) yıllık eylem planı (AAP) kapsamında AB’den yüksek öğretim ve MEÖ'ye odaklanarak eğitim sisteminin kalitesini ve uygunluğunu arttırmak, MEÖ'nün tüm seviyelerinin çekiciliğini ve işgücü piyasasına uygunluğunu arttırmak ve sivil katılımı, yönetişimi ve eğitimin kapsayıcılığını güçlendirmek için destek almaktadır (ETF,2020).

## SONUÇ VE DEĞERLENDİRME

Küresel ekonominin güçlü ekonomileri arasında yer alan Azerbaycan’ın bugünkü konumuna ulaşmasında Haydar Aliyev’in politik ve ekonomik politikaları önemli bir yere sahiptir. 1990’lı yıllarda SSCB’nin merkezi planlı yapısından serbest piyasa ekonomisine geçen Azerbaycan’da Karabağ Savaşı ile birlikte görülen ekonomik istikrarsızlık Azerbaycan ekonomisinde birtakım reformların yapılmasını gerekli kılmış ve 1993 yılında Haydar Aliyev’in etkili reformları sonucunda Azerbaycan küresel ekonomide bugünkü yerini almıştır. Haydar Aliyev’in reformlarının Azerbaycan ekonomisi üzerine yansımalarını Dünya Bankası verilerinden hareketle incelediğimizde, Haydar Aliyev iktidarından önce 1991 ve 1992 yıllarında Azerbaycan’ın gayri safi milli hasıla büyüme hızındaki azalış sırasıyla %-0,7 ve %-22,6 iken 1993 yılının hemen başında söz konusu değer %-23,1 oranına yükselmiştir. 1993 yılında Haydar Aliyev’in iktidara gelmesiyle birlikte söz konusu rakam bir önceki yıla göre %-0,5 oranına gerilemiş ve 1995 tarihinden itibaren Azerbaycan ekonomisinde hızlı bir ekonomik toparlanma süreci gözlenmiştir. Azerbaycan ekonomisinin hızlı ekonomik toparlanması kişi başına düşen GSYİH rakamlarında da görülmektedir. 1991 yılında yaklaşık 98 dolar olan kişi başına milli gelir, 1994 yılında 217,9 dolara, 1998 yılında yaklaşık 570 dolara, 2002 yılında ise yaklaşık 756 dolara yükselmiştir.

Öte yandan Azerbaycan’da bağımsızlık sonrası uzun bir süre yüksek enflasyon, diğer bir ifadeyle hiperenflasyon gözlenmiştir. Yüksek enflasyon dönemini yeninden 1991 ve 1992 dönemlerindeki artışla ve 1993 yılı Haydar Aliyev dönemiyle kıyasladığımızda, Haydar Aliyev’in iktidara gelmesiyle birlikte 1993 yılından itibaren enflasyonun kademeli olarak gerilediği ve 1993 yılının başlarında ortalama %1200 olan enflasyon oranının 1995 yılında ortalama %510 seviyesine düştüğü gözlenmektedir. Haydar Aliyev’in Azerbaycan ekonomisinin makroekonomik görünümünü pozitife çevirme gayreti “Asrın Anlaşması”nın hayata geçirilmesi ve Azerbaycan’ın petrol ve doğal gaz başta olmak üzere sahip olduğu yer altı kaynaklarının etkin biçimde işletilmesi ve uluslararası piyasada ticarete konu edilebilmesinin önünü açmıştır. Bu anlaşmanın bir neticesi olarak Azerbaycan ekonomisi hızlı bir büyüme ve kalkınma sürecine girmiştir. Bunun yanı sıra 1995 yılından itibaren Azerbaycan ekonomisinde yabancı yatırımların payı da hızla artış göstermiş ve 1995 yılında 150 milyon dolar olan yabancı yatırımlar 2002 yılında 1700 milyon dolara çıkmıştır. Öte yandan bağımsızlık sonrasının ilk aşamalarında Azerbaycan ekonomisinde özel sektörün GSYİH içindeki payının oldukça düşük olduğu gözlense de 1991-2002 yılları arasında söz konusu pay %15 seviyelerinden %72 düzeyine yükselmiştir.

Azerbaycan ekonomisinde yaşanan ekonomik dönüşümler ülkenin büyüme ve kalkınması üzerinde olumlu etkiler yaratmış olsa da bugün SSCB’den ayrılarak bağımsızlığını kazanan tüm Türk Devletleri’nde beşeri sermaye ve inovasyonun gelişimi Batı ülkeleri ile kıyaslandığında oldukça düşük

düzeydedir. Başka bir söylemle SSCB'nin merkezi planlı yapısından serbest piyasa ekonomisine geçiş sürecinde söz konusu unsurların potansiyellerinin altında kaldıklarına işaret etmektedir. Bu durumun temel nedeni olarak merkezi planlama ile düzenlenen beşeri sermaye faaliyetlerinin endüstri ihtiyaçlarını göz ardı eden yapısı gösterilmektedir. Başka bir ifadeyle bağımsızlık sonrası bazı sektörlerde gelişme aşamasında ya da henüz genç olan ülke içi endüstrinin ihtiyaçlarına yönelik beşeri sermaye faaliyetlerinin merkezi sistemin takip ettiği ve yönlendirdiği alanlara yoğunlaşması, bağımsızlık kazanan tüm Türk Devletleri'nde görüldüğü gibi Azerbaycan'da da bazı sektörlerin rekabet alanlarını daraltmış, uzmanlaşma ve iş bölümüne yönelik üretim biçiminin sona ermesine neden olmuştur. Ancak; Azerbaycan'ın Aralık 2016'da Mesleki Eğitim ve Öğretim (MEÖ) 2016–2025 için Stratejik Yol Haritasını uygulamaya koymak üzere birtakım anlaşmalara işlerlik kazandırması beşeri sermayenin geliştirilmesi sürecinde önemli bir adım olarak görülmektedir. Beşeri sermayenin geliştirilmesi, özel sektör ihtiyaçlarının eğitim planlamasında yoğun şekilde yer alması, eğitim sisteminin işgücü piyasasına uygunluğun arttırılması ve eğitimin kapsayıcılığını güçlendirmek gibi beşeri sermaye ve inovasyon yatırımlarının arttırılmasına yönelik faaliyetler Azerbaycan ekonomisinde uzun dönemli kalıcı büyüme düzeylerinin yakalanmasına destek olmasının yanı sıra, Azerbaycan'ı gelişmekte olan ülke görünümünden gelişmiş ülke kategorisine yükselmesine katkı sunacaktır.

## Kaynakça


1. Arıç, K. & Sek,S.K.&Pavlovic,V.&Knezevic,G.(2022). Human Capital And Economic Growth: Evidence From Western European And Ceecs Countries. Journal of Research in Economics, İktisat Araştırmaları Dergisi Cilt: 6 / Sayı: 2,ss.135-146.

**2.** Cinnirella, F. & Streb, J.(2017). The role of human capital and innovation in economic development: evidence from post-Malthusian Prussia. J Econ Growth 22,pp.193–227 https://doi.org/10.1007/s10887-017-9141-3

3. Dikkaya, M. & Demirci, O., (2013). Azerbaycan'ın Küresel Ekonomiye Eklemlenmesinde Haydar Aliyev'in Rolü, Sosyal Bilimler Araştırma Dergisi, 22, 185-193.

4. Dikkaya, M. & Çaylak,A. (2008).Haydar Aliyev Döneminde Azerbaycan'ın Ekonomik ve Politik Dönüşümü: Fırsatlar ve Sorunlar. OAKA, 3(5), ss. 131-157.

5. Eriksson, C. & Lindén, J. & Papahristodoulou, C. (2022). Human Capital, Innovation, and Growth. International Journal of Economic Theory. 10.1111/ijet.12346.

6. European Training Foundation (ETF).(2010). Policies for Human Capital Development in Azerbaijan. An ETF Torino Process Assessment. Authors: Jaouani,A.& Nikolovska,M.&Milovanovitch,M.& Nielsen,S. Erişim Adresi: https://www.etf.europa.eu/en/publications-and-resources/publications/trp-assessment-reports/azerbaijan-2020 ; (Erişim Tarihi: Mart 2023).

7. Ilgar,D.K.(2022). Successful Policy of Heydar Aliyev. Euroasia Journal of Social Sciences & Humaities,9(2),pp.70-81.

8. Kalaycı, İ.(2013). Kafdağı'nın Önündeki Ekonomi: Modernleşen Azerbaycan. T.C. Türk İşbirliği ve Koordinasyon Ajansı Başkanlığı, AVRASYA ETÜDLERİ,43/2013-2,ss.27-56.

9. Pelinescu, E. (2015). The Impact of Human Capital on Economic Growth. Procedia Economics and Finance, 22(), pp.184–190. doi:10.1016/S2212-5671(15)00258-0

10. The World Bank in Azerbaijan (2023). Erişim Adresi: https://www.worldbank.org/en/country/azerbaijan, (Erişim Tarihi: Mart 2023).

**Hakan Kaya**

## DEVELOPMENT OF HUMAN CAPITAL AND INNOVATION IN AZERBAIJAN FROM HAYDAR ALIYEV TO THE PRESENT

**Summary:** Today, Azerbaijan is positioned as an important power both in the Turkish World and in the global economy. Behind this great power of Azerbaijan, the effects of Heydar Aliyev's role in the socio-economic development process of Azerbaijan are clearly seen. Although Azerbaijan's economy, which has developed in many areas after independence, has entered a rapid growth and development process, especially with introducing underground resources to the country's economy, sufficient weight has not been given to the development of some socio-economic areas. This situation, which is claimed to result from central planning, is explained by the low ability of human capital to respond to industry needs. In this study, the development process of human capital and innovation capacity in the Azerbaijan economy is discussed. It is foreseen that human capital and innovation will increase labor passivity, especially growth in Azerbaijan and all Turkish States, enable the export of goods and services with high added value, and provide a positive contribution to the balance of payments of my countries.

**Key words:** Haydar Aliyev, Human Capital, Innovation

**UOT 82-1/-9**

**Gülbəniz Babaxanlı**
**AMEA Hüseyn Cavidin Ev Muzeyi,**
**filologiya elmləri doktoru, Əməkdar mədəniyyət işçisi,**
**E-mail: babaxanlı@gmail.com**

# HÜSEYN CAVİD İRSİNİN BÖYÜK QAYĞIKEŞİ

**Xülasə:** Hüseyn Cavid dühası öz ölməz əsərləri ilə adını tarixdə əbədiləşdirmiş sənətkarlardandır. Heydər Əliyev dühası bu əbədiləşdirməni tamamlayan, bütövləşdirən, bir daha nadanların hücumuna məruz qalmayacaq hala salan, ona layiq olduğu qiyməti verən və layiq olduğu abidələri ucaldan nadir dövlət rəhbərlərindəndir. Qeyd etmək yerinə düşər ki, ölkəmizdə muzey şəbəkəsinin genişlənməsi prosesi bilavasitə ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləri sayəsində başlamışdır.

Dahilərin talelərində bənzər cəhətlər, kəsişən xətlər çox olur. Eyni torpaqdan nəşət tapmış Cavid və Heydər Əliyevin talelərindəki bənzərlik təkcə zahiri, formal cəhətlərlə məhdudlaşmır. Azərbaycan xalqının yetirdiyi bu iki düha bir an belə doğma xalqa və vətənə xidmətdən geri qalmamışdır və ən əlamətdarı da odur ki, hər an bir-birinə həyan olmuş, öz müqəddəs missiyalarını yerinə yetirərkən bir-birinin yardımçısı olmuşlar. Hüseyn Cavidin bədii-fəlsəfi yaradıcılığı Azərbaycan ədəbiyyatı və mədəniyyəti xəzinəsinin ölməz dəyərləri sırasına çoxdan vəsiqə alıb. Böyük sənətkarın əsərlərinin son dəfə beşcildlik şəklində Azərbaycan Prezidentinin sərəncamı ilə latın qrafikalı yeni Azərbaycan əlifbasında kütləvi tirajla çap edilməsi bu ölməz ədibin bədii irsinin xalqımız arasında populyarlaşdırılmasında müstəsna rol oynayıb. Cavid sənətinə hələ keçən əsrin 70-ci illərindən maraq göstərən Heydər Əliyev onun adını Azərbaycan ədəbiyyatı xəzinəsini zənginləşdirənlər sırasında çəkmişdir. Səksəninci illərin əvvəllərindən isə ümummilli liderimiz Hüseyn Cavid irsinə müntəzəm diqqət göstərmiş, şairə layiqli qiymətin verilməsi işinə nəzarəti bir an belə zəiflətməmişdir.

**Açar sözlər:** Hüseyn Cavid, Heydər Əliyev, Cavid irsi, Cavid yaradıcılığı, Cavid şəxsiyyəti

Deyirlər, dahilərin talelərində bənzər cəhətlər, kəsişən xətlər çox olur. Eyni torpaqdan nəşət tapmış Cavid və Heydər Əliyevin talelərindəki bənzərlik təkcə zahiri, formal cəhətlərlə məhdudlaşmır. Azərbaycan xalqının yetirdiyi bu iki düha bir an belə doğma xalqa və vətənə xidmətdən geri qalmamışdır və ən əlamətdarı da odur ki, hər an bir-birinə həyan olmuş, öz müqəddəs missiyalarını yerinə yetirərkən bir-birinin yardımçısı olmuşlar. Hüseyn Cavidin bədii-fəlsəfi yaradıcılığı Azərbaycan ədəbiyyatı və mədəniyyəti xəzinəsinin ölməz dəyərləri sırasına çoxdan vəsiqə alıb. Böyük sənətkarın əsərlərinin son dəfə beşcildlik şəklində Azərbaycan Prezidentinin sərəncamı ilə latın qrafikalı yeni Azərbaycan əlifbasında kütləvi tirajla çap edilməsi bu ölməz ədibin bədii irsinin xalqımız arasında populyarlaşdırılmasında müstəsna rol oynayıb. Cavid sənətinə hələ keçən əsrin 70-ci illərindən maraq göstərən Heydər Əliyev onun adını Azərbaycan ədəbiyyatı xəzinəsini zənginləşdirənlər sırasında çəkmişdir. Səksəninci illərin əvvəllərindən isə ümummilli liderimiz Hüseyn Cavid irsinə müntəzəm diqqət göstərmiş, şairə layiqli qiymətin verilməsi işinə nəzarəti bir an belə zəiflətməmişdir. Sonralar 1993-cü ilin sentyabrında Azərbaycan Milli Elmlər Akademiyasının ziyalıları ilə görüşündə Heydər Əliyev Cavidlə bağlı fəaliyyətini belə xatırlayırdı: "...Böyük filosof-şairimiz, dramaturqumuz Hüseyn Cavid həbs olundu, uzun illər əsərləri qadağan edildi. Ancaq tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi. Ancaq təəssüf edirəm ki, 1981-ci ildə Hüseyn Cavidin 100 illiyi haqqında Kommunist Partiyasının qəbul etdiyi qərarı Azərbaycanda on il ərzində həyata keçirmədilər... İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Lakin bu əsərlər lazımi səviyyədə nəşr

olunmuşdurmu?” [2]. Təəssüf ki, dahi şairin əsərlərinin nəşri üçün dahi öndərimizin göstərdiyi bu narahatlıq onun sağlığında aradan qaldırıla bilmədi. Ancaq bu gün Cavid külliyyatının mərhum Turan Cavid tərəfindən hazırlanmış beşcildliyi möhtərəm prezidentimiz İlham Əliyevin imzaladığı sərəncama əsasən latın qrafikası ilə çap edilib oxucu kütləsinə çatdırılmışdır. Bəli, ataların başladığı işi övladlar davam etdirir və başa çatdırır. Xalqın, vətənin bütövlüyü də məhz bu faktorla müəyyən edilir. Lakin onu da göstərməliyik ki, ümummilli liderimizin Moskvaya, yüksək dövlət vəzifəsinə getməsi səbəbindən Cavid irsi ilə bağlı yarımçıq qalmış bir çox işləri elə onun özü, respublika hakimiyyətinə ikinci qayıdışından sonra tamamlamağa nail oldu. 1981-ci ildə Cavid irsinin əbədiləşdirilməsi haqqında Heydər Əliyevin qəbul etdiyi tarixi qərarın əsas bəndlərinin həyata keçirilməsi, dünyada gedən mürəkkəb qlobal ictimai-siyasi proseslərin təsiri altında tam 15 il gecikdi. Sanki tarixin özü də bu işlə bağlı gedişini dayandıraraq, həmin təşəbbüs müəllifinin özünün qayıtmasını və yarımçıq qalmış işlərin tamamlanmasını gözləyirdi. Tarixin səbri isə böyük olur və şairin sevimli qızı mərhum Turan Cavidlə birlikdə tarix də bu 15 illik fasiləyə dözdü, bu intizardan alnıaçıq çıxdı. Hələ Moskvada ikən hər dəfə Bakıya gələndə Hüseyn Cavidlə maraqlanan, onun əsərlərinin tamaşalarına baxan Heydər Əliyev 1993-cü ildə yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra, şübhəsiz ki, ilk vəzifə kimi Azərbaycanı düçar olduğu ölçüyəgəlməz fəlakətdən qurtarmağı qarşısına məqsəd qoydu və qısa bir müddət ərzində bunun öhdəsindən uğurla gəldi. Yalnız ölkədə əmin-amanlığı bərpa etdikdən, vətəndaş qarşıdurmasını aradan qaldırdıqdan sonra ümummilli liderimiz mədəni-mənəvi quruculuq işlərini davam etdirməyə başladı. 1996-cı ilin oktyabrında, Hüseyn Cavidin məqbərəsinin açılışında söylədiyi nitqdə Heydər Əliyev bu yolda sərf etdiyi titanik səyləri təvazökarcasına belə ümumiləşdirirdi: “Üç il yarımdır ki, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, respublikamızı Ermənistan təcavüzündən qurtarmaq üçün əlimdən gələni əsirgəmirəm və bu yolda gecə-gündüz çalışıram” [5]. 1995-ci ilin iyununda Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılmasına həsr edilmiş müşavirədəki giriş sözündə Cavid irsinin əbədiləşdirilməsi ilə bağlı prosesi incədən incəyə təhlil edən Heydər Əliyev, doğrudan da mədəniyyətimiz, ədəbiyyatımız, elmimiz üçün unikal bir dahi şəxsiyyət olduğunu çox sadə sözlərin köməyi ilə diqqətə çatdırır: “Biz 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etdik. Bundan sonra bir çox işlər görüldü. Ancaq təəssüf ki, o vaxt qəbul olunan qərarlarda nəzərdə tutulmuş tədbirlərin bəziləri indiyədək həyata keçirilməyib. O dövrdən isə artıq on beş il keçir” [3]. 1990-cı ildə Naxçıvana qayıdan ümummilli liderimiz ilk növbədə Cavidin məzarı üstə getmiş və gördüklərindən heyrətə gəlmişdi. Müşavirədəki nitqində Heydər Əliyevin özü həmin hadisəni belə xatırlayır: “Fikirləşirdim ki, məqbərə yoxdursa da, heç olmasa, sənətkarın qəbrinin üstü götürülüb. Ancaq gedib oradakı vəziyyəti gördüm, təəssüfləndim, çox narahat oldum” [1]. Çox güman ki, Cavidin məzarını ziyarət edən Heydər Əliyevin ürəyindən vaxtilə Nizaminin məzarını ziyarətdən mütəəssir olmuş böyük Azərbaycan şairi Seyid Əzim Şirvaninin bədahətən dediyi bu beytlər keçmişdir: Ey Şeyx Nizami, ey nizamı dağılan, Ey Gəncədə izzü ehtişamı dağılan. Olmuşmu cahanda bir sən ilə məntək Beyti, evi, məktəbi, kəlamı dağılan?! Müşavirədəki nitqini üç böyük işin həyata keçirilməsi istiqamətində quran ümummilli liderimiz bu işlərin hamısının müstəsna əhəmiyyətli olduğunu qeyd etmiş, Cavid məqbərəsinin, ev muzeyinin və abidəsinin açılışını bir nömrəli vəzifə kimi əlaqədar təşkilatların üzərinə qoymuşdur. Yalnız bundan sonra qısa bir müddət ərzində, Heydər Əliyevin şəxsi nəzarəti və qayğısı altında nəhəng işlər görülmüş və özünün müəyyənləşdirdiyi kimi, böyük şairin anadan olmasının ildönümündə – 1996-cı ilin oktyabrında Naxçıvanda Hüseyn Cavidin məqbərəsi bütün gözəlliyi və əzəməti ilə xalqın gözü qarşısında ucalmışdır. Onu da qeyd etməyi özümə borc bilirəm ki, Heydər Əliyev bütün bu işləri bir çoxları kimi gözdən pərdə asmaq, yalnız faktı təsdiq etmək xatirinə həyata keçirməmiş, doğrudan da, ictimai-siyasi istedadının bütün potensialını sərf etməklə, sevə-sevə görmüş və nəticədə həm özünə, həm də Cavidə layiq gözəl abidələr qoyub getmişdir. Hüseyn Cavid məqbərəsinin təntənəli açılış mərasimində söylədiyi dərin mənalı nitqində böyük öndər böyük sənətkarı belə qiymətləndirmişdir: “Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə

qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur” [3]. Bu abidələrdən biri də, şübhəsiz ki, uzun illərdən bəri üzərində iş gedən, ancaq Cavid məqbərəsindən yalnız 6 il sonra, yenə də dahi şairin anadan olmasının ildönümündə, daha doğrusu, 120 illik yubileyində ümummilli liderimiz Heydər Əliyev tərəfindən açılan Hüseyn Cavidin Ev Muzeyidir [7]. Hüseyn Cavid dühası öz ölməz əsərləri ilə adını tarixdə əbədiləşdirmiş sənətkarlardandır. Heydər Əliyev dühası bu əbədiləşdirməni tamamlayan, bütövləşdirən, bir daha nadanların hücumuna məruz qalmayacaq hala salan, ona layiq olduğu qiyməti verən və layiq olduğu abidələri ucaldan nadir dövlət rəhbərlərindəndir. Qeyd etmək yerinə düşər ki, ölkəmizdə muzey şəbəkəsinin genişlənməsi prosesi bilavasitə ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləri sayəsində başlamışdır. Təkcə onu söyləmək kifayətdir ki, respublikada 1945-ci ildə 22, 1969-cu ildə isə 29 muzey olduğu halda, başqa sözlə, 24 ildə yalnız 7 yeni muzey təşkil edildiyi halda, 1969-cu ildən 2003-cü ilədək olan dövrdə muzeylərin sayı 136-ya çatmış, yəni 100-dən artıq yeni muzey yaradılmışdır. Bu gün də bu işlər davam etdirilir, Azərbaycanda muzey işi, muzeylərin inkişafı dövlət qayğısı və dəstəyi ilə təmin olunur. 2007-ci il mart ayının 6-da Prezident cənab İlham Əliyevin “Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında” sərəncam imzalaması dediklərimizin bariz sübutudur [6]. Sərəncamda deyildiyi kimi, son illər sürətli yüksəliş dövrü yaşayan ölkəmizdə milli mədəni sərvətlərin qorunması və gələcək nəsillərə çatdırılması işinə lazımi diqqət göstərilir. Respublikanın artan iqtisadi potensialı əsasında yüksək inkişaf tempinə uyğun olaraq, mədəniyyət sahəsində ardıcıl mühüm işlər aparılır, bir sıra mədəniyyət ocaqları yaradılır, mövcud mərkəzlər üçün isə yeni binalar inşa olunur. Heç şübhəsiz ki, Azərbaycanda muzey işinin yaxşılaşdırılmasının ölkəmizin mənəvi həyatının inkişafı baxımından əhəmiyyətini və perspektivlərini nəzərə alaraq, elmi və mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarını genişləndirmək məqsədi ilə imzalanan sərəncam tezliklə bütün muzeylərimizin fəaliyyətinə öz müsbət təsirini göstərəcəkdir. Bu gün Hüseyn Cavidin ev muzeyi təbliğat fəaliyyətinə, xidmət göstəricilərinə, muzey işi sahəsində tətbiq olunan standartlara cavab verməsinə və sanballı nəşrlərinə görə seçilən muzeylərimizdən biridir. Fəaliyyəti Hüseyn Cavidin zəngin yaradıcılıq irsinin toplanması, qorunması və təbliği üzərində qurulan muzey vəzifəsinin öhdəsindən layiqincə gəlməyə çalışır. Qeyd etdiyimiz kimi, Cavid irsinin təbliği muzeyin əsas vəzifələrindəndir. Son illərdə bu istiqamətdə muzey tərəfindən xeyli iş görülüb və görülür. Bir sıra elmi-bədii xarakterli tədbirlər keçirilmiş, regionlarda və paytaxtda sərgilər təşkil edilmiş, muzeyin elektron variantı CD və İnternet vasitəsi ilə təbliğ olunmuşdur. Xatırlatmaq istərdim ki, Cavid irsinin təbliği təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da həyata keçirilir. İstiqlaliyyət əldə etdikdən sonra dövlətimiz qısa müddətdə Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropa Şurası, Avropa Birliyi, Avropa Parlamenti, NATO və başqa beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələr yaratdığı kimi Beynəlxalq Muzeylər Şurası (İCOM) ilə də sıx əməkdaşlıq edir. Bu isə öz növbəsində Hüseyn Cavidin ev muzeyinin də beynəlxalq əlaqələrinin inkişafına müsbət təsir edir. Mütəmadi olaraq İCOM-un rəsmi nəşrlərində muzeyin cari fəaliyyəti ilə bağlı məlumatlar dərc olunur, mütəxəssislər tərəfindən muzeyin işinə qiymət verilir. Əlaqələrimizin coğrafiyasının genişlənməsində muzeyin İnternet səhifəsinin də rolu az deyil. Sayt vasitəsilə zamanından və məkanından asılı olmayaraq istənilən şəxs muzeyimizi ziyarət edə bilir. Bir statistikanı nəzərinizə çatdırım: il ərzində muzeyin saytına dünyanın 34 ölkəsindən 10 mindən artıq istifadəçi daxil olmuşdur. Ümumiyyətlə isə, indiyədək İnternet səhifəsini ABŞ, Fransa, Türkiyə, Rusiya, İtaliya, Almaniya və digər ölkələrdən 20 mindən artıq cavidsevər ziyarət edib. Bu isə o deməkdir ki, Cavid yaradıcılığı, Cavid şəxsiyyəti yüksək qiymətləndirilir, cavidsevərlər dünyanın müxtəlif yerlərində olmalarına baxmayaraq muzeyimizin fəaliyyəti ilə tanış olmağa can atırlar. Bildiyiniz kimi, H.Cavidin ev muzeyi respublikamızda ilk dəfə olaraq “Virtual muzey” layihəsi ilə çıxış etmiş [4] və muzeyin virtual variantını multimedia vasitələrində dünyanın müxtəlif ölkələrinə göndərmişdir. Bu da

apardığımız təbliğat işinə xüsusi rəng qatmışdır. Təbliğat işləri ilə yanaşı muzeydə nəşr işləri də uğurla aparılır. Ümidvarıq ki, gələcəkdə H.Cavidin ev muzeyinin fəaliyyəti daha da genişlənəcək və muzey H.Cavid irsinin, yaradıcılığının təbliğində respublika səviyyəli, eləcə də beynəlxalq əhəmiyyətli işlərin görülməsində aparıcı rolunu qoruyub saxlayacaq.

**Ədəbiyyat siyahısı:**

1. Babaxanlı G. Əbədi və həmişəyaşar şəxsiyyətlər. 525-ci qəzet. – 2020. – 9 may. – S.9.
2. Behbudlu Ə. Böyük dramaturq. Ədəbiyyat qəzeti. – 2012. – 9 noyabr. – s.1-2.
3. Əhmədova S. Heydər Əliyev və Hüseyn Cavid taleyi. Xalq qəzeti. – 2013. – 10 mart. – s.7.
4. Rəis X. Muzeylərin onlayn fəaliyyəti. Və ya tarixi eksponatlarla maraqlananlar üçün zaman, məkan anlayışının olmaması Kaspi 2020. – 15-17 avqust. – s.7.
5. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan şairi və dramaturqu, böyük ədib Hüseyn Cavidin məqbərəsinin təntənəli açılışı mərasimində nitqi – Naxçıvan, 29 oktyabr 1996-cı il. https://lib.aliyev-heritage.org/AZ/4325019.html
6. Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 6 mart 2007-ci il. https://e-qanun.az/framework/13004
7. Hüseyn Cavidin Ev Muzeyinin rəsmi saytı. https://www.huseyncavid.az/

**Gulbeniz Babakhanli**

## GREAT CAREFUL OF HUSSAIN JAVID HERITAGE'S

**Summary:** The genius of Huseyn Javid is one of the artists who immortalized his name in history with his immortal works. The genius of Heydar Aliyev is one of the rare state leaders who completed this perpetuation, integrated it, made it no longer subject to the attack of the ignorant, gave it the price it deserved and raised the monuments it earned. It is worth noting that the process of expanding the museum network in our country started thanks to the exceptional services of our national leader Heydar Aliyev directly.

There are many similarities and intersecting lines in the destinies of geniuses. The resemblance in the fortunes of Javid and Heydar Aliyev, born from the same land, is not limited only to external, formal aspects. These two geniuses of the Azerbaijani people did not miss a moment in serving their native people and the country. Most importantly, they always respected each other and helped each other while fulfilling their sacred missions. Huseyn Javid's artistic-philosophical creativity has long been recognized among the immortal values of the treasury of Azerbaijani literature and culture. The mass circulation of the great artist's works in five volumes for the last time by order of the President of Azerbaijan in the new Azerbaijani alphabet with Latin script played a unique role in popularizing the artistic heritage of this immortal writer among our people. Heydar Aliyev, who has been interested in Javid's art since the 70s of the last century, named him among those who enriched the treasury of Azerbaijani literature. Since the beginning of the eighties, our national leader Huseyn Javid has paid regular attention to his heritage. He has not weakened his control over giving the poet a reasonable price, even for a moment.

**Key words:** Huseyn Javid, Heydar Aliyev, Javid legacy, Javid creativity, Javid personality

**УДК 332.2**

**Камола Акилова**
**директор Галереи изобразительного искусства Узбекистана (НБУ)**
**доктор искусствоведения, профессор,**
**заслуженный работник культуры Республики Узбекистан,**
**E-mail: kamola-nur@rambler.ru**

# КУЛЬТУРНАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА И УЗБЕКИСТАНА ПЕРИОДА НЕЗАВИСИМОСТИ: СХОЖИЕ ПРИОРИТЕТЫ И ОТЛИЧИТЕЛЬНЫЕ ОСОБЕННОСТИ

**Ключевые слова:** Азербайджан, Узбекистан, культурная политика, культура, искусство, Г. Алиев, И. Каримов.

Азербайджан и Узбекистан – две страны, два народа, которые взаимосвязаны историко-политическими, экономическими, культурными связями с глубокой древности. Нас объединяет множество факторов: тюркский, исламский, колониальный в составе Российской империи, советский период, когда мы находились в составе одной страны, и, наконец, период независимости наших стран. В то же время нас объединяет, заложенное в наших народах на ментальном уровне, глубокое уважение друг к другу, ощущение необходимости в широком культурно-гуманитарном сотрудничестве. Тот политический фон, основы которого были заложены руководителями наших стран, в свое время первыми руководителями Гейдаром Алиевым и Исламом Каримовым, а в дальнейшем Президентом Азербайджанской Республики Ильхамом Алиевым и Президентом Республики Узбекистан Шавкатом Мирзиеевым, стали той благодатной почвой, необходимой для активного культурно-гуманитарного, научного сотрудничества на разных уровнях.

В художественной культуре Узбекистана и Азербайджана есть много общего. И Узбекистан, и Азербайджан имеют уникальное и многообразное историко-культурное наследие, отражающее самые различные исторические периоды, начиная с древности до современности. И Азербайджан, и Узбекистан нацелены на модернизацию всех сфер жизнедеятельности социума.

Географическое расположение Узбекистана и Азербайджана на трансконтинентальных маршрутах Великого шелкового пути обусловило тот факт, что эти территории с древности были ареалом пересечения различных народов, религиозных воззрений, культур, синтезирующих в себе достижения Запада и Востока. Это явилось благодатной почвой для создания бесценных памятников археологии, шедевров зодчества, искусства рукописной книги, декоративно-прикладного искусства. Они сегодня хранятся не только в музеях Узбекистана и Азербайджана, но и в крупных музейных собраниях России, Германии, Великобритании, Франции, США и других стран.

Особую часть историко-культурного наследия наших стран составляет искусство XX века, когда стали формироваться европейские формы художественной культуры, которые накладывались на традиционные ценности восточной духовности, и в результате породили удивительный симбиоз, воплотившийся в памятниках культуры, которые сегодня являются гордостью музеев наших стран.

Общность была и в сфере научных исследований, которая особенно ярко проявилась в средневековый исламский период, когда Азербайджан и Узбекистан (правильнее сказать, Мавераннахр) вошли в единое пространство Арабского халифата. Как отмечают и азербайджанские, и узбекские исследователи, велика была роль Аббасидов, которые создали

великолепные условия для развития науки и культуры. Как отметил азербайджанский исследователь Ф. Алекберли: «Аббасиды сдерживали консервативных религиозных деятелей того времени, старавшихся вмешиваться во все стороны культурной жизни, в том числе и в науку, навязывая свою волю. В эпоху Аббасидов реакционным кругам не дозволялось оказывать давление на свободомыслящих ученых и философов. В стране воцарилась свобода вероисповедания, слова и убеждений, благодаря чему в обществе бесконфликтно сосуществовали самые различные верования, философские идеи и научные концепции» [1]. Велика была роль «Дома мудрости» («Бейт аль-Хикмат»), в котором ученые разных стран, разных народов, разных вероисповеданий переводили с древнегреческого, хинди, санскрита, арамейского и других языков на единый для всего халифата арабский язык уникальные научные рукописи, не только сохраняя их, но и развивая научные достижения. Известный американский ученый Фридерик Старр назвал их «странствующими учеными» [2, с.167], которые мигрируя в пределах халифата, сосредотачиваясь в его городах, в частности, в Багдаде, занимались не только переводческой деятельностью, но и развивали медицину, математику, астрономию, философию, логику и др.

Наверное, уже в исламский период, а может быть и ранее, в античный и раннесредневековый периоды, исторически были заложены принципы культурного многообразия, меценатства, миграционных движений, а главное, ощущения мира как единого целого, которые особо актуализировались в конце XX века. Как считает В. Хансен, обращаясь в историческое прошлое: «Год 1000-ый ознаменовал собой начало глобализации. Именно тогда торговые пути охватили весь мир и позволили товарам, технологиям, религиям и людям перемещаться по свету, покидать насиженные места и отправляться в неизведанное. А последующие перемены оказались настолько значительными, что затронули и повседневную жизнь обычных людей» [3, с.10].

Мы свидетели того, что роль личностей в исторических процессах велика и бесспорна. В Узбекистане Гейдар Алиев – это та личность, к которой уважение узбекского народа безгранично и память о нем вечна. В сознании узбекского народа он ассоциируется с человеком величайшего ума, невероятной силы воли, большого жизненного опыта, достойного сына своей страны, национального героя, заложившего основы современного Азербайджана. Гейдар Алиев – государственный деятель мирового уровня, именно так он позиционируется на мировой политической арене.

Изучение деятельности Гейдара Алиева показывает, что вопросы культуры всегда были в центре внимания руководителя страны, начиная с 1970-х годов. Нам представляется, что это было не просто личное знакомство с конкретными творческими личностями, это было очень тонкое проникновение в духовное пространство своей национальной культуры, в которой нашли отражение история азербайджанского народа, его традиции, понимание красоты и гармонии, философии и поэтики национального искусства, и в то же время импульсы современной мировой культуры.

Интересно, что формирование культурной политики руководителями и Азербайджана, и Узбекистана в период независимости совпадало с базисными понятиями и конвенциями ЮНЕСКО в области культуры. Как в свое время было сказано И. Боковой: «Культура – это нечто большее, чем камни и монументы. Это то, что мы представляем собой. Это источник принадлежности и сплоченности, это кладезь творчества и инноваций. Ни одно общество не может процветать без культуры. Без культуры не может быть и речи об устойчивом развитии. ЮНЕСКО доносит это послание до государств, ибо они формируют новую глобальную повестку дня устойчивого развития...

Культура – это и идентичность, и рабочие места, это – и мир через взаимное уважение и понимание, через примирение и диалог» [4].

Нам было интересно проследить формирование и эволюцию основ культурной политики наших стран в период независимости, обусловленных спецификой историко-политической ситуации, их социально-экономического и культурного развития. Нами были изучены многие официально-директивные документы, касающиеся культуры и культурной политики Азербайджана и Узбекистана за период независимости, которые позволяют сделать определенные заключения. Хочется оговорить, что в нашем понимании, государственная культурная политика – это не просто конкретные культурные мероприятия в соответствии с принятыми указами и постановлениями, хотя это также является важным фактором развития культуры, ее коммуникационных связей с обществом. Но более важным является та культурная целостность и духовность, которые закладываются в конкретные культурные институции и форматы, стратегии и концепции.

Говоря о схожих чертах культурной политики, сформированной в наших странах, и отличительных особенностях, сразу хочется оговорить, что культурная политика двух стран не есть нечто заданное, статичное, а скорее явление, эволюционирующее в соответствии с развитием общества, прохождением им определенных этапов развития.

Первое, что было основным базисом в культурной политике двух стран, требующим осмысления – это идея национальной независимости, которая в культуре нашла отражение в поисках собственной национальной идентичности. Причем идея национальной идентичности или национальной самоидентификации была актуальна не только в связи с созданием независимых государств, но и в связи глобализацией, а сейчас, мы видим и в связи с обострением глобальных проблем современности. Как пишут исследователи: «Факт обозначения национальной идеи «азербайджанство» принадлежит общенациональному лидеру и великому политику Гейдару Алиеву. Национальная идея появилась именно тогда, когда страна особенно нуждалась в идейной консолидации, когда существовала реальная угроза для государственности, независимости, суверенитета и сохранения целостности всей страны» [5, с.2]. Национальная идея связана с идеей национальной идентичности, которые иллюстрируют знаменитые слова Г.Алиева: «Я всегда гордился, горжусь и буду гордиться, что я азербайджанец». Эти слова могут быть примером для всех других руководителей, так как емко, многогранно и очень конкретно выражают позицию общенационального лидера азербайджанского народа.

Аналогичный дискурс пережил и Узбекистан в отношении национальной идентичности. Первый Президент Республики Узбекистан И. Каримов всегда уделял большое внимание культурной политике независимой страны. 1990-е годы были трудными для всех стран Содружества Независимых Государств во всех сферах общества, в том числе и в области культуры. Формирование новой независимой государственности проходило в сложных историко-политических ситуациях наших стран. Мы помним теракты в Ташкенте в 1999 году, когда волна исламского радикализма раскрыла свое истинное лицо, а оппозиционные руководители партий хотели строить «свой» Узбекистан. Понятие национальной идентичности было также консолидирующим понятием в создании независимого государства.

Второе, это принцип культурного многообразия. Своеобразное сочетание получило одновременное понимание важности, как национальной идеи/национальной идентичности, так и учитывая многовековое существование обоих стран в империях, на трассах Великого шелкового пути, этнокультурные взаимосвязи, понятия межкультурного диалога как основы мирного сосуществования представителей разных народов и конфессий. В Азербайджане это понятие мультикультурализма, который в период независимости страны был поднят на уровень государственной культурной политики. Как отмечают азербайджанские исследователи: «В Азербайджане на протяжении веков, …представители всех народностей и конфессий живут в условиях симбиоза. То есть мультикультурализм не сиюминутное, а традиционное явление в

реалиях этой страны» [6, с.63]. Как сказал сам Президент Азербайджанской Республики И. Алиев: ««мультикультурализм – это относительно новое понятие. По сути, это означает сосуществование людей, принадлежащих к различным культурам и религиям… Это не просто лозунг… Это наш образ жизни. Это наше мировоззрение. Мы так живем и, живя так, доказываем себе, региону и миру, что мультикультурализм существует» [7, с.246].

Если сконцентрироваться на глобальных проблемах нашей современности, то, безусловно, проблема мультикультурализма и культурного разнообразия займет одно из ключевых мест в гуманитарной проблематике XXI века. Это проблема, которая непосредственным образом связана с динамично глобализирующимся, ежесекундно меняющимся, трансформирующимся миром. Это проблема, которая сегодня актуализируется на локальном, национальном, региональном, обще-планетарном уровне. Это проблема, которая затрагивает все сферы общественной жизни социума, проникая в индивидуальное «Я» каждого человека и групповое, коллективное сознание нации, народа, страны.

В Узбекистане аналогичная ситуация, также сложившиеся на протяжении веков национальные, этнические, конфессиональные различия приводили не к их обострению, а скорее, к ситуации толерантности, их мирному сосуществованию, культурному многообразию. В истории Узбекистана, как и в Азербайджане, оставили свой след все мировые религии. И сегодня на территории Узбекистана, как и Азербайджана, совместно проживают представители разных религиозных конфессий – мусульмане, христиане, иудеи. В годы независимости в Узбекистане, как и в Азербайджане, возводится множество мечетей, реставрируются и реконструируются православные церкви, функционируют синагоги и католический храм. Положение культурного многообразия и толерантности закреплено в Конституции Республики Узбекистан, подписаны конвенции ЮНЕСКО, однако надо признать, что в Азербайджане мультикультурализм стал более действенным, определяющим фактором внутренней и внешней политики.

Третье, как было отмечено исследователями: «Во всем мире базой для разработки государственной культурной политики является современное культурологическое знание» [8, с.9]. Сегодня понятие «культура» – это не просто надстроечное явление над базисом. Оно пересекается с понятиями цивилизации, устойчивого развития, глобальных проблем, сочетания понятий национального, регионального, общечеловеческого, информационных технологий, ценностных ориентаций человека и общества, формирования плюралистического мировоззрения и др. У культурной политики есть и практические задачи: внедрение современных технологий социокультурной коммуникации, создания законодательной базы в области культуры, развитие научных исследований, совершенствование управленческих принципов, взаимодействия с наукой, образованием, различными общественными институциями. Эти процессы имели и имеют место как в Азербайджане, так и в Узбекистане. Но, на определенном этапе в Азербайджане эти процессы были более интенсивными, чем в Узбекистане.

Надо отметить, что в Азербайджане в годы независимости сохранилась и развивалась, сохраняя лучшие традиции и вбирая в себя инновации, фундаментальная, прикладная и инновационная наука, что послужило хорошей базой для разработки принципиальных стратегических положений культурной политики. К сожалению, в Узбекистане до 2016 года не совсем удачные экспериментирования в области научной сферы, закрытие института философии, отсутствие должной поддержки научных исследований со стороны государства привели к недостаточной разработанности масштабной культурной политики страны. Ситуация коренным образом изменилась после прихода к руководству страны Президента Республики Узбекистан Ш.Мирзиеева, который одну из первых встреч провел с деятелями науки в Академии Наук Республики Узбекистан в декабре 2016 года, были приняты меры по реновации и стимулированию

научных исследований, поддержки научных кадров и научно-исследовательских институтов страны.

С 2017 года в Узбекистане ситуация в плане формирования и совершенствования культурной политики и культуры стала кардинально меняться. Темп эволюции культурной политики является четвертым важным моментом. Как известно, есть несколько моделей культурной политики: либеральная модель (такая модель развита в США), частично государственная модель («на почтительном расстоянии», примеры Великобритания и Германия), государственная бюрократическо-просветительская модель (модель культурной политики Китая), государственная престижно-просветительская модель (культурная политика Франции), национально-эмансипационная модель (большинство стран СНГ) [9, с.27-29]. В то же время культурная политика дифференцировалась на определенном этапе на культурную политику бывших социалистических стран, культурную политику стран с рыночной экономикой и культурную политику стран переходного периода.

Азербайджан в связи с обозначенными приоритетами изначально выбрал путь инновационного развития на основе рыночных отношений, в том числе и в сфере культуры. Сегодня, это ощущается в градостроительстве, архитектуре, дизайне, музейном пространстве, музыкальном и театральном искусстве и др. В Узбекистане сложилась другая ситуация. Сегодня Узбекистан стремительно развивается во всех сферах, в том числе и в сфере культуры. Так, например, Узбекистан с 2017 года стал открытым миру, он вступил во все престижные международные организации, была усовершенствована законодательно-правовая база культуры по всем ее направлениям, ратифицированы конвенции ЮНЕСКО, которые до этого не были ратифицированы, был принят ряд важных указов и постановлений по всем видам культуры и искусства.

Культура была понята как имидж страны в мировом пространстве, и это стало одним из приоритетов культурной политики на современном этапе. Масштабные выставки историко-культурного наследия в Лувре и в Институте арабского мира в Париже (2022г.), участие выставочных проектов Узбекистана в венецианских биеннале архитектуры и современного искусства (2021, 2022гг.), в биеннале исламского искусства (2023г.), будущие выставки историко-культурного наследия в Германии (2023г.) – важный шаг в презентации культуры Узбекистана на зарубежных мегаплощадках. Как говорил М.Пиотровский: «Очень важно обозначать свое культурное присутствие в мире» [10, с.102]. Культурные проекты за рубежом демонстрируют не только богатейшее историко-культурное наследие, но и новый Узбекистан, его политику открытости и толерантности.

В какой-то степени культурная политика в Узбекистане иногда отстает за научным осмыслением тех культурных инновационных процессов, которые происходят в мире. Узбекистан становится полноправным членом мирового сообщества, и в его культурной политике важным становится не только сохранение национальной самоидентификации, но и приобщение к международным культурно-цивилизационным процессам.

Пятое, это отношение к историко-культурному наследию, которое становится важным фактором в развитии культуры. Для стран, имеющих богатое историко-культурное наследие, оно выступает важным ресурсом не только художественных, творческих, культурных инноваций, но и в целом ресурсом обновления общества. Традиционная культура и в Азербайджане, и в Узбекистане, выражающая многовековой комплекс традиционных ценностей, оказалась под прессингом историко-политических и социально экономических потрясений XX века. В период независимости наших стран историко-культурное наследие стало базисом для развития общества. Но если в Азербайджане, опыт осмысления историко-культурного наследия происходит в формате

от стилизации к современной интерпретации культурных кодов, в Узбекистане стилизация пока доминирует.

Как было отмечено исследователями, историко-художественный опыт, который хранится в специальных институциях культурной памяти народа, независимо от его актуальности, его «захваченности» традицией, – весь этот опыт превращается в «колоссальный резервуар потенциальных традиций». Но способы извлечения из этого резервуара тех или иных моделей и построения из них «традиционного ряда», принципы структурирования наследия, все более задаются актуальными проблемами современного художественного творчества, отражающего конкретный социокультурный контекст развития.

Культура не может развиваться без опоры на культурное прошлое (даже в постмодернизме, отрицая прошлое, все равно идет опора на него – К.А.), отдаленное или близкое, но его возрастающая активность проявляется в способности к непрерывной организации и переорганизации прошлого в сосуществующие, конкурирующие, противоборствующие, исчезающие, вновь возникающие и постоянно перестраивающие порядки. При таком способе существования и функционирования традиция утрачивает свое стереотипное действие, за ней более сохраняется функция трансмиссии опыта и менее – функция унификации художественной деятельности [11].

Сегодня мы, как никогда, понимаем, что культура – это культура мышления, культура – это культура мировоззрения, культура – это отношение к наследию, культура – это культура выбора. Культура – это динамичная целостность, связывающая прошлое, настоящее и будущее. Культурная политика это не просто политика государства в области культуры, это основа, определяющая поступательное развитие будущего для наших стран.

Завершая вышесказанное, хотелось бы вспомнить, что когда-то общенациональный лидер азербайджанского народа Гейдар Алиев мечтал стать архитектором, но судьба распорядилась по-своему. Мы думаем, что он все же стал архитектором. Он стал архитектором независимого Азербайджана, архитектором новой страны, опыт которой может быть примером для других независимых стран. Он стал архитектором будущего. И в этом нашло воплощение его истинное предназначение.

## Литература:

1. Фарид Алекберли. Возникновение и развитие научных знаний в историческом аспекте. https://www.alakbarli.aamh.az/index.files/Historyofscience.htm
2. Старр С.Ф. Утраченное Просвещение. Золотой век Центральной Азии от арабского завоевания до времен Тамерлана. Москва: 2019. – 574 с.
3. Хансен В. 1000 год. Когда началась глобализация. Москва: 2022. – 352с.
4. Из выступления Генерального директора ЮНЕСКО Ирины Боковой на торжественном открытии III Санкт-Петербургского Международного культурного форума (7 декабря 2014 г.). https://master-raduga.nnov.ru/culture-UNESCO
5. Усубалиев А. Культурная политика и национальная идея. Эхо, 2010г., 17 декабря, с.2
6. Саламзаде, Э.А. о., & Абдуллаева, Р.Г. к. (2019). Мультикультурализм – действенная модель культурной политики Азербайджана. Наследие веков, (3), 62-67. https://doi.org/10.36343/SB.2019.19.3.005
7. Мехдиев Р. Президент Азербайджанской Республики Ильхам Алиев об азербайджанской модели мультикультурализма. Архитектура. Строительство. Дизайн. 2017 г., № 2, с. 18-23. Available from: http:// www.archjournal.ru/mnogokonfbaku. htm.
8. Шалабаева Г. Казахстан: эволюция культурной политики. Алматы: 2002. – 228с.

9. Драгичевич-Шешич М., Стойкович Б. Культура. Менеджмент. Анимация. Маркетинг. Новосибирск: 2000. – 227с.

10. Пиотровский М. 50 статей за 10 лет. – Санкт-Петербург: 2016г. 304с.

11. Бернштейн Б. Несколько соображений в связи с проблемой «искусство и этнос». Санкт-Петербург: 2012. – с. 147-16

**УДК: 32**

**Эркин Нуриддинов**
**Ташкентский государственный педагогический университет им. Низами (Узбекистан)**
**д.и.н., профессор**
**Email: nuriddinoverkin@mail.ru**

**Азер Адыгезалов**
**Международный институт Центральной Азии (Узбекистан)**
**д.ф.и.н. (PhD), ведущий научный сотрудник**
**Email: azerbay@mail.ru**

# ГЕЙДАР АЛИЕВ – ИНИЦИАТОР ИДЕИ «АЗЕРБАЙДЖАНСТВА»

**Ключевые слова:** Гейдар Алиев, «азербайджанство», идея, идеология, толерантность, государственная политика

Как известно, развал Союза государств и трансформация биполярной системы в – многополярную, запустили так называемый «парад суверенитетов» республик, некогда входивших в СССР. Одной из них является Азербайджанская Республика, испытавшая на себе горечь последствий недальновидной политики первых руководителей, ввергших страну в хаос и состояние гражданской войны. Азербайджан стоял на пороге утраты государственной независимости.

После прихода к власти Гейдара Алиева, ликвидировавшего опасность гражданской войны, приостановившего оккупацию азербайджанских земель и добившегося стабилизации ситуации в стране, в Азербайджане начался процесс осуществления социально-экономических реформ, известных под названием «азербайджанской модели». В ее основу легла подготовка нефтяной стратегии. Так, 20 сентября 1994 года было подписано соглашение сроком на 30 лет, о долевом распределении продукции глубоководных месторождений Азери – Чираг – Гюнешли, в котором участвовали 13 компаний из 8 стран мира, вошедший в историю как «Контракт века».

Разработка нефтяной стратегии способствовала осуществлению и ряда реформ, направленных на последовательный переход к рыночной экономике. Стоит отметить, что рыночные преобразования в Азербайджане проводились в более сжатые сроки, чем в любой из стран СНГ, и были нацелены, в основном, на развитие частной собственности и интеграцию страны в мировые хозяйственные процессы. Преследуя эти цели, руководство страны предприняло меры по неотложному проведению земельной реформы, раздачи земли крестьянам, созданию для них необходимых условий; разработки и реализации государственной программы по приватизации всех отраслей, предусматривающей до 2002 года приватизировать все малые и средние предприятия страны. Одним из важнейших факторов стала либерализация экономики, начавшаяся с 1996 года [3, с.290-291].

По сути, в 1996 году произошел перелом в динамике основных макроэкономических показателей – возобновился экономический рост [4, с.172].

Таким образом, Азербайджан в определении курса своего развития на предстоящее будущее, прежде всего, был движим национальными интересами. Приступая к реформированию всей политической и социально-экономической системы государственного устройства, исходя из жизненных потребностей перехода к условиям рыночных отношений, руководство страны сопрягало эти задачи с необходимостью проведения активной внешней политики и вхождения в орбиту международных отношений.

Так, Азербайджан стал активно внедряться в мировые политические реалии, приобретая статус полноценного актора международных отношений, сфокусировав особое внимание на сотрудничестве с международными организациями, как механизмом интеграции в структуры мировой безопасности: СНГ, ООН, ОБСЕ, установил взаимовыгодные связи с ЕС, НАТО и другими международными структурами.

Как известно, в формировании внутренней и внешней политики любого государства далеко не последнюю роль играет идеология, позволяющая противостоять разрушительной информационно-идеологической пропаганде извне, а также способствующая единению общественно-политического мнения страны.

Для Азербайджана такой идеологией стало – «азербайджанство». «Азербайджанство» – это идеология азербайджанского народа, избравшего в качестве своей стратегической цели независимость суверенного Азербайджана и борьбу за строительство в этой стране цивильного демократического государства, основанного на светских принципах. Основу этой идеологии составляет идея равенства национальных, этнических, религиозных и социальных прав всех народов, считающих Азербайджан своей Родиной [6].

Вопрос идеологии всегда являлся приоритетом в фокусе внимания Гейдара Алиева, которому в построении национальной государственности удалось сохранить принцип преемственности Азербайджанской Демократической Республики (АДР. 28 мая 1918 – 28 апреля 1920гг.). Идеологами АДР были М.Э.Расулзаде. А.Агаоглы, А.Гусейнзаде и др., видевшие решение общетюркских социальных проблем в просвещении.

Гейдар Алиев обратился к идеологии «азербайджанства», истоки которого были заложены в трудах М.Э.Расулзаде (1884–1955), одного из основоположников национальной идеи и государственной концепции о независимом Азербайджане.

Стоит отметить, что Г.Алиев еще в советский период руководства Азербайджаном стремился к распространению идеологии азербайджанства в стране, по средствам азербайджанской литературы, музыки, кино, изобразительного искусства, воспевающих дух азербайджанского народа, его историю, национально-духовные ценности. Лидер Азербайджана уже в те годы задумывался о необходимости консолидации азербайджанцев, проживающих вне Азербайджана и становлении азербайджанской диаспоры. В годы независимости превращение «азербайджанства» в идеологию, объединения азербайджанцев всего мира, насчитывающих десятки миллионов, в организованную силу, укрепление их связи с исторической Родиной – приобрели приоритетное значение в политике независимого азербайджанского государства.

Гейдар Алиев отмечал, что национальная идеология должна быть связана как с историческим прошлым, обычаями и традициями нации, так и с настоящим и будущим государства. Придание азербайджанскому языку статуса официального государственного, переход к латинской графике, защита и развитие национально-духовных ценностей Азербайджана, широкая пропаганда среди азербайджанцев всего мира идей «азербайджанства», учреждение 31 декабря – Дня солидарности азербайджанцев мира служат ярким примером претворения в жизнь идеологии «азербайджанства».

Глубоко символичны слова общенационального лидера азербайджанского народа «Я всегда гордился, горжусь и буду гордиться, что я азербайджанец», являясь лозунгом азербайджанцев всего мира, стали краеугольным камнем их солидарности. Благодаря последовательной и целенаправленной политике, проводимой общенациональным лидером азербайджанского народа в годы руководства независимым Азербайджаном, сформировалась и развивалась азербайджанская диаспора, демонстрирующая тесную связь со своей исторической Родиной. То, что сегодня азербайджанцы, проживающие в разных уголках мира, считают Азербайджанскую Республику своей Родиной, воспринимают её как храм национально-духовных ценностей и культуры,

сплотились вокруг идеи «азербайджанства», является именно результатом деятельности Гейдара Алиева [2, с.47].

Идеология «азербайджанства», о которой говорил Гейдар Алиев, и включенные в ее содержание основные принципы, нашли отражение также в Конституции Азербайджанской Республики, принятой всенародным референдумом в 1995 году. Эта идеология превратилась уже в выражение общих интересов всего народа, а не какого-то отдельного политического лидера, партии или политической организации [5, с.72].

Идеология «азербайджанства» богата важными функциональными элементами, суть которых состоит в защите страны от попыток ее морального и физического ослабления. Эта идеология нацелена на укрепление и развитие Азербайджана как унитарного по административно-территориальному устройству, правового и демократического государства с точки зрения политического устройства и государственного управления.

Азербайджан – это страна, где исторически мирно сосуществовали представители различных национальностей, утвердилась национальная и религиозная толерантность. Здесь сложилось одинаковое отношение к представителям всех народов и наций. Поэтому все граждане Азербайджана объединились вокруг идеи «азербайджанства». Данная идея как система взглядов, объединяющая обычаи и традиции, национально-духовные ценности азербайджанского народа, позитивно влияет на общественно-политические процессы, конституционную систему и, в особенности, на государственное строительство.

Таким образом, идея «азербайджанства», призванная обеспечить защиту независимости и демократическое развитие Азербайджана, сформировалась как идеология, направленная против агрессивного национализма и шовинизма. В основе идеи «азербайджанства» лежит не национализм, а гражданские ценности. Цель этой идеи – сформировать систему ценностей, которые создают почву для демократического развития и консолидации многонационального азербайджанского народа.

Суть идеологии «азербайджанства» сводится к сильной азербайджанской государственности, охватывающей идеи гражданского единства и толерантности, справедливые и приемлемые для всех нормы общественной жизни.

Понятие сильного Азербайджанского государства, лежащее в основе идеологии «азербайджанства» является своего рода управленческим институтом. Это государство должно обладать совершенными механизмами центрального и местного управления, стабильной общественно-политической жизнью, действенными законами: возможности и умения каждого гражданина должны надлежаще оцениваться, и они должны вовлекаться в процессы в соответствии со своими способностями, в стране должна господствовать прозрачная, толерантная и мультикультуральная среда, в основе государственности должно лежать общегражданское единство [1].

Нынешнее руководство Азербайджана в лице Ильхама Алиева достойно продолжает политику общенационального лидера. С каждым годом в стране ощущаются значительные конструктивные перемены, налицо достигнутые успехи политической, экономической и культурно-гуманитарной модернизации. Либерализация экономики, рост геополитической и геоэкономической значимости Азербайджанской Республики, заявившей о себе как о надежном партнере на международных платформах, поднял имидж страны в мировом масштабе. Данные преобразования вызвали у мировой общественности справедливую реакцию на Карабахский конфликт и историческое восстановление территориальной целостности Азербайджана.

**Литература:**

1. Гасанов А. Гейдар Алиев – основоположник современной идеологии азербайджанства. https://azertag.az/ru/xeber
2. Гурбанлы М. Политика Гейдара Алиева: Толерантность. Баку, 2016. – 424 с.
3. Гусейнова И. Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру. – Баку: Тахсил, 2005. – 504 с.
4. Социально-экономическое развитие постсоветских стран: итоги двадцатилетия/ Под общ. ред. Л.Б.Вардомского. – Москва: ИЭ РАН, 2012. – 400 с.
5. Чернова П.В. Гейдар Алиев и идеология азербайджанства // Elmi iş (Scientific work) (humanitar elmlar üzra aylıq beynalxalq elmi jurnal) (ежемесячный международный научный журнал по гуманитарным наукам). 2019, № 2(3). с. 72-74.
6. https://multiculturalism.preslib.az/ru_a2.html

**UOT 82**

**Aybəniz Əliyeva-Kəngərli**
**AMEA Füzuli adına Əlyazmalar İnstitutu,**
**filologiya elmləri doktoru, dosent**
**E-mail: aybeniz.kengerli@gmail.com**

## HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK NƏZƏRİYYƏSİNDƏ KLASSİK İRS PROBLEMİ

**Xülasə:** Heydər Əliyev böyük təfəkkür, fenomenal yaddaş və istedad sahibi, gözəl natiq idi. Azərbaycana rəhbərlik etdiyi böyük tarixi dövr ərzində ədəbiyyat və mədəniyyətə dair keçirilmiş bütün böyük tədbirlərdə öz parlaq nitqi, məntiqi, qeyri-adi təfəkkürü, başlıcası isə, sənəti duymaq məharəti ilə bədii-mədəni irsə vətəndaş münasibətini ifadə etmişdir. Heydər Əliyevi hər şeydən öncə ədəbiyyatın yüksək borcu və amalı düşündürürdü.

Heydər Əliyevin ədəbiyyat konsepsiyası müstəqil nəzəri təlimdir. O, böyük bir təfəkkürün nəzəri-tarixi imkanlarından formalaşıb. XX əsrin ikinci yarısının ədəbi-tarixi prosesini Heydər Əliyevin nəzəri irsi olmadan bütöv təsəvvür etmək mümkün deyil. “Kitabi-Dədə Qorqud”un 1300 illiyi, M.Füzulinin 500 illiyi ilə bağlı milli istiqlal məfkurəsi işığında keçirilən möhtəşəm tədbirlər Heydər Əliyev epoxasının mədəniyyət üzrə zirvə məqamları, Azərbaycan prezidentinin milli-mənəvi keçmişə məhəbbət və ehtiramının, xalqın gələcəyinə inamının tarixi ifadəsidir.

Heydər Əliyevin Azərbaycan ədəbiyyatının nəşrinə və təbliğinə göstərdiyi böyük qayğı, ilk növbədə, özünü klassik ədəbi abidələrin timsalında göstərir. Heydər Əliyevin ədəbiyyat haqqında dedikləri Azərbaycan bədii mədəniyyətinin tarixi rolunu müəyyənləşdirən milli nəzəri-metodoloji sərvətdir. Onu qoruyub saxlamaq, zaman-zaman tədqiq və təbliğ etmək müasir ədəbiyyatşünaslığın və ədəbi tənqidin nəzəri-tarixi vəzifəsidir.

**Açar sözlər:** Heydər Əliyev, klassik ədəbiyyat, “Kitabi-Dədə Qorqud” eposu, Məhəmməd Füzuli

Heydər Əliyevin klassik irs təlimi Azərbaycan ədəbiyyatının dahi sənətkarları – Nizami, Xaqani, Nəsimi, Füzuli, Vaqif, M.F.Axundzadə, habelə XX əsrin görkəmli ədibləri – C.Məmmədquluzadə, Ü.Hacıbəyov, H.Cavid, C.Cabbarlı, N.Nərimanov, S.Vurğun, R.Rza, M.Şəhriyar… haqqında müxtəlif zamanlarda söylədiyi fikirlər zəminində formalaşıb. Bu, əslində böyük və müstəqil tədqiqatın predmeti olmağa layiqdir.

1 avqust 1994-cü ildə Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasındakı giriş sözündə Heydər Əliyev bu yubileyin keçirilməsinin bir neçə tarixi əhəmiyyətini göstərmişdi:

1. Füzulinin yubileyini keçirməklə Azərbaycan xalqını dünyaya bir daha tanıtmaq;
2. Böyük mütəfəkkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısında xidmətlərini qiymətləndirmək;
3. Bu əlverişli fürsətdən istifadə edib mədəniyyətimizi, tariximizi təbliğ etmək.

Heydər Əliyev bu məqsədləri dahi şairlə bağlı əksər tədbirlərdə dönə-dönə açıqlayır. Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının növbəti – 23 iyul 1996-cı il tarixli iclasında, “Yekun sözü”ndə o, bir daha qeyd edirdi: “…tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir. Bu, lazımdır, özü də mütləq lazımdır. Digər tərəfdən isə belə yubileylərin keçirilməsi xalqın, millətin mənəvi zənginliyini nümayiş etdirir. Eyni zamanda, yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir” [2, s.345]. “Kitabi-Dədə Qorqud” eposunun 1300 illiyi, M.Füzulinin 500 illiyi məhz bu vəzifələrə xidmət edən möhtəşəm yubileylər idi. Bu yubiley tədbirləri çərçivəsində həm “Kitabi-Dədə Qorqud” eposu haqqında, həm dahi Füzuli barəsində fundamental tədqiqat işləri aparıldı, qorqudşünaslıq və füzulişünaslıq elmləri formalaşdı.

Heydər Əliyev dahi Füzulinin 500 illiyinə həsr olunmuş zirvə toplantısında (8 noyabr 1996-cı il)

şairin sənətinə, dünya ədəbiyyatındakı sənətkar mövqeyinə nəzəri-tarixi qiymət vermişdir: "Məhəmməd Füzulinin yaradıcılığı, əsərləri, ədəbi irsi dünya mədəniyyətinə böyük töhfələr vermişdir, dünya mədəniyyətini zənginləşdirmişdir. Məhəmməd Füzuli 40 illik yaradıcılığı dövründə 500 il daim yaşayan əsərlər yaratmışdır. O, Azərbaycan şeirinin, Şərq şeirinin ən yüksək zirvəsinə çatmış və onun yaratdığı şeirlər, onun poeziyası, poemaları, qəzəlləri, qəsidələri, rübailəri 500 ildir ki, insanlara böyük mənəvi ruh verir. Məhəmməd Füzulinin yaradıcılığında elmin, fəlsəfənin bir çox sahələri geniş təhlil olunmuş və onun əsərlərində öz əksini tapmışdır. Onun bütün əsərləri şeir, poeziya, ədəbiyyat nümunələri olmaqla bərabər, eyni zamanda böyük fəlsəfi ideyalar, elmi fikirlər daşıyır. Məhəmməd Füzuli öz əsərləri, yaradıcılığı ilə özünə yenilməz bir heykəl, abidə ucaltmışdı" [2, s.347]. Bu minvalla da ümummilli lider Heydər Əliyev dahi Füzuli irsinin həm idyea-fəlsəfi, həm də bədii-poetik əhəmiyyətini qeyd edir, Füzulinin ümummilli, ümumtürk, ümumislam və ümumbəşəri mövqeyini müəyyənləşdirir.

Əsərlərini Yaxın və Orta Şərqin geniş yayılmış üç klassik poeziya dilində yazan Məhəmməd Füzulini yalnız Azərbaycan türkləri deyil, böyük türk dünyasının digər nümayəndələri, habelə ərəblər və farslar haqlı olaraq öz sənətkarları sayırlar. Füzuli şəxsiyyətinə və yaradıcılıq irsinə müxtəlif münasibətlərlə müraciət edən ümummilli lider hər dəfə onun yaradıcılığının bu beynəlmiləl mahiyyətinə və ensiklopedik xarakterinə ayrıca diqqət yetirmiş, bunu Füzulini və onun təmsil etdiyi Azərbaycan mədəniyyətini yüksəldən, ümumbəşəri və humanist ideallara qovuşduran mühüm fəlsəfi və estetik amil kimi nəzərə çarpdırmışdı: "…Ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə belə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda, bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmanları da deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri bir şəxsiyyət kimi düşsün" [2, s.351].

Füzuli klassik Azərbaycan ədəbiyyatı ilə maraqlanan hər bir həmvətənimiz kimi Heydər Əliyevin həyatına da ilk gənclik illərindən daxil olmuş və ömrünün bütün sonrakı mərhələlərində onun daimi yol yoldaşına çevrilmişdi. Özünün etiraf etdiyi kimi, ulu öndərimizin Məhəmməd Füzuli şəxsiyyəti və yaradıcılığı ilə ilk tanışlığı keçən əsrin 30-cu illərinin ortalarında Naxçıvanda orta məktəb şagirdi olarkən başlamışdı. O da əlamətdardır ki, gənclik illərində rəssamlığa və memarlığa böyük maraq göstərən Heydər Əliyevin çəkdiyi ilk rəsm əsərlərindən biri də Məhəmməd Füzulinin portreti olmuşdur. Hətta bu portret həmin dövrdə məktəblilərin rəsm əsərlərindən ibarət müsabiqədə birinci yer tutmuşdu. Əyalət şəhərindəki orta məktəbdə təhsil alan və rəssamlıq sahəsində ilk addımlarını atan bir gəncin məhz Füzulinin şəxsiyyətinə müraciəti, heç bir portreti dövrümüzə gəlib çatmamış böyük şairin zahiri görünüşünü təxəyyülünün gücünə əsaslanaraq yaratmağa çalışması bir tərəfdən onun özünün böyük Füzuli sevgisindən, digər tərəfdən isə 30-cu illərdə Füzuli yaradıcılığına olan böyük maraq və məhəbbətdən irəli gəlirdi.

Yubileyə hazırlıq dövründə Heydər Əliyev Füzulini dünya miqyasında tanıda biləcək dərin elmi mündəricəli, yüksək tədqiqatçılıq keyfiyyətlərinə malik, eyni zamanda populyar bir əsər yazılmasını vəzifə olaraq qarşıya qoymuşdu. Ölkə başçısının fikrincə, professional elmi səviyyədə hazırlanacaq və müxtəlif dillərə tərcümə olunaraq dünyanın çeşidli ölkələrində yayılacaq belə bir kitab təkcə Füzuli irsinə deyil, bütövlükdə Azərbaycanın klassik poeziyasına işıq sala bilərdi.

Heydər Əliyevin Azərbaycan ədəbiyyatının nəşrinə və təbliğinə göstərdiyi böyük qayğı, ilk növbədə, özünü klassik ədəbi abidələrin timsalında göstərir. İlk dəfə respublika rəhbərliyinə gəldiyi 1969-cu ildən 2003-cü ilə kimi, yəni bir qərinədən artıq tarixi dövr ərzində klassik ədəbi-mədəni irsin öyrənilməsi, təbliği, nəşri, qlobal səviyyədə tanıdılması və bununla da Azərbaycan xalqının, Azərbaycan Respublikasının dünya səviyyəsində layiq olduğu yüksək mövqeyinin bərqərar edilməsi bir an belə Heydər Əliyevin diqqətindən kənarda qalmayıb.

Hakimiyyətə gəldiyi ilk aylardan mənəvi mədəniyyət və ədəbiyyat məsələlərini prioritet sahələrdən biri kimi müəyyənləşdirən ulu öndər 1969-cu ilin noyabrında, Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibəti ilə söylədiyi proqram səciyyəli nitqində qarşıda duran mədəniyyət

siyasətinin əsas tezislərini belə ifadə etmişdi: “Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir. Məşhur filosof Bəhmənyarın və mütəfəkkir şair Nizaminin, riyaziyyatçı-astronom Nəsirəddin Tusinin və dahi lirik şair Füzulinin, orta əsrlərin böyük alimi Rəşidəddinin və üsyankar şair Nəsiminin, tarixçi Abbasqulu ağa Bakıxanovun və realist yazıçı Mirzə Fətəli Axundovun, görkəmli satiriklərdən Mirzə Ələkbər Sabirin, Cəlil Məmmədquluzadənin və bir çox başqalarının adları bu mədəniyyətin çoxəsrlik tarixinin bəzəyidir. Biz Azərbaycan xalqının bu və bir çox digər görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli irtica və özbaşınalıq şəraitində Azərbaycan xalqının ictimai fikrini, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar” [2, s.358].

Rəhbərlik fəaliyyətində məhz bu tezisdən çıxış edən ulu öndərimiz, vətən tarixində ədəbi iz salmış bir çox başqa əməlləri ilə yanaşı, “mədəniyyətimizin çoxəsrlik tarixinin bəzəyi” (Heydər Əliyev) olan böyük klassiklərimizin ölməz irsinə özünə layiq və klassiklərə layiq səviyyədə qayğı göstərmişdir. Elə buna görə də qədirbilən Azərbaycan xalqının ürəyində öz əbədi heykəlini ucaltmışdır.

Heydər Əliyevin klassiklər haqqında dediyi dərin mənalı sözlərin ardınca konkret işlər gəlirdi. Təkcə onu göstərmək kifayətdir ki, istər Nəsiminin, istərsə də Füzulinin qərib məzarları, onlara yiyəlik eləyən, sahib çıxan tapılmadığı vaxtlarda, müəyyən qədər başqa statusda, başqa vəziyyətdə olmuş, sonra isə məhz Heydər Əliyevin yüksək səviyyədə göstərdiyi maraq nəticəsində daha yüksək statusa keçirilmişlər.

Heydər Əliyevin ədəbiyyat konsepsiyasında önəmli yer tutan XX əsrin dörd klassiki – Mirzə Cəlil, Üzeyir Hacıbəyov, Hüseyn Cavid və Cəfər Cabbarlı haqqında deyilmiş fikirləri tezislər şəklində olsa belə qeyd etməsək, həmin konsepsiya şübhəsiz ki, yarımçıq görünə bilər.

Heydər Əliyev bu fikirdə idi ki, Cəlil Məmmədquluzadə Azərbaycan xalqının milli dirçəlişində əvəzsiz rol oynamışdır. Bu fikir onun 28 dekabr 1994-cü ildə Mirzə Cəlilin 125 illik yubiley mərasimindəki nitqindən qızıl bir xətt kimi keçir. Həmin nitqində ulu öndər demişdir: “Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz “Molla Nəsrəddin” jurnalının və məhz Mirzə Cəlil fəaliyyətinin rolu misilsizdir” [2, s.241].

Heydər Əliyev Mirzə Cəlil yaradıcılığına və “Molla Nəsrəddin” ədəbi məktəbinə yeni istiqlal məfkurəsinin – azərbaycançılıq ideologiyasının məxəzlərindən biri kimi dəyər verirdi: “Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir” [2, s.242].

Beləliklə, bir daha Heydər Əliyevin ədəbiyyat konsepsiyasında milli ideologiya – azərbaycançılıq təlimi məsələsi ortaya çıxır. Maraqlı və dəyərli cəhətdir ki, Ü.Hacıbəyov ilə bağlı mülahizələrdə də onun milli sənəti məhz bu nöqteyi-nəzərdən təhlil olunub qiymətləndirilir. Yeri gəlmişkən qeyd edək ki, Heydər Əliyev XX əsrin əvvəllərindəki ədəbi-tarixi prosesə müxtəlif ideya-fəlsəfi cərəyanların sonu dövlətçiliyə gəlib çıxacaq fikir mücadilələri məkanı kimi baxırdı.

Heydər Əliyev anadan olmasının 110 illiyi ilə bağlı yubileydə (18 sentyabr 1995-ci il) söylədiyi geniş nitqində onu “dünya korifeylərinin öncülü” adlandıraraq demişdir: “Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqmızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur” [2, s.289].

Ulu öndər eyni səviyyəli mülahizələri N.Nərimanov, H.Cavid, C.Cabbarlı, S.Vurğun barəsində də söyləmişdir. H.Cavidin məqbərəsinin və ev muzeyinin yaradılmasına həsr edilmiş müşavirənin giriş sözündə o, demişdir: “Bilirsiniz ki, Hüseyn Cavidin həyatı, yaradıcılığı Azərbaycan üçün nə qədər dəyərli, əhəmiyyətli olub, onun qoyduğu ədəbi, mənəvi irs bizim üçün nə qədər əhəmiyyətli və gərəklidir.

Eyni zamanda, onun həyatı faciəli olubdur. Ancaq bu faciəli dövrlər onun yaratdıqlarını Azərbaycan xalqının qəlbindən çıxara bilməyib, onu yaşadıbdır" [2, s.267].

Heydər Əliyev ədəbiyyatın, bədii-fəlsəfi məzmunlu klassik irsin böyük hamisi idi. 26 mart 1982-ci ildə ölməz Azərbaycan dramaturqu Cəfər Cabbarlının abidəsinin açılışı zamanı söylədiyi geniş nitqində o, bu bənzərsiz sənətkarın ədəbi-tarixi dəyərini verərək söyləmişdir: "Cabbarlının həyat yolu və yaradıcılıq taleyi heyrətamizdir. O, az yaşasa da, qoyub getdiyi zəngin ədəbi irs Azərbaycan ədəbiyyatı və incəsənətinin tarixində bütöv bir dövr təşkil edir. Cabbarlının ədəbi irsi xalqın qəlbində və şüurunda, müasirlərimizin adlarında və əməllərində, yeni-yeni oxucu və tamaşaçı nəsillərində, sənətkarın mənəvi təsirinin zəifləmək bilməyən qüvvəsində yaşayır. Bax, budur görkəmli sənətkarın ölməzliyi" [2, s.171]. Bu, həm də C.Cabbarlı sənətinin müasirliyi deməkdir.

C.Cabbarlının böyüklüyü onda idi ki, o, milli bir sənətkar – şair, yazıçı, dramaturq, tərcüməçi, teatrşünas, kinorejissor, kinoşünas kimi Azərbaycan ədəbiyyatı və mədəniyyətini dünya ədəbi prosesi səviyyəsinə qaldırmağa nail olmuşdu. Heydər Əliyevin XX əsrin II yarısının sənətkarları – Anar, Elçin, Ə.Əylisli, S.Rüstəmxanlı, Z.Yaqub haqqında söylədiyi fikirlər, əslində onun "XX əsr ədəbiyyatı" konsepsiyasını tamamlayır.

Ədəbi irsə tarixilik prinsipi ilə yanaşma, ədəbi prosesin müasirliyi ideyasını müdafiə, bədii-fəlsəfi fikri milli dövlətçilik mənafelərinə tabe etmək bacarığı onun ədəbi-nəzəri görüşlərini səciyyələndirir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin möhtəşəm adı və əzəmətli əməlləri tarix bizdən uzaqlaşdıqca daha möhtəşəm təsir bağışlayır. Onun Azərbaycan naminə gördüyü işlər barəsində cild-cild kitablar yazılıb və zaman keçdikcə bu cildlərin sayı və sanbalı artacaq. Onun dövlətçilik konsepsiyasında, milli mədəniyyət təlimində xalqın misilsiz milli-bədii sərvəti olan ədəbiyyata diqqət və qayğı önəmli yer tutur.

Heydər Əliyevin otuz ildən artıq bir dövrdəki rəhbərlik fəaliyyəti sübut etdi ki, o, Azərbaycanın müdrik fikirlər xəzinəsi olan ədəbiyyatını nəinki yüksək səviyyədə doğru-dürüst qiymətləndirir, həm də bu milli sərvətə güvənir, ona arxalanır. Heydər Əliyev ədəbiyyata bütöv Azərbaycan və ümumtürk kontekstində yanaşırdı. Bu mənada iki cəhətə diqqəti cəlb etmək istəyirik. Sovet rejiminin, totalitar ideologiyanın kəshakəs vaxtı – 1981-ci ildə Heydər Əliyevin böyük səyi və cəsarəti sayəsində Azərbaycan yazıçılarının VI qurultayının gündəliyinə Cənubi Azərbaycanda ədəbi proses haqqında ayrıca məruzə daxil edilmişdi. Bunun nəticəsi olaraq Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı üzrə katib ştatı, Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda isə "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsi yaradıldı. Xalq yazıçısı, akademik M.İbrahimovun rəhbərlik etdiyi bu şöbə az vaxtda dörd cildlik "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nı hazırlayıb çap etdirdi. Bu, təkcə ədəbi-tarixi əhəmiyyətli bir fakt deyil, bütöv Azərbaycan naminə irəli atılmış böyük siyasi addım, vətənpərvərlik nümunəsi, taleyüklü məsələyə əsl rəhbər münasibəti idi.

Tarixin və ideoloji təzyiqlərin bütün dönəmlərində Heydər Əliyev Azərbaycan ədəbiyyatını, xalqın malik olduğu zəngin, çoxşaxəli mədəniyyəti ümumşərq, ümummüsəlman və ümumtürk kontekstindən ayırmamış, ona genetik və mənəvi vəhdətdə nəzər salmışdır. O, 1996-cı ildə Bakıda türk dünyası yazıçılarının III qurultayında inam və iftixarla deyirdi: "Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqlarımızın hamısına mənsub olan şairlərimiz, yazıçılarımız – Nizami, Yunis İmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtümqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, onu dünyada tanıdan ölməz əsərlər yaratmışlar..." [2, s.204].

Ədəbiyyata məhəbbət Heydər Əliyev siyasətinin ən dəyərli tərkib hissələrindən biri idi. Hələ sovet dönəmində S.Rüstəm, R.Rza, M.İbrahimov və S.Rəhimov kimi yazıçılara o zaman ən yüksək fəxri adlardan olan Sosialist Əməyi Qəhrəmanı adının verilməsi Heydər Əliyevin böyük xidməti, onun Azərbaycan yazıçısına yüksək qayğısı idi. O, bununla milli ədiblərimizin geniş şöhrət qazanmasına nail olurdu.

O, istiqlal dövründə də Azərbaycan yazıçılarının əməyini yüksək qiymətləndirərək İ.Əfəndiyev,

B.Vahabzadə, X.Rza, M.Araz, M.Dilbazi, İ.Şıxlı, H.Abbaszadə, Qabil, Z.Yaqub kimi yazıçı və şairləri ölkənin ən yüksək mükafatları – "İstiqlal" və "Şöhrət" ordenləri ilə təltif etdi.

Heydər Əliyevin mədəni siyasətində ədəbiyyata bütöv bədii sistem kimi nəzər salınır, həmişə klassiklərlə müasirlər arasında tarixi-mənəvi əlaqələrin, varislik münasibətlərinin qorunmasına diqqət yetirilirdi. Elə buna görə də o, klassik bədii irsimizin dünya şöhrəti qazanması naminə bu irsi yaradanların yubileylərinin təntənəli tarixi hadisə kimi qeyd olunmasına həssaslıqla yanaşır, böyük önəm verirdi. Onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 70-80-ci illərdə dahi Nizaminin 840, Nəsiminin 600, M.F.Axundovun 170, böyük romantik və filosof şair H.Cavidin 100 illik yubileyləri keçirilmişdir.

"Kitabi-Dədə Qorqud" haqqında aparılan tədqiqatların, çap olunan kitab, monoqrafiya və məqalələrin sayı və sanbalı belə deməyə imkan verir ki, Heydər Əliyevin tarixi sərəncamı qorqudşünaslıqda yeni mərhələnin əsasını qoymuşdur.

Azərbaycan tarixində əsl ədəbiyyat bayramı olan dahi şair Füzulinin 500 illik yubiley məclisi Bakıda 8 noyabr 1996-cı ildə keçirildi. Bu tarixi ana qədər Türkiyədə, İranda, İraqda, Fransada, Qazaxıstanda, Özbəkistanda, Gürcüstanda, Dağıstanda keçirilmiş Füzuli yubileyi tədbirləri Heydər Əliyevin ədəbi-bədii irsin böyük hamisi olduğunu təsdiq edən faktlardır.

"Kitabi-Dədə Qorqud"un 1300 illiyi, M.Füzulinin 500 illiyi ilə bağlı milli istiqlal məfkurəsi işığında keçirilən möhtəşəm tədbirlər Heydər Əliyev epoxasının mədəniyyət üzrə zirvə məqamları, Azərbaycan prezidentinin milli-mənəvi keçmişə məhəbbət və ehtiramının, xalqın gələcəyinə inamının tarixi ifadəsidir.

Heydər Əliyev böyük təfəkkür, fenomenal yaddaş və istedad sahibi, gözəl natiq idi. Azərbaycana rəhbərlik etdiyi böyük tarixi dövr ərzində ədəbiyyat və mədəniyyətə dair keçirilmiş bütün böyük tədbirlərdə öz parlaq nitqi, məntiqi, qeyri-adi təfəkkürü, başlıcası isə, sənəti duymaq məharəti ilə bədii-mədəni irsə vətəndaş münasibətini ifadə etmişdir.

Heydər Əliyevi hər şeydən öncə ədəbiyyatın yüksək borcu və amalı düşündürürdü. Azərbaycan yazıçılarının X qurultayındakı tarixi nitqində də o, ədəbiyyat və mədəniyyəti xalqımızın milli sərvəti və intellektual mülkiyyəti adlandırmışdı. "Azərbaycanda yazıçı daim böyük hörmətə layiq olmuşdur. Bu, bizim tarixi ənənəmizdir, əcdadlarımızdan bizə gəlib çatmış gözəl bir xüsusiyyətdir", – deyən Heydər Əliyev ümumən intellektə, ağıl və zəkaya böyük qiymət verirdi. Çünki o özü XX əsr Azərbaycan tarixinin yetişdirdiyi böyük zəka, intellekt sahibi idi. Bəlkə elə buna görə də həm tarixi-ictimai inkişafı, həm də ədəbi-mədəni prosesi dəyərləndirmək üçün alim təfəkkürünü qiymətləndirən prezidentin "Müstəqillik yolunda" kitabında deyilir: "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən, bu fikirlərdən əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur" [1, s.173].

Dövlətçilik, tarixi proseslər, siyasət kimi sahələri demirik, təkcə ədəbiyyat haqqında "Ədəbiyyatın yüksək borcu və amalı" (Bakı, 1999) kitabına toplanmış nitq və məqalələri göstərir ki, Heydər Əliyev belə bir alim idi. "Ədəbiyyatın yüksək borcu və amalı" kitabına daxil edilmiş "İdeyalılıq, istedad və həyat həqiqətinə sədaqət", "Xalqların dostluğu ədəbiyyatların dostluğudur", "Həyat həqiqəti-yaradıcılıq həqiqəti", "Qoy ədalət zəfər çalsın", "M.Füzuli türkləri birləşdirən şəxsiyyətdir" kimi yazılar, habelə müasiri olduğu canlı klassiklər haqqında dəyərli nitqləri Heydər Əliyevdən qüvvətli nəzəriyyəçi-ədəbiyyatşünas kimi danışmağa böyük imkanlar verir.

Heydər Əliyevin ədəbiyyata münasibəti haqqında akademik B.Nəbiyevin "Heydər Əliyev", AMEA-nın müxbir üzvü, mərhum Y.Qarayevin "Müstəqillik dövrünün milli öndəri", T.Kərimli, V.Quliyevin "Heydər Əliyev və klassik ədəbi irsimiz", M.Qasımlının "Heydər Əliyev və Azərbaycan folkloru" kimi dəyərli əsərləri çap olunub. Fəqət "Heydər Əliyev və ədəbiyyat" mövzusu fundamental elmi tədqiqatlara ehtiyacı olan bir problemdir. Bu mövzu, hər şeydən öncə, qlobal siyasətin əxlaqi təməlini müəyyən edir. Heydər Əliyev ədəbiyyata təkcə estetik nöqteyi-nəzərdən, bədiilik mənafeləri baxımından yanaşmırdı. Onun siyasətində bədii söz, ədəbi irs xalqın varlığını ifadə

edən qüdrətli vasitə kimi dəyərləndirilirdi. Bu baxımdan, onun 28 dekabr 1994-cü ildə Azərbaycan ədəbiyyatının böyük, qüdrətli klassiki C.Məmmədquluzadənin anadan olmasının 125 illiyi ilə əlaqədar dediyi fikirlər olduqca maraqlı və ibrətlidir: "Cəlil Məmməquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir. Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətləri, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır..." [2, s.193].

Heydər Əliyevin H.Cavidin tarixi haqqı uğrunda fədakar mübarizəsi isə artıq Azərbaycan xalqının yaddaşında bir əfsanəyə çevrilib. Fəqət bu, real bir əfsanədir. Bu əfsanənin ədəbi və əbədi qəhrəmanı böyük ədəbiyyat hamisi Heydər Əliyevdir. O, ədəbiyyat və mədəniyyətə tarixin dərkini, özü də ümumxalq dərkini asanlaşdıran unikal bədii təfəkkür hadisəsi kimi baxırdı. Heydər Əliyevin ədəbiyyat haqqında dedikləri Azərbaycan bədii mədəniyyətinin tarixi rolunu müəyyənləşdirən milli nəzəri-metodoloji sərvətdir. Onu qoruyub saxlamaq, zaman-zaman tədqiq və təbliğ etmək müasir ədəbiyyatşünaslığın və ədəbi tənqidin nəzəri-tarixi vəzifəsidir.

Heydər Əliyevin ədəbiyyat konsepsiyası müstəqil nəzəri təlimdir. O, böyük bir təfəkkürün nəzəri-tarixi imkanlarından formalaşıb. XX əsrin ikinci yarısının ədəbi-tarixi prosesini Heydər Əliyevin nəzəri irsi olmadan bütöv təsəvvür etmək mümkün deyil.

**Ədəbiyyat siyahısı:**

1. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı, Bakı, Şərq-Qərb, 2009. – 200 s.
2. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002. – 348 s.
3. Kitabi-Dədə Qorqud ensiklopediyası. Ic., Bakı, 2000. – 310 s.
4. Nəzərli Ş. D. Elmin cazibəsi – 2: müsahibələr, məqalələr, aforizmlər / Ş.D.Nəzərli; layihənin rəh. A.A.Əlizadə; red. T.Kəngərli. – Bakı: Elm, 2021. – 288 s.
5. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin azərbaycançılıq ideologiyası filoloji fikir kontekstində" mövzusunda respublika elmi konfransının materialları: Bakı, 17 may 2021-ci il / E.Məmmədov, S.Orucova, R.Quliyeva; Bakı Dövlət Universiteti. – Bakı: BDU nəşriyyatı, 2021. – 520 s.
6. Abdulla K. Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud" dastanı / K.Abdulla; ADA Universiteti. – Bakı: Şərq-Qərb, 2020. – 283 s.
7. Babaxanlı Gİ. Heydər Əliyev və Hüseyn Cavid / G.İ.Babaxanlı; red. A.İ.Əliyeva-Kəngərli; AMEA Hüseyn Cavidin Ev Muzeyi. – Bakı: Elm və təhsil, 2020. – 160 s.
8. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev dühası və intibah dövrünün davamlı inkişafı" mövzusunda respublika elmi konfransının materialları: Bakı, 07 may 2020-ci il / A.İsgəndərov, A.Həmidov, B.Nəbiyev, Bakı Dövlət Universiteti. – Bakı: BDU nəşriyyatı, 2020. – 104 s.

**Aybeniz Aliyeva-Kangarli**

**THE PROBLEM OF CLASSICAL HERITAGE IN STATEHOOD THEORY OF HEYDAR ALIYEV**

**Summary:** Heydar Aliyev was the owner of great thinking, phenomenal memory and talent, and a wonderful speaker. During the great historical period during which he led Azerbaijan, he expressed his civic attitude to the artistic and cultural heritage with his brilliant speech, logic, unusual thinking, and most importantly, his ability to listen to art in all major events related to literature and culture. and it was thought provoking.

Heydar Aliyev's concept of literature is an independent theoretical training. It was formed from the theoretical and historical possibilities of a great thinking. It is impossible to imagine the literary-historical process of the second half of the 20th century without Heydar Aliyev's theoretical legacy. The great events held in the light of the national independence ideology in connection with the 1300th anniversary of "Kitabi-Dade Gorgud" and the 500th anniversary of M. Fuzuli are the cultural highlights of the Heydar Aliyev era, the historical expression of the Azerbaijan president's love and respect for the national-spiritual past, and his faith in the future of the people.

Heydar Aliyev's great concern for the publication and promotion of Azerbaijani literature, first of all, shows itself in the example of classical literary monuments. What Heydar Aliyev said about literature is a national theoretical and methodological asset that determines the historical role of Azerbaijan's artistic culture. It is the theoretical-historical task of modern literary studies and literary criticism to preserve it, to study and promote it from time to time.

**Key words:** Heydar Aliyev, classical literature, “Kitabi-Dada Gorgud” epic, Muhammad Fuzuli

**EOS 323.2**
**ORCID ID: 0000-0001-5404-850X.**

**Baha Ahmet Yılmaz**
**Ege University, Institute of Social Sciences, Department of Communication Research & PhD. Dublin University & BZT Academy PhD (c),**
**E-mail: bahayilmaz@bztacademy.com,**

# SİYASAL İLETİŞİMDE KURTARICI LİDERLİK KAVRAMI: HAYDAR ALİYEV'İNTÜRK DÜNYASI ALGISINA YÖNELİK NİTEL BİR ARAŞTIRMA

**"Özgürlük ve Bağımsızlık Her Milletin Milli Servetidir"**
**Haydar Alıyev**

**Anahtar kelimeler:** Haydar Aliyev, Kurtarıcı Liderlik

**Konu:** Toplumun yapıtaşını oluşturan bireyler bulundukları yapı içerisinde farklı rollere bürünebilmektedir. Tartışmalı ve kapsamlı bir terminolojiye sahip olsa da en öne çıkan rollerden biri de liderliktir. Siyasal iletişim bağlımdan özellikle 1970'li yıllardan itibaren otoriter, katılımcı ve karizmatik gibi kavramların sıkça eşlik ettiği liderlik kavramı toplumların bağımsızlığını kazandığı dönemlerde sıkça kullanılmıştır. Bu bağlamda Soğuk Savaş'ın sona ermesinin ardından 18 Ekim 1991 yılında bağımsızlığını kazanan Azerbaycan Cumhuriyetinin kurucu liderlerinden olan Haydar Aliyev'in liderliğine yönelik birçok adlandırmalar yapılsa da ilgili konjonktür göz önüne alındığında yapılan tanımlamalar yetersiz kalmaktadır. Uzunca bir dönem Sovyetler Birliği yönetimi altında kalmasına rağmen eş zamanda bağımsızlık kazanan diğer bölge ülkeleri ile karşılaştırıldığında kendi kimliğini hızla inşa etmeye başlayan bu genç cumhuriyetin kurucusuna yönelik kullanılabilecek en etkili liderlik etiketi şüphesiz kurtarıcı liderliktir.

**Amaç:** Bu doğrultuda ilgili çalışmada Haydar Aliyev'e yönelik kurtarıcı liderlik kavramı ile ilgili anlam kategorileri saptanarak, söylem düzeyinde bu kavram ile ilişkisi sorgulanacaktır. Bu bağlamda 1991 yılında kurulan Türk Dili Konuşan Ülkeler İşbirliği Konseyi (Türk Konseyi) tarafından her yıl düzenli olarak yayınlanan zirve bildirileri bu çalışmanın örneklemini oluşturmaktadır.

**Yöntem:** Çalışmada Türkiye öncülüğünde bağımsızlığını yeni kazanmış Orta Asya ve Kafkasya'da yer alan Türki Cumhuriyetlerin birbirlerine ve uluslararası sisteme entegre edilebilmesi amacıyla kurulan konseyin bildirilerinde Haydar Aliyev'in söylem ve politikaları bağlamında kurtarıcı liderlik ile ilişkisi karşılaştırmalı olarak analiz edilmeye çalışılmıştır. Ayrıca içerikleri bakımından hangi araştırma modelini yansıttıkları ve diyalojik prensipleri ne ölçüde karşıladıklarını belirlemeye yönelik niteliksel veriye dayalı içerik analizi yapılırken, bildirilerde yer verdikleri konuların betimlenmesine yönelik tematik kodlamaya dayalı niteliksel içerik analizi yapılmıştır. Analizler yapılırken MAXQDA 20 paket programından yararlanılmıştır.

**Sonuçlar:** 1992-2002 yılları arasında yapılan yedi zirve raporunda; bölgesel ve uluslararası entegrasyon, kültürel entegrasyon, siyasi entegrasyon ve diyalog tematik kodlamaları ile içerik analizi yapılmıştır. Yapılan analiz sonucunda ilgili zirvelerde Haydar Aliyev'in Türkiye ve Azerbaycan için kullandığı "Tek millet iki devlet" kültürel entegrasyon teması altında kullanılan ve en sık kullandığı söylemi olarak öne çıkmaktadır. Bununla birlikte Azerbaycan Cumhuriyetinin kendi kimlik inşası ile paralel bir doğrultuda gördüğü Türk Dünyası söylemi ise bölgesel ve uluslararası entegrasyonda öne çıkan bir diğer kavramdır. Siyasi entegrasyon teması altında ise Azerbaycan'ın hem bölge hem de diğer ülkeler ile dostane ilişkiler geliştirilmesi gerektiğinin altını çizmiş, 1990'lı yılların başında Ermenistan'ın Azerbaycan' ait olan toprakları işgali ile başlayan Dağlık Karabağ sorununda dahi son ana kadar barış yanlısı tutumunu sürdürmüştür. Bu durum aynı zamanda Aliyev'in diyaloga verdiği önemi de bizlere göstermektedir. Sonuç olarak zirve bildirilerine yönelik yapılan içerik analizinde de görüldüğü gibi Haydar Aliyev Azerbaycan'ın tam bağımsızlığını önceleyen bir siyasa ile Türk Dünyasının entegrasyon sürecinde Türkiye Cumhurbaşkanı

Süleyman Demirel ile ortak bir tutum sergilemiş ancak gerek Karabağ Savaşı ve sonrasında Azerbaycan iç siyasetinde yaşanan zorluklar gerekse Türkiye ve diğer Türki cumhuriyetlerde 1994 yılı ile birlikte başlayan ekonomik kriz hedeflenen entegrasyonun bir başka döneme kalmasına yol açmıştır. Bu süreçte Haydar Aliyev'in Türk dünyasına yönelik kültürel entegrasyona öncelik verdiği söylenebilir.

**UOT 069:929**

**Tahirə Həsənzadə**
**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**
**tarix elmləri doktoru, professor**
**E-mail: tahirehesenzade@mail.ru**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA XATİRƏ-EV MUZEYLƏRİNİN YARADICISIDIR

**Xülasə:** Ulu öndər Heydər Əliyev hələ sovet hakimiyyəti illərində xatirə-ev muzeylərinin yaradılması sahəsində mühüm işlərə imza atmışdır. Xatirə muzeyləri Azərbaycan SSR KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1976-cı il iyun tarixli "Dahi ədəbiyyat və incəsənət xadimlərinin adını əbədiləşdirmək haqqında" qərarı və Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 1979-cu il oktyabr tarixli qərarına əsasən yaradılmağa başlamışdır.

Ulu öndər digər görkəmli elm və mədəniyyət xadimlərinin, ədiblərin xatirə-mənzil muzeylərinin yaradılması üçün bir sıra sərəncamlar imzalamışdır. Xalq şairi Səməd Vurğunun, Cəfər Cabbarlının, Abdulla Şaiqin, Hüseyn Cavidin, M.S.Ordubadinin və digərlərinin xatirə muzeylərinin yaradılması bu qəbildəndir. Azərbaycanın ilk xalq şairi Səməd Vurğunun ev muzeyi Ulu öndərin göstərişilə 1975-ci ildə açılmış ilk xatirə muzeyidir. Bu muzey yazıçı və bəstəkarların xatirəsini əbədiləşdirir. Ulu öndər Heydər Əliyevin Azərbaycanda muzeylərin yaranmasına diqqət və qayğısı sayəsində görkəmli elm və mədəniyyət xadimlərinin, görkəmli ədiblərin xatirə-ev muzeylərinin açılması, gənc nəslin maariflənməsində, ədəbi irsimizə dərindən yiyələnməsində, bir sözlə, həmin unudulmaz şəxsiyyətlərin əbədi ölümdən güclü olan həyat qazanmasında əvəzsiz rol oynamaqdadır.

**Açar sözlər:** Heydər Əliyev, xatirə-ev muzeyləri, Səməd Vurğunun ev muzeyi, Cavidin ev muzeyi, Niyazinin ev muzeyi

Heydər Əliyev 1994-cü il sentyabrın 18-də maestro Niyazinin ev muzeyinin açılışında iştirak etmiş, [1] muzeyin xatirə kitabında sənətin ən yüksək zirvəsində duran bəstəkara yüksək qiymət verərək bu sözləri yazmışdır: "Biz artıq 70-ci illərin əvvəllərində Bakıda, Azərbaycanda xalqımızın ayrı-ayrı şəxsiyyətlərinin ev muzeylərini yaratmağa başladıq. Təəssüflə qeyd etməliyik ki, bir sıra memorial muzeylərin sovet dövründə rəhbər tutduqları prinsipləri, iş proqramını, metodikanı, tamaşaçılar qarşısında etdikləri mühazirələri rəhbər tutmaqda davam edirlər. Məsələn, M.F.Axundov, Mirzə Cəlil, N.Nərimanov və başqaları yalnız beynəlmiləlçi mütəfəkkir kimi təqdim edilirlər. Halbuki onların hər biri milli-vətənpərvər ruhlu siyasi-ictimai xadim, Azərbaycan xalqının maariflənməsi və tərəqqisi naminə alovlu mübariz olmuşlar".

Bu sözləri deməklə ulu öndər, heç şübhəsiz ki, görkəmli ictimai-siyasi xadim, ədib Nəriman Nərimanovu düşünmüş, hakimiyyətə gəldiyi ilk illərində bu böyük insanın haqqını özünə qaytarmaq yolunda rast gəldiyi maneələri xatırlamışdır.

Belə ki, 1969-cu ildə Azərbaycan dövlətinin rəhbəri təyin olunan Heydər Əliyev artıq 1970-ci ildə Nəriman Nərimanovun anadan olmasının 100 illik yubileyinin keçirilməsi qərarına gəlmiş və bunun üçün Moskvaya müraciət etmişdir. Moskvadan "bir millətçi üçünmü yubiley keçirmək istəyirsiniz?" sualını eşidən ulu öndər bu yubileyin keçirilməsi üçün qətiyyətlə mübarizə aparmış, nəticədə böyük siyasi xadimin 1972-ci ildə həm yubileyinin keçirilməsinə, həm də Bakının yüksək ərazisində heykəlinin açılışına nail olmuşdur. Beş ildən sonra, 1977-ci il noyabrın 6-da N.Nərimanovun xatirə-ev muzeyinin açılışı İstiqlaliyyət küçəsində memar M.M.İsmayılovun layihəsi əsasında tikilmiş ikimərtəbəli binanın ikinci mərtəbəsində baş tutmuşdur [4]. 1979-cu ildə Gəncədə də siyasi xadim, milli təmayülçü N.Nərimanova abidə

ucaldılmışdır. Bir sözlə, siyasi xadim, ədib N.Nərimanovun şəxsiyyətinə qarşı olan yersiz ittihamlara, böhtanlara son qoyan, haqqını özünə qaytaran ulu öndər Heydər Əliyevin xidmətləri əvəzsizdir.

Ulu öndər digər görkəmli elm və mədəniyyət xadimlərinin, ədiblərin xatirə-mənzil muzeylərinin yaradılması üçün bir sıra sərəncamlar imzalamışdır. Xalq şairi Səməd Vurğunun, Cəfər Cabbarlının, Abdulla Şaiqin, Hüseyn Cavidin, M.S.Ordubadinin və digərlərinin xatirə muzeylərinin yaradılması bu qəbildəndir. Azərbaycanın ilk xalq şairi Səməd Vurğunun ev muzeyi Ulu öndərin göstərişilə 1975-ci ildə açılmış ilk xatirə muzeyidir [6]. Bu muzey yazıçı və bəstəkarların xatirəsini əbədiləşdirir. Otaqların birində qoyulmuş royalda dahi bəstəkar Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Səid Rüstəmov öz əsərlərini ifa etmiş, ölməz sənətkar Bülbül "Sənsiz" romansını Ü.Hacıbəyovun müşayiətilə ifa etmişdir.

Xatirə muzeyləri Azərbaycan SSR KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1976-cı il iyun tarixli "Dahi ədəbiyyat və incəsənət xadimlərinin adını əbədiləşdirmək haqqında" qərarı və Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 1979-cu il oktyabr tarixli qərarına əsasən yaradılmağa başlamışdır.

H.Əliyev 1982-ci ilin iyulunda muzey işçilərinin Respublika müşavirəsində diqqəti tarix-diyarşünaslıq muzeylərinin yaradılması zərurətinə də yönəltmiş və demişdir: "Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə cavan nəslin ideya-siyasi və mədəni tərbiyəsinin mərkəzinə çevrilmişdir. Muzeylər söz yox ki, hər bir vətəndaşın öz diyarının, rayonunun, kəndinin tarixinə bələd olması üçün də vacibdir. Bir sözlə tarix-diyarşünaslıq muzeylərinin təşkil edilməsi zəruriliyi göz qabağındadır" [5]. Ulu öndər müşavirədən bir il öncə, 1981-ci ildə Cəlilabad və Xaçmaz tarix-diyarşünaslıq muzeylərinin açılışında iştirak etmiş və muzey əməkdaşlarına özünün dəyərli məsləhətlərini vermişdir. Azərbaycan Xalq Cümhuriyyətinin xələfi olan müasir Azərbaycan Respublikası 1991-ci il 18 oktyabrda dövlət müstəqilliyini bərpa etdikdən sonra Respublikada muzey işi sahəsində müəyyən dəyişikliklər edildi. Muzey şəbəkələri yeni tələblərə uyğunlaşdırıldı. A.Şaiqin ev muzeyi ədibin anadan olmasının 120 illiyi ilə əlaqədar Prezidentin sərəncamı ilə yarandı [3]. Rəsmi açılışı 2001-ci ilin 24 fevralında oldu.

Hüseyn Cavidin ev muzeyinin rəsmi açılışı isə 2002-ci il 24 oktyabrda, baş tutdu ki, bu da şairin anadan olmasının 100 illiyi münasibətilə verilmiş 1981-ci il tarixli sərəncamın yerinə yetirilməsi demək idi [2, s.20]. Ulu öndər Heydər Əliyevin Azərbaycanda muzeylərin yaranmasına diqqət və qayğısı sayəsində görkəmli elm və mədəniyyət xadimlərinin, görkəmli ədiblərin xatirə-ev muzeylərinin açılması, gənc nəslin maariflənməsində, ədəbi irsimizə dərindən yiyələnməsində, bir sözlə, həmin unudulmaz şəxsiyyətlərin əbədi ölümdən güclü olan həyat qazanmasında əvəzsiz rol oynamaqdadır.

### Ədəbiyyat siyahısı:

1. Bayramov R. Maestronun xatirəsinə. Mədəniyyət. – 2014. – 19 sentyabr. – s.13.
2. Əhmədli S. Hüseyn Cavidin ev muzeyi. Bakı, Şirvannəşr, 2009, 168 səh.
3. Abdulla Şaiqin Mənzil Muzeyinin rəsmi saytı. http://abdullashaig.az/az/?p=37
4. Hazırda Nəriman Nərimanovun Xatirə Muzeyində 6 mindən çox eksponat nümayiş olunur. 02.06.2020. https://azertag.az/xeber /Hazirda _Neriman _Nerimanovun_ Xatire_ Muzeyinde_6_minden_ chox_ eksponat_ numayis_ olunur- 1501925
5. Seyidova Z. Heydər Əliyev muzey quruculuğunu həmişə diqqətdə saxlayıb. 13-02-2023. https://www.medeniyyet.az/page/news/66386/Heyder-Eliyev-muzey-qurucului gunu-hemise-diqqetde-saxlayib.html
6. Səməd Vurğunun Ev Muzeyi. http://icomaz.az/az/ S%C9%99m%C9%99d%20 Vur%C4%9Funun%20Ev%20Muzeyi. 24/06/2015

**Tahira Hasanzade**

## THE GREAT LEADER HEYDAR ALİYEV İS THE FOUNDER OF MEMORİAL HOUSE-MUSEUMS İN AZERBAİJAN

**Summary;** Great leader Heydar Aliyev laid the foundation for establishing memorial museums back in the days of the Soviet Union. The establishment of memorial museums in Azerbaijan began after the signed desicion of the Central Committee of the Communist Party of the Azerbaijan SSR and the Council of Ministers of the Azerbaijan SSR titled "To perpetuate the names of prominent figures in literature and fine arts" and dated June 1976 and the decree of the Minister of Culture of the Azerbaijan SSR dated October 1979.

The great leader signed a number of decrees for the establishment of memorial houses and museums of other outstanding scientists and cultural figures. For example, the memorial museums of People's poet Samad Vurgun, Jafar Jabbarli, Abdulla Shaig, Huseyn Javid, M.S. Ordubadi. At the behest of Heydar Aliyev, the very first house-museum of the first people's poet of Azerbaijan, Samad Vurgun was opened in 1975. This museum perpetuates the memory of writers and poets. Thanks to the attention and care of the great leader Heydar Aliyev, the creation of museums of prominent figures in science, culture and literature in Azerbaijan plays a big role in the the young generation’s education, in the study of our literary heritage, and in preserving the memories of those unforgettable personalities.

**Key words:** Heydar Aliyev, house museums, Samad Vurgu's house museum, Javid's house museum,Niyazi's home museum

**UOT 28-72**

**Salatın Əhmədli**
**Memarlıq və İnşaat Universiteti,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: ahmadova.salatin@mail.ru**

# HEYDƏR ƏLİYEV VƏ İSLAMIN AZƏRBAYCAN MODELİ

**Xülasə:** Ümummilli lider Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycan hökumətinə rəhbərlik edərək cəmiyyətdə hökm sürən gərginliyi, siyasi kataklizmləri aradan qaldırdı, dini islahatlar apardı. Suverenliyin ilk illərində Azərbaycanda cəmi 18 məscid var idi. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bu rəqəm 1000-ə yüksəldi. Din tarixini əks etdirən bir çox dini abidələr və məscidlər onun rəhbərliyi ilə təmir və bərpa olunub. Əminliklə demək olar ki, ümummilli liderin siyasəti və rasional idarəçiliyi sayəsində digər müsəlman ölkələri üçün də örnək olan İslamın Azərbaycan modeli meydana çıxdı.

**Açar sözlər:** Heydər Əliyev, İslam, "Qurani-Kərim", milli-mənəvi dəyərlər, məscid

1991-ci ildə müstəqilliyin bərpasından sonra Azərbaycanın qarşısında çox ciddi, həllini gözləyən problemlər dururdu. Azərbaycan cəmiyyətinin iqtisadi-siyasi, sosial sahələrində olduğu kimi dini zəmində də müəyyən boşluqlar, pərakəndəliklər səciyyəvi idi. 70 illik sovet rejimi dövründə ateizm və antiislam təbliğatı öz işini görmüş, insanlarda ideolojiləşdirilmiş stereotiplərlə materialist baxışlar formalaşdırılmağa cəhd göstərilmişdi. Bu sistem insanlara öyrədirdi ki, "Allah yoxdur, din mövhumat və xurafatdan başqa bir şey deyil, axirət inancı yanlış inancdır, ancaq dünya həyatı var və insan öləndən sonra hər şey bitir". Müstəqilliyin ilk dövründə vəziyyət tamamilə dəyişdi, insanlar gizlində icra etdiyi dini ritualları, Allaha bağlılığı heç bir təzyiqsiz icra etməyə başladı və Azərbaycan ictimai-mədəni, sosial mühitin yeni mərhələsinə qədəm qoydu.

Yaranan əlverişli mühitdən, boşluqdan istifadə etməyə çalışan daxili və xarici qüvvələr də vardı. Ölkədə xarici missioner təşkilatları islami dəyərlərə zidd olan aparan bir sıra destruktiv sektalar, qeyri-ənənəvi cərəyanlar yaratdılar. Erməni təcavüzü, ölkə ərazilərin işğalı, qaçqın və məcburi köçkün şəraitində sosial gərginliklərə dini problemlər də əlavə olundu. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyununundan sonra ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu: "Ölkənin mürəkkəb katakalizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Belə ki, ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsinə istinad etdiyi rasional seçim strategiyası sayəsində ölkədə hökm sürən qeyri-müəyyənliklə təzahür olunan deskruktiv proseslərin mərhələli şəkildə neytrallaşdırılmasına nail olundu. Yüksək dövlətçilik təcrübəsi və idarəetmə ustadı olan Heydər Əliyev Şərq dəyərlərini yaşadan Azərbaycan xalqının həyatında islamın böyük əhəmiyyət daşıdığını gözəl bilirdi. Heydər Əliyev 1997-ci ildə Mədinə şəhərində Peyğəmbər məscidinin şərəf kitabına yazdığı təəssüratını belə ifadə edirdi: "Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Allahın böyüklüyünü dərk etdim".

Azərbaycan xalqının yenidən öz milli-mənəvi dəyərlərinə qayıdışı prosesini düzgün, tarixi əsaslara söykənərək həyata keçirən Heydər Əliyev din və dövlət münasibətləri konsepsiyasını bu şəkildə müəyyənləşdirirdi:

1. İslam Azərbaycan xalqının dini etiqadı olmaqla milli mədəniyyətin tərkib hissəsidir.
2. Din cəmiyyətin milli, əxlaqi və mənəvi bütövlüyünün önəmli amili kimi çıxış edir.

3. Müasir dövrdə dövlət-din münasibətlərinin düzgün qurulmasına ehtiyac duyulur və bu olduqca vacibdir.

4. Dinlər və xalqlar arasında anlaşma və dialoq yeni beynəlxalq şəraitin əsas tələblərindən biridir.

Heydər Əliyev cəmiyyətin bütün sahələrində olduğu kimi, islam mədəniyyətinin düzgün təbliğində, dini ayinlərin məzhəb ayrı-seçkiliyinə varmadan icrasında və dini kəsimin fəaliyyət istiqamətlərində əlverişli siyasət müəyyənləşdirən, həm də onun icra mexanizmlərini tənzimləyən praktik bir dövlət xadimi idi. Çoxsaylı problemlərə baxmayaraq ümummilli lider iqtisadi-siyasi proqram və layihələrlə yanaşı, din siyasəti sahəsində də mütərəqqi addımlar atdı. Müstəqilliyin ilk illərində, daha dəqiq desək, 1992-ci ildə bölgədə dini situasiyaya uyğun olmayan, tarixi şərait nəzərə alınmadan tələsik hazırlanıb qəbul edilən "Din azadlığı haqqında" qanuna iki dəfə dəyişiklik edildi. 1996 və 1997-ci illərdə həyata keçirilən bu dəyişiklik dövlət-din münasibətlərində yeni mərhələ və imkanlar açdı. Heydər Əliyev ardıcıl olaraq din-dövlət münasibətlərini bütün spektrlərini əhatə edən arqument və tarixi faktlarla zəngin açıqlama və bəyanatlar verir, müxtəlif tədbirlər həyata keçirirdi. "Təzə Pir" məscidində dindarlarla görüşündə ümummilli lider islami dəyərlərinin qorunması və icrası "Qurani-Kərim"in hər bir müsəlman üçün əhəmiyyətini vurğulayırdı: "Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir. "Qurani-Kərim"in bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir... Biz azərbaycanlılar, bu, sonrakı gələcək bütün nəsillərə də tövsiyə olunur, heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq". Heydər Əliyev milli-mənəvi dəyərlər sistemində islam faktorunu sadəcə dini ayinlərin icrası, axundların oxuduğu xütbələr şəklində deyil, elmi-araşdırma amili kimi nəzərdə tuturdu. Məhz ümummilli liderin hakimiyyəti dövründə ölkədə təkcə məscidlər açılmadı, ali-dini təhsil müəssisələri fəaliyyətə başladı və bu mövzuda ayrıca tədqiq olunmalıdır. Yüksək intellekti, mənəvi dəyərlərə bağlılığı örnək olan Heydər Əliyev Azərbaycan xalqının tarixi inkişaf prosesində böyük şəxsiyyətlərin islama münasibətini də gözəl bilir, təhlil edirdi. Türk-islam dünyasının böyük mütəfəkkiri Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, M.Şahtaxtinski və digər şəxsiyyətlərinin islama elmi baxışını yüksək dəyərləndirən Heydər Əliyev deyirdi: "Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim Qurani-Şərifdə öz əksini tanıdır. Ancaq bununla yanaşı, Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, böyük şəxsiyyətləri, hörmətli siyasi və dövlət xadimləri, böyük elm-mədəniyyət xadimləri Azərbaycanın milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət-ənənələrimizdir. Bu, bizim milli-əxlaqi mentalitetimizdir". Xalqın tarixi inkişaf prosesini, gənc Azərbaycan dövlətinin qarşılaşdığı çətinlikləri, həlli müşkülə çevrilən Qarabağ problemini və dövlətin strateji xəttini böyük ustalıqla izah edən Heydər Əliyev din amilinə məxsusi yanaşırdı. Çıxışlarının birində bildirirdi ki, Azərbaycanın strateji yolu demokratik, hüquqi dövlət quruculuğu prosesindən keçir. Əlbəttə, dünyəvi dövlətçilik prosesi və müasir siyasi-beynəlxalq vəziyyət dövlətin dindən ayrıldığını nəzərdə tutur. Ancaq, fərdlər, bütövlükdə isə xalq və millət dindən ayrı deyildir. Bütün bu faktları, qloballaşan dünyanın siyasi mənzərəsini gözəl bilən və bunları filosof kimi nəzərə alan bu böyük şəxsiyyət Qurban bayramı münasibətilə Mir Möhsün ağanın ziyarətgahında keçirilən bir görüşdə qeyd edirdi: "İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dinimizin adət-ənənələri bizim sərvətimizdir... Bizim ənənələrimiz, mənəvi, milli dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır".

Ümummilli lider hakimiyyətə gələndə ölkədə cəmi 18 məscid fəaliyyət göstərirdi. Bir neçə il ərzində isə bilavasitə onun rəhbərliyi və göstərişi ilə əlverişli, praqmatik dini sistem müəyyənləşdirildi, məscidlərin sayı 1000-ə çatdı. Din-dövlət münasibətlərinin qanuni yolla inkişafı, Azərbaycan Konstitusiyada nəzərdə tutulan fərdin inanc sisteminin tətbiqi idarəçilikdə səmərəlilik yaratdı. Bununla da ümummilli liderin səyi ilə 70 ildən sonra yeni bir dini-klerekal zümrənin ortaya çıxması islamın

Azərbaycan modelini qurdu. Tolerantlıq, dözümlülük, qarşılıqlı hörmət və məzhəb ayrılığının sonu olan bu modelin əsas müəllifi isə şübhəsiz Heydər Əliyev oldu. Azərbaycanda islam mədəniyyəti incilərinin qorunmasında, bərpasında ümummilli lider böyük titanik fəaliyyət göstərdi. Heydər Əliyev Azərbaycanın bir sıra məscidlərinin, islam mədəniyyətini qoruyub saxlayan tarixi abidələrin yenidən qurulmasında, bərpasında nəinki yaxından iştirak etdi, hətta bu işlərin ideya müəllifi, təşəbbüskarı oldu. Hakimiyyətə qayıdışın ilk illərində ümummilli lider ilk olaraq "Bibiheybət" məscidinin yenidən qurulması barədə göstərişi verdi və görülən işlərlə bağlı bir neçə dəfə məscidə baş çəkdi. Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasında o günləri xatırlayan Heydər Əliyev deyirdi: "Təsəvvür edin, o yer müqəddəs yerdir. Orada 8-ci əsrdə Həzrəti Hökumənin qəbri olmuşdur. İmam Rzanın bacısı Həzrəti Hökumənin qəbri üzərində vaxtilə insanlar məscid qurmuşdular və ora ziyarətgaha çevrilmişdi. Ancaq o müqəddəs yer, müsəlmanların, tək Azərbaycanda yox, dünyanın bir çox yerindən gələn müsəlmanların ziyarət etdiyi müqəddəs ocaq 1933-cü ildə partladılmış, dağıdılmışdır. Məscidi dağıdıb, partladıblar, yerlə-yeksan ediblər, amma insanlar ayağını o yerdən çəkməyiblər. Həmişə "Bibiheybət" piri – bizdə ona pir deyirlər – müsəlmanların ziyarət yeri olubdur, müsəlmanlar gedib orada o yerə öz ehtiramını bildiriblər". Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə bağlılığını təbii bir prosesə çevirən Heydər Əliyev dini bayramlarda həmişə cəmiyyətlə birgə oldu, hər cür yasaq, məhdudiyyətlər aradan qaldırıldı. Dinə qayıdışı ruhi ehtiyacın tərkib elementi kimi götürdü. İslama cəmiyyəti birləşdirəcək faktor kimi yanaşan Heydər Əliyev işləyib hazırladığı azərbaycançılıq konsepsiyasında islami dəyərlərə xüsusi yer verərək bu sahədə ciddi addımlar atdı. "Bibiheybət" məscidi ilə yanaşı "Təzə Pir"in, "Əjdər bəy" məscidinin, 744-cü ildən bu günə qədər möminlərin üzünə açıq olan "Şamaxı Cümə Məscidi"nin yenidən qurulması, bərpası işi həyata keçirildi. "Bibiheybət" məscidini 1994-cü ildə ziyarət edən Heydər Əliyev islam tarixi üçün böyük əhəmiyyət daşıyan məscidin yenidən inşasına qərar verdi. Bu məscid kompleksi 1998-ci ilin mayında başa çatdı və Prezident açılış mərasimində tarixi bir çıxış etdi. Çıxışın əsas məğzi ondan ibarətdir ki, dini etiqad azadlığını pozan siyasi sistemlər məhvə məhkumdur və siyasi-ideoloji təbliğat maşını insanların etiqadını sıradan çıxarmağa qadir deyil. Keçmişin siyasi tarixi mənzərəsini obyektiv şəkildə canlandıran bu böyük dövlət xadimi ibrətamiz bir fakt çəkir: "Qısa bir zamanda məlum oldu ki, əgər Azərbaycanda kommunist ideologiyası 70 il yox, 170 il də hökm sürmüş olsaydı, insanları islam dinindən ayırmaq mümkün olmayacaqdır. Bu artıq faktdır. Eyni zamanda bu islam dinin nə qədər böyük gücə malik olduğunu sübut edir". 1999-cu ilin martında Qurban bayramı günü yenidən inşa olunan "Bibiheybət" məscidinin "Heydər" minarəsindən azan verildi. Bu böyük şəxsiyyətin islama, Allaha, "Qurani-Kərim"ə olan inamının, etiqadının və sonsuz məhəbbətinin nəticəsi idi. Sovetlər birliyinin ən yüksək vəzifə pilləsinə qalxan Heydər Əliyev müsəlman ölkə rəhbərləri ilə vaxtilə sıxı əməkdaşlığı Azərbaycanın müstəqillik illərinin ilk mərhələsində müsbət mənada özünü göstərdi. İslam Konfransı təşkilatlarının VII Zirvə görüşündən qayıdarkən jurnalistlərlə müsahibəsinə Heydər Əliyev deyirdi: "... İslam ölkələri mənim şəxsiyyətimə vaxtilə, şübhəsiz çox maraqlanıb. Xüsusilə mən Sovetlər İttifaqının rəhbərlərindən biri olduğum dövrdə hər bir müsəlman maraqlanıb ki, indi Sovetlər dövlətinin rəhbərliyində bir müsəlman da var". Ümummilli lider islam faktorunun tək Azərbaycan cəmiyyətinin həyatında deyil, müsəlman-türk dünyasında önəmini həmişə vurğulayır, əməli proqram və konsepsiyalar irəli sürürdü. İslam həmrəyliyi ideyasının müəllifi olan H.Əliyev Bakıda Şərq-Qərb sivilizasiyası dialoqu platformasını yaradaraq sağlam dini əsaslar üzərində həmrəyliyi önə çəkirdi. 1998-ci ilin 9-11 dekabr tarixlərində Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" adlı Beynəlxalq konfrans da bu ideyanın əsas elmi nəticələrindən biridir. Bu gün Azərbaycanda dini zəmində heç bir münaqişə ocağının olmaması, insanların sərbəst öz əqidə formasını seçməsi, dini zorakılığa yol verilməməsi və tolerantlıq şəraitində xalqın yaşaması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması ümummilli lider Heydər Əliyevin din sahəsində balanslaşdırılmış

siyasətinin nəticəsidir. Xüsusi vurğulanmalıdır ki, bu siyasət Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir.

### Ədəbiyyat siyahısı:

1. Heydər Əliyev. Xalqımızın birliyi və dövlətimizin düzgün siyasəti sayəsində müstəqilliyimizi qoruyub saxlayacaq, daha da möhkəmləndirəcəyik. “Azərbaycan” qəzeti 28 may 1998-ci il.
2. Heydər Əliyev. Müstəqillik yolu. Bakı. 1997-ci il. s.81-93.
3. www. azadinform.az. Heydər Əliyevin milli-mənəvi dəyərlər haqqında müdrik fikirləri.
4. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. “Azərbaycan” qəzeti. 30 dekabr 2000-ci il.
5. “Azərbaycan İslam Konfransı Təşkilatları sıralarında” Bakı-Apostrof. 2008-ci il s.28.
6. “Respublika” qəzeti 9 aprel 1998-ci il.
7. İsgəndərov Anar. Təzə Pir. Bakı. “Qismət” 2008-ci il.
8. Hikmət Babaoğlu. Heydər Əliyev irsinin politoloji aspektləri. Bakı. 2013. s.62.

**Salatın Ahmadli**

## HEYDAR ALIYEV AND THE AZERBAIJAN MODEL OF ISLAM

**Summary:** National leader Heydar Aliyev 1993, once again heading the Azerbaijani government, eliminated the tensions and political cataclysms that prevailed in the society and committed religious reforms. In the first years of sovereignty, there were only 18 mosques throughout Azerbaijan. After Heydar Aliyev returned to power, this figure increased to 1,000. Many religious monuments and mosques reflecting the history of religion were repaired and restored. One can say with confidence that thanks to the policy and rational management of the national leader, the Azerbaijani model of Islam has appeared, serving as a model for other Muslim countries.

**Key words:** Heydar Aliyev, Islam, "Quran-Karim", national-moral values, mosque

**UOT 008**

**Əzizağa Nəcəfzadə**
**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**E-mail:**azizaga.necefov@mail.ru

# NİZAMİŞÜNASLIĞA DÖVLƏT QAYĞISI HEYDƏR ƏLİYEVİN MƏDƏNİYYƏT SİYASƏTİNİN MÜHÜM TƏRKİB HİSSƏSİDİR

**Xülasə:** 6 yanvar 1979-cu ildə ümummilli lider Heydər Əliyevin (Azərbaycan KP MK-nın 11-ci birinci katibi) təşəbbüsü ilə dünya ədəbiyyatı klassikləri sırasında layiqli yer tutan Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, təbliği və kitablarının nəşri ilə bağlı "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsi, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" xüsusi qərarın imzalanması ilə ölkəmizdə nizamişünaslığın yeni mərhələsi başladı.

Ulu öndərin şəxsi təşəbbüsü nəticəsində 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyinin təntənəli yubiley kimi qeyd olunması haqqında xüsusi qərar qəbul olundu. Bu qərardan sonra dahi şairin adının əbədiləşdirilməsi və təbliği istiqamətində müvafiq tədbirlər həyata keçirildi, nizamişünaslıqda xüsusi canlanma baş verdi. Ulu öndərin mədəniyyət siyasətinin mühüm parçası olan Azərbaycan şairi Nizami Gəncəvinin dünyada daha geniş coğrafiyada təbliği və əsərlərinin daha dərindən tədqiqi, nəşri işlərinin təkmilləşdirilməsi istiqamətində atdığı mühüm addımlar onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildi.

**Açar sözlər:** Nizami Gəncəvi, Heydər Əliyev, nizamişünaslıq, mədəniyyət siyasəti, ədəbi irsin təbliği

6 yanvar 1979-cu ildə ümummilli lider Heydər Əliyevin (Azərbaycan KP MK-nın 11-ci birinci katibi) təşəbbüsü ilə dünya ədəbiyyatı klassikləri sırasında layiqli yer tutan Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, təbliği və kitablarının nəşri ilə bağlı "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsi, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" xüsusi qərarın imzalanması ilə ölkəmizdə nizamişünaslığın yeni mərhələsi başladı [6].

Ulu öndərin şəxsi təşəbbüsü nəticəsində 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyinin təntənəli yubiley kimi qeyd olunması haqqında xüsusi qərar qəbul olundu. Bu qərardan sonra dahi şairin adının əbədiləşdirilməsi və təbliği istiqamətində müvafiq tədbirlər həyata keçirildi, nizamişünaslıqda xüsusi canlanma baş verdi və görkəmli nizamişünas Zəhra Allahverdiyevanın təbiri ilə desək, nizamişünaslıq tarixində yeni, "2-ci çox möhtəşəm bir mərhələ" yaşandı [7] (birincisi ölkə ziyalılarının, ədəbiyyatşünas alimlərimizin Sov.KP MK-nın birinci katibi İ.V.Stalinə məlum məktubundan sonra şairin 800 illik yubileyinin keçirilməsi haqqında qərarın qəbulu ilə bağlı olmuşdu).

Əlamətdar haldır ki, 1981-ci ildə Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində əməkdar elm xadimi Rüstəm Əliyevin rəhbərliyi altında xüsusi "Nizamişünaslıq" şöbəsi yaradıldı. Bu illərdə (1981-1983) Nizami əsərlərinin Azərbaycan dilinə poetik tərcümələri yenidən redaktə olunaraq nəşr edildi, "Xəmsə"yə daxil olan əsərlərin mükəmməl filoloji tərcüməsi ərsəyə gəldi. Tərcümələrin, onlara yazılan izah, qeyd, şərh və lüğətlərin müəllifləri Rüstəm Əliyev, Həmid Məmmədzadə, Mübariz Əlizadə, Qəzənfər Əliyev, Vaqif Aslanov, Zümrüd Quluzadə kimi həm təcrübəli, həm də yeni nəsil nizamişünaslar və şərqşünas-tərcüməçilər idi.

Yuxarıda qeyd etdiyimiz həmin qərardan sonra 80-ci illərdə Nizaminin həyat və yaradıcılığının daha ətraflı öyrənilməsi, əsərlərinin müxtəlif istiqamətlərdən tədqiqi məqsədi ilə bir neçə Nizami lektoriyası təşkil olundu, əhəmiyyətli respublika və ümumittifaq xarakterli konfranslar keçirildi, nizamişünaslığın aktual problemlərinə həsr olunmuş maraqlı elmi məruzələr dinlənildi.

Bu ərəfədə Nizami və onun təsiri ilə yaranan ədəbiyyat mövzusunda Məmməd Cəfər Cəfərovun "Nizaminin fikir dünyası" monoqrafiyası kimi yeni tədqiqat işləri ərsəyə gəldi [1]. Azadə Rüstəmova, Xəlil Yusifli, Arif Hacıyev, Nüşabə Araslı, Tağı Xalisbəyli, Çingiz Sasanian və başqa nizamişünaslarımız yaşlı nəsildən estafeti uğurla alaraq bu istiqamətdə daha cəsarətli addımlar atdı, nizamişünaslığın üfüqlərini bir qədər də genişləndirdilər.

Rüstəm Əliyev 1981-ci ildə ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin aydın təzahürü olan Nizaminin 840 illik yubileyinin təntənəli şəkildə qeyd olunması haqqında imzaladığı tarixi sərəncamından sonra silsilə kitablar nəşr etdirmiş, dünya şərqşünaslarının yaradıcılığından Nizaminin türklüyünü qabardan, şairin xalqı ilə əlaqəsini önə çəkən məqamları tərcümə edərək bir kitaba toplayıb geniş oxucu kütləsinə çatdırmışdır. Onun 1981-ci ildə nəşrə hazırladığı "Məşhur rus alimləri və yazıçıları Nizami Gəncəvi haqqında" kitabı [2] şairin milli mənsubiyyəti etibarilə Azərbaycan-türk etnosuna aid olmasının, əsərlərindəki xalqına bağlılığın görkəmli rus tədqiqatçıları tərəfindən də sübuta yetirildiyini heç bir şərhə ehtiyac olmadan aşkar şəkildə nümayiş etdirir.

Rüstəm Əliyevin 1983-cü ildə dünyada geniş yayılmış bir neçə dildə nəşr edilən "Nizami – qısa biblioqrafik sorğu kitabı"nda [3] Nizaminin tərcümeyi-halı tarixi reallıqlara uyğun, bəzi millətçi qrupların irəli sürdüyü absurd müddəalara cavab olaraq tərtib edilmiş, şairin Azərbaycan reallığı ilə bağlılığı, farsdilli ədəbiyyatda XI-XII əsrlərdə Təbriz, Şirvan və Gəncə şairlərinin yaratdığı Azərbaycan məktəbinə mənsubluğu, onun türk əsilli hökmdarlarla yaxınlığı ön plana – diqqət mərkəzinə çəkilmişdir.

Ulu öndərin mədəniyyət siyasətinin mühüm parçası olan Azərbaycan şairi Nizami Gəncəvinin dünyada daha geniş coğrafiyada təbliği və əsərlərinin daha dərindən tədqiqi, nəşri işlərinin təkmilləşdirilməsi istiqamətində atdığı mühüm addımlar onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildi.

2011-ci ildə şairin 870 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 dekabr 2011-ci il tarixli xüsusi sərəncamı ilə əlaqədardır. Həmin il şairin yubileyinin dünyanın əksər ölkələrində təntənə ilə qeyd olunması, əsərlərinin nəşri, tədqiqi və təbliği ilə bağlı işlər yeni məcraya qədəm qoydu. Bu ərəfədə Nizami haqqında mətbuatda məqalələr dərc olundu, ölkədə və ondan kənarda elmi-praktik konfranslar keçirildi, şairin əsərlərinin əlyazmalarının foto-faksimiləsi nəşr olundu, yeni monoqrafik tədqiqatlar işıq üzü gördü, bəzi sanballı araşdırmalar yenidən çapa hazırlandı, hətta müasir dövrdə elmi əhəmiyyətini qoruyan Y.E.Bertelsin "Böyük Azərbaycan şairi Nizami" monoqrafiyası (ingilis dilinə çevrilərək dünya oxucusuna təqdim olundu [5]), dünya ölkələrində Nizami mərkəzləri yaradıldı ki, bu da onun bir Azərbaycan şairi kimi təbliğində xüsusi önəm kəsb edir.

2011-ci ildən üzü bəri alimlərimiz Nizaminin türklüyü, Azərbaycan xalqına məxsusluğu, öz millətinin etnik dəyərlərinə bağlılığını inkar etməyə yönələn əks-təbliğatçılarla mübarizə aparır, bu sahədə uğurlu addımlar atırlar. Alimlərimiz bir çox əcnəbi ölkələrin mətbuatında, nüfuzlu elmi jurnallarında bu mövzuda sanballı məqalələr nəşr etdirirlər.

"Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli Sərəncamından [8] sonra ölkədə nizamişünaslıq sahəsində yeni canlanma dalğası oldu. Təqdirəlayiq haldır ki, Azərbaycan nizamişünasları səylərini birləşdirib "Nizami Gəncəvinin biblioqrafiyası: izahlı məlumat kitabı" adlı beynəlxalq nəşrin məsələsini qaldırıb, "Nizami Gəncəvinin həyat və yaradıcılığı" adlı kollektiv monoqrafiyanı nəşr etdirib [4]. "Nizami lüğəti"nin hazırlanması üzərində çalışır, şairin irsini müxtəlif aspektlərdən tədqiq edirlər.

Göründüyü kimi, Azərbaycan nizamişünaslığı bu illər ərzində ulu öndər Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində böyük inkişaf yolu keçib, mühüm nailiyyətlər əldə edib.

Deyilənləri nəzərə alaraq cəsarətlə deyə bilərik ki, nizamişünaslığa dövlət qatqısı Azərbaycanda mədəniyyət siyasətinin mühüm tərkib hissəsidir.

**Ədəbiyyat siyahısı:**

1. Cəfər M. Nizaminin fikir dünyası. "Yazıçı" nəşriyyatı, Bakı 1982
2. Əliyev R. Məşhur rus alimləri və yazıçıları Nizami Gəncəvi haqqında. Bakı, 1983
3. Əliyev R. Nizami. Azərbaycan, rus və ingilis dillərində biblioqrafik məlumat. Bakı,1983
4. Nizami Gəncəvi: həyatı və yaradıcılığı: Nizami Gəncəvi ili: (Kollektiv: Monoqrafiya) /AMEA, N. Gəncəvi ad. Ədəbiyyat İns.-tu; layihənin rəhb. və ön söz müəl. İ.Həbibbəyli; elmi red. N.Araslı; məsul red.: Z.Allahverdiyeva, A. Bağırlı, (T. Talıbova). Bakı: Elm, 2021, 981 s.
5. Berthels E. Evgenii. The Great Azerbaijani Poet, Nizami. Life, works, time // Published by Gilgamesh Publishing. – London: 2017
6. ADPU-da "Nizami Gəncəvi: Dahilik zirvəsi" mövzusunda beynəlxalq konfrans öz işinə başlayıb. 18.11.2021. https://azertag.az/xeber/ADPU_da _Nizami_Gencevi_Dahilik_ zirvesi_ movzusunda_ beynelxalq_konfrans_oz_isine_baslayib-1929348
7. Allahverdiyeva Zəhra. Heydər Əliyev və Azərbaycan nizamişünaslığı – 15-04-2021. https://literature.az/?lang=aze&&page=698&newsId=116769
8. "Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli Sərəncamı. https://e-qanun.az/framework/46630


**Azizaga Najafzade**

## STATE CONCERN TOWARDS NIZAMI STUDIES IS A BIG PART OF HEYDAR ALIYEV'S CULTURAL POLICY


**Summary:** On January 6, 1979, at the initiative of the national leader Heydar Aliyev (11th First Secretary of the Central Committee of the Communist Party of Azerbaijan), a decision was signed "On the study of the heritage of the great Azerbaijani poet and educator Nizami Ganjavi, on measures to improve the publication of his works and their distribution". With the signing of this decision, a new stage of Nizami studies began in our country.

As a result of the personal initiative of the great leader, it was decided to celebrate the 840th anniversary of Nizami Ganjavi in August 1981. After this decision was made, a number of events were held to perpetuate the name of the great poet, and great changes took place in the field of Nizami studies.An important part of the cultural heritage of the great leader is the wider geographical distribution and deeper study of the works of the Azerbaijani poet Nizami Ganjavi in the world. The worthy successor of Heydar Aliyev's political course, President of the Republic of Azerbaijan Ilham Aliyev successfully continued his activities in this direction.


**Key words:** Nizami Ganjavi, Heydar Aliyev, Nizami studies, cultural policy, promotion of literary heritage

**UDC 32**

**Dilafruz Kurbanova**
**The National Institute Fine arts**
**and Design after named Kamoliddin Behzod**
**E-mail: dilkur_1980@mail.ru**

# OUTSTANDING PERSONALITY OF A POWERFUL STATE

**Key words:** National Leader Heydar Aliyev, politician, history

Azerbaijanism is the idea of developing, promoting Azerbaijan internationally, and securing its eternity. The National Leader Heydar Aliyev dedicated his entire meaningful life to this sacred and ultimate purpose.

A state is as an organized community created throughout the history of mankind. Nations established their states at different times and faced various challenges along the way to building and developing a state. States pass through the processes of formation, prosperity, and decline. There is one significant and fundamental aspect that outweigh these stages. The concept of "state and leader" has a vital importance.

It is commonly assumed that back in 20th century the concepts of “state” and “personality” turned into a single idea of the “national leader” and the period brought unparalleled change and the most influential leaders. Therefore, it can be stated that the concepts of state and national leader are the phenomena of the new era. Heydar Aliyev, the National Leader of Azerbaijan is one of the most prominent politicians and statesmen.

“Our nation is ancient, and we have a great history and culture. As far as we deliver the culture, its antiquity and popularity to the world, we can raise the feeling of citizenship, real citizenship and Azerbaijanism”.

This is a quote by Heydar Aliyev, the National Leader of Azerbaijan. Being an influential statesman, experienced politician, and an ardent patriot, he knew for sure that the culture, language, and national values vital for Azerbaijan which experienced hardest periods throughout its history and faced various challenges such as division by two parts, suppression by different empires.

Heydar Aliyev pursued this principle both during the era of the Soviet Union, which influenced the world drastically, and during the years when he led the independent Republic of Azerbaijan, which he saved from collapse and chaos. The prominent politician made it the guiding principle of his activities in various directions. Political, economic, social, and cultural plans of the prominent politician paved the way for the reality of Azerbaijan.

Heydar Aliyev's diverse activities as a politician and statesman, who dedicated his entire life to the nation, left a deep mark in the history of the Azerbaijan and set a trend in public administration. Many generations to come will benefit from the rich political heritage of Heydar Aliyev for the sake of the development of our country and the well-being of our nation.

Despite the passing of time, immortal leader of Azerbaijani people, genius politician, his dignified life, which has become a political and spiritual trend, his historical significance, strategic vision continues to amaze people, the whole humanity.

It is an indisputable fact that an entire period of the most recent history of Azerbaijan is directly connected with the name of the great leader Heydar Aliyev. Because the era itself was created by Heydar Aliyev. He devoted his life, time, and energy to the development of Azerbaijan, was the initiator and architect of drastic reforms in all areas. Just like in all other fields, his ingenious foresight, competences, and skills left a deep and indelible mark in our culture.

It is no exaggeration to say that the national leader is the founder of Azerbaijan's cultural policy. The policy pursued by Heydar Aliyev in the sphere of culture has been successfully continued by the President Mr. Ilham Aliyev who paved the way for further development.

**UOT 93**

**Vəfa Xanoğlan**
**Azərbaycan Universiteti,**
**sənətşünaslıq üzrə elmlər doktoru, professor**
**E-mail: v.xanoglan@mail.ru**

## HEYDƏR ƏLİYEV İRSİNDƏ TARİX VƏ MÜASİRLİK

**Xülasə:** Ümummilli lider Heydər Əliyev xalq yazıçısı İlyas Əfəndiyevin ədəbiyyat tarixindəki mövqeyini və xidmətlərini daima yüksək dəyərləndirmiş, bəzi dram əsərlərinin tamaşalarında iştirak etmiş və yubileyi münasibətilə təbrik etmişdir. Öz əsərlərində xalqımızın milli azadlıq mübarizəsini, müstəqilliyini, istiqlaliyyətini tərənnüm edən və bu yolda inadından dönməyən, xalqın məhəbbətini qazanan əbədi yaşar sənətkarımız müstəqil Azərbaycanın "Şöhrət" ordenini alan ilk yazıçımız oldu. İlyas Əfəndiyev yaradıcılığının estetik özülünün əsasında milliliklə bəşəriliyin vəhdəti durur. Xalq yazıçısı bədii yaradıcılığında özünü novator və orijinal bir sənətkar kimi tanıtdı. XX əsr Azərbaycan teatr tarixində "İlyas Əfəndiyev teatrı" ifadəsi, anlayışı və praktiki təzahürü danılmaz kulturoloji faktdır.

İlyas Əfəndiyev tarixə müraciət edəndə yaşadığı dövr haqqında fəlsəfi mühakimələr aparmaq, müasiri olan insanların mənəvi-əxlaqi dünyasını araşdırmaq, cəmiyyət və fərd, insan və zaman arasında münasibətləri aydınlaşdırmaq üçün keçmişə doğru tarixin pillələrinə enir, dövrün ictimai-fəlsəfi mənzərəsini tarixi müstəvidə verməyə çalışırdı. Xalq yazıçısı sovet rejiminin normativ sxemlərinə məhəl qoymayaraq öz fitri istedadı ilə yazdığı əsərlərində xalqın tarixi keçmişindən, qəhrəmanlıq yolundan, insanın mənəviyyatından, onun istək və arzularından, daxili hiss və duyğularından, humanist dəyərlərindən çıxış edirdi.

**Açar sözlər:** Heydər Əliyev, İlyas Əfəndiyev irsi, bədii yaradıcılıq, milli dramaturgiya, "İlyas Əfəndiyev teatrı"

Unudulmaz sənətkarımız, görkəmli xalq yazıçısı və dramaturqu, öz adını Azərbaycan ədəbiyyatı tarixinə qızıl hərflərlə yazmış xalq yazıçısı İlyas Əfəndiyev ədəbi yaradıcılığında sovet ideologiyasına xidmətdən hər zaman uzaq olmuş, ayrı-ayrı əsərlərində mövcud rejimə öz etirazını bildirmişdir. Ustad sənətkar heç bir zaman Kommunist partiyasının üzvü olmayıb. "Sosializm realizmi" deyilən qondarma (əslində ideologiyanı təbliğ edən) bir metodun tüğyan etdiyi zamanda xalq yazıçısı xalqı düşündürən, milli dəyərləri ehtiva edən və mənəvi dünyasında yaşatdığı əsl sənət əsərlərini yaratdı.

Ümummilli lider Heydər Əliyev xalq yazıçısı İlyas Əfəndiyevin ədəbiyyat tarixindəki mövqeyini və xidmətlərini daima yüksək dəyərləndirmiş, bəzi dram əsərlərinin tamaşalarında iştirak etmiş və yubileyi münasibətilə təbrik etmişdir.

Öz əsərlərində xalqımızın milli azadlıq mübarizəsini, müstəqilliyini, istiqlaliyyətini tərənnüm edən və bu yolda inadından dönməyən, xalqın məhəbbətini qazanan əbədi yaşar sənətkarımız müstəqil Azərbaycanın «Şöhrət» ordenini alan ilk yazıçımız oldu. 82 illik mənalı ömrünün 60 ilini yaradıcılığa həsr etmiş bilgə sənətkarın həmişə müasir əsərləri fəlsəfi-estetik təravətini və məna çalarını saxlamaqla bizi milli-mənəvi birliyə səsləyir.

Unudulmaz sənətkarımız, görkəmli xalq yazıçısı və dramaturqu, öz adını Azərbaycan ədəbiyyatı tarixinə qızıl hərflərlə yazmış xalq yazıçısı İlyas Əfəndiyev ədəbi yaradıcılığında sovet ideologiyasına xidmətdən hər zaman uzaq olmuş, ayrı-ayrı əsərlərində mövcud rejimə öz etirazını bildirmişdir. Ustad sənətkar heç bir zaman Kommunist partiyasının üzvü olmayıb. "Sosializm realizmi" deyilən qondarma (əslində ideologiyanı təbliğ edən) bir metodun tüğyan etdiyi zamanda xalq yazıçısı xalqı düşündürən, milli dəyərləri ehtiva edən və mənəvi dünyasında yaşatdığı əsl sənət əsərlərini yaratdı. Vətənimizi iki yerə

parçalayan müstəmləkəçilik siyasəti, xalqımızın bütövlüyü və müstəqilliyi hər an sənətkarı düşündürən məsələlərdən olub. Bütün zamanlarda həqiqəti söyləmək əsl istedad sahiblərinin, cəsarətli, namuslu və vicdanlı sənətkarların başlıca qayəsi olub. Sovet dönəmində dilə gətiriləsi mümkün olmayan real həyat həqiqətlərini sərbəst fikir azadlığı ilə ədəbiyyata gətirmək sənətkardan əsl vətəndaşlıq qeyrəti və cəsarəti tələb edirdi. İlyas Əfəndiyev özünəməxsus sənətkar sərbəstliyini, düşüncə və duyğularını ifadə edərək yazırdı: "…Gərək sənətkar, istəyir yazıçı olsun, istəyir rəssam olsun, istəyirsə də musiqiçi olsun, gərək insan təbiətinin ən gizli qatlarında olan həqiqəti, onun dünyaya münasibətini, bütün əlamətlərini, bütün, demək, faciəsini, sevincini – bax, bunu ortaya çıxara bilsin; çıxara bilirsə, bu, deməli, yazır, yaza bilir, sənətkardır, çıxara bilmirsə, sənətkar deyil" [5. s.279].

Altmış illik yaradıcılığı dövründə İlyas Əfəndiyev altı roman – "Söyüdlü arx" (1958), "Körpüsalanlar" (1960), "Dağlar arxasında üç dost" (1963), "Sarıköynəklə Valehin nağılı" (1976), "Geriyə baxma, qoca" (1980), "Üçatılan" (1981), beş povest – "Kənddən məktublar" (1939), "Aydınlıq gecələr" (1941), "Torpağın sahibi" (1952), "Qaçaq Süleymanın ölümü" (1993), "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" (1996), qırx yeddi hekayə, bir çox oçerklər, xatirələr yazıb.

İlyas Əfəndiyevin yazdığı 20 pyesdən 19-u Akademik Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulub və bu pyeslər çağdaş teatrın inkişafına güclü təsir göstərib. 50 ildən çox teatrlarımızın repertuar ağırlığını çiynində daşıyan qüdrətli sənətkarın dram əsərləri teatr tariximizdə yeni rejissor və aktyor nəslini formalaşdırdı. Görkəmli sənət adamları sənət talelərindəki uğurlara görə bu böyük şəxsiyyətin həm özünün, həm də dramaturgiyasının müstəsna rolundan fərəh hissi ilə söz açırlar. Yazdıqları arasında heç vaxt bircə cümləlik də mədhiyyə olmayıb. Nə şah bilib, nə padişah… Yaradıcı birliyə rəhbərlikdən də istədiyi vaxt aralanmağı bacarıb; nə vəzifə kürsüsünü eyninə alıb, nə yalançı şöhrəti… Ədəbiyyatımızda dəyərli əsərlər yaratmaqla yanaşı, o dövr üçün çox təhlükəli yeniliklərə də gedib: teatrımıza Cənubi Azərbaycan mövzusunu o gətirib; dilimizin türk dili olduğunu dəfələrlə bəyan edib; yaratdığı obrazları da sırf türk adlarıyla adlandırıb həmişə… [1. s.168].

Dramaturq İlyas Əfəndiyevlə tanınmış rejissor, xalq artisti Tofiq Kazımovun birgə yaradıcılıq əməkdaşlığı respublikamızın mədəni həyatında yenilik kimi qeyd edilən neçə-neçə uğurlu tamaşaları ərsəyə gətirdi. Dövrünün böyük rejissoru Tofiq Kazımovun teatr poetikası ictimai-siyasi proseslərə birbaşa reaksiya kimi anlaşılmalıdır. Onun teatrı "insan azadlığı" ideyasını ön plana çəkirdi. Tofiq Kazımov bu azadlığı deklarativ sosial ideya kimi başa düşmürdü. İstedadlı rejissorun fikrincə, insan öz evində də, fikirlərində də, prinsiplərində də, münasibətlərində də, əməllərində də azad olmalıdır. Onun qəhrəmanları həmişə bu ideyanın daşıyıcıları olublar. Bunu təcrübədə gerçəkləşdirmək üçün yeni ifadələr müstəvisinə yüksəlmək, cəsarətlə teatrın poetikasını dəyişmək lazım idi [9. s.88]. İlyas Əfəndiyev yaradıcılığının estetik özülünün əsasında milliliklə bəşəriliyin vəhdəti durur. Xalq yazıçısı bədii yaradıcılığında özünü novator və orijinal bir sənətkar kimi tanıtdı. Bədii yaradıcılıqda yenilikçi və orijinal olmaq isə əslində mədəniyyətin avanqardına çevrilib onu irəli aparmaq deməkdir. XX əsr Azərbaycan teatr tarixində "İlyas Əfəndiyev teatrı" ifadəsi, anlayışı və praktiki təzahürü danılmaz kulturoloji faktdır.

İlyas Əfəndiyevin tarixi dramlarında əsas aparıcı xətt qəhrəmanlıq motivləridir. Onun keçən əsrin 70-90-cı illərində qələmə aldığı "Mahnı dağlarda qaldı" (1971), "Xurşidbanu Natəvan" (1981), "Şeyx Xiyabani" (1986), "Sevgililərin cəhənnəmdə vüsalı" (1989), "Tənha iydə ağacı" (1991), "Dəlilər və ağıllılar" (1992), "Hökmdar və qızı" (1994) tarixi dramları tarixə yeni təfəkkürlə yanaşması, yeni münasibəti, xalqımızın azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizə ilə bağlıdır. İlyas Əfəndiyev tarixə müraciət edəndə yaşadığı dövr haqqında fəlsəfi mühakimələr aparmaq, müasiri olan insanların mənəvi-əxlaqi dünyasını araşdırmaq, cəmiyyət və fərd, insan və zaman arasında münasibətləri aydınlaşdırmaq üçün keçmişə doğru tarixin pillələrinə enir, dövrün ictimai-fəlsəfi mənzərəsini tarixi müstəvidə verməyə çalışır. Azərbaycan ictimai fikir tarixi yeni ideologiyasının prinsipləri əsasında izah edildiyi zaman "Müsavat hökumətinin əsas qayəsi insanlar arasında qardaşlıq, bərabərlik yaratmaq idi. Əgər, biz cəmiyyəti siniflərə bölsəydik, insanları bir-birinə düşmən edərdik" ("Mahnı dağlarda qaldı"

faciəsindən) tezisini geniş təsvir etmək, milli varlığımızın təsdiqi olan müsavat dövrü haqqında danışmaq böyük cəsarət tələb edirdi. Bu fikir özünün ictimai-idraki əhəmiyyətinə görə xüsusilə seçilir. Görünür, dramaturq hələ tarixin səhifələri açılmayan zamanda dövlətçilik tariximizi obyektiv öyrənə bilmişdir [2. s.119]. Xalq yazıçısı sovet rejiminin normativ sxemlərinə məhəl qoymayaraq öz fitri istedadı ilə yazdığı əsərlərində xalqın tarixi keçmişindən, qəhrəmanlıq yolundan, insanın mənəviyyatından, onun istək və arzularından, daxili hiss və duyğularından, humanist dəyərlərindən çıxış etdi. Xalq şairi Bəxtiyar Vahabzadə İlyas Əfəndiyev yaradıcılığının estetik təravətindən və bədii hüsnündən bəhs edərək yazırdı: "Qarabağ torpağından boy atan əziz qardaşım, Sizin, demək olar ki, bütün əsərlərinizə Qarabağın abı-havası, ruhu, özünəməxsus təbiəti, bir sözlə, bütün gözəllikləri hopub. Sizin əsərlərinizdə Daşaltı çayının şırıltısı, Xarı bülbülün əfsanəvi gözəlliyi, İsa bulağının zümzüməsi, Qarabağ bülbüllərinin cəh-cəhi yaşayır. Bunu yalnız yazıçı müşahidəsinin nəticəsi kimi izah etmək düz olmazdı. Bu, doğulduğunuz torpağa, onun can dərmanı olan abı-havasına, mənəvi dünyasına, bütün gözəlliklərinə sonsuz vurğunluğun nəticəsidir. Sizi yazıçı edib əlinizə qələm verən də bu torpaq, bu torpağın mənəvi dünyasıdır. Sizin əqidəniz də məhz elə bu torpaqdan pöhrələnib. Sizi durduğunuz indiki mərtəbəyə qaldıran o böyük əqidənizə və bu əqidədən od alan yanar ürəyinizə minnətdar olmalıyıq" [8. s.76].

Yeri gəlmişkən qeyd edək ki, Respublikanın xalq artisti, istedadlı rejissor Mərahim Fərzəlibəyov İlyas Əfəndiyevin bir sıra dramlarının quruluşçu rejissoru olmuşdur. Müxtəlif illərdə o, dramaturqun "Xurşidbanu Natəvan", "Şeyx Xiyabani", "Bizim qəribə taleyimiz", "Sevgililərin cəhənnəmdə vüsalı", "Tənha iydə ağacı", "Dəlilər və ağıllılar", "Hökmdar və qızı" pyeslərinə səhnə həyatı bəxş etmişdir. Sonralar "Sevgililərin cəhənnəmdə vüsalı" və "Bizim qəribə taleyimiz" tamaşaları Türkiyədə-Ankara, İzmir və İstanbulda göstərilmiş və tamaşaçıların böyük marağına səbəb olmuşdur. Dramaturqla yaradıcılıq əlaqələrindən bəhs edən rejissor yazırdı: "...Mən İlyas Əfəndiyevi, hər şeydən əvvəl, ona görə sevirdim ki, o yazdığı tarixi əsərlərə çox həssaslıqla yanaşırdı. Əsərlərini elə tarixi dəqiqliklə işləyirdi ki, sanki hansısa bir tarixi dərslik yazırdı. Onun tarixi mövzuda yazdığı "Xurşidbanu Natəvan", "Şeyx Xiyabani", "Hökmdar və qızı" tamaşaları Azərbaycan tamaşaçısına çox şey verdi, çox tarixi hadisələrdən onu xəbərdar etdi. Mən İlyas müəllimin tamaşalarının mərkəzindən qırmızı bir xətt kimi keçən vətəndaşlıq mövqeyini yüksək qiymətləndirirəm. O, belə ciddi, dramatik əsərlər yazmaqla yanaşı, melodramatik əsərlər də yazırdı. Bir yazıçı, bir dramaturq kimi İlyas müəllim qadın psixologiyasını çox gözəl duyurdu. Əsərlərində çoxlu konfliktlər, təzadlar olduğuna görə, onun dramları güclü alınırdı" [4].

Ümummilli lider Heydər Əliyev xalq yazıçısı İlyas Əfəndiyevin ədəbiyyat tarixindəki mövqeyini və xidmətlərini daima yüksək dəyərləndirmiş, bəzi dram əsərlərinin tamaşalarında iştirak etmiş və yubileyi münasibətilə təbrik etmişdir. Görkəmli sənətkarın 80 illiyi münasibəti ilə təbrikində planetar miqyaslı siyasətçi Heydər Əliyev yazırdı: "Dünya mədəniyyətinə ölməz dühalar bəxş edən qədim odlar diyarında xalqın məhəbbətini qazanmaq, sənət zirvəsinə ucalmaq olduqca çətin və şərəflidir. Siz fədakar yaradıcılıq əməyiniz sayəsində bu şərəfə nail olmuşsunuz. Yaratdığınız obrazlar xalqımızın övladlarına mənəvi saflıq və vətənpərvərlik aşılanması işinə xidmət etmişdir. Əminəm ki, müstəqil Azərbaycanımızın hələ neçə-neçə nəsli bu zəngin mənbədən faydalanacaqdır" [7. s.195].

1997-ci il sentyabrın 20-də ulu öndər Türk dünyasının böyük alimi İhsan Doğramacı ilə birlikdə xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesinin tamaşasına baxmış və tamaşadan sonra çıxış etmişdir. Ümummilli lider tamaşadan sonra yaradıcı heyətlə görüşündə demişdir: "…İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o, öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini, ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki,

xalqımız bu əsərlərdən çox bəhrələnmişdir. Ona görə də, mən bu gün İlyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir. Güman edirəm ki, bunu xalqımız heç vaxt unutmayacaqdır. Şübhəsiz ki, biz İlyas Əfəndiyevin xatirəsini əbədiləşdirmək üçün qərarlar da qəbul edəcəyik, şəxsən mən edəcəyəm, çünki o, buna layiqdir. Belə əsərlərlə o, onsuz da, özünü xalqın qəlbində yaşadacaqdır" [7. s.368].

Ümummilli lider unudulmaz ədibimiz, xalq yazıçısı İlyas Əfəndiyevin layiq görüldüyü "Şöhrət" ordenini oğlu, xalq yazıçısı Elçinə təqdim edərkən demişdir: "Heyf ki, mən bu ordeni İlyas Əfəndiyevin özünə təqdim edə bilmədim, çox təəssüf edirəm. Çünki o vaxt sadəcə, bizim bu nişanlarımız hazır deyildi. Ancaq eyni zamanda, mən məmnunam ki, Elçin, sən – oğlu, onun yaradıcılığını davam etdirirsən. Həm oğul kimi, həm də Azərbaycanın mədəniyyət xadimi kimi, sənin İlyas Əfəndiyevə məxsus olan ordeni almağa tam hüququn var" [3].

Professor Timuçin Əfəndiyev ümummilli liderə həsr etdiyi "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" adlı monoqrafiyasında qeyd edir ki, "Teatr xadimlərinə münasibətdə Heydər Əliyevin çox xarakterik, ancaq onun özünəməxsus olan bir xüsusiyyəti də var idi. Rejissorların, aktyorların yubileylərində onların evlərinə telefon açar, sənətkarları şəxsən özü təbrik edər, hal-əhval tutar və nəyə ehtiyacları olduğunu öyrənərdi" [6. s.98]. Professor onun xalq yazıçısı İlyas Əfəndiyevə göstərdiyi böyük diqqəti xatırlayaraq yazır: "Mən onun İlyas Əfəndiyevə göstərdiyi böyük diqqətinin şahidi kimi onu deyə bilərəm ki, Heydər Əliyev qayğısı sayəsində insanlar şəfa tapırdılar. İlyas Əfəndiyev Moskvada xəstəxanada yatarkən Heydər Əliyevin ona baş çəkməsi, qayğı göstərməsi bu günə qədər bizim xatirimizdədir və biz həmişə ulu öndərimizi şükranlıqla xatırlayırıq. Bu qayğı təkcə İlyas Əfəndiyevlə bağlı deyildi. Onun Süleyman Rüstəmə, Mirzə İbrahimova, Rəşid Behbudova, Qara Qarayevə, Fikrət Əmirova, Hökümə Bülluriyə, Yusif Səmədoğluna göstərdiyi qayğı xalqımızın yaddaşındadır". Müəllif İlyas Əfəndiyevlə bağlı başqa bir faktı nümunə gətirərək yazır: "…Dramaturqun "Mahnı dağlarda qaldı" tamaşasının Dövlət Mükafatı alması şəxsən Heydər Əliyevin təşəbbüsü ilə baş tutmuşdu. Dövlət Mükafatı üzrə komissiya üzvləri o vaxt tamaşaya baxa bilməyiblərmiş. Dövlət Komissiyasının yekun iclasından sonra ona təqdim olunan siyahıda "Mahnı dağlarda qaldı" tamaşasının adını görməyən ulu öndərimiz soruşur: "Niyə bu əsərin adı siyahıda yoxdur? Mən bu əsərə baxmışam və bəyənmişəm – deyir, – o vaxt komissiya üzvlərinin bir çoxu da teatrda idi" [6. s.99].

1981-ci ildə ümummilli lider Heydər Əliyev İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesinin tamaşasına baxdıqdan sonra əsərə yüksək qiymət verərək müəllifə demişdir. "Siz ilk növbədə Natəvan – bu şairə haqqındakı şayiələrə son qoydunuz. Natəvanı təmkinli, ziyalı Azərbaycan qadını kimi bizə təqdim elədiniz, bununla yanaşı, gözəl xan qızının timsalında siyasi baxımdan onun xan qızına layiq hərəkətləri ilə bizim Şərq qadınlarının obrazını yarada bildiniz. Mən buna görə Sizə sağ ol deyirəm" [6. s.102].

İlyas Əfəndiyev bütün zamanlarda oxunan və sevilən sənətkardır. O, Sovetlər İttifaqı dönəmində gündə bir havaya oynayan, yalnız hakim ideologiyanın sifarişi ilə "əsərlər" yazan "yazıçıları" özünəməxsus ustalıqla tənqid edirdi. Ustad sənətkar Azərbaycanın gələcəyinə böyük ümidlər bəsləyirdi: "…Mənim Azərbaycanın gələcəyinə ümidlərim böyükdür. Çünki Azərbaycan xalqının vətəninə, torpağına bağlılığı, sevgisi əbədidir. Bu gün millətin vətənpərvərlik duyğusunun yeni təlatümünün coşub-kükrəyən dövrüdür" [5. s.127]. Öz əsərlərində xalqımızın milli azadlıq mübarizəsini, müstəqilliyini, istiqlaliyyətini tərənnüm edən və bu yolda inadından dönməyən, xalqın məhəbbətini qazanan əbədi yaşar sənətkarımız müstəqil Azərbaycanın "Şöhrət" ordenini alan ilk yazıçımız oldu. 82 illik mənalı ömrünün 60 ilini yaradıcılığa həsr etmiş bilgə sənətkarın həmişə müasir əsərləri fəlsəfi-estetik təravətini və məna çalarını saxlamaqla bizi milli-mənəvi birliyə səsləyir.

**Ədəbiyyat siyahısı:**


1. Afaq. Sənətkarın ikinci ömrü, Bakı, "Çinar-Çap" 2002, s.168.
2. Ağayeva İ. "Dil və ədəbiyyat" jurnalı, 1998, № 3, səh.119-120.
3. "Azərbaycan" qəzeti, 22 avqust 1998.
4. "Ekspress" qəzeti, 15 fevral 2001.
5. Əfəndiyev İ. Seçilmiş əsərləri, yeddi cilddə, yeddinci cild, Bakı, "Çinar-Çap" 2002, s.379.
6. Əfəndiyev T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz, Bakı, 2011. s.98.
7. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, Ozan, 1999, s.195.
8. Vahabzadə B. Zaman və mən. Bakı, 1999. s.76.
9. Vəliyev Ə. Əqidə, Ruh və Teatr, Bakı, 2009, s.88.


**Vafa Khanoglan**

## HISTORY AND MODERNITY IN HEYDAR ALIYEV'S LEGACY

**Summary:** The national leader Heydar Aliyev has always highly valued the position and services of the people's writer Ilyas Efendiyev in the history of literature, participated in the performances of some drama works and congratulated him on the occasion of his anniversary. Our eternal artist, who glorified the national liberation struggle, independence, and independence of our people in his works, won the love of the people and won the people's love on this path, became our first writer to receive the "Glory" order of independent Azerbaijan. The unity of nationality and humanity is at the basis of the aesthetic origin of Ilyas Efendiyev's creativity. The folk writer introduced himself as an innovator and an original artist in his creations. The expression, concept and practical manifestation of "Ilyas Efendiyev Theater" in the history of Azerbaijani theater in the 20th century is an undeniable cultural fact.

When Ilyas Efendiyev applied to history, he went down the steps of history to make philosophical judgments about the time he lived in, to investigate the spiritual and moral world of contemporary people, to clarify the relations between society and individual, man and time, and tried to give the social-philosophical picture of the period on a historical level. The people's writer disregarded the normative schemes of the Soviet regime and wrote with his innate talent in his works based on the historical past of the people, the heroic path, the spirituality of man, his wishes and dreams, his inner feelings and emotions and humanistic values.

**Key words:** Heydar Aliyev, Ilyas Efendiyev's heritage, artistic creativity, national dramaturgy, "Ilyas Efendiyev Theater"

**UOT 305-055.2**

**Sədaqət Əliyeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail:** sadagat-aliyeva@mail.ru

# AZƏRBAYCANDA DÖVLƏT QADIN SİYASƏTİ

**Xülasə:** Məqalədə Azərbaycanın keçmiş olduğu tarixi yola nəzər salınır, ölkə həyatında qadına olan münasibət təhlil olunur. Dövlət quruculuğu və mühüm siyasi qərarların verilməsində qadınların əhəmiyyətli yer tutmalarının tarixi mənbələri göstərilir. Ulu öndərin qadın siyasətinə olan münasibəti məqalədə öz əksini tapır.

**Açar sözlər:** mədəniyyət siyasəti, qadın hüquqları, tarixdə qadınlar, qadın siyasəti

Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların oynadıqları rol olduqca mühümdür. Ölkə əhalisinin 50,4%-ni təşkil edən zərif cinsin nümayəndələri, bir çox taleyüklü məsələlərdə kişilərlə çiyin-çiyinə mübarizə aparır, Azərbaycanın iqtisadi inkişafının, mədəni və sosial yüksəlişinin aparıcı qüvvəsi rolunda çıxış edirlər.

Qadınlarımız barədə çox yazılıb deyilsə də, məqsədimiz onları təkrarlamaq deyil, fərqli ampulada nəzəri-diqqətinizə çatdırmaqdır. Qeyd etdiyimiz kimi, Azərbaycanda tarix boyu bilikli, savadlı, maarifpərvər, şair, yazıçı, hökmdar qadınlar olmuş və onların səsi-sorağı bu torpaqlardan çox-çox uzaqlara da yayılmışdır. Qadınları müasir həyatın demək olar ki, bütün sahələrində görmək müstəqil Azərbaycanın və ümummilli lider Heydər Əliyev siyasətinin uğurudur. Sosioloq, psixoloq, alim, menecer, hüquqşünas, pilot, hərbçi qadınlarımızın sayı çoxaldıqca, gender bərabərliyi sahəsində mövcud çatışmazlıqlar da ortadan qalxar və onlar daha çox mütərəqqi ictimai dəyişikliklərə qoşular və ictimai proseslərdə fəal iştirak edərlər.

Azərbaycanın keçmiş olduğu tarixi yola nəzər saldıqda, qadınların ölkə həyatında oynadıqları rolun heç də təsadüfi olmadığını, uzun tarixi dövr ərzində formalaşdığını görə bilərik. Milli folklorumuz, adət və ənənələrimiz, tarixi şəxsiyyətlərimizin fəaliyyəti tarixən qadın faktorunun önəmli olduğunu, ailənin, cəmiyyətin və dövlətin formalaşmasında ciddi rol oynadığını göstərən bariz sübutlar hesab edilə bilər. Dövlət quruculuğu və mühüm siyasi qərarların verilməsində qadınların həmişə əhəmiyyətli yer tutduqlarını tarixi mənbələr də göstərir. Hələ qədim dövrlərdə, Manna və Atropatena dövlətlərinin zamanında qadınlar bir çox məsələlərə təsir etmək imkanlarına malik idilər. Qadınların nüfuzu, cəmiyyətin həyatında fəal iştirak etməsi sonrakı dövrlərdə də müşahidə edilirdi. Səlcuqların hakimiyyəti dövründə, Səfəvi İmperiyasında da qadınlar bir çox dövlət işlərində yaxından iştirak edirdilər.

Məlum olduğu kimi, ADR-in yaranması ilə qadına münasibət və cəmiyyətdə qadının oynadığı rol barədə təsəvvürlər kökündən dəyişməyə başladı. Qadın orta əsrlərdə daşıdığı ailə qoruyucusu funksiyası ilə yanaşı, özünü daha geniş miqyasda göstərməyə başladı. Müsəlman Şərqində ilk dəfə olaraq qadının seçmək və seçilmək hüququnu Azərbaycan əldə etmişdi. Burada dövlət siyasəti ilə yanaşı, digər məqamları da nəzərdən qaçırmaq olmaz; belə ki, Azərbaycan qadınının tarixən fəallığı, mübarizə əzmi, mühüm dövlət vəzifələrini tutması, hətta bəzi hallarda dövlətə uğurla rəhbərlik etməsi kimi tarixi inkişaf zəminində formalaşmış xüsusiyyətlər bu qərarın verilməsinə gətirib çıxarmışdır. Yəni, Azərbaycan Demokratik Respublikası qadınlara seçki hüququ verərkən, Azərbaycan qadını bu hüquqdan layiqincə bəhrələnməyə hazır vəziyyətdə idi. Tomrisdən Sara Xatuna, Nigardan Həcərə, Taclı Bəyimdən Tuti Bikəyə qədər, ölkəmizdə qadınların ən ağır yüklərin altına girməsi və şərəflə daşıması hamıya məlum idi. Məhz bu kontekstdə seçki hüququ əldə edən Azərbaycan qadını, bu hüququ heç də formal şəkildə

daşımadı, ölkə tarixinin ən keşməkeşli və ağır zamanlarında meydana atılaraq kişilərlə birlikdə bu məsuliyyəti daşımağı bacardı. Ona görə də, ADR zamanında qadınlara seçki hüququ verilməsindən danışarkən, bəzilərinin tarixi inkişaf prosesini nəzərə almadan, bu hüququ formal bir qanunvericilik aktı kimi qələmə vermələri, tarixi həqiqətləri saxtalaşdırmaqdan başqa bir şey deyildir.

Bir çox müəlliflərin də qeyd etdikləri kimi, Azərbaycanda qadınların seçki hüququ əldə etmələri, onları Amerikanın və Avropanın əksər ölkələrindəki həmcinslərindən irəli çıxarırdı. Hazırda dünyanın aparıcı dövlətləri sayılan bir çox ölkələrdə, həmin zamanlarda qadına seçki hüququ verilməsi ağlasığmaz hadisə hesab edilirdi. Lakin Azərbaycan qadını nəinki bu hüququ layiqincə qiymətləndirdi, hətta ADR-in süqutundan sonra, Sovet Hakimiyyəti illərində meydana çıxan çoxsaylı tərəqqipərvər qadınlar, birbaşa olmasa da, ADR-in bu hüquqi aktından bəhrələnmiş və ruhlanmışdılar.

Azərbaycanda gender siyasətinin həyata keçirilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır və bu siyasətin dövlət siyasətinin tərkib hissəsi kimi həyata keçirilməsi cəmiyyətdə gender problemlərinin həllindəki uğurlarla nəticələnmişdir.

1995-ci ildə Pekində keçirilmiş dördüncü Ümumdünya Pekin konfransından sonra qadınlara münasibətdə siyasətimiz yeni çalarlar qazandı və Pekin konfransına hazırlıq məqsədilə 1994-cü ildə Azərbaycanda Milli Hazırlıq Komitəsi yaradıldı. "Hazırlıq Komitəsinin vəzifələrinə bunlar daxil idi: postsovet dövründə qadınların rolu və vəziyyətinin qiymətləndirilməsi; keçid dövründə qadınların rolu və vəziyyətinin gözdən keçirilməsi; qadın təşkilatlarının yaradılmasına dəstək vasitəsilə qadınların ictimai həyata fəal cəlb olunması; cəmiyyətdə qadın statusunun artırılmasına və cinslərin bərabərliyinə nail olmağa yönəldilmiş hərəkat proqramlarının işlənilməsi" (1). "Bütün dünyada gender bərabərliyinə nail olmaqla bağlı qadınların qarşısında qoyulan məsələlər ancaq kişilərlə tərəf müqabillik əsasında həll oluna bilər" (2). Əsas tövsiyə isə qadınların cəmiyyət həyatında önəmli rola malik olacaq qərarların qəbul olunması prosesində iştirakı məsələsi ilə bağlı idi. Belə ki, qərarların qəbulu zamanı bütün səviyyələrdə qadınların iştirakı olmadan və qadınların maraqları nəzərə alınmadan bərabərliyə, inkişafa, sülhə nail olmaq mümkün deyil.

Heydər Əliyev 1969-cu ildə respublikamıza ilk dəfə rəhbər təyin edildiyi vaxtdan etibarən fəaliyyətinin hər dövründə qadın problemləri və haqlarının müdafiəçisinə çevrilmişdir. Onun qadınlara olan münasibəti ailə həyatında, həyat yoldaşının timsalında da açıq-aşkar bilinirdi. Zərifə xanım Əliyevaya verdiyi yüksək dəyər heç kimin diqqətindən yayınmazdı. Hər kəs onların bir-birilərinə necə qarşılıqlı hörmət münasibəti bəslədiklərinin şahidi olmuşdur. Ulu Öndər 2001-ci il aprelin 28-də Zərifə xanımın xatirəsinə həsr olunmuş gecədə söylədiyi bir fikri xatırlatmaq yerinə düşərdi: "....Mənim üçün o, birinci növbədə böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır..."

Aparılan işlərin nəticəsi olaraq, elə həmin ilin sentyabrında Azərbaycan qadınlarının Birinci qurultayı – müstəqil Azərbaycanın ilk qadın forumu çağırıldı. Qurultayda görülmüş işlərin nəticələri müzakirə olundu və Azərbaycan qadınlarının Milli Şurası yaradıldı. 2000-ci il, martın 6-da "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman imzalandı. Bu fərmanda qadınların kişilərlə bərabər dövlət strukturlarında rəhbər vəzifələri tutmalarının vacibliyi xüsusi olaraq vurğulanır. Elə həmin vaxt respublikanın Nazirlər Kabineti qadınların siyasi fəaliyyətdə daha fəal iştirakına təkan verən "Azərbaycan Respublikasının qadın məsələləri üzrə milli fəaliyyət Planı haqqında" qərar qəbul etdi. Çünki "müstəqil Azərbaycan Respublikasının hakimiyyət strukturlarında qadınların təmsil olunması dövlətimizin dünyəvi və demokratik xarakterini əks etdirir" (3).

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Prezidentinin 1998-ci ildə verdiyi fərmanla yaradılmışdır. Həmin dövrdə Komitə, Qadın Problemləri üzrə Dövlət Komitəsi adlandırılırdı. 2006-cı ildən etibarən isə, adı dəyişdirilərək Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə çevrilmişdir. 6 fevral 2006-cı il tarixində Prezidentin fərmanı ilə Hicran

Hüseynova bu komitənin sərdi təyin edilib. Komitə ailə, qadın və uşaq problemləri ilə bağlı rəsmi dövlət siyasətini və tənzimləmə mexanizmlərini reallaşdıran mərkəzi icra hakimiyyəti orqanı statusunu daşıyır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, milli qadın siyasəti yenidən aktuallıq kəsb etməyə başladı. Tarixi və milli köklər üzərində qurulmuş qadın siyasətində üç əsas prinsipi, daha doğrusu üç mənbəni qeyd etmək zəruridir. Bu mənbələr islamçılıq, türkçülük və müasir dövrün milli qadın siyasəti təcrübəsi idi. Belə ki, islam dinində qadına verilən böyük əhəmiyyət, türk düşüncəsindən gələn mərdlik və qəhrəmanlıq anlayışları, ADR və SSRİ dövründə formalaşmış qadın siyasəti təcrübəsi ilə vəhdət şəklində tətbiq olunduqda, daha yaxşı nəticələrin alınması təbii hesab edilə bilərdi. Bütün bu meylləri uzaqgörənliyi ilə hiss edən və birləşdirməyə nail olan ulu öndər Heydər Əliyevin rəhbərliyi altında, müasir dövrə xas milli qadın siyasəti aparılmağa başladı. Burada ədalət naminə bir məqamı da qeyd etmək lazımdır. Məhz Sovet Hakimiyyəti dövründə ölkəmizdə qadınların yüksək intellekti ilə formalaşan təbəqə formalaşmış, akademik Zərifə Əliyeva, Aida İmanquliyeva kimi qabaqcıl və dünya miqyasında tanınan qadınlar ön plana çıxmışdılar. Üstəlik, ulu öndərin həm SSRİ dövründə, həm də müstəqillik epoxasında ölkəyə rəhbərlik etməsi, onun qadın siyasətinin bütün incəliklərini bilməsi, bütün müasir və ənənəvi tendensiyaları vahid şəklə salmaq bacarığı, ustalıq və uzaqgörənliklə aparılan qadın siyasəti tez bir zamanda öz bəhrəsini verməyə başladı.

"Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsinin və dövlət siyasətinə qaldırılmasının məhz Heydər Əliyevin adı ilə bağlı olması danılmaz bir tarixi faktdır. O, qadınların idarəetmə, qərar qəbuletmə və sosial həyatın bütün sahələrində irəli çəkilməsini vacib bilmişdir. Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, onlara yüksək imtiyazların verilməsi, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakının artırılması Heydər Əliyev siyasətinin ayrılmaz tərkib hissələrindən idi. Ulu öndərin qadınlarla bağlı məsələlərin həlli üçün imzaladığı mühüm fərman və sərəncamlar qadın hüquqlarının reallaşması və təminatı istiqamətində irəliyə doğru atılmış tarixi addımlar olmuşdur. Heydər Əliyev hər zaman vurğulayırdı ki, dövlət quruculuğunun bütün mərhələlərində xüsusi xidmətləri olan Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün bu gün də var qüvvələrini sərf edirlər. Azərbaycanda lider qadınlar, sahibkar qadınlar yetişir. İqtisadiyyatda, siyasətdə, elmdə, təhsildə, bir sözlə bunu hər sahədə görmək olar. Hökumətdə, nazirlikdə, Milli Məclisdə qadınlarımızın fəallığı artmaqda davam edir. Bu kimi müsbət nəticələrin əldə edilməsində Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə qadın hüquqlarının qorunması üçün bir çox qanunlar qəbul etməsi, fərman və sərəncamlar imzalaması, beynəlxalq təşkilatlara üzv olaraq mühüm sənədlərin ölkəmizdə tətbiq olmasını reallaşdırmasındakı rolu danılmazdır" (4).

Müasir cəmiyyətdə Azərbaycan qadınının oynadığı rol kifayət qədər böyükdür. Artıq qadın ana, övlad tərbiyəçisi olmaqdan çıxaraq, öz üzərinə daha böyük missiya götürmüşdür. Dövlət siyasətinin həyata keçirilməsində, ictimai-siyasi həyatda, iqtisadiyyatın bütün sektorlarında qadınlar getdikcə daha böyük rol oynamağa başlayırlar. Yerli özünüidarə orqanlarının işində qadınların rolunun artması xüsusilə təqdirə layiqdir. Ölkə rəhbərliyinin diqqət və qayğısı nəticəsində qadınların bələdiyyələrdə təmsilçiliyi 4 faizdən 35 faizə qədər yüksəlmişdir və hər yeni seçkilərdə qadınların sayının artması müşahidə edilir. Bu dövlət qayğısı ilə yanaşı, qadınların da ictimai fəaliyyətə marağının artması, onlarda ictimai-siyasi fəallığın yüksəlməsinin göstəricisidir. Əgər son 100 il ərzində qadınlar daha çox müəllim, həkim, elm və incəsənət xadimi kimi fəaliyyətə önəm verirdilərsə, son illər ərzində ictimai-siyasi fəaliyyət, xüsusilə də dövlət idarəetməsində qadınların rolu günbəgün artmaqdadır. Ən yüksək və ali dövlət vəzifələrinə qadınların təyin edilməsi, onlara etimad göstərilməsi həm də digər qadınların hüquqlarının qorunmasında, çətinliklərinin həll edilməsində mühüm əhəmiyyət daşıyır.

Bu gün bu siyasəti ləyaqətlə davam etdirən Prezidentimiz İlham Əliyev ölkənin ictimai-siyasi həyatında qadın nümayəndəliklərinin genişlənməsinə çox böyük diqqət yetirir. Prezident İlham Əliyevin sərəncamları ilə müxtəlif sahələrdə fərqlənmiş bir çox qadınlar yüksək mükafat və fəxri adlara layiq

görülüblər. Qadınların ictimai-siyasi həyata daha çox cəlb olunması, uşaqların hüquqlarının təmin edilməsi və onlar üçün zəruri şəraitin yaradılması sahəsində ciddi işlər görülür. Ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamı olaraq ölkə rəhbəri İlham Əliyev tərəfindən aparılan islahatlar nəticəsində Azərbaycan Respublikasının Birinci Vitse Prezidenti və Ali Qanunverici orqana xanımlar rəhbərlik edir.

**Ədəbiyyat siyahısı:**

1. http://www.scfwca.gov.az/post/341/pekin-beyannamesi-ve-fealiyyet-platformasinin-qebul-olunmasinin-20-illiyine-hesr-olunmus-tedbir
2. Gender bərabərliyinin hərtərəfli təmini Azərbaycan dövlətinin başlıca məqsədlərindəndir. Azərbaycan. – 2010. – 5 iyun – s.5.
3. Mübariz Qurbanlı. Azərbaycan. – 2011. – 8 may. – s.8.
4. http://scfwca.gov.az/post/1123/heyder-eliyev-ve-dovlet-qadin-siyaseti-muasir-dovlet-qadin-siyasetinin-banisi

**Sadagat Aliyeva**

**STATE WOMEN'S POLICY IN AZERBAIJAN**

**Summary**: The article looks at the historical path of Azerbaijan, and analyzes the attitude towards women in the life of the country. The historical sources of women's significant role in state building and making important political decisions are shown. The great leader's attitude towards women's politics is reflected in the article.

**Key words**: cultural policy, women's rights, women in history, women's politics

**UOT 008**

**Ruhiyyə Hüseynova**
**Mingəçevir Dövlət Universiteti**
**iqtisad üzrə fəlsəfə doktoru, baş müəllim**
**E-mail: h.ruhiyye76@mail.ru**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

**Xülasə:** Ölkəmizdə müasir tələblərə cavab verə bilən yeni mədəniyyət siyasətinin formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın mədəniyyətinin tarixi qədim və zəngin ənənələrə malik olsa da, dövlət qayğısı ilə məhz Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə əhatə olunmuşdur. Azərbaycan Respublikasına rəhbərliyinin bütün dövrlərində, xalqımızın çoxəsrlik mədəniyyətinin daha da zənginləşdirilməsi və bu sahənin inkişaf etdirilərək dünya səviyyəsində tanınması, yüksək mədəni nailiyyətlərdən bəhrələnən istedadlı nəslin yetişdirilməsinə H.Əliyev xüsusi önəm vermişdir.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan mədəniyyəti, mədəni irs, mədəniyyətin inkişafı, sənət adamlarına qayğı

Azərbaycanda vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu geniş miqyas almışdır. Demokratik inkişafın əsas şərtlərindən biri isə mədəni tərəqqinin təmin edilməsidir. Bütün dövlətlər mədəni inkişafın təminatına nail olmağı qarşılarına bir məqsəd olaraq qoymuşlar.

Mədəniyyət cəmiyyətimizin həyatının demək olar ki, bütün sahələrini əhatə edir. Ölkəmizdə müasir tələblərə cavab verə bilən yeni mədəniyyət siyasətinin formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın mədəniyyətinin tarixi qədim və zəngin ənənələrə malik olsa da, dövlət qayğısı ilə məhz Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə əhatə olunmuşdur. 1998-ci ildə ölkəmizdə ilk dəfə olaraq H.Əliyevin təşəbbüsü ilə Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. O, Azərbaycana rəhbərliyinin bütün dövrlərində ölkədə sosial-mədəni inkişafın təmin edilməsinə daim diqqət və qayğı göstərmişdir. Bunun nəticəsi olaraq, bu sahədə mühüm qanun və qərarlar qəbul edilmişdir. Tarixi və mədəniyyət abidələrinin qorunması, muzey, kitabxana, informasiyalaşdırma və informasiyaların mühafizəsi, kütləvi informasiya vasitələri barədə qanun, turizm, kinematoqrafiya, arxitektura fəaliyyəti haqqında qanun, qərar, sərəncam və digər hüquqi sənədlər və aktlar məhz H.Əliyevin qayğısı nəticəsində qəbul edilmiş, mədəniyyətin bütün sahələri onun daim diqqət mərkəzində olmuşdur.

Azərbaycan Respublikasına rəhbərliyinin bütün dövrlərində, xalqımızın çoxəsrlik mədəniyyətinin daha da zənginləşdirilməsi və bu sahənin inkişaf etdirilərək dünya səviyyəsində tanınması, yüksək mədəni nailiyyətlərdən bəhrələnən istedadlı nəslin yetişdirilməsinə H.Əliyev xüsusi önəm vermişdir.

Azərbaycan xalqının mədəni inkişafında XX əsr xüsusi mərhələ təşkil edir. Ötən əsrin əvvəllərində Azərbaycanda Demokratik Cümhuriyyət qurulmuş, on bir aydan sonra Azərbaycan dövlət kimi öz müstəqilliyini itirmiş, Sovet dövlətinin tərkibində yaşamaq məcburiyyətində qalmışdır. Bununla yanaşı, eyni zamanda Avropa və dünya mədəniyyətinə qovuşmaq üçün imperiya daxilindəki imkandan səmərəli istifadə edilməyə çalışılmışdır. Bu məzmunda H.Əliyev demişdir: "Biz elmimiz, mədəniyyətimiz, ədəbiyyatımızın, incəsənətimizin XX əsrdəki nailiyyətləri ilə fəxr edə bilərik. Şükürlər olsun ki, indi başqa ölkələri gedib görə, Azərbaycan xalqının elm və mədəniyyətinin necə inkişaf etdiyini, bizə yaxın olan ölkələrdə, xalqlarda bu sahədə vəziyyətin necə olduğunu müqayisə edə bilərik" [1].

Müstəqilliyimizin ilk illərində ölkəmizdə cərəyan edən hadisələr xalqımızın təkcə sosial-iqtisadi həyatına deyil, mədəniyyətinə də öz təsirini göstərmiş, cəmiyyətə ruh düşkünlüyü hakim kəsilmişdir. Azərbaycan öz müstəqilliyini yenidən əldə etdikdən sonra mədəni irsə münasibətdə həmin dövrün siyasi dairələri tərəfindən yol verilən nöqsanlar mədəniyyətimizə ağır zərbələr vurmuş, bəzi görkəmli

sənətkarlar öz vətənlərində yaşaya bilmədiklərindən xarici ölkələrə üz tutmuşlar. Heydər Əliyevin hakimiyyətə qayıdışı həm də mədəniyyətimizin qurtuluşuna çevrilmişdir.

H.Əliyev xalqımızın mədəniyyətinə daim yüksək qiymət vermişdir. Şərqdə ilk opera və balet, simfonik orkestrin yarandığı Azərbaycanda 1993-cü ildə, artıq balet truppası dağıdılmış, opera səhnəsindəki görkəmli sənətkarlar digər ölkələrə baş götürüb getmiş, simfonik orkestr dərbədər olmuş vəziyyətdə idi. Görkəmli rəssam, heykəltəraşlar sərgilərini nümayiş etmək imkanından məhrum olunmuş, kitabxanalar dağılmaq təhlükəsi ilə üzləşmişdir. Yazıçılar, şairlər kitab çap etdirmək imkanını itirmiş, ədəbi-bədii jurnalların və qəzetlərin çapı dayandırılmışdır.

H.Əliyevin Azərbaycana 2-ci dəfə rəhbərliyi dövründə həyata keçirdiyi mədəniyyətə dair siyasət doktrinası hər bir yaradıcı şəxsin öz imkanlarını aşkara çıxarması üçün stimula çevrilmiş, bu sahədə böyük uğurların qazanılmasını təmin etmişdir. Unudulmaqda olan bir sıra ənənələr bərpa edilmiş, mədəniyyət sahəsində çalışanlara münasibətdə müsbət dəyişikliklər baş vermiş, sənətkarlara dövlət qayğısı bərqərar olmuşdur.

Uzun illərdən bəri qoruyub saxladığımız doğma dilimiz – Azərbaycan dili anlayışını belə sıradan çıxartmağa yönəldilən cəhdlərin qarşısı alınmışdır. 1995-ci ildə H.Əliyevin təşəbbüsü və əməyi nəticəsində ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiyamızda Azərbaycan dili müstəqil Azərbaycanın rəsmi dövlət dili kimi təsbit olunmuşdur. Tarixi və mədəni abidələrimizin qorunması, hər bir vətəndaşın təhsil almaq, söz azadlığı, siyasi fəaliyyətlə sərbəst məşğul olmaq haqqının tanınması müstəqil Konstitusiyamızda öz əksini tapmışdır.

Azərbaycan mütəfəkkiri və dramaturqu Hüseyn Cavidin Naxçıvanda məqbərəsinin ucaldılması H.Əliyevin xalqımızın dahi şəxsiyyətinin xatirəsini əbədiləşdirmək üçün hələ sovet imperiyası dövründə böyük cəsarətlə başladığı işin məntiqi davamı olmuşdur. Hüseyn Cavidin nəşinin Sibirdən doğma Azərbaycana gətirilməsinə nail olan H.Əliyev ölkəmiz müstəqillik qazandıqdan sonra onun möhtəşəm abidəsinin Naxçıvan şəhərində ucaldılması qayğısına qalmışdır.

Azərbaycan xalqının uzun illər boyu yetişdirdiyi böyük sənətkarların yubileylərinin keçirilməsinə böyük qayğı ilə yanaşan ulu öndər bu imkandan ölkəmizin tanınması üçün də istifadə etməyi məqsədəuyğun saymış, məhz buna görə də Füzuli, Nizami kimi klassiklərin şərəfinə keçirilən yubiley tədbirlərində Azərbaycanın dünya mədəniyyətinə verdiyi töhfələri xüsusi qeyd etməyi vacib saymışdır. Kitabi-Dədə Qorqudun 1300 illik yubileyinin beynəlxalq miqyasda qeyd edilməsi və Azərbaycanda keçirilən zirvə tədbirləri bu qədim eposun yaradıldığı məkanın məhz Azərbaycan olduğunu bütün dünyaya nümayiş etdirmişdir.

H.Əliyevin mədəniyyətimizə diqqət və qayğısı nəticəsində S.Vurğun, S.Rüstəm, Ü.Hacıbəyov, M.Maqomayev, Bülbül, Niyazi kimi unudulmaz sənətkarlarımızın yubileyləri keçirilmiş, onlardan bəzilərinin ev-muzeyləri açılmış və ya yenidən bərpa olunmuşdur, Akademik Dram Teatrı, Musiqili Komediya Teatrının binaları zamanında təmir edilib istifadəyə verilmişdir.

Şərqə, xüsusilə Azərbaycana çox bağlı olan, paytaxtımıza və onun sakinlərinə unudulmaz şeirlər həsr etmiş böyük rus şairi Yeseninin 100 illik yubileyinin keçirilməsi, Puşkinə Bakıda abidə qoyulması H.Əliyevin təşəbbüsü ilə olmuşdur. Dünya ədəbiyyatının korifeylərindən biri, Azərbaycan şairi Nizaminin şərəfinə Peterburq şəhərində abidə ucaldılması ulu ondərin ölkəmizə nüfuz qazandırmağa yönəltdiyi siyasətin nəticəsində mümkün olmuşdur.

Ölkəmizin mədəni həyatına dərindən nüfuz edən H.Əliyev davamlı olaraq görkəmli sənət adamları ilə görüşlər keçirmiş, onların problemlərinin həllinə daim böyük qayğı göstərmiş, yaradıcılıqla məşğul olmaları üçün onlara uyğun şərait yaradılması barədə lazımi tədbirlər görülməsini diqqətdə saxlamışdır. Görkəmli sənətkarlara verilən Prezident təqaüdləri, yaşlı nəslə olan qayğı onun böyük humanizminin və insanlara göstərdiyi diqqətin təzahürüdür.

H.Əliyevin sənət adamlarına xüsusi qayğı ilə yanaşmasının bir səbəbi də, şübhəsiz ki, özünün də təbiətən yaradıcı bir şəxsiyyət olmasıdır. Mədəniyyətin bir sıra sahələrinə dərindən bələd olan Ulu

Öndərimiz təsviri incəsənəti professional dərəcədə dərindən bilir. Gənclik illərində gözəl rəsmlər çəkən, arxitektura fakültəsində təhsil alan Heydər Əliyev bu sahədə fəaliyyət göstərən insanlarla təmasda olmaqdan xüsusi zövq aldığını dəfələrlə qeyd etmişdir.

Azərbaycandan kənarda yaşasa da Azərbaycan mədəniyyətinə bağlı görkəmli sənətkar Rostropoviç Bakıya hər gəlişində şəxsən H.Əliyevin özü tərəfindən böyük hörmət və qayğı ilə əhatə olunurdu.

H.Əliyevin yürütdüyü siyasət nəticəsində Azərbaycanda mədəniyyət sahəsi dirçəliş dövrünü yaşamışdır.

Ölkəmizin aparıcı teatrlarında yaradıcı mühit hökm sürür. Akademik Dram Teatr, Opera və Balet Teatr, Musiqili Komediya Teatrı, Rus Dram Teatrı kimi sənət ocaqlarının səhnələrində ən məşhur teart tamaşalarının oynanılması üçün imkan yaradılmışdır. Teatr işçilərinin, simfonik orkestr, rəqs ansamblı üzvlərinin maddi vəziyyətinin yaxşılaşdırılması üçün görülən tədbirlərin nəticəsində bu sahədə çalışanların xaricə axınının qarşısı alınmışdır.

SSRİ Xalq artisti Müslüm Maqomayevin Bakıda keçirilən yubileyi, Fidan və Xuraman Qasımova bacılarının səhnə fəaliyyətinin 25 illiyinə həsr olunmuş konsert, Rəşid Behbudovun xatirə gecəsi mədəniyyətimizin yüksək nailiyyətlərinin nümayişinə və təbliğinə çevrilmişdir.

Azərbaycanda kitab mədəniyyətinin formalaşmasında H.Əliyevin xüsusi xidmətləri olmuşdur. Onun qayğısı nəticəsində ölkəmizdə poliqrafiya işinin təşkilinə hələ 1970-ci illərdən başlayaraq, xüsusi diqqət göstərilmişdir. Bakı Nəşriyyat Evi ilə müqayisə edilə bilən poliqrafiya müəssisəsinə dünyanın on inkişaf etmiş ölkələrində belə nadir hallarda təsadüf etmək olar. Bu nəhəng binanın tikilməsi və istifadəyə verilməsinin təşəbbüskarı H.Əliyev olmuşdur.

Bakının qədim hissəsi olan İçəri Şəhərin qorunması ilə əlaqədar H.Əliyevin verdiyi fərman mədəniyyətimizə və tariximizə, xalqımızın qədim abidələrinə göstərilən qayğının daha bir təzahürüdür.

Dünyada ilk miniatür kitab muzeyinin yaradılması ideyasının gerçəkləşməsi məhz ümummilli liderimizin qayğısı sayəsində mümkün olmuşdur. Heydər Əliyevin muzeylərin qorunması və saxlanması ilə əlaqədar verdiyi fərmanlar bu mühüm tarixi və elmi əhəmiyyətli sahəyə münasibətin kökündən dəyişməsinə səbəb olmuşdur.

Ulu öndərin fərmanı ilə 2000-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyası yaradılmışdır. Bu vaxta kimi rəssam kadrların yetişdirilməsi üçün Azərbaycanda ali təhsil müəssisəsi yox idi. Rəssamlarımız əsasən Rusiyanın müxtəlif şəhərlərində ali təhsil alırdılar. Ona görə də müstəqil Azərbaycanın Rəssamlıq Akademiyasının açılması Azərbaycanın mədəni həyatında yeni hadisəyə çevrildi. Akademiyada yüksək ixtisaslı rəssam kadrlar yetişdirilməyə başlanıldı [2].

H.Əliyev zəngin mədəni irsimizin qorunmasını bugünkü nəslin üzərinə düşən bir vəzifə hesab etmişdir: “Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varislərik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bügününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır”.

Ulu öndər sənət adamlarına daim qayğı göstərmişdir. Nə qədər sənətçilərimiz orden və medallarla təltif olunmuş, Prezident təqaüdlərinə layiq görülmüş, sənət adamlarının sosial vəziyyətinin yaxşılaşdırılması üçün davamlı tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün onun siyasi xəttini uğurla davam etdirir. Bu gün Azərbaycanda mədəniyyətin tərəqqisinə də böyük diqqət və qayğı göstərilir. Azərbaycanımız günbəgün gözəlləşir. Regionlarda salınan park və xiyabanlar, görülən abadlıq işləri bunun əyani sübutudur.

Azərbaycan incəsənəti dünya miqyasında ölkəmizi daha geniş miqyasda tanıtmaqdadır. YUNESKO və İSESKO kimi mötəbər beynəlxalq təşkilatlar artıq Azərbaycanı sivilizasiyalı bir ölkə kimi tanıyır. Bizim bir çox mədəniyyət abidələrimiz YUNESKO-nun maddi və mənəvi irs siyahısına

salınmışdır. Azərbaycanın birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin dünyada tanınmasında rolu çox böyükdür. Xüsusilə görkəmli sənət adamlarının-şairlərimizin, bəstəkarlarımızın, elm xadimlərimizin yubileylərinin YUNESKO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinə, incəsənətinə verilən yüksək qiymətin nümunəsidir.

Azərbaycan muğam sənətinin, İçəri şəhərin (Şirvanşahlar Tarixi-Qoruq Muzeyi ilə birlikdə), Qobustan Dövlət Qoruğunun, YUNESKO-nun maddi və mənəvi irs siyahılarına salınması milli-mənəvi dəyərlərimizin dünyada tanınması istiqamətində aparılan işlərin nəticəsidir.

Bu gün ölkəmizdə Heydər Əliyev Fondunun mədəniyyətlə bağlı həyata keçirdiyi tədbirlər xalqımız tərəfindən rəğbətlə qarşılanır. Yeni mədəniyyət obyektlərinin tikintisi, mövcud mədəniyyət müəssisələrinin əsaslı təmiri istiqamətində işlər uğurla davam etdirilir. Bakıdakı Muğam Mərkəzi qapılarını muğamsevərlərin üzünə həmişə açmışdır. Ölkəmizdə Xalça Muzeyi inşa edilmişdir. Dövlət Film Fondunun yeni binası istifadəyə verilmişdir ki, bu da xalqımızın mənəvi sərvəti olan kinofilmlərimizin qorunması və mühafizəsi üçün əlverişli şərait yaratmışdır. Kinostudiyamızın, Nizami kinoteatrının, S.Vurğun adına Dram Teatrının, Akademik Milli Dram Teatrının, Dövlət Gənc Tamaşaçılar Teatrının davamlı əsaslı təmir olunması mədəniyyətimizə göstərilən böyük qayğının ifadəsi kimi olduqca əhəmiyyətlidir. Belə quruculuq işləri söz yox ki, regionlardakı mədəniyyət obyektlərində də davam etdirilir. Regionlarda Müasir İncəsənət Mərkəzinin açılışı, İncəsənət Muzeyinin bərpa edilərək yenidən istifadəyə verilməsi əlamətdar hal kimi qiymətləndirilməlidir.

Dövlət başçımızın mədəniyyətimizə göstərdiyi qayğının bir nümunəsi də görkəmli sənət adamlarının yubileyləri ilə bağlı xüsusi sərəncamlar imzalamasıdır. Cənab Prezident mədəniyyətin bütün sahələrinə olduğu kimi rəssamlığa da böyük önəm verir. Dövlət başçımız rəssamlarımıza fəxri adlar, Prezident təqaüdləri verilməsi ilə bağlı sərəncamlar imzalamışdır.

İSESKO-nun qərarı ilə 2009-cu ildə Bakı İslam Mədəniyyətinin Paytaxtı kimi bir sıra tədbirlərin məkanına çevrildi. Bu tədbirlər Azərbaycan mədəniyyətinin İslam dünyasına inteqrasiyasında, mədəniyyətlərarası dialoqun genişləndirilməsində əhəmiyyətli rol oynadı. [2]

Böyük tarixi zəfərimizdən sonra Qarabağ və digər işğaldan azad edilmiş ərazilərimizdə mədəniyyət abidələrinin bərpa edilməsi, Dünya Azərbaycanlılarının V Qurultayının, Xarıbülbül Beynəlxalq Musiqi festivalın Şuşada keçirilməsi, Prezident İ.Əliyevin fərmanına əsasən Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi hər birimizdə fəxarət hissi yaradır. Bu gün Şuşa müxtəlif tədbirlərə ev sahibliyi edir.

Fəxrlə qeyd edirik ki, Azərbaycan ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ildən-ilə daha qüdrətli dövlətə çevrilir. Bu inkişafda mədəniyyət xadimlərinin də öz rolu və yeri vardır. Cənab Prezident demişdir: "Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır – alimlərimiz, rəssamlarımız, şairlərimiz, yazıçılarımız, bəstəkarlarımızdır. Azərbaycanı bu insanlar tanıdırlar. Bu insanlar cəmiyyətin aparıcı təbəqələridir, cəmiyyətin elitasıdır". Azərbaycanın mədəniyyət və incəsənət xadimləri ulu öndərin ideologiyasını yaşadır, onun siyasi varisi cənab Prezidentimizin siyasi kursunu dəstəkləyir, Azərbaycanın uğurlu gələcəyi üçün, mədəniyyətimizin inkişafı üçün əllərindən gələni edirlər [3].

**Ədəbiyyat siyahısı:**


1. "Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin qurucusu" mövzusunda keçirilən konfrans materialları, Yeni Azərbaycan Partiyası İcra Katibliyi, Bakı, 2003
2. Cəlil Hüseynov. "Azərbaycanda mədəniyyətin tərəqqisinə böyük diqqət və qayğı göstərilir", Xalq qəzeti, Bakı, 2009
3. https://lib.aliyev-heritage.org/az/1570012.html
4. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/100399.htm
5. https://president.az/az/articles/view/56599

**Ruhiyyə Hüseynova**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

**Summary:** The formation of a new cultural policy that can meet modern requirements in our country is connected with the name of the great leader Heydar Aliyev. Although the history of the culture of our people has ancient and rich traditions, it was covered by state care during the leadership of Heydar Aliyev. During all periods of his leadership of the Republic of Azerbaijan, H. Aliyev attached special importance to the further enrichment of the centuries-old culture of our people and the development and recognition of this field at the world level, the training of a talented generation that benefits from high cultural achievements.

**Key words:** Heydar Aliyev, Azerbaijani culture, cultural heritage, cultural development, care for artists

**UOT 82-1/-9**

**Aygül Hüseynova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət universiteti,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: aygul-@bk.ru**

# XALQIN TARİXİNİ ƏBƏDİLƏŞDİRƏN BƏDİİ SALNAMƏLƏR

**Xülasə:** XX əsrin son 30 illik böyük bir epoxasında Azərbaycan mədəniyyətinin inkişafı böyük ictimai-siyasi xadim, fenomenal tarixi şəxsiyyət olan, ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Dünyada çox nadir dövlət başçısı tapılar ki, onun qədər öz xalqının tarixi, milli mənəviyyatı ilə əlaqədar olsun. O, 1969-cu ildən üzü bəri çağdaş dövrümüzə qədər rəhbərlik etdiyi xalqın qədim, ulu və zəngin tarixi, mədəniyyəti, ədəbiyyatı və fəlsəfi-ictimai fikrini dərindən mənimsəmiş şəxsiyyətdir. Heydər Əliyevin dövlətçilik nəzəriyyəsində, dövləti idarə strategiya və taktikasında ədəbiyyat və mədəniyyətə istinad önəmli yer tutur. O, ötən 35 il ərzində təkcə rəhbərlik etdiyi Azərbaycanın yox, keçmiş SSRİ məkanına daxil olan bütün xalqların, Cənubi Azərbaycanın və dünyanın ədəbiyyat və mədəniyyət xadimləri ilə sıx əlaqədə fəaliyyət göstərmiş, ədəbiyyatın xalqların tarixi taleyindəki rolunu yüksək dəyərləndirmişdir

Heydər Əliyevin mədəniyyət konsepsiyası onun ədəbi-mədəni görüşlərinin tərkib hissəsi olan fəlsəfi bir təlimdir. O, Azərbaycanın mədəni xadimləri ilə intensiv görüşlər keçirmiş, onların – yəni bəstəkarların, müğənnilərin, rəssamların, aktyorların əməyini yüksək Dövlət mükafatları ilə dəyərləndirmiş, əsərlərinin nəşrinə və xalq içərisində yayılmasına şərait yaratmışdır.

**Açar sözlər:** Heydər Əliyev, mədəniyyət konsepsiyası, kino tarixi, mədəniyyət siyasəti, bədii salnamə, mədəniyyətin hamisi

XX əsrin son 30 illik böyük bir epoxasında Azərbaycan mədəniyyətinin inkişafı böyük ictimai-siyasi xadim, fenomenal tarixi şəxsiyyət olan, ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Dünyada çox nadir dövlət başçısı tapılar ki, onun qədər öz xalqının tarixi, milli mənəviyyatı ilə əlaqədar olsun. O, 1969-cu ildən üzü bəri çağdaş dövrümüzə qədər rəhbərlik etdiyi xalqın qədim, ulu və zəngin tarixi, mədəniyyəti, ədəbiyyatı və fəlsəfi-ictimai fikrini dərindən mənimsəmiş şəxsiyyətdir. Heydər Əliyevin dövlətçilik nəzəriyyəsində, dövləti idarə strategiya və taktikasında ədəbiyyat və mədəniyyətə istinad önəmli yer tutur. O, ötən 35 il ərzində təkcə rəhbərlik etdiyi Azərbaycanın yox, keçmiş SSRİ məkanına daxil olan bütün xalqların, Cənubi Azərbaycanın və dünyanın ədəbiyyat və mədəniyyət xadimləri ilə sıx əlaqədə fəaliyyət göstərmiş, ədəbiyyatın xalqların tarixi taleyindəki rolunu yüksək dəyərləndirmişdir. Heydər Əliyevin ədəbiyyata dair görüşlərinin nəhəng miqyasını təsəvvür etmək üçün professor Vilayət Quliyevin tərtib etdiyi "Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı" (Bakı, "Ozan" 1999) adlı fundamental kitabla tanış olmaq kifayətdir [7].

Heydər Əliyevin mədəniyyət konsepsiyası onun ədəbi-mədəni görüşlərinin tərkib hissəsi olan fəlsəfi bir təlimdir. O, Azərbaycanın mədəni xadimləri ilə intensiv görüşlər keçirmiş, onların – yəni bəstəkarların, müğənnilərin, rəssamların, aktyorların əməyini yüksək Dövlət mükafatları ilə dəyərləndirmiş, əsərlərinin nəşrinə və xalq içərisində yayılmasına şərait yaratmışdır.

Çağdaş Azərbaycanın mədəniyyət xadimləri prezident Heydər Əliyevə mədəniyyətimizin böyük hamisi kimi yüksək ehtiram göstərirlər. O, təkcə müasir mədəniyyətə deyil, klassik bədii irsə də dərindən bələd olan dövlət başçısıdır. Onun ölməz eposumuz olan "Kitabi-Dədə Qorqud", dahi qəlb şairi Məhəmməd Füzuli, böyük Üzeyir bəy, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov

haqqında fikir və mülahizələri buna əyani sübutdur.

Heydər Əliyevin mədəniyyət nəzəriyyəsində kino sənəti haqqında mülahizələri xüsusi yer tutur. Onun kino sənəti ilə bağlı əsas fikirləri 16 dekabr 1995-ci ildə Azərbaycan kinematoqrafçılarının VIII qurultayı zamanı kino işçiləri ilə görüşdə söylədiyi geniş, konseptual nitqində öz əksini tapıb (1, s.183-193). O, dünya şöhrətli Azərbaycan kinosunun yaradıcılarının qayğılarına qəlb yanğısı, əsl rəhbər qayğısı ilə yanaşaraq diqqəti kinomuzun tarixinə və yaradıcılıq problemlərinə yönəldir.

Heydər Əliyev deyir: "İncəsənətin bütün növlərindən bizim üçün ən mühümü kinodur". O, kinonun milli sərvət adlandırır: "Bizim kinonun tarixi və əldə etdiyi nailiyyətlər milli sərvətimizdir, mədəni sərvətimizdir. Azərbaycan kinosunun 80 illik tarixi xalqımızın salnaməsidir. Çünki biz tariximizlə həmişə fəxr etmişik və eyni zamanda tariximizi qorumalıyıq" [2]. Beləliklə, tarixilik problemi, "tariximizi qorumaq" ideyası, tarixi müasirlik mövqeyində dərk etmək qayəsi Heydər Əliyevin mədəniyyət konsepsiyasında önəmli yer tutan başlıca problemdir. "Bəşəriyyət qarşısında kinonun xidməti böyükdür… bizim xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidməti əvəzsizdir". Bütövlükdə kinonun bəşəri imkanlarını, hər bir xalqın tarixi taleyindəki rolunu yüksək qiymətləndirən Heydər Əliyev həmin baxımdan tarixi filmlərə daha üstünlük verir. Çıxış və mülahizələri göstərir ki, onun kino sənəti konsepsiyasında tarixi filmlər problemi xüsusi yer tutur. Heydər Əliyev tarixi mövzuya və tarixiliyə ona görə önəm verir ki, ümumən o dövlətçilik siyasətində tarixin təcrübəsindən istifadəni həlledici sayır. Gəlin hörmətli prezidentin fikirlərinə diqqət yetirək. O, böyük bir inamla deyir: "Mən tariximizi əks etdirən filmlərə yüksək qiymət verirəm… tariximizi əks etdirən filmlər, məsələn "Nəsimi", yaxud da "Babək", "Dədə Qorqud", "Nizami" filmləri gözəl filmlərdir… tariximizin bir çox mərhələlərini kinoda əks etdirmək bu günümüz və gələcəyimiz üçün çox gərəkli bir işdir. Məsələn, mən dəfələrlə söhbət aparmışam ki, ikinci dünya müharibəsi dövründə Azərbaycan neftçilərinin fəaliyyətini kinoda göstərək. Təəssüflər olsun ki, biz bunu edə bilmədik" (1, s.96).

Məşhur bir məsəldə deyilir «"Əgər sən keçmişə tapançadan atəş açsan, gələcək səni topa tutacaq"». Beləliklə, keçmişi yalnız bir şərəf səhifəsi, dəyərli muzey eksponatı, arxiv sənədi kimi yox, məhz canlı tarix kimi təcəssüm etdirmək kinomuzun əsas yaradıcılıq problemlərindəndir. Tariximizi gələcək günlərin bünövrəsinə qoymaq kino sənətimizin estetik qayğılarından ən başlıcasıdır.

Heydər Əliyev Azərbaycan kino sənətinin uğurları kimi tarixə daxil olmuş "Dədə Qorqud" və "Nəsimi" filmlərini məhz bu baxımdan yüksək dəyərləndirir. O, görkəmli rejissor Tofiq Tağızadənin, xalq yazıçısı Anarın ssenarisi əsasında çəkdiyi iki seriyalı "Dədə Qorqud" filmi haqqında belə deyir: "Tariximizin hələ çox səhifələri var ki, onları kinoya salmaq lazımdır. Məsələn, "Dədə Qorqud"un kinoya salınması tariximiz üçün nə qədər böyük hadisədir! Nə üçün? Çünki, gəlin açıq danışaq, elə özümüzün içərisində də çoxları "Dədə Qorqud"u yaxşı bilmirlər. "Dədə Qorqud"un, Azərbaycan xalqının kökünü çoxları yaxşı bilmirlər. O əsəri oxumaq, – onun dili də çox adam üçün çətindir, – onu dərk etmək də çətindir. Amma kino elə bir vasitədir ki, gedib baxırsan, hər şey aydın olur" (1, s.96).

Beləliklə, Heydər Əliyev kinonun mənəvi fikir tariximizi, tarixi abidələrimizi dərk etmək, təbliğ etmək üçün ən uğurlu vasitə kimi qiymətləndirir. Böyük siyasətçi və dövlət xadiminin, görkəmli rejissor və ədib H.Seyidbəylinin xalq yazıçısı İsa Hüseynovun romanı əsasında çəkdiyi "Nəsimi" filmi barəsindəki mülahizələri də bu baxımdan maraq doğurur. O, çıxışında belə deyib: "Yaxud "Nəsimi" filmini götürün. Nəsimini çoxları tanıyırdı, şerlərini də bilirdilər, 600 illik yubileyini də keçirdik. Amma Nəsimini kinoda necə əks etdirdilərsə, insanların qəlbində, hafizəsində Nəsimi o cür qəbul olundu" (1, s.96). Bu maraqlı mülahizədən aydın duyulur ki, Heydər Əliyev filmlərdə tarixiliklə bədiiliyin vəhdətinə xüsusi diqqət yetirir, onları həlledici sayır. Həqiqətən də "Nəsimi" filmi fədakar ədəbi-tarixi şəxsiyyət, Azərbaycan ədəbiyyatının klassiki olan İmadəddin Nəsimini xalqımıza, eləcə də filmə baxan dünya xalqlarına tanıtmaq və sevdirmək baxımından misilsiz rol oynadı. Film həm ssenari, həm rejissor və rəssam işi, xüsusilə də Nəsimi rolunun ifaçısı xalq artisti Rasim Balayevin fədakar əməyi sayəsində böyük bədii-tarixi uğur qazana bildi. "Nəsimi" Azərbaycan kinematoqrafiyasının salnaməsinə qızıl

hərflərlə həkk olunmuş bənzərsiz tarixi film kimi qiymətləndirilə bilər.

Heydər Əliyevin kino sənətimizdə tarixi film problemləri ilə bağlı qənaət və mülahizələrində Azərbaycan tamaşaçısının dərin rəğbətini qazanmış "Uzaq sahillərdə" filmi və onun yaranma tarixçəsi mühüm yer tutur. Gəlin, bəzi məqamlara diqqət yetirək: "Məsələn, "Uzaq sahillərdə" filmi Azərbaycan xalqına nə qədər şöhrət gətirdi. Mən bunu bir dəfə demişəm, ancaq fürsətdən istifadə edib bir dəfə də demək istəyirəm ki, ümumiyyətlə, Mehdi Hüseynzadənin kəşf olunmasında mənim şəxsi xidmətim var. O vaxt mən DTK-da işləyirdim". Heydər Əliyevin Mehdi Hüseynzadə ilə bağlı söhbətinin (1, s.97) özü az qala bir filmin mövzusudur. İnanırıq ki, həmin söhbət kinoşünaslığımızın tarixində özünəməxsus yer tutacaq.

"Bunlar hamısı – tariximiz, ədəbiyyatımız, kinomuz bir-biri ilə bağlıdır. Bunlar həyatımızın çox əhəmiyyətli cəhətləridir," – deyərək Heydər Əliyev tarixi və ədəbiyyatı tarixi filmlərin zəmini kimi doğru qiymətləndirir və kinonun diqqətini tariximizə yönəltməyə nail olur.

Tarixi filmləri müasir mədəniyyətin xalqın qəhrəman keçmişinə yönəldilmiş nüfuzlu baxışı adlandırmaq olar. Biz tarixdən uzaqlaşdıqca tarix daha əzəmətli və daha aydın görünür. Tarixə istinad etməyən müasirliyin gələcəyinə inanmaq çətindir. Bizcə məhz buna görə də dünyanın məşhur siyasətçisi, böyük Azərbaycançı Heydər Əliyev kino sənətimizə, xüsusilə tarixi filmlərə diqqət və önəm verir. Tarixi filmlər xalqımızın mövcudluğunu təcəssüm etdirərək, onu gələcək nəsillər üçün əbədiləşdirən bədii salnamələrdir.

### Ədəbiyyat siyahısı:

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. V cild, Bakı, "Azərnəşr" 1998
2. Heydər Əliyev və mədəniyyət: 3-cilddə: Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 1969-1982, 1993-1996: I cild /Layihənin rəhbəri və ön sözün müəllifi. Ə.Qarayev; Tərtib edənlər. S.Məmmədəliyeva, T.Əhmədov; Red. L.Məmmədova. – B.: Nurlar, 2008. – 504 s.
3. Heydər Əliyev və mədəniyyət: 3-cilddə: Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 1997-1998: II cild /Layihənin rəhbəri və ön sözün müəllifi. Ə.Qarayev; Tərtib edənlər. S.Məmmədəliyeva, T.Əhmədov; Red. L.Məmmədova. – B.: Nurlar, 2008. – 520 s.
4. Heydər Əliyev və mədəniyyət: 3-cilddə: Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 1999-2003: III cild /Layihənin rəhbəri və ön sözün müəllifi. Ə.Qarayev; Tərtib edənlər. S.Məmmədəliyeva, T.Əhmədov; Red. L.Məmmədova. – B.: Nurlar, 2008. –536 s.
5. Xəlilov S.H. Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002
6. Kərimov İ.H. Əliyev və Azərbaycan mədəniyyəti., Bakı, 2000
7. Quliyev V.H. Əliyev ədəbiyyatımızın borcu və amalı. Bakı, Ozan 1999

**Aygul Huseynova**

## ARTISTIC CHRONICLES THAT ETERNALIZE A NATION'S HISTORY

**Summary:** During the last 30 years of the 20th century, the development of Azerbaijani culture is closely connected with the name of a great social and political figure, phenomenal historical figure, and great leader Heydar Aliyev. It is infrequent to find a head of state in the world who is as much related to his people's history and national spirituality as he is. He is a personality who has deeply mastered the ancient, great and rich history, culture, literature and philosophical and social thought of the nation he has led since 1969 until our modern era. Reference to literature and culture occupies an important place in Heydar Aliyev's theory of statehood, state management strategy and tactics. During the past 35 years, he worked closely with the literary and cultural figures of Azerbaijan, which he led, and of all nations

included in the territory of the former USSR, South Azerbaijan the world. He highly valued the role of literature in the historical destiny of nations.

In his literary and cultural meetings, Heydar Aliyev's concept of culture is a philosophical teaching. He held intensive discussions with the cultural figures of Azerbaijan, valued their work - i.e., composers, singers, artists, actors - with high state awards, and created conditions for the publication and dissemination of their results among the people.

**Key words:** Heydar Aliyev, concept of culture, history of cinema, cultural policy, artistic chronicle, patron of cultu

**UOT 364**

**Sadir Məmmədov**
**Bakı Slavyan Universiteti**
**hüquq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: etll@bsu-uni.edu.az**

# ERMƏNİLƏR TƏRƏFİNDƏN AZƏRBAYCANLILARA QARŞI TÖRƏDİLMİŞ SOYQIRIMI

**Xülasə:** Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı düşünülmüş plan əsasında mərhələlərlə həyata keçirilmiş, xalqların dinc yanaşı yaşamaq prinsipinə daim sadiq qalan soydaşlarımız isə bu cür faciələrin heç vaxt baş verməməsinə inanaraq bəşər tarixində görünməyən fəlakətlərə düçar olmuşlar. Bu gün dünya ictimaiyyətinin hər bir üzvü, xüsusilə hər bir Azərbaycan vətəndaşı xalqımızın başına gətirilən bu faciələrdən xəbərdar olmalı və tarixdən ibrət dərsi götürməyi bacarmalıdır. Bəşəriyyət əleyhinə cinayətlərdən sayılan ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım hadisələrinə veriləcək qiymət isə bu problemin tarixi faktlara əsasən dünya ictimaiyyətinə çatdırmağımızdan, onun doğru-düzgün təbliğindən asılıdır. Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyədə qaldırılması, erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli fəaliyyət bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də qətiyyətlə davam etdirilir.

**Açar sözlər:** ümummilli lider, Heydər Əliyev, soyqırımı, terror, Qarabağ münaqişəsi

Azərbaycan xalqının ümummilli lideri ulu öndər Heydər Əliyev xüsusi olaraq qeyd etmişdir: “Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir” (4). Bu soyqırımı əsl hüquqi-siyasi qiymətini Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra almışdır. Mart hadisələrinin 80-ci ildönümündə 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində verilən fərman erməni təcavüzkarlarının terror hərəkətlərinə verilən dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Bu fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından bir növ proqram sənədidir. Əsrlər boyu azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən bu tarixi sənəddə martın 31-nin azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması təsbitlənmişdir. Fərmanda deyilirdi: “Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif olunmuş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir” (4).

Ötən illər ərzində Azərbaycan dövləti bu tarixi gerçəklikləri, xalqın iki əsr boyu məruz qaldığı soyqırımı və etnik təmizləmənin dəhşətli miqyasını beynəlxalq ictimaiyyətə çatdırmaq istiqamətində xeyli iş görmüşdür. Fərmanda ermənilərin Azərbaycana qarşı təcavüzünün tarixi köklərinə də toxunulmuş, mərhələlərlə törədilmiş soyqırımı və terror siyasəti dolğun əksini tapmışdır. Tarix boyu azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı lap əvvəldən rus-erməni işbirliyinin nəticəsi olmuşdur. Rusiya imperiyası bu yolla Cənubi Qafqazda möhkəmlənmək, ermənilər isə Rusiyanın havadarlığına arxalanaraq tarixi Azərbaycan torpaqlarını ələ keçirmək, bu torpaqlarda erməni dövləti qurmaq məqsədi güdmüşlər. XIX əsrin ikinci yarısından ermənilərin azərbaycanlılara qarşı soyqırımı təşkilatlanmış və planlı siyasət kimi aparılmışdır. Azərbaycan, Türkiyə və Gürcüstan ərazisində “Böyük Ermənistan” dövləti qurmağa

niyyətlənən ermənilər "Daşnakstyun" (1880, Tiflis), "Erməni vətənpərvərləri ittifaqı" (1885, Nyu-York), "Qncaq" (1887-ci ildə Cenevrədə yaradılıb), kimi siyasi-terror təşkilatlarını bu istiqamətə yönəltmişdilər. Sözügedən təşkilatların fəaliyyət proqramında azərbaycanlılara qarşı ardıcıl terror və qırğın aksiyaları həyata keçirmək məqamı əsas yer tuturdu. 1905-1907-ci illərin Rusiya inqilabı bu təşkilatların fəaliyyəti üçün "geniş imkanlar" açdı. Qarışıqlıqdan istifadə edən ermənilər Bakı, Şuşa, Zəngəzur qəzalarında, Qarabağda kütləvi qırğınlar törətmiş, 75 azərbaycanlı kəndini talan etmişlər.

1905-1907-ci il inqilabından sonra azərbaycanlıların deportasiyası və soyqırımı prosesi davam etdirilmişdir. Bunu Rusiya imperiyasının o vaxtkı statistik məlumatları da təsdiqləyir. 1916-cı ildə nəşr olunan məlumatlara əsasən, İrəvan quberniyasının əhalisi 1830-1914-cü illər ərzində 40 dəfə artaraq 570 min nəfər təşkil etmişdir. Lakin bunun müqabilində bölgənin azərbaycanlı əhalisinin sayı cəmisi 4, 6 dəfə artmışdı. Hətta bu qədər sıxışdırılma və deportasiya müqabilində yenə 1916-cı ildə İrəvan əhalisinin təxminən 45 faizi, yəni 247 min nəfəri azərbaycanlılardan ibarət olmuşdur.

1914-cü ildə başlanan Birinci dünya müharibəsi və onun gedişində Rusiyada baş verən inqilablar (1917-ci il) ermənilərin "Böyük Ermənistan" iddiası üçün əlverişli şərait yaratmışdı. 1915-ci ilin əvvəlində Türkiyənin şimal-şərq bölgələrinin erməni əhalisi Osmanlı dövlətinə qarşı müharibəyə və türklərə qarşı kütləvi qırğınlara başlamışdı. Bunun cavabında Osmanlı dövləti erməni əhalisinin o ərazilərdən kütləvi şəkildə köçürülməsi barədə əmr vermişdi. Türkiyə ərazisindən erməni hərbi dəstələri ilə birlikdə İrəvan quberniyasına, Qarabağa və Zəngəzura çox sayda erməni əhalisi də köçüb gəlmişdi. 1917-ci ilin dekabrında Osmanlı dövləti ilə bolşeviklərin Zaqafqaziya Komissarlığı arasında bağlanmış Ərzincan barışığına uyğun olaraq Qafqaz cəbhəsindən çıxarılan rus ordusunu əvəz edən erməni hərbi birləşmələri başıpozuqluq şəraitindən istifadə edərək yerli müsəlman əhalisinə zülm etmişlər. Nəticədə hələ 1918-ci ilin martına qədər İrəvan quberniyasında 199 azərbaycanlı kəndi tamamilə dağıdılmış və yandırılmışdı. Bu ərazidə yaşayan 135 min azərbaycanlı türkünün bir qismi ermənilər tərəfindən qətlə yetirilmiş, qalanları isə Osmanlı ordusunun nəzarət etdiyi ərazilərə qaçmağa məcbur olmuşlar. Bu qırğınlara 1917-ci il dekabrın 16-da RSFSR Xalq Komissarları Soveti tərəfindən Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilmiş Stepan Şaumyan başçılıq edirdi. Belə bir vəziyyət S.Şaumyana cənubi Qafqazda sovetləşmə siyasətini həyata keçirmək üçün real imkanlar verirdi. Böyük qırğınlara başlamağa yalnız bəhanə lazım idi: nəhayət, müsəlman əsgərlərin Lənkəranda olan könüllülərə silah göndərmək istəməsi Şaumyana bu bəhanəni verdi. O, Lənkərana silah göndərilməsinin qarşısını almaq əmrini verdi. Başlanan atışmalarda ölən və yaralananlar oldu. Şaumyan bu hadisəni bəhanə edərək ruslarla erməniləri azərbaycanlılara qarşı misli görünməmiş qırğınlar törətməyə sövq etdi. Martın 30-da səhər tezdən erməni-bolşevik birləşmələri şəhəri gəmilərdən yaylım atəşinə tutdular. Bunun arxasınca silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq amansız qətllər törətdilər. Martın 31-i və aprelin 1-də qırğınlar xüsusilə kütləvi xarakter aldı. Üç gün ərzində Bakıda 30 min insan qətlə yetirildi. Şaumyanın erməni bolşevik dəstələri Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmiş, müsəlmanların bir çox ziyarətgahlarını dağıtmışdılar. Daşnak-bolşevik qüvvələri Təzə Pir məscidini topa tutmuş, Bakının ən möhtəşəm memarlıq incilərindən sayılan "İsmailiyyə"nin binasına od vurmuşdular. Martın 30-dan aprelin 2-dək sürən qırğınlarda Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər tərəfindən 8027 azərbaycanlı (onlardan 2560-ı qadın, 1277-si uşaq idi) qətlə yetirilmişdi. Quba qəzasında 162 kənd darmadağın edilmiş, 16 mindən çox insan həyatına son qoyulmuşdu. Lənkəranda, Muğanda minlərlə soydaşımız öldürülmüşdü. Ermənilər Dağlıq Qarabağda 150 azərbaycanlı kəndini tamamilə dağıtmış, Şuşada görünməmiş qırğınlar törətmişdilər. 1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 100 min azərbaycanlı qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdular. Təkcə Bakıda 30 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülmüşdü. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə yeksan olunmuş, əhali üzərində heç nəyə məhəl qoymadan qətliam həyata keçirilmişdi. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərinin birində bildirilir: "Biz erməni

təcavüzkarlarına qarşı mübarizəyə şüurlu surətdə getdik. Əgər azərbaycanlılar üstün gəlsəydilər, onda Bakı Azərbaycanın paytaxtı elan edilə bilərdi" (2).

Göründüyü kimi azərbaycanlılara qarşı aşkar soyqırımı həyata keçirən ermənilər Bakı daxil olmaqla, bütün Azərbaycanı özlərinin ərazisinə çevirmək niyyətində idilər. Xalqımız uzun illər bu gerçək tarixdən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. Dəhşətli genosidin qurbanı olmuş minlərlə soydaşlarımızın uyuduğu qəbiristanlığın üstünü betonlayaraq üzərində Kirovun heykəli ucaldılmış, ətrafda istirahət parkı salmışdılar. Bu mənada, ümummilli lider Heydər Əliyevin 9 il bundan əvvəl imzaladığı fərman 200 illik işğal və soyqırımı siyasətinə qarşı çıxarılan tarixi sənəd olmaqla yanaşı, xalqımızın öz milli-mənəvi dəyərlərini, tarixi köklərinə, torpağına və vətənə bağlılığı baxımından da çox əhəmiyyətlidir. Tarixi şərait səbəbindən ötən iki əsr ərzində baş vermiş hadisələrə, xalqın faciələrinə obyektiv qiymət vermək mümkün olmamışdır. Təbii olaraq türklərin soyqırımını qarşılarına məqsəd kimi qoyan bu cür ideoloqların sayıqlamaları həmin siyasətin həyata keçirilməsində çox zaman ermənilərə vasitə olmuşdur. Hesab edirəm ki, rəsmi sənədlərə əsasən bir məqamı da oxucuların nəzərinə çatdırmaq zəruridir. Məsələn, əlverişli məqamlardan məharətlə istifadə edən erməni şovinistlərinin 1918-ci ilin mart qırğınlarından bəhs edən mənbələrin birində (H.Baykara, "Azərbaycan istiqlal mübarizəsi tarixi") yazılır: "Türklərin mağazaları talan edildi, evlər yandırıldı. Bu barədə mənim üçün yazmaq olduqca ağırdır. Türk qadınları saç-saça bağlanaraq çılpaq gəzdirildikdən sonra müxtəlif şəkildə təcavüzlər, öldürmələr və daha başqa cinayətlər... törədildi. Təcavüzlər bununla bitmədi. Erməni, rus könüllü dəstələri Şamaxı, Salyan, Kürdəmir, Quba və Lənkərana da hücum etdilər, bu yerlərdə də Bakıda olduğu kimi, qırğınlar, talanlar və tarixdə görünməyən cinayətlər törədildi" (3). Bax, həmin soyqırımın təşkilatçıları və onu real şəkildə həyata keçirənlər hadisələr başlamazdan əvvəl, martın 15-də tapşırıq almışdılar. Çünki 1918-ci il martın 15-də etdiyi çıxışında S.Şaumyan guya ölkədəki vəziyyətdən narahatlığını bildirərək demişdi: "Bakı Soveti vətəndaş müharibəsinin Zaqafqaziyada başlıca dayağı və mərkəzi olmalıdır". Çıxışdakı motivlər onu göstərirdi ki, artıq azərbaycanlıların soyqırımına başlamağın vaxtı çatıb. Buna ermənilər tam hazırlıq da görmüşdülər. Planlı şəkildə yerinə yetirilən proses Bakıdan əvvəl, Şamaxıda keçirilmişdir. Tarixi qaynaqlara və arxiv sənədlərinə əsasən demək olar ki, Novruz bayramı ərəfəsində Şamaxı əhalisinə dəhşətli divan tutulmuşdu. 1918-ci ilin ilk aylarından başlayaraq hazırlanan soyqırım planını yerinə yetirməyi S.Lalayana tapşırmışdılar. Erməni daşnaklarının yekdil fikri bu idi ki, Şamaxının müsəlman əhalisi tamamilə məhv edilməlidir. Şamaxı şəhərində bu qanlı aksiyanı yerinə yetirən Lalayanın terrorçu quldur dəstəsi eyni vəziyyəti kəndlərdə də davam etdirdi və şəhərin 58 kəndi xarabazara çevrildi. Hadisələrlə bağlı 21 oktyabr 1918-ci il tarixli "Azərbaycan" qəzetində ürək ağrısıyla yazılırdı: "...Biz Şamaxı əks inqilabçılarının başına nə gəldiyini bilmirik, amma onu bilirik ki, başda sosialist "Əmirov və Lalayev" olmaqla qırmızı sosialist dəstəsi Şamaxıdakı bütün müsəlman əhalisini kəsib doğramış, kəndləri dağıtmışdılar. Lalayevin Şamaxı müsəlmanlarına qarşı törətdiyi vəhşiliklər bu müddət ərzində gördüklərimiz bütün dəhşətləri kölgədə qoydu" (1).

Statistik rəqəmlər də Şamaxı qırğınlarının hansı qəddarlıqla törədildiyini əks etdirir. Şamaxı kəndlərində azərbaycanlılara qarşı törədilən qırğınların göstəricilərinə bir daha diqqətimizi yönəldək. Cəyirlidə 75, Ərəbqədim kəndində 378, Cəmcəmlidə 26, Qaravəllidə 120, Kürdəmirdə 25, Ovçuluda 27, Bağırlıda 370, Təklədə 922, Dilmanda 585, Sulutda 44, Nuranda 117, Sündüdə 250, Ağsuda 200, Bəklədə 316 nəfər və s. adını çəkmədiyimiz Şamaxının digər kəndlərində minlərlə günahsız insan vəhşicəsinə qətlə yetirilmişdir.

Son illərdə respublikamız bu sahədə fəaliyyətini gücləndirmiş, rəsmi sənədlərə əsasən ermənilərə qarşı ədalətli effektiv fəaliyyətə başlamışdır. Ulu öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanı bu işlərin vahid və sistemli surətdə aparılmasına imkan yaratmışdır. Bu sərəncam uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulan həqiqətləri açmış, xalqımızın qan yaddaşını təzələmişdir.

Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyədə qaldırılması, erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli fəaliyyət bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də qətiyyətlə davam etdirilir. Tövsiyə olunmuş müraciətin nəticəsidir ki, Heydər Əliyev Fondu soyqırımı ilə bağlı 100-dək materialın xaricdə sərgisini təşkil etmişdir. Fondun həyata keçirdiyi "Qarabağ həqiqətləri" silsiləsi və işğal olunan ərazilərdə mədəni-tarixi abidələrin dağıdılması ilə bağlı ingilis dilində nəşr olunmuş kitab və bukletlər xaricdə yayımlanmışdır. Eyni zamanda 2009-cu ilin fevralında İslam Konfransı Təşkilatının Gənclər Fondunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamış "Xocalıya ədalət" kompaniyası ötən bir il ərzində uğurla davam etmiş, bu aksiyaya dünyanın əksər ölkələrində könüllülər qoşulmuşdur.

Göründüyü kimi, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı düşünülmüş plan əsasında mərhələlərlə həyata keçirilmiş, xalqların dinc yanaşı yaşamaq prinsipinə daim sadiq qalan soydaşlarımız isə bu cür faciələrin heç vaxt baş verməməsinə inanaraq bəşər tarixində görünməyən fəlakətlərə düçar olmuşlar. Bu gün dünya ictimaiyyətinin hər bir üzvü, xüsusilə hər bir Azərbaycan vətəndaşı xalqımızın başına gətirilən bu faciələrdən xəbərdar olmalı və tarixdən ibrət dərsi götürməyi bacarmalıdır. Bəşəriyyət əleyhinə cinayətlərdən sayılan ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı hadisələrinə veriləcək qiymət isə bu problemin tarixi faktlara əsasən dünya ictimaiyyətinə çatdırmağımızdan, onun doğru-düzgün təbliğindən asılıdır.

### Ədəbiyyat siyahısı:

1. Azərbaycan. – 1918, 21 oktyabr.
2. Əməkçi. – № 231, 1919, 2 noyabr.
3. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi / H.Baykara. – Bakı: Azərnəşr, – 1992– 346 s.
4. Əliyev, H.Ə. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası prezidentinin Fərmanı: [Elektron resurs] / URL:https://az.wikisource.org/wiki/%22Az%C9%99rbaycanl%C4%B1lar%C4%B1n_soyq%C4%B1r%C4%B1m%C4%B1_haqq%C4%B1nda%22_Az%C9%99rbaycan_Respubl%C4%B1kas%C4%B1_prezidentinin_F%C9%99rman%C4%B1 (15.02.2023).

**Sadir Mammadov**

### GENOCIDE COMMITTED BY ARMENIANS AGAINST AZERBAIJANS

**Summary:** The genocide committed by the Armenians against the Azerbaijanis was carried out in stages based on a well-thought-out plan, and our compatriots, who were always loyal to the principle of peaceful coexistence of peoples, believed that such tragedies would never happen, suffered disasters unseen in human history. Today, every member of the world community, especially every citizen of Azerbaijan, should be aware of these tragedies that have befallen our people and should be able to learn lessons from history. The evaluation of the genocide committed by Armenians against Azerbaijanis, which is considered a crime against humanity, depends on our conveying this problem to the world community based on historical facts, and on its proper promotion. Today, the persistent and determined activity in the direction of raising the national problems of Azerbaijan at the international level and exposing the Armenian vandalism is continued by the President of Azerbaijan Ilham Aliyev, a worthy follower of Heydar Aliyev's political course.

**Key words:** National Leader, Heydar Aliyev, genocide, terrorism, Karabakh conflict

**UOT 81**

**Sevinc Həsənova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: Sevinc.hasanova.67@mail.ru**

# MİLLİ SƏRVƏTİMİZ OLAN ANA DİLİMİZ AZƏRBAYCANÇILIĞIN MƏNƏVİ ƏSASIDIR

> Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq
>
> **Heydər Əliyev**

**Xülasə:** Azərbaycan xalqının müstəqilliyi, xoşbəxt gələcəyi uğrunda misilsiz xidmətlər göstərən ulu öndər Heydər Əliyevin 100 illik yubileyini böyük fəxr hissi ilə qeyd edirik. Milli sərvətimiz olan Azərbaycan dilini azərbaycançılığın mənəvi əsası kimi qiymətləndirən böyük siyasi xadim Heydər Əliyev vətənini, torpağını, xalqını, dilini sevən görkəmli bir şəxsiyyətdir. Dilimizin hərtərəfli inkişafı, dövlət dili səviyyəsinə qalxması, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Onun imzaladığı fərman və sərəncamlar dilimizin dövlət səviyyəsində qorunması, tətbiqi, gələcək nəsillərə ötürülməsi, eləcə də dünya dilləri içərisində layiqli yer tutması üçün uğurlu tədbirlərdir. Ölkəmiz müstəqillik qazandıqdan sonra Heydər Əliyevin ana dili uğrunda apardığı siyasətin miqyası daha da genişlənmiş, bir çox ümummilli məsələlərin dövlət siyasəti səviyyəsində həll edilməsi ilə başa çatdırılmışdır.

**Açar sözlər**: ulu öndər, ana dili, dil siyasəti, təhsil, tədris

Bu günlərdə Azərbaycan xalqının müstəqilliyi, doğma yurdumuzun tərəqqisi, xoşbəxt gələcəyi uğrunda misilsiz xidmətlər göstərən ulu öndər Heydər Əliyevin yüzüncü ildönümünü böyük fəxr hissi ilə qeyd edirik. Bu dahi şəxsiyyət daima xalqımızın, ümummədəni tərəqqisinin qayğısına qalmış, elmin, mədəniyyətin inkişafına böyük diqqət göstərmişdir. Heydər Əliyev vətənini, torpağını, xalqını, dilini sevən, onu öz dühası ilə yüksəklərə qaldıran görkəmli bir şəxsiyyətdir. Milli sərvətimiz olan Azərbaycan dilini məhz azərbaycançılığın mənəvi əsası kimi qiymətləndirərək deyirdi: "Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun" (2, s.283).

Ana dili hər bir xalqın milli sərvəti, həmin xalqın varlığının təsdiqidir. Xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ilk olaraq, onun dilində öz əksini tapır. Azərbaycan dili də Azərbaycan xalqının milli sərvətidir və xalqımız, millətimiz tarix durduqca hər sərvətin qayğısına qalmalı və dilimizi gələcək nəsillərə ötürməlidir. Dilimizin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Ulu Öndərin dediyi kimi: "Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnməyən millət – millət ola bilməz. Xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zaman da, sovet

imperiyasının tərkibində olduğumuz zaman da biz ana dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf etdirmişik" ( 2, s.288).

Azərbaycan dilinin ölkənin dövlət dili kimi elan edilməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çox böyük xidmətləri olmuşdur. Məlum olduğu kimi, dövlət dili sahəsindəki fəaliyyətə Heydər Əliyev ölkəyə rəhbərliyə gəldiyi 1969-cu ilin ilk günlərindən başlamışdır. Azərbaycan ədəbi və xalq danışıq dilini dərindən bilən, bu dilin zəngin lüğət tərkibinə yaxşı bələd olan və qrammatik imkanlarından səmərəli istifadə etməyi bacaran Heydər Əliyev yüksək səviyyəli yığıncaqlarda, məsələn, BDU-nun 50 illiyinə həsr olunmuş yubiley toplantısında, yenə həmin ali məktəbin partiya konfransında yüksək dövlət səviyyəsində aparılan başqa müşavirələrdə ana dilində parlaq çıxışlar edərək, özünə böyük hörmət və məhəbbət qazandı. O çox yaxşı bilirdi ki, onun qazandığı bu böyük hörmət və məhəbbət eyni zamanda onun istifadə etdiyi, danışdığı dilə – Azərbaycan dövlət dilinə çox böyük hörmət və məhəbbət yaradır.

Bu gün ölkəmizdə elmin, təhsilin və mədəniyyətin yüksək səviyyədə inkişaf etdiyi bir dövrdə ana dilimizin – Azərbaycan dilinin istifadəsi, tədqiqi və tədrisi, dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılıb. Eyni zamanda, hazırkı qloballaşma dövrü ana dilimizin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə qalxmasını zəruri edir. Azərbaycan Dövlət dilinin başlıca rəmzlərindən sayılan Azərbaycan dilinin tətbiqi və inkişaf etdirilməsinə dövlət qayğısının artırılması, ana dilimizin öyrənilməsi, dilimizin cəmiyyətdə tətbiq dairəsinin genişləndirilməsi və bu işə nəzarətin gücləndirilməsi durmadan artır. Dilimizin hərtərəfli inkişafı, dövlət dili səviyyəsinə qalxması, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Belə ki, Ulu Öndərin dil siyasəti bizə doğma dilimizi xalqın mənəvi varlığı kimi sevməyi, onun saflığını qorumağı, dilin zəngin söz xəzinəsindən bacarıqla istifadə edərək düzgün danışmağı öyrətdi. Eləcə də hələ XVI əsrdə Şah İsmayıl Xətai ilə başlanan ana dili siyasəti məsələsini ilk dəfə tam rəsmi olaraq böyük qətiyyətlə dövlət siyasəti səviyyəsində həyata keçirməklə tamamladı.

Azərbaycan dilinin təbliğ olunmasında əvəzsiz xidmətləri olan Heydər Əliyev tərəfindən imzalanan fərmanlar – "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" (18 iyun 2001-ci il), "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" (9 avqust, 2001-ci il), "Azərbaycan Respublikasının dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi (2 yanvar 2003-cü il) və digərləri milli sərvətimiz olan dilimizin dövlət səviyyəsində qorunması, tətbiqi, gələcək nəsillərə ötürülməsi, eləcə də dünya dilləri içərisində layiqli yer tutması üçün uğurlu tədbirlərdir. Bu tədbirlər onu göstərir ki, ümumi mədəniyyətimizin göstəricisi sayılan dövlət dilimiz, həm də nitq mədəniyyətimiz daim inkişafdadır.

Heydər Əliyevin 18 iyun 2001-ci il tarixində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanda Azərbaycan dilinə yüksək qiymət verilmiş, dilimizin tarixi əsasları, onun müasir vəziyyəti haqqında mükəmməl təsəvvür yaradılmış, inkişaf problemləri haqqında sistemli şəkildə bəhs edilmişdir. Qeyd edilmişdir ki, "Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün hər hansı xalqa bir neçə minillik tarix yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır" (4, s.26).

Məlumdur ki, xalqımız öz dövlət müstəqilliyini əldə etdikdən sonra respublikamız siyasi, iqtisadi və ictimai həyatında olduğu kimi, mədəniyyət, elm və təhsil sahələrində də dünya standartlarına inteqrasiya etməyə başlamışdır. Belə ki, ölkəmiz təhsil problemlərini uğurla yeniləşdirməkdədir. Təhsildə yeniləşmə kompüterlə, internet, elektron maşınlar və müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə Boloniya təhsil sisteminə, tədrisin kredit üsuluna keçməsini sürətləndirmişdir. Ölkəmizdə böyük uğurla həyata keçirilən təhsil islahatı ali təhsil ocaqlarının qarşısında geniş perspektivlər açmışdır.

Respublikamızın ali məktəblərinin qarşısında duran əsas vəzifələrdən biri Ulu Öndərin tövsiyə etdiyi kimi, cəmiyyətimiz üçün hərtərəfli inkişaf etmiş, dərin təfəkkürə, geniş dünyagörüşünə, yüksək mədəniyyətə, elmi biliklərə malik kadrlar yetişdirməkdən ibarətdir. Dövrün tələbinə uyğun olaraq belə kadrlar – müasir gənclər cəmiyyətdə gedən proseslərdən baş çıxarmalı, sağlam düşüncəyə, əqidəyə malik olmalıdırlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdəki nitqində söylədiyi kimi, "Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir – bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin". Bunun üçün ana dilini – Azərbaycan dilini mükəmməl bilmək, bu dildə yazılı və şifahi nitqə, zəngin söz ehtiyatına malik olmaq, qrammatik qaydaları kamil bilmək əsas şərtlərdəndir. Eyni zamanda dilimizin gözəlliyini duymaq, mənimsəmək və bu gözəlliyi hər zaman hər yerdə təbliğ etmək, bu dildə düzgün danışmaqla hamıya nümunə olmaq hər bir müasir gəncin ümdə vəzifəsidir.

Hal-hazırda respublikamızın bütün ali məktəblərində "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni tədris olunur ki, bu fənnin tədrisində məqsəd bütün ixtisaslarda təhsil alan tələbələrimizə müxtəlif mövzulara aid akademik mətnlər tərtib etmək, təqdimatlar hazırlamaq, şəxsi fikir və mülahizələrini həm yazılı, həm də şifahi formada düzgün, aydın, məntiqi, yığcam, anlaşıqlı şəkildə ifadə etmək bacarıq və vərdişlərinin yaradılmasına kömək etmək, fənlə bağlı kompentesiyaları inkişaf etdirməkdir. Fənnin mənimsənilməsində tələbələr beynəlxalq akademik yazı qaydalarının tələblərini öyrənmək bacarıqlarına sahib olacaq, nitq texnikasının komponentləri, akademik yazının xüsusiyyətləri və növləri, akademik mənbələrlə işləmə və onlardan istifadə etmə bacarığını formalaşdıracaqlar. Xüsusilə də, kommunikasiya zamanı tələbələrə sözlərin ustalıqla və sənətkarlıqla tələffüz edilməsini öyrətmək, onları müasir ədəbi dilimizin normalarına, nitq və orfoepiya texnikasına, sərbəst çıxış etmək bacarığına, bədii oxu məharətinə yiyələndirməkdən ibarət olması – məqsəddən doğan əsas vəzifələrdən biridir. Fənnin aktuallığını kommunikativ bacarıqların inkişaf istiqamətləri, daha doğrusu, tələbələrin dil, danışıq vasitəsilə bu və ya digər kommunikativ məsələlərin müxtəlif sferada və işgüzar ünsiyyət situasiyasında həll etmək qabiliyyətinin vacibliyi təşkil edir. Belə ki, tələbələr işgüzar və akademik kommunikasiyanın nəzəriyyəsi, onun təcrübəsi sahəsində biliklər əldə edəcək, işgüzar kommunikasiyanın ən təsirli üsulları və formalarına əsaslanaraq, gələcəkdə peşəkar fəaliyyətlərini həyata keçirməyə imkan verəcək kommunikativ səlahiyyətlərini formalaşdıracaqlar. Məqsəd dil və yaradıcılıq prosesini əlaqələndirmək, qloballaşma şəraitində Azərbaycan dilinin qorunması, təbliği və inkişafını təmin etmək üçün tələbələrdə düzgün nitq formalaşdırma qabiliyyəti, aydın fikir ifadə etmək bacarığı, dilin zənginliklərindən, söz ehtiyatından səmərəli istifadə edərək işgüzar və akademik sahədə şəxslərarası münasibətlər qurmağı, sənədlər və mətnlər hazırlamağı, işgüzar tədbirlər təşkil etmək bacarıqlarını inkişaf etdirməkdir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, "inkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur" (4, s.20).

### Ədəbiyyat siyahısı:

1. Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili. B.: "Elm", 1998.196 s.
2. Heydər Əliyev. Dövlət xalq üçündür. B.: "Adiloğlu", 2008. 400 s.
3. Cəfərov N. Azərbaycanşünaslığın əsasları. B.: "Pedaqogika", 2005. 256 s.
4. Əliyev V. Heydər Əliyevin dil siyasəti. B.: "Nurlan", 2003. 100 s.

## OUR NATİVE LANGUAGE, WHICH IS OUR NATIONALTREASURE, IS THE SPIRITUAL BASIS OF AZERBAIJANISM

**Summary:** We are proud to celebrate the 100th anniversary of the Great Leader Heydar Aliyev, who rendered a precious service for the independence and happy future of the Azerbaijani people. Haydar Aliyev, who valued the Azerbaijani language as the moral basis of azerbaijanism, which is our national treasure, had an outstanding personality who loved his homeland, country, people and language. The comprehensive development of our language, its rise to the level of the state language, opening the way to the world of diplomacy, and being heard from the most authoritative tribunes of the world are due to the language policy of our National Leader Heydar Aliyev. After the independence of our country, the scope of Heydar Aliyev's policy regarding the mother tongue has expanded, and many national issues have been resolved at the level of state policy.

**Key words**: great leader, mother tongue, language policy, education, teaching

**UOT 332.2**

**Elçin Qafarlı**
**Azərbaycan Respublikasının TÜRKSOY Təşkilatındakı nümayəndəsi**
**E-mail: elchingfarli@gmail.com**

# HEYDƏR ƏLİYEV VƏ TÜRKİYƏ-AZƏRBAYCAN ORTAQ DƏYƏRLƏRİNƏ MÜNASİBƏT MƏSƏLƏLƏRİ

**Xülasə:** Müdrik siyasətçi və parlaq şəxsiyyət olan ulu öndər Heydər Əliyevin siyasi irsinə maraq illər ötdükcə daha da artmaqdadır. Xüsusilə də, türk xalqları arasında Heydər Əliyevin geniş şöhrəti, böyük nüfuzu olmuşdur. Sovet dövlətinin rəhbər vəzifələrində çalışarkən türk respublikalarında bilavasitə başçılıq etdiyi və uğurla həyata keçirdiyi önəmli layihələrlə xalqın böyük hörmətini qazanmışdı.

Hazırda Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş qardaşlıq münasibətləri özünün ən yüksək mərhələsini yaşayır. Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud olan yüksək səviyyəli əlaqələr, dostluq və qardaşlıq münasibətləri dərin tarixi köklərə söykənir. Hər iki xalqın eyni dinə, dilə, ortaq mədəniyyətə və adət-ənənələrə malik olması ölkələrimiz arasında münasibətləri daim gücləndirmiş və ən yüksək səviyyəyə çıxarmışdır.

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında bütün sahələrdə, o cümlədən iqtisadi və mədəni sahələrdə mövcud olan əlaqələr ildən ilə daha da inkişaf etməkdədir. Ulu öndər Heydər Əliyevin uzaqgörən tövsiyələrinə uyğun olaraq hər iki ölkə geniş təsir imkanları olan, qarşılıqlı fayda gətirən, bölgədə sülhü təmin edən, əmin-amanlığa və qarşılıqlı mədəni inteqrasiyaya xidmət göstərən bir çox beynəlxalq layihələr həyata keçirmiş və yenilərinin üzərində işləməkdədir.

**Açar sözlər:** Heydər Əliyev, Türkiyə-Azərbaycan, “Bir millət, iki dövlət”, xarici siyasət, beynəlxalq münasibətlər

XX əsrin son otuz ilində Azərbaycanda rəhbərlik özündən əvvəlki dövrlərdən tamamilə fərqlənmişdir. Bu dövr Azərbaycan tarixində xüsusi yer tutur. “Bu dövrü fərqləndirən mühüm cəhətlərdən biri ondan ibarətdir ki, Azərbaycanda Heydər Əliyev kimi dünya şöhrətli siyasi xadim yetişmişdir. Heydər Əliyevin şəxsiyyəti və fəaliyyəti XX əsrin ikinci yarısında Sovet İttifaqının ictimai-siyasi mühitində formalaşmış, dünyada peşəkar siyasətçi, siyasi və dövlət xadimi kimi tanınmışdır. Onun həyat yolu olduqca zəngin, mənalı və bacarıqlı siyasi lider, qüdrətli tarixi şəxsiyyət kimi yüksək insani-əxlaqi keyfiyyətləri özündə əks etdirən örnəkdir” [7].

Müdrik siyasətçi və parlaq şəxsiyyət olan ulu öndər Heydər Əliyevin siyasi irsinə maraq illər ötdükcə daha da artmaqdadır. Xüsusilə də, türk xalqları arasında Heydər Əliyevin geniş şöhrəti, böyük nüfuzu olmuşdur. Sovet dövlətinin rəhbər vəzifələrində çalışarkən türk respublikalarında bilavasitə başçılıq etdiyi və uğurla həyata keçirdiyi önəmli layihələrlə xalqın böyük hörmətini qazanmışdı.

1991-ci ildə Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra ölkənin qarşısında duran mühüm vəzifələrdən biri milli mənafelərə əsaslanan xarici siyasət kursunun müəyyən edilərək həyata keçirilməsi idi. Azərbaycan Respublikasını üzləşdiyi fəlakətdən xilas etmək və düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün səmərəli, praqmatik xarici siyasət kursunun müəyyən edilməsi zərurəti yaranmışdı.

SSRİ-nin süqutundan sonra müstəqillik qazanmış türk respublikaları ilə tarixi bağların bərpası, iqtisadi, siyasi və mədəni əlaqələrin qurulması və genişləndirilməsi istiqamətində dövlət başçıları ilə görüşlərin mühüm əhəmiyyətə malik olduğunu qeyd edən Heydər Əliyev bununla bağlı Türkiyə Respublikası tərəfindən atılan addımları, göstərilən dəstəyi yüksək dəyərləndirirdi. Xüsusilə də,

Türkiyənin Prezidenti Turqut Özalın yeni müstəqillik qazanmış türk respublikalarının dövlət rəhbərlərinin 1992-ci ildə Ankarada baş tutmuş ilk Zirvə görüşünün xalqlarımız arasında qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsində səmərəli olacağını vurğulayırdı.

Xalqın inadlı tələbi ilə 1993-cü ilin iyununda Azərbaycan Respublikasında hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasında və dünya siyasətinə inteqrasiyasında, ölkəmizin siyasi, iqtisadi, mədəni sahələrdə atdığı mühüm addımlar sırasında qardaş Türkiyə ilə münasibətlərin yüksək səviyyədə və etibarlı təməllər üzərində qurulmasına çox böyük əhəmiyyət verirdi.

Ulu öndər ölkəmiz ilə Türkiyə arasındakı münasibətlərə necə böyük önəm verdiyini ilk günlərdən bəyan edərək deyirdi ki, Azərbaycan Respublikasının müstəqilliyini dünya ölkələri arasında ilk olaraq Türkiyə tanımışdır. Bu isə o vaxt Azərbaycanın dünya dövlətləri, dünya birliyi tərəfindən tanınmasında çox önəmli addım olmuşdur. 1994-cü ilin 8 fevral tarixində Ankarada rəsmi səfərdə olarkən "Çankaya" prezident iqamətgahında Prezident Süleyman Dəmirəl ilə görüşündə çıxış edərək, "Böyük iftixar hissi, böyük məmnuniyyətlə ilə demək olar ki, 70 il bir-birindən ayrı düşmüş xalqlarımız qısa müddətdə bir birinə qovuşdu, bir-birini qucaqladı və sanki bu 70 ildə ayrılıq heç olmamışdır [1, s.61].

Prezident Heydər Əliyev 1994-cü ilin oktyabr ayının 19-da Türk dövlətləri başçılarının Zirvə görüşündə qəbul edilmiş "İstanbul bəyannaməsi"nin imzalanma mərasimində deyirdi: "Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də, bunlar hamısı xalqlarımızı hələ müstəqil olmadığımız vaxtda bir-birindən ayırmayıb, bir-birinə bağlayıb, bir-birilə daha çox əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliklərini əldə edəndən sonra, müstəqil dövlətlər kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəli getməliyik" [8].

23-26 mart 1996-cı il tarixində Ankarada keçirilən IV "Türk dövlətləri və toplumlarının dostluq, qardaşlıq və əməkdaşlıq" qurultayında Heydər Əliyevin bir deyimi bir daha xatırladılmışdır: "Azərbaycan üçün Türkiyədən yaxın dost, qardaş dövlət yoxdur. Türkiyə üçün də bütün ölkələr, xalqlar arasında Azərbaycan qədər dost, qardaş ölkə yoxdur... Heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə – Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır" [3, s.70].

Bu müdrik fikirləri Heydər Əliyev 6 noyabr 1996-cı il tarixində Türk dünyası yazıçılarının III qurultayındakı nitqində daha da inkişaf etdirərək, türk xalqlarının keçdiyi tarixi inkişaf yolunu, bəşər mədəniyyətinə böyük töhfələr verərək onu zənginləşdirdiyini vurğulayaraq deyirdi ki, biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik [2, s.5-12].

Heydər Əliyevin "Bir millət, iki dövlət" konsepsiyası milli-mənəvi dəyərlərimizin tarixən ortaqlığını, xalqlarımızın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, bütünlükdə mənəvi dünyasının bir-biri ilə qarşılıqlı əlaqədə olduğunu da əks etdirməkdədir.

Türkiyə ilə münasibətlərin dinamikası və əhatəliliyi bunun əyani sübutlarındandır. Hal hazırda iki qardaş dövlət arasında bütün sahələr üzrə əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir. Azərbaycanın ən yaxın müttəfiqi olan Türkiyə ilə mədəni əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində Azərbaycan lazım olan bütün addımları atır [5, s.5-6].

Hazırda Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş qardaşlıq münasibətləri özünün ən yüksək mərhələsini yaşayır. Bu isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın yürütdüyü müdrik və uzaqgörən siyasətinin birbaşa nəticəsidir. 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın dövlət başçılarının Zirvə Görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası təsis edildi [6]. Daha sonrakı illərdə Türk Dövlətləri Təşkilatına çevrilən təşkilata Özbəkistanın tam hüquqlu üzv, Türkmənistan,

Macarıstan və Şimali Kipr Türk Respublikasının isə müşahidəçi olaraq qatılması, türk birliyinin formalaşması və türk dövlətlərinin bir-biri ilə yaxınlaşması baxımından atılan bu önəmli addımlar Heydər Əliyev ideyalarının bariz təcəssümünə çevrildi.

Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud olan yüksək səviyyəli əlaqələr, dostluq və qardaşlıq münasibətləri dərin tarixi köklərə söykənir. Hər iki xalqın eyni dinə, dilə, ortaq mədəniyyətə və adət-ənənələrə malik olması ölkələrimiz arasında münasibətləri daim gücləndirmiş və ən yüksək səviyyəyə çıxarmışdır. Türkiyə ilə Azərbaycan həm sevincli, həm də kədərli günlərdə daim bir-birilərinin yanında olmuşlar. Azərbaycan 1991-ci ildə yenidən öz müstəqilliyini qazandıqdan sonra məhz Türkiyə Azərbaycanı tanıyan ilk dövlət olmuşdur [4, s.36].

İki ölkə arasındakı münasibətlərin inkişafında Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Azərbaycan ilə Türkiyə arasındakı münasibətləri "Bir millət, iki dövlət" kimi xarakterizə edən ulu öndər iki qardaş ölkə arasında əlaqələrin inkişaf etməsi istiqamətində böyük əmək sərf etmişdir. Heydər Əliyevin "Bir millət, iki dövlət" tarixi tezisi zamanın çətin sınaqlarından keçərək öz həqiqiliyini, həyatiliyini və zəruriliyini sübut etmiş, etnik kökləri, dili, dini və adət-ənənələri bir olan xalqlarımızın birliyi və inkişafının hərəkətverici qüvvəsidir.

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında bütün sahələrdə, o cümlədən iqtisadi və mədəni sahələrdə mövcud olan əlaqələr ildən ilə daha da inkişaf etməkdədir. Ulu öndər Heydər Əliyevin uzaqgörən tövsiyələrinə uyğun olaraq hər iki ölkə geniş təsir imkanları olan, qarşılıqlı fayda gətirən, bölgədə sülhü təmin edən, əmin-amanlığa və qarşılıqlı mədəni inteqrasiyaya xidmət göstərən bir çox beynəlxalq layihələr həyata keçirmiş və yenilərinin üzərində işləməkdədir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev (1991-2001-ci illər) 1-ci kitab, M.C.Mərdanov, Bakı, 2002, 180 s.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 1998, 488 səh.
3. Heydər Əliyev və Şərq. 6 cilddə, III kitab: Türkiyə Cümhuriyyəti (Müəllif-tərtibçilər: Qaley Allahverdiyev, Vəhdət Sultanzadə). Bakı, "Çaşıoğlu", 2003, 472 s.
4. Hüseynova F. Müstəqillik dövründə Azərbaycan – Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). Bakı, 2007, 302 səh.
5. Məmmədov N. Xalq qəzeti. 2010-cu il, 9 may, s.5-6.
6. Naxçıvan zirvə görüşü türkdilli ölkələrin birliyini daha da gücləndirəcəkdir. Azərbaycan. – 2009. – 4 oktyabr. – s. 1, 2.
7. **Daxilqızı N.** Azərbaycan xalqı yeganə nicat yolunu Heydər Əliyevin hakimiyyətə qayıdışında görürdü. 24.06.22, https://bakivaxti.az/az/posts/detail/azerbaycan-xalqi-yegane-nicat-yolunu-heyder-eliyevin-hakimiyyete-qayidisinda-gorurdu-1656055386
8. Tağıyev A. Azərbaycan-Türkiyə birliyi: dostluq və qardaşlıq nümunəsi! 22.08.20, https://525.az/?name=xeber&news_id=147972

**Elchin Gafarli**

## ISSUES OF RELATIONSHIP TO HAYDER ALIYEV AND COMMON VALUES OF TURKEY-AZERBAIJAN

**Summary:** The interest in the political legacy of the Great Leader Heydar Aliyev, a wise politician and a bright personality, is increasing over the years. In particular, Heydar Aliyev had wide fame and significant influence among the Turkic peoples. While working in the leadership positions of

the Soviet state, he won the people's great respect with the important projects that he directly headed and successfully implemented in the Turkish republics.

The fraternal relations between the Republic of Azerbaijan and the Republic of Turkey, founded by the Great Leader Heydar Aliyev, are experiencing their highest stage. This is a direct result of the wise and visionary policy of the President of the Republic of Azerbaijan, Ilham Aliyev, and the President of the Republic of Turkey, Recep Tayyip Erdogan. On October 3, 2009, at the Summit Meeting of the Heads of State of Azerbaijan, Turkey, Kazakhstan, and Kyrgyzstan held in Nakhchivan, the Cooperation Council of Turkic-Speaking States was established. In later years, Uzbekistan became a full member of the Organization of Turkic States, and Turkmenistan, Hungary, and the Turkish Republic of Northern Cyprus joined it as observers. These crucial steps taken regarding the formation of Turkish unity and the rapprochement of Turkish states became a clear embodiment of Heydar Aliyev's ideas.

Relations between the Republic of Azerbaijan and the Republic of Turkey in all fields, including economic and cultural areas, are developing year by year. By the visionary recommendations of Great Leader Heydar Aliyev, both countries have implemented many international projects that have broad influence, bring mutual benefits, ensure peace in the region, serve peace and joint cultural integration, and are working on new ones.

**Açar sözlər:** Heydər Əliyev, Türkiyə-Azərbaycan, “Bir millət, iki dövlət”, xarici siyasət, beynəlxalq münasibətlər

**UOT:32**

**Etibar Musayev**
**Gəncə Dövlət Universiteti,**
**tarix üzrə fəlsəfə doktoru, dosent**
**E-mail:etibaradiloglu@mail.ru**

# SSRİ-də TOTALİTAR İDEOLOJİ ŞƏRAİTİNDƏ MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİN DİRÇƏLDİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Xülasə:** Azərbaycan xalqının milli mənəvi dəyərləri içərisində xüsusi yer tutan İslam dini də aprel çevrilişindən sonra bolşeviklər tərəfindən vandalcasına kəskin və ağır zərbələrə məruz qalmışdır. Min ildən artıq bir müddət ərzində xalqımızın daxili dünyasına nur saçan mədrəsələrin fəaliyyəti qadağan olunmuş, şəriət hökmlərinin yerinə yetirilməsi yasaqlanmış, ruhanilər isə maddi və mənəvi repressiyalara məruz qalmışdılar. Sovet imperiyasının Azərbaycan xalqının əleyhinə apardığı siyasət nəticəsində Azərbaycan Respublikasında bütün sahələrdə olduğu kimi, mənəvi sahədə də böhran hökm sürməkdə idi. Artıq 1960-cı illərdə bu böhran özünün kulminasiya nöqtəsinə çatmışdı. Ancaq tarixin əvvəlki dönəmlərində olduğu kimi, sovetlər dövründə də xalqı düşdüyü ağır vəziyyətdən xilas etmək üçün güclü bir şəxsiyyətə, ağıllı və müdrik bir liderə ciddi ehtiyac var idi. 1969-cu ilin avqust ayında Azərbaycan Respublikasının rəhbərliyində mühüm kadr dəyişikliyi baş verir: Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın I katibi vəzifəsinə seçildikdən sonra bu sahədə əsaslı işlər aparıldı. Məqalədə SSRİ-də totalitar ideoloji şəraitində milli mənəvi dəyərlərin dirçəldilməsində Heydər Əliyevin rolu barədə müfəssəl məlumat verilmişdir.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, totalitar ideologiya, dövlət siyasəti, milli mənəvi dəyərlər

Artıq 1920-ci il aprel ayının 28-də baş verən dövlət çevrilişindən bir il sonra daşnak və bolşeviklər tərəfindən Azərbaycanda 50 minə yaxın say-seçmə soydaşlarımız qətlə yetirilmiş, minlərlə həmvətənlimiz mühacirət etmək məcburiyyəti qarşısında qalmışdır [8, s.9]. Bütün bunların nəticəsində isə xalq özünün milli mənəvi sərvətindən – ziyalı təbəqəsindən məhrum olmuşdu. Aparılan terror əməliyyatlarında minlərlə əlyazmalar, Azərbaycanın zəngin milli mənəvi dəyərlərə malik olmasını əks etdirən qədim əşyalar müsadirə olunaraq məhv edilmiş, tarixi abidələr və milli arxitektura üslubunu nümayiş etdirən binalar dağıdılmış və yaxud hissə-hissə bölünərək əsasən qeyri millətlərdən olan batraklara və proletariata məxsus təbəqəyə verilmişdir.

Azərbaycan xalqının milli mənəvi dəyərləri içərisində xüsusi yer tutan İslam dini də aprel çevrilişindən sonra bolşeviklər tərəfindən vandalcasına kəskin və ağır zərbələrə məruz qalmışdır. Min ildən artıq bir müddət ərzində xalqımızın daxili dünyasına nur saçan mədrəsələrin fəaliyyəti qadağan olunmuş, şəriət hökmlərinin yerinə yetirilməsi yasaqlanmış, ruhanilər isə maddi və mənəvi repressiyalara məruz qalmışdılar. Məscidlər, pirlər, dini xidmət edən məqbərələr, milli memarlıq üslubunda inşa olunmuş uca minarələr dağıdılaraq yerlə yeksan edilmişdir. Məscidlərin böyük bir qismi isə anbara, heyvan damına, idarəyə və ən nəhayət şərab ticarətilə məşğul olan ermənilərin satış yerinə çevrilmişdi [3, s.11].

Bir diqqətəlayiq cəhəti də qeyd edək ki, rus bolşeviklərinin və erməni daşnaklarının Azərbaycanda törətdikləri cinayətlərə qarşı baş verən üsyanlara başçılıq edən şəxsiyyətlərin əksəriyyəti ruhanilər olmuşlar. Hətta onlar bir neçə dəfə Azərbaycanda Sovet hakimiyyətini devirmək cəhdlərinə də əl atmışlar [7, s.64].

Sovet rəhbərləri yaxşı bilirdilər ki, milli mənəvi dəyərlər yaşadıqca bu xalq Oktyabr inqilabına laqeyd münasibət bəsləyəcəkdir. Buna görə də 1924-cü ildə müsəlmanlarla məşğul olan xüsusi bir təşkilat

yaradıldı ki [4, s.65], bu təşkilat da milli mənəvi dəyərlərlə və xüsusilə min ildən artıq bir müddət onun ayrılmaz hissəsinə çevrilmiş İslam dininə qarşı mübarizə aparmaqla məşğul olurdu.

O illərdə İslam dini ilə heç bir əlaqəsi olmayan, daha dəqiq desək İslama qədərki milli mənəvi dəyərlər də təqiblərə məruz qalmışdır. Azərbaycan xalqının kökləri qədim Zərdüşt dininə bağlı olan Novruz bayramının da keçirilməsi qadağan edilmişdi ki, bunun da əsas səbəbi "əksinqilabi xarakterə malikdir" damğasının vurulması olmuşdur. Bununla yanaşı xalqın yaratdığı bəzi musiqi alətləri, şifahi xalq yaradıcılığı, real həyat həqiqətlərinin bədii ifadəsinə xidmət edən mifik personajlar da bolşeviklər tərəfindən haqsız və qərəzli tənqidlərə məruz qalmışdır. İş o yerə gəlib çatmışdır ki, Vətənə və xalqa düşmən kəsilmiş bir ovuc adamlar Azərbaycan xalqının ən əziz və qədim milli musiqi aləti olan tarla bağlı "tarın məhkəməsi" başlığı altında "diskussiya" keçirmişdi [2, s.177]. Qeyd etmək lazımdır ki, zəngin mədəni sərvətlərin məhvi üçün 1920-ci ildən başlanan kompaniya 1960-cı illərin axırlarına qədər maneəsiz davam etdirilmişdir.

Sovet imperiyasının Azərbaycan xalqının əleyhinə apardığı siyasət nəticəsində Azərbaycan Respublikasında bütün sahələrdə olduğu kimi, mənəvi sahədə də böhran hökm sürməkdə idi. Artıq 1960-cı illərdə bu böhran özünün kulminasiya nöqtəsinə çatmışdı. Ancaq tarixin əvvəlki dönəmlərində olduğu kimi, sovetlər dövründə də xalqı düşdüyü ağır vəziyyətdən xilas etmək üçün güclü bir şəxsiyyətə, ağıllı və müdrik bir liderə ciddi ehtiyac var idi.

1969-cu ilin avqust ayında Azərbaycan Respublikasının rəhbərliyində mühüm kadr dəyişikliyi baş verir: Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın I katibi vəzifəsinə seçilir [2, s.263].

Tarix boyu Azərbaycan xalqının mənəvi həyatında misilsiz rol oynamış, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra isə bərbad hala salınmış, məscid, mədrəsə, məktəb-məscid, xanəgah, ribat, pir və sair kimi dini abidələr 1970-ci illərdən başlayaraq əsaslı surətdə təmir edilmiş və Mədəniyyət Nazirliyinin balansına verilərək dövlət tərəfindən mühafizə olunmuşdur [10, s.15].

1975-ci ildə Suraxanı atəşgahı, Şirvanşahlar sarayı bərpa olunmuşdur. Bütün bunlar onu göstərir ki, 1970-80-ci illərdə Azərbaycan Respublikasında aparılmış quruculuq işlərində Moskva deyil, Heydər Əliyev şəxsiyyəti əsas rol oynamışdır.

Arxeoloji sahədə də böyük işlər görülmüşdür. 1972-1974-cü illərdə Azıx mağarasından ən mühüm materialların əldə edilməsini, 1975-1981-ci illərdə isə 11-ci mədəniyyət qatının aşkara çıxarılmasını, Qobustanda və başqa yerlərdə arxeoloji qazıntıları göstərmək olar [9, s.6].

1960-cı illərin əvvəllərində açıq şəkildə fəaliyyətə başlayan ermənilərin "Qarabağ komitəsi" adlı mürtəce təşkilatı A.Mikoyanın və M.Suslovun himayəsi altında Alban abidələrinin ermənilərə məxsus olduğunu, bu abidələrin öyrənilməsi və qorunmasının Ermənistan Respublikasına tapşırılması məsələsini qaldırmışdı [2, s.248]. Lakin Heydər Əliyev Azərbaycan xalqına mənsub olan Alban və başqa xristianlıq dövrü ilə əlaqəli şəkildə yaranmış mənəvi dəyərlərin təhrif edilməməsi və qorunub saxlanılması üçün cəsarətli addımlar atdı.

Qeyd etmək lazımdır ki, o illərdə Azərbaycanda mədəni və arxeoloji əhəmiyyət kəsb edən 967 abidəyə rəsmi şəkildə dövlət qoruğu statusu verilmiş, 6571 tarixi abidə isə dövlət qeydiyyatına götürülmüşdür. Bununla Azərbaycan xalqının milli mənəvi sərvəti hesab olunan ümumbəşəri əhəmiyyətə malik abidələrin düşmənlər tərəfindən mənimsənilməsinin və məhv edilməsinin ciddi şəkildə qarşısı alınmışdır.

1970-80-ci illərdə Azərbaycanda incəsənətin inkişafı böyük vüsət aldı. O vaxt Heydər Əliyevin yaratdığı uzunömürlü siyasi abı-havanın sayəsində ilk növbədə rəssamlar və heykəltəraşlar vaxtı ilə baş verən müxtəlif təzyiqlər altında kommunizm ideyalarına xidmətdən yaxa qurtararaq milli rəngkarlığı ən gözəl nümunələri ilə yüksək mənəvi dəyərləri tərənnüm edən yüzlərlə əsər yaratmağa nail ola bilmişdi. Bunlardan Səttar Bəhlulzadənin, Tahir Salahovun, Mikayıl Abdullayevin, Toğrul Nərimanbəyovun, Vəcihə Səmədovanın, Maral Rəhmanzadənin, Ömər Eldarovun, İbrahim Zeynalovun, Mirələsgər Mirqasımovun və başqalarının adlarını çəkmək olar.

Heydər Əliyevin tapşırığı ilə Azərbaycan dramaturgiyasının banisi Cəfər Cabbarlının şərəfinə 1969-cu ildə memorial abidə yaradılmış, 1970-ci ildə xüsusi medal təsis olunmuş, 1982-ci ildə Bakıda onun heykəli ucaldılmışdı. Habelə, 1970-ci ildə Ağdamda Xurşidbanu Natəvanın, 1973-cü ildə Zərdabda H.B.Zərdabinin, 1974-cü ildə Naxçıvanda C.Məmmədquluzadənin 1976-cı ildə Gəncədə Nizami Gəncəvinin [5, s.107], 1979-cu ildə Bakıda Nəsimini və bu kimi Azərbaycan xalqının milli mənəvi dəyərlərini formalaşdıran, nəticədə milli-mənəvi sərvətimizə çevrilmiş digər görkəmli mütəfəkkirlərə heykəllər qoyulmuşdu.

Artıq dövlət müəssisəsi hesab olunan "Azərxalça" birliyi də istehsal etdiyi xalçaların üzərində milli mənəvi dəyərləri tərənnüm etdirməyə başlayır. Belə ki, 1972-ci ildə üzərində Azərbaycanın böyük filosof şairi Nəsiminin, 1975-ci ildə "Şəbi-hicran" adlı ornamental portret, 1976-cı ildə Əcəmi Naxçıvaninin və başqa görkəmli şəxslərin portretləri olan xalçalar istehsal olunur.

O illərdə Azərbaycanın milli mənəvi dəyərlərinin bir hissəsini təşkil edən milli musiqi sənəti də böyük dirçəliş və inkişaf yoluna qədəm qoyur. Fikrət Əmirov 1971-ci ildə "Şur" və "Kürd ovşarı", "Gülüstan" və "Bayatı-Şiraz" simfoniyalarını, 1979-cu ildə xalq rəqslərinin oynaq ruhunu daha çox ifadə edən "Min bir gecə" baletini və bu kimi onlarla əsərlər yaratmağa nail olmuş, 1974-cü ildə isə bu böyük sənətkar SSRİ Bəstəkarlar İttifaqının katibi vəzifəsinə seçilmişdir [1, s.4, 20].

Tofiq Quliyev 1973-cü ildə Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi seçilmişdir [1, s.7, 105]. "Leyli və Məcnun" simfonik poemasının, "Yeddi gözəl", "İldırımlı yollarla" baletlərinin, aşıq və muğam sənəti xüsusiyyətləri ilə zəngin olan simli kvartet musiqilərinin müəllifi Qara Qarayev 1978-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına [1, s.3, 59], "Torpağın səsi", "Vətən və Füzuli" kimi simfonik əsərlər yaradan Arif Məlikov isə 1978-ci ildə Azərbaycan SSR-in xalq artisti adına layiq görülmüşlər [1, s.6, 489].

Heydər Əliyevin Azərbaycan xalqının milli mənəvi dəyərlərinə olan sevgisi, diqqət və sədaqəti həmin illərdə muğam sənətinin yeni dirçəliş və inkişaf mərhələsinə qədəm qoyması ilə bir daha özünü qabarıq şəkildə göstərir.

Kinematoqrafiya sahəsi də bu illərdə inkişaf etməyə başladı. 1969-cu ildə "Dəli Kür", 1970-ci ildə "Bizim Cəbiş müəllim", "Yeddi oğul istərəm", 1971-ci ildə "Axırıncı aşırım", 1973-cü ildə "Nəsimi", 1975-ci ildə "Dədə Qorqud", 1979-cu ildə "Babək" və başqa bu kimi filmlər çəkilmişdir. Bundan başqa, milli-mənəvi dəyərlərin daşıyıcılarına çevrilən klassik və müasir ədib və dramaturqların yüzlərlə səhnə əsərləri tamaşaya qoyulmuşdur [6, s.97].

Kommunist totalitarizmi tərəfindən məhv və təhqir edilmiş Azərbaycan xalqının milli mənəvi dəyərlərini məhz həmin rejimin dəyənəyi altında böyük vətənpərvərlik və məharətli siyasətlə dirçəldən Heydər Əliyev 1982-ci ildə aparılan bu prosesi kulminasiya nöqtəsinə çatdırdı.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Sovet Ensiklopediyası. Bakı: Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyası, 1976-1987.

2. İsmayılov E., Həsənov C., Qafarov T. Azərbaycan tarixi. Dərslik (1918-1993) Bakı: Öyrətmən, 1995, 351 s.

3. Nemət M. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 102 s.

4. Səttarov M. İslam dini qalıqları. Bakı: Elm, 1967, 180 s.

5. Алиев Г.А. Советский Азербайджан. Баку: Политиздат, 1982, 175 с.

6. Алиев А. Кино вчера и сегодня. Культура Советского Азербайджана. Баку: Азернешр, 1980, 181 с.

7. Токаржевски Е. Из истории иностранной интервенсии и гражданской войны в Азербайжане. Баку: Елм, 1957, 279 с.

8. http://www.azmif.com. Репрессия в Азербайджане. 31 с.

9. http://humanities.edu.ru/ Азербайджан принадлежит к издревне заселенным территориям и является одной из прародин человека. 20 с.

10. http://ru/countries_about/461/801.html. Мамедова И. Музей истории Азербайджана. Министерство Культуры Азербайджана /1998-01-01/, 18 с.

**Etibar Musayev**

## NATIONAL SPIRITUAL VALUES IN THE CONDITIONS OF TOTALITARIAN IDEOLOGY IN THE USSR HAYDER ALIYEV'S ROLE IN ITS REVIVAL

**Summary:** The Islamic religion, which has a special place among the national moral values of the Azerbaijani people, was subjected to sharp and severe blows by the Bolsheviks after the April Revolution. For more than a thousand years, the activities of madrassas, which shed light on the inner world of our people, were banned, the implementation of Sharia rules was prohibited, and the clergy were subject to financial and moral repression. As a result of the policy of the Soviet Empire against the people of Azerbaijan, a crisis was prevailing in the spiritual sphere as well as in all spheres of the Republic of Azerbaijan. Already in the 1960s, this crisis had reached its climax. However, as in previous periods of history, in the Soviet era, there was a serious need for a strong personality, and an intelligent and wise leader to save the people from the difficult situation they were in. In August 1969, an important personnel change took place in the leadership of the Republic of Azerbaijan: after Heydar Alirza Aliyev was elected to the position of the First Secretary of the Central Committee of the Communist Party of Azerbaijan, fundamental works were carried out in this field. The article provides detailed information about the role of Heydar Aliyev in the revival of national moral values in the totalitarian ideological conditions of the USSR.

**Key words:** Heydar Aliyev, Azerbaijan, totalitarian ideology, state policy, national moral values

**УДК 327**

**Гульшан Алиева-Кенгерли**
**Азербайджанский Государственный Университет Культуры И Искусств**
Доктор филологических наук, профессор
E-mail: gulshan.aliyeva@admiu.edu.az
**Ляйля Калиакбарова**
Казахская Национальная Консерватория имени Курмангазы
Кандидат педагогических наук (PhD), профессор искусствоведения
E-mail: lkaliakbarova@mail.ru
**Айсулу Калдаякова**
Казахская национальная консерватория имени Курмангазы
Доктор PhD старший преподаватель
E-mail: a.kaldayakova@inbox.ru

## РОЛЬ Г.АЛИЕВА В ИНТЕГРАЦИИ АЗЕРБАЙДЖАНА В ТЮРКСКИЙ МИР

**Резюме:** Столетиями исчисляется дружеские связи Азербайджана и Казахстана. Отношения между нашими странами всегда были теплыми и искренними, оказывающими друг другу взаимную поддержку. А дипломатические отношения между Азербайджаном и Казахстаном были установлены 30 августа 1992 года. 9 января 1993 года в Азербайджанской Республике открылось посольство Республики Казахстан, а с 1 марта 2004 года в Республике Казахстан начало действовать посольство Азербайджанской Республики. 6 сентября 2008 года в городе Актау начало работу консульство Азербайджанской Республики. Более тесная дружба и сотрудничество между Азербайджаном и Казахстаном начались с приобретением независимости, когда обе страны признали независимость друг друга и установили дипломатические отношения. Именно Гейдар Алиев сделал первый шаг в их укреплении, посетив Казахстан с официальным визитом. Этот визит в дальнейшем сыграл важную роль в развитии двусторонних отношений между двумя братскими народами. Не будет преувеличением сказать, что Гейдар Алиев является основоположником культурной политики Азербайджана и Казахстана. Эта благородная политика в сфере культуры была успешно продолжена Президентом Ильхамом Алиевым, который продолжил путь дальнейшего развития взаимного сотрудничества.

**Ключевые слова:** Гейдар Алиев, Казахстан, официальный визит, дипломатические отношения, Азербайджанская Республика.

Столетиями исчисляется дружеские связи Азербайджана и Казахстана. Отношения между нашими странами всегда были теплыми и искренними, оказывающими друг другу взаимную поддержку. А дипломатические отношения между Азербайджаном и Казахстаном были установлены 30 августа 1992 года. 9 января 1993 года в Азербайджанской Республике открылось посольство Республики Казахстан, а с 1 марта 2004 года в Республике Казахстан начало действовать посольство Азербайджанской Республики. 6 сентября 2008 года в городе Актау начало работу консульство Азербайджанской Республики. Более тесная дружба и сотрудничество между Азербайджаном и Казахстаном начались с приобретением независимости, когда обе страны признали независимость друг друга и установили дипломатические отношения. Именно Гейдар Алиев сделал первый шаг в их укреплении, посетив Казахстан с официальным визитом. Этот визит в дальнейшем сыграл важную роль в развитии двусторонних отношений между двумя братскими народами. Не будет преувеличением сказать, что Гейдар Алиев является основоположником культурной политики Азербайджана и Казахстана. Эта благородная политика

в сфере культуры была успешно продолжена Президентом Ильхамом Алиевым, который продолжил путь дальнейшего развития взаимного сотрудничества.

Одна из первых встреч Президента Азербайджана Гейдара Алиева с Президентом Казахстана Нурсултаном Назарбаевым произошла 19 октября 1994 года. Гейдар Алиев и Нурсултан Назарбаев, принявшие участие во второй встрече глав тюркских государств на высшем уровне, встретились и обсудили перспективы развития отношений между двумя странами. В ходе встречи было принято решение об установлении азербайджано-казахстанских отношений как в рамках отношений тюркских государств, так и на двусторонней основе.

Следующая встреча Гейдара Алиева с Нурсултаном Назарбаевым состоялась 9 февраля 1995 года на саммите глав государств СНГ в Алматы. В том же году Гейдар Алиев, участвовавший в праздновании 50-летия победы над фашизмом, вновь встретился с Нурсултаном Назарбаевым. 25 октября 1995 года Президент Гейдар Алиев и Президент Нурсултан Назарбаев встретились и обсудили вопросы, представляющие взаимный интерес, на мероприятии, проведенном в связи с 50-летием ООН. На встрече Гейдара Алиева и Нурсултана Назарбаева еще раз были обсуждены перспективы азербайджано-казахстанских отношений.

Поскольку азербайджанский и казахский народы являются исторически, культурно и традиционно связанными народами, нет никаких препятствий для расширения культурных связей. После того, как оба народа обрели независимость, эти отношения стали более интенсивными. С 1980-х годов в Азербайджане издаются знаменитая книга «Аз-Я», стихи и статьи Олжаса Сулейменова, одного из самых выдающихся поэтов XX века, донесшего миру свой истинный голос в трудные годы Азербайджана.

10 июня 1997 года Президенту Азербайджана Гейдару Алиеву был вручен диплом почетного доктора Казахского национального государственного университета имени аль-Фараби.

В 1998 году Г.Алиев был награжден государственной медалью «Астана» за заслуги в развитии дружественных отношений с Казахстаном. В апреле 2000 года Президент Казахстана Н.Назарбаев принял участие в праздновании 1300-летия эпоса «Китаби-Деде Горгуд» в Баку.

1 марта 2004 года Правительство Азербайджанской Республики и Правительство Республики Казахстан подписали в Астане долгосрочную программу сотрудничества в области культуры, науки и туризма.

25 сентября 2006 года в Джамбульской области Казахстана был создан Азербайджанский культурный центр «Насими». 28 октября 2009 года в посольстве Казахстана состоялось мероприятие по случаю 15-летия Общества дружбы «Азербайджан-Казахстан» имени Гейдара Алиева. В 2008 году Азербайджан посетили заместитель министра культуры и информации А.Бурибаев, видный общественный деятель О. Сулейменов, генеральный директор ТЮРКСОЙ Д. Касеинов и другие деятели культуры.

С июня 2007 года в Казахстане издается газета азербайджанской диаспоры «Ватан». Подписана Совместная декларация между городами Сумгаит и Актау об установлении побратимских отношений. Эти страны также расширяют свои отношения в рамках организации ТЮРКСОЙ, играющей большую роль в расширении культурно-гуманитарного сотрудничества между тюркоязычными странами.

Азербайджан и Казахстан являются странами-стратегическими партнерами. Азербайджан-Казахстан работают вместе и сотрудничают на международной арене. Именно благодаря такому стратегическому подходу между Азербайджаном и Казахстаном за эти годы не было никаких проблем, и страны смогли за короткий промежуток времени прийти к соглашению о правовом статусе Каспийского моря. Азербайджан и Казахстан также сотрудничают по реализации ряда транспортных проектов. Казахстан является ближайшим партнером Азербайджана в Центральной Азии. 27 октября 2006 года Азербайджан поддержал это предложение на специальном пленарном заседании Постоянного совета ОБСЕ в Вене по вопросу председательства Казахстана в ОБСЕ в 2009 году. 5 декабря 2006 года Министр иностранных дел Азербайджанской Республики в своем выступлении на Совете Министров ОБСЕ в Брюсселе еще раз отметил, что Азербайджан поддерживает председательство Казахстана в ОБСЕ в 2009 году.

Отношения между народами Азербайджана и Казахстана основаны на сходстве языка, культуры, единстве религий, исторических корнях. Углублению и расширению сотрудничества

способствуют интенсивное взаимодействие в сфере высшего образования, культурно-гуманитарных областях. Как подчеркивал великий казахский писатель Олжас Сулейменов «нас роднит атмосфера единого нравственного пространства».

Нельзя не отметить факт плодотворного сотрудничества в рамках Тюркского совета. Обе страны поддерживают реализацию совместных проектов по популяризации тюркской истории и культуры. На состоявшемся в октябре 2019 года в Баку VII саммите глав государств Тюркского совета были приняты важные решения, касающиеся развития организации. Осуществляются совместные проекты по популяризации и исследованию культурных ценностей наших государств-членов ТЮРКСОЙ.

Периодически проводятся Дни культуры Азербайджана в Казахстане и Казахстана в Азербайджане, во время которых демонстрируются достижения страны в области культуры, проходят художественные выставки, музыкальные концерты, показ фильмов, различные концерты, международные конференции, презентации, выставки, творческие встречи и другие мероприятия.

В целях развития культурных связей в 1993 году в Баку создано общество дружбы «Азербайджан-Казахстан». С того времени независимые братские республики достигли нового уровня двустороннего сотрудничества. Общество объединило писателей из двух стран, народных артистов, художников, музыкантов, кинематографистов и других представителей искусства и культуры. Отрадно, что под эгидой Общества дружбы известный кинорежиссер Азербайджана Октай Миркасимов снял документальный фильм «Тяжелые годы... Хорошее счастье», который воспевает толерантность, гостеприимство, милосердие и гуманизм казахского народа.

С 2011 года функционирует Центр казахского языка, истории и культуры имени Абая Кунанбаева при Бакинском государственном университете. Среди последних событий в культурно-гуманитарной сфере в 2021 году следует отметить перевод азербайджанскими писателями А.Айвазовой, Э.Гулиевым, Н.Абдулрахманлы, Э.Караханлы, И.Ильяслы книг великого казахского поэта и мыслителя Абая, а также награждение Президентом И.Алиевым казахского писателя О.Сулейменова орденом «Шараф», за вклад в развитие культурных связей между двумя странами.

Для нас авторов статьи, как представителей высшей образовательной школы важно активное развитие сотрудничества между вузами Казахстана и Азербайджана, в частности между Азербайджанским университетом культуры и искусства и Казахской национальной консерваторией имени Курмангазы. На регулярной основе проводится обмен студентами для прохождения обучения и научной стажировки в образовательных учреждениях Казахстана и Азербайджана в рамках академической мобильности.

Решая задачи по совершенствованию содержания подготовки и профессиональных компетенций обучающихся-музыкантов на международном уровне ППС кафедры «Музыкальное образование и психология» Казахской национальной консерватории имени Курмангазы и Азербайджанский государственный университет культуры и искусства (АГУКИ) в 2017 году заключили договор о международном сотрудничестве в сфере образования и науки. Инициатором взаимного сотрудничества явился Азербайджанский государственный университет культуры и искусств (АГУКИ) в лице его экс-ректора, профессора Фарах Алиевой. В рамках сотрудничества обоими ведущими вузами Казахстана и Азербайджана обсуждались вопросы разработки проекта совместного учебного плана по музыкальному образованию с целью развития международной академической мобильности между КНК им.Курмангазы и АГУКИ, обновления программ актуальными дисциплинами, направленными на подготовку современного учителя музыки.

В результате освоения новых дисциплин у будущих учителей музыки формируются производственно-технологические, методические, исполнительские, просветительские,

профессиональные, информационные, личностные, организационно-управленческие, проектные, воспитательные, коммуникативные, педагогические компетенции, позволяющие преподавать в современных школах обеих стран.

В рамках круглого стола КНК им.Курмангазы и АГУКИ (г.Баку) на тему «Современные теоретические и практические проблемы в музыкальном образовании Азербайджана и Казахстана» была публично представлена авторская Концепция развития музыкального образования в Казахстане (автор, профессор искусствоведения РК Калиакбарова Л.Т.). Суть Концепции заключена в том, что в происходящих сегодня политических, макроэкономических процессах в Казахстане очень важна духовная составляющая казахского народа. Именно она придает силу и веру в нерушимость независимого Казахстана, являясь шагом навстречу будущему становлению единой Нацией сильных и ответственных людей. Безусловно, что культура тесно связана с общим стремлением к интеграции в мировое пространство, с учетом современных тенденций его развития.

Культура и искусство имеют важное значение в формировании имиджа как Казахстана, так и Азербайджана на мировой арене, укрепляя их международный престиж. Функционирование культуры и искусства невозможно без системы музыкального образования, формирующего творческих деятелей с одной стороны, и художественную аудиторию – с другой. Оба творческих университета: Консерватория и Азербайджанский государственный университет культуры и искусств в рамках взаимодействия сосредоточили свою деятельность на развитии, актуализации и модернизации в обеих странах образовательных программ «Музыкальное образование» и «Учитель музыки». Мы считаем, что необходимость трансформации в подготовке специалистов вызвана общностью проблем в сфере культурного строительства в странах СНГ. Эти проблемы связаны с глобальными вызовами современности и наболевшими вопросами в развитии музыкального образования на постсоветском пространстве.

Одна из важнейших задач сотрудничества творческих вузов состоит в усилении интеллектуальных ресурсов путем воспитания у молодежи художественной подготовки. Музыка – наилучший путь к жизненному успеху! Реализация в решении поставленных вопросов может стать основой для укрепления статуса Казахстана и Азербайджана в мировом сообществе, как значимых государств в сфере образования, культуры и искусства.

Актуализация общего музыкального образования в школах Казахстана и Азербайджана поможет уже с ранних лет привить детям любовь к прекрасному. Через искусство дети лучше понимают сложность мира и бытия. Психологи утверждают, что дети, которые с малых лет знают, что такое красота, не способны ни на радикализм, ни на разрушение общества. На решение данных задач направлена основная идея КНК им. Курмангазы и АГУКИ в подготовке будущих педагогов-музыкантов.

Указанные выше приоритеты в сфере музыкального образования имеют государственное значение как в воспитании нового поколения культурных граждан, так и в развитии культурной политики Казахстана и Азербайджана.

Авторы статьи надеются на дальнейшее развитие дружеских отношений во всех областях и еще большее сближение наших народов. У двух стран есть огромный потенциал для культурного сотрудничества и научно-образовательного развития. В формате многосторонних связей, на площадках международных конференций и дискуссий мы стараемся доказывать, что связи между Азербайджаном и Казахстаном способствуют не только миру и стабильности в нашем регионе, но и являются примером плодотворного сотрудничества в международном пространстве в целом.

**Gulshan Aliyeva-Kangerli**
**Lyailya Kaliakbarova**
**Aisulu Kaldayakova**

## H. ALIYEV'S ROLE IN AZERBAIJAN'S INTEGRATION INTO THE TURKIC WORLD

**Summary:** A state is as an organized community created throughout the history of mankind. Nations established their states at different times and faced various challenges along the way to building and developing a state. States pass through the processes of formation, prosperity, and decline. There is one significant and fundamental aspect that outweigh these stages. The concept of "state and leader" has a vital importance.

It is commonly assumed that back in 20th century the concepts of “state” and “personality” turned into a single idea of the “national leader” and the period brought unparalleled change and the most influential leaders. Therefore, it can be stated that the concepts of state and national leader are the phenomena of the new era. Heydar Aliyev, the National Leader of Azerbaijan is one of the most prominent politicians and statesmen.

It is an indisputable fact that an entire period of the most recent history of Azerbaijan is directly connected with the name of the great leader Heydar Aliyev. Because the era itself was created by Heydar Aliyev. He devoted his life, time, and energy to the development of Azerbaijan, was the initiator and architect of drastic reforms in all areas. Just like in all other fields, his ingenious foresight, competences, and skills left a deep and indelible mark in our culture.

It is no exaggeration to say that the national leader is the founder of Azerbaijan's cultural policy. The policy pursued by Heydar Aliyev in the sphere of culture has been successfully continued by the President Mr. Ilham Aliyev who paved the way for further development.

**Key words:** Heydara Aliyev, Kazakhstan, official visit, diplomatic relations, Azerbaijan Republic

**UOT:002**

**Gülxarə Əhmədova**
**Naxçıvan Dövlət Universiteti**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: gulxareehmedova1966@gmail.com**

# HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİYYƏTƏ QAYĞI MƏSƏLƏSİ

**Xülasə:** XX əsr Azərbaycan mədəniyyətinin bütün sahələrinin sürətli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin rəhbərlik etdiyi Azərbaycanın müstəqillik dövrlərdə sadəcə, siyasi-iqtisadi deyil, eyni zamanda mədəni və ədəbi irsimizə, təsviri sənətə, teatr, musiqi və kino sənətinə yüksək qayğı göstərilmişdir.

Heydər Əliyev sadəcə mükəmməl dövlət başçısı deyildi, həm də vətənpərvər, humanist bir ziyalı idi. Heydər Əliyevin milli mədəniyyətə göstərdiyi diqqət, verdiyi dəyər bu sahədə yeni dövrün başlanğıcı kimi qiymətləndirilməlidir. Onun rəhbərliyi dövründə mədəniyyət sahəsi çiçəklənmə dövrünü yaşamağa başladı. Bu gün də bu siyasət mükəmməl şəkildə davam etdirilir.

**Açar sözlər:** Heydər Əliyev, mədəniyyət, incəsənət, Azərbaycan, azərbaycançılıq

"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". Bu müdrik ifadələr də ümummilli lider Heydər Əliyevə məxsusdur. XX əsr Azərbaycan mədəniyyətinin bütün sahələrinin sürətli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin rəhbərlik etdiyi Azərbaycanın müstəqillik dövrlərdə sadəcə, siyasi-iqtisadi deyil, eyni zamanda mədəni və ədəbi irsimizə, təsviri sənətə, teatr, musiqi və kino sənətinə yüksək qayğı göstərilmişdir.

1993-cü ilin 15 iyununda xalq Heydər Əliyevin timsalında nəinki öz qurtuluşuna, eyni zamanda parlaq gələcəyinə qovuşdu. O sadəcə mükəmməl dövlət başçısı deyildi, həm də vətənpərvər, humanist bir ziyalı idi. Heydər Əliyevin milli mədəniyyətə göstərdiyi diqqət, verdiyi dəyər bu sahədə yeni dövrün başlanğıcı kimi qiymətləndirilməlidir. Onun rəhbərliyi dövründə mədəniyyət sahəsi çiçəklənmə dövrünü yaşamağa başladı. Bu gün də bu siyasət mükəmməl şəkildə davam etdirilir.

Bu gün Azərbaycandakı bütün mədəniyyət sahələrinin inkişaf tarixinə nəzər saldıqda onun ümummilli liderin adı ilə bağlı olduğunu görürük. Ulu öndərin yaşadığı dövrdə ədəbiyyata yüksək qayğı və ehtiram mövcud idi, mədəniyyəti, ədəbiyyatı inkişaf etdirən insanların əməyini yüksək qiymətləndirir, onların daim qayğısını çəkirdi. O deyirdi: "Azərbaycanda yazıçı daim böyük hörmətə layiq olmuşdur. Bu, bizim tarixi ənənəmizdir, əcdadlarımızdan bizə gəlib çatmış gözəl bir xüsusiyyətdir", – deyən Heydər Əliyev ümumən intellektə, ağıl və zəkaya böyük qiymət verirdi. Çünki o özü XX əsr Azərbaycan tarixinin yetişdirdiyi böyük zəka, intellekt sahibi idi.

Hələ sovetlər dönəmində Heydər Əliyev Azərbaycanda mədəniyyətin maddi-texniki bazasının möhkəmlənməsinə xüsusi diqqət yetirirdi, bu amal ölkəmiz müstəqillik əldə etdikdən sonra daha nəhəng layihələr, sərəncam, qərar və müqavilələr, əlaqələrlə möhkəmləndirildi. Onun ciddi səyi ilə kinoteatr binaları, muzeylər inşa olundu. Ədəbiyyat-mədəniyyət adamlarının, şair-yazıçıların adına muzeylər ev muzeyləri yaradıldı. Mədəniyyətimizin kadr potensialını inkişaf etdirib gücləndirmək üçün SSRİ-nin ən nüfuzlu incəsənət yönlü ali məktəblərində Azərbaycan gənclərinin təhsil almasına şərait yaradıldı. Sankt-Peterburqun, Moskvanın teatr, rəssamlıq, musiqi üzrə ali təhsil ocaqlarını bitirmiş gənclər dövlət hesabına maliyyələşdirildi. Ulu öndər yaxşı bilirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını mədəniyyət təşkil edir.

Mənbələrdən oxuyuruq: "2003-cü ildə isə respublikamızın mədəniyyət müəssisələrinin sayı xeyli dərəcədə artmışdır. Həmin dövrdəki məlumatlara görə, ölkəmizdə 27 peşəkar teatr, 13 konsert müəssisəsi,

4124 kitabxana, 3066 klub müəssisəsi, 210 mədəniyyət və istirahət parkı, 159 muzey, 30-dan çox dövlət rəsm qalereyası və bədii sərgi salonu, 232 uşaq musiqi və incəsənət məktəbi fəaliyyət göstərirdi. Ümummilli liderimiz Azərbaycan xalqının milli mədəniyyətinə, onun tarixi qaynaqlarına həmişə böyük diqqətlə yanaşmış, millətin qan yaddaşına hopmuş tarixi şəxsiyyətlərimizin zaman-zaman yaşaması üçün öz qayğısını əsirgəməmişdir" (2, s.5).

Bülbülün, Qara Qarayevin, Niyazinin, Fikrət Əmirovun, Səməd Vurğunun, Mirzə İbrahimovun ayrı-ayrı yubiley tarixləri təkcə Bakıda deyil, digər yerlərdə də keçirildi.

Üzeyir Hacıbəylinin, Cəfər Cabbarlının ev-muzeylərinin, Nəriman Nərimanovun, Bülbülün xatirə muzeylərinin, Natəvanın abidəsinin, Şuşada Molla Pənah Vaqifin məqbərəsinin inşası kimi bu işlərin uğurla başa çatdırılmasına bilavasitə rəhbərlik etmişdi. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza kimi ədəbiyyat və mədəniyyət xadimlərinin SSRİ-nin ən yüksək fəxri adına – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmələri məhz Ulu Öndərin təqdimatı ilə reallaşmışdı. İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, digər monumental sənət əsərlərinin yaradılması, "Gülüstan" sarayı, Opera studiyası, Xoreoqrafiya məktəbi kimi memarlıq abidələri mədəniyyətimizə diqqət və qayğının mühüm təzahürləri idi.

Qeyd edək ki, Ulu Öndərin rəhbərliyi ilə mədəniyyət sahəsinin inkişafına xidmət göstərən 10-dan çox qanun qəbul edilmişdir. "Mədəniyyət haqqında" (1996-cı il), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (1998-ci il), "Kinematoqrafiya haqqında" (1998-ci il), "Memarlıq fəaliyyəti haqqında" (1998-ci il), "Kitabxana işi haqqında (1998-ci il), "Milli Arxiv Fondu haqqında" (1999-cu il), "Muzeylər haqqında" (2000-ci il), "Nəşriyyat işi haqqında" (2000-ci il) və s. qanunlar bu sahənin kompleks inkişafında böyük rol oynadı.

Bu getdikcə mədəniyyət sektorunda yeni əhval-ruhiyyə yaratdı. Azərbaycan mədəni həyatında hərəkətlənmə başladı. Həvəslə bu sektorda çalışanlar yeni-yeni ideyaları ortaya qoydular. Azərbaycanın mədəni sektoru xaricə inteqrasiya olundu, ölkəmizlə yanaşı, beynəlxalq aləmdə Mədəni irsimizin, görkəmli ediblərin, mədəniyyət xadimlərinin yubileylərinin xarici ölkələrdə nüfuzlu təşkilatlarda qeyd olunması bu sahəyə göstərilən diqqət və qayğıdan xəbər verirdi.

Fəlsəfə elmləri doktoru, professor Nigar Ələkbərova Heydər Əliyevin mədəniyyətə qayğısını təhlil edərək onun əhəmiyyətini qeyd edir: "Azərbaycan xalqı bəşər tarixinə qüdrətli şəxsiyyətlər bəxş edib. Belə nadir tarixi simalar sırasında böyük əzəməti, tükənməz qətiyyəti, dərin fəlsəfi-analitik təfəkkürü, ensiklopedik nəzəri və praktiki biliyi, fitri istedadı, dahi müdrikliyi və əyilməz, polad siyasi iradəsi ilə seçilən, müstəqil Azərbaycanın qurucusu olan Heydər Əliyevin xüsusi yeri var. İllər keçdikcə Azərbaycan xalqının bu ölməz oğlu, ümumbəşər tarixinin dahi şəxsiyyəti, onun siyasi və mənəvi örnəyə çevrilmiş ləyaqətli həyat yolu, tarixi əhəmiyyət kəsb edən böyük xidmətləri, zamanın sınağından çıxmış strateji xətti daha aydın görünərək insanları, bütün bəşəriyyəti daim heyrətdə qoymaqda davam edir".

UNESKO ilə əməkdaşlıq bu baxımdan xüsusi önəm kəsb edir. Ümummilli liderin rəhbərliyi ilə 1990-cı illərin ortalarından təşəkkül tapan Azərbaycan-UNESKO əlaqələri ötən müddətdə mühüm inkişaf yolu keçərək mədəni irsimizin dünyada tanıdılması və təbliğinə də geniş zəmin yaratmışdır.

Mədəniyyət, ədəbiyyat, sənət o zaman gücünü qoruyur ki, ona dayaq olan, hamilik edən şəxsiyyətlər olsun.

Heydər Əliyev teatra da xüsusi qayğı və diqqət göstərirdi. Teatrı hər zaman xalqın inkişafında əsas meyar kimi görürdü, o, yeni tamaşalara baxır, hər zaman tamaşa sonunda səhnə arxasında sənətçilərlə görüşürdü.

Ulu öndər deyirdi: "Mən həmişə teatra bağlı və yaxın olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdədir. İncəsənətin, o cümlədən kino və teatrın təsiri və tərbiyə qüvvəsi çox böyükdür. Bu qüvvədən bacarıqla istifadə etmək həmişə vacibdir. Teatr və incəsənət sahəsində çalışanlar çox fədakar insanlardır. Səhnədə onlara baxdıqda çox vaxt hər biri qayğısız, xoşbəxt insan kimi görünür, həmişə şəndirlər. Ancaq onların həyatının səhnə arxasında necə

olmasını çoxları bilmir, heç təsəvvürlərinə də gətirmir. Mən bunları bilirəm. Ona görə də incəsənət adamlarını cəmiyyətdə çox yüksək tuturam” (4, s.11).

Mənbələrdən oxuyuruq ki, Heydər Əliyev İlyas Əfəndiyevin “Hökmdar və qızı” tamaşasında o vaxt respublikamızda qonaq olan görkəmli alim İhsan Doğramacı ilə birgə iştirak edir. “Tamaşadan sonra Heydər Əliyev qonaqla birgə səhnə arxasına gəlib yaradıcı heyəti təbrik etdi. Həmin görüşdə Heydər Əliyev İlyas Əfəndiyev haqqında belə dedi: “İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir. Çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı bir də ona görə əhəmiyyətlidir ki, o, öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir” (1).

2023-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 sentyabr 2022-ci il tarixdə 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi haqqında sərəncam imzalayıb.

“1970-2000-ci illərdə Azərbaycan bədii mədəniyyətinin bütün sahələrinin inkişafı, bu prosesdə Heydər Əliyevin bilavasitə iştirakı Azərbaycan sənətşünaslıq elminin inkişafı üçün də əlverişli şərait yaratmışdır. Məhz bu dövrdə şəhərsalma, memarlıq, təsviri və dekorativ-tətbiqi sənətlər, musiqi, teatr və kino sənətlərini əhatə edən qiymətli sənətşünaslıq əsərləri nəşr edilmişdi. 1973-cü ildə sənətşünaslığımızın tarixində ilk dəfə olaraq “Azərbaycan incəsənəti tarixi” adlı üçcildlik fundamental əsər üzərində iş başlamış, 1980-ci illərin ortalarında Azərbaycan incəsənətinin bütün inkişaf mərhələlərini əhatə edən ilk tarixi yaradılmışdır” (5).

Bu gün Azərbaycanda fəaliyyət göstərən ziyalılar, mədəniyyət sektorunda çalışanların hər biri Azərbaycanın mədəni həyatında ulu öndərin danılmaz rolunu bilir və bunu hər daim işıqlandırır.

**Ədəbiyyat siyahısı:**

1. Əlizadə M. Heydər Əliyev və Azərbaycan teatrı. 525-ci Qəzet – Heydər Əliyev və Azərbaycan teatrı
2. Əliyev Y., Şabanov R. Heydər Əliyev fenomeni milli mədəniyyətimizi daim zənginləşdirir. Mədəniyyət. – 2010. – 7 may. – s.5
3. Əfəndiyev T. Heydər Əliyev fenomeni və milli mədəniyyətimiz. 525-ci Qəzet – Heydər Əliyev fenomeni və milli mədəniyyətimiz: 525-ci Qəzet – Heydər Əliyev fenomeni və milli mədəniyyətimiz
4. Sarıyeva. Azərbaycan mədəniyyətinin hamisi – Heydər Əliyev. İ. Bakı xəbər. – 2014. – 12-14 dekabr. – S.11.
5. Heydər Əliyev dövlətçilik idealları və müasir dövr: https://science.gov.az/az/news/open/23500

**Gulkhara Ahmadova**

## HAYDER ALIYEV AND THE ISSUE OF CARE FOR CULTURE

**Summary:** The rapid development of all spheres of Azerbaijani culture in the 20th century is connected with the name of the Great Leader Heydar Aliyev. The independence of Azerbaijan was led by a great leader, not only political and economic but also great care for our cultural and literary heritage, visual arts, theatre, music and cinema. shown.

Heydar Aliyev was not only a perfect head of state but also a patriotic, humanistic intellectual. Heydar Aliyev's attention and value to national culture should be considered as the beginning of a new

era in this field. During his leadership, the cultural field began to experience a period of prosperity. Today, this policy is perfectly continued.

**Key words:** Heydar Aliyev, culture, art, Azerbaijan, Azerbaijaniness

**UOT 32**

**Adil Sadıxov**
**Azərbaycan Milli Elmlər Akademiyası,**
**Fəlsəfə və Sosiologiya İnstitutu, aparıcı elmi işçi**
**E-mail: ilgarsu@mail.ru**

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ İDEYASI

**Xülasə:** Məqalədə müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin azərbaycançılıq ideyaları araşdırılır, onun bu sahədə gördüyü işlər təhlil olunur. Hər bir azərbaycanlıya məlumdur ki, müstəqil dövlətimizin möhkəmlənməsi və yüksəlməsi onun əzmkar fəaliyyətinin nəticəsidir. O, Azərbaycan xalqının zəngin mənəvi-mədəni irsini, onun tolerantlığa malik mübariz bir xalq olduğunu bütün dünyada tanıtmağa səy göstərmişdir.

**Açar sözlər:** azərbaycançılıq, ideya, inkişaf, insan, xalq, mentalitet, şüur, ləyaqət

Bildiyimiz kimi ulu öndər Heydər Əliyev müasir, çiçəklənən Azərbaycan dövlətini yaratdı, onu Cənubi Qafqazın ən güclü, öndə gedən məmləkətinə çevirdi, xalqımızın əbədi lideri statusunu qazandı. Heydər Əliyevin azərbaycançılıq ideyası həm ölkəmizdə, həm də xaricdə yaşayan soydaşlarımız arasında fundamental baza rolunu oynamışdır.

Xalqının böyük oğlu kimi ulu öndər xaricdə yaşayan və dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diasporunu bir dəqiqə də olsun yaddan çıxarmamışdır. Dünyada məskunlaşmış Azərbaycan diasporuna onun diqqəti təsadüfi deyildir. Milli ləyaqət diasporun öz milli kökləri ətrafında birləşməsinin ifadəsi olaraq həmin narahat vaxtda Heydər Əliyevin dilindən səslənmişdir. Dünyanın hansı guşəsində olursa-olsun Azərbaycan diasporu üzvlərinin bir-birilərini müdafiə etmələri haqqında onun görüşləri, söhbətləri və nəsihətləri müdrik siyasətçi, strateq Heydər Əliyev tərəfindən möhtəşəm bir çağırış idi: "Azərbaycan dünyanın bütün azərbaycanlılarının vətənidir". Demək olar ki, bu çağırış ölkəmizin gələcək inkişafı üçün siyasi kursunu müəyyən etmişdir.

Ulu öndər dünyada möhkəmlənmə, qələbə çalmaq üçün xalqa, hər birimizə Azərbaycan naminə, milli inkişaf və dirçəliş naminə dar, xəbis fərdi maraqların fövqünə qalxmaq, Vətənə təmənnasız xidmət etmək kimi dəyərləri aşılamışdır.

Sonra dahi uzaqgörən Heydər Əliyev həmişə öyrədirdi ki, "...biz tarixi köklərimizdən heç vaxt ayrıla bilmərik. Biz tarixi köklərimizi vətənə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik. Eyni zamanda, öz milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirib, zənginləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini, mənəvi dəyərlərini yaratmalıyıq".

Qeyd etmək lazımdır ki, ümummilli lider azərbaycançılıq ideologiyasını xalqımız üçün və hətta özü üçün çətin dəqiqələrdə belə qorumuşdur. Belə ki, 20 Yanvar faciəsindən sonra Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, xalqının ağır günündə onun yanında olduğunu nümayiş etdirən Ulu öndərin bu addımı bütün dünyaya səs saldı. Əslində, bu, Azərbaycanın milli dövlətçilik prinsiplərinin elan olunması və hədəflərinin göstərilməsi idi. Əlbəttə ki, Azərbaycan xalqının milli özünüdərkinin bərpası və müstəqillik mübarizəmizin uğurla sona çatması üçün ulu öndər Heydər Əliyev böyük xidmətlər göstərdi. O çətin dövrdə, istər siyasi baxımdan, istər iqtisadi baxımdan, istərsə də mənəvi-psixoloji baxımdan daim məhdudiyyətlər və təzyiqlər altında fəaliyyət göstərirdi.

Ulu öndər Azərbaycançılıq ideologiyasında bütün dünyaya səpələnmiş azərbaycanlıların vahid birləşməsini görürdü. Heydər Əliyev azərbaycançılığın əsas ideyasını səciyyələndirərək deyirdi: "Azərbaycançılıq milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri

dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". O eyni zamanda öz çıxışlarında daim qeyd edirdi ki, "hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" (H.Əliyev və mənəvi dəyərlər. Bakı: "Səda", 2003, s.32).

Məhz Heydər Əliyevin dövründə Azərbaycan dövləti, bu dövlətin qədim tarixi, mədəniyyəti dünya səviyyəsinə çıxdı. Dünyanın bir çox ölkələrində Azərbaycanı tanımağa, bu torpaqda çox mədəni ənənələrə malik olan Azərbaycan xalqı haqqında məlumatlar yayıldı. Bu münasibətlə dünyanın müxtəlif ölkələrində keçirilən Azərbaycanın mədəniyyət günləri və başqa ölkələrin mədəniyyət günlərinin respublikamızda keçirilmə ənənələri Azərbaycan xalqının dünyada yüksək mədəniyyətə malik olan xeyirxah və qədim bir xalq kimi tanınmasına səbəb oldu. Zaman Heydər Əliyevə Azərbaycanı keçid dövrü ölkəsindən sürətlə inkişaf edən ölkəyə çevirməyə imkan verdi. Hələ Qarabağ müharibəsinin ən ağır illərində ulu öndər gələcəkdə yaşayıb, fəaliyyət göstərəcək gənclərin taleyini yaddan çıxarmamışdır. Heydər Əliyevin gənclərimizin tərbiyəsi fəlsəfəsində başlıca amil – gənc insanlarda, xüsusən tələbələrdə vətənpərvərlik ruhu, vətənpərvərlik şüurunun formalaşmasıdır ki, bu da milli ideologiyamızın əsas sütunlarını təşkil edir.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev özünün bütün həyat və fəaliyyətində Azərbaycan Respublikasının və xalqının daima çiçəklənməsinə, azərbaycançılıq ideologiyasının hər bir vətəndaşın qanına hopmasına, milli şüurda qərarlaşmasına çalışmışdır. Müstəqil dövlətimizin möhkəmlənməsi və yüksəlməsi onun əzmkar fəaliyyətinin nəticəsidir. O, Azərbaycan xalqının zəngin mənəvi-mədəni irsini, onun tolerantlığa malik mübariz bir xalq olduğunu bütün dünyada tanıtmağa səy göstərmişdir.

Tarix göstərir ki, hər hansı milləti kölə vəziyyətinə salmaq üçün ona keçmişini, milli ənənələrini unutdurmaq və yaxud da kökündən uzaqlaşdırmaq yetərlidir. Xalqların qərinələr boyu formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya fenomenal şəxsiyyətlərin üzərinə düşür.

Azərbaycanın inkişaf strategiyasında ulu öndər milli ideologiyaya xüsusi fikir verirdi. Çünki milli ideologiya mənlik şüurunun, hüquqi və siyasi şüurun təkmilləşməsini, dövlət idarəçiliyində hər bir fərdin bu və ya digər şəkildə iştirakının təmin olunmasını, insanın şəxsi həyatının, şəxsi maraq və arzularının dünyada gedən proseslərlə əlaqələndirilməsini ifadə edir. Milli ideologiya, dövlətçilik ənənələrinə əsaslanaraq insanların bir vətəndaş kimi formalaşmasını, dövlət mənafeyini üstün tutmaq, şəxsi mənafeyi dövlət mənafeyi ilə əlaqələndirmək, vətənə sevgi hissini nümayiş etdirməyi əhatə edir. Ulu öndərin baxışlarına görə, dövlətçilik ənənələri, dövlətçilik ideologiyası, dövlətçilik praktikasının və psixologiyasının vəhdətindən yaranır...

Müdrik strateq Heydər Əliyev milli ideologiyanın formalaşmasında onun ən mühüm komponentləri və vacib istiqamətlərindən biri kimi milli-mənəvi dəyərlərə xüsusi diqqət verirdi. Burada ulu öndər üç əsas tərkib hissəni göstərirdi: dil, din, adət və ənənə. Heydər Əliyevin fəlsəfəsində azərbaycançılıq ideologiyası tarixi inkişaf mərhələləri keçmişdir. Tarixi baxımdan bu problemi araşdırarkən demək lazımdır ki, azərbaycançılıq ideologiyasının ən əsas əlamətlərini "Kitabi-Dədə Qorqud" eposunda xalqımızın milli mifoloji baxış və təsəvvürlərində görmək olar.

Milli-mənəvi dəyərlərin ilk növbədə yaradıcı insanlar tərəfindən qorunduğunu yaxşı bilən ulu öndər onlara daima hörmət etmiş, müxtəlif dövlət mükafatları təqdim etmişdir. Çünki milli ideologiyanı əsasən yaradıcı şəxslər, milli ziyalılığın təmsilçiləri, alimlər, filosoflar, yazıçılar və s. formalaşdırır və inkişaf etdirirlər. Siyasətşünaslar, siyasi liderlər və dövlət başçıları milli ideologiyanın bir komponenti olan milli dövlətçilik konsepsiyasının işlənib hazırlanmasında iştirak edirlər. Milli-mənəvi dəyərlərin qorunması sosial inkişaf strategiyası ilə yanaşı ümummilli inkişaf strategiyasının milli ideologiyanın

strukturuna daxil edilməsi üçün bir qayda olaraq dərindən fəaliyyət göstərilməlidir. Deyilənlər, xüsusən filosoflara aiddir. Məhz fəlsəfə öz universallığı və ümumi bilikləri vasitəsi ilə, ən vacib problemləri dərk etməyi, dünyanın ümumi mənzərəsini əhatə etməyə səy göstərir. Milli ideologiyanın fəlsəfəsində milli mentalitetlər, milli ideallar, millətin təfəkkür tərzi və bu istiqamətdə fəal mübarizə dayanır. Hər bir azərbaycanlı öz milli mentaliteti ilə müxtəlif fəlsəfi fikirlərin konkret daşıyıcısıdır. İnsanın dünyaya baxışının xüsusi bir vasitəsi olan fəlsəfə biliklərindən ayrı heç bir biliklər sistemi mövcud ola bilməz. Ancaq universal xarakter daşıyan fəlsəfi qanunlar və kateqoriyalar vasitəsi ilə dünyada baş verən hadisələri dərk edib, ayrı-ayrı dövlətlər və millətlər arasındakı əlaqələri yaxınlaşdırmaq olar. Aydın məsələdir ki, hər bir millətin təfəkkürünün inkişafında fəlsəfə elminin digər elmlərdən üstünlüyü şübhəsizdir.

Azərbaycan ideologiyasının təkmilləşməsində Ulu öndərin məhsuldar fəaliyyəti özünü böyük təbliğat vasitəsi olan radio və televiziyanın, kinomatoqrafıyanın, milli ədəbiyyatımızın və musiqimizin inkişafında göstərmişdir.

Yeni cəmiyyətdə yaşayan Azərbaycanın inkişafı, azərbaycanlıların formalaşması baxımından maraqlı cəhət budur ki, ulu öndər milli amil problemini xalqın mənəvi potensialında, milli mənlik şüuru və milli mədəniyyət kontekstində başa düşülməsinə diqqət yetirirdi.

Millət yaşayıb yaradırsa, deməli, o, seçim etməlidir. Bu hər bir inkişafın və mövcudluğun danılmaz məntiqidir, müasir fəlsəfi şüurun daim üzləşdiyi dühа sahiblərinin təfəkkürünün, enerjisinin predmetidir. Xüsusən, indiki çətin və mürəkkəb zamanda milli ideologiyasız keçinmək olmaz. Doğrudan da, milli inkişafımızın indiki mərhələsində cəmiyyətin həyatında baş qaldıran müxtəlif konfliktlər, milli şüurumuzu narahat edən nəzəriyyələr, yeni texnologiyalar bəşəriyyəti böyük çətinliklər qarşısında qoymuş, planet miqyasında ekoloji problemlərin artması insanları görünməmiş təhlükə ilə üzləşdirmişdir. Böhran və fəlakətlər dövlətləri prinsipcə qeyri-ordinar siyasət yeritməyə məcbur edir, gözlənilməz problemləri meydana gətirir.

Milli ideologiya heç də millətçilik deyildir. Milli ideologiyada özünüdərketmə çox mürəkkəb bir struktura malik olan hadisədir. O, özündə ərazi, mədəniyyət, dil, tarixi keçmiş barədə təsəvvürlər və milli sterotipləri birləşdirir. Eyni zamanda milli ideologiyada özünüdərketmə idrakı komponentlərin məcmusundan ibarətdir. Şəxsiyyətin təfəkkürünün inkişafı, milli şüurun və milli ləyaqətin formalaşması onun azadlığından və ümumi hüquqlarının faktiki vəziyyətindən xeyli dərəcədə asılıdır. Həyatın özünün təkmilləşməsi, milli ləyaqətin və milli şüurun tarixi təsnifatı sübut edir ki, azərbaycanlıların ozlərinin ictimai fikir tarixi və dəyərli şəxsiyyətləri, mədəniyyətləri ilə qürur hissi keçirməyə haqları vardır.

Hal-hazırda inkişafda insanların həyat fəaliyyətinin müxtəlif cəhətləri qloballaşır. İqtisadi, siyasi, sosial-mədəni və bir sıra başqa cəhətlərdən diferensiasiya edilmiş dünyadan vahid qlobal dünyaya doğru qarşısıalınmaz irəliləmə hərəkəti baş verir. Bu halda cəmiyyətdə cərəyan edən dəyişikliklər o qədər ciddidir ki, onlar bu keçidə, yəni bəşəriyyətin tarixdən əvvəlki dövründən onun həqiqi tarixinə doğru hərəkət etməsinə əsas verir. Digər tərəfdən dünya əlaqələrinin yaxınlaşması bizim iradəmizdən asılı olmayaraq inkişaf edən bir prosesdir. Buna qarşı etiraz etmək demək olar ki, mümkün deyildir. Dünyada baş verən dəyişikliklərin nəbzini tutmağı bacaran, onu diqqət mərkəzində saxlayan böyük strateq Heydər Əliyev qloballaşmanın potensial təhlükə mənbəyinə çevrilməsinin qarşısını ala bilmişdir. Ulu öndərin öz vətəninə, xalqına, milli irs və ənənələrinə bağlılığı bu təhdidlərin önündə əzəmətli sipərə çevrilmiş, bütövlükdə xalqın genetik yaddaşını qorumuşdur. Heydər Əliyev həmişə qeyd edirdi ki, xalqın genetik yaddaşını, adət və ənənələrini, dili və ərazisini qorumaq üçün mütləq güclü Azərbaycan Dövləti lazımdır.

Eyni zamanda Heydər Əliyevin ən böyük xidmətlərindən biri milli ideologiya ətrafında bütün azərbaycanlıları vahid Azərbaycan bayrağı altında birləşdirmək idi. Çünki azərbaycançılıq ideologiyası təkcə Azərbaycan dövlətində yaşayan həmyerlilərimizin ideologiyası deyildir, bu bütün dünyaya səpələnmiş, ürəyi Azərbaycanla döyünən əsl azərbaycanlıların arzusudur. Heydər Əliyev hələ 1991-ci ildə Naxçıvanda fəaliyyət göstərərkən azərbaycanlıların milli birlik konsepsiyasının həyata keçirilməsi üçün

öz əzmkarlığını göstərirdi. Həmin ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Sovetinin qərarı ilə Dünya azərbaycanlılarının həmrəylik gününün hər il 31 dekabrda bayram edilməsi barədə qərar qəbul edildi. Bu qərarın Azərbaycan Respublikası Ali Sovetində qəbul edilməsi barədə təklif verildi. 1991-ci il dekabrın 25-də isə həmin qərar Azərbaycan Respublikası Ali Soveti tərəfindən də təsdiq edildi.

Bu həmrəylik günü Azərbaycan xalqının çətin, amma şərəfli tarixində adi 1991-ci il qərarı kimi qalmadı, həmin qərar qanında Azərbaycan qanı axan hər bir vətənpərvərin şüuruna çökdü, onun müqəddəs bir bayramı oldu.

2001-ci ildə dünya azərbaycanlılarının Bakı şəhərində çağırılmış I qurultayında ümummilli lider Heydər Əliyev bəyan etdi "Biz arzu edirik ki, dünyanın müxtəlif ölkələrində yaşayan hər bir azərbaycanlı yaşadığı ölkənin qanunları əsasında yaxşı yaşasın, öz biliklərini möhkəmləndirsin. Biz arzu edirik ki, hər bir azərbaycanlı yaşadığı ölkənin ictimai-siyasi həyatında fəal iştirak etsin, cəmiyyətdə layiqli yer tutsun və nüfuza malik olsun. Lakin bununla belə heç kim milli köklərini, milli mənsubiyyətini heç zaman yaddan çıxarmasın"(Dünya azərbaycanlılarının I qurultayında H.Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 10 noyabr, 2001-ci il).

Hazırda Ulu öndərin qurduğu düzgün yolla gedən Azərbaycan xalqının artıq özünün hansı millətə, dövlətə mənsubiyyəti ilə bağlı olaraq heç bir çətinliyi yoxdur. Onlar öz dövlətlərini heç bır qonşu dövlətin əlavəsi, onun təsiri altında olan qurum hesab etmirlər. Bu isə xalqın böyük nailiyyəti, milli özünüdərketmənin bariz ifadəsidir.

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu dövrlərdə idarəçilikdə yeritdiyi siyasətin başqa bir üstün tərkib hissəsinin liberal ideologiya olması əsla təsadüfi deyildir. Bu ideologiya, sadəcə, mücərrəd azadlığın bərqərar edilməsi olmayıb, həm də bir sıra xüsusi şərtlər – vətəndaşa məxsus olan "təbii" siyasi hüquqları və mülkiyyətçi hüquqlarını nəzərdə tuturdu. Lakin etiraf edilməlidir ki, müdrik siyasətçi Heydər Əliyevin ölkəyə başçılığa qayıdışından sonra respublikanın ictimai həyatının bütün sahələrində danılmaz uğurlar qazanılsa da, inkişaf axtarışları daima davam etməkdə idi və bu da təbii sosial prosesdir, çünki dinamik dəyişən həyat özünə münasibət formalarını da dəyişməyə vadar edir, ortaya yeni alternativlər atır.

Xoşbəxtlikdən milli inkişafımızın tarixi zərurəti olan Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə çaşqınlıq psixologiyası və hərc-mərclik mühitində milli şüuru zədələnmiş xalqın özünün dövlətçiliyinə olan ümidi artdı, azərbaycançılıq ideyasının mənəvi-fəlsəfi dəyərini tədricən dərkinə normal – sosial-psixoloji mühit, pozitiv keyfiyyətlərin kəsb edilməsi üçün imkanlar yarandı.

Bildirməliyik ki, Azərbaycanda Davamlı İnkişaf konsepsiyasının həyata keçirilməsində Heydər Əliyevin rolu danılmazdır. Hələ keçən əsrin 90-cı illərinin ortalarında uzaqgörən siyasətçi ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin Davamlı inkişaf yoluna keçməsi üçün bir çox zəruri tədbirlər həyata keçirilmişdir. ulu öndər BMT-nin Rio-de Janeyro konfransında (1992), Minilliyin Forumunda (2000) Yohannesburq Sammitində (2002) Davamlı inkişafla bağlı qəbul edilmiş beynəlxalq sənədlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə ölkəmizin inkişafı naminə bir çox mühüm qərarlar qəbul etmişdir.

BMT-nin təşəbbüsü ilə 2000-ci ilin sentyabr ayında Amerikanın Nyu-York şəhərində keçirilən "Minilliyin Forumu"nda iştirak edən Azərbaycan respublikasının prezidenti Heydər Əliyev davamlı inkişafın təmin olunmasında qloballaşmanın rolundan bəhs edən çıxışı böyük marağa səbəb olmuşdur. Dünyəvi dövlət quruculuğunu həyata keçirən Ulu öndərin fədakarlığı və gərgin fəaliyyəti nəticəsində ölkəmizin beynəlxalq nüfuzu getdikcə artmış və geosiyasi əhəmiyyəti yüksəlmişdir.

Bizcə, Heydər Əliyevin tarixi seçiminin fəlsəfi qaynaqlarını onun özünün mənəvi həyat mövqeyində axtarmaq lazımdır. Xalqın içindən çıxmış və xalqına qayıdan təcrübəli siyasətçi həmişə qürur hissi ilə deyir: "Mənim gücüm, ilhamım mənim xalqımdır". Müdrik strateq Ulu öndərin düzgün və məqsədyönlü siyasət fəlsəfəsinə insan amili meyarı ilə yanaşsaq, demək mümkündür ki, sadalanan hər bir elm sahəsi vahid və bölünməz Azərbaycanı qoruyub saxlamaq, inkişaf etdirmək, möhkəmləndirmək

naminə, yeni azərbaycançılıq ideyasının cəmiyyətdə bərqərar olması naminə idi. Çünki azərbaycançılıq milli varlığımızın və düşüncə tərzimizin fəlsəfəsidir. Bütün dünyada məşhur olan siyasətçi, strateq Heydər Əliyevin ideyaları və fəaliyyəti müasir Azərbaycanda fəaliyyət üçün rəhbərlik kimi qəbul olunur və öz inkişafını davam etdirir.

Prezident Heydər Əliyevin xalqına müstəqillik, tarixi yaddaşı unutmamaq, vətən amalı, həmrəylik, azərbaycançılıq kimi müqəddəs ideyalar aşılayan siyasət məktəbi yeni formasiyada fəaliyyət göstərəcək milli siyasətçilərimiz üçün örnəkdir.

Böyük xalqların yaşadığı dünyada, böyük inkişaf yolu keçən, böyük alimləri və kəşfləri ilə seçilən xalqlarla bir yerdə yaşayıb, onlara qatılmaq çox çətin bir prosesdir. Belə proseslərin həllində azərbaycançılıq ideologiyasının yayılmasının əhəmiyyəti danılmazdır. Heydər Əliyev bütün diplomatik görüşləri ilə dünya siyasətçilərinə bir daha göstərdi ki, ölkəsinin milli mənafelərini üstün tutan dövlət başçısı, həmçinin xalqının sivil obrazını yaratmaq, onu müasir dünyagörüşlü millət kimi tanıtmaq üçün nəhəng enerji sərf edir.

**Adil Sadikhov**

**HAYDER ALIYEV'S IDEA OF AZERBAIJANIS**

**Summary:** The article examines the ideas of Azerbaijanis of Heydar Aliyev, the founder of the independent state of Azerbaijan, and analyzes his work in this field. Every Azerbaijani knows that the strengthening and growth of our independent state is the result of his persistent activities. He made an effort to promote the rich spiritual and cultural heritage of the Azerbaijani people, that it is a fighting nation with tolerance, all over the world.

**Key words:** Azerbaijanism, idea, development, person, people, mentality, consciousness, dignity

**UOT 008**

**Gülnarə Hüseynova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: gulnarakerimli.2020@mail.ru**

# HEYDƏR ƏLİYEV – MƏDƏNİYYƏT XALQIN BÖYÜK SƏRVƏTİDİR

**Xülasə:** Böyük estetik zövqə malik olan Heydər Əliyev Azərbaycanın milli mədəniyyətini, musiqisini, mənəvi dəyərlərini çox sevirdi. O, varlığı ilə, canı ilə, ruhu ilə, bütün mənəviyyatı ilə Azərbaycan torpağına, Azərbaycan mədəniyyətinə dərin tellərlə bağlı olan nurlu bir şəxsiyyət idi. Onun Azərbaycan xalqına, milli mənəvi dəyərlərə göstərdiyi diqqət və qayğı, sözün əsl mənasında fədakarlığı əsrlər boyu yaddan çıxmayacaq.

**Açar sözlər:** Heydər Əliyev, mədəniyyət, tarix, Azərbaycan kinematoqrafiyası, sənətkar, xatirələr, filmlər

Azərbaycan xalqı bəşər tarixinə qüdrətli şəxsiyyətlər bəxş etmişdir. Belə tarixi simalar sırasında böyük əzəməti, tükənməz qətiyyəti, dərin fəlsəfi-analitik təfəkkürü, ensiklopedik nəzəri və təcrübi biliyi, fitri istedadı, müdrik, əyilməz və polad siyasi iradəsi ilə seçilən Heydər Əliyevin xüsusi yeri vardır. Zəngin tarixi olan Azərbaycan mədəniyyətinin bugünkü səviyyəyə yüksəlməsində ulu öndərin misilsiz xidmətləri olub. O, mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi.

Heydər Əliyev dühasının nəticəsidir ki, Azərbaycanın bir neçə sərvəti artıq YUNESKO-nun (UNESCO) dünya irs siyahısına daxil edilib. Qobustan qayaüstü rəsmləri, Azərbaycan muğamları, aşıq sənəti, Azərbaycan xalçaları, "Kitabi-Dədə Qorqud" dastanları və bir sıra Azərbaycan klassikləri yubileylərinin beynəlxalq səviyyədə qeyd olunması buna misaldır.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin dünyanın bir sıra ölkələrində heykəl və büstlərinin ucaldılması, Nəriman Nərimanovun Tbilisidə ev muzeyinin açılması, Ulyanovskda büstünün qoyulması, Molla Pənah Vaqifin Şuşadakı məqbərəsinin açılması, Hüseyn Cavidin qəbrinin Sibirdən doğma torpağı Naxçıvana gətirilərək orada dəfn edilməsi və məqbərəsinin ucaldılması Heydər Əliyevin Azərbaycan mədəniyyətinə verdiyi töhfələrin bir hissəsidir. XX əsr Azərbaycan xalqına dünya şöhrətli alimlər, musiqiçilər, rəssamlar, ədiblər bəxş edib. Lakin inamla deyə bilərik ki, bu tarixin ən zəngin və parlaq dövrü məhz, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zamanla bağlıdır. Bu böyük şəxsiyyət ölkəyə rəhbərlik etdiyi hər iki dövrdə mədəniyyətimizin, incəsənətimizin, elmimizin və ədəbiyyatımızın hamisi olub, milli dəyərlərimizin dünya çapında tanınması üçün əlindən gələni edib, mədəniyyət və incəsənət xadimlərimizin geniş təbliğ olunmasına şərait yaradıb. Heydər Əliyevin ömür yolu və fəaliyyəti tədqiq olunanda bir daha şahidi oluruq ki, bu unudulmaz şəxsiyyət bütün həyatını Azərbaycan xalqına həsr edib.

İncəsənətin bütün sahələrində olduğu kimi, milli kinomuzun da inkişafında ulu öndərin xidmətləri danılmazdır. Qeyd etmək lazımdır ki, kinomuz bu qayğını və dəstəyi H.Əliyev hələ Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik etdiyi dövrdə görüb.

Ötən əsrin 70-ci illəri milli kinomuzun ən parlaq dövrlərinə təsadüf edir. Həmin illərdə kinostudiyamızda bir-birindən maraqlı filmlər istehsal edilir, tamaşaçıların ixtiyarına verilirdi.

Azərbaycan kinosunun inkişafında Heydər Əliyevin böyük xidməti olub. Belə ki, bir sıra filmlərin yaranmasında onun şəxsi təşəbbüsü olub. "Uzaq sahillərdə", "Bir cənub şəhərində", "Nəsimi", "Babək", "İstintaq" ekran əsərlərinin yaranmasında, sovet senzurasından keçməsində Heydər Əliyevin gördüyü işlər danılmazdı.

Bu filmlərdən biri də hər zaman maraqla baxılan "Bir cənub şəhərində" (1969) bədii filmidir. Kinorejissor Eldar Quliyevin bədii kinoda ilk işi Bakı həyatından, köhnə məhəllələrin birində yaşayan insanların gündəlik yaşam görüntülərindən bəhs edirdi. Filmdə sovet rejiminin ən qatı vaxtlarında ekrana köhnəfikirli sovet adamı obrazı gətirmək, feodal düşüncəsi, kapitalist fikri ilə yaşayan qəhrəmanı təbliğ etmək, tamaşaçıya dövrlə bağlı seçim imkanı saxlamaq və bütün bunları sovet təbliğat maşınına qəbul etdirmək asan məsələ deyildi. Yaradıcı heyətin böyük zəhmət və sevgiylə ərsəyə gətirdiyi film daxili baxışdan sonra Moskvadakı "Qoskino" (Dövlət Kinematoqrafiya Komitəsi) adlanan qurumda ciddi tənqid edilir, filmin kütləvi nümayişinə qadağa qoyulur. O ərəfədə Heydər Əliyev Azərbaycan SSR Mərkəzi Komitəsinə birinci katib təyin olunur. Filmin "aqibəti"ndən xəbər tutan dövlət başçısının bəlkə də bu vəzifədə ilk işlərindən biri "Bir cənub şəhərində" kimi möhtəşəm ekran işini tamaşaçıya qaytarmaqla başlayır.

İsa Hüseynovun ssenarisi əsasında Həsən Seyidbəylinin quruluş verdiyi "Nəsimi" (1973) filmi Azərbaycan xalqının görkəmli şair və filosofu İmadəddin Nəsiminin anadan olmasının 600 illiyinə həsr olunur. Qeyd edək ki, ilk dəfə "Nəsimi" filmi valyuta ilə alınan kino plyonkasına çəkilib ki, keyfiyyətli olsun. Eyni zamanda, kinoya ayrılan vəsaitdən əlavə dövlət büdcəsindən də pul ayrılıb. Ulu öndərin istəyilə filmin rejissor işi Həsən Seyidbəyliyə həvalə olunub. Heydər Əliyev bu barədə deyib: "Xatirimdədir, ssenari çox mürəkkəb, çox çətin idi. Çünki tarixi təhlil etmək, aydınlaşdırmaq lazım idi ki, nəyi göstərməli, nəyi göstərməməli… Mən hesab edirəm ki, tarixi baxımdan bu film Azərbaycan kino sənətinin əslində ilk fundamental filmi idi. Onda mən Həsən Seyidbəyli ilə görüşdüm, söhbət etdim və soruşdum ki, bəs Nəsimi rolunu kim ifa edəcək? O, dedi ki, bilirsinizmi, mən bir yaxşı, perspektivli cavan tapmışam. Mən onu sınaqdan çıxarmışam, baxmışam… Rasim Balayev, Nəsimi rolunu həqiqətən gözəl ifa etdi" (1).

"Babək" filmi – 1979-cu ildə Ənvər Məmmədxanlının ssenarisi, Eldar Quliyevin quruluşunda çəkilərək istehsalata buraxılıb. Xüsusilə qeyd edək ki, Heydər Əliyevin ölkəyə rəhbərik etdiyi dövrdə yaranan tarixi filmlərin büdcəsi sovet dövründə çəkilən filmlərin büdcəsindən qat-qat artıq olub. Xalq qəhrəmanı Babəkə həsr edilən filminin çəkilişləri üçün ümumittifaq büdcəsindən ayrılmış vəsaitdən əlavə indiki məzənnə ilə hesablansa 4-5 milyon dollar pul ayrılır. Moskvanın maneələrinə baxmayaraq filmin çəkilişi üçün geniş şərait yaradılır. Yeri gəlmişkən, "Babək" filmi sovet kino tarixinin də ən bahalı filmləri sırasına daxil edilib. Təkcə Azərbaycanda deyil, Rusiyada, Gürcüstanda, Özbəkistanda 16 fabrik film üçün 1500 dəstdən artıq paltar hazırlayıb. Beş mindən artıq adam çəkilişlərdə iştirak edib. Moskvadan "Mosfilm"in "Kavaler polku"ndan 170 atlı gətirilib. 60-a yaxın ölkə tərəfindən alınan film bir il ərzində 35 milyon tamaşaçı tərəfindən izlənilib.

Növbəti film Rüstəm İbrahimbəyovun ssenarisi əsasında Rasim Ocaqovun çəkdiyi "İstintaq" (1979) filmidir. Filmdə hadisələr 60-cı illəri əhatə edir. Filmin əsas mövzusunu Azərbaycanda o dövrdə fəaliyyət göstərən mafiya təşkil edir. Rüşvət, hədiyyə ilə polis orqanlarını ələ alma, təmiz insanları şərləmə və daha nələr filmdə açıq-aydın təsvir olunur. Belə bir filmin çəkilməsi öz dövrü üçün cəsarətli addım idi. Məhz buna görə sovet senzurası və Azərbaycanda kino sahəsinə rəhbərlik edənlər filmin ekranlara çıxmasına mane olurlar. Ölkə rəhbəri bu barədə eşidir və məsələyə qarışır. Heydər Əliyev "Biz filmi bəyənmişik" deməyilə məsələ həll olunur.

H.Əliyev ölkəyə rəhbərliyi dövründə bir çox tarixi filmlərin yaranmasına şərait yaratmaqla yanaşı, eyni zamanda həmin çəkiliş proseslərini nəzarətdə saxlayıb. Həmin filmlərdən "Ulduzlar sönmür" (1971), "Nəsimi" (1974), "Dədə Qorqud" (1975), "Nizami" (1982) və b. misal göstərmək olar.

Heydər Əliyev kino tariximizin araşdırıcılarına kinomuzun tarixi ilə ciddi məşğul olmağı tapşırmışdı. Bundan ilhamlanan kinoşünaslarımız arxiv sənədlərini araşdırarkən Azərbaycan kinosunun tarixinin heç də 1916-cı ilə deyil, əslində, dünya kinosunun yaranma tarixindən cəmi iki il yarım sonraya – 1898-ci ilə aid olduğunu sübut edə bildilər. Bəli, ilk milli kino nümunələrimiz 1898-ci ildə lentə alınmışdı və Parisdəki "Qrand-kafe"də nümayiş edilən hərəkətli fotolar Bakıda nümayiş olunmuşdu. Bu

barədə 2 avqust 1989-cu il tarixli "Kaspi" qəzetində elan da var və qəzet əlavə olaraq onu da yazır ki, Bakıda yaşayan fotoqraf A.M.Mişonun Parisdə keçiriləcək ümumdünya sərgisi üçün hazırladığı "Orta Asiya və Qafqazın canlı fotoları" da Bakıdakı teatr-sirkdə göstərildi. Bu tarixi faktlar öz təsdiqini tapandan sonra ulu öndərin təxminən 25 il əvvəl uzaqgörənliklə dediyi fikirlər də öz yerini aldı. 1998-ci ilin 2 may tarixində, Azərbaycan kinosunun 100 illiyi ilə bağlı baş tutan "Festivallar festivalı"nda ümummilli liderimiz böyük fəxrlə dedi: "Bu gün biz bir kəşf etdik, sübut etdik ki, Azərbaycan kinosunun tarixi 1898-ci ildən başlayır, onun 100 ili tamam olur. Biz 1916-cı ili başlanğıc ili hesab edirdik, lakin Azərbaycan kinosunun yaşını əgər belə demək olarsa 10 il, yaxud, neçə il artırmaq ümumən heç də sadə məsələ deyildi. Bu o deməkdir ki, Azərbaycan sivilizasiyalı ölkədir, dünyada kino meydana çıxan kimi o, Azərbaycana gəlib…" [3].

Azərbaycan kinosunun təşəkkül dövrünün 1898-ci il tarixindən başlandığını dəyərləndirən Heydər Əliyev "Azərbaycan kinosu gününün təsis edilməsi haqqında" tarixi sərəncam imzaladı və həmin vaxtdan etibarən 2 avqust ölkədə milli kino günü kimi qeyd olunur. Kino haqqında fikirlərini bir cümlə ilə ifadə edən ulu öndər "Kino bizim xalqımızın salnaməsidir", – deyirdi.

Heydər Əliyev 1993-2003-cü illər arasında Azərbaycan rəhbərlik etdiyi dövrdə 405 nəfər elm, incəsənət və mədəniyyət xadimini ölkənin nüfuzlu mükafatları, orden və medalları ilə təltif etdi.

Azərbaycan kino tarixində təxminən 400-ə yaxın film istehsal olunub ki, onlardan 104-ü 1969-1982, 46-sı isə 1993-2002-ci illərə təsadüf edir. Həmin filmlərdən "Bizim Cəbiş müəllim" (1969), "Dəli Kür" (1969), "Şərikli çörək" (1969), "O qızı tapın" (1970), "Yeddi oğul istərəm" (1970), "Axırıncı aşırım" (1971), "Gün keçdi" (1971), "Alma almaya bənzər" (1975), "Tütək səsi" (1975), "Ad günü" (1977), "Dantenin yubileyi" (1978), "Qayınan" (1978), "İstinta" (1979),"Qorxma, mən səninləyəm" (1981) və s. adlarını çəkməklə dövrün kino mənzərəsini görmək olur.

Böyük estetik zövqə malik olan Heydər Əliyev Azərbaycanın milli mədəniyyətini, musiqisini, mənəvi dəyərlərini çox sevirdi. Bəstəkar-müğənni Müslüm Maqomayevin böyük öndərə ithaf etdiyi "Azərbaycan" (sözləri Nəbi Xəzrinindir) mahnısını dinləyəndən sonra böyük sevgi və həyəcanla demişdir: "Mən bu mahnını çox sevirəm, o məni həyəcanlandırır, çünki mahnıda deyilir ki, Azərbaycan həqiqətən həyatımın mənasıdır" [2].

Heydər Əliyev Azərbaycan xalq mahnılarını çox sevirdi, yeri gələndə özü də zümzümə edərdi. "Alagöz" mahnısını ifa edərkən o qədər musiqiyə həssas yanaşırdı ki, lirik mahnı onu kövrəldirdi.

Heydər Əliyevin fəaliyyəti incəsənətimizin bu gün ən dəyərli mövzusudur. Deyə bilərəm ki, onun haqqında çəkilən filmlər, yaradılan musiqi əsərləri və ədəbi əsərlər xalqımızın milli-mənəvi sərvətidir və gələcək nəsillər onlardan çox şeylər öyrənəcəklər. Kinorejissor Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filmi ulu öndərin yüksək insani keyfiyyəti haqqında həqiqətləri tamaşaçılara çatdırır. Bu film ulu öndərə həsr olunan on filmdən biridir. "General", "Birinci", "Moskva, Kreml", "Lider", "Tale", "Bir həsədin tarixi", "Professional", "Patriot", "Xüsusi təyinat" kimi digər filmlər də bu böyük şəxsiyyətin həyat və fəaliyyətinin çox uğurlu ekran versiyasıdır.

Həqiqət budur ki, Heydər Əliyev bütün varlığı ilə, canı ilə, ruhu ilə, bütün mənəviyyatı ilə Azərbaycan torpağına, Azərbaycan mədəniyyətinə dərin tellərlə bağlı olan nurlu bir şəxsiyyət idi. Onun Azərbaycan xalqına, milli mənəvi dəyərlərə göstərdiyi diqqət və qayğı, sözün əsl mənasında fədakarlığı əsrlər boyu yaddan çıxmayacaq.

## Ədəbiyyat siyahısı:

1. Heydər Əliyev və Azərbaycan kinosu – Ədəbiyyat qəzeti 12.05.2018. s.15

2. Heydər Əliyev və Azərbaycan mədəniyyəti – https://nuhcixan.az ›10.12.2022 3. Milli kinomuzun inkişafında Heydər Əliyevin xidmətləri – https://aki.az ›

3. **Azərbaycan kinosu müstəqillik dövründə** – https://azerbaijan.az/

4. Heydər Əliyev incəsənətin hamisi idi – https://kaspi.az/az/ 12.12.2017
https://aki.az/milli-kinomuzun-inkisafinda-heyd%C9%99r-%C9%99liyevin-xidm%C9%99tl%C9%99ri/ http://www.shusha-ih.gov.az/news/672.html

**Gulnara Huseynova**

## HAYDAR ALIYEV – CULTURE IS PEOPLE`S GREAT WEALTH

**Summary**: Having a great aesthetic taste, Haydar Aliyev was very fond of Azerbaijani national culture, music and moral values.With his being, heart, spirit and moralthat bright personality had close ties to Azerbaijani land and Azerbaijani culture. His great attention and care to Azerbaijani people and national moral values will remain in memories forever.

**Key words**: HaydarAliyev, culture, history, Azerbaijani cinematography, artist, memoirs, films

UOT 808.5

**Fatimat Məmmədova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət universiteti**
**Kulturologiya üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: fatimat.mammadova1959@gmail.com**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN NİTQ MƏDƏNİYYƏTİ MƏSƏLƏLƏRİNİN KULTUROLOJİ ASPEKTLƏRİ

**Xülasə:** Azərbaycan dili xalqımızın ruhunu yaşadan, onun milli, mənəvi varlığını qoruyub saxlayan yaddaş xəzinəmizdir. Ana dilimizin mötəbər daşıyıcısı, təəssübkeşi, böyük dövlət xadimi Heydər Əliyev Azərbaycan Prezidenti kimi ən yüksək tribunalardan etdiyi çıxışları ilə nitq mədəniyyətimizi, ədəbi dilimizin gözəlliyini tanıtdı və sevdirdi. Çağdaş dövrdə dillərə qarşı artmış təhdidlər Heydər Əliyevi narahat etmiş və o, uzaqgörənliklə dilimizin qorunması, inkişafı üçün sərəncamlar imzalamışdır. Azərbaycan Prezidentinin dilimizə qayğısı, qorunması barədə siyasi baxışları 18 iyun 2001-ci il tarixli ”Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında”; 09 avqust 2001-ci il tarixli “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” fərmanlarda və 30 sentyabr 2002-ci il tarixli “Azərbaycan Respublikasında dövlət dili haqqında” qanunda öz əksini tapmışdır. Heydər Əliyev həm siyasi, həm də kulturoloji baxımdan Azərbaycan milli ənənələrindən bəhrələnərək öz çıxışlarında yaddaqalan söz və ifadələri, bəlağətli nitqi ilə söz sərrafı, böyük şəxsiyyət kimi tanınmışdır.

Məqalədə qarşıya qoyulan məqsəd Azərbaycan kulturoloji fikir tarixində natiqlik təcrübəsinin nəzəri və əməli məsələlərinə münasibət bildirmək, Heydər Əliyev zirvəsini şərtləndirən tarixi-kulturoloji amillərin elmi təhlilini verməkdir.

**Açar sözlər:** Heydər Əliyev, ana dili, nitq mədəniyyəti, Azərbaycan kulturoloji fikir tarixi, natiqlik təcrübəsi

Ümumxalq mədəniyyətinin bir hissəsi natiqlik sənəti, natiqlik məharəti ilə bağlıdır. Çox qədim tarixi olan natiqlik sənəti eramızdan əvvəl IV və V əsrlərdə Yunanıstanın siyasi, iqtisadi cəhətdən geniş yüksəlişi dövründə Afinada inkişaf etmişdi. Qədim Misir, Hindistan, Çin, Ərəbistanın istedadlı natiqləri xalqın hörmətini qazanmışdılar. Qədim Yunanıstan natiqləri isə gözəl, bəlağətli nitqin, nitq mədəniyyətinin əsl ustadı hesab olunurlar. Natiqliyin vətəni hesab olunan Yunanıstanda insanların ağlına, qəlbinə, hisslərinə dərin təsir göstərən ritorika (bəlağətli nitq) son dərəcədə yüksək qiymətləndirilirdi. Bir çox tədqiqatçılar qeyd edirlər ki, bu, həm də Yunanıstanda gedən siyasi mübarizələrlə bağlıdır. Siyasi rəhbərlər xalq yığıncaqlarında kütləni inandırmaq və öz arxalarınca çəkib aparmaq üçün ən kəsərli silah kimi bəlağətli nitqdən məharətlə istifadə edirdilər.

Gözəl danışmağın qaydalarından ibarət ritorika elmi yaranır və bu qaydaları öyrədən ritorlar xalq mədəniyyətinin ən mühüm və maraqlı nümunələri əsasında nitq təlimləri keçir, natiqlər yetişdirirdilər. Həmin dövrdə məhkəmə natiqliyi xüsusilə diqqəti cəlb edir. Qədim Yunan siyasi xadimi Demosfen məhkəmə nitqlərini tərtib edir, hər bir afinalının özünü məhkəmədə müdafiə edərkən söyləyəcəyi məntiqli, aydın, dərin məzmunlu nitq mətnləri hazırlayırdı. Demosfenin nitqi inandırıcılığı, yığcamlığı, aydınlığı, obrazlılığı ilə seçilirdi. O, çıxışlarında dinləyicilərinə müraciət, ritorik suallar, haşiyə çıxma kimi üsullardan istifadə edir, rəngarəng nitqləri ilə böyük rəğbət qazanırdı.

Bu gün də əhəmiyyətini qoruyub-saxlayan “Ritorika” əsərində Aristotel öz dövründə yaşamış natiqlərin üslubunu, məharətini təhlil etmiş, nitqin əsas dəyərini onun aydın olması ilə izah etmiş, nitqdə səsin tonunu, ritmi nitqin zənginləşməsi üçün vacib hesab etmişdir.

"Ritorika" kitabı natiqliyin bir çox nəzəri məsələlərini (dil, üslub və s.) əhatə edirdi və üç hissədən ibarət idi: nitqin tərtibi prinsipləri; natiq üçün lazım olan şəxsi keyfiyyətlər və qabiliyyətlər; nitq texnikası, natiq nitqində tətbiq olunan vasitələr, priyomlar (Əsgərov M. Natiqlik sənətinin əsasları. Bakı: Maarif, 1975, 260 s.).

Zaman keçdikcə qədim Yunanıstanda siyasi azadlığın sonu çatır və natiqlik sənəti süqut edir. Həmin dövrdən Roma respublikasında natiqlik sənəti öz inkişafına başlayır və Mark Tulli Siseron kimi misilsiz natiq, görkəmli dövlət və siyasi xadim yetişir. Natiqlik sənəti Romada xüsusi məktəblərdə öyrənilir, məşhur natiqlərin nitqləri şeir kimi əzbərlənirdi. Romanın süqutu ilə natiqlik sənətinin inkişafı dayandı. Artıq XIX əsrdə Qərbi Avropa dövlətlərində: Fransa, İtaliya, Almaniya, Avstriyada baş verən inqilablar insanlara güclü təsir edə bilən natiqlər yetişdirdi.

Azərbaycanda natiqlik sənətinin inkişafından bəhs edərkən söz sənətinə hörməti, qiyməti, yüksək dəyəri, böyük ehtiramı lap qədim dövrlərə aid deyimlərdə, atalar sözlərində görürük: "Söz var adamı dağa qaldırar, söz var adamı dağdan endirər", "Xəncər yarası sağalar, söz yarası sağalmaz" kimi atalar sözləri, "sözün qədrini bil", "danışığına fikir ver" – kimi öyüdlərin dərin mənası xalqımızın ruhu ilə səsləşir.

Məzmunlu, inandırıcı, ifadəli, ardıcıl və yığcam nitq arzu olunan nitqdir. Bu tələbləri yerinə yetirmək üçün insan öz nitqi üzərində çalışmalı, hiss etdiyini, demək istədiyini ifadə etmək üçün doğru sözlər seçməyi, cümlə qurmağı bacarmalıdır. Bu barədə qədim romalılar poeziya ilə natiqlik sənətinin fərqini çox dəqiqliklə belə ifadə etmişlər: "İnsan anadan şair kimi doğulur, natiq kimi isə sonradan yetişir, formalaşır". "Gözəl nitq böyük mədəniyyətdir, sadəlik, aydınlıq, yığcamlıq, sistemlilik, məntiqilik, düzgünlük və sübutluluq, obrazlılıq və təsirlilik onun ən səciyyəvi xüsusiyyətləridir. Ümumxalq tribunasından ucalan hər bir səs, hər bir çıxış, hər bir yazı həyata dərindən nüfuz etməli, prinsipiallığı, fikir kəskinliyi, üslub gözəlliyi ilə adamları maraqlandırmalı və inandırmalıdır. Natiqlik elminin tarixi təcrübəsi məhz bu həqiqəti də təsdiq etmişdir ki, ancaq elmi və əməli cəhətdən inandırıcı, doğru, ürəkdən gələn, yerində söylənmiş, məntiqli və bitkin söz, obrazlı fikir – çox mühüm tərbiyə vasitəsidir" (Cabbarov X. Sənətkar söz, üslub. Bakı: Azərnəşr, 1993, 199 s.).

Nitq mədəniyyəti məsələlərini tədqiq edən araşdırıcıların, alimlərin qənaəti budur ki, demokratiya natiqlik sənəti üçün əsas zəmindir. Xalqlar arasında natiqlik sənətinin inkişafına diqqət yetirdikdə zəmanəmizdəki geniş auditoriyanı görmürük. Çünki müasir dövr söz deməyi bacaran, zəkasının qüdrəti ilə geniş auditoriyaları cəlb edə bilən mahir natiqlər yetişdirmək tələbatını irəli sürür.

Xüsusi fitri istedadı olan, gur, ahəngdar səsli, bədəncə möhkəm, cəsarətli insanlar yaxşı natiq kimi yetişə bilirlər.

Ulu öndər Heydər Əliyevin natiqlik irsini və nitq mədəniyyəti məsələlərinin kulturoloji aspektlərini tədqiqata cəlb edərkən onun şəxsiyyəti barədə danışmaq zərurətinin yaranması təbiidir. Ana dilimizin mötəbər daşıyıcısı, təəssübkeşi, böyük dövlət xadimi Heydər Əliyev Azərbaycan Prezidenti kimi ən yüksək tribunalardan etdiyi çıxışları ilə nitq mədəniyyətimizi, ədəbi dilimizin gözəlliyini tanıtdı və sevdirdi. Çağdaş dövrdə dillərə qarşı artmış təhdidlər Heydər Əliyevi narahat etmiş və o, uzaqgörənliklə dilimizin qorunması, inkişafı üçün sərəncamlar imzalamışdır. Azərbaycan Prezidentinin dilimizə qayğısı, qorunması barədə siyasi baxışları 18 iyun 2001-ci il tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında"; 09 avqust 2001-ci il tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanlarda və 30 sentyabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunda öz əksini tapmışdır. Heydər Əliyev həm siyasi, həm də kulturoloji baxımdan Azərbaycan milli ənənələrindən bəhrələnərək öz çıxışlarında yaddaqalan söz və ifadələri, bəlağətli nitqi ilə söz sərrafı, böyük şəxsiyyət kimi tanınmışdır. H.Əliyevin nitqlərini dinlədikdə belə qənaətə gəlirik ki, mükəmməl natiqliyin əsas xüsusiyyətlərindən biri də yaddaşdır. Hər bir insanın topladığı bilikləri, müşahidə etdiyi hadisələri, yadda saxlamalı olduğu rəqəmləri, elmi ədəbiyyatdan əxz etdiyi mülahizələri yadda saxlaması və onlardan çıxışı boyu istifadə etməsi ondan böyük məharət və hünər tələb edir.

Heydər Əliyevin sadaladığımız bu xüsusiyyətlərə bütünlüklə sahib olması göz önündədir. Antik dövrün natiqlik sənəti, natiq barədə nəzəriyyəsinə görə dövlət xadimi gözəl danışmağı, hadisələri əlaqələndirməyi, insan hüquqlarını qiymətləndirməyi bacarmalıdır.

"Siseron göstərir ki, Perikl öz natiqliyi, müdrikliyi və alimliyi sayəsində həm mülki, həm də hərbi işlərdə Afinaya qırx il rəhbərlik edib. Makedoniya çarı Filipp öz oğlu Aleksandra elm öyrətmək üçün Aristoteli oraya dəvət edib. Müdrikliyi, gözəl danışmağı özündə birləşdirən natiqi filosof adlandırmaq olar. İşini dərindən bilib onu gözəl ifadə etməyi bacarmamaq fərasətsizlikdir. Təqdirəlayiq o şəxs hesab olunur ki, o, həm natiqdir, həm də alim. Filosof natiqdən aşağı səviyyədə durur. Çünki hər filosof natiq ola bilmir, natiq isə filosofların öyrəndiyi və öyrətdiyi bütün bilikləri əxz etməyi bacarır. Natiqlik elmin zirvəsidir. Skepsislərin fikrincə, elmi həqiqətlər nisbidir, təkcə natiqlik sənətinin həqiqətləri mütləqdir, çünki onlar inandırıcıdır. Kvintilian natiqin təhsilinə böyük əhəmiyyət verməsə idi, ritorikasının adını "Natiqin təhsili" qoymazdı (Əliyev K. Natiqlik sənəti. Bakı: Azərnəşr, 1994, 159 s.).

Məhz bu cür tanınan natiqlərdən biri də XX əsrin yetirdiyi görkəmli siyasi xadim Heydər Əliyev idi.

Heydər Əliyevin güclü iradəsi, özünəməxsus xarizması onu hər hansı bir mövzuda, istənilən auditoriya qarşısında çıxış edərkən dinləyiciləri tamamilə özünə cəlb edə bilən natiq kimi yaddaşlara yazdı. O, verbal və qeyri-verbal ifadə vasitələrindən məharətlə istifadə edərək heç kimə bənzəməyən imici ilə Azərbaycanı dünyaya tanıtdı.

H.Əliyevin milli təfəkkürə, kulturoloji amillərə, məntiqi qanunlara, möhkəm etiqadına əsaslanan, həqiqətin qüdrətini əks etdirən çıxışları Azərbaycan ədəbi dilinin ən yüksək səviyyədə inikasıdır. Xalqın milli, mənəvi, kulturoloji baxışlarını özündə əks etdirən ifadələrdən, atalar sözlərindən mövzuya uyğun olaraq istifadə etməsi, bədii ədəbiyyatdan gətirdiyi misallar, özünəməxsus ifadələr onun nitqini daha mənalı edir, bir çox hallarda dinləyicilərin qəlbinə, zəkasına güclü təsir edirdi.

Nitqində xitablara, nidalara, təkrirlərə, ritorik suallara müraciət etməsi müzakirə olunan məsələni daha yaxşı anlamağa imkan verir, münasibət bildirməyə şərait yaradırdı. Təcrübəli natiq kimi təkrirdən istifadə edərək dediklərini sadəcə təkrar etmir, deyilmiş fikrə yeni nə isə əlavə edərək məsələnin daha dərindən başa düşülməsini asanlaşdırır, ən vacib cəhətlərə diqqəti yönəldirdi.

Heydər Əliyevin bütün çıxışları səmimi, aydın, polemika yarada bilən, sosial-mədəni, ictimai-siyasi həyata güclü təsirə malik nitq nümunələridir. O, öz çıxışları ilə dinləyicilərə estetik zövq verə, yeni biliklər öyrədə bilirdi. Xalq içində olarkən etdiyi çıxışları daha çox milli keyfiyyətlərlə, səmimi, ürəkdən gələn ifadələrlə, zarafatyana sözlərlə zəngin olurdu. Elmi polemikalarda elmi məlumatların şərhində ən maraqlı, kəsərli, yaddaqalan ifadələri, təklifləri həmişə maraqla qarşılanırdı.

H.Əliyevin siyasi natiqliyi isə dillər əzbəridir. Dünyanın ən məsul tribunalarından etdiyi kəskin çıxışları onu ən güclü siyasi lider kimi tanıtdı. Səsinin intonasiyası, kəskin, nüfuzedici baxışları, əzəmətli duruşu onun çıxışlarına əlavə bir rəng qatır, möhtəşəm harmoniya yaradırdı. O, çıxışı zamanı auditoriyanı öz təsiri altına salır, ilk cümlələrdən bütün diqqətin özünə yönəlməsinə nail olurdu. H.Əliyev auditoriyanın dinləmə və qavrama şəraitinin spesifikliyini nəzərə alır, sözlərin mənasını, cümlələrin məntiqi vurğusunu dəqiq hiss etdirə bilirdi.

Mühacirətdə yaşayıb-yaratmış həmvətənlərimizin kulturoloji irsini araşdırarkən məlum olur ki, onların əksəriyyəti dili kültürün, mədəniyyətin ən vacib ünsürü hesab edir. Görkəmli azərbaycanlı alim Əhməd bəy Ağaoğlu dil, mədəniyyət məsələlərini ictimai-siyasi funksiyaların vəhdətində şərh etmiş və "Üç mədəniyyət" əsərində yazırdı: "Mədəniyyət demək – həyat tərzi deməkdir" (Süleymanlı M. Əhməd Ağaoğlunun "Üç mədəniyyət" əsəri / Şərq fəlsəfəsi problemləri, beynəlxalq elmi-nəzəri jurnal. Bakı: 2004, № 1-2, səh.62).

Professor Nizaməddin Şəmsizadə "Azərbaycan ideologiyası" əsərində belə yazır: "Azərbaycanda istiqlal dövrü milli dövlətçiliyin əsasını qoydu, dövlətçiliyə gedən yol milli mənlik, ana dili, vətən əxlaqı və milli vicdan uğrunda mübarizədən başlandı" (s.57).

"Dil kültür ünsürü olaraq milli birliyi saxlayır və milli həyatı mühafizə edərkən bütünlüklə bu vəzifələrə xidmət edir. Dil milli damğası ən bəlli, aydın olan mədəniyyət ünsürüdür. O, xalqın kimliyini əks etdirən təfəkkür, adət və inanclar sistemidir. Dil, ərazi və ideoloji birlik xalqın və dövlətin tarixi varlığının əsas atributlarıdır" ((N.Şəmsizadə. Azərbaycan ideologiyası. Bakı: Sabah, 1996, s.4).

H.Əliyev bütün fəaliyyəti boyu ümumxalq dilinə yüksək qiymət vermiş, istər rəsmi, istərsə də qeyri-rəsmi toplantılarda doğma Azərbaycan dilində danışmış, dörd cildlik "Müasir Azərbaycan dili" dərsliyini Azərbaycan Dövlət mükafatına layiq görmüşdür.

Xalqın dostu, dövlətçiliyin böyük himayədarı H.Əliyevin ədəbi dilimizin inkişafını nəzərə alaraq nitq mədəniyyəti məsələlərinin həlli üçün TÜRKSOY-un üzvü olan ölkələrin mədəniyyət nazirləri Şurasının XIX toplantısında dilimiz haqqında dediyi aşağıdakı sözlər onun bütün düşüncə və məqsədlərini cəmiyyətə bəyan edir: "... Milləti yaşatmaq və millətin indiyə qədər olduğu kimi əzilməsi imkanlarının qarşısını gələcəkdə almaq üçün dilimizi qorumalıyıq. İndiki türkdilli millətlərin dilində bir qədər fərq var. Amma bu dillərin kökü birdir. Mən belə düşünmürəm ki, biz gərək dilimizi tatar dilinə oxşadaq. Yaxud da ki, qırğızlar dillərini bizim dilə oxşatsınlar. Yox. Əsrlər boyu dillərimiz belə yaranıbdır. Amma eyni zamanda dilin işlənməsi mümkün olmadığına görə, bizim dillərimiz lazımi qədər inkişaf edə bilməyibdir. Ona görə də mən Azərbaycan dili haqqında fərman verdim. Azərbaycanda latın qrafikasına keçmək barədə fərman verdim və onun yerinə yetirilməsini təmin etdim. Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili ana dili olanda, onu heç nə dəyişdirə bilməz. Allaha şükürlər olsun, bizim Azərbaycan dili çox mükəmməlləşib, çox genişlənibdir. Dilimizin çox böyük lüğət ehtiyatı var. Bizim Azərbaycan dili şer dilidir. Yadımdadır, mən bir-iki dəfə ya burada, ya da Türkiyədə toplantılarda nitq söyləyəndən sonra dostum Süleyman Dəmirəl mənə deyirdi ki, sən şeir oxudun. Deyirdim ki, yox, mən nitq söylədim. O, deyirdi ki, bilirəm, amma Azərbaycan dili o qədər şeir dilidir ki, bəzən fərqinə varmaq olmur ki, nitq söyləyirsən, yaxud şeir deyirsən. Ona görə də dil, dil, bir də dil... Dili inkişaf etdirməliyik. Mən demişəm və bu gün də deyirəm. Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan. Elədir, yoxsa yox? Mən bunu sizə ona görə deyirəm ki, dili inkişaf etdirmək TÜRKSOY-un əsas vəzifələrindən biridir. Dilimizi bir-birinə bağlamaq, yaxud da ki, bənzətmək lazım deyildir" (Xudiyev N. Azərbaycana böyük məhəbbət nümunəsi. Dirçəliş – XXI əsr, 2003, № 6 (64), s.79-87).

Azərbaycanlı olmağı ilə fəxr edən, doğma dilində qürurla danışan Heydər Əliyev öz əsl vətəndaş mövqeyi ilə hamıya nümunə oldu.

H.Əliyevin natiqlik məharəti, yüksək nitq mədəniyyəti milli kulturoloji aspektlərinə görə ciddi ictimai-sosial, elmi, siyasi əhəmiyyətə malikdir. Nitq mədəniyyəti məsələlərinin kulturoloji amillərini, ideoloji sahənin bütün ağırlığını yaxşı bilən H.Əliyevin aydın, səlis, canlı nitqi ifadəli söz birləşmələri ilə zəngin idi və şifahi nitqin mükəmməl nümunələridir.

Kulturoloji amillərin içərisində teatr və səhnənin xüsusi roluna dəyər verən H.Əliyev teatr sənətinə ciddi münasibəti ilə diqqəti cəlb edir. O, xalq danışıq dilinə, dialekt və şivələrə hörmətlə yanaşmış, ədəbi dili isə yüksək qiymətləndirmişdir.

H.Əliyevin illərlə cilalandırdığı nitqi məntiqi fasilələrlə, ritorik suallarla zəngin idi. O, öz nitqlərində intonasiya və tələffüz qaydalarından yüksək məharətlə istifadə etmiş, dinləyicilərini bir ahəngrüba kimi özünə çəkmişdir. Onun səsinin avazlanması, nitqinin sürəti, tələffüzünün dəqiqliyi danışdığı mövzu ilə bilavasitə bağlı olduğundan yeri gəldikcə faydalandığı məntiqi vurğu dahi şəxsiyyətin fərdi nitq üslubunu, bu üslubun kulturoloji dəyərini şərtləndirir.

Yüksək məntiqi təfəkkürə sahib olan Heydər Əliyevin aydın nitqləri istər xalq dilini, istərsə də ədəbi dili mükəmməl bilən dahi şəxsiyyətin Azərbaycan nitq mədəniyyətinə, kulturoloji irsimizə verdiyi qiymətsiz nümunələrdir.

H.Əliyevin yüksək sərrastlıqla, ədəbi dilin fonetik, leksik, qrammatik normalarına tam uyğun nitqləri və həmin çıxışlardan ayrı-ayrı cümlələr dillər əzbərinə çevrilmiş, xalqın deyimləri sırasında özünəməxsus yer tutmuşdur. Onun nitqləri bədii və təsviri boyalarla zəngin, üslubu etibarilə parlaq və kəskin idi. Ulu öndərin güclü daxili inamı ritorikanın bütün qanunlarından xəbərdar olduğu üçün bəhs etdiyi mövzuları daha da inandırıcı edir, ictimai-siyasi nitqinin dəyərini artırırdı.

"Radio, televiziya və ədəbi dil" kitabında professor N.Xudiyev televiziya verilişlərinin aparıcılarının, jurnalistlərin H.Əliyev təcrübəsindən faydalanmalarını vacib sayır. Onun fərdi nitq üslubunun özünəməxsusluğu, ən mürəkkəb məsələləri aydın, obrazlı, inandırıcı, dəqiq söyləməsi, çıxışlarını təbii qaydada yekunlaşdırmağı xatirələrdə yaşayacaqdır.

"Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək... Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır" (az.wikisource.orq.\wiki\Heydər Əliyevin_15_iyun_1993-cü_ildə_Milli_Məclisdə_çıxışı).

H.Əliyevin bu çıxışının intonasiyasındakı çox ciddi bəyanat ruhu internet səhifəsində belə duyulur. O, qarşıda duran mühüm siyasi vəzifələri və bu vəzifələrin yerinə yetirilməsinin mürəkkəbliyini və vacibliyini elə ifadələrlə bəyan edir ki, (müstəqilliyini itirməyəcək, daxil olmayacaq, əsarəti altına düşməyəcək; torpaqlar geriyə qaytarılmalıdır, ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır) xalqın buna şübhəsi qalmır. Bu hökm cümlələr, cümlələrdəki xəbərlərin felin vacib formasında işlədilməsi ilə Heydər Əliyev xalqda gələcəyə qəti inam yaratmağa nail olur.

Heydər Əliyevin xalqa etdiyi bu müraciətində təmkin, müdriklik, emosionallıq, yüksək diplomatiya göz önündədir, onun həyəcanlı və əmin səsi hələ də xatirələrdədir. Ana dilinə sevgi, bu dildə istədiyi düşüncələrini məharətlə ifadə edə bilməsi ulu öndəri xalqın sevimlisi etdi.

Məqalədə qarşıya qoyulan məqsəd Azərbaycan kulturoloji fikir tarixində natiqlik təcrübəsinin nəzəri və əməli məsələlərinə münasibət bildirmək, Heydər Əliyev zirvəsini şərtləndirən tarixi-kulturoloji amillərin elmi təhlilini verməkdir.

Allahın Heydər Əliyevə bəxş etdiyi güclü məntiq, nadir natiqlik istedadı onun Azərbaycana rəhbərlik etdiyi dövrdəki ictimai-siyasi çıxışlarında uğurlu həllini tapmışdır. Araşdırmalar göstərir ki, müasir natiqliyin qarşısında duran məsələlərin həlli yolunda H.Əliyevin natiqlik irsinə müraciət etmək və ondan bəhrələnmək arzu olunandır.

**Ədəbiyyat siyahısı:**

1. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. \N.Abdullayev.\ – Bakı: ADPU-nun nəşriyyatı, 2013, – 277 s.

2. Axundova E.H. Heydər Əliyev: şəxsiyyət və zaman /E.Axundova IV hissə/ – Bakı: Ozan, 2008, – 328 s.

3. Cəfərov N.Q. Azərbaycanşünaslığın əsasları / N.Cəfərov – Bakı: Pedaqogika, 2005, – 256 s.

4. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili / N.Xudiyev. – Bakı: Elm və təhsil, 2014, – 543 s.
5. Quliyeva X.N. Heydər Əliyev və mənəvi-estetik dəyərlər / X.Quliyeva. – Bakı: Azərnəşr, 2002, – 340 s.
6.az.wikisource.orq.\wiki\HeydərƏliyevin_15_iyun_1993cü_ildə_Milli_Məclisdə_çıxışı.

**Mammadova Fatimat**

## CULTURAL ASPECTS OF HEYDAR ALİYEV AND AZERBAİJANİ SPEECH CULTURE İSSUES

**Summary:** The Azerbaijani language is our treasure of memory that keeps the spirit of our people alive and preserves its national and moral existence. Heydar Aliyev, the authoritative speaker, fanatic of our mother tongue, great statesman, introduced and made to love our culture of speech and the beauty of our literary language with his speeches from the highest tribunes as the President of Azerbaijan. The increased threats against languages in the modern era worried Heydar Aliyev and he signed decrees for the protection and development of our language with foresight. The political views of the President of Azerbaijan on the care and protection of our language were reflected in the decrees, "On the improvement of the implementation of the Official Language" dated June 18, 2001, "On the establishment of the Azerbaijani Alphabet and Azerbaijani Language Day" dated August 9, 2001 and the law "On the Official Language in the Republic of Azerbaijan" dated September 30, 2002. Heydar Aliyev is recognized as a wordsmith, a great personality with his memorable words and expressions, eloquent speech benefited from the national traditions of Azerbaijan from both the political and cultural point of view.

The aim of the article is to comment on the theoretical and practical issues of oratory practice in the history of cultural thought of Azerbaijan, to provide a scientific analysis of the historical and cultural factors that determined Heydar Aliyev's peak.

**Key words:** Heydar Aliyev, mother tongue, culture of speech, history of cultural thought of Azerbaijan, practice of oratory

**UOT**

**Xəzər Zeynalov**
**AMEA Memarlıq və İncəsənət İnstitutu**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: khazar.zeynalov@yandex.ru**

## NAXÇIVAN RƏSSAMLARININ YARADICILIĞINDA HEYDƏR ƏLİYEV OBRAZI

**Xülasə:** Məqalədə Azərbaycanın zəngin, özünəməxsus tarixə, mədəniyyətə və bədii ənənələrə malik ayrılmaz parçası olan Naxçıvanın rəssamları tərəfindən yaradılmış Heydər Əliyev portretlərindən söz açılır. Müəllif qeyd edir ki, Naxçıvan rəssamları Azərbaycan bədii mədəniyyətinin, o cümlədən təsviri sənətinin inkişafına böyük töhfələr vermişlər. Onlar tərəfindən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bədii obrazının parlaq qalereyası yaradılmışdır. Ülviyyə Həmzəyeva, Hüseynqulu Əliyev, Səyyad Bayramov, Həbibə Allahverdiyeva və başqalarının yaratdığı Heydər Əliyev portretləri maraqlı və düşündürücüdür. Bu portretlərdə Heydər Əliyev şəxsiyyətinin ən yaxşı universal keyfiyyətləri – qətiyyət, siyasi müdriklik, həmçinin insanpərvərlik, nəciblik realist cizgilərlə əks etdirilmişdir.

**Açar sözlər:** Azərbaycan təsviri sənəti, Naxçıvan rəssamları, rəngkarlıq, portret, Ülviyyə Həmzəyeva, Hüseynqulu Əliyev, Səyyad Bayramov, Həbibə Allahverdiyeva

Azərbaycan rəssamlarının böyük bir qismi ulu öndər Heydər Əliyevin portretini yaratmışdır. Onun aydın, parlaq simasının xarakterik cizgiləri bu portretlərin əksəriyyətində böyük məharətlə əks etdirilmişdir. Xalq rəssamı, professor Rafiq Mehdiyev yazırdı: “Ulu öndər Heydər Əliyev elə bir tarixi şəxsiyyətdir ki, onun müqəddəs əməlləri, xeyirxahlığı, sənət-sənətkar sevgisi daim xalqımızın yaddaşında yaşayacaq. Əziz xatirəsi təsviri və monumental əsərlərdə həmişə canlanacaq və xalqımız durduqca davam edəcəkdir” [2, s.7]. Bu sözlər mənalı, səmimi səslənməklə bərabər, həm də günümüzün reallıqlarını əks etdirir. Çünki o, müasir Azərbaycanın memarı, onun qurucusudur. Məhz buna görə də elm və sənət xadimləri bu böyük insan haqqında öz fikirlərini məmnunluq hissi ilə bölüşür, onun bədii obrazını, portretini yaratmağa can atırlar. “Xalqımızın ümummilli lideri Heydər Əliyev barədə danışmaq çox şərəfli və eyni zamanda çox məsuliyyətlidir. Hər ötən gün bizə onun necə uzaqgörən bir insan olduğunu, Azərbaycana qarşıdakı onilliklər boyu rifah, yüksəliş bəxş edəcək planları zərgər dəqiqliyi ilə müəyyənləşdirdiyini bir daha təsdiqləyir” [1, s.4].

Bu sırada Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan rəssamlarının xidməti böyükdür. Bu qədim diyarda yaşayıb-yaradan rəssamlar ulu öndərin unudulmaz, zəngin portretlər silsiləsini yaratmışlar. Həmin portretlərdə Heydər Əliyevə xas olan bir çox cəhətlər öz dolğun bədii təcəssümünü tapır.

Ulu öndərin çox zəngin təəssüratlar oyadan əlvan koloritli obrazını Naxçıvan Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva yaratmışdır. Qeyd edək ki, Ülviyyə Həmzəyeva olduqca maraqlı, bənzərsiz bədii üsluba, dəst-xəttə malikdir. Xanım rəssamın əlvan koloritli rəngkarlıq nümunələri zəngin bədii-dekorativ görünüşə malikdir. O, bir qayda olaraq kompozisiyanı kiçik, effektli kolorit həlinə malik olan bədii elementlərdən qurur. Bu kiçik elementlər mozaika daşları kimi birləşərək müəyyən bir obraz, təsvir yaradır. Xalça naxışları kimi zərif elementlərin məcmusu onun əsərlərinə əlvanlıq, milli-dekorativ məzmun, xoş ovqat bəxş edir. Rəssamın bədii üslubunda miniatür sənətindən qaynaqlanan xarakterik kompozisiya xüsusiyyətləri, əlvan rəng çalarları əks olunur. Ülviyyə Həmzəyeva ulu öndərin portretini bu səpkidə işləyib.

Portretdə Heydər Əliyev sinədən yuxarı təsvir olunub. Kompozisiyanın zəngin dekorativliyini nəzərə alaraq onu tipoloji baxımdan universal xarakterli portret hesab edə bilərik.

Kompozisiya başdan-başa kiçik elementlərdən təşkil olunmuşdur. Elementləri qurarkən rəssam həm kiçik bədii motivlərdən, həm də simvolik xarakterli ayrı-ayrı atributlardan – memarlıq görüntülərindən, bayraqlardan, xalça fraqmentlərindən, milli ornamentlərdən istifadə edib. Çox mürəkkəb olan bu kompozisiyada azərbaycançılıq ideyası, dövlətimizin imza atdığı nailiyyətlər rəmzi mahiyyət daşıyan bədii forma və detallar vasitəsilə öz əksini tapır.

Kompozisiyanın mərkəzində Heydər Əliyevin dörddə üç dönüşdə sağa yönəlmiş surəti əks edilib. Maraqlıdır ki, Ülviyyə Həmzəyeva Heydər Əliyevin üzünü, saçlarını, hətta köynəyinin və kostyumunun yaxalığını da kiçik bədii ştrixlərlə işləmişdir. Kompozisiyanın aşağı sol hissəsində Azərbaycanın qədimliyini, zəngin mədəniyyətini əks etdirən nümunələr – Qobustan qaya rəsmləri, Qız qalası, Möminə xatın türbəsi, Hüseyn Cavidin məqbərəsi təsvir edilib. Aşağı sağ hissədə Azərbaycanın xəritəsi yer alır. Kompozisiyanın orta və yuxarı hissələrində isə Azərbaycanın dünya birliyinə çıxışını, beynəlxalq aləmdə qazandığı nailiyyətləri rəmzi formalarla əks etdirən maraqlı bədii simvollara, motivlərə rast gəlirik. Ulu öndərin arxasında verilmiş göy-mavi yer kürəsi başdan-başa bayraqlarla əhatələnib. Bu, Azərbaycanın dünya ölkələri içərisində nüfuz sahibi, söz sahibi olmasına işarədir. Bütün bunların təməlində əsasını ulu öndərin qoyduğu güclü dövlətçilik strategiyası dayanır. Rəsmdə türk dövlətləri bayraqlarının təsviri də mühüm göstəricidir. Azərbaycan və Türkiyə bayraqlarının eyni müstəvidə təcəssüm etdirilməsi ulu öndərin "Biz bir millət iki dövlətik" sözlərini yada salır.

Heydər Əliyevin istər kompozisiya, istərsə də rəng həlli baxımından bənzərsiz olan portretlərindən birini tanınmış rəssam Eldar Zeynalov yaratmışdır. "Vətən oğlu" adlı həmin portretdə ulu öndərin surəti maraqlı rakursa və kompozisiya həllinə malikdir.

Adətən rəssamlar Heydər Əliyevin portretini parlaq boyalarla işləyirlər. Eldar Zeynalov maraqlı, ilk baxışda hətta qeyri-ənənəvi təsir bağışlayan rəng həllinə müraciət edib. Qrizayl texnikasında yaradılan bu portret təkcə kolorit həlli ilə yox, həm də kompozisiya xüsusiyyətləri ilə maraq doğurur. Əsərdə surətin siması iri planda verilib; müəllif ölçü nisbətini elə götürüb ki, ulu öndərin üzü kompozisiyanın aşağı və yuxarı hissələri arasındakı yeri tam şəkildə tutub. Hətta obrazın çənəsinin ucu (aşağı kənarda) və saçlarının yuxarı hissəsi (yuxarı planda) kompozisiyadan kənarda qalıb. Təbii ki, ulu öndərin köynəyinin yaxası, qalstuku və başqa detallar əsərdə yer almır. Özlüyündə çox maraqlı olan və effektli baxılan bu quruluş tərzi həm də rəsmin estetik tutumunu qüvvətləndirir, ona lirik, səmimi ştrixlər qatır.

"Vətən oğlu" əsəri daha çox lirik-romantik səciyyə daşıyır. Rəsmi geyim formasına yer ayrılmaması, dövlət atributlarından imtina, obrazın baxışlarının orta xətdən aşağıya yönəlməsi, monoxrom kolorit effekti portreti rəsmi əsər tipinə aid etməyə imkan vermir. Eyni zamanda düşüncəli sima, arxa plandakı lirik təbiət lövhələri, quruluşun ümumi abı-havası əsəri lirik-romantik portret nümunəsi kimi səciyyələndirməyə əsas yaradır [3, s.70].

Əməkdar rəssam Cavid İsmayılov maraqlı, rəngarəng tablolar müəllifidir. Rəssamın Heydər Əliyevə həsr etdiyi maraqlı əsərlərdən biri kətan üzərində yağlı boya ilə işlənmiş "Ömür yollarında" adlı tablodur. Kompozisiyanın mərkəzində Heydər Əliyev və Zərifə xanım Əliyevanın surətləri yer alır. Heydər Əliyev oturmuş, Zərifə Əliyeva isə onun yanında ayaq üstə durmuş vəziyyətdə təsvir olunub. Heydər Əliyev qıçını qıçının üstünə aşırmış, aydın, ifadəli baxışları irəliyə yönəlmişdir. Zərifə xanım mehribanlıqla bir əlini onun qoluna, digərini isə çiyninə qoymuşdur. Onun da mehriban, gülümsər baxışları irəliyə yönəlib. Əslində əsərdə təsvir olunan surətlərin üz ifadəsində, duruşunda qeyri-adi heç nə yoxdur. Zənnimizcə, tablonun rəmzi xüsusiyyətləri daha böyük məna kəsb edir. Bu sadə, eyni zamanda zəngin koloritə, detallara malik kompozisiyada rəmzi xarakter daşıyan xüsusiyyətlər yetərincədir. Əsərə baxarkən arxada – geniş pəncərədən görünən səfalı təbiət mənzərəsi istər-istəməz insanın diqqətini özünə cəlb edir. Eyni zamanda ön planda işlənmiş zəngin, işıqlı kolorit həllinə malik stol, onun üstündəki kitablar, vazaya qoyulmuş güllər olduqca effektli təsir bağışlayır və rəssamın güclü rəng duyumundan xəbər verir. Arxa planda, Zərifə xanımın başı üstündə çiçəkləmiş ağac bu nikbin əhval-ruhiyyəli əsərə əsl yaz ovqatı gətirir.

Əməkdar rəssam Telman Abdinovun "Sönməyən həyat" tablosunda ulu öndər rəsmi geyimdə təsvir olunsa da əsər məhz lirik-romantik, humanist hisslər üzərində köklənmişdir. Kompozisiyanın açıq, işıqlı rəng tonlarından tutmuş nikbin əhval-ruhiyyəsinə, obrazların üz ifadələrinə, gül-çiçəyə qədər hər bir detal məhz lirik-romantik ovqatı əks etdirir. Çoxfiqurlu portretin süjet xətti sadədir: ulu öndər çox sevdiyi uşaqların əhatəsində verilmişdir. Bəllidir ki, Heydər Əliyev uşaqları çox sevir, gənc nəslin tərbiyəsi üçün çox iş görür, onların şəxsində gələcək tərəqqimizin qüvvətli potensialını, yaradıcılarını görürdü. Telman Abdinov ulu öndərin surətini körpələrin əhatəsində verməklə məhz bu ideyanı ifadə etmişdir (şəkil 1).

Maraqlıdır ki, uşaqların məsum çöhrəsinə nəzər saldıqda, onlardan bəzisinin tanış üz cizgiləri diqqətdən yayınmır. Kompozisiyanın mərkəzində, alt hissədə verilmiş uşaq ulu öndərin özünün körpəlik fotoşəkilini təcəssüm etdirir. Onun yanındakı yaşca daha böyük oğlan isə ölkə başçısı cənab İlham Əliyevin yeniyetməlik fotolarını xatırladır.

Əməkdar rəssam Həbibə Allahverdiyevanın "Türk dünyasının liderləri" adlı tablosu maraq doğurur. Bu tabloda Mustafa Kamal Atatürk və Heydər Əliyev vahid kompozisiyada təsvir edilmişlər (şəkil 2).

Əsər maraqlı rəng keçidləri, tonallıq xüsusiyyətləri ilə zəngindir. Real tarixi mənbələrə əsaslanan rəssam Atatürkün zahiri görkəmini, geyimini isti, ulu öndəri isə həm isti, həm də soyuq tonlarla təsvir edib. Kompozisiyanın mərkəzində göy-yaşıl tonlarla işlənmiş, şaxələnmiş kökləri və qol-budaqları olan mifoloji ağac təsvir olunub. Ağac türk dövlətçiliyi şəcərəsini məcazi formalarda təcəssüm etdirir. Ağacın əsərin alt hissəsini bürümüş kökləri qədim ortaq tariximizin, göylərə ucalan qol-budaqları isə bu günümüzün və gələcəyimizin rəmzi ifadəçisidir. "Bu tabloda nəhəng köklü, gövdəli bir ağac təsviri var. Bu ağac Ordubad çinarları kimi çox möhtəşəmdir. Və ağacların budaqları altında türk dünyasının liderlərini – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Türk Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün rəsmləri təsvir olunmuşdur" [4].

Sonda bir daha qeyd edək ki, Naxçıvan rəssamları Heydər Əliyevin maraqlı portretlərini yaratmışlar. Bu portretlərdə ulu öndərin müdrik simasının xarakterik cizgiləri məharətlə əks etdirilmişdir. Naxçıvan rəssamları bu mövzudakı fəaliyyətlərini davam etdirirlər. Əminik ki, yaxın illərdə onlar Heydər Əliyevin yeni, daha maraqlı, canlı və təsirli portretlərini yaradacaqlar.

**Ədəbiyyat siyahısı:**

1. Fərhadov R. Böyük şəxsiyyət və qüdrətli lider // "Respublika" qəzeti, 5 may 2017-ci il, s.4.
2. Mehdiyev R. Ulu öndərin obrazı təsviri sənətdə // "Azərbaycan" qəzeti, 14 may 2009-cu il, s.7.
3. Salamzadə Ə., Zeynalov X. Təsviri sənətdə Heydər Əliyev obrazı. Bakı, Elm, 2019
4. Rənglərə əzəmət bəxş edən dahi / http://www.mediaktiv.az/r%C9%99ngl%C9%99r%- C9%99-%C9%99z%C9%99m%C9%99t-b%C9%99xs-ed%C9%99n-dahi/

**Khazar Zeynalov**
**Ph.D. in History of Arts, assistant professor**
Institute of Architecture and Art

## THE IMAGE OF HEYDAR ALIYEV IN THE WORKS OF NAKHCHIVAN ARTISTS

**Summary:** The article talks about the portraits of Heydar Aliyev, created by the artists of Nakhchivan - an integral part of Azerbaijan with a rich, unique history, culture and artistic traditions. The author notes that the artists of Nakhchivan made a great contribution to the development of Azerbaijani artistic culture, including fine arts. In particular, he created a bright gallery of the artistic image of Heydar Aliyev, the national leader of the Azerbaijani people. Interesting and impressive are the portraits of Heydar Aliyev, the authors of which are such well-known masters of the brush as Ulviyya Hamzayeva,

Huseyngulu Aliyev, Sayyad Bayramov, Habiba Allahverdiyeva and others. These portraits in realistic terms reflect the best universal qualities of Heydar Aliyev's personality - insight, determination, political insight, as well as philanthropy and spiritual kindness.

**Key words:** Fine arts of Azerbaijan, artists of Nakhchivan, painting, portrait, Ulviyya Hamzayeva, Huseyngulu Aliyev, Sayyad Bayramov, Habiba Allahverdiyeva.

UOT 002

**Rəşad Qardaşov**
**Bakı Dövlət Universiteti,**
**tarix üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: qardashov@inbox.ru**

# ALİ MƏKTƏB KİTABXANALARININ İNFORMASİYA RESURSLARININ İNKİŞAFINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

Məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsindəki misilsiz xidmətləri ümumiləşdirilib elmi nəticələr çıxarılır. Burada kitabxanaların xalqımızın mədəni-mənəvi tərəqqisində və cəmiyyətdəki rolu haqqında Heydər Əliyevin fəaliyyəti şərh olunmuşdur. Həmçinin Heydər Əliyevin XX əsrin II yarısında respublikada kitabxana şəbəkələrinin inkişafı, kitabxanaların mərkəzləşdirilməsi, kitabxana fondlarının inkişafı, əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması, kitabxanaların maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi istiqamətindəki fəaliyyəti konkret faktlar əsasında təhlil edilmişdir.

**Açar sözlər:** Heydər Əliyev, Ali məktəb, informasiya resursları, kitabxana-informasiya fəaliyyəti, kitabxana xidməti

**Giriş:** İnformasiya cəmiyyət üçün həmişə vacib ünsür olmuşdur. Bir həqiqət də vardır ki, informasiya anlayışı müəyyən mənada əsrlərlə dəyişilməz qalmışdır, yəni ehtiyacı olanlara müvafiq informasiya və informasiya ehtiyatlarına səmərəli, effektiv, rahat və maliyyə cəhətdən sərfəli çıxışı təmin etmək vəzifəsi daşımışdır. Son dövrlərdə isə informasiya kütləsinin qarşısıalınmaz sürətlə emalı və istehsalı sosial institutlarda, xüsusilə də kitabxanalarda informasiyanın seçilməsi, təhlili, mübadiləsi və əlyetərliyinin təmin edilməsi məsələlərini aktual edir. İnformasiya resurslarının yaradılması və tələbatçı sorğularının təmin edilməsində Ali məktəb kitabxanalarının rolu da çox böyükdür.

**Məsələnin qoyuluşu:** Ölkə kitabxanalarının geniş bir hissəsini təşkil edən akademik kitabxanalarda informasiya resurslarına daha həssaslıqla yanaşılmalıdır, belə ki, istifadəçilərinin böyük əksəriyyətini tələbələrin və tədqiqatçıların təşkil etdiyi ali təhsil müəssisəsi kitabxanalarının ən ümdə vəzifəsi öz oxucularını səhih və etibarlı informasiya ilə təmin etmək və bununla da kitabxananın və bütövlükdə universitetin elmi tədqiqatın dəstəkləyicisi kimi rolunu artırmaqdır. Bu baxımdan, tətbiq edilən yeni texnologiyalar, proqram təminatı və maddi texniki baza istifadəçilərə informasiya xidmətini müasir standartlara uyğun və rəqəmsal məzmunun axtarış və istifadəliyinin maksimum dərəcədə optimallaşdırılması kontekstində həyata keçirməyi tələb edir. Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir. Azərbaycan ali təhsil məktəblərinin tarixi 1919-cu ildən hesab olunsa da bu ali təhsil məktəbləri şəbəkəsinin 20 ildən artıq bir dövrü ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur.

**Məsələnin həlli:** Keçmiş SSRİ ərazisində 20-ci əsrin 60-cı illərinin mütərəqqi sosializm illəri adlandırılmasına baxmayaraq, Azərbaycan o dövrdə iqtisadi inkişaf baxımından geridə qalan respublikalardan biri hesab olunurdu. Həqiqətən də ötən əsrin 60-cı illərində bir sıra obyektiv və subyektiv səbəblərdən Azərbaycan iqtisadiyyatının bir çox sahələrində istər sənayedə, istərsə də kənd təsərrüfatında çox ciddi geriləmə müşahidə olunurdu. Bütövlükdə Azərbaycan iqtisadiyyatı böhran mərhələsini yaşayırdı. O dövrün statistikasına görə Azərbaycan sənaye və kənd təsərrüfatının inkişafı, əmək məhsuldarlığının artım tempi, milli gəlirin həcminə görə İttifaq səviyyəsindən xeyli geri qalırdı.

Ölkənin iqtisadiyyatında baş verən bu böhran həyatın digər sahələrinə, elmin, mədəniyyətin inkişafında öz mənfi təsirini göstərməyə bilməzdi. Respublika ardı-arası kəsilməyən siyasi çəkişmələr, dedi-qodu meydanına çevrilmişdi. Məhz buna görədir ki, Sov.İKP MK baş verən bu geriliyi aradan qaldırmaq üçün respublika rəhbərliyini dəyişdirmək haqqında qərar qəbul etmişdi. Respublikaya rəhbərlik üçün kadr seçmək işinə xüsusi əhəmiyyət verən Siyasi Büro uzun axtarışdan sonra Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə o zaman Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində işləyən Heydər Əlirza oğlu Əliyevin seçilməsini məsləhət bilmişdi. Bu zaman H.Əliyev böyük dövlətçilik təcrübəsinə, siyasi hazırlığa, rəhbərlik qabiliyyətinə, yüksək intellektə, böyük iradəyə və əsl insani keyfiyyətlərə malik ən yetkin bir şəxsiyyət idi. 1969-cu ilin 14 iyulunda keçirilən Azərbaycan KP Mərkəzi Komitəsinin plenumu Heydər Əlirza oğlu Əliyevi Azərbaycan KP MK-nın birinci katibi seçdi. 1969-cu ildə Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə Azərbaycan özünün həqiqi inkişafını tapdı. Ən geridə qalan respublikalardan hesab edilən Azərbaycanın inkişaf və tərəqqisinin əsası məhz bu tarixdən qoyulmuşdur. Bu plenum Azərbaycanın tarixində çox mühüm, taleyüklü bir hadisə oldu, respublikamızın gələcək inkişafında çox əhəmiyyətli rol oynadı [4, s.33].

70-80-ci illərdə Azərbaycanda iqtisadiyyat, sənaye, kənd təsərrüfatı ilə yanaşı, milli mədəniyyət, incəsənət, elm və təhsil sahələri də xeyli inkişaf etmişdi. Məhz bu illərdə xalqımız öz milli mədəniyyətini, tarixi keçmişini dərindən dərk etmək, milli adət-ənənələrə qayıtmaq, milli varislik imkanlarından istifadə etmək, milli ədəbiyyatımızı dərindən öyrənmək, indiyə qədər deyilməsinə qadağa qoyulmuş bəzi fikirləri və ideyaları aşkarlamaq imkanı qazanmışdı. Sanki sükut buzu sınmışdı. Azərbaycanın görkəmli ziyalıları, şairləri, yazıçıları, alimləri tarixi keçmişimiz, milli mədəniyyətimiz, dilimiz, ədəbiyyatımız, milli ideologiyamız haqqında obyektiv, bəzən də böyük siyasətə uyğun gəlməyən cəsarətli fikirlər söyləməyə başlamışdılar. Mən bu milli oyanışın səbəbini fikirləşərkən xeyli zaman keçdikdən sonra dərk etdim ki, bu prosesin başlanmasının əsas səbəbkarı xalqımızın böyük oğlu H.Əliyev olmuşdur. Azərbaycan ziyalıları məhz ona arxalanaraq, onun çıxışlarına söykənərək öz cəsarətli fikirlərini söyləyir, araşdırmalar aparır, elmi nəticələr çıxarırdılar. Məhz bu dövrdə Azərbaycanın tarixinə, mədəniyyətinə dair fundamental araşdırmalar aparılmağa başlanmış, milli tariximizə, ədəbiyyatımıza, mədəniyyətimizə, görkəmli şəxsiyyətlərimizə dair çoxcildli sanballı əsərlər meydana gəlmiş, Sovetlər İttifaqında ilk dəfə görkəmli ictimai və 20 dövlət xadimlərinin heykəlləri qoyulmuşdur. Xalqımızın tarixində ilk dəfə olaraq monumental əsər olan on cildlik Azərbaycan Ensiklopediyası nəşr edilmişdir. Tarixçilərimiz bu dövrü çox haqlı olaraq Azərbaycanın inkişaf mərhələsində dönüş dövrü kimi xarakterizə edirlər. Mən cəsarət edib demək istəyirəm ki, bu dövr, həmçinin milli oyanış dövrü kimi də xarakterizə oluna bilər. H.Əliyevin milli oyanış siyasəti sahəsində ölkədə mədəniyyətin bütün sahələri: təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənət böyük tərəqqiyə nail oldu, milli ideologiyamız xeyli zənginləşdi. Respublika təhsil sistemində aparılan təhsil islahatları ilə əlaqədar ümumtəhsil məktəblərinin və ali məktəblərin kitabxana şəbəkələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ön plana çəkilmiş, təhsil kitabxanaları təhsil sisteminin əsas tərkib hissələrindən birinə, atributuna çevrilmiş, onlara diqqət və qayğı çoxalmış, təhsil kitabxanalarının qarşısında təhsil prosesinin təşkilində yaxından iştirak etmək, şagirdlər arasında sinifdənkənar oxunu təşkil etmək, onların mütaliəsinin istiqamətləndirilməsinə, mütaliə mədəniyyətinin yüksəldilməsinə xidmət etmək vəzifəsi qoyulmuşdu. Təhsil sahəsində ulu öndərin həyata keçirdiyi üç mühüm məsələyə diqqət yetirmək istəyirəm. Həmin dövrdə ilk dəfə respublikamızda ali və orta ixtisas hərbi məktəblərinin yaradılmasına başlandı. Öz uzaqgörənliyi ilə fərqlənən bu böyük insan sanki Azərbaycan xalqının başına gələcək faciələri əvvəlcədən görürdü. Ona görə də xalqın hərbə hazır olmasını, hərbi sahədə təhsilli hərbçilərimizin olmasını zəruri hesab edirdi. Bütün bunları qabaqcadan görən ulu öndər H.Əliyev 1971-ci ildə C.Naxçıvanski adına respublika ixtisaslaşdırılmış orta internat hərbi məktəbini yaratdı. Heydər Əliyev respublikamızda hazırlanması mümkün olmayan nadir ixtisasların siyahısını müəyyənləşdirmiş və bu ixtisasların keçmiş SSRİ-nin digər müttəfiq respublikalarında, ilk növbədə RSFSR-in böyük elm və sənaye mərkəzlərində hazırlanmasını zəruri hesab etmişdi. Bu məqsədlə

respublikamızda ilk dəfə olaraq SSRİ-nin başqa şəhərlərinin ali məktəblərində oxumaq üçün qəbul həyata keçirilməyə başlanmışdı. Heydər Əliyevin tələbi və məktubu əsasında SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi ölkənin elm və sənaye mərkəzlərində yerləşən ali məktəblərində azərbaycanlı tələbələrin təhsil alması üçün yerlər ayırdı. Bu tədbiri həyata keçirmək üçün respublikada xüsusi təşkilati işlər aparılmış, başqa şəhərlərin ali məktəblərində təhsil almaq haqqında qəbul qaydaları təsdiq edilmişdi. Bu qaydalara görə, belə ali məktəblərə ancaq Azərbaycan Respublikasının vətəndaşı, ilk növbədə isə azərbaycanlılar göndərilməli idi. Başqa şəhərlərin ali məktəblərinə seçilib göndərilmək üçün müvafiq ixtisaslar üzrə ayrı-ayrı ali məktəblərə yerlər ayrılır, ali məktəblərin qəbul haqqında elanlarında bu yerlər ayrıca göstərilirdi. Bu yerlərin doldurulmasına ciddi nəzarət var idi. Ali məktəblər ilk növbədə başqa şəhərlərdə oxumaq üçün ayrılmış yerləri doldurmalı idilər. Bir qayda olaraq başqa şəhərlərdə oxumağa göndərilmək üçün ən istedadlı gənclər seçilirdi [3, s.294].

1970-ci və 1980-ci illərin əvvəllərində Azərbaycanda ali təhsil müəssisələrinin maddi texniki bazasının möhkəmləndirilməsi istiqamətində mütərəqqi işlər görülmüşdür. Azərbaycanda ali təhsilin inkişafı 70 və 80-ci illərdə ümummilli lider Heydər Əliyevin adı ilə bir başa bağlıdır. Məhz ümummilli liderin uzaq görən siyasətinin layiqli nəticəsi olaraq keçmiş SSRİ-nin 170-dən çox ali təhsil müəssisəsinə minlərlə Azərbaycanlı gəncin fərqli ixtisaslarda oxumağa göndərilməsi bunun bariz nümunəsidir. 70-ci illərin sonlarından başlayaraq artıq bu prosesin ənənə halını alması Azərbaycan təhsilinə böyük töhfələr verməyə başladı. Ümummilli liderin Azərbaycan təhsilinə vermiş olduğu töhfələr kəmiyyət və keyfiyyət etibarı ilə təhsil müəssisələrinin elmi çəkisinin artmasına səbəb oldu. Məhz ümummilli lider Heydər Əliyevin gərgin əməyi və ciddi səyləri nəticəsində qəbul imtahanlarında şəffaflıq və aşkarlıq təmin olundu. Ali məktəblərdə mütəxəssis hazırlığı xeyli genişləndi. 1971-1975-ci illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu, Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu, Xankəndi Pedaqoji Dövlət İnstitutu, Azərbaycan İnşaat Mühəndislər İnstitutu yaradıldı. Həmin dövrdən başlayaraq ali təhsilli mütəxəssislərə tələbatın yeni ixtisaslar üzrə aparılması gündəmə gətirildi və reallaşdırıldı. 1971-1975-ci illərdə ali təhsil müəssisələrinə qəbul olma faizləri nəzərə çarpacaq dərəcədə artırdı. Sevincli hallardan biridə o idi ki, təhsil alan bu tələbələrin milli tərkibində Azərbaycanlı tələbələrin sayı nəzərə çarpacaq dərəcədə artmışdı. 70-ci illərdə Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrin sayı 20-yə çatmışdır.

1. S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti
2. M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu
3. Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu
4. Azərbaycan İnşaat Mühəndisləri İnstitutu
5. D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu
6. N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu
7. S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu
8. V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu
9. M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyat İnstitutu
10. SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu
11. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası
12. M.Əliyev adına Azərbaycan İncəsənət İnstitutu
13. S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutu
14. H.Zərdabi adına Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutu
15. Bakı Ali Partiya Məktəbi 16. Xankəndi Dövlət Pedaqoji İnstitutu
17. Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji institutu
18. Sumqayıt Ali Texniki Təhsil Məktəbi
19. S.M.Kirov adına Xəzər Ali Hərbi Dənizçilik Məktəbi
20. Azərbaycan SSR ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirlər Məktəbi [3, s.304].

1970-1980-ci illərdə ali təhsil müəssisələrinin müxtəlif elm sahələri üzrə ixtisaslaşması universallığın artması burada təhsil alan tələbələrin yaradılan yeni ixtisas biliklərinə yiyələnməsi universitet kitabxanalarının üzərinə yeni tələblər qoydu. Akademik mühitin genişlənməsi elmi kitabxanaların canlanmasına gətirib çıxartdı ki bu da kitabxana fondlarının və fondu təşkil edən informasiya resurslarının tərkibinin keyfiyyətcə təkmilləşməsinə səbəb oldu. Bakı Dövlət Universitetinin elmi kitabxanasının ilk təcrübəsində bu proses aydın şəkildə görünürdü. 70-80-ci illərdə kitabxananın fəaliyyətində baş verən ən böyük müsbət keyfiyyətlərdən biri beynəlxalq kitab mübadiləsinin təşkili olmuşdur. Kitabxananın hesabatlarına istinadən deyə bilərik ki oxucuların sayı 18 mindən 38 minədək artmışdır. Oxuculara kitabxana işinin təşkilində mühüm mərhələ hesab edilən elmi-texniki informasiya xidmətinin yaradılması baş verən inkişaf və tərəqqidən xəbər verirdi.

**Nəticə:** Sadalanan bu faktorlar onu deməyə imkan verir ki ümummilli lider Heydər Əliyevin 1969-1983-cü illərdə ölkəyə rəhbərlik etdiyi vaxtda bütün sahələrdə olduğu kimi elm və təhsil sahəsində də, güclü canlanma olmuşdur. Bu sahədə aparılan uzaqgörən və məqsədyönlü siyasət nəticəsində ali təhsil müəssisələrinin fəaliyyətində kəmiyyət və keyfiyyət etibarı ilə böyük irəliləyiş baş vermişdir. Bu irəliləyiş həmçinin kitabxana fondlarının təşkilində, komplektləşdirilməsində, qorunub saxlanmasında, elmi kitabxanaların fəaliyyətinin səmərəli təşkilində özünü göstərmişdir. Bu dövrdə ali təhsil müəssisələrinin informasiya resurslarının modernləşməsi maddi-texniki bazasının möhkəmlənməsi və uğurların əldə edilməsi ümummilli lider Heydər Əliyev tərəfindən istiqamətləndirilən dövlət siyasətinin nəticəsində baş vermişdir.

## Ədəbiyyat siyahısı:

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XVII cildlər. – B.: Azərnəşr, 1997 – 2006.
2. Heydər Əliyev: Biblioqrafik məlumat kitabı / Tərt. edənlər: A.A.Xələfov, S.A.Sadıqova; Red. və ön sözün müəllifi A.M.Məhərrəmov. – B.: Bakı Universiteti Nəşriyyatı, 2003. – 434 s.
3. Mərdanov M. Azərbaycan təhsil tarixi: I cild – Bakı. Təhsil, 2011. – 396 s.
4. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. – Bakı. Azərnəşr, 2006. – 312 s.
5. Xələfov A.A. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bəzi yekunları və təkmilləşdirilməsi məsələləri // Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri (Elmi əsərlərin tematik məcmuəsi). – B.: ADU, 1986. – s.3-24.
6. Xələfov A.A. Sovet Azərbaycanın kitabxana işinin inkişafı // Azərbaycan Dövlət Universitetinin elmi əsərləri: Kitabxanaşünaslıq və biblioqrafiya ser. – B., 1977. – N° 2. – s.3-6.

**Rashad Gardashov**

### Stage of Heydar Aliyev in the development of information resources of libraries of higher educational institutions

The article summarizes the unparalleled merits of the national leader Heydar Aliyev in the field of library construction, which is an integral part of Azerbaijani culture, and draws scientific conclusions. Here the activities of Heydar Aliyev were explained on the role of libraries in the cultural and moral progress of our people and society. Also, the activities of Heydar Aliyev in the direction of developing the library network, centralizing libraries, developing library funds, improving library services to the population, strengthening the material and technical base of libraries and human resources in the country in the second half of the 20th century were analyzed on the basis of specific facts.

**Key words:** Heydar Aliyev, higher school, information resources, library and information activities, library services.

UOT 02

**Ələmdar Bayramov**
**Bakı Dövlət Universiteti,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent,**
**E-mail: alemdarbayramov@bsu.edu.az**

**Aysel Həsənova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,**
**müəllim**
**E-mail: aysel.hasanova@admiu.edu.az**

# HEYDƏR ƏLİYEVİN MULTİKULTURALİZM SİYASƏTİ KİTABXANA-İNFORMASİYA FƏALİYYƏTİ SİSTEMİNDƏ

**Xülasə:** Məqalədə cəmiyyətdə baş verən dəyişikliklərə uyğun olaraq kitabxana-informasiya fəaliyyəti sistemində tətbiq olunan yeni istiqamətlərdən bəhs olunur. Həmin istiqamətlərdən biri kimi multikulturalizm ənənələrinin kitabxanaların fəaliyyətinə təsirinin öyrənilməsi hesab olunur. Məqalədə bu istiqamətdə kitabxanalarda tarixi ənənələr öyrənilir və fəaliyyətin genişləndirilməsi ilə bağlı tövsiyələr verilir.

**Açar sözlər:** Heydər Əliyev, multikulturalizm, multikulturalizm siyasəti, kitabxana-informasiya fəaliyyəti sistemi, kitabxana xidməti, mədəni müxtəliflik

**Giriş.** Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra qarşıda duran əsas problemlərdən biri Azərbaycan xalqını vahid bayraq altında birləşdirməkdən ibarət idi. Bu istiqamətdə irəli atılan əsas və ən önəmli addımlardan biri multikulturalizm siyasəti hesab olunur. Multikulturalizm siyasətinin əsasında Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələri hüquqi və siyasi müstəvidə bərpa etmək imkanı dayanırdı. Ulu öndər Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan öz tarixi köklərinə qayıtmaqla sahib olduğu bu dəyərləri yeni nəslə təbliğ etmək kimi önəmli vəzifəni öz öhdəsinə götürmüş oldu. Məhz ümummilli liderin sayəsində milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yarandı. Azərbaycan Respublikasının Konstitusiyası ilə ölkədə yaşayan bütün millətlərin hüquqları qorundu və imtiyazları təmin olundu. Məhz ulu öndərin hakimiyyəti dövründə qəbul edilən bir çox qanunlar milli azlıqların mədəni kimliyini özünə qaytardı. Onun uzaq görən siyasəti nəticəsində müxtəlif xalqlar vahid bayraq altında birləşməyi bacardı.

Mədəni və dil müxtəlifliyi bəşəriyyətin ümumi irsi, mübadilə, mədəni azadlıq, yaradıcılıq və xalqlar arasında dinc yanaşı yaşama mənbəyidir və bu, müasir cəmiyyətin inkişafı üçün ilkin şərt hesab olunur. Bəşəriyyətin inkişafının mahiyyətinin əsasında insanlara öz seçimlərinə uyğun yaşamağa imkan vermək durur. Müasir cəmiyyət digər etnik icmaların nümayəndələrinə hörmət üzərində qurulmalı və onların dialoqu üçün şərait yaratmalıdır.

XXI əsrdə fəaliyyət göstərən qloballaşma, miqrasiya, informasiyalaşma, yerdəyişmələr (sürgün, məcburi köçkün, siyasi qaçqın) monokultural olan xalqların mədəni müxtəlifliyinə gətirib çıxarır. Fərdi azadlıq və vahid cəmiyyətin möhkəmlənməsi problemlərinin həllində, qarşılıqlı anlaşmanın, ünsiyyət mədəniyyətinin tərbiyəsində kitabxanalar böyük əhəmiyyət kəsb edir.

**Məsələnin qoyuluşu:** Kitabxananın fəaliyyəti hazırda mühüm dəyişikliklərə məruz qalır, ona qlobal tendensiyaların (etnik icmaların mədəni maraqlarının lokallaşdırılması; yeni informasiya texnologiyalarının yayılması kontekstində mədəniyyətin qloballaşması) əlverişli uyğunlaşma zonası və

informasiya təminatı mərkəzləri olan müxtəlif etnik mənsubiyyəti əhatə edən əhalinin miqrasiyası fəal şəkildə təsir göstərir.

Müasir cəmiyyətdə qloballaşma və informasiyalaşma gərginlik mühiti yaradır ki, kitabxanalar öz fəaliyyətlərində islahatlar aparmaqla onu azaltmağa çağırılır. Onların dəyişməsinin əsasını multikultural fəaliyyət təşkil edir. Bunun üçün kitabxananı multikultural mərkəz kimi islahat etmək lazımdır ki, onun mühüm funksiyalarından biri fondlarda təmsil olunan mədəni irsin mənimsənilməsi prosesində insanların sosiallaşması olacaq.

Kitabxananın transformasiyası təkcə ənənəvi üsullarla – kitab fondlarının, informasiya ehtiyatlarının formalaşdırılması, yeni informasiya texnologiyaları vasitəsilə onlara çıxış imkanlarının genişləndirilməsi ilə deyil, həm də oxucuları ətrafdakı reallığı fəal dərk etməyə cəlb etmək üsulları ilə həyata keçirilməlidir.

Bu cür fəaliyyətlərin nəticəsi kitabxanaların müasir dünyanın çağırışlarına adekvat cavab verməyə, anlaşılmazlıq və mədəni stereotiplərin baryerlərini uğurla dəf etməyə qadir şəxsiyyət formalaşdıran mədəniyyətlərin qarşılıqlı əlaqə mərkəzlərinə çevrilməsi olacaqdır.

**Məsələnin həlli:** Qərbdə artıq XX əsrin 60-70-ci illərində kitabxanaların multikultural fəaliyyəti kitabxanaçılığın əsas istiqamətlərindən birinə çevrilmişdir. Kitabxanalarda etnik azlıqlara xidmət göstərilməsi ilə bağlı məsələlərin öyrənilməsində İFLA-nın nəşrləri və materialları (IFLA Section on Library Services to Multiculture Population) böyük əhəmiyyət kəsb edir. Qlobal cəmiyyətdə hər kəsin informasiya və kitabxana xidmətlərindən istifadə etmək imkanı olmalıdır [2]. Bunun üçün bölmə multikultural əhaliyə kitabxana xidməti göstərən ictimai kitabxanalar, kitabxana birlikləri, kitabxana konsorsiumları, dövlət və qeyri-hökumət təşkilatları ilə daim və sıx əlaqədə işləyir. Bölmənin ən mühüm vəzifələrindən biri multikultural xidmətlərə dair təlimat və standartların hazırlanmasıdır: "Multikultural kitabxanaçılıq: çoxmillətli və çoxdilli oxucuya xidmət" və "Multikultural icmalar: kitabxana xidmətlərinə dair bələdçi" [2]. Nəşrlərdə qeyd olunur ki, kitabxana xidmətləri cəmiyyətdəki bütün etnik, dil və mədəni qruplara bərabər və ayrı-seçkilik olmadan göstərilməlidir. Burada vurğulanır ki, etnik, dil və mədəni azlıqların xidmətinə əsas xidmətə əlavə bir şey kimi baxılmamalı, ənənəvi işin bütün formalarına inteqrasiya edilməlidir.

2008-ci ilin aprelində İFLA-nın Multikultural Kitabxanalar Bölməsi Multikultural Kitabxana Manifestini hazırladı. Orada deyilir ki, "mədəni və dil müxtəlifliyi bəşəriyyətin ümumi irsidir və hamının mənafeyinə uyğun olaraq saxlanmalı və qorunmalıdır. Bu, mübadilə, yenilik, yaradıcılıq və dinc yanaşı yaşama mənbəyidir. Mədəniyyətlərin müxtəlifliyinə hörmət, tolerantlıq, etimad və qarşılıqlı anlaşma şəraitində dialoq və əməkdaşlıq sülh və beynəlxalq təhlükəsizliyə ən yaxşı təminatdır" [2].

XXI əsrin kitabxanası geniş ictimaiyyət üçün əlçatan olan mədəniyyət mərkəzinə çevrilir. Kitabxana müxtəlif etnik qrupların nümayəndələrinin istər-istəməz görüşdüyü və qarşılıqlı anlaşma və qarşılıqlı hörmət sisteminin, rahat psixoloji mühitin, mədəniyyətlərarası təhsil imkanlarının yaradılması üçün unikal şəraitin mövcud olduğu müəssisədir. Kitabxanalarda mövcud olan milli mədəniyyətlərin dirçəlişi, inkişafı, təbliği ilə bağlı çoxsaylı mərkəzlər və kitabxanaların özləri mədəniyyətlərarası ünsiyyət üçün geniş imkanlar yaradır.

Əsrlər boyu inkişaf etdirilən öz təcrübələri, formaları və xidmət vasitələri ilə kitabxanalar ictimai şüura, insanların həyat, ətraf aləm haqqında təsəvvürlərinə müsbət təsir göstərə, bununla da mədəni məkan formalaşdıra bilirlər. Buna görə də bütün növ kitabxanalar beynəlxalq, milli, regional və yerli səviyyədə mədəni və dil müxtəlifliyini nəzərə almalı, dəstəkləməli və təşviq etməli, beləliklə, mədəniyyətlərarası dialoqu və fəal vətəndaşlığı dəstəkləməlidir [3, s.175].

Kitabxananın mədəni məkanı hər kəsin başqalarını zənginləşdirə biləcək özünəməxsus bilik və təcrübəyə malik olduğu qəbul edildikdə, xarici-mədəni və xarici dil istifadəçilərinin qarşılıqlı ünsiyyəti və öyrənilməsi üçün açıq mühit yaratmağa imkan verir.

Kitabxanada multikultural fəaliyyətin məqsədi oxucunu qeyri-müəyyənlik, çoxdillilik, müxtəlif mədəni mənaların birgə yaşayışı mühitinə batırmaqdır ki, o, belə bir dünya düzəninin mümkünlüyünə "alışsın" və oxuduqda mədəniyyət sarsıntısı keçirməsin.

Kitabxana istifadəçilərinin və kitabxanaçıların özlərinin birgə multikultural fəaliyyətin birbaşa iştirakçılarına çevrilməsinə töhfə verən ünsiyyətdir [4, s.25].

Kitabxanaların mühüm vəzifəsi öz etnik qrupunun ana dilini və mədəniyyətini, adət-ənənələrini, başqa millətlərin nümayəndələrinə qarşı dözümlülüyü qoruyub saxlamaq istəyən etnik icmalara kömək etməkdir. Müxtəlif dillərdə ədəbiyyat fondlarını formalaşdıran kitabxana milli mədəniyyətlər, onların tarixi, dilləri, ədəbiyyatı və incəsənəti ilə tanışlıq mərkəzinə çevrilir.

Kitabxanalar əhalini kitabxana-informasiya ehtiyatlarının və onlara çıxışı təmin edən texniki vasitələrin köməyi ilə humanist əsaslarla birləşdirir [1].

Kitabxanaların səyləri milli, etnik, mədəni və tarixi ənənələrin dirçəldilməsinə və qorunub saxlanmasına, birgə yaşayan xalqların adət-ənənələrinə və dilinə hörmət hissinin aşılanmasına yönəldilməlidir. Azərbaycanda yaşayan xalqların etnik özünüdərkinin yüksəlişi şəraitində müasir mərhələdə kitabxanaların ən mühüm problemlərindən biri etnik azlıqlara kitabxana xidmətinin təşkilidir.

Bununla əlaqədar olaraq, kitabxananın multikultural fəaliyyətinin xüsusiyyətlərini əks etdirən aşağıdakı iş sahələrini formalaşdırmaq lazımdır:

- müxtəlif mədəni-maarif tədbirlərinin (konfranslar, milli mədəniyyət günləri, seminarlar, təqdimatlar və s.) keçirilməsi;
- eyni zamanda, çoxmillətli əhali üçün kitabxana-informasiya xidmətləri fərqli deyil, ümumi xidmət kimi qəbul edilməlidir;
- müxtəlif multikultural icmalarla işləmək və onların informasiya, mənəvi, intellektual, mədəni ehtiyaclarını reallaşdırmaq bacarığı üçün işçilərin işə götürülməsi;
- mədəni və linqvistik müxtəlifliyi, o cümlədən rəqəmsal və multimedia resurslarını əks etdirən etnik qrupların mədəni və mənəvi ehtiyaclarına uyğun fondların və xidmətlərin inkişafı;
- mədəniyyətin unikallığını üzə çıxaran və əks etdirən struktur bölmələrinin, informasiya və mədəniyyət mərkəzlərinin, habelə xarici mədəniyyətlərin təbliği şöbələrinin açılması;
- milli-mədəni məkanın öyrənilməsi üzrə bütün növ kitabxanaların fəaliyyətinin aktivləşdirilməsi və əlaqələndirilməsi (tərkibi, istifadəçilərin ehtiyac və tələbləri, milli-mədəni birliklərin mövcudluğu);
- milli mədəniyyət təşkilatları, arxiv və muzeylərlə ictimai əlaqələrin inkişafı;
- xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə, orijinal mədəniyyətin qorunması və inkişafına yönəlmiş beynəlxalq, regional proqram və layihələrdə iştirak.

**Nəticə:** Aparılan təhlillərə əsasən belə qənaətə gəlmək olar ki, müasir kitabxana-informasiya fəaliyyəti Heydər Əliyevin multikulturalizm siyasətinə əsaslanaraq müxtəlif mədəniyyətlərarası dialoq növləri ilə bağlı olan mədəni müxtəliflik və tolerantlıq mərkəzlərinə çevrilməlidir. Multikultural fəaliyyət prosesində kitabxana hər bir istifadəçiyə xüsusi psixoloji abı-hava, qonaqpərvərlik, maraq mühiti yaradır ki, bu da müxtəlif etnik icmaların nümayəndələri arasında yadlaşma baryerini dəf etməyə kömək edir, tolerantlığın inkişafına töhfə verir.

## Ədəbiyyat siyahısı:

1. Back L. New Ethnicities and Urban Culture: Racisms and Multiculture in Young Lives. London: Routledge., – 1996
2. Multicultural Communities: Guidelines for Library Services 3 rd edition, 2009// https://www.ifla.org/wp-content/uploads/2019/05/assets/library-services-to-multicultural-populations/publications/multicultural-communities-en.pdf [25.03.2023]

3. Wise A. Hope and belonging in a multicultural suburb. Journal of Intercultural Studies, – 2005. 26(1–2). – p.171-186.

4. Wise A. Everyday multiculturalism: Transversal crossings and working class cosmopolitans. In: Wise A and Velayutham S (eds) Everyday Multiculturalism. Basingstoke: Palgrave Macmillan, – 2009. – p.21-45.

**Alamdar Bayramov**
**Aysel Hasanova**

## HAYDAR ALIYEV'S MULTICULTURAL POLICY IN THE LIBRARY-INFORMATION ACTIVITY SYSTEM

The article talks about the new directions applied in the library-information activity system in accordance with the changes occurring in society. Studying the influence of multiculturalism traditions on the activities of libraries is considered as one of those directions. In the article, are studied historical traditions in libraries in this direction and recommendations are given regarding the expansion of activities.

**Key words:** Heydar Aliyev, policy of multiculturalism, multiculturalism, library-information activity system, library service, cultural diversity

UOT 21-93

**Rəşad Əsgərov**
**Azərbaycan Milli Elmlər Akademiyası,**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: r.asadov@mail.ru**

**Bağır Babayev**
**Naxçıvan Dövlət Universiteti**
**fəlsəfə üzrə fəlsəfə doktoru**
**E-mail: baqirbabayev59@mail.ru**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN ETNİK-DİNİ MÜXTƏLİFLİK MODELİ: UDİNLƏR

**Xülasə:** Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələrinin qorunub saxlanılması və daha da uğurla inkişaf etdirilməsinin əsası qoyuldu. Ulu öndərin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Bu, qədim ənənələrə malik milli azlıqların çoxəsrlik ədəbiyyatının, mədəniyyətinin, dilinin, tarixinin, adət-ənənələrinin mövcudluğunu qoruyub saxlayır. Müasir Azərbaycan ərazisində tarixən güclü etnik-mədəni və konfessional irsə malik olan udinlər xalqımızın ayrılmaz hissəsidir. Bu gün udinlər Nic Kabalinsky rayonunun kəndi ərazisində kompakt şəkildə yaşayırlar. Onları Azərbaycanın Alban-Udi Xristian İcması təmsil edir. Udine kilsəsi Alban kilsəsinin ayrılmaz hissəsidir. Bu, həm tarixi ədalətin bərpası, həm də ölkə rəhbərliyinin milli azlıqların problemlərinə diqqətinin inandırıcı nümayişi, Azərbaycan xalqının yüksək tolerantlıq modelidir. Çünki udinlər Azərbaycan xalqının - Qafqaz albanlarının ən qədim nəsillərindən biridir və multikulturalizmin Azərbaycan modeli bütün dünya üçün nümunədir.

**Açar sözlər:** Azərbaycan Respublikası, tolerantlıq, etnik-dini müxtəliflik, udinlər, mədəniyyət

Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra ölkəmizdə tolerantlıq mühiti və multikulturalizm xalqımızın ümummilli lideri Heydər Əliyevin formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq daha da möhkəmləndirilmiş və dövlətin prioritet istiqamətinə çevrilmişdir. Tarix boyu ölkəmizin ərazisində müxtəlif xalqların və dinlərin nümayəndələri dinc şəraitdə yaşayırlar. Onları həmişə möhkəm dostluq və qardaşlıq münasibətləri birləşdirib. Ona görə də xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələrinin qorunub saxlanılması və bundan sonra da uğurla inkişaf etdirilməsi üçün əlverişli zəmin yaradılmışdır. “Ulu öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Çünki onları qoruyan xalq həmişə müstəqillik yolu ilə getmək, öz müstəqilliyini qorumaq əzmindədir” (5, s.5).

Müasir dünyadakı qloballaşma dinlərarası və millətlərarası dialoqa ehtiyacı artırır, cəmiyyətdəki mədəniyyətlər və dinlər arasındakı münasibətlərdə gərginliklər yaranması yolverilməz sayılır. Azərbaycanda qədim ənənələrin daşıyıcıları olan müxtəlif etiqad və inanclara malik xalqlar yüz illərlə əmin-amanlıq şəraitində yaşamışlar, bununla da, etnik-mədəni müxtəliflik günümüzədək qorunub saxlanılmışdır. Onların hamısında xalqımıza xas olan mədəni və mənəvi dəyərlər müstəsna rol oynayıb. Bunlar multikulturalizmin Azərbaycan modelinin dünyaya nümunə kimi təqdim edilməsi deməkdir. Çünki multikulturalizm və tolerantlıq mədəniyyəti Azərbaycanda qədim ənənələrə malikdir. “Ulu öndər Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisi missiyasının həyata keçirmişdir. Onun

uzaqgörən və müdrik rəhbərliyi nəticəsində multikulturalizm Azərbaycan Respublikası dövlət siyasətinə çevrildi" (1, s.161).

Azərbaycanda qədim ənənələrə malik olan multikulturalizm və tolerantlıq mədəniyyəti ümummilli lider Heydər Əliyev tərəfindən dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir. "Ulu Öndərin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasəti uğurla davam etdirir" (5, s.5). Beləliklə, qədim ənənələri olan milli azlıqların çoxəsrlik ədəbiyyatı, mədəniyyəti, dili, tarixi və adət-ənənələri mövcuddur. Müasir Azərbaycan ərazisində tarixən güclü etnomədəni və konfessional irsə malik olan udinlər xalqımızın ayrılmaz hissəsidir. Bu gün udinlər Qəbələ rayonunun Nic qəsəbəsi ərazisində kompakt şəkildə yaşayırlar. Onları Azərbaycanın Alban-Udi xristian icması təmsil edir. Udin kilsəsi Alban kilsəsinin ayrılmaz hissəsidir. Bu, həm tarixi ədalətin bərpası, həm də ölkə rəhbərliyinin milli azlıqların problemlərinə, Azərbaycan xalqının yüksək tolerantlıq modelinə diqqətinin inandırıcı təzahürüdür. Çünki udinlər Azərbaycan xalqının ən qədim nəsillərindən biridir.

Udinlər Azərbaycanda yerli xalq olub, Qafqazın ən qədim etnik qruplarındandır və müasir Azərbaycan xalqının əcdadlarından biridir. Tarixən onlar əsasən Qafqaz Albaniyasənən Uti və Arsax vilayətlərində yaıoamэıolar. Udilər haqda maraqlə məlumatə XIX əsrin ortalarənda Azərbaycana səyahət edən məıohur Fransa yazэээсэ Aleksandr Dьma da цzьnьn "Qafqaz səfəri"ndə gцstərmiıodir. Hal-hazərda Azərbaycan Respublikasənən Opuz ıoəhərində, həmзinin Qəbələ rayonunun Nic qəsəbəsində yaıoayan udilərin sayэ 4000-ə yaxəndər və dilləri iki dialektə – Nic və Vartaєen dialektinə bцlьnьr. Azərbaycanda цz tarixi vətənində – Qəbələ rayonunun Nic qəsəbəsində yэpcam, Opuz və Bakэda dapənəq vəziyyətdə yaıoayər" (1, s.77-78).

Udinlər həmişə müxtəlif xalqların və dinlərin nümayəndələri ilə birlikdə çoxmillətli və çoxkonfessiyalı şəraitdə yaşamışlar. Dialoq, qarşılıqlı əlaqə və tərəfdaşlıq onlara da xasdır. Udinlərin mədəniyyəti və ənənələri dinamik xarakter daşıyır. "Hal-hazırda udinlərlə qonşuları müsəlmanlar arasında fərqlər vardır, lakin müsəlman və xristian ailələri arasında müqəddəs bayramlar və ya yas mərasimləri ilə bağlı heç bir səviyyədə fikir ayrılığı yoxdur" (2, s.22). Udinlər qonşuları müsəlmanları həmişə hörmətlə qarşılayırlar, ziyafətə hörmət əlaməti olaraq donuz əti və alkoqollu içkilər verilmir, hətta bəzi ailələrdə yalnız qonaq olduqda istifadə olunan xüsusi mətbəx əşyaları saxlanılır. Udinlərin toy mərasimlərində və digər xüsusi tədbirlərdə qonşuları müsəlmanları xüsusi hörmətlə qarşılanır. Memarlıq baxımından udin xristian evləri, təbii olaraq, müsəlmanların evləri ilə iç-içədir, yan-yanadır. "Müxtəlif ibadət yerlərinin, qədim məbədlərin, sinaqoq, kilsə və məscidlər kimi dini obyektlərin mövcudluğu, bir-birinin yanında olması ölkəmizin multikulturallığını simvollaşdırır. Udinlərin Nicdəki kompakt yaşayış yerləri buna parlaq bir nümunə ola bilər; belə kiçik bir məkanda qədim ibadət yerləri, üç kilsə və iki məscid vardır" (3, s.165-172; 4, s.22-77).

Son onilliklərdə udinlər etnosu, milli özünüdərkin artması və etnosun konsolidasiyası ilə xarakterizə olunan intibah dövrünü yaşayırlar. Xristianlıq tarixindəki udinlər etnosunun qorunması modeli olaraq dini tolerantlığın mövcudluğunu şərtləndirən tarixi köklərə malikdir Udinlərin və qonşuların genetik portretləri çox fərqlidir. XXI əsrdə qloballaşma və inteqrasiyanın müasir çağında udinləri düşündürən əsas məsələlərdən biri – onların öz dini-milli etnik kimliklərini itirməmək üçün hansı yolu seçmələridir.

Udinlər Qafqaz Albaniyası adlanan dövlətin yaradıcılarından olmaqla, müasir Azərbaycanın multikultural mühitində dini tolerantlığı yaşadırlar. Onların bu gün özlərinin dil, mədəniyyət, adət ənənələri ilə güclü xristian irsinin qorunmasındakı rolları danılmazdır. Unutmaq olmaz ki, udinlər – albanlar Qafqazdilli olmaqla qədimdən Azərbaycan xalqının formalaşmasında fəal iştirak etmişlər. Bununla yanaşı, hazırda Qafqaz Albaniyasının – qədim albanların ən qədim nəslindən biri kimi. Azərbaycan xalqının bir hissəsi, alban xristianlığının yeganə varisləri və daşıyıcılarıdır.

Bu gün Azərbaycan təkcə sosial-iqtisadi uğurlarına, hərbi-siyasi potensialına, döyüş meydanında qazandığı qələbələrə görə deyil, həm də vicdan azadlığının və multikultural mühitin təmin edilməsinə,

çoxəsrlik tolerantlıq ənənələrinin qorunmasına görə regionda liderdir. Tarixən formalaşmış tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilib. Azərbaycan müxtəlif millətlərə və dinlərə məxsus insanların birgə mehriban yaşadığı bir ölkə, Şərqlə Qərb, Qərblə İslam dünyası arasında bir körpü olaraq mədəniyyətlər və sivilizasiyalararası dialoqa böyük önəm verir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. Bakı: BBMM, 2017. 421 səh.
2. Гусейнов Р.А. “Удины”. ИРС (“Наследие”). Международный журнал. № 3 (33). М.,: 2008г., стр. 22-25.
3. Мобили Роберт. “Албано-удинская христианская община – основа возрождения Албанской (Кавказской) церкви в Азербайджане”. Труды Международной конференции “Место и роль Кавказской Албании в истории Азербайджана и Кавказа”. Баку. 2012, с.165-172.
4. Роберт Мобили Роберт. “Удины: язык, религия и этнография”. Изд-во “Леман”, Баку. 2011., 80 с.
5. Xudiyev Nizami. Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli. Yeni Azərbaycan. 2016. 23 aprel. s.5

**Rashad Askerov**
**Bagir Babayev**

## HEYDAR ALIYEV AND THE MODEL OF ETHNO-RELIGIOUS DIVERSITY OF AZERBAIJAN: UDINS

**Summary:** At the initiative and instruction of the national leader of our people, Heydar Aliyev, the foundation was laid for the preservation and further successful development of the traditions of tolerance and multiculturalism in Azerbaijan. The successor of the political course of the great leader, President of the Republic of Azerbaijan Ilham Aliyev successfully continues this policy. This preserves the existence of centuries-old literature, culture, language, history and traditions of national minorities with ancient traditions. Having a historically strong ethno-cultural and confessional heritage on the territory of modern Azerbaijan, the Udins are an integral part of our people. Today, Udins compactly live on the territory of the village of Nij Kabalinsky district. They are represented by the Albanian-Udi Christian Community of Azerbaijan. The Udine Church is an integral part of the Albanian Church. This is both the restoration of historical justice, and a convincing demonstration of the attention of the country's leadership to the problems of national minorities, a model of high tolerance of the Azerbaijani people. Because the Udins are one of the oldest generations of the Azerbaijani people – Caucasian Albanians, and the Azerbaijani model of multiculturalism is an example for the whole world.

**Key words:** Republic of Azerbaijan, tolerance, ethno-religious diversity, Udins, culture

**UOT 008+32.**

**Pərvanə Məmmədova**
**Azərbaycan Texniki Universiteti,**
**dosent**
**E-mail: parvana.mamedova.72@mail.ru**

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİ HEYDƏR ƏLİYEVİN SİYASİ BAXIŞLARI MÜSTƏVİSİNDƏ

**Açar sözlər:** Azərbaycan mədəniyyəti, xalqa aşiq, müdrik rəhbər, siyasi mədəniyyət, milli-mənəvi dəyərlər

XX əsrin 60-cı illərinin sonlarından başlayaraq xalqımızın siyasi, ictimai, təsərrüfat, mədəni, mənəvi və ədəbi həyatında nəzərəçarpacaq iz qoymuş Heydər Əlirza oğlu Əliyevin bu ilin may ayında anadan olmasının 100 illiyi tamam olur. Heydər Əliyevin hələ 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçildiyi dövrdən respublikamızın xeyli sferalarında canlanma baş vermişdir. Təbii ki, keçən müddət ərzində böyük rəhbərin həyata keçirdiyi işlərin geniş mənzərəsi Azərbaycan alimləri, tədqiqatçıları, tarixçiləri, ədəbiyyat xadimləri və başqaları tərəfindən yaradılmaqla haqqında saysız-hesabsız yazılar dərc olunmuş, kitablar nəşr etdirilmişdir. Onların adlarını dilə gətirməyə bəlkə bir kitabın həcmi belə kifayət etməzdi. Odur ki, biz onlar haqqında ümumi şəkildə danışmağı qarşıya məqsəd qoymuruq. Buna görə də biz burada Heydər Əliyevin sırf mədəniyyətimizin inkişafına verdiyi töhfələrdən bəhs etməyi zəruri hesab edirik. Bu müstəvidə Rusiyada yaşayıb-yaradan, Heydər Əliyevin yaradıcılıq, quruculuq fəaliyyətinə ayrıca epik poema həsr etmiş Mirkazım Heydərov özünün on fəsildən ibarət “Heydər dahiliyi” (6, 258) əsərində onun haqqında ağız dolusu danışır, ulu öndərin hansı oddan-alovdan keçərək Azərbaycanımıza xilaskarlıq etdiyini dilə gətirmişdir. Azərbaycanın keçmişindən Nizami dövründən başlayaraq onun bütün fəaliyyətini oxucunun gözü qarşısında canlandıran müəllif əsərin ümumi ritmikasında, məzmun kontekstində başımıza gətirilmiş çoxsaylı bəlalarımızdan bəhs etməklə Şuşamızın, Laçınımızın, Kəlbəcərimizin ağrılarını, Naxçıvanın vəziyyətini göz önündə sanki film titrlərində olduğu kimi nümayiş etdirir. Lakin bütün əsərin ideyası, struktur-kompozisiya ünsürləri məhz Heydər Əliyev şəxsiyyəti üzərində qurulur. Burada irili-xırdalı bütün nə varsa, hamısı Heydər Əliyevlə nəfəs alır, ondan qidalanır. Poemanın lirik və siyasi qəhrəmanı Heydər Əliyev əksər keyfiyyətlərini nümayiş etdirməklə nümunə olaraq özünün əzəmətini, vüqarını və mənəvi keyfiyyətləri ilə oxucunu öz təsiri altında saxlayır. Kitabın nəşrinə öz söz yazmış H.Həşimlinin qeydləri sanki onun leytmotivini mahiyyəti ilə anladığından yığcam “Heydər dahiliyi” poeması haqqında” məqalədə dürüst ifadələrlə H.Əliyevin siyasi-mənəvi şəxsiyyəti üzərində gəzişmələr apararaq yazır: “Rəhbər, ruhlandırıcı və bütün uğurlarımızın qarantı-siyasi, iqtisadi, sosial-mədəni yüksəlişimizin istiqamətvericisi olan Heydər Əliyev adını öz Vətəninin və xalqının ürəyinə yazdırmaqla xeyli problemlərin yöntəmini tapa bilmişdir.

Mirkazım Seyidovun “lirik-fəlsəfi” planda qələmə aldığı “Heydər dahiliyi” poemasında ümummilli liderimiz Heydər Əliyevin müdrikliyi, qətiyyətliliyi, təfəkkürünün genişliyi öz əksini tapmışdır. Parlaq poetik bir dildə dahi rəhbərin fəaliyyətinin ən gərgin dövrü də onun xalqa inamının ifadəsi ilə parlaq poetik bir dildə qələmə alınmışdır (3, s.6). Nəinki haqqında bəhs etdiyimiz, həm də digər mənbələrdə Heydər Əliyevin Azərbaycana, azərbaycançılığa və onun bütün sferalarına canla-başla xidmətindən bəhs edilir. Ulu öndərin 100 illik yubileyi ilə bağlı bu məqaləni qələmə alarkən onunla bağlı çoxsaylı əsərlərə, məqalə və materiallara müraciət etdik. Gördük ki, onlardan hər birində bu müdrik dövlət başçısının əməllərinin görümlü təhlillərinin verilməsinə daha çox can atılmazdır. Məsələn, onlardan birində Gülşən Əliyeva-Kəngərlinin “Heydər Əliyevin mədəniyyət konsepsiyası” adlı məqaləsində ulu öndərin mədəniyyətimizə verdiyi dəyər bütün tərəfləri ilə ortaya qoyulur. Məqalənin ciddi məqsədi olduğundan müəllif burada Heydər Əliyevin çıxışlarından yığcam və hədəfə tuşlanan

fraqmentlər gətirməklə onun nə qədər uzaqgörən azərbaycanlı olduğunu konkret nümunələrə söykənməklə göstərir. "Xalqımız qədim xalqdır, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu nə qədər xalqımıza dərindən çatdıra bilsək, bir o qədər də xalqımızın həqiqi vətənpərvərlik hissini, azərbaycançılıq hissini yüksəldirik" (2, s.25). Məqalə müəllifinin belə bir fikri ilə də rastlaşırıq ki, Heydər Əliyevin özü bir incəsənət vurğunu, mədəniyyət aşiqi olduğundan bu böyük şəxsiyyət uzun, şərəfli, çətin həyat yolunun hər bir mərhələsində yalnız mədəniyyətlə, onun nümunələri ilə sadəcə yaxından maraqlanmamış, həm də mədəniyyətin qüdrətli hamisi və müdafiəçisi kimi çıxış etmişdir (2, s.25).

Heydər Əliyev mədəniyyət məfhumunun və ona xidməti lokal çərçivədə nəzərdən keçirmirdi. Ona bu anlayışın əsas elementlərinin hamısını daxil edirdi. Daha doğrusu, Azərbaycan xalqının mənəvi mədəniyyətinin bütün sahələri – ədəbiyyat, mədəni-mənəvi irs, folklor, epos, etnoqrafiya, poeziya, nəsr, dramaturgiya, teatr, rəssamlıq, memarlıq, heykəltəraşlıq, musiqi, incəsənət, tarix, dil məsələləri və digər çoxsaylı sahələr onun nəzər diqqətindən kənarda qalmamışdır.

Heydər Əliyev yaxşı təsəvvür edirdi ki, xalqın milli mental dəyərlərinə, keçmişinə, adət-ənənələrinə biganəliklə yanaşmaq onların gələcək nəsillərə çatdırılmasına saygısız yanaşmaq böyüməkdə olan nəslin formalaşmasına heç bir pozitiv irəliləyiş vəd edə bilməz. Odur ki, hakimiyyətə gəldiyi ilk dövrdən o, ictimai həyatın çeşidli sahələrinə dair orijinal və gərəkli ideyalar müəllifi kimi daxil olmuşdur: "Ulu öndər xalqda milli heysiyyəti gücləndirmək, onu öz şanlı keçmişinə, soy-kökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra aşkar-gizli tədbirlər həyata keçirmişdir" (4, s.7). Təkcə onu demək kifayətdir ki, Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdığı dövrdə mədəniyyət sahəsində aparılacaq işlərin həyata keçirilməsi istiqamətində bir sıra zəruri qanunların ("Mədəniyyət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Nəşriyyat işi haqqında", "Muzeylər haqqında", "Turizm haqqında", "Arxiv fondu haqqında", "Memarlıq fəaliyyəti haqqında" və s.) qəbul edilməsi, Azərbaycan təhsil sistemi və səhiyyə sahəsində dəyişikliklərin aparılması ilə bağlı həyata keçirilən tədbirlər və yeniliklər də məhz Heydər Əliyevin həmin sahələrə göstərdiyi qayğı ilə bağlı olduğu etiraf edilməlidir. N.Ələkbərova yazır: "... mədəniyyət siyasətinin həyata keçirilməsinin ən əsas vasitələrindən biri olan hüquqi cəhətdən mükəmməl, dünya standartlarını və milli özəllikləri nəzərə alan qanunların hazırlanmasına ciddi diqqət yetirilmişdir" (1, s.8). Məhz yuxarıda adlarını sadaladığımız qanunlar H.Əliyev tərəfindən təsdiqləndikdən sonra mədəniyyət sahəsinə daha ardıcıl diqqət yetirilmişdir. Eyni zamanda Azərbaycanın mədəniyyət sferasını çevrələyən bir sıra beynəlxalq konvensiyalara, "Silahlı münaqişələr zamanı mədəni və təbii irsin qorunması haqqında" "Arxeoloji irsin qorunması haqqında" kimi konvensiyalara qoşulmuşdur.

Bütün bunlarla yanaşı, H.Əliyev mədəniyyətin şah damarını təşkil edən ədəbiyyat xadimlərinin (C.Cabbarlı, M.Dilbazi, S.Vurğun, S.Rəhimov, İ.Əfəndiyev, M.İbrahimov, Qabil, Nəbi Xəzri, İ.Qasımov, Y.Səmədoğlu, Anar, X.R.Ulutürk, Elçin, M.Araz, Şəhriyar, B.Azəroğlu, İ.Hüseynov, T.Bayram, Ü.Hacıbəyli, C.Məmmədquluzadə, H.Cavid və başqalarının yaradıcılığı ilə bağlı fikirlər söyləmiş) yaradıcılıq gecələrini keçmişdir (5, s.125-393). Ümumiyyətlə nəzər saldıqda görürük ki, Heydər Əliyevin mədəniyyət siyasəti milli-mədəni sərvətlərin qorunub saxlanılması, həm də respublikamızın dünya birliyinə inteqrasiya olunması, mədəniyyətimizin dünya ölkələrinin mədəniyyətinə daxil olması və onun bəşər mədəniyyətinin tərkib hissəsi kimi qəbul edilməsi üçün münbit zəmin hazırlamağa istiqamətlənmişdir.

Heydər Əliyev daim milli mədəniyyət örnəklərimizin təbliğini diqqət mərkəzində saxlamaqla, həm də mədəniyyət elementlərini dünya ilə dil tapmağın ən sınanmış və optimal yollarından biri kimi nəzərdən keçirir, mədəni dəyərlərin qarşılıqlı dərkini və təbliğini əsas götürürdü. Bu mənada xarici ölkələrdə keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti günləri, eyni zamanda Azərbaycanda keçirilən belə tədbirlər mədəniyyətlərarası dialoqun inkişafına çox gözəl yol açırdı. Heydər Əliyev

mədəniyyətimizin əksər tərəflərini nəzərdən qaçırmadığı kimi, Azərbaycan mədəniyyətinin mühüm tərkib hissəsi olan kinematoqrafiyamız da Ulu öndərin fəaliyyətini nəzər-diqqətdən kənarda qoymurdu. Bu baxımdan onunla bağlı ekran həyatı görən "Əsil məhəbbət haqqında", "General", "Birinci", "Moskva Kreml", "Lider", "Tale", "Bir həsədin tarixi", "Professional", "Patriot", "Xüsusi təyinat" və s. kimi filmlər böyük siyasi liderin həyat və fəaliyyətinin olduqca görümlü versiyası kimi ortaya çıxmışdır.

Böyük Öndər Heydər Əliyevin təşəbbüsü, yaradıcı rəhbərliyi və iştirakı ilə Azərbaycan xalqının həyatında və tarixində böyük rol oynamış görkəmli şəxsiyyətlərə aid monumental sənət əsərləri yaradılmış, abidələr ucaldılmışdır. Bu abidələr Azərbaycanın görkəmli söz-sənət adamlarının, tarixi şəxsiyyətlərinin xatirəsini əbədiləşdirməklə yanaşı, mükəmməl sənət nümunələri kimi mədəniyyət xəzinəmizə daxil olmuşdur" (8).

Heydər Əliyev heç də təsadüfən aşağıdakı fikirləri dilə gətirmirdi: "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi mədəniyyətdir". Heç şübhəsiz ki, o, yaxşı bilirdi ki, dövlətçiliyin əsasını mədəniyyət təşkil edir. Milli-mənəvi dəyərlərimizin beynəlxalq aləmdə tanıtdırılması mədəniyyətimizə verilən yüksək qiymətlə bağlı idi. T.Əfəndiyev haqlı olaraq aşağıdakıları qeyd edirdi: "Bu bir həqiqətdir ki, Azərbaycan mədəniyyətinin görkəmli xadimləri Heydər Əliyev dövründə olduğu qədər heç zaman tanınmamışlar. Heydər Əliyev mədəniyyətimizi yaradan onu inkişaf etdirən insanların əməyini yüksək qiymətləndirir, onların daim qayğısını çəkirdi. Azərbaycanın müqtədir sənətkarları sovet dövründə məhz Heydər Əliyevin qayğısı nəticəsində ən yüksək fəxri adlara layiq görülmüşdür... Ulu Öndərin mədəniyyət məsələləri ilə bağlı çıxışı həmin sahənin gələcək inkişaf proqramına çevrilirdi. Hansı sahədən danışırdısa, elə hiss edirdin ki, bu sahənin mütəxəssisi, bilicisidir" (7). Materialın hazırlanması ilə bağlı mənbələrə, kitablara, sosial şəbəkələrdə yer almış nümunələrə baxıb, onlarla tanış olduqda bir daha Heydər Əliyevin Azərbaycan mədəniyyəti qarşısında böyük xidmətləri olduğunun şahidi oluruq. Odur ki, düşünürük ki, illər bir-birinin arxasınca gedib irəlilədikcə Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafına verdiyi töhfələr heç vaxt unudulmayacaqdır.

**Ədəbiyyat siyahısı:**

1. Ələkbərova N. Heydər Əliyev və müstəqil Azərbaycan mədəniyyəti siyasəti. "Xalq qəzeti", 2014, 11 may, s.8
2. Əliyeva-Kəngərli G. Heydər Əliyevin mədəniyyət konsepsiyası // Heydər Əliyev və Azərbaycan mədəniyyəti. Elmi-praktiki konfransın materialları. Bakı, 5 may, 2016, s.24-30
3. Гашимли Г. О поэме «Гений Гейдара» // Сеидов М. Гений Гейдара. Поэма в десяти главах. Новосибирск, 2005, с.5-7
4. Milli-mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu (Tərtib et. N.Alışova. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, 2011, 85 s.
5. Novruzov T. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı, 2007, 400 s.
6. Сеидов М. Гений Гейдара. Поэма в десяти главах. Новосибирск, 2005, 258 с.
7. Əfəndiyev T. Heydər Əliyev fenomeni və milli mədəniyyətimiz. 2017, 17 dekabr. https://525 az>news> 91065-heyde...
8. Hacıyev G. Heydər Əliyev Azərbaycan mədəniyyətinin ən böyük himayədarı və qayğıkeşi. Ошибка! Недопустимый объект гиперссылки.

**UOT 355**

**Namiq Abbasov**
**AMEA Memarlıq və İncəsənət İnstitutu,**
**kulturologiya üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: namiq_abbasov_70@mail.ru**

## MÜTƏŞƏKKİL XALQ MÜBARİZ ORDU BİRLİYİNİ YARADAN LİDER

**Xülasə.** Məqalədə ümummilli lider Heydər Əliyevin fəaliyyəti mədəni insan obrazı kimi nəzərdən keçirilərək, mütəşəkkil keyfiyyətləri vurğulanmaqla şərh edilir. Qeyd edilir ki, bu gün mütəşəkkil olmaq bizə həmişəkindən daha çox lazımdır. Ümummilli liderin cəsur, mübariz obrazı hər zaman diqqətimizdə olmalı, onun qurub yaratdıqlarını qoruyub gələcək nəsillərə çatdırmaq ümdə vəzifəmizolmalıdır. İşğaldan azad edilmiş ərazilərimizin dirçəldilməsi, qaçqın və köçkün düşmüş soydaşlarımızın öz doğma yurd-yuvalarına dönüşünü təmin etməliyik. Mütəşəkkillik zamanın tələbidir. Dünyada və regionda gedən geosiyasi proseslər ümummilli liderin ideya daşıyıcıları kimi hər birimizin və bütövlükdə xalqımızın daim ayıq və mütəşəkkil olmasını diktə edir. Mütəşəkkil, qəhrəman övladlarımızın şücaətləri nümunə kimi gənc nəslə çatdırılmalı, yeni qəhrəman və mütəşəkkil gəncliyin yetişməsinə nail olmalıyıq.

**Açar sözlər:** mütəşəkkillik, mədəni insan, iradə, qurtuluş, zəfər, müstəqillik

Amerika antropoloqu Lesli Alvin Uaytın "Mədəniyyət haqqında elm" əsərində, eləcə də professor Fuad Məmmədovun tədqiqatlarında mədəni insan düsturu aşağıdakı beş amillə şərtləndirilir:

1. Bilik (mühüm mənbələr – təhsil və elm);
2. Bacarıq – həyat fəaliyyətinin vərdiş və texnologiyaları (mühüm mənbələr – təcrübə);
3. Mütəşəkkillik – nizam-intizama bağlılıq, sosial məsuliyyət, iradə;
4. Mənəviyyat – humanizm, məhəbbət, dostluq, vicdan, ləyaqət, dürüstlük, ədalət, vətənpərvərlik (mühüm mənbə – tərbiyə);
5. Yaradıcı fəaliyyət – Mədəni insanın şüurlu tələbatı olmaqla bilik, bacarıq, mütəşəkkillik və pozitiv mənəviyyat səviyyəsi ilə müəyyənləşir [6, s.174].

Heydər Əliyev haqqında ən qısa məlumata sahib olan insanlar belə, bu keyfiyyətlərin ona məxsus olduğunu təsdiqləyə bilərlər. Bunu sübut etmək elə də çətin deyil. Heydər Əliyevin həyat və fəaliyyətinə diqqət yetirsək, onda cəmləşən mədəni insan obrazını aydınlığı ilə görə bilərik. Mədəni insanı şərtləndirən amillərin hər birinə sahib olan Heydər Əliyev zaman və məkan daxilində onları doğma xalqı, vətəni üçün istifadə edə bilirdi. Bunun göstəricisi müasir Azərbaycanın davamlı yüksəlişi və beynəlxalq aləmdə xoşməramlı layihələriylə parlamaqda olan imicidir. Heydər Əliyev ali varlığın bəxş etdiyi mükəmməl keyfiyyətləri ilə durğunluq dövrünün aqrar ölkəsini müasir sənaye və innovasiyalar məkanına çevirdi. Lakin ölkəmizin artmaqda olan nüfuzu dostları sevindirsə də düşmənləri məyus edir. Bəzi qüvvələrin Azərbaycanı zəif, küncə sıxılmış, asılı vəziyyətdə görmək istəkləri xalqımızı daha sıx birliyə vadar edir. Bu gün mütəşəkkil olmaq bizə həmişəkindən daha çox lazımdır. Ona görə də ümummilli liderin məhz bu keyfiyyəti üzərində dayanmaqla, ideyalarını davam etdirməliyik. Mübaliğəsiz söyləmək olar ki, mütəşəkkilliyə aid olan nizam-intizama bağlılıq, sosial məsuliyyət, iradə, qəhrəmanlıq, şücaət, mərdlik, dürüstlük, prinsipiallıq, mübarizlik, məsuliyyət kimi keyfiyyətlər Heydər Əliyevin fəaliyyətində hakim dəyərlərdəndir. Belə dəyərlərin (məziyyətlərin) düşüncə tarixindəki yerinə nəzər salsaq Heydər Əliyevin fəaliyyəti ilə üst-üstə düşdüyünü görə bilərik.

Lev Qumilyova görə hər etnosun həyatında üç faza mövcuddur: formalaşma, inkişaf və nəhayət relikt süqut fazaları. Yeni etnos necə əmələ gəlir: Etnosun içindən bir dəstə adam qarşısıalınmaz çılğın və məqsədyönlü fəaliyyətə başlayır və bu fəaliyyət çox vaxt onların özlərinin həyatları hesabına başa gəlir. Bu əlbəttə özünüqoruma instinktinə uyğun gəlmir, daha doğrusu daxili impuls həmin instinktə üstün gəlir. Bu

impulsu Qumilyov passionarlıq adlandırır. Belə adamlar heç vaxt laqeyd olmur. Burada Heydər Əliyevin 1987-1992-ci illərdəki hakim dairələrin yanlışlıqlarını, nəhayətdə xalqın müdrikliyi sayəsində öz passionarına sahiblənməsini xatırlamaq yerinə düşər. Heydər Əliyevin istər birinci hakimiyyəti, istərsə ikinci hakimiyyəti dövründə birinciliyə yüksəlməkdə məqsədi dövləti və xalqı düşünməsi idi. Heydər Əliyev orta səviyyəli məmur kimi istədiyi vəzifədə həyatını daha təhlükəsiz və "firavan" yaşaya bilərdi. Lakin laqeydlik Qumilyovun söylədiyi kimi passionarlığa ziddir. Riskli və siyasi oyunların cərəyan etdiyi bir məkana (KPMK) daxil olmaq əslində özünü oda atmaq idi ki, Ulu Öndər bu atəşdə polad kimi bərkidi, məqsədinə nail oldu, müasir Azərbaycanı və azərbaycançılıq ideologiyasını yaratdı.

Alman filosofu F.Hegel yazırdı: "Kölə öz azadlığını ağanın iradəsinə, xidmət intizamına, eqoizmi sındıran itaət etmək vərdişinə tabe olmaq yolu ilə əldə edir, çünki eqoizm "hələ köləlik içində qalan azadlıqdır", intizam isə hökm etməyi öyrədir və hər bir müdrikliyin başlanğıcıdır" [1, s.43-44].

Heydər Əliyev kölə təfəkkürlü insanları intizamı və müdrikliyi ilə geridə qoymağı bacardı. Sübut etdi ki, Azərbaycan xalqı müstəqil yaşamağa layiqdir və bu onun haqqıdır. Ədaləti əldə etmək cəsarət tələb edir. Heydər Əliyev fəaliyyəti dövründə hər zaman ümumbəşəri dəyər kimi ədaləti bərqərar etməyə çalışırdı. Bunun üçün də tələb olunan cəsarəti vaxtında tətbiq etməyi bacarırdı.

Cəsarət və ədalət haqqında Aristotelin fikirləri belə idi: "Əgər cəsarət ədalətdən kənarda olan özündənrazılıqla və qorxaqlıqla əlaqələndirilirsə, onda baxmaq lazımdır görək məhz hansı qorxaqlıqla və hansı özündənrazılıqla. Deyək ki, insan öz əmlakını itirməkdən ehtiyat edir, o qorxaqdırmı? Bəs əgər o belə şeylərdən qorxmursa cəsarətlidirmi? Hər necə olsa əgər kimsə xəstəlikdən qorxursa, yaxud əksinə. Ağılsızcasına özündən razıdırsa iddia etmək olmaz ki, qorxacaq burda qorxaqdır, qorxacaq olmayan isə cəsarətlidir. Deməli cəsarət belə qorxaqlıqlardan və cürətlərdən ibarət deyil. O, bu vaxt cəsarətli yox, bir sərsəmdir. Beləliklə cəsarət insana uyğun olan qorxu və cürətlə müəyyən edilir. Deyək ki, hər kim çoxlarının və ya hamının qorxduğu şeylər arasında cürətlidirsə, o kəs cəsarətlidir" [1, s.336-337]. Sovet ideologiyasının hökm sürdüyü bir zamanda milli-mənəvi dəyərlərin – dil, din, adət-ənənələr – qorunması istiqamətindəki fəaliyyəti cəsarət tələb edirdi ki, bunu da hər kəs edə bilmir.

... "Kim şüurlu surətdə xeyirxahlıq naminə özünü təhlükəyə atırsa və bundan qorxmursa, o cəsarətlidir. Cəsarətli o kəs deyil ki, heç nədən qorxmur – onda daş və digər cansız əşyalar da cəsarətli olardı; yox cəsarətli hökmən qorxur, lakin yerində qətiyyətlə dayanır. Qorxu hiss etməyən qətiyyətli adama isə cəsarətli deməzlər" [1, s.338-339]. Burada Heydər Əliyevin cəsarətli, riskli qərarları və addımlarını xatırlamaq yerinə düşər. 1990-cı ildə SSRI qoşunlarının Bakıya yeridilməsi zamanı Moskvada çəkinmədən etirazını bildirməsi, Azərbaycanda müstəqilliyinin ilk illərində siyasi böhran zamanı Bakıya gəlməsini əngəlləyən hədə-qorxular, ölümlə təhdidlər və s. – heç biri cəsur insan Heydər Əliyevi yolundan döndərə bilmədi. Burada yüksək iradə öz sözünü dedi. İradə – əxlaqi şüurun üçüncü elementi olub, qətiyyət, dözüm, mərdlik, müstəqillik, təkidlilik, konkret işlərə hazır olma, özünüidarəetmə ilə üzə çıxır. Xalq önündə iradəli lider gördükdə mətinləşir, mütəşəkkil olur və onun iradəsini heç bir qüvvə qıra bilmir. Ona görə də xalqımız daha cəsarətlə haqqı olanı əldə edə bildi. Çünki bu iradə Heydər Əliyev təlimindən, Heydər Əliyev əzəmətindən güc alırdı.

Akademik Yaqub Mahmudov yazır: "Əliyev Şəxsiyyəti öyrənilməmiş dünyadır! Bu nadir dünyanın siyasət aləmini bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Misilsiz dövlət xadimi kimi nadir, ən mürəkkəb, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı Allahın ona bəxş etdiyi vergidir. Bütün bunlar bir keyfiyyət altında birləşir: Heydər Əliyev böyük Azərbaycandır. Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşidir. Bu nadir keyfiyyət Heydər Əliyev fəaliyyətinin bütün dövrləri üçün səciyyəvidir" [4, s.103-104].

Qədim dünyanın məşhur mütəfəkkiri, Roma respublikasının ideoloqu, görkəmli ictimai-siyasi xadim Mark Tulli Siseron məşhur "Tuskulan söhbətlərində" deyirdi: "Mərd olan özünə əmin olur. Kim ki, özünə əmindir – o adam qorxudan kənardır, çünki qorxu əminliklə bir araya sığmır. Müdrik insan həmişə

cəsur adamdır. Bundan savayı cəsur olan yüksək ruh əzminə də malikdir; kim ki, ruh əzminə malikdir, məğlubedilməzdir. Insan zəifliklərinə yuxarıdan aşağı və etinasız baxır; lakin dərd verəcək işlərə etinasız baxmaq mümkün deyil. Deməli, cəsur insan heç zaman dərd çəkmir. Qeyd etdiyim kimi müdrik insan (Mədəni insan – N.A) həmişə mərddir – deməli heç zaman dərd çəkmir. Cəsurluq qorxmamaq deyil, qorxub da addım atmaqdır" [3, s.136]. Mərdlik və kişilik haqqında dahi Siseron qeyd edir ki, güclü, yüksək ruh əzminə malik, dözümlü insan zəifliyinə özündə qalib gəlmiş kişilər fiziki ağrıya daha ləyaqətlə dözürlər. Əgər biz ləyaqətli ər, yəni kişi olmaq istəyiriksə, ölümə etinasızlıq və ağrıya laqeydlik bizim hamımızda olmalıdır [3].

Birinci Qarabağ savaşındakı itkilərimiz ümummilli lideri ruhdan salmadı, onun timsalında xalq içində saf-çürük etməklə bir daha toparlandı, mətinləşdi. Beləliklə, mütəşəkkil xalq mübariz ordu yarandı.

Heydər Əliyevin mütəşəkkil bacarıqları sayəsində 1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. Müdrik siyasətçi bir neçə gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı. Dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı dahi dövlət adamının əlinə keçdi. Vətən, millət, bütün xalqımız məkrli düşmənlərin hazırladığı fəlakət uçurumuna yuvarlanmadı, fəlakətdən, ölüm qəzasından yan keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı (4).

Böyük dövlətlərin Azərbaycan üçün məqbul sayılmayan layihələrinin regionda reallaşmasını əngəlləyə bilmək, geosiyasi vəziyyəti dövlətin maraqlarına uyğun təmin edə bilmək iradə, cəsurluq və mərdlik tələb edirdi ki, bunu da Heydər Əliyev ustalıqla bacara bilirdi. Indi bunu Heydər Əliyevin Qarabağ siyasətində – Zəfərə doğru atdığı addımlarda daha aydın gömək olur.

ZƏFƏRƏ DOĞRU: Heydər Əliyev siyasəti, IlhamƏliyev iradəsi

Ümummilli Liderin yetişdirdiyi, sağlığında "Mən ona özüm qədər inanıram" söylədiyi ləyaqətli övlad, Ali Baş Komandan, Ilham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Heydər Əliyevin başladığı işi uğurla yekunlaşdıra bildi. Bu zəfərin özüllərini tökən, bərkidən, hadisələrin gedişini Azərbaycanın xeyirlinə dəyişməsini təmin edən Heydər Əliyev siyasəti idi. Heydər Əliyev yaxın və uzaq qonşularını (Ermənistandan başqa) haqlı olduğuna və daha etibarlı tərəfkeş kimi regionda söz sahibi olduğuna inandıra bilmişdi. Onun qələbəyə gedən yolda – Zəfərə doğru addımlarını sadalaya bilərik.

– Respublikanın çətin durumunda cəbhədə uğurlu "Horadiz əməliyyatı" ilə düşməni atəşkəsə məcbur etdi. 1994-cü ilin mayında Bişkek protokolu imzalandı.

- 12 may 1994 – Bişkek Protokolu əsasında qərara alınan atəşkəs qüvvəyə minir.

BMT Təhlükəsizlik Şurasında gələcəkdə Azərbaycanın atacağı sərt addımlar zamanı ermənipərəst qüvvələrin ənənəvi hay-küyünü zərərsizləşdirən Qətnamələr qəbul etdirildi.

– ATƏT-in Lissabon sammiti (2-4 dekabr 1996-cı il) 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in növbəti zirvə toplantısı keçirildi. Ermənistan Respublikası istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi.

– Islam Konfransı Təşkilatının Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında Qətnamə.

– 3-7 aprel 2001 – ABŞ-ın təşəbbüsü ilə Florida ştatında Minsk Qrupunun "Key West" danışıqları başlanılır. Danışıqlarda prezidentlər Heydər Əliyev, Robert Koçaryan iştirak edir və s.

Aparılan bütün danışıqlarda Heydər Əliyev mərdlik və mətanətiylə qarşı tərəfi diplomatiya masasında geriyə oturda bilmiş, zəfərə doğru – qələbəyə gedən yolun üfüqlərini genişləndirməyə nail olmuşdu.

Bütün bunlar ümummilli liderin mütəşəkkil, mübariz, iradəli və cəsurluğunun göstəriciləridir. Burada əlavə mübaliğələrə ehtiyac yoxdur. Sadəcə faktları sadalamaq kifayət edir. Burada hörmətli akademik Yaqub Mahmudovun Heydər Əliyevinin daxili siyasətdəki mübarizliyi haqqındakı fikirlərini

belə ümumiləşdirmək olar: Milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması; Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan muxtar respublikasının dövlət bayrağı kimi qəbul olunması; 1990-cı ilin 19-20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRI-nin saxlanılması barədə referendumda iştirakından imtina edilməsi, muxtar respublika ərazisində Kommunist partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması; 31 Dekabr gününün Dünya azərbaycanlılarının həmrəylik günü elan olunması. Nəhayət, böyük vətəndən Azərbaycandan ayrı düşmüş Naxçıvanda, özü də amansız hərbi-iqtisadi blokada şəraitində vətən torpağının düşməndən qorunub saxlanılması [4].

Müasir şəraitdə mütəşəkkil olmaq bizə həmişəkindəndaha çox lazımdır. Ümummilli liderin cəsur, mübariz obrazı hər zaman diqqətimizdə olmalı, onun qurub yaratdıqlarını qoruyub gələcək nəsillərə çatdırmaq ümdə vəzifəmiz olmalıdır. Işğaldan azad edilmiş ərazilərimizin dirçəldilməsi, qaçqın və köçkün düşmüş soydaşlarımızın öz doğma yurd-yuvalarına dönüşünü təmin etməliyik. Mütəşəkkillik bu gün daha vacib keyfiyyətlərdəndir. Dünyada və regionda gedən geosiyasi proseslər ümummilli liderin ideya daşıyıcıları kimi hər birimizin və bütövlükdə xalqımızın daim ayıq və mütəşəkkil olmasını diktə edir.

**Ədəbiyyat siyahısı:**

1. Aristotel. "Siyasət. Böyük etika". Bakı XXI-Yeni Nəşrlər Evi. 2006, 432 səh.
2. Hegel. Fəlsəfə elmləri ensiklopediyası. III cild. Ruh fəlsəfəsi. Bakı universiteti nəşriyyatı. Çevirəni A.İ. Tağıyev. Bakı – 2003, 458 səh.
3. Plutarx. Siseron haqqında, Siseron. Tuskulan söhbətləri. Bakı, "Adiloğlu" nəşriyyatı, 2006, 248 səh.
4. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, Təhsil 2002, 328 səh.
5. Məmmədov F.T. "İdarəetmə mədəniyyəti Xarici ölkələrin təcrübəsi" – Bakı "Apastrof" çap evi, 2013, 672 səh.
6. Məmmədov F.T. Kulturologiya effektiv həyat və fəaliyyətə aparan yol kimi. Bakı, "Çıraq" nəşriyyatı, 2008 400 səh.

**Namig Abbasov**

## LEADER WHO CREATED A UNIT OF ORGANIZED PEOPLE'S FIGHTING ARMY

**Summary:** The National Leader Heydar Aliyev's activity is considered as a cultured human character, and his organized qualities are emphasized in the article. It is emphasized that we need to be organized today more than ever. We should always keep in mind the brave, fighting character of the National Leader, and it should be our main duty to protect what he built and created and pass it on to future generations. We must ensure the revival of our territories liberated from occupation, the return of our refugees to their native homes. Organization is the need of our time. The geopolitical processes going on in the world and in the region dictate that each of us and our people, as carriers of the ideas of the National Leader, should always be vigilant and organized. The bravery of our organized, heroic sons should be passed on to the younger generation as an example, and we should achieve the growth of a new heroic and organized youth.

**Key words:** organization, cultured person, will, liberation, victory, independence

**UOT 37.01**

**Təranə Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: tarana.aliyeva62@bk.ru**

# HEYDƏR ƏLİYEVİN NƏZƏRİ İRSİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

**Açar sözlər:** Azərbaycan, Heydər Əliyev, ümummilli lider, milli dəyərlər

Görkəmli dövlət xadimi, müdrik diplomat, vətənpərvər, dahi insan Heydər Əliyevin anadan olmasından bir əsr keçir. Adı dünyanın ən parlaq, nüfuzlu şəxsiyyətlərinin adları ilə yanaşı çəkilən Heydər Əliyev tarixin yetişdirdiyi qüdrətli, fenomen şəxsiyyətlərdən biridir. Öz mənalı ömrünü millətinə, dövlətinin inkişafına həsr edən ulu öndəri milyonlarla azərbaycanlı böyük ehtiram və məhəbbətlə yad edir, xatirəsini əziz tutur.

Müstəqil Azərbaycan dövlətinin inkişafında əvəzsiz xidmətləri olan ümummilli liderin məruzə və çıxışlarında azərbaycançılıq ideologiyası, milli-mənəvi dəyərlər, Azərbaycan elmi, təhsili, mədəniyyəti, ana dili, müəllim şəxsiyyəti önəmli yer tutmuşdur.

Azərbaycan respublikasında vətəndaş tərbiyəsi dövlətin qurucusu H.Əliyevin azərbaycançılıq, milli dövlətçilik ideologiyasına əsaslanır. Azərbaycançılıq – Azərbaycanı yüksəltmək, dünyada tanıtmaq və onun əbədiliyini qorumaqdır ki, Heydər Əliyev bütün ömrünü bu ali və müqəddəs məqsədə həsr etmişdir. Öz müdrik siyasəti, möhkəm əqidəsi, tarixi uzaqgörənliyi ilə Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurulmasına, xalqının müstəqillik arzusuna çatmasına nail olmuşdur.

Milli dövlətçilik və milli-mənəvi dəyərlər bir-biri ilə sıx vəhdətdədir. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf konsepsiyası ola bilər. Ümummilli lider nəinki bu konsepsiyanı yaratmışdır, həm də onu çox böyük ustalıqla, səbir və təmkinlə həyata keçirmişdir. “Mən fəxr edirəm ki, azərbaycanlıyam!” – deyən ulu öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durmuşdur. Dünyadakı qlobal inteqrasiya prosesində hər bir ölkə üçün tarixi dəyərlərin, mədəni zənginliyin qorunması və inkişafını təmin edən mühüm şərt güclü milli ideyanın mövcudluğudur. Bu baxımdan Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini ulu öndər Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideyası təşkil edir [3, s.17].

Əsrlər boyu formalaşmış yüksək milli-mənəvi dəyərləri sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin inkişafına təsir göstərmək, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək hər bir xalqın qarşısında duran çətin missiyadır. Azərbaycanda bu məsuliyyətli missiyanı məhz ulu öndər Heydər Əliyev öz çiyinlərinə götürərək xalqımızın milli-mənəvi dəyərlərini sevərək öz varlığında yaşatmışdır. Ulu öndər hər bir əməlində bu dəyərləri müqəddəs bir xəzinə kimi qoruyaraq əbədiyaşarlığını təmin etmişdir. “Heydər Əliyev şəxsiyyətindən söhbət gedəndə bura Azərbaycanı da əlavə etmək lazım gəlir. Çünki Heydər Əliyev şəxsiyyəti çoxdan Azərbaycanla bütövləşmiş, onun ruhu Azərbaycana, Azərbaycanın ruhu Heydər Əliyevə keçmişdir [3, s.13].

Ümummilli lider həm bir dövlət rəhbəri, həm də Azərbaycanı qəlbən sevən, öz vətəni ilə qürur duyan vətəndaş kimi xalqımızın əsrlərlə yaşadıb-yaratdığı mənəvi-əxlaqi dəyərlərə yüksək önəm vermişdir. “Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik” kimi fikirləri Heydər Əliyevin mədəniyyət konsepsiyasında başlıca yer tuturdu [2, s.15].

Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor Timuçin Əfəndiyev "H.Əliyev və milli-mənəvi dəyərlərimiz" adlı monoqrafiyasında H.Əliyev siyasətində milli-mənəvi dəyərlərimiz haqqında belə qeyd etmişdir: "Azərbaycan mədəniyyətinin hərtərəfli inkişafında və onun zəngin mənəvi-mədəni irsinin dünya mədəni aləminə çatdırılmasında Heydər Əliyev çox böyük rol oynamışdır və bu fəaliyyət respublikanın gələcək mənəvi-siyasi həyatı üçün örnək və irsə münasibətdə siyasətin konsepsiyasının yaranması baxımından mühüm əhəmiyyətə malikdir"[2, s.25]. T.Əfəndiyev yazır ki, həm dövlət başçısı, həm də vətənpərvər bir insan kimi Heydər Əliyevin milli mədəniyyətə, mənəvi irsə göstərdiyi hörmət, verdiyi dəyər onun toxunduğu hər bir sahədə özünü göstərmiş və hətta, o, siyasəti də böyük mədəniyyətlə, səriştə ilə aparmağın lazım olduğunu tövsiyə etmişdir.

Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gayıdışından sonra elm və təhsil sahəsində milli-mənəvi dəyərlərimizə xüsusi diqqət və qayğı yeni vüsət almışdır. O, Azərbaycan gənclərinin milli ruhda tərbiyə olunmasına xüsusi diqqət yetirərək öz çıxışlarında, gənclərlə görüşlərində bu məsələni daim ön plana çəkmiş və gənclərə xalqımızın milli-mənəvi dəyərlərini yaşatmağı tövsiyə etmişdir. Dahi şəxsiyyət gənclərimizin öz tarixini, keçmişini bilməsini vacib hesab edirdi. O, gənclərin milli-mənəvi ruhda tərbiyə olunmalarını, milli mədəniyyətimizi, ənənələrimizi yaşatmağın zəruri olduğunu vurğulayırdı: "Gərək hər bir gənc Azərbaycan tarixini yaxşı bilsin, əgər bilməsə o həqiqi vətənpərvər ola bilməz" [1, s.113].

"Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır" deyən ulu öndər azərbaycanlıların vahid bir etnik-siyasi toplum kimi tanınmasını təmin edən ideologiyanın həm də yeni və sağlam nəslin yetişməsi üçün şərait yarandığını qeyd etmişdir. Milliliklə müasirliyi, dinə inamla tolerantlığı, demokratik düşüncə ilə dövlətçilik şüurunu birləşdirən azərbaycançılıq ideologiyasının gücü də məhz bundadır.

Azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də bir sıra mühüm işlər həyata keçirilmişdir. Heydər Əliyev üçün ana dili azərbaycançılığın başlanğıc məqamı, təməl prinsipi olmuşdur. Müdrik rəhbər yaxşı başa düşürdü ki, xalqa milli-mənəvi dəyərlərini aşılamaq üçün ona, ilk növbədə öz dilini qaytarmaq və sevdirmək lazımdır. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti seçilməsi ilə ölkəmizdə milli-mənəvi dəyərlərə, dinə münasibət tamamilə dəyişdi, dini-milli bayramlarımız dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunmağa başladı. Milli-mənəvi dəyərlərdən biri milli ideologiyaya hörmət göstərilməsi və ona zidd hərəkətlərin edilməməsidir. Cəmiyyətdə milli-mənəvi dəyərlərin dərk olunması isə o deməkdir ki, cəmiyyətin hər bir üzvü öz tarixi keçmişini, dövlətçilik ənənələrini, milli-mənlik şüurunu, milli-mənəvi dəyərlərini qoruyur, dini dünyagörüşündə demokratik, mütərəqqi fikirlərə hörmətlə yanaşır, öz doğma vətəni, dili, dini, milləti ilə fəxr edir.

Ümummilli liderin siyasi varisi kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli dəyərlərə dövlət səviyyəsində çox böyük qayğı göstərir. Hər bir məsələdə ulu öndərin ideyalarını meyar kimi görən ölkə başçısının milli dəyərlərin qorunması, inkişaf etdirilərək gələcək nəsillərə çatdırılması ilə bağlı siyasəti də bu baxımdan müasir dövrün reallıqları ilə şərtlənir, mənəvi dəyərlər dövrün, mövcud şəraitin və ictimai quruluşun ruhuna, tələblərinə uyğun cilalanır, yeni forma və məzmun kəsb edir. Milli dəyərlərimizin qarantına çevrilmiş dövlətimiz və ölkə başçısı İlham Əliyev xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir. Prezident İlham Əliyevin milli ideologiyaya dair baxışları onun siyasi portretinin əsas cizgilərini təcəssüm etdirir. Heydər Əliyev Fondunun milli dəyərlərimizin qorunması və təbliğ edilməsi istiqamətindəki geniş fəaliyyətini də xalqımız böyük minnətdarlıqla qarşılayır [4] .

Tarix sübut edir ki, hər bir xalqı yaşadan onun milli dəyərləri – dili, adət-ənənələri, mədəniyyətidir. Azərbaycan xalqı da bu günədək məhz milli-mənəvi dəyərlərinə bağlılığı sayəsində

özünün mövcudluğunu, özünəməxsusluğunu qoruyub saxlamışdır. Azərbaycan xalqının ən böyük sərvətlərindən biri onun zəngin milli-mədəni dövlətçilik irsinə sahib olmasıdır. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılmış və onun böyük bir hissəsi bu günədək qorunmuşdur.

Azərbaycan xalqının böyük tarixi, zəngin mədəniyyəti vardır. Bu milli-mənəvi zənginliyin dünyaya layiqincə təqdim olunması nəticə etibarilə ölkəmizin təbliğinə, beynəlxalq nüfuzunun yüksəlməsinə xidmət edir. Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Rəhbər vəzifəyə gəldiyi gündən ümummilli lider Heydər Əliyevin böyüklüyü, uzaqgörənliyi milli-mənəvi dəyərləri düzgün qiymətləndirməsi, daim diqqət mərkəzində saxlamasıdır. Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Çünki, bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir.

Milli-mənəvi dəyərlərin qorunması və təbliği təkcə dövlətin üzərinə düşən məsuliyyət deyil. Bu məsuliyyətin mühüm hissəsi cəmiyyətin, vətəndaşların, ictimai qurumların, kütləvi informasiya vasitələrinin, mədəni-maarif müəssisələrinin üzərinə düşür. Hər bir vətəndaşın ölkənin mədəni sərvətlərindən istifadə etmək hüququ vardır. Eyni zamanda, hər kəs bu tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, qayğı göstərməlidir. Azərbaycan xalqının milli-mənəvi irsini öyrənmək və təbliğ etməklə yanaşı, onun mühafizəsini də ölkəmizin milli təhlükəsizliyinin mühüm istiqaməti kimi diqqətdə saxlamaq gərəkdir.

"Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlərin vəhdəti, sintezi bizim milli ideologiyamızın bu günü və gələcəyidir" – deyən Heydər Əliyev azərbaycançılığı milli ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi.

**Ədəbiyyat siyahısı:**

1. Cəbrayılov İ.H., Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: Mütərcim, 2013, s.113
2. Əfəndiyev T.İ., H.Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı: 2011, 270 s.
3. Milli-mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu. Bakı: 2011, 86 s.
4. http://tovuz-ih.gov.az/az/news/1049.htm

**UOT: 008**

**Gülçin Kazımi**
**AMEA Memarlıq və İncəsənət İnstitutu**
**kulturologiya üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: gulchinkazimi@gmail.com**

# HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİ ELİTA

**Xülasə.** Mədəniyyətin siyasəti – siyasi mədəniyyət və mədəniyyət siyasəti anlayışlarından daha effektli və dayanıqlı təsir gücünə malik bir anlayışdır. Mədəniyyət geniş bir anlayış olduğu üçün onu planlaşdırmaq, idarə etmək, sonda məhz mədəniyyətin siyasəti vasitəsi ilə mümkün olur. Mədəniyyəti şəxsiyyətlər yarada bilərlər, ancaq idarə etmək, dayanıqlı inkişafını təmin etmək üçün mədəni elita və yaradıcı sənaye (MYS) müəssisələrinin olması mühümdür. Bunları bilən Heydər Əliyev, ölkədə mədəni siyasəti və siyasi mədəniyyəti quraraq mədəniyyətin siyasətinə meydan açdı. Yaradıcı elita formalaşdı və mədəni proseslərə ziyalıların təsiri genişləndi.

Sənət adamlarının incəsənətin müxtəlif sahələrində yaratdıqları elitar nümunələr qloballaşmanın gətirdiyi mənfi tendensiyalara – kütləvi imperiallıq dayaz düşüncə, aşağı zövq kimi düşük səviyyələrin qalxmasına xidmət edir. Bunu çox gözəl anlayan ümummilli lider Azərbaycan xalqının gələcək inkişafını formalaşmaqda olan elitanın çoxalmasında və bu tərzdə sənət nümunələrinin geniş xalq kütləsinə təqdim edilməsində görürdü.

**Açar sözlər:** mədəni və yaradıcı elita, ziyalı təbəqəsi, elitar mədəniyyət, aşağı zövq, intellekt, yaradıcı sənaye

Dünya və Azərbaycan elmi fikrindən gətirdiyimiz nümunələrdən də göründüyü kimi mədəniyyət anlayışı həm geniş, həm də çərçivələnmiş mənalarda tərif edilməkdədir. Eləcə də "mədəniyyət siyasəti", "siyasi mədəniyyət", və "mədəniyyətin siyasəti", anlayışlarını biri-birindən fərqləndirmək lazımdır. Akademik Fuad Qasımzadənin yazdığı məqalədə bu barədə deyilir: "XX əsrin italyan filosofu Norbert Bobbionun (1909-cu ildə anadan olmuş, əsərləri əsasən əsrin ortalarında Turində nəşr olunmuşdur) yaradıcılığı baxımından bu vacibdir. Liberalizm tərəfdarı olan Babbio siyasi mübarizəni gücləndirməyi, kəskinləşdirməyi ziyalıların vəzifəsi sayırdı. Ziyalıların siyasi fəallığını o, "mədəniyyətin siyasəti hesab edirdi və onu mədəni siyasətə qarşı qoyurdu. Bu partiyaların mənafeyinə uyğun gəlir" [3, s.73-74].

Yaratdıqlarını etibarlı və təminatlı şəkildə gələcək nəsillərə çatdırmaq, xalqını daimi xoşbəxt və firavan görmək ümummilli liderin ən böyük arzusu idi. Bunun üçün mədəni və yaradıcı elita formalaşmalı idi. Onu da qeyd etmək lazımdır ki, müstəqilliyimizin ilk illərində elitanın həssas təbəqəsi olan istedadlar: texniki elmlərdən başqa, incəsənətin əsas sahələri üzrə xeyli bəstəkar, rəssam, xoreoqraf, memar, aktyor və rejissorlar ölkədən gedirdilər. Görüləsi vacib işlərdən ən ümdəsi keçid dövrü üçün xarakterik olan sosial-iqtisadi və siyasi böhran səbəbindən uzun illər yetişməkdə olan ziyalıların ölkədən getməsinin, əksər hallarda digər dövlətlərin təhrikedici vədləri ilə ölkədən çıxarılan "beyin axını"nın qarşısını almaq, strateji planda isə yeni yaradıcı elitanı formalaşdırmaqla prosesləri əksinə yönəltməyi bacarmaq idi. Bəzən bu qədər mühüm və çətin bir işin öhdəsindən gəlməyə bir ömür bəs eləmir. Lakin Heydər Əliyev bu işi ustalıqla təşkil etməyi bacardı. Birinci rəhbərliyi dövründə dünyanın ən nüfuzlu təhsil müəssisələrinə göndərdiyi soydaşlarımız, müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafında fəal iştirak etdilər və ziyalıların ölkədən getməsinin qarşısı alındı. İndi bu iş Heydər Əliyev siyasətinin davamçıları tərəfindən uğurla davam etdirilir. Hər ötən gün reallaşmaqda olan arzuları Ulu Öndərin ruhunu şad edir.

Digər mədəni xalqlarda olduğu kimi, Azərbaycan xalqının da elitasının formalaşması uzun tarixi dövrü əhatə edir. Əsl ziyalıları, müasir inkişafın tələblərinə cavab verən, xalqın dünyada tanınmasına ürəkdən çalışan milli elitanı formalaşdırmaq heç də asan iş deyildir. Bu yöndə bir sıra Azərbaycan sərkərdələri tarix boyunca mühüm əmək sərf etmişlər. Ümummilli lider Heydər Əliyev bəzi ideoloji çətinliklərə baxmayaraq hələ sovet dövründən etibarən Azərbaycan xalqının önəmli ziyalılarının yetişdirilməsi məsələsinə xüsusi diqqət yetirməyə başlamışdır [5].

Elitar təbəqə hər bir xalqın öz ənənələrinə və maraqlarına uyğun şəkildə, onun mənafelərinin qorunması istiqamətində fəaliyyət göstərən qüvvədir. Elitar təbəqə cəmiyyətin alimləridir, yazıçılarıdır, şairləridir, ictimai fikir sahibləridir, qabaqcıl ziyalılardır, siyasətçi və ideoloqlarıdır. Cəmiyyətdə bu qüvvələr daim aparıcı olub. Elitar təbəqəsi olmayan cəmiyyətdə sivilizasiya yarana bilməz. Azərbaycanda tarixən onun güclü elitar qüvvəsi və təbəqəsi olmuşdur. Məsələn, ümumbəşəri ideyaların yaradıcısı olan Nizami, Xətib Təbrizi, Nəimi, Nəsimi, Xətai, Füzuli, Vaqif, M.F.Axundov kimi şəxsiyyətlər tarixin elitar təbəqəsinin nümayəndələri olmuşlar.

Ötən əsrin ənənəsinə müvafiq olaraq XX əsrin əvvəllərində də Azərbaycanda çox böyük ideoloji qüvvəyə çevrilmiş elitar təbəqə yaranmışdı. Məhz bu elitar təbəqənin mövcudluğu nəticəsi idi ki, əsrin ikinci onilliyi mərhələsində Azərbaycanda dövlət müstəqilliyi bərqərar olundu. Lakin kommunist-bolşevik kabusu bu elitanın davam etməsinə və mövcudluğuna son qoymaq üçün çirkin yollar axtarırdı. Hakimiyyət başında duran kommunist-bolşevik kabusu onun yolunu tapdı. 1930-cu illərin sonuna doğru qanlı repressiya başladı. Hüseyn Cavid, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Heydər Hüseynov, Bəkir Çobanzadə və başqa bir çox qabaqcıl şəxsiyyətlər, alimlər, mütəfəkkirlər, dövlət xadimləri ya fiziki cəhətdən məhv edildilər, ya da gedər-gəlməzə yollandılar. Bundan isə cəmiyyət ziyan çəkdi. Bir insan ömrü qədər olan müddətə kimi xalqın mənafeyinə xidmət edən yeni ziyalı nəslinin yetişməsi üçün vaxt lazım gəldi. Heydər Əliyevin 1969-cu il hakimiyyətə gəlməsi ilə azərbaycançılıq ideologiyasının bazasındakı elitar təbəqənin formalaşmasının təməli qoyuldu. 1990-cı il 20 yanvar hadisəsi 1937-ci il repressiyasının başqa şəkildə davamına çevrildi. Lakin artıq xalqın iradəsini qırmaq mümkün deyildi. Çünki bu iradə Heydər Əliyev təlimindən, Heydər Əliyev əzəmətindən güc alırdı. Azərbaycanın müstəqilliyi Heydər Əliyev tərəfindən bərqərar olunduqdan sonra Azərbaycan elitasının formalaşmasında real perspektivlər yarandı [4].

Müasir Azərbaycan elitası Heydər Əliyev məktəbindən təlimatlanmış, onun prinsiplərindən bəhrələnmişdir. Heydər Əliyev məktəbi dahi rəhbərin Azərbaycana xidmət etdiyi zamandan formalaşmağa başlamışdır. Heydər Əliyevin bütün fəaliyyəti, onun tapşırıqları, tövsiyələri, bu məktəbin canlı vəsaitidir. Həmin məktəbdən mərhələ-mərhələ bütün xalq bəhrələnmiş və azərbaycançılıq dərslərini öyrənmişdir. Yeni nəslin nümayəndələri bu məktəbin elə bir mərhələsində maariflənməyə başlamışlar ki, həmin dövrdə müstəqillik bərqərar olunmuş, müstəqil dövlətimizin ideoloji bazası olan milli ideologiya konsepsiyası yaradılmışdır.

Qeyd etmək lazımdır ki, elmi idarə etmək yüksək intellekt, bilik, bacarıq və erudisiya tələb edir. Bütün bu keyfiyyətləri özündə yaşadan Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olduğu dövrdə, XX əsrin 70-80-ci illərində Elmlər Akademiyasının alimlərinin fəaliyyəti dünyanın elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. İqtisadiyyat və elm sahəsində nailiyyətlərinə görə Azərbaycan Elmlər Akademiyası "Xalqlar Dostluğu" ordeninə layiq görülmüşdü. Bu yüksək mükafatı 1975-ci ildə ümummilli lider şəxsən özü təqdim etmişdir. Onun Azərbaycan elminə qayğısı sayəsində Elmlər Akademiyasının daha müasir elmi elitası formalaşmış və dünya elmi arenasında öz yerini tapmışdır.

Ulu öndər xalqın elmi-intellektual potensialının möhkəmləndirilməsinə daim diqqət yetirmişdir. Tam əminliklə deyə bilərik ki, 1969-cu ildə respublikada hakimiyyətə gəldikdən sonra O, Azərbaycanda güclü ziyalı təbəqəsinin, yeni elitanın formalaşması məsələsinə xüsusi diqqət yetirmişdir.

Yaradıcı elitanın əsas qüvvələri bədii mədəniyyətin yaradıcıları olan ədəbiyyat və incəsənət nümayəndələridir. Mənəvi mədəniyyətimizin inkişafına xidmət edən, cəmiyyət üzvlərinin mənəvi aləminin formalaşdırılmasında bilavasitə iştirak edən elm və sənət adamlarına, istedadlı gənclərə qayğı göstərilməsi, onlara fəxri adlar, yüksək təqaüdlər verilməsi, onların, eləcə də xalqımızın tarixində çox görkəmli yer tutan mədəniyyət, ədəbiyyat abidələrinin yubileylərinin keçirilməsi mənəvi tərbiyədə, cəmiyyət üzvlərinin mənəvi aləminin formalaşmasında olduqca böyük əhəmiyyətə malikdir. Hələ sovet dönəmində nə qədər sənətçimiz ulu öndərin köməkliyi ilə SSRİ-nin yüksək fəxri adlarına, orden və medallarına layiq görülmüşdür. Neçə-neçə yazıçı, şair, rəssam, bəstəkar və müğənnimiz Sosialist Əməyi Qəhrəmanı, SSRİ Xalq artisti fəxri adlarına layiq görülmüş, SSRİ Dövlət mükafatı laureatı olmuşlar [4].

Bu vəziyyət hətta əhalisinin sayı bizdən çox olan bəzi respublikaların rəhbərlərində qısqanclıq hissi doğururdu. Onlar deyirdilər ki, Azərbaycanda Sosialist Əməyi Qəhrəmanı, SSRİ Xalq artisti adı almış sənət adamlarının sayı bizdəkindən çoxdur. Bu, əlbəttə, Heydər Əliyevin xidməti idi.

Sənət adamlarının, mədəniyyət və ədəbiyyat abidələrinin yubileylərinin keçirilməsi ən azı iki nöqteyi-nəzərdən faydalıdır. Əvvəla, bu prosesdə haqqında söhbət gedən şəxslərin və ya əsərlərin mənəvi keyfiyyətləri qabarıq surətdə nəzərə çarpdırılır ki, bu da mənəvi tərbiyədə, xüsusən gənclərin mənəvi cəhətdən formalaşmasında və inkişafında mühüm əhəmiyyətə malikdir. Digər tərəfdən, xalqımızın tarixində müsbət rol oynayan heç bir faktın, hadisənin diqqətdən kənarda qalmadığı hamıya bəlli olur, nəticədə adamlarda daha yaxşı işləmək, qurub-yaratmaq həvəsi və əzmi artır.

Heydər Əliyev ədəbiyyat və incəsənət aləmi ilə daim ünsiyyətdə, təmasda olmağı xoşlayırdı. Teatr tamaşalarının premyeralarında, hökumət tədbirlərində təşkil olunan konsertlərdə, yazıçıların, rəssamların, bəstəkarların qurultaylarında, sərgilərin açılışında və digər tədbirlərdə ulu öndər şəxsən iştirak edirdi. Teatr tamaşalarından və konsertlərdən sonra səhnə arxasında aktyorlarla, musiqiçilərlə, müğənnilərlə görüşür, onların qayğıları və problemləri ilə maraqlanır, onlara təmsil etdikləri sənət sahələri ilə bağlı səriştəli tövsiyələr verirdi.

Ədəbiyyat və incəsənətin müxtəlif növləri ilə bağlı qənaətlərində Heydər Əliyev incəsənətin daxili qanunauyğunluqlarına və inkişaf perspektivlərinə yüksək peşəkarlıqla yanaşan bir sənət nəzəriyyəçisi kimi çıxış edirdi. Sənət adamlarının incəsənətin müxtəlif sahələrində yaratdıqları elitar nümunələr qloballaşmanın gətirdiyi mənfi tendensiyalara – kütləvi imperiallıq – dayaz düşüncə, aşağı zövq kimi düşük səviyyələrin qalxmasına xidmət edir. Bunu çox gözəl anlayan ümummilli lider Azərbaycan xalqının gələcək inkişafını formalaşmaqda olan elitanın çoxalmasında və bu tərzdə sənət nümunələrinin geniş xalq kütləsinə təqdim edilməsində görürdü.

Azərbaycanın daxili və xarici siyasətinin tənzim olunmasında iqtisadiyyatımızın inkişaf etdirilməsində, milli-mənəvi keyfiyyətlərimizin ümumbəşəri ideyalarla birləşdirilməsində, müstəqil dövlətimizin uzun illər boyu yaşamasının təmin olunmasında siyasi-ideoloji elitanın yaradılması çox mühüm tarixi əhəmiyyətə malikdir.

Siyasi-ideoloji elitanı formalaşdırmadan müstəqil dövlətçiliyimiz zəminində yaradılmış milli-mənəvi dəyərlərimizi sosial mədəni və iqtisadi inkişaf nailiyyətlərimizin ən qabaqcıl keyfiyyətlərini gələcək nəslə çatdırmaq imkanlarına nail ola bilmərik. Siyasi-ideoloji elita müstəqil Azərbaycan respublikasında yaradılmış siyasi, ideoloji, maddi, mənəvi, sosial sahələrdə qazanılmış ənənələrimizin varisliyi kimi formalaşmışdır [4, s.172].

Bu gün Heydər Əliyev məktəbində təlim görən yeni siyasi-ideoloji elitanın avanqardı kimi çevik təfəkkürə malik olan təmkinliliyi, səbirliliyi, təşəbbüskarlığı, humanistliyi, vətənpərvərliyi, əzmkarlığı, iradəliliyi və yüksək təşkilatçılıq qabiliyyəti ilə ölkədə və xaricdə özünə böyük nüfuz qazanmış Azərbaycan Respublikasının Prezidenti, Ali baş Komandan İlham Əliyev şəxsiyyəti yetişmişdir. İlham Əliyev yeni dövrün siyasətçisidir. İlham Əliyev gənc siyasi-ideoloji elitanın avanqardı kimi, XXI əsrin siyasət aləmində ən çox tanınmış və ən çox məşhur olan siyasi xadimlərindən biridir.

Azərbaycan xalqına və dövlətçiliyinə düşmən kəsilən qüvvələrin qarşısında sipər olan da məhz müasir Azərbaycan elitasını formalaşdıran Heydər Əliyev siyasəti – İlham Əliyev iradəsi oldu.

**Ədəbiyyat siyahэsэ:**


1. Abbasov N.Ə. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Təknur nəşriyyatı. Bakı, 2009, 444 səh.
2. Fəlsəfə. Ensiklopedik lüğəti. Bakı: "Azərbaycan Ensiklopediyası", Nəşriyyat-Poliqrafiya Birliyi, 1997, 520 səh.
3. Qasımzadə F. Mədəniyyət siyasəti və Azərbaycan xalqının mədəni irsi. "Simurq" Azərbaycan mədəniyyət assosiasiyası. "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" layihəsi üzrə açıq cəmiyyət İnstitutu – Budapeşt SOROS fondunun himayəsi ilə keçirilmiş Beynəlxalq konfransın və sosioloji tədqiqatın sənəd və materiallarının məcmuəsi. Bakı: 27-29 iyun, 2001-ci il, 196 səh.
4. Yusifov M. Heydər Əliyev və azərbaycançılıq ideologiyası. Bakı, "Nurlan", – 2003, 204 səh.
5. Seyidzadə M. Azərbaycan elitasэ: Tarix, real vəziyyət və perspektivləri, Bakэ, 2016.


**Gulchin Kazimi**

## HEYDAR ALIYEV AND THE CULTURAL ELITE

**Summary**: The policy of culture is a concept with more effective and steady influence than the concepts of political culture and cultural policy. Since culture is a broad concept, it is finally possible to plan and manage it through the policy of culture. Culture can be created by individuals, but it is important to have cultural elite and creative industries to manage it and ensure its sustainable development. Knowing this, Heydar Aliyev challenged the politics of culture by establishing cultural policy and political culture in the country. Creative elite was formed and the influence of intellectuals on cultural processes expanded.

The elite examples created by art workers in various fields of art serve the negative trends brought by globalization – mass imperialism – shallow thinking, low taste, and the rise of low levels. The National Leader, who understood this very well, saw the future development of the Azerbaijani people in the multiplication of the emerging elite and in the presentation of art examples to the general public in this style.

**Key words:** cultural and creative elite, intelligentsia, elite culture, low taste, intelligence, creative industry

**UOT 34:008**

**Tamilla Əsgərova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,**
**Kitabxana-İnformasiya Mərkəzinin müdiri**
**e-mail: tamilla.asgarova@admiu.edu.az**

# HEYDƏR ƏLİYEVİN MƏDƏNİYYƏT SİYASƏTİNDƏ MÜƏLLİF HÜQUQU: PREDMETİ VƏ FUNKSİYALARI

**Xülasə:** Kitablar cəmiyyəti irəli getməyə yönəldən, insan zəkasının müxtəlifliyini təcəssüm etdirən və bəşəriyyətin zəngin təcrübəsini özündə ehtiva edən xəzinədir. Tarixən əfsanələr, əsatirlər, rəvayətlər, qəhrəmanlıq dastanları, əmək mahnıları əvvəllər şifahi formada yazılmış, sonralar isə daş, dəri və ağac üzərinə yazılaraq bu günə qədər gəlib çatmışdır. Əlifba və yazının yaranması, kağızın kəşfi, əlyazmalar, çapçılığın ixtira edilməsi, kitabxanaların yaranması kitabın inkişaf mərhələsində ən mühüm səhifələrdir. Kitabın insan həyatına daxil olması, kitabların çoxalması həm də müəlliflik hüququnun yaranması zərurətini meydana gətirmişdir. Məqalədə Ulu öndərimiz Heydər Əliyevin mədəniyyət siyasətində müəllif hüququnun predmeti və funksiyaları təhlil olunur.

**Açar sözlər:** əsər, kitab, yaradıcılıq, əqli mülkiyyət, normativ akt, qanun, fərman

**Giriş:** Müasir dövrdə kitab həm də hər bir xalqı beynəlxalq arenaya çıxaran və onu təbliğ edən bir vasitədir. Xalq bir çox hallarda dünya miqyasında öz yazıçılarının əsərləri ilə tanınır. Azərbaycanın da dünya miqyasında tanınan yazıçı-şairləri, müəllifləri hər zaman olub və bu gün də var. Orta əsrlərdə Azərbaycan şairləri öz şeirlərinin sonunda poetik adlarını işlətməklə müəlliflik hüququnun səmərəli qorunma formasını yaratmışlar.

Azərbaycan kitab mədəniyyətinin X-XII əsrlərdən başlayaraq yeni inkişaf mərhələsinə qədəm qoyması ədəbiyyat, coğrafiya, təbabət, astronomiya, tarix, fəlsəfə, məntiq və elmin başqa sahələrinə aid əsərlərin yaranmasına səbəb olmuşdur. Bu dövrdə Azərbaycan kitab tarixini zənginləşdirən böyük alimlər, şairlər yaşamışdır. Eyni zamanda bu dövrdə yaşamış Xətib Təbrizi, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Nəcməddin Naxçıvani, Hinduşah Naxçıvani, Nəsirəddin Tusi, Qətran Təbrizi, Bəhmənyar, Mahmud Şəbüstəri və başqalarının müəllif hüquqlarının qorunmasını ortaya qoyan əlyazmaları bu günə qədər gəlib çatmışdır. Kitab tariximizin ilk mərhələsinə aid olan əlyazmalar ölkəmizdən başqa, dünyanın Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa, Almaniya, Vatikan, Polşa, Çexiya, Çin, Türkiyə, İran, Özbəkistan və başqa ölkələrində qorunub saxlanılmaqdadır.

**Məsələnin qoyuluşu:** Hər il aprel ayının 23-ü "Beynəlxalq Kitab və Müəlliflik Hüququ Günü" kimi qeyd olunur. Bu tarixin seçilməsi dünya ədəbiyyatının öz yaradıcılıq ənənələri ilə seçilən üç böyük dühası - Migel de Servantes, Uilyam Şekspir və İnka Qarsilaso dela Veqanın vəfatı ilə bağlıdır. UNESCO-nun 1995-ci ildə Parisdə keçirilən Baş Konfransında qəbul olunmuş qərarla kitaba və müəlliflərə hörmət əlaməti olaraq bu əlamətdar gün bütün dünyada olduğu kimi 1997-ci ildən ölkəmiz də qeyd edilir. Kitablara və müəlliflərə ehtiram məqsədi ilə təsis olunan "Beynəlxalq Kitab və Müəlliflik Hüququ Günü" hamını, xüsusilə də gəncləri mütaliədən zövq almağa, bəşəriyyətin sosial və mədəni inkişafında əməyi olmuş sənətkarların əvəzsiz irsinə hörmətlə yanaşmağa çağırış günüdür.

Hər bir oxunan kitabın bəhrəsi yeni kitabdır, yeni biliyə yol açan bilik mənbəyidir, yaradıcılıq və kreativlik fenomenindən irəli gələn "Müəllif" anlayışı və Müəlliflik hüququdur. "Kitab", "Müəllif" və "Müəlliflik hüququ" anlayışları yaranan andan bir-biri ilə qırılmaz təmasda olub. Dahi Nizaminin "tükənməz mənəvi qida", Şekspirin "tacdan qiymətli", böyük Sabirin "ilk dostum", maarifçi-alim Zərdabinin "qiymətli dəfinə" adlandırdıqları kitab bilik mənbəyi olaraq qalmaqdadır. Dünya

mədəniyyətinin inciləri sırasında Azərbaycanın "Kitabi-Dədə Qorqud" eposunu xüsusi qeyd etmək lazımdır.

İntibah və bilik mənbəyi olan klassik Azərbaycan kitabı xüsusilə orta əsrlərdə böyük şöhrət qazanmışdır. Sonrakı dövrlərdə də Azərbaycanın Naxçıvan, Ordubad, Bakı, Şamaxı, Gəncə, Bərdə, Şəki, Qarabağ və başqa bölgələrində yaradılan kitablar dərin məzmunu, dilinin bədiiliyi, tərtibatının gözəlliyi ilə seçilirdi. Kitab sənətkarlarımız xəttat Mirəli Təbrizi, Qazı Məhəmməd Bağır Ordubadi, Hacı Məhəmməd Naxçıvani, Hacı Hüseyn Naxçıvani, Əbdülbaqi Danişmənd, Qasım bəy Səhhaf və onlarla başqaları kitab mədəniyyətimizin formalaşmasında və inkişafında böyük xidmətlər göstərmişlər.

"Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mədəni-ictimai həyatında çox görkəmli yer tutur. Ona görə də hər birimiz kitablara borcluyuq" [2, s.97], – deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli sərvətimiz olan mədəniyyətimizi, ədəbiyyatımızı, kitab nəşrini, bir sözlə, xalqımızın mədəni səviyyəsini yüksək qiymətləndirmişdir.

Ötən yüzilliyin 70-ci illərindən başlayaraq Ulu öndərimizin rəhbərliyi ilə Azərbaycanda mətbəə və nəşriyyat sahələri yenidən qurulmuş, kitab nəşrinin kütləviliyini təmin etmək üçün mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə çalışan intellektual və yaradıcı insanlara hərtərəfli qayğı göstərilmişdir. Müstəqillik illərində də ümummilli lider Heydər Əliyev tərəfindən kitab nəşri və müəlliflik hüququ sahəsində ardıcıl tədbirlər görülmüşdür. 1996-cı ildə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" [3], 1998-ci ildə "Kitabxana işi haqqında" [2, s.358], 2000-ci ildə "Nəşriyyat işi haqqında" [5], 2003-cü ildə "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" [2, s.360] Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi ilə bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Respublikası "Ədəbi-bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyası və "Müəllif hüquqları haqqında" Ümumdünya Konvensiyasına qoşularaq geniş beynəlxalq əməkdaşlığa da başlamışdır.

**Məsələnin həlli:** Müəlliflik hüququ əqli mülkiyyət hüququnun əsas institutlarından biridir və bu institutun özü iki subinstitutdan ibarətdir: müəlliflik hüququ və əlaqəli hüquqlar. Müəlliflik hüququ iki mənada işlədilir: subyektiv mənada və obyektiv mənada.

Subyektiv mənada müəlliflik hüququ dedikdə, konkret subyektin elm, ədəbiyyat və incəsənət əsərləri ilə bağlı malik olduğu şəxsi qeyri-əmlak və ya əmlak hüquqları başa düşülür. Subyektiv mənada müəlliflik hüququ elə subyektiv müəlliflik hüququnun özü deməkdir. Bununla bağlı mənbələrdə göstərilir: "İstənilən subyektiv mülki hüquq kimi subyektiv müəlliflik hüququ öz tərkibinə görə mürəkkəb olub, bir neçə səlahiyyətdən ibarətdir. Həmin səlahiyyətlərə aiddir: davranış səlahiyyəti (əsərdən istifadə və onun barəsində sərəncam səlahiyyətləri, müəlliflik səlahiyyəti, ad hüququ və s.); tələb etmək səlahiyyəti (borclu şəxslərdən müəlliflik hüquqlarını pozan hərəkətlərdən çəkinməyi tələb etmək imkanı); müdafiə səlahiyyəti (pozulmuş hüquqların bərpa olunması və ya mübahisə edilən hüquqların tanınması üçün hüquqqoruyucu tədbirlər tətbiq etmək imkanı)" [1, s.207].

Qeyd etmək lazımdır ki, subyektiv müəlliflik hüququ yalnız müəlliflik hüquq münasibəti çərçivəsində yarana və mövcud ola bilər. Müəlliflik hüquq münasibəti isə müəllifin əsər yaratması ilə onunla əhatə dairəsi bilinməyən, qeyri-məhdud saylı şəxslər ("hamı və hər kəs") arasında əsər barəsində yaranır. Əhatə dairəsi bilinməyən qeyri-məhdud saylı şəxslər ("hamı və hər kəs") müəlliflik hüquq münasibətinin borclu tərəfi sayılır. Onlar belə bir passiv vəzifə daşıyırlar: müəllifin əsər barəsində malik olduğu hüquqları pozmaqdan çəkinmək və həmin hüquqların həyata keçirilməsinə mane olmamaq.

Müəlliflik hüquq münasibətlərinin digər tərəfi (qarşı tərəf) isə müəllifdən ibarətdir. O, müəlliflik hüquq münasibətinin səlahiyyətli şəxsidir. Səlahiyyətli şəxs kimi müəllif əsər barəsində hüquqi imkanlara malikdir ki, onların məcmusu subyektiv müəlliflik hüququ adlanır. Subyektiv müəlliflik hüququ səlahiyyətli şəxsə məxsus olub, müəlliflik hüquq münasibətinin elementi sayılır. Müəlliflik hüquq münasibəti isə mütləq hüquq münasibəti növünə aid edilir, çünki həmin hüquq münasibətində yalnız bir tərəf məlumdur. Borclu tərəfi isə təmsil edən şəxslər naməlumdur.

Obyektiv mənada müəlliflik hüququ dedikdə, elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması, istifadəsi və hüquqi mühafizəsi ilə bağlı əmələ gələn ictimai münasibətləri tənzimləyən mülki hüquq normalarının məcmusu başa düşülür. Bu normalar müəlliflik hüququ, memarlıq, mədəniyyət, reklam və digər məsələlər barədə qanunlarda, habelə qanun qüvvəli aktlarda ifadə olunur. Deməli, obyektiv mənada müəlliflik hüququ müxtəlif normativ aktlarda ifadə olunan mülki hüquq normalarından ibarətdir. Məhz bu səbəbdən göstərə bilərik ki, obyektiv mənada müəlliflik hüququ elə müəlliflik hüququ subinstitutunun özü deməkdir. Hüquq subinstitutu kimi isə müəlliflik hüququnun işi elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması və istifadəsi prosesində əmələ gələn əmlak və şəxsi qeyri-əmlak münasibətləri ilə bağlıdır. Həmin münasibətlər məhz müəlliflik hüququ subinstitutu ilə tənzimlənir.

Dediklərimizdən belə nəticə çıxara bilərik ki, məhz obyektiv mənada müəlliflik hüququ subinstitut kimi çıxış edir və əqli mülkiyyət hüququ yarımsahəsinin sisteminə tərkib hissəsi (elementi) kimi daxil olur. Hər bir hüquq subinstitutunun isə özünün nizamasalma (tənzimetmə) predmeti olmalıdır. Bəs, müəlliflik hüququnun nizamasalma predmeti nədən, yəni hansı növ ictimai münasibətlərdən ibarətdir?

Qeyd etdik ki, elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması və istifadəsi prosesində müəyyən növ ictimai münasibətlər əmələ gəlir. Onlar müəlliflik münasibətləri adlanır. Məhz bu münasibətlər hüquq subinstitutu kimi müəlliflik hüququnun nizamasalma (tənzimləmə) predmetini təşkil edir. Məhz həmin münasibətlər müəlliflik hüququ ilə tənzimlənərək onun nizamasalma predmetinə daxil olur.

Müəlliflik münasibəti ilk növbədə, şəxsi qeyri-əmlak münasibəti növündə ola bilər. Bu münasibət isə müəllifin əsər yaratması ilə əmələ gəlir. Əsər işıq üzü görən kimi onun barəsində müəllifə əhatə dairəsi bilinməyən şəxslər (“hamı və hər kəs”) arasında şəxsi qeyri-əmlak münasibəti yaranır. Müəlliflik münasibəti digər tərəfdən, özündə əmlak elementlərini birləşdirir. Belə ki, o, həm də əmlak münasibəti növündə də ola bilər. Əmlak münasibəti əsərin yaradılması ilə yox, əsərdən istifadə edilməsi ilə bağlı olaraq əmələ gəlir. Məsələn, əsər kitab halında nəşr olunur və onun çoxsaylı nüsxələri oxuculara satılır. Bu zaman alqı-satqı münasibəti yaranır ki, həmin münasibət əmlak münasibəti sayılır.

Hüquq subinstitutu kimi müəlliflik hüququnun hansı rolu yerinə yetirməsi və oynaması onun funksiyalarında təzahür edir. Müəlliflik hüququ beş funksiya yerinə yetirir:

– tanıtmaq funksiyası;
– mühafizə etmək funksiyası;
– müəyyən etmək funksiyası;
– təmin etmək funksiyası;
– müdafiə funksiyası.

Müəlliflik hüququnu tanıtmaq funksiyasının mahiyyəti ondan ibarətdir ki, əsəri yaradan şəxsə əsərin müəllifi sayılması və hesab edilməsi imkanı verilmişdir. Müəllifin hüququ vardır ki, bu faktın, yəni əsərin müəllifi sayılması faktının tanınmasını başqa şəxslərdən tələb etsin. Deməli, şəxs yaratdığı əsərin müəllifi kimi tanınmaq hüququna (imkanına) malikdir. Bu hüquq isə əsərin özünün yaranması faktı ilə əmələ gəlir və əsərin dərc olunub-olunmamasından, istifadə edilib-edilməməsindən asılı deyildir. Şəxsi əsərin müəllifi kimi tanımaq üçün hər hansı formal proseduranın yerinə yetirilməsi, əsərin dövlət orqanlarında qeydə alınması, xüsusi olaraq rəsmiləşdirilməsi və ya kiminsə razılıq (icazə) verməsi tələb olunmur.

Müəlliflik hüququnu mühafizə etmək funksiyasının (qoruyucu funksiyasının) mahiyyəti ondan ibarətdir ki, müəlliflik hüquq normaları elm, ədəbiyyat və incəsənət əsərlərini hüquqi cəhətdən (fiziki cəhətdən yox) qoruyur. Bu, o deməkdir ki, əsər müəllifin razılığı (icazəsi) olmadan və ona haqq verilmədən istifadə edilə bilməz (məsələn, əsər nəşr oluna və ya başqa dilə tərcümə oluna bilməz və s.). Əgər müvafiq şəxs əsərdən müəllifin razılığı olmadan istifadə edərsə (məsələn, müəllifin icazəsi olmadan əsəri kitab halında çap edərsə və s.), bu hal qanunsuz istifadə (hüquq pozuntusu) hesab ediləcəkdir. Buna görə də təqsirkar şəxsə müvafiq məsuliyyət tədbirləri tətbiq edilir.

Müəlliflik hüququ əsəri yarandığı andan öz mühafizə sferasına daxil edir. Buna görə də dərc edilən əsər də, dərc edilməyən əsər də müəlliflik hüququ ilə qorunur. Məhz bu səbəbdən əsərin əlyazması da müəlliflik hüququnun mühafizə sferasına aid edilir.

Müəlliflik hüquq normalarının əsəri qoruması həmin əsərin yaradıldığı dövlətin ərazisi ilə məhdudlaşır. Məsələ burasındadır ki, müəlliflik hüququ ərazi xarakterinə malikdir. Bu, onu ifadə edir ki, başqa dövlətin ərazisində əsər müəllifin razılığı (icazəsi) olmadan və ona haqq (qonorar) verilmədən sərbəst şəkildə istifadə oluna bilər. Başqa sözlə desək, müəyyən bir dövlətin ərazisində müəlliflik hüququ ilə qorunan əsər başqa dövlətin ərazisində mühafizə edilmir (qorunmur). Əsəri başqa dövlətin ərazisində qorumaq üçün beynəlxalq müqavilələrin (konvensiyaların), eləcə də ikitərəfli beynəlxalq sazişlərin bağlanması tələb edilir.

Digər tərəfdən müəlliflik hüquqlarının qorunması müddətlə məhdudlaşır, yəni müddətli xarakter daşıyır. Belə ki, müəlliflik hüquqları qanunda nəzərdə tutulan müddətdə qorunur. Bu müddət keçdikdən sonra onlar müəlliflik hüququ ilə qorunmur.

Müəlliflik hüququnun müəyyən etmək funksiyasının mahiyyəti ondan ibarətdir ki, müəlliflik hüquq normaları əsərdən istifadənin hüquqi rejimini müəyyənləşdirir. Həmin normalara görə əsərdən istifadə olunan zaman müstəsna hüquq rejimi tətbiq edilir. Həmin rejimin mahiyyəti isə ondan ibarətdir ki, müəllifin və ya əsərə müəlliflik hüququnun digər sahibinin əsərdən hər hansı formada və üsulla istifadə etməyə müstəsna hüququ vardır (bu barədə müəlliflik hüququ birbaşa göstəriş ifadə edir). Başqa hər hansı şəxsin belə hüququ yoxdur.

Müəlliflik hüququ göstərir ki, qanunla qorunan əsərdən kim və hansı şərtlərlə istifadə edə bilər. Əsərdən başqa şəxslərin istifadəsi yalnız müəllifin və ya əsərə müəlliflik hüququnun digər sahibinin razılığı və icazəsi ilə mümkündür. Əsərdən istifadə və onun barəsində sərəncam səlahiyyətləri ancaq həmin şəxslərə məxsusdur. Müəlliflik hüququ onları (müəllifi və s.) leqal (qanuni) inhisar hüququ ilə təmin edir ki, bu hüquq əsərdən istifadə üzrə müxtəlif hərəkətlər etməyə imkan verir.

Müəlliflik hüququnun təmin etmək funksiyasının mahiyyəti ondan ibarətdir ki, müəlliflik hüququ elm, ədəbiyyat və incəsənət əsərlərinin müəlliflərini bir sıra hüquqlarla təmin edir. Onlara müəlliflik hüquqları deyilir. Müəlliflik hüquqları elə subyektiv hüquqlardır ki, müəllif onları elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması nəticəsində əldə edir. Həmin hüquqlar həm şəxsi qeyri-əmlak xarakterli (məsələn, əsərin müəllifi kimi tanınmaq hüququ, müəllifin ad hüququ və s.), həm də əmlak (iqtisadi) xarakterli (məsələn, əsərin nüsxələrini satmaq və ya satmağa icazə vermək və s.) ola bilər.

Müəlliflik hüququnun müdafiə funksiyası onda ifadə olunur ki, elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması nəticəsində müəllifin əldə etdiyi həm şəxsi qeyri-əmlak hüquqları, həm də əmlak (iqtisadi) hüquqları müdafiə olunur. Söhbət müəlliflik hüquqlarının hüquqi müdafiə ilə təmin olunmasından gedir. Belə ki, müəlliflik hüquqları pozulduğu və ya mübahisə edildiyi hallarda pozulmuş hüquqları bərpa etməyə (və ya mübahisə edilən hüquqları tanımağa) yönələn tədbirlər tətbiq edilir. Bu tədbirlərin məcmusu müəlliflik hüquqlarının müdafiəsi hesab edilir.

**Nəticə:** Tədqiqatın nəticəsi olaraq bildirmək mümkündür ki, Azərbaycan Respublikasında əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş mədəniyyət siyasətini müvəffəqiyyətlə davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin imzaladığı ""Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında", "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamları, eləcə də "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 30 iyul 2018-ci il tarixli Fərmanı müəllif hüquqları sahəsində uğurlu və sistemli tədbirlərin həyata keçirilməsinə səbəb olmuşdur. Bu siyasətin məntiqi nəticəsidir ki, hazırda Azərbaycanın tarixi, mədəniyyəti, musiqisi, xalçaları, muğamları, xalq yaradıcılığı, ədəbiyyatı, memarlığı, milli mətbəxi və geyimləri, eləcə də mədəni irsi haqqında nəşr olunan kitablar, elektron daşıyıcılar zəngin elmi və mədəni potensialımızın

dünyada tanıdılması, xalqımızın müəlliflik hüququnun beynəlxalq aləmdə qorunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdir.

**Ədəbiyyat siyahısı:**

1. Allahverdiyev S. Azərbaycan Respublikasının mülki hüququ. III cild. IV kitab. Dərslik. Bakı, Digesta, 2008, 700 səh.

2. Xələfov A. Məqalələr toplusu: 1990-2011-ci illər. – Bakı: Bakı Universiteti nəşriyyatı, 2011. – 464 səh.

3.“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanunu// Azərbaycan. – 4 aprel. – 1998. – s.3.

4. “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanunu// Ədəbiyyat qəzeti. – 2012. – 24 aprel. – s.2-4.

5. “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanunu// Azərbaycan. – 1998. – 19 iyun. – s.2-4.

**Tamilla Asgerova**

## COPYRIGHT IN THE CULTURAL POLICY OF HAYDER ALIYEV: SUBJECT AND FUNCTIONS

**Summary:** Books are a treasure that guides society forward, embodies the diversity of human intelligence, and contains the rich experience of mankind. Historically, legends, myths, legends, heroic epics, and labor songs were first written orally, and later they were written on stone, leather, and wood and have survived to this day. The creation of the alphabet and writing, the discovery of paper, manuscripts, the invention of printing, and the creation of libraries are the most important pages in the development stage of the book. The introduction of the book into human life and the proliferation of books also created the need for the creation of copyright. The article analyzes the subject and functions of copyright in the cultural policy of our great leader Heydar Aliyev.

**Key words:** work, book, creativity, intellectual property, normative act, law, decree

**UOT 008**

**Şahanə Həsənova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti,**
**filologiya üzrə fəlsəfə doktoru, baş müəllim**
**E-mail: m.shahana1982@mail.r**

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN VƏ İNCƏSƏNƏTİNİN HİMAYƏDARI KİMİ

**Xülasə**: Mədəniyyət, ədəbiyyat, sənət o zaman ayaqda qalıb nüfuzedicilik qabiliyyətini qoruyur ki, ona dayaq olan, hamilik edən şəxsiyyətlər olsun. "Xalq bir çox xüsusiyyətlərilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". Bu dəyərli ifadənin müəllifi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevdir. Zəngin, dərin tarixi ənənələr üzərində pərvəriş tapan Azərbaycan mədəniyyətinə ümummilli lider hər zaman qayğı və sevgi ilə yanaşıb. Təsadüfi deyil ki, böyük şəxsiyyəti hər bir mədəniyyət xadimi, mədəniyyət adamı dəyərlərimizin hamisi kimi tanıyır və onun bu sahədə gördüyü işləri məmnunluqla xatırlayır.

**Açar sözlər**: mədəniyyət, ədəbiyyat, ənənə, siyasət, xalq

14 iyul 1969-cu il. Bu tarix dünyada kimlər üçünsə təqvimdə adi bir gün ola bilər. Azərbaycanda bu, xalqımızın yaşlı nəslinin bilavasitə şahidi olduğu, müstəqil respublikamızda böyüyüb boya-başa çatan nəslin isə artıq nəticələrini ölkəmizin müasir inkişafında, uğurlarında gördüyü bir dövrün, hazırda mübaliğəsiz Heydər Əliyev erası adlandıra biləcəyimiz tarix salnaməsinin ilk günü idi. Ümummilli lider Heydər Əliyevin 50 il əvvəl Azərbaycana rəhbərlik etməyə başlaması respublikamız və xalqımız üçün tarixi bir şans idi və ötən zamanın gərdişi, yaşanan hadisələr, tarixi sınaq anları bunu dəfələrlə təsdiq edib. Yarım əsr əvvəl başlanan bu tarixi yol respublikamızın bütün sahələrdə davamlı inkişaf dövrünə qədəm qoyması ilə nəticələndi. Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin siyasi karyerasında, idarəetmə sistemində mədəniyyət sahəsi məxsusi yer tutur. Bunun da əsasında Ulu Öndərin mədəniyyət və incəsənətə böyük sevgisi dayanırdı. O, hər zaman aktiv siyasi fəaliyyəti ilə bərabər xalqın yanında daha çox olması, eyni zamanda mədəniyyətə, musiqiyə, rəssamlığa, sözün geniş mənasında, sənətə yüksək marağı ilə insanları heyrətə salırdı. Yarım əsrdir ki, adı, imzası vətənimizlə qoşa çəkilən, tarix salnaməmizdə silinməz iz qoyan Heydər Əliyevin sovet Azərbaycanına başçılıq etdiyi və keçmiş ittifaqın rəhbərliyində təmsil olunduğu illərdəki fəaliyyətinin konturları bir nöqtədə birləşirdi: xalqımızın milli-mədəni sisteminin qorunması və sosial-iqtisadi həyatının təminatı. Bu siyasət, əslində, onun müstəqil Azərbaycanın rəhbərliyinə qayıtdıqdan sonra gördüyü işlərin möhkəm təməllərini təşkil edirdi. Uzun və kifayət qədər mürəkkəb olan bu dövr dahi siyasətçinin doğma xalqı ilə qırılmaz tellərlə bağlılığını göstərir. Xalqımızın adət-ənənələri, minilliklərin soraqçısı olan mədəni mirasını müqəddəs hesab edən Heydər Əliyev özünü bu zənginliyin ayrılmaz hissəsi sayır, ondan bəhrələnərək millətin və dövlətin gələcək inkişafı üçün çalışırdı. "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib", – deyən müdrik rəhbər öz gücünün, fəhminin ünvanını çox dəqiq nişan verirdi. Sonrakı proseslər də göstərdi ki, mənsub olduğu xalqa inanan, onun etibarına və sevgisinə söykənən, məhz ondan ilham alan siyasətçi liderlik şərəfinə nail ola bilər. 1993-cü ilin 15 iyununda xalq Heydər Əliyevin timsalında nəinki öz qurtuluşuna, eyni zamanda parlaq gələcəyinə qovuşdu. Bu tarixi dönüş Azərbaycana əmin-amanlıq, milli birlik bəxş etdi. Ulu Öndərin nail olduğu bu dinc şərait ölkə həyatının bütün sahələrində, o cümlədən

mədəni inkişafda uğurlar silsiləsinin əsasını qoydu. Ulu öndər hər zaman bir məqamı vurğulayıb ki, xalqın mədəni irsi, eləcə də mənəvi dəyərlərimiz milli-siyasi varlığımızın əsasını təşkil edir. O deyirdi: "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". "Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər". Ulu Öndərin bu fikirləri böyük bir həqiqətin təzahürü idi. Müxtəlif yaradıcılıq sahələrində qeyd olunan bu yeniliklər ilk növbədə münbit şəraitdə formalaşa bilərdi. Belə bir mühitin yaradıcısı məhz Heydər Əliyev idi. Bu mənada ötən əsrin 70-80-ci illərində istər incəsənətin müxtəlif sahələrində, istərsə də ədəbi prosesdə ciddi nəticələri olan yaradıcılıq axtarışları aparılmışdı (6). Yaradıcılıq məzmun və formaca zənginləşmiş, yeni təmayüllər formalaşmağa başlamışdı. Görkəmli şəxsiyyətlərimizin şöhrəti ölkəmizin hüdudlarını aşaraq ittifaqın müxtəlif şəhərlərinə yayılır, onların yaradıcılıq gecələri, yubiley tədbirləri təşkil olunurdu. Mədəni irsin kompleks halda təbliğatında mühüm rol oynayan Azərbaycan mədəniyyəti və incəsənəti günləri də mütəmadi şəkildə gerçəkləşirdi. Mədəniyyəti xalqın böyük sərvəti hesab edən uzaqgörən siyasətçi bu zənginlikdən məqamında və maksimum yararlanmağın zəruriliyini qeyd edirdi. "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir", – deyən müdrik şəxsiyyət mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün geniş perspektivləri olan bir sistemin formalaşmasına çalışırdı. Onun Respublikaya birinci rəhbərliyi dövründə Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi kimi mütəfəkkir şairlərin hikmət xəzinələrinin beynəlxalq səviyyədə tanıdılması, yubileylərinin keçirilməsi, rəssamlıq və heykəltəraşlıqdan musiqiyədək bir çox sahələrdə monumental sənət əsərlərinin yaradılması mədəniyyət tariximizin dəyərli səhifələridir. Həmin illərdə Üzeyir Hacıbəylinin, Cəfər Cabbarlının ev-muzeylərinin, Nəriman Nərimanovun, Bülbülün xatirə muzeylərinin, digər ədəbiyyat və mədəniyyət xadimlərimizin ev-muzeylərinin yaradılması, Natəvanın abidəsinin, Şuşada Molla Pənah Vaqifin məqbərəsinin inşası və bu kimi onlarca mühüm qərarlara imza atan Heydər Əliyev bu işlərin uğurla başa çatdırılmasına bilavasitə rəhbərlik etmişdi. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza kimi ədəbiyyat və mədəniyyət xadimlərinin SSRİ-nin ən yüksək fəxri adına – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmələri məhz Ulu Öndərin təqdimatı ilə reallaşmışdı. İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, digər monumental sənət əsərlərinin yaradılması, "Gülüstan" sarayı, Opera studiyası, Xoreoqrafiya məktəbi kimi memarlıq abidələri mədəniyyətimizə diqqət və qayğının mühüm təzahürləri idi. Bir məqamı da vurğulamaq lazımdır ki, ümummilli lider təşəbbüslərinin real nəticələrini görəndə böyük məmnunluq hissi keçirir, bu cür tədbirlərin gerçəkləşdirilməsində şəxsən iştirak etməyə çalışırdı. Çünki Heydər Əliyev, sözün əsl mənasında, mədəniyyətlə nəfəs alır, həyatını musiqidən, sənətdən kənarda hiss edə bilmirdi. Onun mədəniyyətlə bağlı baxışlarından, bu sahənin insanları ilə olan görüşlərindən heyrətə düşənlər üçün Ulu Öndərin bu fikirləri böyük əhəmiyyət kəsb edir: "Mədəniyyət və incəsənət kiçik yaşlarımdan qəlbimdə xüsusi yer tutur. Bəlkə də, gənclik illərində arzum rəssam olmaq, yaxud teatra getmək idi, amma qismət başqa cür oldu. Ona görə də hamısı qəlbdən gəlir. Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə mədəniyyət sahəsinin qanunvericilik bazasının formalaşdırılması istiqamətində mühüm işlər görüldü. Ulu Öndərin rəhbərliyi altında mədəniyyət sahəsində 10-dan çox qanun qəbul edildi. "Mədəniyyət haqqında" (1996), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (1998), "Kinematoqrafiya haqqında" (1998), "Memarlıq fəaliyyəti haqqında" (1998), "Kitabxana işi haqqında (1998), "Milli Arxiv Fondu haqqında" (1999), "Muzeylər haqqında" (2000), "Nəşriyyat işi haqqında" (2000) və s. qanunlar bu sahənin kompleks inkişafı üçün böyük rol oynadı. Bütün bunlardan əlavə, mədəniyyət sahəsinin inkişafına təkan verən, mədəniyyət siyasətinin icrasını operativ şəkildə təmin etmək məqsədilə müvafiq dövlət proqramları da qəbul edildi.

(2, s.45). Əvvəldə də qeyd etdiyimiz kimi, Ulu Öndərin təşəbbüsü və dəstəyi ilə mədəniyyətimizin ölkəmizlə yanaşı, beynəlxalq aləmdə tanıdılması istiqamətində bir sıra addımlar atılmışdı. Mədəni irsimizin, görkəmli ədiblərin, mədəniyyət xadimlərinin yubileylərinin xarici ölkələrdə nüfuzlu təşkilatlarda qeyd olunması bu sahəyə göstərilən diqqət və qayğıdan xəbər verirdi. Dahi şair Məhəmməd Füzulinin 500 illik, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileylərinin UNESKO-da qeyd olunması, 2000-ci ildə İçəri şəhərin Qız qalası və Şirvanşahlar Saray Kompleksi ilə birlikdə Dünya İrs Siyahısına daxil edilməsi həm də Azərbaycanın beynəlxalq miqyasda artan nüfuzunun təsdiqi idi. Ümummilli liderin müxtəlif illərdə Milli Kino, Üzeyir Musiqi, Azərbaycan Əlifbası və Ana Dili günlərinin təsis edilməsi haqqında fərmanlar imzalaması da böyük şəxsiyyətin milli mədəni irsə sonsuz məhəbbət və qayğısının bariz nümunəsidir. Ulu öndər Azərbaycan dilinin də həqiqi himayədarı idi. Yüksək kürsülərdən beynəlxalq ictimaiyyətə ana dilində səslənməsi, eləcə də ölkəmizdə latın qrafikasının tətbiqi işinin başa çatdırılması dahi siyasətçinin unudulmaz xidmətləridir. Latın qrafikalı əlifbanın tətbiqinin ölkəmizin siyasi həyatında, yazı mədəniyyətimizin inkişafında əhəmiyyətini nəzərə alan Prezident Heydər Əliyevin 2001-ci ildə imzaladığı böyük əhəmiyyətə malik fərmanla bu proses başa çatdırılmış oldu. "Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşıbsa da, dayanmayıb, inkişaf edib. İndi isə türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim borcumuzdur" (4, s.25). Bu fikirlər görkəmli dövlət xadiminin 1996-cı ildə Bakıda keçirilən Türk dünyası yazıçılarının qurultayındakı çıxışındandır. Çoxməzmunlu və əhəmiyyətli olan bu çağırış türk xalqlarının birliyi istiqamətində görülməli olan işlərin Bu gün Azərbaycan Ulu Öndərin möhkəm təməllər üzərində bərqərar olan, xalqımızın və dövlətimizin etibarlı gələcəyini təmin edən vahid siyasi xətt üzərində inkişaf etməkdədir. Prezident İlham Əliyev ümummilli liderin müdrik siyasətini, o cümlədən mədəniyyət himayədarlığını layiqincə davam etdirir. Həm dövlət başçısı, həm də Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva Ulu Öndərin ideyalarının həqiqi təminatçılarıdır. Heydər Əliyev yolunun bu sadiq davamçıları Azərbaycanın inkişafı naminə böyük fədakarlıq göstərirlər. Xalqımız Ulu Öndərin ölçüyəgəlməz Azərbaycan sevgisinin möhtəşəm bəhrələrini bundan sonra da hər zaman görəcəkdir.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikası (1991-2001). Bakı, Yeni nəşrlər evi, 2001
2. Abbasov N. Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və dəyərlərinin inkişaf amilləri. Bakı, Təknur, 2008, 240 səh.
3. **"Azərbaycan" qəzeti, 10 dekabr 1998-ci il "**İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq simpoziumda Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı 9 dekabr 1998

4. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı. 2002. – Azərbaycan Universiteti‖ nəşriyyatı. 2002. 232 səh.
5. Əliyev H. Dünya azərbaycanlılarının I qurultayında çıxış. – Azərbaycan qəzeti, 2001-ci il, 10 oktyabr.
6. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir (onuncu kitab). B., Azərnəşr, 2002, s.135.
7. Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu. Bakı, "Elm" 2001, 240 səh.

**Shahana Hasanova**

# HAYDER ALIYEV AS THE PATRON OF THE CULTURE AND ARTS OF AZERBAIJAN

**Summary:** Culture, literature and art remain in place and retain their influence when there are individuals who support and rule them. "The nation is known, considered and stands out among the nations of the world for its many characteristics. The highest and greatest of these characteristics is culture. Heydar Aliyev, the national leader of the Azerbaijani people, is the author of this valuable statement.The national leader always treated the culture of Azerbaijan with care and love. It is not by chance that every cultural figure and person of culture recognizes a great person as a defender of our values and remembers his work in this field with pleasure.

**Key words:** culture, literature, tradition, politics, people

UOT 82

**Ulduz Qəhrəmanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**filologiya üzrə fəlsəfə doktoru, baş müəllim**
**E-mail: ulduzkahraman1@gmail.com**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

**Xülasə**: Hər bir dahi liderin xalqına sədaqəti və məhəbbəti mənsub olduğu xalqın tarixinə, ədəbiyyatına, dilinə olan məhəbbətindən, sevgisindən doğur. Bu fenomen şəxsiyyətlərdən biri Azərbaycan xalqının və ədəbiyyatının tarixində şərəfli yer tutan böyük rəhbər xadimi Heydər Əliyevdir. Bu dahi insan Azərbaycan xalqının və ədəbiyyatının inkişafına müstəsna təsir göstərmişdir. Belə ki Azərbaycan mədəniyyətinin, ədəbiyyatının "baş inkişaf planı"nı hazırlayıb həyata keçirmişdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə mədəniyyətin elə bir sahəsi olmamışdır ki, həmin sahəyə müdrik münasibətini ifadə etməmiş olsun. Məsələn: memarlıq, kino, teatr, musiqi, ifaçılıq sənəti və s. Dahi lider mədəniyyətin bu sahələrinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşmışdır.

**Açar sözlər:** Heydər Əliyev, ədəbiyyat, Azərbaycan ədəbiyyatı, sovet dövrü ədəbiyyat, müstəqillik dövrü ədəbiyyat

Məlumdur ki, hər bir ədəbiyyatı yaşadan və inkişaf etdirən onun mənsubu olduğu xalqdır. Ədəbiyyatın yüksək zirvələrə qalxaraq beynəlxalq nüfuz qazanması, xalqın böyük övladlarının adı, şəxsiyyəti, fenomenal fəaliyyəti ilə bağlıdır. Hər bir dahi liderin xalqına sədaqəti və məhəbbəti mənsub olduğu xalqın tarixinə, ədəbiyyatına, dilinə olan məhəbbətindən, sevgisindən doğur. Bu fenomen şəxsiyyətlərdən biri Azərbaycan xalqının və ədəbiyyatının tarixində şərəfli yer tutan böyük rəhbər xadimi Heydər Əliyevdir. Bu dahi insan Azərbaycan xalqının və ədəbiyyatının inkişafına müstəsna təsir göstərmişdir. Belə ki Azərbaycan mədəniyyətinin, ədəbiyyatının "baş inkişaf planı"nı hazırlayıb həyata keçirmişdir.

Heydər Əliyevə görə, əsl görkəmli əsərlərin yaradılması sənətkardan böyük istedadla yanaşı həm də ardıcıl, gərgin çalışmağı, geniş həyat materialını toplayıb dərindən dərk etməyi tələb edir. H.Əliyev deyirdi ki, əsl sənət əsəri odur ki, sənətkar burada hər şeydən əvvəl özünü ifadə etsin. Sənətkara sifariş mövzu vermək olmaz. Mövzu seçmək sənətkarın öz işidir, sənətkarın istedadına məxsusdur. Bu məsələ ilə bağlı Heydər Əliyev Azərbaycan yazıçılarının X qurultayında sənətkarlara bildirmişdir: "...Siz tam sərbəstsiniz, azadsınız və sərbəstlik , azadlıq şəraitində nə cür istəyirsinizsə, o cür yazın. Hansı mövzunu götürürsünüz, götürün, sizin öz işinizdir. Dövlət bu işlərə qarışmayacaqdır. Mən bunu sizə qətiyyətlə deyirəm" (5, s.81). Məlumdur ki, Sovet dövrü ədəbiyyatında yaradıcı adamlar üçün yaradıcılıq azadlığı adlı bir məfhum yox idi. Yaradıcılıq işi üçün seçilən mövzu sifariş xarakterli mövzular idi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə mədəniyyətin elə bir sahəsi olmamışdır ki, həmin sahəyə müdrik münasibətini ifadə etməmiş olsun. Məsələn: memarlıq, kino, teatr, musiqi, ifaçılıq sənəti və s. Dahi lider mədəniyyətin bu sahələrinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşmışdır. Dahi liderin Azərbaycana rəhbərlik etdiyi həmin dövrlər:

- Sovet dövründə: 1969-1983
- Milli müstəqillik dövründə: 1993-2003

Heydər Əliyev təkcə ictimai-siyasi xadim deyil, həmçinin ədəbiyyatın və mədəniyyətin bütün sahələrini duyan və bunlara qiymət verən yaradıcı bir şəxsiyyət idi. H.Əliyev Azərbaycan ədəbiyyatının və mədəniyyətinin keçdiyi çoxəsrlik tarixi dərindən bilirdi. Ona görə də mütəxəssis səviyyədə ədəbiyyat və incəsənət sahələrinin qarşılıqlı təhlilini etməyi ustalıqla bacarırdı. Onun ədəbiyyat və

mədəniyyətimizin müxtəlif sahələri ilə bağlı verdiyi təhlillər mütəxəssisləri heyran qoyurdu. Heydər Əliyev Azərbaycan ədəbiyyatını dünyaya tanıtmaq üçün əlindən gələni əsirgəmirdi. Belə ki:

- Molla Pənah Vaqifin, Hüseyn Cavidin məqbərəsini inşa etdirmişdir.
- İ.Nəsiminin, C.Cabbarlının heykəllərini ucaltdırmışdır.
- Şəhidlərin Xatirə kompleksi və bir sıra digər monumental sənət əsərləri yaradılmışdır.
- "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin YUNESKO-nun qəbul etdiyi qərar əsasında keçirilməsinə nail olmuşdu (2000-ci il, 11 martda).
- H.Əliyev 1981-ci il 6 oktyabrda dahi şair Nizami Gəncəvinin 840 illik, 1991-ci ildə isə isə 850 illik yubiley tədbirlərinin təşkilatçısı və rəhbəri olmuşdur.
- H.Əliyevin təşəbbüsü ilə M.Füzulinin 500 illik yubileyi 1994-cü ildə Moskvada keçirildi...

Heydər Əliyevin mədəni həyatımıza verdiyi dəyərin yüksək göstəriciləri:

- "İstiqlal" və "Şöhrət" ordenləri.
- "Tərəqqi" medalı.
- Fəxri adlar: Xalq yazıçısı, Xalq artisti, Xalq rəssamı, Əməkdar artist, Əməkdar rəssam, Əməkdar Memar, Əməkdar İncəsənət xadimi, Əməkdar Mədəniyyət işçisi və s.

H.Əliyev türkçülüyü, azərbaycançılığı, islami dəyərləri, dünyəviliyi milli-ideoloji məsuliyyət səviyyəsinə yüksəltdi. V Qurultaydan başlayaraq H.Əliyev Azərbaycan yazıçılarının bütün qurultaylarında iştirak etmişdir. Dahi lider H.Əliyev yaradıcı şəxslərin fikrinə həmişə hörmətlə yanaşır, məruzələrini, elmi mülahizələrini sevərək dinləyər və xüsusi qiymət verərdi. Heydər Əliyev hətta milli təfəkkürlü yaradıcı şəxsiyyətləri dissident təzyiqlərə məruz qalmalarına imkan verməmiş və onları qorumağı bacarmışdır.

H.Əliyev söz, bədii sənət işini "fədakarlıq" adlandırırdı: "Ədəbiyyat, mədəniyyət isə həmişə fədakarlıqdan doğan bir anlayışdır. Ədəbiyyatı, mədəniyyəti, bədii əsərləri, yüksək incəsənət əsərlərini yaradan insanlar həmişə fədakar olurlar. Onlar fitri istedadı ilə bərabər fədakar olmasa, böyük sənətkar ola bilməzlər" (5, s.113).

Heydər Əliyevin Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən ən böyüyü tərcümə ədəbiyyatının inkişafını təmin etmək idi. H.Əliyev dünya ədəbiyyatının qarşısında duran əsas vəzifəni tərcümə işinin çiynində olduğunu xüsusilə vurğulayırdı. Həmçinin ulu öndər xalqların ədəbiyyatlarının yaxınlaşmasında dil ilə yanaşı tərcümə faktorunun böyük rol oynaması faktının üzərində xüsusilə dayanırdı. Belə ki, yazıçılarımızın əsərləri Moskva və Leninqrad nəşriyyatları tərəfindən böyük tirajla çap olunurdu.

Tərcümə məsələsi mərkəzləşmiş qaydada Sovet dönəmində Moskvadan idarə edilirdi. Bu tərcümə işi də H.Əliyevin təşəbbüsü ilə həyata keçirilirdi. Klassiklərin, müasir yazıçıların əsərləri H.Əliyevin gücü ilə rus və Avropa xalqlarının dillərinə tərcümə olunurdu. Bu proses, H.Əliyevin Moskvada, SSRİ Nazirlər Soveti sədrinin müavini vəzifəsində işlədiyi müddətdə daha da sürətlə həyata keçirildi. Çünki o vaxtlar SSRİ poliqrafiya sistemi H.Əliyevə tabe idi.

Qeyd edək ki çağdaş Azərbaycan ədəbiyyatında ümummilli liderimiz Heydər Əliyevə xeyli sayda bədii əsərlər də ithaf edilmişdir. Və bu əsərlərdə H.Əliyev Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının real tarixi şəxsiyyətləri arasında əzəmətli obrazlardan biri kimi xarakterizə edilirdi. Bu əsərlərə nəzər saldıqda biz H.Əliyev obrazı fonunda tarixi gerçəkliyin işıqlandırılmasının şahidi oluruq. Həmçinin bu əsərlərdə H.Əliyevlə Azərbaycan xalqının əl-ələ verib vətəni təhlükədən xilas etmə mübarizələri tərənnüm edilmişdir. Məsələn: Abdulla Qurbaninin "Millətin oyaq gecəsi" poeması, Fəridə Ləmanın "Onu zaman seçib" poeması, Ramiz Məmmədzadənin "Zirvə" poeması və s.

H.Əliyev Azərbaycan Yazıçılarının V Qurultayında Azərbaycan yazıçılarına yeni bir status vermişdi: "Azərbaycan ziyalılarının qabaqcıl dəstəsi". Heydər Əliyev deyirdi ki, heç bir xalq başqa xalqların nailiyyətlərindən istifadə etmədən inkişaf edə bilməz. Heydər Əliyev yaradıcılığına bələd olmadığı yazıçı və şairin adını dilinə gətirməzdi. Hətta müasiri olduğu dövrünün yazıçı və şairlərin əksəriyyəti ilə şəxsən tanış idi.

**Ədəbiyyat siyahısı:**

1.Afad Qurbanov, Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı, Bakı, Gənclik, 1997

2.Buludxan Xəlilov, Heydər Əliyev və mədəni irsimiz, Pedaqoji Universitetin xəbərləri, Bakı: ADPU, 24 aprel 2003, № 3

3. Buludxan Xəlilov, Heydər Əliyev və azərbaycanşünaslıq, Pedaqoji Universitetin xəbərləri, Bakı: ADPU, 10 may 2004-cü il, № 2

4. Buludxan Xəlilov, Azərbaycan dili: dünən və bu gün, Bakı, 2004

5.Tərlan Novruzov, Heydər Əliyev və ədəbiyyat məsələləri, Bakı, 2007

**Ulduz Kahramanova**

## HEYDAR ALIYEV AND AZERBAIJAN LITERATURE

**Summary:** The loyalty and love of every genius leader to his people stem from his love and affection for the history, literature, and language of the people he belongs to. One of these phenomenal personalities is Heydar Aliyev, a great leader who holds an honourable place in the history of the Azerbaijani people and literature. This genius had an exceptional impact on the development of Azerbaijani people and literature. Thus, he prepared and implemented the "master development plan" of Azerbaijani culture and literature. During the years when Heydar Aliyev led Azerbaijan, there was no such field of culture that he did not express his wise attitude to that field. For example architecture, cinema, theatre, music, performing arts, etc. The genius leader always approached these areas of culture from the standpoint of national fanaticism and patriotism.

**Key words:** Heydar Aliyev, literature, Azerbaijani literature, literature of the Soviet period, literature of the independence period

**UOT 94 [479.24]**

**Nərgiz Rəsulova**
**Gəncə Dövlət Universiteti,**
**tarix üzrə fəlsəfə doktoru, baş müəllim**
**E-mail: nararasulova@bk.ru**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN HƏYAT VƏ FƏALİYYƏTİ AZƏRBAYCAN GƏNCLİYİNƏ NÜMUNƏDİR

**Açar sözlər:** ümummilli lider, dövlət quruculuğu, gənclər siyasəti, siyasi irs

İctimai bir qrupun millət hesab edilməsinin əsas şərti onun kimliyinin təməlini təşkil edən milli-mənəvi dəyərlər sisteminə malik olmasıdır. Milli-mənəvi dəyərlər həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Hər bir xalqın mənəvi-əxlaqi dəyərlərini qoruyaraq gələcək nəsillərə ötürməsi fenomen şəxsiyyətlərin üzərinə düşür. Yalnız böyük şəxsiyyətlər yetişdirən xalqlar minilliklər boyu möhkəm mənəvi təməl üzərində inamla irəliləyirlər. Azərbaycanda bu ağır və taleyüklü missiyanı Ulu öndərimiz Heydər Əliyev öz üzərinə götürmüşdür.

1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmaqla, xalqda milli heysiyyəti gücləndirmək, onu öz şanlı keçmişinə, soy-kökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra aşkar-gizli tədbirlər həyata keçirmişdir. Bu dövrdə iqtisadi sahədən tutmuş mədəni sahəyə qədər əlverişli mühit yaradılmışdı [1]. Dərin zəkalı, yüksək enerjili lider olan Heydər Əliyev hakimiyyətə gələnə qədər sovetlər birliyinin geridə qalan respublikalarından sayılan Azərbaycan çox qısa bir müddətdə iqtisadi artım tempinə görə orta ittifaq səviyyəsini ötmüş oldu. 1969-1982-ci illərdə respublikada milli gəlir 2,6 dəfə, sənaye məhsulunun həcmi 2,7 dəfə, kənd təsərrüfatı istehsalı 2,3 dəfə artdı, 250-dək yeni iri sənaye müəssisəsi yaradıldı və ölkənin sənaye potensialı əvvəlki 50 ildəkini 2 dəfə üstələdi [11]. Həmin illərdə 800 mindən çox yeni iş yerləri açıldı, ölkə əhalisinin sosial rifahı qat-qat yüksəldi. Həmçinin respublikanın elmi-texniki potensialında da əhəmiyyətli yüksəliş yaşandı: müxtəlif elm sahələri üzrə 265 elmlər doktoru, 3141 elmlər namizədi hazırlandı. Ötən əsrin 80-ci illərinin əvvəllərində ölkə xaricində ən nüfuzlu ali məktəblərə respublikamızdan göndərilən gənclərin sayı ildə 1000-1400 nəfər təşkil edirdi [12].

Bütün dövrlərin gəncliyinə şərəfli həyat yolu nümunə olan ulu öndər öz fəaliyyəti ilə dərs alacağımız bir məktəb yaratmışdır. Heydər Əliyev totalitar sovet rejimi dövründə mərkəzdən gələn təhlükəyə baxmayaraq, hər vəchlə millətin təəssübünü çəkən ziyalılarımızı qorumuş, onları kommunist rejimin caynağından xilas etmişdir. Milli bayramlarımızın təntənəli şəkildə qeyd olunması, dilimizin dövlət dili statusunda qorunması üçün görülən işlər də Ulu öndərin xalqın gələcəyinə hesablanmış uzaqgörən siyasətinin bir parçası idi. Heydər Əliyev müstəqil Azərbaycanın başçısı kimi fəaliyyətə başlayanda da eyni mövqeni öz siyasətinin əsas xətti kimi götürmüş, milli-mənəvi dəyərlərin inkişafı üçün əzmlə çalışmışdır. O, Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən, İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun xalqa mənəvi bağlılığını və İslami dəyərlərə sədaqətini göstərən parlaq dəlillərdir

[2]. Fəxr edirəm ki, mən azərbaycanlıyam!" – deyən böyük siyasətçi bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durmuşdur. Fenomen şəxsiyyət təlqin edirdi ki, sərvət toplamaq, son dəblə geyinmək, bütövlükdə müəyyən maddi sərvətlərə malik olmaq mümkündür. Lakin hər bir insan və hər bir millət, hər şeydən əvvəl, öz xalqının mənəvi sərvətlərinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli-mənəvi dəyərlərini qorumalıdır. Gələcək nəsillərə, bəlkə də, maddi sərvətlər və iqtisadi mirasdan daha çox mənəvi irs, milli mentalitet ərməğan edilməlidir və bu dəyərlərimizi təbliğ etmək və gənc nəsillərə ötürmək xalqımızın gələcəyi üçün çox böyük əhəmiyyətə malikdir. Heç də təsadüfü deyildir ki, hər zaman gənclərə qayğı ilə yanaşaraq onların problemlərini həll etməyə çalışan Heydər Əliyevin gənclər siyasəti 5 mühüm istiqaməti ehtiva edirdi. 1) Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaqla gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək, 2) gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək, 3) gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək, 4) gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə yüksəltmək və onların məsuliyyət hissini formalaşdırmaq, 5) Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq. Bunlar ümummilli liderin müəyyən etdiyi strateji hədəflər idi [10].

"Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" deyən Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev 26 iyul 1994-cü il tarixli Fərmanı ilə ölkəmizdə Gənclər və İdman Nazirliyinin əsasını qoydu. Bu siyasi dövlət institutu qısa vaxtda gənclər siyasətinin əsas konturlarını müəyyənləşdirdi və reallaşdırmağa başladı [9]. 1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2 fevral 1996-cı ildə gənclərin I Forumu keçirildi. "Azərbaycanın gələcəyi gənclərin əlindədir" deyən Heydər Əliyevin 1997-ci il 2 fevral tarixində imzaladığı Fərmana əsasən həmin tarix "Azərbaycan gəncləri günü" elan edilmişdir [7]. Azərbaycanda həyata keçirilən gənclər siyasətinin vətənpərvər ruhda formalaşdığı Azərbaycan gəncliyinin 44 günlük Vətən müharibəsində canı və qanı ilə yazdığı zəfərlə dolu qəhrəmanlıq salnaməsi ilə Azərbaycan gəncinin nəyə qadir olduğunu bütün dünyaya göstərdi.

Müxtəlif peşəli, geniş dünyagörüşlü insanların, o cümlədən Azərbaycan xalqının sadiq oğlu, dünya siyasətinin nəhəngi Heydər Əliyevin həm də əsl ailə həyatını təcəssüm etdirməsi bu gün də gənclərə nümunədir. O qeyd edirdi ki, ".... Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin rolu böyük olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam" [8]. Cəmiyyət və hüquqi, möhkəm dövlətçiliyin ən əsas kodlarından olan müqəddəs ailə institutunun Azərbaycan xalqının qərinələrdən bəri qoruduğu ən ali dəyər olduğunu vurğulayan ulu öndər bu fikirləri ilə gənclərimizə mühüm mesaj ötürmüşdür.

Bu gün hər bir ölkə vətəndaşına bəlli olan bir həqiqət var: Ulu öndərimiz Heydər Əliyev həsəd aparılacaq zəngin, mənalı və şərəfli ömür yaşamışdır. O, Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Dünya səviyyəli siyasət və dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarixində nadir şəxsiyyətlərdəndir ki, onun zəngin irsi hər zaman politoloqların, filosofların, tarixçilərin və müxtəlif profilli tədqiqatçıların daim diqqət mərkəzində olacaqdır. Ulu Öndərin gənclərimiz üçün mayak olan ömür yolu Azərbaycan tarixinin şərəfli bir hissəsidir. Biz o tarixi öyrənməli və bizdən sonra gələn nəsillərə çatdırmalıyıq. Əminəm ki, bu gün daim azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyevin ruhu şaddır, çünki xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü onun ideya və əməllərini davam etdirən, yarımçıq qalmış

arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bərpa edilmiş, 30 ildən bəri düşmən əsarətində olan Qarabağ əbədi azadlığına qovuşmuşdur.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Dövlət İdarəçilik Akademiyası. "Dövlət müdriklik məktəbi", Bakı, 2000
2. "Azərbaycan – 1993", Bakı, 2000
3. Abdulla Qurbani. "Heydər Əliyev və Azərbaycan ordusu", Bakı, 2002
4. Abbas Piriyev. "Siyasi strategiya və Milli təhlükəsizlik problemi", Bakı, 2002
5. "Dövlətçilik naminə", Bakı, 2001
6. Dilqəm Quliyev. "Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət qayğısı", Bakı, 2000
7. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir", I-II-III-IV kitablar Bakı, 1997
8. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir", I-II-III-IV kitablar Bakı, 1997
9. Heydər Əliyev. "Müstəqillik yollarında", Bakı, 1997
10. "Xalqın böyük xilaskarı", Bakı, 2001
11. İlham Əliyev. "Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı", Bakı, 1997
12. Misir Mərdanov. "Təhsil millətin gələcəyidir", Bakı, 2002
13. "Prezident Heydər Əliyevin jurnalistika dərsi", Bakı, 2001
14. "Ümid çırağı", Bakı, 2003
15. Vaqif Arzumanlı. "Azərbaycan diasporu", Bakı, 2000
16. Vəli Həbib oğlu. "Heydər Əliyev və Azərbaycan diasporu", Bakı, 2001

**UOT 342 [025.4]**

**Natiq Mürsəlov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,**
**müəllim**
**E-mail: natig.mursalov@admiu.edu.az**

# HEYDƏR ƏLİYEVİN KİTABXANA İŞİ SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN NORMATİV HÜQUQİ ƏSASLARI

**Xülasə:** Azərbaycan Respublikasında ulu öndər Heydər Əliyevin müəyyən etdiyi kitabxana işi sahəsində dövlət siyasətinin hüquqi mənbə növü rolunda çıxış edən normativ hüquqi aktlar kitabxana işi qanunvericiliyi kateqoriyası ilə əhatə olunur. Bu kateqoriya, səlahiyyətli dövlət orqanı tərəfindən qəbul edilən, kitabxana işi sahəsində hüquq normaları yaradan, dəyişdirən, yaxud da ki, ləğv edən bütün normativ hüquqi aktların məcmusu başa düşülür. O, kitabxana işi hüququnun bütün mənbə növlərini yox, onun yalnız normativ hüquqi aktlar adlı növünü – hissəsini özündə birləşdirir. Bu o deməkdir ki, kitabxana işinin hüququnun beynəlxalq müqavilələr kimi növü kitabxana işinin qanunvericilik kateqoriyasına şamil edilmir. Məqalədə kitabxana işinin qanunvericiliyini kitabxana işi hüququndan fərqləndirməyə imkan verən xüsusiyyətlər tədqiqat cəlb olunur.

**Açar sözlər:** mədəniyyət, informasiya, elm, təhsil, mənəvi dəyər, qanun, fərman

**Giriş:** Azərbaycan Respublikasında bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş demokratiyanın siyasi sistem kimi möhkəmləndiyi müasir vətəndaş cəmiyyətində milli və bəşəri dəyərlərin sintezinə əsaslanan kitabxana işi, eləcə də cəmiyyətdə informasiya mədəniyyətinin formalaşması prosesi dinamik inkişafı edir. Bu sahədə dövlət tərəfindən beynəlxalq təcrübəyə uyğun həyata keçirilən islahatlar dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmağa imkan yaradır. Sosial-iqtisadi, ictimai-siyasi, elmi-intellektual və milli-mədəni tərəqqiyə xidmət edən bu prosesdə qarşıya çıxan problemlər isə bilavasitə kitabxana işi sahəsində bəşər tarixinin əldə etdiyi nailiyyətləri düzgün qiymətləndirməyi, dünya ölkələrinin qabaqcıl təcrübəsinin öyrənilməsini zərurətə çevirir. Bütün bunlara yalnız kitabxana işi sahəsində mükəmməl dövlət siyasəti sayəsində nail olmaq mümkündür. Ona görə də, müstəqillik illərində ölkənin kitabxana işi sahəsində dövlət siyasətinin hüquqi bazası olan milli qanunvericilik sisteminin öyrənilməsi vacib əhəmiyyətə malikdir. Bu sistemin özünəməxsus cəhətlərinin araşdırılması ölkə kitabxanaşünaslığının prioritet vəzifəsi kimi diqqəti cəlb edir. Azərbaycanda informasiya cəmiyyətinin aktual problemlərindən biri də kitabxana işinin hüquqi tənzimlənmə mexanizminin dəqiq müəyyənləşdirilməsi və müasir dövrün tələbləri səviyyəsində inkişaf etdirilməsidir.

**Məsələnin qoyuluşu:** Müasir kitabxana işi informasiya fəaliyyətinin əsas bazası kimi hüququn tam subyekti olduğundan, ölkədə kitabxana işi sahəsində dövlət siyasətinin əsas cəhətlərini, onun elmi əsaslarını, maliyyələşdirmə mənbələrini, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, bu sahədə beynəlxalq əməkdaşlığın mühüm prinsiplərini və s. məsələləri tənzimləyən normativ hüquqi aktlardan səmərəli istifadə edilməsi olduqca vacib şərtlərdən biridir. Bu baxımdan, hüququn aliliyi kitabxana işini inkişafı istiqamətində dövlət siyasətinin başlıca amilidir.

Kitabxana işinin qanunvericilik kateqoriyası özündə kitabxana işinin hüquqi normalarını nəzərdə tutan bütün normativ hüquqi aktların məcmusunu ifadə edir. Bu aktlar bir-biri ilə qarma-qarışıq, xaotik, nizamsız və qaydasız halda birləşməmişdir. Nəzərdən keçirdikdə görürük ki, onlar müəyyən bir sistem halında yerləşir və düzülür. Söhbət normativ hüquqi aktların müəyyən ardıcıllıqla birləşməsindən gedir. Ardıcıllıq normativ aktın hüquqi qüvvəsi ilə müəyyən edilir: əvvəlcə hüquqi qüvvəsi nisbətən yüksək olan normativ akt yerləşir. Sonra isə bunun ardınca hüquqi qüvvəsi nisbətən aşağı olan normativ aktlar

düzlənir. Özü də bu aktlar daxili vəhdətdə olub, bir-biri ilə sıx surətdə bağlıdır. Dediklərimizdən belə təsəvvür yaranır ki, müəyyən ardıcıllıqla düzlənən normativ hüquqi aktlardan kitabxana işinin qanunvericilik sistemi formalaşır və yaranır.

Politologiya elminin nəzəri müddəalarından çıxış edərək vurğulayaq ki, kitabxana işi sahəsində dövlət siyasəti konstitusiya ilə, hüquqla, ənənələrlə, parlament, hökumət, məhkəmələr və s. formasında müəyyən olunmuş institusional ölçüdə həyata keçirilən siyasi prosesdir. O, kitabxana işi sahəsində siyasi tələbatlar və maraqlar, siyasi dəyərlər və məqsədlər, siyasi proqram və doktrinalar kimi normativ əsaslarla bağlıdır. Vətəndaşların qeyri-bərabər intellektual və mədəni tərəqqisini aradan qaldırmaq üçün inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da dövlətin kitabxana işi sahəsində siyasəti digər yaxın sahələrlə əlaqəli və tənzimlənmə yolu ilə elmi əsaslarla təşkil edilmişdir. Bu siyasət mərkəzləşmiş idarəetmə əsasında uğurla həyata keçirilir ki, məhz bu halda cəmiyyətin müxtəlif sosial qruplarının eyni mühitdə elmi, intellektual və mədəni inkişafına nail olmaq mümkündür.

Kitabxana işi sahəsində dövlət siyasətinin ifadəsi olan mərkəzləşmiş idarəetmə kitabxana işinin hüquqi mənbələrinə əsaslanır. Sahə üzrə hüquqi mənbələr, elə normativ aktlardır ki, bu sənədlər səlahiyyəti çatan müvafiq dövlət orqanları tərəfindən qanunla nəzərdə tutulmuş prosedurada qəbul edilir və kitabxana işinin hüquqi normalarını müəyyənləşdirir. Bu anlayışdan belə təsəvvür yaranır ki, kitabxana işinin hüquqi mənbələri kitabxana-informasiya fəaliyyəti sahəsində hüquq norması yaratmaq üzrə dövlət fəaliyyətidir. O, kitabxana işinin hüquqi normasının ifadə edilməsi və mövcud olması üsuludur.

**Məsələnin həlli:** Tədqiq etdiyimiz problem üzrə kulturologiya sahəsində tanınmış alim Namiq Abbasovun belə bir fikri maraq doğurur: "Cəmiyyətimiz bütövlükdə mədəni həyatın və ayrı-ayrılıqda onun hər bir mərhələsinin – mədəni dəyərlərin yaradılması, qorunub saxlanması, yayılması və mənimsənilməsi (qəbul edilməsi) proseslərinin tənzimlənməsində komanda – sərəncamçılıq metodlarının yolverilməzliyi barədə razılığa nail olmuşdur" [1, s.80]. Həqiqətən də, bu gün yaşadığımız cəmiyyət, kitabxana fəaliyyətinin müxtəlif növ – maddi, maliyyə, kadr və informasiya resurslarından istifadə etməklə və yalnız diqqətlə düşünülmüş, yaxşı hazırlanmış və müasir tələblərə cavab verən qanunvericilik vasitəsilə idarə olunmasını qəbul etmişdir. Bu səbəbdən, kitabxana siyasətinin həyata keçirilməsinin ən əsas vasitələrindən biri hüquqi cəhətdən mükəmməl normativ aktların – qanunların, sərəncamların, fərmanların və qərarların hazırlanması, qəbul edilməsi və tətbiq olunması müstəsna əhəmiyyət kəsb edir.

Respublikada əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş kitabxana işi sahəsində dövlət siyasətinin hüquqi mənbələrinə daxil olan qanunvericilik sisteminin normativ hüquqi aktlarının aşağıdakı növləri müəyyən edilmişdir:

– Azərbaycan Respublikası Milli Məclisinin normativ hüquqi aktları. Azərbaycan Respublikası Konstitusiyasının 93-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin normativ hüquqi aktları qanunlar formasında qəbul edilir.

– Azərbaycan Respublikası Prezidentinin normativ hüquqi aktları. Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin normativ hüquqi aktları fərman formasında qəbul edilir. Prezidentin fərmanları Azərbaycan Respublikasının Konstitusiyası ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aid edilmiş və normativ tənzimləmə predmeti olan məsələlər üzrə qəbul edilir [1].

– Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktları. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Konstitusiyasının 120-ci maddəsinin I hissəsinə uyğun olaraq, Konstitusiya və Prezidentin aktları əsasında və onların icrası məqsədi ilə Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qərarlar formasında normativ hüquqi aktlar qəbul edir. Nazirlər Kabineti tərəfindən qəbul edilən əsasnamələr, nizamnamələr, qaydalar və norma nəzərdə tutan digər aktlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə təsdiq edilir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti habelə mərkəzi icra hakimiyyəti orqanları tərəfindən həll edilə bilməyən məsələlər üzrə normativ hüquqi aktlar qəbul edir.

– Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları Azərbaycan Respublikası Prezidentinin aktları ilə nəzərdə tutulmuş hallarda və hədlərdə, yalnız Prezidentin aktları ilə onların səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qəbul edilə bilər. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları qərarlar formasında qəbul edilir. Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən qəbul edilən təlimatlar, əsasnamələr, nizamnamələr və qaydalar qərarlarla təsdiq edilir.

Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətinin qanunvericilik təminatı sisteminin əsas mənbəyini Azərbaycan Respublikasının Konstitusiyası təşkil edir [2]. Belə ki, ölkəmizdə 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş konstitusiyada kitabxanalar xüsusi olaraq vurğulanmasa da, bir sıra maddələr öz mahiyyətinə görə milli mədəniyyətimizə, dolayısı ilə də kitabxanalarımıza şamil edilmişdir.

Konstitusiyanın "hər kəsin mədəni təsisatlardan istifadə etmək hüququ" (maddə 40) adlı bəndi kitabxanaların mədəniyyət ocağı olması, milli-mədəni dəyərləri təbliğ etməsi, yayması kimi ictimai vəzifəsi ilə bağlıdır. Eləcə də, konstitusiyanın digər bir əhəmiyyətli "hər kəsin təhsil almaq hüququ vardır" (maddə 42) adlı bəndi isə kitabxanaların bilik və təhsil prosesinə yardım etmək funksiyası ilə əlaqədardır [3]. Belə ki, qədim zamanlardan indiyədək təhsil sistemi daim kitabxana işi ilə sıx bağlı olmuşdur. Təsadüfi deyildir ki, Azərbaycanda fəaliyyət göstərən kitabxanaların əksər hissəsi məhz təhsil müəssisələrinin, ilk növbədə ümumtəhsil məktəblərinin kitabxanalarıdır və onların əsas vəzifəsi təhsil prosesinin informasiya təminatıdır.

Konstitusiyanın "hər kəsin qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır" (maddə 50) adlı bəndinə uyğun olaraq isə, insanların istədiyi məlumatı (informasiyanı) axtarmaq, əldə etmək hüququ təsbit edilmişdir ki, bu da kitabxanaların ilk növbədə insanların sənəd şəklində olan informasiyadan müvəqqəti olaraq istifadəsini təşkil edən müəssisə olmaları ilə bağlıdır.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə kitabxana-informasiya işinin təşkili və idarə olunmasının demokratik prinsiplərə əsaslanmasının əsas və ilkin hüquqi bazasını təşkil edir.

Milli Məclisdə 21 dekabr 2012-ci tarixində qəbul olunmuş 11 fəsil, 57 maddədən ibarət olan "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu kitabxana işinin qanunvericilik təminatı sisteminin əsasını təşkil edən mühüm hüquqi sənədlərdən biridir [3]. Bütövlükdə, mədəniyyət sahəsini tənzimləyən qanunda, hər şeydən öncə dövlət siyasətinin prinsipləri, məqsəd və vəzifələri ifadə olunmuşdur. Sənəddə mədəniyyət sahəsində mərkəzi (dövlət) və yerli (bələdiyyələr) icra hakimiyyəti orqanlarının səlahiyyətləri müəyyən edilmişdir. Bu qanunla hər bir vətəndaşın yaradıcılıq hüquqları və azadlıqları, beynəlxalq əlaqələrin və əməkdaşlığın inkişafı, habelə mədəniyyət sahəsində dövlətin antiinhisar siyasəti, milli özünəməxsusluğun, o cümlədən həm Azərbaycan xalqının, həm də tarixən Azərbaycan Respublikasında yaşayan etnik qrupların mədəni irsinin qorunub saxlanması, təbliği və inkişaf etdirilməsi – multikulturalizm və mədəniyyət fəaliyyətilə məşğul olan ictimai birliklərin və təşkilatların yaradılması imkanları təmin olunur.

Qanunda kitabxanalar dövlət mədəniyyət təsisatlarının tərkib hissəsi kimi birinci yerdə, Azərbaycan Respublikası dövlət mədəniyyət sistemi siyahısında isə ikinci yerdə verilmişdir. Beləliklə, "Mədəniyyət haqqında" Qanun Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli mədəniyyət sərvəti obyektlərinin qorunub saxlanmasının və inkişafının, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarə olunmasının, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə formalarını müəyyən edir.

Məlumdur ki, informasiya cəmiyyətinə keçid zamanı ictimai həyatın bütün sahələrində informasiyaya diqqət artır. Bu diqqət, informasiya ilə bağlı proseslərdə yeni texnologiyaların tətbiqi ilə müşayiət olunur. Sahənin problemləri ilə bağlı yüzlərlə beynəlxalq, regional və milli proqramlar, direktiv sənədlər qəbul edilmişdir və icra edilir. Bu sahədə Azərbaycan da istisna deyildir. Respublikamızda 1998-

ci ildə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanun 6 fəsil, 21 maddədən ibarətdir. Sənəddə cəmiyyətin informasiyalaşdırması və bu proseslə bağlı kardinal istiqamətlər müəyyənləşdirmiş, bir sıra məsələlər şərh edilmiş, ilk dəfə olaraq bu məsələ ilə bağlı terminoloji sistem təsbit edilmişdir [2]. Qanunda kitabxanalar informasiya ehtiyatlarının əsas bazası kimi birinci yerdə göstərilmişdir.

1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində ölkəmizin tarixində ilk dəfə olaraq kitabxana işi sahəsində dövlət siyasətinin əsasını təşkil edən "Kitabxana işi haqqında" Qanun qəbul edilmişdir [4]. Qanun 29 dekabr 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış və həmin gündən qüvvəyə minmişdir. Dövlət başçısı ""Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 12 mart 1999-cu ildə fərman imzalamış, qanunun ayrı-ayrı maddələrinin yerinə yetirilməsinə cavabdeh olan dövlət orqanları müəyyənləşdirilmişdir.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu 6 fəsil 34 maddədən ibarətdir. Qanun müasir Azərbaycan kitabxana işinin təcrübəsinə, onun perspektiv inkişafına və dünya təcrübəsinə əsaslanaraq kitabxanaların 5 sosial funksiyası: elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəyyən etmişdir. Göstərilən funksiyaların yerinə yetirilməsi kitabxanaları cəmiyyətin sosial həyatı ilə bilavasitə əlaqələndirməklə cəmiyyətdə tutduqları yeri və vəzifələrini müəyyənləşdirir, onları informasiyalaşdırılmış cəmiyyətin əsas atributlarından birinə, insanların sənəd-informasiya təminatının əsas bazasına çevirir. Beləliklə, kitabxanalar hər şeydən əvvəl elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə sahəsində dövlət siyasətinin obyekti kimi xarakterizə olunur.

Qeyd olunan hüquqi aktlarla yanaşı, müstəqillik illərində Azərbaycanda Nazirlər Kabineti və müvafiq icra hakimiyyəti orqanları tərəfindən də kitabxana-informasiya fəaliyyətinin müxtəlif məsələlərinə dair sənədlər təsdiq edilmişdir. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan dövləti təhsil sisteminin iştirakçısı olaraq kitabxana və kitabxanaçılar vasitəsilə vətəndaşların təhsil hüququnu təmin etməklə öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə, insanların hüquq və azadlıqlarına hörmətlə yanaşan, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən şəxsiyyət yetişdirmək məqsədində siyasətini uğurla davam etdirir.

**Nəticə:** Tədqiqatın yekunu olaraq belə bir qənaətə gəlmək olar ki, suveren Azərbaycan Respublikasının qanunvericilik aktlarında vətəndaşların kitabxana işi ilə bağlı təsbit olunmuş hüquqları bu sahədə ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətinin əsas mənbəyi kimi ölkədə kitabxana-informasiya fəaliyyətinin modernləşməsi üçün mühüm imkanlar yaradır. Şübhəsiz ki, kitabxana işinə dair növbəti illərdə qəbul ediləcək müxtəlif qanunvericilik aktlarının konstitusiyaya əsaslanması bu sahənin daha dinamik inkişafına təkan verməklə bərabər onun hüquqi tənzimlənməsində vacib rol oynayacaqdır. Respublikamızda kitabxana işinə dair dövlət siyasəti, bu işlə bağlı hazırlanan bütün qərarlar, dövlət sənədləri və sərəncamlar, kitabxana işinin inkişaf konsepsiyası, müxtəlif nazirlik, idarə və müəssisələrin kitabxana-informasiya fəaliyyəti bu qanunvericiliyə əsaslanmalı, əsas prinsipləri və müddəaları yerinə yetirilməlidir. Azərbaycanda kitabxana şəbəkələri olan bütün nazirlik, idarə və müəssisələr, ictimai təşkilatlar, ümumiyyətlə, kitabxana ictimaiyyəti, bütün ziyalılarımız kitabxana işinin hüquqi mənbələrinin tələblərinin yerinə yetirilməsində yaxından iştirak etməlidirlər.

## Ədəbiyyat siyahısı:

1. Abbasov N. Mədəniyyət siyasəti və mənəvi dəyərlər / N. Abbasov . – Bakı: Elm, – 2009. – 444 s.

2. Allahverdiyev S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları: dərslik / S.Allahverdiyev. – Bakı: Digesta, 2006. – 348 s.

3. Xələfov A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar) / A.Xələfov. – Bakı, Elm – 2006. – 106 s.

4. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / 29 dekabr 1998-ci ildə qəbul edilmişdir (30 aprel 2002-ci il tarixində olan dəyişiklik və əlavələr). – Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Normativ hüquqi aktların vahid internet elektron bazası. – URL: http://www.e-qanun.az/framework/5041

5. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / 21 dekabr 2012-ci ildə qəbul edilmişdir (6 oktyabr 2015-ci il tarixində olan dəyişiklik və əlavələr). – Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Normativ hüquqi aktların vahid internet elektron bazası. – URL: http://www.e-qanun.az/framework/25303

**Natig Mursalov**

## REGULATORY LEGAL BASİS OF STATE POLİCY İN THE FİELD OF HAYDER ALİYEV'S LİBRARY WORK

**Summary:** Normative legal acts that act as a legal source type of state policy in the field of library work defined by the great leader Heydar Aliyev in the Republic of Azerbaijan are covered by the category of library work legislation. This category is understood as a set of all normative legal acts adopted by the competent state body, which create, change, or cancel legal norms in the field of library work. It does not include all source types of library work law, but only its part called normative legal acts. This means that the type of library work law such as international treaties does not apply to the category of library work legislation. In the article, the characteristics that allow to distinguish the legislation of library work from the law of library work are involved in the study.

**Key words:** culture, information, science, education, moral value, law, decree

**UOT 811.512.162**

**Səkinə Aydınova**
**Bakı Dövlət Universiteti,**
**müəllim**
**E-mail sakinaaydinova@yahoo.com**

# HEYDƏR ƏLİYEVİN SİYASİ DİSKURSUNDA "QAÇQIN" KONSEPTİNİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR ASPEKTİNDƏN VERBALLAŞMASI (ULU ÖNDƏRİN 10 OKTYABR 1993 ANDİÇMƏ NİTQİNİN MƏTNİNƏ ƏSASƏN)

**Xülasə:** Ulu öndər H.Əliyev öz çıxış və məruzələrində qaçqın probleminin bir çox aspektlərinin işıqlandırılmasına geniş yer vermiş və bu verballaşma kontekstində xalqımızın etnopsixoloji kimliyi ilə səsləşən, onun milli-mənəvi dəyərlərinə xitab edən fikir və ifadələrə yer vermişdir. Belə ki, ümummilli lider Azərbaycan xalqı üçün "Vətən" konseptinin nə dərəcədə müqəddəs olduğunu dərindən anladığından heç bir müraciətində Qarabağın işğal altında olan ərazilərinin azad edilməsinə inamı sarsıda biləcək, milli ruhun səfərbərliyinə xələl gətirə biləcək heç bir söz-ifadəyə yer verməmişdir. Tarixi ədalətin bərpasından sonra, xalqımızın yaşadığı Zəfər təntənəsinin ardınca edilən təhlillər, məhz, bu yanaşmanın olduqca uzaqgörən və etnopsixoloji proqramlaşdırma baxımından, çox doğru yol olduğunu ortaya qoymuşdur.
**Açar sözlər:** Ulu öndər, Heydər Əliyev, qaçqın, milli-mənəvi dəyərlər, etnopsixoloji yaddaş

Ulu öndər Heydər Əliyevin siyasi diskursu ilə hətta ötəri tanışlıq əminliklə, birmənalı şəkildə onun idiolektinin formalaşmasında milli-mənəvi dəyərlərin nə dərəcədə həlledici rol oynadığını söyləməyə əsas verir. Ümummilli liderin çıxış və məruzələrinin, habelə bu yöndə siyasi fəaliyyətinin tədqiqi isə həmin dəyərlərin H.Əliyev fenomeninin formalaşmasındakı sütun elementlərdən biri olduğuna şübhə yeri qoymur. Belə ki, ötən onilliklərdə H.Əliyev irsinin filoloji rakursdan araşdırılması və bu əsnada ərsəyə gələn çox sayda dəyərli elmi tədqiqatlar (məsələn, bax: [2], [3] [4], [5]) ulu öndərin Azərbaycan xalqının soy-kökünə, tarixinə, adət-ənənələrinə, milli kimliyini təyin edən mədəniyyət abidələrinə, ədəbiyyatına, incəsənətinə və folklor irsinə nə dərəcədə bağlı olduğunu və öz dahi şəxsiyyətinin yetişdirilməsində həmin xəzinədən hansı səviyyədə bəhrələndiyini tam əyaniliklə gözlər önünə sərgiləyir. Eyni zamanda ulu öndərin çıxış və məruzələrinin mətnin təhlili onun Azərbaycan xalqının etnopsixologiyasının dərin bilicisi olduğunu ortaya qoyur. Belə ki, ümummilli liderimiz xalqımızın ən pünhan arzu və niyyətlərini yəqin etmək, öncədən təxmin edərək həmin arzularla səsləşən fəaliyyətləri gerçəkləşdirmək, xalqımızın etnomental səciyyəli geştaltlarına qarşılıq verərək müvafiq siyasi, ideoloji mahiyyətli addımlar atmaq və s. bu kimi fəaliyyətlərlə milli-mənəvi dəyərlərimizə bağlılığını nümayiş etdirmişdir. Professor H.Əlizadənin "Heydər Əliyev fenomeni və idarəetmənin etnopsixoloji kökləri" adlı araşdırmasında qeyd edildiyi kimi, "Hər xalqın etnopsixoloji yaddaşı var. Bu yaddaş əsrlərin süzgəcindən keçə-keçə, xalqın adət-ənənələrinə, münasibətlər sisteminə hopa-hopa, insanların həyat tərzində özünü təzahür edə-edə formalaşır. Xalq bu yaddaşı yaşadanda xoşbəxt olur, inkişaf edir, gələcəyini inamla qura bilir" [4 ]. Başqa sözlə desək, ideoloji əsas, milli ideya ortaqlığı, ənənə varisliyi, keçmişə sədaqətlə istinad edən gələcək inkişafın uğurlu planlaşdırılması – bütün bunlar bilavasitə etnopsixologiya zəminində gerçəkləşdirilən uğurlu siyasi idarəetmənin əsas komponentləri sırasında yer alır. Bu mənada ulu öndərin Azərbaycan xalqının kökləndiyi hədəflərə doğru aparan yolda özünü doğruldan, insanlara ruh-qanad verən fikirlər dilə gətirməsi, onları doğru məqsəd yolunda əzmkarlıqla irəliləməyə sövq edən təşviqedici bəyanatlar səsləndirməsi mühüm əhəmiyyət kəsb etməyə bilməzdi. Daha öncə iqtibas gətirdiyimiz prof. H.Əlizadə fikirlərini davam edərək yazır: "Bir xalqı məhv etmək istəyəndə onun etnopsixoloji yaddaşını silməyə çalışırlar. Görəsən nə zaman xalqın etnopsixoloji yaddaşını silmək mümkün olmur? Tarix bu suala aşağıdakı müddəa ilə cavab verir – xalqın Ümummilli lideri olanda və lider xalqı etnopsixoloji qanunlara

uyğun idarə edəndə! Bu müddəa gözümüzün önündə XX əsrin ikinci yarısından etibarən ulu öndər Heydər Əliyevin idarəetmə təcrübəsində öz təsdiqini tapıb" [4]. Məhz, ulu öndər Heydər Əliyevin böyük tarixi missiyanı əks etdirmiş dövlət idarəçiliyi dönəmində xalqın mental şüuruna, onun etnopsixoloji kimliyinin ən dərin qatlarındakı "sarı simi"nə toxunan müraciətləri ilə xalqın inamını sarsılmağa qoymamış, onu (xalqımızı) mübarizə yolunda əzmkarlıq nümayiş etdirərək, heç bir vəchlə "məğlub", "qovulmuş", "milli qüruru təhqir edilmiş" etnik qrup psixologiyasına yuvarlanmasına izn verməmişdir. Xalqımız hərb meydanında müvəqqəti məğlubiyyətlə üzləşsə də, yüz minlərlə qaçqın soydaşımız öz dədə-baba yurdundan didərgin salınmış olsa da, H.Əliyev bütün çıxışlarında, bütün siyasi əhəmiyyətli nitq və müraciətlərində, hətta xalqımıza ünvanlanmış bütün bayram təbriklərində mütləq şəkildə "Qarabağ", "Vətən", "İşğal", "Geri dönüş" və "Qaçqın" konseptlərinə aid olan sözlərə, ifadələrə geniş şəkildə yer verirdi. Məsələn, H.Əliyevin Fransa prezidenti ilə görüşündə səsləndirdiyi fikirlərdə biz, sadalanan konseptlərin öz əksini tapdığını tam əyaniliklə izləyirik:

Biz istəyirik ki, Ermənistan silahlı qüvvələri ölkəmizin ərazisindən çıxarılsın, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərimizin toxunulmazlığı təmin edilsin, yerlərindən, yurdlarından didərgin düşmüş qaçqınlarımız öz doğma yurdlarına qayıtsınlar. [5 , s.326 ].

H.Əliyev özünün prezidentlik kürsüsündəki fəaliyyəti boyunca uzun illər Qarabağ probleminin sülh yolu ilə həlli üçün çalışmış, qaçqınlarımızın, məcburi köçkünlərimizin öz doğma yurd-yuvalarına qayıtmasının təmin edilməsini öz həyat amalına çevirmişdir. Ömür vəfa etməsə də, amansız ölüm bu müqəddəs missiyanı şəxsən gerçəkləşdirmək imkanını ulu öndərin əlindən alsa da, onun yetişdirdiyi davamçısının – İlham Əliyevin parlaq siyasi zəkası, dəmir iradəsi Azərbaycan xalqına ulu öndərin və millətimizin bu böyük arzusunu reallaşdırmaq imkanı verdi. Lakin heç bir halda danmaq olmaz ki, 44 günlük II Qarabağ müharibəsində əldə edilmiş tarixi Qələbənin memarı, məhz, Heydər Əliyev dühası idi. Belə ki, onun məqsədyönlü siyasəti nəticəsində xalqımız mental olaraq, Vətən torpaqlarının azad edilməsi yönündə müqəddəs Namus-Şərəf mücadiləsinə hazırlıq əzmində idi və aparılan düzgün təbliğat, təhsil sistemində (tədris prosesində) "Qarabağ", "Vətən", "Qaçqın" konseptlərinin bir çox aspektlərdən dolğun şəkildə açıqlanması – bütün bunlar onilliklər sonra Qarabağa ayağı dəyməmiş gənclərin Vətən torpağı uğrunda ölümü gözə alacaq səviyyədə mübariz olmasını təşviq etmişdir. Fikirlərimizin təsdiqi üçün H.Əliyevin 10 oktyabr 1993-cü ildə prezident vəzifəsində fəaliyyətə başlamaq üçün andiçmə mərasimində səsləndirdiyi çıxışına nəzər salmaq kifayətdir.

...İşğal, qaçqınların vəziyyəti respublikanın ictimai-siyasi, mənəvi vəziyyətini gərginləşdirmişdir. Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır. Əmin ola bilərsiniz ki, mən bütün səylərimi səfərbər edib, Azərbaycan xalqının istədiyinə nail olacağam [1]. Göründüyü kimi, ulu öndər əsas milli ideya qismində, Azərbaycan toplumunun birləşdirici hədəf amalı qismində işğal olunmuş ərazilərimizin azad edilməsini, qaçqın və məcburi köçkünlərin öz dədə-baba torpaqlarına geri dönüşünü nəzərdən keçirirdi. Bu mətn iqtibasında biz, "Qaçqın" konseptinin nüvə konseptinin və əksər periferik mikrokonseptlərinin verballaşdığını müşahidə edirik. Maraqlıdır ki, biz, bu iqtibas çərçivəsində eləcə də "Qaçqın" konseptinin diskursiv reallaşmasının xronotopluq mahiyyətini də izləmiş oluruq. Belə ki, ulu öndər "Qaçqın" konseptinin həm retrospektiv, həm də perspektiv reallaşma elementlərinə, yəni verballaşma komponentlərinə yer verir. Xatırladaq ki, xronotopluq – diskurs və mətnin zaman-məkan kontiniumunu əhatə edir və bir çox halda, xronotopluq "diskursiv zaman" anlayışı ilə əlaqəli anlayış kimi nəzərdən keçirilir. Habelə "diskursiv zaman" və ya "xronotopluq" anlayışları linqvistikada "temporallıq" aspektində də dəyərləndirilir [6, s.90]. Məsələn, növbəti iqtibas kontekstində "beş ildən bəri", "keçmiş Dağlıq Qarabağ vilayəti", "artıq il yarımdır" söz birləşmələri və ifadələri, məhz, retrospektiv reallaşmadan xəbər verdiyi halda, "ən əsas vəzifəmiz", "öz

doğma yerlərinə qaytarmaq", "işğal olunmuş torpaqların hamısını geri qaytarmaq" söz birləşməsi və ifadələri isə perspektivdən xəbər verən anlayış və intensiyaların verballaşmasına xidmət edir.

Respublikanın daxilində nisbi sakitlik və sabitlik yaransa da, biz hələ böyük təhlükə altındayıq. Ermənistan silahlı qüvvələrinin beş ildən bəri davam edən təcavüzü nəticəsində Azərbaycan torpaqlarının bir qismi – təxminən 20 faizi işğalçıların əlinə keçibdir. Keçmiş Dağlıq Qarabağ vilayəti tamamilə işğal olunub, Azərbaycan xalqı üçün əziz və mötəbər olan Şuşa şəhəri artıq il yarımdır ki, əlimizdən gedibdir. Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarımız da erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bunların nəticəsində yüzlərlə kəndlər, qəsəbələr, yaşayış məntəqələri dağılıb, evlər viran olub. Bu ərazilərdə yaşayan soydaşlarımız – 1 milyona qədər vətəndaş doğma yerlərini tərk edib, qaçqın olub, ağır vəziyyətdə yaşayırlar. Bütün bunlar respublikanın ictimai-siyasi, mənəvi vəziyyətini gərginləşdirmişdir. Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı – bacılarımızı, qardaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır [1].

Verilmiş iqtibas çərçivəsində biz, "Qarabağ" geştaltını müəyyənləşdirən Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı onomastik vahidlərinə təsadüf edirik ki, bu da, əslində, son 30 ildə sırf yer adları vahidi olmaqdan çıxaraq, milli-mənəvi dəyərlərimizi silkələyən, daxili etnopsixoloji travmalarımızın formalaşmasına səbəb olan faktorlarla bağlı "geştalt toponimikasından" başqa bir şey deyil. Eyni zamanda biz, "Qaçqın" konseptinin nüvə anlayışları sırasında yer alan "1 milyon", "doğma yerlərini tərk etmək", "qaçqın olmaq", "ağır vəziyyətdə yaşamaq" kimi söz birləşmələrinə də təsadüf edirik.

Nümunələrdən də aydın şəkildə göründüyü kimi, ulu öndər H.Əliyev öz çıxış və məruzələrində qaçqın probleminin bir çox aspektlərinin işıqlandırılmasına geniş yer vermiş və bu verballaşma kontekstində xalqımızın etnopsixoloji kimliyi ilə səsləşən, onun milli-mənəvi dəyərlərinə xitab edən fikir və ifadələrə yer vermişdir. Belə ki, ümummilli lider Azərbaycan xalqı üçün "Vətən" konseptinin nə dərəcədə müqəddəs olduğunu dərindən anladığından heç bir müraciətində Qarabağın işğal altında olan ərazilərinin azad edilməsinə inamı sarsıda biləcək, milli ruhun səfərbərliyinə xələl gətirə biləcək heç bir söz-ifadəyə yer verməmişdir. Əksinə, ağrılı məqamların məcburi şəkildə dilə gətirilməsi kontekstində, ulu öndər mütləq şəkildə hər zaman perspektivə müraciət etməklə mövcud vəziyyətlə barışmağın mümkünsüzlüyü mesajını verməyə can atmışdır. Tarixi ədalətin bərpasından sonra, xalqımızın yaşadığı Zəfər təntənəsinin ardınca edilən təhlillər, məhz, bu yanaşmanın olduqca uzaqgörən və etnopsixoloji proqramlaşdırma baxımından, çox doğru (əslində, mövcud reallıqla çərçivəsində, yeganə düz) yol olduğunu ortaya qoymuşdur.

**Ədəbiyyat siyahısı**:


1. Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi – 10 oktyabr 1993-cü il https://justice.gov.az/categories/2034
2. Əliyev Q.C. Heydər Əliyev və milli mentalitet psixologiyası, – Bakı: Qismət, – 2003, – 248 səh.
3. Əliyev V. Heydər Əliyevin dil siyasəti. – Bakı: Nurlan, – 2003, – 100 səh.
4. Əlizadə H. Heydər Əliyev fenomeni və idarəetmənin etnopsixoloji kökləri // 525-ci qəzet. – 2022. – 11 may. – s.10-11. http://www.anl.az/down/meqale/525/2022/may/795411.htm
5. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu, – Bakı: Təhsil, – 2004, – 472 səh.
6. Уланов, А.В. Дискуссионные проблемы изучения дискурса в современной лингвистике // Вестник Сибирского института бизнеса и информационных технологий, 2012, – № 3, – с.89-91.

**Sakina Aydinova**

# THE VERBALIZATION OF THE "REFUGEE" CONCEPT IN THE POLITICAL DISCOURSE OF HEYDAR ALIYEV FROM THE ASPECT OF NATIONAL AND SPIRITUAL VALUES (BASED ON THE TEXT OF THE GREAT LEADER'S INAUGURAL SPEECH ON 10 OCTOBER 1993)

**Summary:** In his speeches and reports, the great leader H. Aliyev gave ample space to illumination of many aspects of the refugee problem, and in the context of this verbalization, he gave space for ideas and expressions that resonate with the ethno-psychological identity of our people and appeal to its national and moral values. Thus, as the national leader deeply understands how sacred the concept of "Motherland" is for the people of Azerbaijan, he did not include any words in his address that could undermine the confidence in the liberation of the occupied territories of Karabakh, or harm the mobilization of the national spirit. After the restoration of historical justice, the analysis made after the victory ceremony experienced by our people has revealed that this approach is very far-sighted and in terms of ethno-psychological programming, it is the right way.

**Key words:** Great leader, Heydar Aliyev, refugee, national-moral values, ethnopsychological memory.

**UOT 33**

**Gülnar Əhmədova**
**Bakı Turizm Peşə Məktəbi,**
**müəllim**
**E-mail: gulnar93baku@gmail.com**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA İQTİSADİ DİRÇƏLİŞ

**Xülasə:** İqtisadiyyat bütün dövlətlərin inkişafının əsasını təşkil edir. İqtisadiyyatı zəif olan ölkə heç vaxt güclü sayıla bilməz. Deyə bilərik ki, dövlətin inkişafı birbaşa onun iqtisadi inkişafından asılıdır. Azərbaycanın iqtisadi inkişafı üçün hər cür imkan var. Azərbaycanda iqtisadi inkişaf özünəməxsus inkişaf metodu ilə seçilir. Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə (1969-1982) iqtisadi dirçəliş və sürətli inkişaf istiqamətində böyük işlər görüb.

**Açar sözlər:** iqtisadiyyat, yüksəliş, dövlət inkişafı, islahatlar

İqtisadiyyat bütün dövlətlərin inkişafının özəyini təşkil edir. İqtisadiyyatı zəif olan bir dövləti heç zaman güclü hesab etmək olmaz. Onda demək olar ki, dövlətin inkişafı onun iqtisadi inkişafından bilavasitə asılıdır. Azərbaycanda iqtisadi inkişaf üçün bütün imkanlar mövcuddur. Azərbaycanda iqtisadi inkişaf özünəməxsus inkişaf metodu ilə fərqlənir. Heydər Əliyev Azərbaycana rəhbərliyin birinci dövründə (1969-1982) iqtisadiyyatın dirçəlməsi və sürətli inkişafı baxımından xeyli işlər görmüşdür. 1969-cu ilin iyul plenumunda onun Azərbaycanın rəhbəri seçilməsi əslində çağdaş tariximizə ölkəmizin sürətli və uzunmüddətli inkişafının əsasının qoyulması kimi daxil olunmasıdır. Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə ölkənin müstəqil iqtisadiyyatının təşəkkülü, ardıcıl sosial-iqtisadi islahatların həyata keçirilməsi, bu sahənin dayanıqlı inkişafını təmin edəcək qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsində görülən işlər Azərbaycanın iqtisadi inkişafına xeyli təkan vermişdir. 1991-1995-ci illər Azərbaycan iqtisadiyyatının iqtisadi xaos və tənəzzül dövrü kimi səciyyələnir. Yeni müstəqillik qazanmış ölkə üçün müharibə gözlənilməz idi. Ölkədə gedən bu müharibə həm büdcəni zəiflədir, həm də yeni iqtisadi problemlər meydana gətirirdi. Pərakəndəlik və özbaşınalıq artıq baş alıb gedirdi. Buna görə ölkədə bütün bu problemləri tənzimləyən və ölkənin hələ möhkəmlənməyən müstəqilliyini qoruyub saxlayan güclü siyasətçiyə – bir el atasına ehtiyac var idi. Xalq artıq öz seçimini etməyə qərar vermişdi. 1993-cü il oktyabrın 3-də xalqın tələbi və istəyi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti oldu. Heydər Əliyev kimi dahi siyasətçi Azərbaycanın ağır vəziyyətini yaxşı görürdü. Heydər Əliyev başa düşürdü ki, bu problemlər öz həllini tapmasa Azərbaycan heç zaman qüdrətli bir dövlət ola bilməz. Müstəqillik dövründən bu günə kimi, ölkədə gedən iqtisadi inkişafı bir neçə mərhələyə ayırmaq olar. 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü. İkincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü. Heydər Əliyev bu iqtisadi inkişafda geriliyi tez zamanda aradan qaldırmağa, iqtisadiyyatı inkişaf etdirməyə Azərbaycanın gücü olduğunu dönə-dönə vurğulayırdı: "Respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah ahlı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik". Heydər Əliyevin söylədiyi bu fikirlər qısa zamanda öz nəticəsini göstərdi. Azərbaycan tez bir zamanda bu iqtisadi böhrandan xilas ola bildi. Heydər Əliyev iqtisadi böhrandan xilas olmaq üçün, vergi və sahibkarlığın inkişaf etdirməsi üçün bir sıra islahatlar keçirdi. Ölkədə iş yerlərinin çoxu bağlanmış və işsizlərin sayı çoxalmış, ölkədə gedən müharibənin nəticəsində öz doğma yerlərini tərk

etmiş əhalinin xeyli hissəsinin çalışmaq qabiliyyəti olsa da, iş yerlərinin olmaması, pulun inflyasiya dəyərinin aşağı düşməsi, qiymətlərin qalxması, alıcılıq qabiliyyətinin azalması və xarici dövlətlərlə iqtisadi əlaqələrin olmaması iqtisadi böhranı aradan qaldırmağa mane olurdu. 1993-cü il təsdiq edilmiş "Azərbaycan Sahibkarlığının İnkişafı" (1993-1995) adlı Dövlət proqramı Azərbaycanda kiçik və orta sahibkarlarının sayının artmasına, xarici ölkələrə iqtisadi ticarət əlaqələrinin yaranmasına müsbət təsir göstərmişdir. Heydər Əliyevin apardığı bu siyasət bir sahəni deyil, bir çox sahələri əhatə edirdi. Heydər Əliyev kənd təsərrüfatının inkişaf etdirilməsinə dair bir çox islahatlar həyata keçirmişdi. Hətta Heydər Əliyev kənd təsərrüfatında olan problemlərin həlli üçün 1994-cü ildə 9 dəfə müşavirə keçirmiş, kənd təsərrüfatında olan problemlərlə şəxsən yaxından tanış olmuşdur. Müşavirədə təkcə rəhbər orqanlar deyil, alimlər, aqrar sahədə mütəxəssislər iştirak edirdilər. Bundan sonra aqrar islahatları həyata keçirmək üçün hüquqi baza yaradıldı. 1995-ci il fevralın 18-də "Aqrar islahatın əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" qanun qəbul olundu. Heydər Əliyevin apardığı bu məqsədyönlü siyasət nəticəsində Azərbaycan get-gedə öz inkişafını yenidən bərpa edir, qüdrətlənirdi. Azərbaycanda iqtisadi inkişaf 2 mərhələdən ibarət idi. Birinci mərhələdə bu inkişafın tənzimlənməsi üçün müəyyən çətinliklər var idisə, artıq ikinci mərhələdə Azərbaycanın bu inkişafı bərpa etməsi üçün kifayət qədər gücə malik idi. 1995-2003-cü illəri əhatə edən bu dövr öz mühüm müqavilələri və islahatları ilə bu müstəqilliyi bir daha möhkəmləndirdi. Artıq Heydər Əliyev öz apardığı siyasət və gördüyü işlər ilə yeni inkişaf modeli – Yeni Azərbaycan modeli yaratmışdır. Bu inkişaf özünü hər sahədə göstərirdi. Bura sahibkarlığı, kənd təsərrüfatını, sənayeni, neft sənayesini, magistralları, bank sahəsini, vergi sahəsini, nəqliyyatı və başqa sahələri daxil etmək olar. Bu sahələrin inkişafı artdıqca onların başqa xarici dövlətlərlə iqtisadi münasibətləri güclənirdi. Bu Azərbaycanın get-gedə güclənməsinə gətirib çıxardı. Heydər Əliyev həmişə deyirdi: "Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməz". Buna görə də, Heydər Əliyev çalışırdı ki, Azərbaycan başqa dövlətlərlə iqtisadi əlaqələri qurmaq üçün müəyyən inkişaf sahəsinə malik olsun. Heydər Əliyevin yaratdığı yeni model Azərbaycanın inkişafının sürətlənməsi dövrü kimi 1996-cı illərdən daha da artmışdır. Bu dövrlərdə bir çox irimiqyaslı müqavilələr bağlanmış, mühüm əhəmiyyət kəsb edən sənədlər və aktlar imzalanmışdır. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və artırılması üçün dövlət tərəfindən müxtəlif dövrlərdə qəbul olunmuş "Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" Azərbaycanda sahibkarlığın inkişafına təkan verdi. Bu Dövlət proqramı hal-hazırda da, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Azərbaycanda kənd təsərrüfatında olan durğunluq aradan qaldırılmış, ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması, kənd təsərrüfatının inkişaf etdirilməsinə dair qəbul olunmuş islahatlar bu inkişafa xeyli təkan vermişdi. 1996-cı il iyulun 16-da "Torpaq islahatı haqqında" mühüm qanunlar qəbul edildi. Ümumiyyətlə, 1995-2004-cü illərdə aqrar sahə ilə əlaqədar olan 100-dən yuxarı normativ-hüquqi akt qəbul olunmuşdur. "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramının (2002-2006-cı illər)" həyata keçirilməsi aqrar sahədə uğurlar qazanılmasına imkan yaratmışdır. Bu proqram Cənab Prezidentimiz İlham Əliyev tərəfindən də uğurla həyata keçirilir.

Heydər Əliyevin gərgin əməyi nəticəsində vergi sahəsində də bir çox islahatlar aparılmış və həyata keçirilmişdir. Bir sıra dövlət mülklərinin özəlləşdirilməsi nəticədə dövlətə ödənilən verginin faizində artıma səbəb olmuşdu. Bir çox sahələrdə özəlləşdirmə dövlətə ödənilən verginin artmasına və milli büdcənin artımına gətirib çıxarırdı. Torpaq sahəsində özəlləşdirmə torpaq sahibkarlarına öz pay torpaqlarını azad əkib, becərmək imkanı verdi. Vergi münasibətlərini tənzimləyən bir sıra Qanunlar – "Mədən vergisi haqqında" (1995-ci il), "Əmlak vergisi haqqında" (1995-ci il), "Müəssisələrin və təşkilatların mənfəət vergisi haqqında" (1996-cı il) Qanunları qəbul edilmiş və qüvvədə olan Qanunlara ("Əlavə dəyər vergisi haqqında", "Fiziki şəxslərin gəlirlərindən vergi haqqında" Qanunlarda və s.) bir sıra

əlavə və dəyişikliklər edilmişdir. 01 yanvar 2001-ci il tarixdən "Azərbaycan Respublikasının Vergi Məcəlləsi" qüvvəyə minmişdir. Bütün bu həyata keçirilən vergi münasibətlərinin tənzimləyən bu qanunlar Azərbaycanda vergi sistemini möhkəmlətdi. Heydər Əliyevin apardığı siyasət nəticəsində Azərbaycanda nəqliyyatın bütün sahələrinin yenidən bərpası və inkişafı üzrə qanunlar qəbul olundu, tədbirlər həyata keçirildi ki, bu da ölkəmizin digər dövlətlərlə istər havadan, istər sudan, istərsə dəmiryolları vasitəsilə iqtisadi əlaqə yaranmasına, möhkəmlənməsinə şərait yaratdı. Heydər Əliyevin hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsası qoyuldu, Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. Ümummilli liderin rəhbərliyi ilə qısa müddət ərzində ölkədə bazar iqtisadiyyatının formalaşması məqsədilə qanunvericilik bazası yaradıldı, məqsədli dövlət proqramları qəbul edildi, institusional islahatlar aparıldı, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edilməsi üçün müvafiq addımlar atıldı. Dahi siyasətçi Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın əsasını iqtisadiyyatın inkişafına, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi.

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikasının Prezidenti vəzifələrini daha icra edə bilməməsi və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətinin Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevə keçməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı". e-qanun.az (az.). e-qanun.az. 24.06.1993. 2020-02-01 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2015-03-16.
2. AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ. "H.Ə.Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI". e-qanun.az (az.). e-qanun.az. 15.06.1993. İstifadə tarixi: 2015-03-16.[ölü keçid]
3. AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ. "Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasının xalq deputatı səlahiyyətlərinə xitam verilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI". e-qanun.az (az.). e-qanun.az. 05.11.1993. [ölü keçid]
4. Mehman Şabanov. ResmiXeber.az saytı (az.). http://resmixeber.az/. 03.09.2014. 2014-10-02 tarixində orijinalından arxivləşdirilib. İstifadə tarixi: 2015-02-09.
5. Jump up to:[1] Brozović D., Ladan T. Hejdar Alijev // Hrvatska enciklopedija (xorv.). LZMK, 1999. 9272 səh. ISBN 978-953-6036-31-8

**Gulnar Ahmadova**

## HEYDAR ALIYEV AND ECONOMIC REVIVAL IN AZERBAIJAN

**Summary:** Economy is the backbone of development of all states. A country with a weak economy can never be considered strong. It can be said that the development of the state directly depends on its economic development. There are all opportunities for economic development in Azerbaijan. Economic development in Azerbaijan is distinguished by a unique method of development. In the first period of leadership of Azerbaijan (1969-1982), Heydar Aliyev did a great job on economic revival and rapid development. His election as the leader of Azerbaijan at the July plenum in 1969 actually entered our modern history as the basis of the rapid and long-term development of our country.

**Key words:** economy, growth, state development, reforms.

**EOS 37.017**

**İrane Memmedova**
**Azerbaycan Devlet Pedagoji Üniversitesi Ph.d.**
**E-mail: Elchin_mamedzade@hotmail.com**

# AZERBAYCANLIK İDEOLOJİSİNİN KÜLTÜREL GELİŞİMİ VE MİLLİ LİDERİN MİRASINDA HOŞGÖRÜ

Azerbaycan devletinin milli ideolojisinin temeli Azerbaycancılıktır. Devletçilik, milli-manevi, evrensel değerler – bunların hepsi Azerbaycancılık kavramının bileşenleridir.
**Haydar Aliyev**

**Özet:** Yalnızca ulusal bir etnos olduğunun bilincinde olan halklar, ulusal bir devlet kurarak varlıklarını sürdürebilmişlerdir. Yaşanan tecrübeler göstermektedir ki, her milletin uygun tarihî şartlar altında millî ve etnik köklerine dönmesi, asırlar boyunca biriken millî ve manevi değerler ile dünya görüş sistemi temelinde kimliğini koruyabilmesi, Haydar Aliyev gibi tarihsel kimlik olgusunun müstesna misyonu. Yüzyıllardır ulus devlete mensup olmak, her ulusun neler yapabileceğini, adil mücadele yolunu ve dünya ulusları arasında hak ettiği yeri alma kararlılığını göstermiştir. Bu anlamda ulus devletin varlığı, insanların kendileri için belirledikleri belirli hedeflere doğru ilerleme sürecindeki önemli koşullardan biridir. Haydar Aliyev, 1997 yılında Amerika Birleşik Devletleri'ne yaptığı resmi ziyarette Azerbaycan diasporasına hitaben yaptığı konuşmada temel ilkeleri bu doğrultuda tanımlamıştır: "Azerbaycan'ın bizim için yaptıklarını düşünmeyin, bizim onlar için neler yaptığımızı düşünün. Azerbaycan. Azerbaycan da ilerleyecek, Azerbaycan, diaspora da kalkınacak... Nerede doğduğunuz önemli değil, önemli olan Azerbaycanlı olmanız, Azerbaycan dilinin ve kültürünün taşıyıcısı olmanızdır." Bugün, siyasi görüşü ne olursa olsun, Haydar Aliyev'in 1993 yılında halkın iradesiyle yeniden iktidara gelmesiyle Azerbaycan'da sağlanan ulusal birliğin cumhuriyetimizin en değerli manevi ve ideolojik değerlerinden biri olduğunu herkes kabul etmektedir. Bir bütün olarak halk nazarında milli bir şahsiyet olarak vücut bulan Haydar Aliyev'in dehası, Azerbaycan'ın ikinci liderliğinde sivil barışı ve milli dayanışmayı güçlendirme çizgisini devam ettirmiş ve bu siyasi çizgiyi mükemmel bir ilmî ve ilmî seviyeye yükseltmiştir. somut adımları ile teorik kavram.

**Anahtar Kelimeler:** "Azerbaycancılık" ideolojisi, dini inançlar, devlet-din ilişkileri, dinler arası diyalog, hoşgörü, diaspora, çok kültürlülük.

Ulu önder Haydar Aliyev'in ülkemizdeki ilk saltanatı döneminde Azerbaycan'ın sosyo-ekonomik ve kültürel gelişimi için yapılan çalışmalar olmasaydı bugün Azerbaycan'ın bağımsız çizgide egemen bir devlet olarak varlığından bahsetmek zor olurdu. Geçen yüzyılın sonlarına doğru yüzyıllarca süren tarihsel mücadele sonucunda devletliğine ve hürriyetine kavuşan Azerbaycan halkının milli kalkınma yolunun ve dünya görüşünün oluşumu, bağımsız cumhuriyetimiz büyük önder Haydar'ın önderliği ile örtüşmektedir. Aliyev [4]. Kendisini tüm kalbiyle bir Azerbaycanlı olarak gören milli lider, toplumun bütünleşmesi ve Azerbaycancılık ideolojisinin milli dayanışmanın öncü unsuruna dönüştürülmesi yönünde önemli çalışmalar yapmış, milli birliğin derin siyasi ve teorik temellerini ortaya koymuştur. Büyük stratejist, Azerbaycancılığın tarihsel olarak yerleşik bireysel bileşenlerini tek bir sistem ve kavram haline getirdi ve devlet yönetiminin bilimsel ve teorik temeli haline getirdi. Azerbaycancılığın gerçek bir içeriğe sahip olarak pratikte gerçekleştirilme fırsatı bulması dahi Haydar Aliyev'in çabaları sayesinde oldu. Halkımızın milli ve manevi değerlerini koruyabilen ve yaşatabilen, devletin ve vatandaşların çıkarlarını organik olarak birleştiren Azerbaycancılık ideolojisi, ülkede sivil birlik ve tek toplum için başarılı bir temeldir. "Her insanın milliyeti onun gurur kaynağıdır. Azerbaycanlı olduğum için bugün her zaman gurur ve gurur

duydum." Bağımsız bir Azerbaycan devletinin ana fikri Azerbaycancılıktır. Azerbaycancılığı belirleyen en önemli etkenlerden biri milli geleneklerdir.

Ulu lider, yurttaşlarımızı her zaman yaşadıkları ülkenin sosyal ve siyasi yaşamına aktif olarak katılmaya, aynı zamanda Anavatanları - yerli Azerbaycan ile yakın bağları sürdürmeye, Azerbaycan'ı en azından bir süre temsil ettiklerini unutmayın. Haydar Aliyev, 1997 yılında Amerika Birleşik Devletleri'ne yaptığı resmi ziyarette Azerbaycan diasporasına hitaben yaptığı konuşmada temel ilkeleri bu doğrultuda tanımlamıştır: "Azerbaycan'ın bizim için yaptıklarını düşünmeyin, bizim onlar için neler yaptığımızı düşünün. Azerbaycan. Azerbaycan da ilerleyecek, Azerbaycan, diaspora da kalkınacak... Nerede doğduğunuz önemli değil, önemli olan Azerbaycanlı olmanız, Azerbaycan dilinin ve kültürünün taşıyıcısı olmanızdır." [2]. Büyük lider, eşsiz öngörüsü ve bilgeliği ile ilk günden itibaren dış politikadaki stratejik hedefleri doğru bir şekilde tanımlamış ve modern çağda her devletin gücünün sadece ekonomik kaynaklarıyla değil, gücüyle de ölçüldüğünü söylemiştir. Bu alana özel bir önem verilmeden dış politikada ciddi başarılar elde edilmesinin yanı sıra ulusal meselelerin uluslararası boyuta taşınması mümkün değildir. Bu nedenle son 10 yılda Azerbaycan makamları kendilerine emanet edilen tarihi misyonu sorumlu bir şekilde yerine getirmeye, dünya Azerbaycanlıları arasında dayanışma sağlamaya ve bu alanda sistematik ve tutarlı bir politika izlemeye çalıştılar. Yabancı ülkelerde yaşayan soydaşlarımızla çok yönlü ilişkilerin kurulması, ideolojik ve siyasi düzeyde silahlanması ve ulusal çıkarlar için seferber edilmesi Azerbaycan dış politikasının önceliklerinden biri haline gelmiştir. Bu alandaki devlet politikasının amacı, yurtdışında yaşayan soydaşlarımızın ulusal kimliğini korumak ve geliştirmek, Azerbaycan ile bağlarını genişletmek ve diğer hakları kullanmaktır.

Azerbaycan devleti, dünya Azerbaycanlılarının potansiyellerini yoğunlaştırma, onları bağımsız devlet inşası sürecinde ortaya çıkan çeşitli sorunları çözmeye yönlendirme, daha yakın ilişkiler kurma ve ulusal birliği sağlama yönünde tutarlı ve sistemli çalışmalar yürütmüştür. 2001 yılında milli dayanışmamızın tezahürünün en unutulmaz ve en yüksek zirvelerinden biri 9-10 Kasım tarihlerinde Bakü'de düzenlenen I Dünya Azerbaycanlıları Kongresi idi. Milli lider Haydar Aliyev'in 23 Mayıs 2001'de imzaladığı kararnameye göre bu kongre dünyanın farklı ülkelerinde yaşayan soydaşlarımızın bağlarını daha da güçlendirmek amacıyla yapılmıştır. Milli lider Haydar Aliyev, bu tarihi olayda yaptığı konuşmada, "... dünya Azerbaycanlılarının milli birlik ve beraberliğinin sağlanması, Azerbaycan devleti ile dünya Azerbaycanlıları arasındaki ilişkilerin güçlendirilmesi gereğine ilişkin tavsiyelerde bulundu. Sorunların çözümünde ortak çaba sarf etmek, Azerbaycan dilini ve milli ve manevi değerlerimizi korumak ve geliştirmek…"[2]. Devlet Komitesi'nin kurulması, dünya Azerbaycanlılarının diasporadan lobiye kadar gelişmelerinde güçlenmesinde yeni bir aşamanın başlangıcı oldu. Komite kısa sürede dünyanın farklı ülkelerinde yaşayan soydaşlarımızı Azerbaycancılık ve Azerbaycan devleti fikri etrafında birleştirmek için birçok çalışma yapmayı başardı. "Haydar Aliyev ile dini ve manevi değerler" önemsiz bir konu değil, sayın Cumhurbaşkanımızın toplumumuzun ahlaki ve ahlaki temellerini güçlendirmek, insanlığın insani potansiyelini korumak ve geliştirmek alanında yaptığı çalışmalara bakmak gerekiyor. Milli kültürümüzün, asırlık geleneklerimizin ve bu eserlerin anlamlarını insanlara doğru bir şekilde aktarmanın önemi [1]. Farklı etnik grupların, mezheplerin ve kültür temsilcilerinin bir arada yaşadığı Azerbaycan'da hoşgörünün güçlendirilmesi amacıyla, milli dayanışma adına, dini aşırıcılıkla mücadelede din eğitimi de dahil olmak üzere genel olarak eğitimin rolünü dikkate alan Haydar Aliyev, yaşar, geleneksel ve geleneksel olmayan dinler arasındaki ilişkileri hukuk çerçevesinde medeni bir şekilde düzenler [5, 120-123 s.]. Bugün Azerbaycan'da stratejik bir yön uygulanıyor. Bu önemli alanda yürütülen tüm çalışmalar yasal düzenlemelere dayanmaktadır. Azerbaycan Cumhuriyeti Dini Kuruluşları ile Çalışma Devlet Komitesi de Azerbaycan Cumhuriyeti Anayasasının 48. din özgürlüğü ile ilgili yasal düzenlemelerin gerekliliklerine uygunluk. Bugün Azerbaycan'da dinî ihtilafların olmaması, insanların din şeklini özgürce seçmeleri, dinî hoşgörünün şartlarının yaratılması, bu başarıların birçok uluslararası kuruluş, dünyada etkili dinî şahsiyetler ve büyük ülkeler tarafından tanınması, milli lider Haydar

Aliyev'in dini alanda dengeli politikasının ve bu politikanın günümüzde de devam ettirilmesinin sonucudur. Papa II. John Paul, Mayıs 2003'te Bakü'ye yaptığı ziyarette şöyle demişti: "Azerbaycan, üç farklı dinin barış içinde bir arada yaşadığı ve dini hoşgörü açısından istikrarlı bir toplum olan ender bir ülkedir." Bu istikrar, sıkı çalışmanın, çok dikkatli düşünceli politikaların ve güçlü iradenin sonucudur. Bu, ülke liderliğinin ulusal geleneklere, manevi ve dini değerlere karşı tutumunun arka planında yaratılan elverişli koşulların doğal bir tezahürüdür. Büyük liderin değerli bir takipçisi olan Azerbaycan Cumhurbaşkanı İlham Aliyev'in diasporayı ve lobicilik inşasını önemli konular arasına koymasından gurur duyuyoruz. Son 8 yılda bu yönde tutarlı ve sistematik tedbirlerin uygulanmasını sağlayan Cumhurbaşkanı İlham Aliyev, yaptığı toplantılarda ulusal diaspora teşkilatlarının tek bir örgütlü güç olarak örgütlenmesi gereğini vurgulamış ve bunun ideolojik ve siyasi hatlarını belirlemiştir. Çağımızda gerçekler gösteriyor ki, Azerbaycan diasporasının yurtdışındaki imkanlarını geniş çapta kullanmak, ülke hayatının çeşitli alanlarında ortaya çıkan sorunların çözümüne aktif katılımını gerçekleştirmek için yapılması gereken çok iş var. Cumhurbaşkanı İlham Aliyev'in bu alandaki tutarlı ve kararlı, amaçlı ve ilkeli politikası, önümüzdeki yıllarda Azerbaycan diasporasının güçleneceğini ve Anavatanımızın kader sorunlarının çözümünde daha aktif olarak yer alacağımızı gösteriyor.

Ulusal bağımsızlığın ilk yıllarında Azerbaycan toplumu, hayatın her alanında olduğu gibi din alanında da belirli bir çeşitlilikle karakterize edildi. Aşırı ideolojik klişeler, tamamen materyalist bir dünya görüşüne dayanan bir ahlaki eğitim sistemi yaratmayı amaçlıyordu. Ermeni saldırganlığının bir sonucu olarak ülke topraklarının önemli bir bölümünün işgal edilmesi, bir milyon mülteci ve ülke içinde yerinden edilmiş insan ordusunun yaratılmasıyla ilgili toplumsal gerilim koşullarında, bu durum toplumumuzun geleceği için gerçekten ciddi engeller yarattı. Ve insan ve onun modern uluslar grubuna dahil edilmesi. Din, ülkedeki çeşitli siyasi güçler tarafından suni olarak yaratılan bir çatışmanın içine giriyor, dini siyasi amaçlar için kullanma eğilimi, dini hoşgörüsüzlük, farklı bölgelerde kendini gösteren ayrılıkçılık girişimlerinde ortaya atılan ayrımcı duygular dile getirildi. 1992 yılında Azerbaycan Cumhuriyeti'nin "Din Özgürlüğü Hakkında" Yasasının kabul edilmesi, bölgede dinin yayılması için tarihsel koşullar tam olarak dikkate alınmadan alelacele hazırlanmış, dini durum üzerinde devlet kontrolünü sağlamış ve radikal yaratamamıştır. Değişiklikler, bilakis yabancılar, vatansızlar, çeşitli misyoner teşkilatları, kanunu ve bilhassa kanundaki boşlukları kullanarak, milli güvenlik ve asayişin gereklerini bile karşılamayan mezheplerin yabancı inançlarını ülkemizde ve milletimize yerleştirmeye başladılar. Birçok dini topluluk, ülkedeki yabancı dini merkezlerin ve misyoner örgütlerinin vaizi oldu. Derin kökleri olmayan geleneksel olmayan dinler Azerbaycan'da geniş bir alana yayıldı. Ulusal lider Haydar Aliyev cumhuriyette yeniden iktidara geldiğinde, toplumun dini konumu çok karmaşık ve çelişkiliydi. Yalnızca devlet faaliyetlerinde geniş deneyime sahip bir kişi bu tür zor koşullardan kurtulabilir, durumu doğru bir şekilde değerlendirebilir ve bir dönüm noktası yaratabilir. Haydar Aliyev, derin bilgisi, yüksek becerisi, güçlü iradesi ve büyük yönetim tecrübesi sayesinde, devlet-din ilişkilerini kabul edilebilir uluslararası standartlara uygun olarak doğal seyrine döndürebilir ve devletin stratejik çizgisine uygun hale getirebilir. Her şeyden önce din-devlet ilişkilerinde ortaya çıkan uçurumun giderilmesi, karşılıklı güvenin yeniden tesis edilmesi, dinin milli ve manevi değerler içindeki yerinin belirlenmesi gerekiyordu. Kolay ya da hızlı bir iş değildi. Muhtemelen, her şeyden önce, durumda köklü bir değişiklik yaratmak için, soruna yönelik tutumları ifade etmenin yanı sıra, yasal bir çerçeve hazırlamak gerekiyordu. Bu amaçla Azerbaycan Cumhuriyeti "Dinî İnançlar Kanunu"nda bazı değişiklikler yapılmış, bazı maddeler çıkarılmış, bazı maddeler eklenmiştir. Cumhurbaşkanı camilere gidiyor, dini münasebetlerle düzenlenen törenlere katılıyor, dinlerin temsilcileriyle görüşüyor, devletin stratejik çizgisini bizzat anlatmaya çalışıyor. Bir konuşmasında Azerbaycan'ın stratejik yolunun demokratik, yasal ve laik devlet inşasından geçtiğini belirtmiştir. Elbette laik devlet ilkesi, devletin dinden ayrılmasını ifade eder [3]. Ancak vatandaş, halk ve millet bir bütün olarak dinden ayrılamaz. 1-2 Ekim 1998'de Bakü'de düzenlenen "Modernite ve Dini ve Ahlaki Değerler" konulu uluslararası

konferansta Haydar Aliyev laik bir devlette din hürriyeti ilkesini açıklamış ve şöyle demiştir: "Devletimiz insanlara her türlü hürriyet ve hürriyeti vermiştir. Vicdan ve din politikasının ana parçasıdır ... Azerbaycan Cumhuriyeti Anayasası (18, 48. Maddeler) din ve vicdan özgürlüğünü tesis etti ve biz devlet olarak bunun garantörüyüz. Evet, bu yüzden devletimiz laik bir devlettir. Ama biz dinden ayrı değiliz." Azerbaycan'ın seçtiği demokratik, yasal ve laik devlet inşası yolu, ulusun derin bir özbilincini ve ulusal özbilinç, ulusun sosyal ve dini görüşlerine, felsefesine, gelenek ve göreneklerine başvurmayı gerektirir.

Azerbaycan tarihsel olarak gelenekleri ve dini hoşgörüsüyle öne çıkmış olsa da, bugün uluslararası standartları karşılayan hoşgörünün ülkemizde Haydar Aliyev'in erdemleri sayesinde oluştuğunu güvenle söyleyebiliriz. Milli lider bir konuşmasında şunları söyledi: "Azerbaycan Cumhuriyeti çok uluslu bir devlettir. Azerbaycan'da Müslümanların yanı sıra başka dinlere mensup vatandaşlar da yaşıyor. Azerbaycan, demokrasi ilkelerine bağlı bağımsız bir devlet olarak, topraklarında yaşayan tüm halklara ve milletlere din, dil, ırk ve siyasi görüş gözetmeksizin özgürlük sağlar." Ülkemizdeki bu hoşgörü birçok uluslararası kuruluş tarafından kabul görmektedir. Azerbaycan'ı ziyaret eden Rum Patriği I. Bartholomeos, ülkemizde hoşgörünün yaşayan şahididir. Bakü'de iki Yahudi sinagogu ve Barış Taşıyıcı Jen'in adını taşıyan katedralin restore edilerek müminlere teslim edildiğini söylemekle yetinelim [3]. Avrupa'nın kalbinde yer alan bazı ülkeler dini hoşgörüsüzlükten muzdaripken, Azerbaycan'da Yahudiler, Hristiyanlar ve Müslümanlar arasında karşılıklı saygının ve yakın işbirliğinin güçlendiğini görüyoruz. Bu hoşgörü, dinler arası diyalog ve işbirliği Haydar Aliyev'in doğru ve adil politikası sayesinde oluşturulmuştur. Farklı etnik grupların, mezheplerin ve kültür temsilcilerinin bir arada yaşadığı Azerbaycan'da hoşgörünün güçlendirilmesi amacıyla, milli dayanışma adına, dini aşırıcılıkla mücadelede din eğitimi de dahil olmak üzere genel olarak eğitimin rolünü dikkate alan Haydar Aliyev, yaşayan, geleneksel ve geleneksel olmayan dinler arasındaki ilişkileri hukuk çerçevesinde medeni bir şekilde düzenler. Büyük liderin değerli bir takipçisi olan Azerbaycan Cumhurbaşkanı İlham Aliyev'in diasporayı ve lobicilik inşasını önemli konular arasına koymasından gurur duyuyoruz. Son 8 yılda bu yönde tutarlı ve sistematik tedbirlerin uygulanmasını sağlayan Cumhurbaşkanı İlham Aliyev, yaptığı toplantılarda ulusal diaspora teşkilatlarının tek bir örgütlü güç olarak örgütlenmesi gereğini vurgulamış ve bunun ideolojik ve siyasi hatlarını belirlemiştir. Çağımızda gerçekler gösteriyor ki, Azerbaycan diasporasının yurtdışındaki imkanlarını geniş çapta kullanmak, ülke hayatının çeşitli alanlarında ortaya çıkan sorunların çözümüne aktif katılımını gerçekleştirmek için yapılması gereken çok iş var. Cumhurbaşkanı İlham Aliyev'in bu alandaki tutarlı ve kararlı, amaçlı ve ilkeli politikası, önümüzdeki yıllarda Azerbaycan diasporasının güçleneceğini ve Anavatanımızın kader sorunlarının çözümünde daha aktif olarak yer alacağımızı gösteriyor.

## Kaynakça


1. Haydar Aliyev ve Azerbaycan'da Petrolün Gelişmesi.- Bakü: SOCAR- Devlet Petrolü Azerbaycan Cumhuriyeti Şirketi, 1997.- 17 s.
2. The Poetry Anthology for World Peace / ed.: R. R.C. Wilkinson, Yan Yi.- Cambridge, 2000.- 226 s.
3. Yeni Jeostratejik İlişkiler Bağlamında Güney Kafkasya: Uluslararası Konferans: çalışma materyalleri / Qərb universiteti.- Bakı: Qərb Universiteti NPM, 2003.- 275 s.
4. Geleceğe Doğru / "Haydar Aliyev'in Mirası" Uluslararası Çevrimiçi Kütüphane; ed. V. Süleymanov; trans. T. Guliyev.- Bakü, 2004.- 72 s.
5. Аль-Фалах, Адель Абдулла. Гейдар Алиев и национально-духовные ценности Баку: Гисмет, 2007.- 108 s.

**Irana Mammadova**

# CULTURAL DEVELOPMENT OF AZERBAIJAN IDEOLOGY AND TOLERANCE IN THE NATIONAL LEADER'S HERITAGE

**Summary:** The people, who are aware of the fact that there is only a national ethnos, have been able to maintain their existence by establishing a national state. Experiences show that the exceptional mission of the phenomenon of historical identity like Heydar Aliyev is for every nation to return to its national and ethnic roots under appropriate historical conditions, to preserve its identity based on national and spiritual values and worldview systems accumulated over the centuries. Belonging to the nation-state for centuries has shown what each nation is capable of, the way of just struggle and its determination to take its rightful place among the nations of the world. In this sense, the existence of the nation-state is one of the important conditions in the process of progressing towards certain goals that people set for themselves. Heydar Aliyev defined the basic principles in this direction in his speech addressed to the Azerbaijani diaspora during his official visit to the United States of America in 1997: “Don't think about what Azerbaijan has done for us, think about what we have done for them. Azerbaijan. Azerbaijan will also progress, Azerbaijan and the diaspora will also develop... It doesn't matter where you were born, what matters is that you are an Azerbaijani, a carrier of the Azerbaijani language and culture.” Today, regardless of his political views, everyone agrees that the national unity achieved in Azerbaijan after Heydar Aliyev came to power again in 1993 by the will of the people is one of the most valuable moral and ideological values of our republic. The genius of Heydar Aliyev, embodied as a national personality in the eyes of the people as a whole, continued the line of strengthening civil peace and national solidarity under the second leadership of Azerbaijan and raised this political line to an excellent scientific and scientific level. The theoretical concept with concrete steps.

**Key words:** The ideology of "Azerbaijanis", religious beliefs, state-religion relations, interreligious dialogue, tolerance, diaspora, multiculturalism.

**UOT 008**

**Günel Hümmətova (Pəniyeva)**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin, müəllimi, f.ü.f.dok**
**E-mail: gunelpeniyeva@mail.ru**

# HEYDƏR ƏLİYEV: MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI

**Xülasə:** Multikulturalizm və tolerantlığın inkişafı uğrunda Ulu Öndərin hakimiyyəti illərində Azərbaycanda yeni məscidlərin tikilməsi ziyarətgah və dini məbədlər əsaslı şəkildə təmir-bərpa edilməsi, abadlaşdırılması əsas istiqamətlərdən biri idi. Ümummilli lider Heydər Əliyev islam dininin mənsublarına göstərdiyi qayğı və diqqəti ölkəmizdə yaşayan digər dinlərin mənsublarından da əsirgəməyərək öz düşüncələri və əməlləri ilə ölkəmizdə tolerant mühiti formalaşdırıb, inkişafına təkan verib ki, bu da bütün vətəndaşlar üçün örnək rolunu oynayaraq mədəni müxtəlifliyin inkişafını təmin edib. Eyni zamanda Heydər Əliyev digər din nümayəndələrinə qarşı yüksək dini dözümlülük nümayiş etdirməklə yanaşı, onları da heç vaxt diqqətdən kənarda saxlamayıb, arzu və istəklərini həyata keçirib, problemləri ilə yerindəcə tanış olmaqdan ötrü tez-tez ölkəmizdə fəaliyyət göstərən kilsə və sinaqoqlarda olub və bütün problemlərin həlli ilə yaxından maraqlanıb.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, multikulturalizm, tolerantlıq, siyasət

Azərbaycan multikulturalizmin banisi ulu öndər Heydər Əliyevdir. Sovet İttifaqının dağılma ərəfəsində – 80-ci illərin sonları və 90-cı illərin əvvəllərində müxtəlif qruplar üçün “milliyyətçilik” anlayışı birliyə çağırışın yeganə kateqoriyası idi. Bu siyasi ideologiya Avropa dövlətlərindən fərqli olaraq keçmiş sovet ölkələrində və eləcə də regionumuzda dramatik toqquşmaların meydana gəlməsinə səbəb oldu. Bu illər ərəfəsində Azərbaycan vətəndaş müharibəsinin baş verməsi astanasına gəlib çatdı. Məhz bu ərəfədə ümummilli lider Heydər Əliyev hakimiyyətə yenidən döndü. Bu dönüşdən sonra Azərbaycanın həm daxili həm də xarici siyasətində köklü dəyişiklər özünü dərhal göstərməyə başladı. Heydər Əliyev siyasətinin əsasını multikultural, tolerant və humanist dəyərlərin ana xətt təşkil edir. İnsan hüquqlarının ali dəyər kimi hesab olunduğu Heydər Əliyev siyasəti Azərbaycanı nəyinki vətəndaş müharibəsindən xilas etdi, hətta Azərbaycanın multikultural dəyərlərini bir model kimi formalaşdırdı. 1989-cu ildə Sumqayıt hadisəsinin baş verməsi vətəndaşlıq müharibəsinin ilkin səbəblərindən oldu. Sovet dövləti dağılmağa başladığı andan Azərbaycan ərazisində Ləzgistan və Talış Muğan respublikalarının yaradılması təşəbbüsünün irəli sürülüb o istiqamətdə siyasi işlərin aparılması artıq Azərbaycan Respublikasına bir professional şəxsin başçılıq etməsinin zəruriliyi yarandı. Bu vacibliyi sezən Azərbaycan ziyalılar cəmiyyətinin imza toplantısı ilə ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldi. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etdi. Və 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Azərbaycan Respublikası qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanındı. Beləliklə də, yeni müstəqillik əldə etmiş dövlətin dünya təşkilatları il siyasi-iqtisadi əməkdaşlığın edilməsinə zərurət yarandı. Və eyni zamanda Heydər Əliyevin güclü siyasətinin nəticəsi olaraq müxtəlif etnik qrupa daxil olan milli qrupların hüquq-bərabərliyini qorumaq və mədəni müxtəlifliklərin inkişafına şəraitin yaradılması əsas şərtlərdən biri oldu. Sözdə əməlin edilməsi və hüquqların qorunması sənədlə sübutun verməli və daxili çəkişmənin qarşısı alınmalı idi. Eyni zamanda dövlətin din münasibətlərini nizama salmaq, dövlətin xarici siyasətini düzəlmək və yeni yaranmış bir dövlətin iqtisadi siyasətində gücləndirmək və həyata keçirmək üçün bir sıra xarici təşkilatlara üzv olmanın vacibliyin görürdü. Bunun üçün də Heydər Əliyev 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi. Daha sonra ulu öndər Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da

Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında qeyd etmişdir ki, "respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir" [1, s.396]. Həm yeni yaranmış müstəqil dövlət özünəməxsus prinsip və xüsusiyyətlərlə fərqlənmək, həm də müxtəlif istiqamətli daxili və xarici siyasəti həyata keçirmək üçün xalqın ümumi rəyi ilə yaradılmış və qəbul olunmuş Konstitusiya əsasında onun tam bir varlıq kimi yaşamasına, fəaliyyətinə, ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrində təmsil etdiyi vətəndaşların maddi və mənəvi tələbatının fasiləsiz təmin edilməsinə, eyni zamanda dövlətin etnik birliyini təşkil edən müxtəlif etnik birliklərin hüquq və bərabərliyini qanun əsasında qorumaq üçün 1995-ci il noyabrın 12-də qəbul edildi. Konstitusiyanın bəzi maddələri insan hüquq və azadlıqlarının qorunması ilə bağlıdır. Bu qanunlar da 1948-ci il dekabrın 10 da Birləşmiş Millətlər təşkilatının qəbul etdiyi "insan və vətəndaşların hüquq və azadlıqlar haqqında bəyannaməsinin" qanunları ilə uyğunluq təşkil edir. Həmçinin Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurulması kimi hüquqi qanunları əks etdirmişdir. Bütün bu hüquq və qanunların, maddə və bəndlərin hər birinin özünün həyata keçirdiyi funksiyası vardır ki, onlardan biri də xarici siyasətin həyata keçirilməsidir.

Bütün bu siyahı ulu öndər Heydən Əliyevin daxili və xarici siyasətinin nəticəsi olaraq əldə edilmişdir. Multikulturalizm və tolerantlığın inkişafı uğrunda Ulu Öndərin hakimiyyəti illərində Azərbaycanda yeni məscidlərin tikilməsi ziyarətgah və dini məbədlər əsaslı şəkildə təmir-bərpa edilməsi, abadlaşdırılması əsas istiqamətlərdən biri idi. Çoxmillətli dövlət olan Azərbaycanda müstəqillikdən öncə 17 məscidin mövcud olması tolerantlığın ilkin müxtəlifliklivə aid olmasını bir daha sübuta yetirirdi. Müstəqillikdən sonra onların sayı 1236-ya ulu öndər Heydər Əliyevin sayəsində çatdırıldı. Milli-mənəvi dəyərlərimizin xüsusi rolunun olduğunu Heydər Əliyev 1997-ci ildə Bibiheybət məscidinin bərpasına başlanması mərasimindəki çıxışında vurğulamışdır: "Son illər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, qorunub saxlanmasında, Azərbaycanın başına gələn bəlaların aradan götürülməsində, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün apardığımız işlərdə, bütün başqa işlərdə bizim milli-mənəvi dəyərlərimiz – Azərbaycan xalqının milli-mənəvi dəyərləri, Azərbaycan xalqının mənsub olduğu islam dininin mənəvi dəyərləri bizim üçün həmişə dayaq və ilham mənbəyi olmuş, bizə həmişə güc vermişdir"[1, s.264]. Azərbaycanın gələcək strategiyasının inkişaf etdirilməsində mənəvi mənbələrdən yararlanmağın xüsusi önəminin olduğunu və bu işdə islam dininin də əhəmiyyətli rolunun vacib olduğunu ulu öndər xüsusi qeyd etmişdir. Məhz ona görə də çoxmillətli dövlətin müxtəlif dini görüşlərə malik olan etnik birliklərin dini nümayəndələri ilə ümummilli lider tez-tez görüşlər keçirir, onların fikirlərinə ciddi şəkildə önəm verir, müxtəlif dini bayram və matəm mərasimlərində məscidlərə gedir, dindar insanlar qarşısında çıxışlar edərdi ki, bu da multikultural görüşün inkişafını və Azərbaycan multikulturalizm modelinin əsasının formalaşmasına təkan verirdi Təzəpir məscidində keçirilən bayram tədbirində iştirak edən Ulu Öndər: "Bizim bu ədalətli mübarizəmizdə, torpaqlarımızın müdafiəsində Allah bizə həmişə yardımçı olacaqdır. Ulu peyğəmbərimiz Məhəmməd əleyhis-salamın qoyduğu yol, Qurani-Kərimin göstərişləri bizi qələbəyə aparacaq, xalqımızı birləşdirəcək və biz düşmənləri məğlub edəcəyik" [1, s.152]. Ümummilli lider Heydər Əliyev islam dininin mənsublarına göstərdiyi qayğı və diqqəti ölkəmizdə yaşayan digər dinlərin mənsublarından da əsirgəməyərək öz düşüncələri və əməlləri ilə ölkəmizdə tolerant mühiti formalaşdırıb, inkişafına təkan verib ki, bu da bütün vətəndaşlar üçün örnək rolunu oynayaraq mədəni

müxtəlifliyin inkişafını təmin edib. Eyni zamanda Heydər Əliyev digər din nümayəndələrinə qarşı yüksək dini dözümlülük nümayiş etdirməklə yanaşı, onları da heç vaxt diqqətdən kənarda saxlamayıb, arzu və istəklərini həyata keçirib, problemləri ilə yerindəcə tanış olmaqdan ötrü tez-tez ölkəmizdə fəaliyyət göstərən kilsə və sinaqoqlarda olub və bütün problemlərin həlli ilə yaxından maraqlanıb. Bu istiqamətdə də 2004-cü ildə Heydər Əliyev Fondu yaradaraq regionlar arası istər iqtisadi, istərsə də mədəni inkişafla bağlı qəbul edilmiş bəyannamə və proqramların həyata keçirilməsini təmin edib. Eləcə də görkəmli dövlət xadiminin onların dini məbədlərini bərpa etdirmək təşəbbüsünün bütün dünyaya nümunə olması danılmaz reallıqdır.

**Ədəbiyyat siyahısı:**

1. Heydər Əliyev Siyasəti: TOLERANTLIQ (çıxışlar, nitqlər, görüşlər, təbriklər), Bakı, 2015, 502 s.

**Gunel Hummatova (Paniyeva)**

**HEYDAR ALIYEV: THE IDEOLOGY OF MULTICULTURALISM AND TOLERANCE**

**Summary:** During the reign of the Great Leader, the construction of new mosques in Azerbaijan for the development of multiculturalism and tolerance was one of the main directions of major renovation and improvement of sanctuaries and religious temples. The national leader Heydar Aliyev, with his thoughts and actions, formed a tolerant environment in our country and gave impetus to its development. At the same time, Heydar Aliyev, in addition to showing high religious tolerance towards representatives of other religions, never left them out of attention, realized their wishes and desires, often visited churches and synagogues operating in our country to get to know their problems on the spot, and with the solution of all problems closely interested.

**Key words:** Heydar Aliyev, Azerbaijan, multiculturalism, tolerance, politics

**UOT 376**

**Esmira Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti.**
**pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim**
**E-mail: tunaryasin.memmedli@mail.ru**

# HEYDƏR ƏLİYEVİN FƏALİYYƏTİ DÖVRÜNDƏ ŞƏXSİYYƏTİN MƏNƏVİ TƏRBİYƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ HAQQINDA

**Xülasə:** Məqalədə Heydər Əliyevin ideya-nəzəri irsində şəxsiyyətin mənəvi tərbiyəsinin əsas məsələlərinə toxunulmuşdur. Ümummilli liderimiz hər zaman ana dilimizin inkişafına xüsusi qayğıyla yanaşmışdır. Ana dilimizi mənəviyyatımız hesab etmişdir.

Məqalədə ümummilli lider Heydər Əliyevin təhsilin inkişafında rolu, yeni məktəblərin inkişafı və qurulması, respublikanın ali təhsil müəssisələrinə daxil olan abituriyentlərin sayının artırılması ilə bağlı məlumatlar ətraflı təhlil edilir. Azərbaycanda təhsilin inkişafında Heydər Əliyevin rolundan danışan müəllif bu problemin həllini iki sosial-iqtisadi sistemin işləməsi kontekstində nəzərdən keçirir.

**Açar sözlər:** mənəviyyat, dil, inkişaf , mənəvi dəyərlər, tərəqqi, irs

Hələ XX əsrin 70-ci və 80-ci illərində cəmiyyətin və millətin iqtisadi, sosial-siyasi, mənəvi-əxlaqi və mədəni, o cümlədən intellektual inkişafın ən mühüm problemləri həllində böyük öndər Heydər Əliyevin xidmətləri ölçüyə gəlməzdir. Onun bu problemlərinin həllinə yanaşmasının səciyyələndirən başlıca xüsusiyyətlər ciddilik və sistemlilik prinsipləri olmuşdur. O, bu qəbilədən olan problemlərin tarixinin perspektivlərinin aydın təsəvvür edərək, kompleks şəkildə həll edirdi.

Müdrik və təcrübəli bir dövlət xadimi kimi Heydər Əliyev və hər hansı bir problemin həllinə sistemlilik və çoxvariantlılıq baxımından yanaşırdı.

Problemlərin çoxvariantlı həllində müxtəlif üsullardan, metodoloji prinsiplərdən istifadə edirdi.

Gənclərin mənəvi tərbiyəsi sayəsində Heydər Əliyevin, bilavasitə rəhbərliyi ilə məqsədyönlü tədbirlər həyata keçirilməsidir. Heydər Əliyev gənclərin yalnız peşəkarlığı baxımından savadlı deyil, eyni zamanda mənəvi və əxlaqi yetkin bir şəxsiyyət kimi görmək istərdi.

Respublikanın təhsil müəssisələri qarşısında Vətənə fədakarlıqla xidmət edən və yüksək əxlaqi keyfiyyətlərə malik olan mütəxəssislər hazırlamaq kimi şərəfli vəzifə qoyulmuşdur.

Heydər Əliyev 18 may 1978-ci ildə Azərbaycan müəllimlərinin VI qurultayındakı nitqində qeyd etmişdir ki, insanın mənəvi keyfiyyətlərinin əsası məktəbdə qoyulur. Orada onun həyata baxışları, arzu və istəkləri formalaşır, onun rəhbər tutduğu mənəvi meyarlar bir çox cəhətdən müəyyənləşir.

Müəllimin mənəvi-əxlaqi siması, ideya inamı, baxışlarının sabitliyi, hərəkətlərinin ardıcıllığı, maraq dairəsinin genişliyi, səmimiliyi və vicdanlılığı məktəbdə qüdrətli tərbiyəvi amildir. Pedaqoji kollektivdəki mənəvi iqlimin məktəblilərin əxlaq tərbiyəsinin səmərəliliyi üçün çox mühüm şərt olduğu qeyd edilir.

... O qeyd edir ki, böyüməkdə olan nəslin... tərbiyəsi mənəviyyatca zəngin, ideyaca mətin, yüksək əxlaqlı şəxsiyyətin formalaşması bu gün cəmiyyətimiz qarşısında duran çox mühüm vəzifədədir. Bunun kompleks problem olduğunu və məktəbin bu problemin həllində böyük rol oynadığını qeyd edir.

31 avqust 1994-cü ildə Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə giriş sözündə ulu öndər gənclərin tərbiyəsində milli, dini adət və ənənələrindən istifadə etməyin nə qədər əhəmiyyətli olduğunu göstərmiş, əsrlərin dərinliyindən bu günə gəlib çatan adət-ənənələrimizin həmişə adamların saflığına, təmizliyinə kömək etməsinin lazımlılığını göstərir.

Gənclərin paklıq, saflıq, yüksək əxlaq, yüksək mənəviyyat əsasında tərbiyə edilməsinin təhsil müəssisələri qarşısında bir vəzifə olduğunu göstərir. O, göstərir ki, bununla biz cəmiyyətimizi qoruyacaq, xalqımız üçün zərərli halların kök salmasının qarşısını alacağıq.

01 sentyabr 2001-ci ildə dərs ilinin başlanması və bilik günü münasibətilə Bakı şəhərinin Səbail rayonundakı 6 nömrəli məktəb-liseydə görüşdəki nitqində məktəblərdə uşaqların mənəvi tərbiyəsində valideynlərin şəxsi nümunəsinin böyük əhəmiyyət kəsb etdiyini Heydər Əliyev öz ailəsinin şəxsi nümunəsində gözəl təhlil etmişdir. O, qeyd edirdi ki, məktəbin şəhərdə və kənddə, şəhərin mərkəzində və ya kənarda yerləşməsi onun təhsil səviyyəsinin dəyişilməsinə təsir göstərə bilməz. O, qeyd edir ki, 1977-ci ildə mənim oğlum İlham məktəbi qurtararkən mən gəlib başqa valideynlərlə birlikdə buraxılışda iştirak etdim. Onların bir çoxları təəccüb edirdilər ki, necə ola bilər ki, ölkənin başçısı gəlib burada, məktəbdə bütün başqa valideynlərlə birlikdə mərasimdə iştirak edir. mən hesab edirəm ki, o təəccüb edənlər səhv edirdilər. Çünki bizim özümüz də məktəbdən çıxmışıq. Bizim özümüz də məktəbin yetirmələri idik. Mənim oğlum 10 il burada təhsil almışdır. əgər yaxşı təhsil almışsa, təbii ki, mən onun buraxılış tədbirinə getməli idim, təşəkkürümü bildirməli idim. Keçmişi yada salaraq demək istəyirəm ki, İlhamın, Sevilin anası, mənim mərhum həyat yoldaşım Zərifə xanım bütün valideyn iclaslarına gedirdi və iştirak edirdi. Bu da hər bir valideynin borcudur. Heydər Əliyevin bu müdrik sözləri təhsil müəssisələrində mənəvi tərbiyənin yüksək səviyyədə həyata keçirilməsi üçün şəxsi nümunə ola bilər.

01 sentyabr 2001-ci ildə Bakıda ilk özəl ümumtəhsil məktəb kompleksini açılış mərasimindəki nitqində özəl təhsilin əhəmiyyətini qeyd etməklə, belə müəssisələrdə keyfiyyətin yüksək olmasının zəruriliyini açıqlamışdır.

Heydər Əliyev bizim məktəblərimizin milli olmasını vurğulayaraq qeyd etmişdir: “Mən son vaxtlar Azərbaycanın dövlət dili-ana dili, Azərbaycan dili haqqında bir çox Fərmanlar vermişəm. Azərbaycanın latın əlifbasına, latın qrafikasına keçməsi haqqında Fərman vermişəm. Mən ona görə çox sevindim ki, bu gün mənə verilən məlumatlar bizim dövlətin siyasətinin həyata keçirilməsi istiqamətində məktəbin qurulmasını nümayiş etdirir”. O, fəxrlə deyirdi: “ İndi burada bütün təhsil Azərbaycan dilində - dövlət dilində keçiriləcəkdir. Ancaq mənə məlumat verdilər ki, burada eyni zamanda, uşaqların hansı dilə daha çox həvəsi olmasından asılı olaraq, başqa dillər – ingilis dili də, rus dili də, fransız dili də ərəb dili də, başqa dillər də tədris olunacaqdır. Bəli, təhsildə uşaqların, gənclərin gələcəyini təmin etmək üçün bizim siyasətimiz bundan ibarətdir”.

Böyük öndərin bütün çıxışlarında Azərbaycandakı təhsil müəssisələrində uşaqların mənəvi tərbiyəsinin inkişafına diqqət yetirməyin ön plana çəkilməsini tövsiyə etmişdir.

Ulu öndər Heydər Əliyevin gənclərin mənəvi tərbiyəsi ilə bağlı fikirlərini bu gün Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Vitse Prezidenti Mehriban Əliyeva uğurla davam etdirirlər.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə, Bakı, 2007
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. II kitab, Bakı, 1997
3. Heydər Əliyev. Təhsil. Bilik. Məktəb, – Bakı, “Müəllim”, 2006
4. R. Mehdiyev. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005

**Esmira Mammadova**

**ABOUT THE MAIN DIRECTIONS OF SPIRITUAL EDUCATION OF PERSONALITY DURING HAYDER ALIYEV'S ACTIVITY**

**Summary:** The article discusses linguistic and moral problems in the ideological and theoretical heritage of Heydar Aliyev. Our national leader has always been attentive to the development of our native language. Our native language is our spirituality.

The article discusses the role of national leader Heydar Aliyev in the development of education, analyzes in detail the development and construction of new schools, increasing the number of applicants entering higher educational institutions of the republic. Speaking about the role of Heydar Aliyev in the development of education in Azerbaijan, the author considers the solution of this issue in the context of the functioning of two socio-economic systems.

**Key words:** spirituality, language, development, spiritual values, progress, heritage

**UOT 82**

**Sabir Əsədov**
**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, doktorant**
**E-mail: sabir.alim80@gmail.com**

# HEYDƏR ƏLİYEV VƏ CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI

**Xülasə:** Ümummilli lider Heydər Əliyev mədəniyyətin digər sahələri ilə yanaşı söz sənətini də daim diqqət mərkəzində saxlamış, milli ədəbiyyatımıza dəstəyini əsirgəməmişdir. Mənalı ömrünün hər anını xalqına və xalqının rifahına, inkişafına, dünya arenasında tanınmasına, işıqlı gələcəyinə şəraitdən asılı olmayaraq həsr edən Heydər Əliyev ədəbiyyat və ədəbiyyat xadimlərinə, elm xadimlərinə, ustad sənətkarlara daim mərhəmətlə yanaşmışdır. xüsusi diqqət və qayğı ilə yanaşmış, şair və yazıçıların aktual problemləri ilə maraqlanmış, onlara qayğı göstərmiş, onlar haqqında xüsusi göstərişlər vermiş, bacardığı qədər kömək etmişdir. Tarixə nəzər salsaq, onun hakimiyyətinin ilk illərində belə ədəbiyyatın keşiyində inam və cəsarətlə dayandığının şahidi oluruq.

Bu yazıda Heydər Əliyevin Güney Azərbaycan ədəbiyyatının nümayəndələrinə göstərdiyi diqqət və qayğıdan bəhs edəcəyik.

**Açar sözlər:** Güney Azərbaycan, Heydər Əliyev, ümummilli lider, ədəbiyyat, Bulud Qaraçorlu Səhənd, Balaş Azəroğlu, Mədinə Gülgün, Sovet dövrü, Güney Azərbaycan ədəbiyyatı

Ümummilli lider Heydər Əliyev mədəniyyətin digər sahələri ilə yanaşı, söz sənətini da daim diqqət mərkəzində saxlamış, milli ədəbiyyatımıza dəstəyini əsirgəməmişdir. Yaşadığı mənalı ömrünün hər anını xalqına və onun rifahına, inkişafına, dünya arenasında tanınmasına, işıqlı gələcəyinə həsr edən Heydər Əliyev şəraitdən asılı olmayaraq, hər zaman ədəbiyyata və ədəbiyyat adamlarına, elm xadimlərinə, ustad sənətkarlara xüsusi diqqət və qayğı ilə yanaşmış, şair və yazıçıların mövcud problemləri ilə maraqlanmış, qayğısına qalmış, onlarla əlaqədar xüsusi göstərişlər vermiş, bacardığı qədər köməklik göstərmişdir. Bütün bunları hələ onun Sovetlər dönəmində Yazarların qurultaylarında şəxsən iştirak etməsi, şair və yazıçılarla görüşməsi, onların əksəriyyətini əyani şəkildə tanıması bir daha sübut edir. Tarixə bir balaca nəzər salsaq, onun hələ hakimiyyətinin ilk illərində ədəbiyyatın keşiyində inamla və cəsarətlə dayanmasının şahidi oluruq.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü 1969-cu ilə təsadüf edir. Bu elə bir dövr idi ki, Azərbaycan xalqının düşmənləri və xain qüvvələr hər vasitə ilə və mənfur planlarla həm Heydər Əliyevə, həm də Azərbaycana qarşı ciddi maneələr yaradır, ölkənin ictimai-siyasi həyatında problemlərin meydana çıxması, eyni zamanda, yayılması üçün əllərindən gələni əsirgəmirdilər. Belə bir mürəkkəb, çətin və qarışıq tarixi dönəmdə Heydər Əliyev qarşısına ciddi və məsuliyyətli bir missiya, vəzifə qoyulmuşdur: Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl, sayılıb-seçilən, tanınan və inkişaf etmiş respublikalarından birinə çevirmək. Bu, o zaman hələ bir arzu idi və plan olaraq qarşıya qoyulmuşdu. Amma gün gələcək, bu plan həyata keçəcək, bu yüksək amal və güc sahibi müstəqil Azərbaycanın qurucusuna çevriləcəkdi.

Heydər Əliyev 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəldiyi zaman, ölkədə, demək olar ki, bütün sahələrdə durğunluq, ümidsizlik hökm sürür, ölkə uçurumun düz ortasına yuvarlanırdı. Ölkədə vəziyyət olduqca acınacaqlı, yaranmış problemlər isə saysız-hesabsız idi. Burda xalqımıza qarşı, ölkəmizə və Heydər Əliyevə qarşı əks mövqedə dayananların xüsusi marağı, həvəsi, istəyi vardı. Bütün bu siyasi basqı və təzyiqlərə baxmayaraq, ümummilli lider yorulmadan çalışır, tarixi ədalətsizliyə qalib gəlmək üçün min bir əziyyətə qatlaşırdı.

İki yerə parçalansa da, Güney bölgəsində yaşayan soydaşlarımıza ana dilində, Azərbaycan türkcəsində danışmaq, yazmaq, oxumaq, məktəbə getmək qadağan edilsə də, Şimal və Cənub arasında hər zaman bir yaxınlıq, eynilik, doğmalıq özünü göstərmişdir. Bu istəyin, arzunun qarşısını heç nə ala bilməzdi. Bəli, bu mənəvi və ruhi yaxınlıq Azərbaycanın düşmənlərini narahat etməyə bilməzdi. Heydər Əliyev məhz belə bir çətin dönəmdə hakimiyyətə gəlmişdi. Dağılmış və ya dağıdılmış daşları yerinə qoymaq, bütün sahələrdə meydana çıxmış çətin vəziyyəti yavaş-yavaş qaydaya salmaq lazım idi. Nizamı pozulmuş həmin sahələrdən biri də ədəbiyyat idi. Heydər Əliyev hakimiyyətə gəlişinin elə birinci ilində, 1970-ci ildə R.Rzanın 60 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasına nail olur. Ölkədə geniş və böyük quruculuq, yenidənqurma işlərinə başlanır. Məhz onun səyləri ölkədə yeni işlərin başlanmasına təkan verir. Heydər Əliyevin uzaqgörən siyasəti, səriştəsi və siyasi gücü nəticəsində ölkəmiz SSRİ-nin tanınmış respublikaları sırasına daxil ola bilir. Həmin illərdə yeni inkişaf və dirçəliş mərhələsinə qədəm qoyan sahələrdən biri də ədəbiyyat olur.

Şimali Azərbaycanla yanaşı, Güney Azərbaycanla bağlı məsələlər də hər zaman Heydər Əliyevin diqqət və önəm verdiyi məsələlərdən olmuşdur. Cənubi Azərbaycan ədəbiyyatı, cənublu şairlərin həyatı, onların qarşılaşdığı problemlər, bir sözlə, Arazın o tayı həmişə onun diqqət mərkəzində olmuşdur.

Musa Qasımlı Ulu öndərin hələ sovet dönəmində Cənub Azərbaycanla bağlı gördüyü işlər haqqında yazır: "Heydər Əliyev hakimiyyətə gələn kimi ilk növbədə İrana Azərbaycan ədəbiyyatının göndərilməsi işi genişləndirildi. 1970-ci illərin əvvəllərindən etibarən İranda Azərbaycan kitabına olan ehtiyac xeyli artmışdı. Ona görə də Azərkitab İrana 5 min nüsxə kitab göndərmək barədə İran naşirləri ilə müqavilə imzaladı. Təbriz, Urmiya, Zəncan və başqa şəhərlərdəki ali məktəb kitabxanalarına çoxlu Azərbaycan kitabı göndərildi. Bunların arasında Azərbaycan ədəbiyyatı, tarixi və mədəniyyətinə, digər elm sahələrinə dair kitablar üstünlük təşkil edirdi. Kitab göndərilməsi işində Azərbaycan kitabxanaları da fəal iştirak edirdilər. 1971-1973-cü illərdə Azərbaycan Elmlər Akademiyası kitabxanası və M.F.Axundov adına kitabxana İrana 900-dən çox kitab və jurnal göndərmişdi" [4].

Bəli, ümummilli lider vahid Azərbaycan mədəniyyətinin və ədəbiyyatının qorunması uğrunda əlindən gələni edirdi. Heydər Əliyevin Cənubi Azərbaycana və Cənubi Azərbaycan ədəbiyyatına göstərdiyi diqqət və qayğı danılmaz faktdır. Təsadüfi deyil ki, 1976-cı ilin mayında məhz onun diqqət və qayğısı, Mirzə İbrahimovun təşəbbüsü ilə Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatını öyrənən və tədqiq edən şöbə yaradılmışdır. Məlum məsələdir ki, həmin illərdə belə bir şöbənin yaradılması həm çox çətin və məsuliyyətli, eyni zamanda, həm də olduqca təhlükəli idi. Çünki yuxarıda da qeyd etdiyimiz kimi, elə o zaman da Azərbaycan xalqının düşmənləri dayanmadan öz xainliklərini və düşmənçiliklərini davam etdirirdilər. Digər tərəfdən Cənubi Azərbaycanda yaranan ana dilli ədəbiyyatın özü siyasi basqı və təzyiqlər altında inkişaf edirdi. Cənubi Azərbaycanda yaşayan soydaşlarımız bütün hüquq və haqlarından məhrum olunmuşdular. Cənubi Azərbaycanda yaşayan azərbaycanlılara nəinki doğma dildə danışmaq, hətta yeni doğulan körpələrinə belə türk adlarının qoyulması qətiyyətlə qadağan edilmişdi. Belə bir çətin vaxtda nəinki Güney Azərbaycanın ədəbiyyatını öyrənəcək şöbənin açılması, ümumiyyətlə, bu məsələ barədə mətbuatda, radio və televiziyada danışmaq, söhbət açmaq belə çox çətin idi. Amma bütün bunlara baxmayaraq, Heydər Əliyevin səyi və qorxmazlığı, dəyanəti və uğurlu siyasi gedişi nəticəsində bu işlər həyata keçirildi. 1981-ci ildə Xalq yazıçısı, akademik Mirzə İbrahimovun rəhbərliyi ilə Nizami adına Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan ədəbiyyatı tarixi" şöbəsi əməkdaşları üç cilddən ibarət "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nı tərtib etdilər. "Antologiyanın birinci cildi XIX əsr ədəbiyyatından, ikinci cildi XX əsrin 41-ci ilinə qədərki və üçüncü cildi 41-ci ildən sonrakı dövrdə yaranmış ədəbiyyatdan nümunələri əhatə edir" [1, s.5].

Bütün görülən bu işlərin və əldə olunan nailiyyətlərin başında Heydər Əliyev xeyir duası, onun qətiyyəti və siyasəti dayanırdı. Heydər Əliyev təkcə Cənubi Azərbaycan şair və yazıçılarının deyil, eyni

zamanda dilin də qayğısına qalır və bu məsələni də daima öz nəzarətində saxlayır, Cənublu soydaşlarımızın ana dilimizdə ədəbi nümunələr əldə etməsi üçün mümkün yollar axtarırdı.

"Heydər Əliyevin Sovet hakimiyyəti illərində yazarlarla olan etimadını və qayğısını sadaladığımız faktlarla məhdudlaşdırmaq olmaz. O həmçinin 27-31 oktyabr 1980-ci ildə Bakıda keçirilən dünya yazıçılarının "Ədəbiyyatların dostluğu – xalqların dostluğudur". Ümumxalq konfransını təşkil edərək dünya yazıçılarını bir araya yığmağı bacarmışdır. Zamana və məkana diqqət yetirsək görərik ki, o cür tarixi dönəmdə bu qədər dünya yazarları Moskvaya yox, məhz Bakıya gətirilmişdir. Bu hadisədən cəmi bir il sonra 12 iyun 1981-ci ildə yazarların VII Qurultayında Heydər Əliyev birbaşa Cənubi Azərbaycan ədəbiyyatı məsələsinə toxunur" [7, s.8].

Vətənpərvərlik, vətənə məhəbbət ideyası bütün ömrü boyu Heydər Əliyev şəxsiyyətinin qarşısında dayanan əsas məqsəd olmuşdur. Bəli, elə bu məhəbbətin, xalq sevgisinin nəticəsi idi ki, Heydər Əliyev istər Şimali, istərsə də Cənubi Azərbaycan ədəbiyyatına, bu ədəbiyyatın yaradıcılarına xüsusi qayğı ilə yanaşmışdır. Onun Cənubi Azərbaycan ədəbiyyatının dəyərli söz ustadlarından olan Məhəmmədhüseyn Şəhriyarın 90 illik yubileyinin keçirilməsi haqqında 29 oktyabr 1997-ci ildə imzaladığı sərəncam onun bir daha əyani sübutudur.

İran rejiminin məlum təzyiqləri nəticəsində bir çox söz sənətkarları, soydaşlarımız Cənubi Azərbaycandan və İrandan didərgin düşmüş, Avropaya, Amerikaya və s. ölkələrə köç etmiş, yaradıcılıqlarını həmin ölkələrdə davam etdirmişlər. Onlar ölkə xaricində olsalar da, yenə ürəkləri vətən həsrəti, yurd ağrısı ilə döyünmüş, vətənlə əlaqələri itməmişdir. İstər Cənubi Azərbaycanda yaşayan, istərsə İrandan mühacirət etmiş sənətkarlar olsun, Heydər Əliyev daim onları diqqət mərkəzində saxlamağa, onlara dəstək olmağa çalışmışdır.

Vilayət Quliyevin 1999-cu ildə tərtib etdiyi "Ədəbiyyatın yüksək borcu və amalı" kitabında Heydər Əliyevin ədəbiyyatla bağlı çıxışlarından sitatlar verilmişdir. Onların birində deyilir: "Bir məsələyə də toxunmaq istəyirəm. Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq İttifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onlarla əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanda ədəbi əlaqələri möhkəmlətmək, mədəniyyətin, mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barəsində düşünmək lazımdır" [2, s.146].

Heydər Əliyevin əsas amalı, qayəsi Vətəni sevmək və onun uğrunda fədakarlığa hazır olmaq idi. O, gələcəyə ümidlə baxırdı və çalışırdı ki, bu gələcək uğrunda nəsə etsin. Cənubi Azərbaycan məsələsinə gəlincə isə, demək olar ki, bu məsələ onun həyatında uzun bir yol gəlirdi. Biz eyni zamanda Cənubi Azərbaycan şairlərinin də Heydər Əliyevə olan inamının, sevgisinin şahidi oluruq. Heydər Əliyev haqqında ilk şeiri məktub şəklində marağalı şair Bulud Qaraçorlu Səhənd yazmışdır. "Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə" adlanan şeirdən bir neçə bəndə nəzər yetirək:

... Hər ağır dəhşətə mən dözə-dözə,
Məsləkdaş, vətəndaş deyibən gəldim.
Ürək sandığını açmaq üçün sizə,
Səfər yarağını deyibən gəldim.

Dağlar boyda ağır dərdi özümnən,
Təbrizdən Bakıya daşıdım ancaq.
Kimsəyə açmadım, ağır dözümnən,
Hələlik lazımdır geri qaytarmaq.

…Bu gün millətinin dayağı Sənsən,
Elimin çörəyi halalın olsun!

Dünyalar durduqca əsən dur, əsən!
Sənə göz dikmişdir bütün Vətənin! [3].

Bu şeirin özü belə Cənublu şairləri Heydər Əliyevə olan sonsuz inamının və etiqadının özündən və özülündən xəbər verir. Qeyd etmək lazımdır ki, Heydər Əliyev Cənubi Azərbaycan və Cənubi Azərbaycan ədəbiyyatı məsələsini hər zaman şəxsən özü nəzarətdə saxlamış və qayğı göstərmişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycana hələ sovet dövründə rəhbərlik etdiyi müddətdə Cənubi Azərbaycanın ədəbi mühitinin inkişafı üçün məqsədyönlü addımlar atmış Şimalda yaradıcılığını davam etdirən güneyli ədiblərimizin əsərlərinin nəşri, yayılması və təbliği üçün əlindən gələni etmişdir. Balaş Azəroğlunun, Mədinə Gülgünün təltif olunması da bunun bariz nümunəsidir. Heydər Əliyevin təşəbbüsü ilə 1981-ci ildə Balaş Azəroğlu "Xalq şairi" [5], 1987-ci ildə isə Mədinə Gülgün "Azərbaycan SSR əməkdar incəsənət xadimi" [6] adına layiq görülmüşlər. Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin yaradılması da Heydər Əliyevin cənub siyasətinin mühüm bir parçası olub, gələcəyə hesablanmış bir addım idi.

Ümummilli liderin Azərbaycanda xalqın təkidli tələbi ilə müstəqillik illərində yenidən ali hakimiyyətə qayıdışından sonra da bu istiqamətdə məqsədyönlü addımlar atılmışdır.

## Ədəbiyyat siyahısı:

1. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası: [üç cilddə] / tərt.ed. M.Mənafi, Z.Əkbərov, R.Qasımova, – Bakı: Elm, – c.1. – 1981. – 383 s.
2. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar) / tərt.ed. V.Quliyev – Bakı: Ozan, – 1999. – 496 səh.
3. Qaraçorlu B. Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə // Ədəbiyyat qəzeti. – 1974, 28 iyul. № 4 (5394) – s.7.
4. Qasımlı, M.C. Heydər Əliyev və Cənubi Azərbaycan // Azərbaycan. 2022, 8 dekabr. – s.8.
5. Qasımlı, M.C. Heydər Əliyev və Cənubi Azərbaycan // Azərbaycan. 2022, 10 dekabr. – s.6.
6. Mədinə Gülgün – Azərbaycan şairəsi, Azərbaycan SSR əməkdar incəsənət xadimi. 17 yanvar 2018, http://khatai.cls.az/more/text/58560
7. Səma, G. Sözümüz sözdür / G.Səma. – Bakı: Elm və təhsil, – 2019. – 359 s.

**Sabir Asadov**

## HEYDAR ALIYEV AND SOUTH AZERBAIJANI LITERATURE

**Summary:** The national leader Heydar Aliyev always focused on the art of words besides other fields of culture and did not spare his support for our national literature. Heydar Aliyev, who dedicated every moment of his meaningful life to his people and their well-being, development, recognition in the world arena, and their bright future, regardless of the circumstances, always treated literature and literary figures, scientists, master artists with special attention and care, and interested in current problems of poets and writers, took care of them, gave special instructions about them, and has helped as much as he could. If we glance at history, we witness that he stood guard over literature with trust and courage even in the first years of his authority.

In this article, we will talk about Heydar Aliyev's care and attention to delegates of South Azerbaijani literature

**Key words:** South Azerbaijan, Heydar Aliyev, National leader, literature, Bulud Qarachorlu Sahand, Balash Azeroghlu, Madina Gulgun, Soviet period, South Azerbaijani literature

**UOT 069.7**

**Zarema İbrahimova**
**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Kiçik elmi işçi**
**E-mail: zarema_ibrahimova@outlook.com**

# HEYDƏR ƏLİYEVİN NİZAMİ GƏNCƏVİ ADINA AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNƏ VERDİYİ YÜKSƏK DƏYƏR

**Nizami Gəncəvi adına Azərbaycan ədəbiyyatı Muzeyi nadir bir binadır, unikal bir muzeydir. Onu qorumaq, saxlamaq lazımdır.**
**Heydər Əliyev**

**Xülasə:** Məqalədə ulu öndər Heydər Əliyevin Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə verdiyi yüksək dəyərdən söhbət açılır. Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi H.Əliyevin daim diqqət mərkəzində olmuş və dəfələrlə bu muzeyi ziyarət etmişdir. H.Əliyevin çoxəsrlik Azərbaycan ədəbiyyatını əks etdirən Nizami muzeyinə ilk gəlişi də 1969-cu ilə təsadüf edir. Ümummilli liderin Nizami Muzeyinə ikinci gəlişi də 1981-ci ildə dahi Azərbaycan şair və mütəfəkkiri Nizami Gəncəvinin 840 illik yubileyi ilə bağlı idi. H.Əliyev Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyini 1990-cı ilin iyul ayında bir daha ziyarət edir. Lakin bu dəfə H.Əliyev Ədəbiyyat muzeyinə ölkə başçısı kimi deyil, adi vətəndaş kimi gəlir, öz böyük istəyi ilə, Azərbycan ədəbiyyatına, tarixinə, mədəniyyətinə olan sonsuz sevgisi ilə ekspozisiya zallarını seyr edir.
**Açar sözlər:** H.Əliyev, Ədəbiyyat muzeyi, C.Cabbarlı, Nizami Gəncəvi, yubiley, sərgi

Görkəmli siyasi xadim, Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev respublikamızın elm və mədəniyyətinin inkişafına daim böyük diqqət və qayğı göstərmişdir.

H.Əliyevin Azərbaycanın dövlət başçısı kimi hakimiyyətinin birinci mərhələsində (1969-1982-ci illər) Respublikada milli mədəniyyətin, ədəbiyyat va incəsənətin inkişaf etdirilməsində böyük xidmətləri var. Bu illərdə H.Əliyev Azərbaycanın bir çox görkəmli şəxsiyyətlərin ev muzeylərinin yaranması və açılışında yaxından iştirak etmişdir.

1945-ci ildə açılmış Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi H.Əliyevin daim diqqət mərkəzində olmuş və dəfələrlə bu muzeyi ziyarət etmişdir. H.Əliyevin çoxəsrlik Azərbaycan ədəbiyyatını əks etdirən Nizami muzeyinə ilk gəlişi də 1969-cu ilə təsadüf edir. Oktyabr ayının 10-nu görkəmli Azərbaycan dramaturqu, şairi və yazıçısı Cəfər Cabbarlının 70 illik yubileyi münasibəti ilə muzeyin indiki İstiqlal adlanan böyük zalında möhtəşəm sərgi təşkil olunmuşdur. Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, filologiya elmləri doktoru, professor Abbas Zamanov Cəfər Cabbrlının yubileyinə həsr olunmuş sərgini açıq elan etmişdir. Tədbirin açılışında çıxış edən xalq yazıçısı Suleyman Rəhimov söyləmişdir: “İndi biz Nizami muzeyinin yaradıcı kollektivinin çox böyük zəhməti ilə yaranan, Cəfər Cabbarlının 70 illiyinə həsr edilən onun həyat və yaradıcılığını ayrı-ayrı bədii lövhələrdə əks etdirən çox zəngin bir sərginin qarşısındayıq. Biz bu aləm, bu böyük büsat içində mənən sağ olan, özünün otuz beş yaşına girən gənc dramaturqu – böyük Cəfəri görürük... Ona ürəkdən alqış deyirik, ürəkdən Cəfərə min-min alqış deyirik”. Sərginin açılışında həmçinin şair Mədinə Gülgün də çıxış etmişdir [6, s.8].

Sərgi Cəfər Cabbarlının əsərindən “Mən bir susmaz duyğuyam ki, ürəkləri gəzərəm... “epiqrfı ilə başlayırdı. Sərgidə nümayiş olunan stenddə xalq şairi Səməd Vurğunun “Müasir dramaturgiyamızda Cabbarlı sənətinin məna gözəlliyi bu və ya digər şəkildə ifadə olunur” sözləri təqdim olunmuşdur.

Sərginin eksponatları yazıçının nadir istedadını əks edirdi. Burada Cəfər Cabbarlının “Oqtay Eloğlu”, “1905-ci il”, “Almas”, “Sevil”, “Od gəlini” pyeslərinin nüsxələri, rəssam T.Salahovun, T.Nərimanbəyovun, A.Cəfərovun, D.Kazımovun əsərləri, Cəfər Cabbarlının portretini əks etdirən görkəmli xalçaçı rəssam Lətif Kərimov tərəfindən toxunmuş xalça və digər eksponatlar nümayiş olunurdu. Sərgidə E.Rzaquliyevin, T.Sadığzadənin və digərlərinin hazırladığı rəngli monumental-dekorativ vitraj nümayiş olunurdu.

Həmin gün dövlət başçısı H.Ə.Əliyev və digər mötəbər qonaqlar sərgiyə baxmışlar.

Ulu öndər dahi Azərbaycan şairi Nizami Gəncəvi irsinə, nizamişünaslığın inkişafına xüsusi diqqət yetirmişdir. 9 yanvar 1979-cu ildə ulu öndər “Azərbaycanın böyük şairi Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında” adlı qərar qəbul edir. Respublikanın hər yerində, xüsusilə şairin vətəni Gəncə şəhərində hər il sentyabr ayının 15-i və 26-sı “Nizami poeziya günləri”nin böyük təntənə ilə keçirilməsi ənənə halını almışdı. Dahi şairin əsərlərinin külliyyatı həm bədii, həm də filoloji tərcümədə “Yazıçı” və “Elm” nəşriyyatları tərəfindən çap edilmişdir. H.Ə.Əliyev dahi Nizaminin 840 illik yubileyini dövlət səviyyəsində, böyük təntənə ilə keçirmək qərarına gəlir və böyük əzmkarlığı, cəsarəti və SSRİ rəhbərliyi qarşısında nüfuzu sayəsində bu arzusunu da həyata keçirməyə nail olur. Məlumdur ki, həmin dövrdə belə qərarların qəbul edilməsi üçün Sovet KP MK-nın razılığı vacib idi. 840 rəqəmi yuvarlaq olmadığı üçün Sovet hökuməti həmin yubileyin keçirilməsinə razılıq vermək istəmirdi. O zaman Kremldə “ikinci adam” hesab olunan, MK katibi vəzifəsində işləyən Mixail Andreyeviç Suslov Heydər Əliyevin qətiyyəti” qarşısında geri çəkilir və dahi Nizaminin 840 illik yubileyinin dövlət səviyyəsində keçirilməsinə razılıq verir [2, s.31].

Ümummilli liderin Nizami Muzeyinə ikinci gəlişi də 1981-ci ildə dahi Azərbaycan şair və mütəfəkkiri Nizami Gəncəvinin 840 illik yubileyi ilə bağlı idi. Muzeyin direktoru akademik Bəkir Nəbiyevin rəhbərliyi altında ənənəvi olaraq muzeyin böyük zalında yaradılmış yubiley sərgisinin açılışında ölkə rəhbəri H.Əliyev iştirak edirdi. Oktyabr ayının 6-da açılmış sərgidə Nizami Gəncəvinin yaradıcılığına həsr olunmuş rəngkarlıq əsərləri, miniatürlər, məşhur xalçaçı-rəssam Lətif Kərimovun rəhbərliyi altında “Xəmsə”nin əsasında toxunmuş beş nəfis süjetli xalça, şairin dövrünü, həyatını, onun xələfləri və sələfləri haqqında maraqlı məlumatlar əks etdirilmişdi. Sərgidə Azərbaycan SSRİ Elmlər Akademiyası Respublika Əlyazmaları Fondundan götürülən əlyazmaların və orta əsr miniatürlərinin zəngin kolleksiyasına xüsusi bölmə ayrılmışdır. Muzeyin direktoru filologiya elmləri doktoru B.Nəbiyev, muzeyin elmi işçisi, filologiya elmləri namizədi M.Mehdiyeva, Respublika Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru C.Qəhrəmanov Azərbaycan ədəbiyyatı klassikanın dünya şöhrətini sübut edən eksponatlar haqqında geniş məlumat verdilər. Sərgidə nümayiş olunan 1939-1940-cı illərdə Bakı toxuculuq fabrikində toxunmuş xalçaçı-rəssam Lətif Kərimovun rəhbərliyi ilə rəssamlar K.Kazımzadə, Q.Xalıqov, Ə.Hacızadə, M.Şirinovun yaratdıqları “Bayquşların söhbəti”, “Fərhad Bisütun dağını yararkən”, “Məcnun vəhşi heyvanlar arasında”, “Bəhramla Fitnə ovda”, “İskəndərlə Nüşabə gəzintidə” adlı 5 nəfis süjetli xalçalar H.Əliyevin diqqətini xüsusilə cəlb etmişdi [5, s.2].

H.Əliyev Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyini 1990-cı ilin iyul ayında bir daha ziyarət edir. Lakin bu dəfə H.Əliyev Ədəbiyyt muzeyinə ölkə başçısı kimi deyil, adi vətəndaş kimi gəlir, öz böyük istəyi ilə, Azərbycan ədəbiyyatına, tarixinə, mədəniyyətinə olan sonsuz sevgisi ilə ekspozisiya zallarını seyr edir. O, muzeyin bütün eksponatlarını böyük maraq və diqqətlə tamaşa edir və dahi Azərbaycan şair və mütəfəkkiri Nizami Gəncəviyə həsr olunmuş zalın vitrinlərində şairin əsərlərinin nəfis çap nüsxələri içində rus dilinə tərcümə olunmuş 5 çildlik “Xəmsə”ni görüb öz sevincini gizlədə bilmir. Ona görə ki, bu cildlərin nəşr edilməsi vaxtı ikən məhz H.Əliyevin böyük təşəbbüsü ilə həyata keçirilmişdi [3, s.106].

Nizami əsərlərinin dünya miqyasında nəşrinin keyfiyyəti məsələsi onu həmişə narahat edirdi. O, düz üç il sonra 1993-cü il sentyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasında ziyalılarla görüşdüyü zaman söyləmişdi: "....O zaman Mirzə İbrhimovdan və başqalarından xahiş etdim ki, Nizami Gəncəvinin əsərləri rus dilinə yenidən tərcümə edilsin...Nizaminin əsərlərini böyük çətinliklə Moskvada nəşr etdirdik. Sonra mən Bakıya gələrkən Nizami Muzeyinə getdim və gördüm ki, şairin beş əsərinin hamısı orada nümayiş etdirilir" [1, s.6].

Dünyada tanınan nüfuzlu siyasətçi, müdrik dövlət xadimi, vətənpərvər, millətini sevən rəhbər, Ulu Öndərin Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin foyesində ayrılmış guşədə heykəltəraş Natiq Əliyevin çox böyük məharətlə hazırladığı büst, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri ilə görüşlərindən, görkəmli ədiblərin yubiley tədbirlərindən və Molla Pənah Vaqifin 1982-ci ildə Şuşa şəhərində ucaldılmış məqbərəsinin açılış mərasimindən fotoşəkillər nümayiş olunur. Ədəbiyyat Muzeyinin dəyərli ziyarətçiləri ekspozisiya ilə tanış olmamışdan əvvəl bu nəfis guşəni sevə-sevə seyr edirllər.

**Ədəbiyyat siyahısı:**

2. Allahverdiyeva Z. "Heydər Əliyev və nizamişünaslıq", "Azərbaycan" qəzeti. 2021. 12 dekabr.
3. Apoyev B. "Heydər Əliyev və Nizami Gəncəvi". Bakı 2020.
4. Mehdiyeva M. "Heydər Əliyev və Azərbaycanda muzey işi", Nizami Gəncəvi adına Azərbaycan ədəbiyyatı muzeyinin əsərləri. Bakı 2001.
5. Süleyman Rəhimov "Ürəklər Fatehi", "Ədəbiyyat və incəsənət" qəzeti. 1969. 18 oktyabr.
6. "Yubiley səgilərində" "Ədəbiyyat və incəsənət" qəzeti. 1981. 9 oktyabr.
7. "Yubiley sərgisi", "Ədəbiyyat və incəsənət" qəzeti. 1969. 18 oktyabr.

**Zarema Ibrahimova**

## HIGH VALUE GIVEN BY HAYDER ALIYEV TO THE MUSEUM OF AZERBAIJAN LITERATURE NAMED AFTER NIZAMI GANJAVI.

**Summary:** The article talks about the high value given by the great leader Heydar Aliyev to the Azerbaijan Literature Museum named after Nizami Ganjavi. Azerbaijan Literary Museum named after Nizami Ganjavi was always at the centre of H. Aliyev's attention and he visited this museum many times. H. Aliyev's first visit to the Nizami museum, which reflects centuries-old Azerbaijani literature, coincides in 1969. The national leader's second visit to the Nizami Museum was also connected with the 840th anniversary of the great Azerbaijani poet and thinker Nizami Ganjavi in 1981. H. Aliyev visited the Azerbaijani Literature Museum on behalf of Nizami Ganjavi in July 1990. However, this time, H. Aliyev is coming to the Literary Museum not as the head of the country, but as an ordinary citizen, watching the exhibition halls with his great desire and his endless love for Azerbaijani literature, history, and culture.

**Key words:** H. Aliyev, Museum of Literature, J. Jabbarli, Nizami Ganjavi, jubilee, exhibition

**UOT 008**

**İnarə Səfiyeva**
**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi,**
**Elmi işçi**
**E-mail: safiyeva.i@mail.ru**

# HEYDƏR ƏLİYEVİN MƏDƏNİ İRSİMİZİN QORUNMASINDA ROLU

**Xülasə:** Ümummilli lider H.Əliyevin Azərbaycana rəhbərliyə başladığı zamandan respublikamızın bütün sahələrində davamlı inkişaf dövrünə qədəm qoyması ilə nəticələnmiş. Maddi-mədəni zənginliklərə sahib olan Azərbaycan həmin vaxta qədər keçmiş ittifaqda sıradan bir respublika idi. Zənginliyini lazımi səviyyədə ortaya çıxarmaq, reallıqları düzgün qiymətləndirmək zəruri idi. O cümlədən mədəni mirasımız, ədəbiyyat və incəsənətimiz özünün gerçək himayədarını gözləyirdi. H.Əliyev mədəniyyətin bir çox sahələrinə xüsusi qayğı göstərmiş və dünyaya tanıdan rəhbər olmuşdur. Azərbaycanda muzey işinin inkişafı da Heydər Əliyevin adı ilə bağlıdır.

**Açar sözlər:** Heydər Əliyev, mədəni irs, mədəniyyət və incəsənət, Azərbaycan ədəbiyyatı, Azərbaycan muzeyləri

Tarixdə, sadəcə yaşadığı dövrə deyil, özündən sonraya da möhürünü vurmuş, tarixi prosesləri istiqamətləndirməyi bacarmış insanların yeri hər zaman müstəsnadır. Böyük siyasətçi və dövlət adamı ulu öndər Heydər Əliyevin adı, imzası yarım əsrdir ki, tariximizdə bu cür müstəsna yerə sahibdir.

Ümummilli lider H.Əliyevin Azərbaycana rəhbərliyə başladığı zamandan respublikamızın bütün sahələrində davamlı inkişaf dövrünə qədəm qoyması ilə nəticələnmiş. Maddi-mədəni zənginliklərə sahib olan Azərbaycan həmin vaxta qədər keçmiş ittifaqda sıradan bir respublika idi. Zənginliyini lazımi səviyyədə ortaya çıxarmaq, reallıqları düzgün qiymətləndirmək zəruri idi. O cümlədən mədəni mirasımız, ədəbiyyat və incəsənətimiz özünün gerçək himayədarını gözləyirdi.

Mədəniyyət və incəsənət, eləcə də ədəbiyyat təbii şəkildə inkişaf edən sahələrdir. Bu inkişaf bütün yaradıcılıq sahələri təmsilçilərinin azad özünüifadəsi ilə reallaşa bilən bir prosesdir. Lakin sovet rejiminin möhkəm bərqərar olduğu respublikada bu cür meyllərin ortaya çıxıb reallaşması qeyri-mümkün idi. Amma Heydər Əliyev kimi bir dahi şəxsiyyətin səriştəsi və millət sevgisi sayəsində ölçüyəgəlməz işlər görülməyə başlandı. Ölkə həyatının bütün sahələrini əhatə edən bu inkişafdan ən çox fayda görən isə Azərbaycan mədəniyyəti idi. Ümumiyyətlə ulu öndər Heydər Əliyevin idarəetmə sistemində mədəniyyət sahəsi məxsusi yer tuturdu. Bunun da əsasında onun mədəniyyət və incəsənətə böyük sevgisi dayanırdı.

Xalqımızın adət-ənənələrini, mədəni irsini müqəddəs hesab edən H.Əliyev özünü bu zəngin mədəniyyətin ayrılmaz hissəsi saymış və millətin gələcək inkişafı üçün çalışmışdır. O, deyirdi: "Mənim həyat amalım, bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib" [4].

H.Əliyev mədəniyyətin bir çox sahələrinə xüsusi qayğı göstərmiş və dünyaya tanıdan rəhbər olmuşdur. Azərbaycanda muzey işinin inkişafı da Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizdə 1969-cu ilədək 29 muzey fəaliyyət göstərmişdisə, onun rəhbərliyi dövründə 111 müxtəlif profilli muzeylər yaradılmışdır. H.Əliyev çıxışlarında muzeylərin vacibliyini vurğulayırdı: "Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır".

Ulu öndər Azərbaycanda ilk dəfə görkəmli ədəbiyyat və incəsənət xadimlərinin memorial ev-muzeylərinin yaradılması fikrini irəli sürmüş. Onun təşəbbüsü ilə ilk belə ev-muzeylərdən biri Üzeyir Hacıbəyovun ev-muzeyidir. 1975-ci il noyabr ayının 20-də dahi bəstəkarın 90 illik yubileyi günlərində Şamil Əzizbəyov küçəsi, ev 69-da (keçmiş Ketsxoveli küçəsi 67) ədibin ev-muzeyi qonaqlarını qəbul etmiş. Bəstəkar 1915-ci ildən 1942-ci ilədək Bakının bu sakit küçəsində birmərtəbəli binada yaşamış, ev-muzeyi beş otaq və şüşəbənddən ibarətdir. Muzeyin iki otağı memorial, üç otağı isə bəstəkarın yaradıcılığının müxtəlif mərhələlərindən bəhs edir. Xatirə ev-muzeyinin açılışı münasibətilə keçirilən təntənəli yığıncaqda H.Əliyev də iştirak etmişdir. Bu istiqamətdə atılan növbəti addım Ü.Hacıbəyovun səmimi dostu, onun böyük istedadına dərin ehtiram bəsləyən alovlu nəğməkar, Azərbaycanın ilk xalq şairi Səməd Vurğunla bağlı oldu. 6 oktyabr 1975-ci ildə Səməd Vurğunun 70 illik yubileyi ərəfəsində Bakıda şairin yaşadığı mənzildə böyük təntənə ilə onun ev-muzeyi açıldı. Ümumi sahəsi 200 $m^2$ olan muzey şairin həyatının son illərində yaşadığı XIX əsrin sonlarında tikilmiş yaşayış binasının üçüncü mərtəbəsində yerləşir. Muzeyin açılışında görkəmli şairlər, yazıçılar, mədəniyyət xadimləri iştirak etmişlər.

İyirmi bir il sonra isə Heydər Əliyev şairin 90 illik yubileyi ərəfəsində 1997-ci ilin mart ayının 6-da ev-muzeyini ziyarət etmiş, bu illər ərzində daim fəaliyyətdə olduğundan çox məmnun olduğunu bildirən dövlət başçısı onun xalqımıza, mədəniyyətimizə xidmət etdiyini vurğulayaraq demişdir: “Bu muzeyi biz ölkəmizə ziyarətə gələn insanlar üçün gözəl bir nümunə kimi göstəririk ki, xalqımız nəyə malikdir, nəyə qadirdir, xalqımızın milli sərvətləri nədən ibarətdir. Gəlib həm bu muzeyi görənlər buradakı bu kitabları oxuyan, onlarla tanış olanlar xalqımızı daha da dərindən tanıyacaqdır” [4].

H.Əliyevin şəxsi təşəbbüsü və böyük köməkliyi sayəsində Mərdəkanda açılmış rus şairi Sergey Yeseninin memorial muzeyidir. Bu muzeyin yaradılması haqqında qərar 1974-cü il 10 sentyabr tarixində qəbul olunmuş, açılışı isə şairin 80 illik yubileyi ilə əlaqədar 1975-ci ilin oktyabr ayına təsadüf etmişdir. Muzeyin ümumi sahəsi 130,24 $m^2$-dir. Ekspozisiya bir zal və 2 otaqdan ibarətdir.

Azərbaycanda muzeylərin yaradılmasını çox vacib hesab edən ulu öndər bu işi dövlət səviyyəsinə qaldıraraq 1976-cı ildə xüsusi qərarla rəsmiləşdirdi. Belə ki, Azərbaycanda SSR KP MK və Azərbaycan SSR Nazirlər Soveti 1976-cı il iyun ayının 16-da Azərbaycanın görkəmli ədəbiyyat və incəsənət xadimlərinin xatirə muzeylərinin yaradılması haqqında 223 saylı qərar qəbul edilmişdir. Həmin qərara əsasən ilk dəfə beş muzeyin – M.S.Ordubadinin, C.Məmmədquluzadənin, C.Cabbarlının, Bülbülün və Ə.Əzimzadənin ev-muzeylərinin açılması nəzərdə tutulmuşdu.

Hər zamankı kimi ümummilli lider Heydər Əliyev 1972-ci ildə görkəmli yazıçı-publisist M.S.Ordubadinin 100 illik yubileyi münasibəti ilə Ordubad şəhərində bir zamanlar yaşadığı ata ocağı ev-muzeyinə çevrilmiş, 1976-cı ildə verilən qərara əsasən isə 1979-cu il noyabr ayının 1-də Bakıda ədibin yaradıcılıq yadigarlarının məkanında xatirə ev-muzeyi yaradılmışdır. Muzey yazıçının 1938-ci ildən ömrünün sonuna, yəni 1950-ci il may ayının 1-ə qədər yaşayıb yaratdığı mənzildə açılmışdır.

1982-ci il mart ayının 23-də müasir Azərbaycan dramaturgiyasının banisi, görkəmli şair, teatrşünas, nasir Cəfər Cabbarlının ev-muzeyinin açılışı ədibin 80 illik yubileyi ərəfəsində baş vermişdir. Muzey Bakının Yuxarı Dağlıq məhəlləsində İsmayılbəy Qutqaşınlı küçəsində dramaturqun yaşadığı 44 №-li evdə 200 $m^2$-lik sahəni əhatə edən yeddi otaqdan ibarətdir. Elə həmin gün Bakı şəhərinin 28 May metrosunun yaxınlığında heykəltəraş M.Mirqasımovun hazırladığı C.Cabbarlının əzəmətli heykəlinin də açılışı baş tutmuş. Mərasimdə Heydər Əliyev, digər dövlət və hökumət rəhbərləri, xarici qonaqlar, mədəniyyət xadimləri iştirak etmişlər. H.Əliyev ev-muzeyinin açılışında dramaturqa olan hörmətini belə ifadə etmişdir: “Cəfər Cabbarlının adı Azərbaycan dramaturgiyasının, səhnə sənətinin və kinematoqrafiyanın təşəkkülü və inkişafı ilə qırılmaz surətdə bağlıdır. Doğma xalqının nəğməkar oğlu olan C.Cabbarlı əsl beynəlmiləlçi idi, özünün bütün ilhamlı yaradıcılığı ilə xalqların dostluğu və qardaşlığı ideyalarını bərqərar edirdi” [3].

Ulu Öndərin müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoymuş. Bu sahədə qanunvericilik bazası yaradılmışdır. Bu dövrdə 2000-ci il martın 24-də "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri, muzeylərin hüquqları, muzey fondları, muzeylərə dövlət qayğısı və nəzarəti artırılmışdır.

Azərbaycan xalqının görkəmli ictimai xadimi, yazıçı-jurnalist, Şərqdə ilk satirik jurnal olan "Molla Nəsrəddin"in yaradıcısı və 25 illik nəşri dövründə redaktoru olmuş Cəlil Məmmədquluzadənin ev-muzeyinin yaradılması ilə bağlı qərarı H.Əliyev 1976-cı ildə vermişdi. Muzeyin yaradılması ədibin həyatının son on ilini yaşadığı Süleyman Tağızadə küçəsindəki 56 №-li evdə, XIX əsrin ortalarında tikilmiş tarixi mədəniyyət abidəsi olan binada nəzərdə tutulmuşdu. 1981-ci ildə isə böyük şair-dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illiyi ilə əlaqədar Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin imzası ilə Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin xatirə muzeylərinin yaradılması haqqında qərar qəbul edilmişdir. Lakin hər iki ədibin ev-muzeylərinin yaradılması bir sıra səbəblər üzündən qərarlar kağız üzərində qalmışdı. Yalnız ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra, onun şəxsi qayğısı, diqqəti nəticəsində və onun özünün iştirakı ilə 1994-cü il dekabrın 28-də Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illik yubileyinin təntənələri ərəfəsində nasirin ev-muzeyinin açılışı baş tutmuş. Bir il sonra isə Azərbaycan prezidenti H.Əliyevin yanında müşavirə keçirildikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 10 iyul 1995-ci il 160 №-li qərarı ilə M.Füzuli adına Azərbaycan Dövlət Əlyazmalar İnstitutunun yerləşdiyi binanın üçüncü mərtəbəsində, yəni şairin 1920-ci ildən 4 iyun 1937-ci ilə qədər yaşadığı və əsərlərinin əksəriyyətini yaratdığı mənzildə ev-muzeyi təşkil olunması haqqında sərəncam vermiş. Muzey ilk qonaqlarını 2002-ci il oktyabr ayının 24-də qəbul etdi. Ev-muzeyinin ümumi sahəsi 245 $m^2$ sahəsi olan dörd otaqdan ibarətdir.

Azərbaycan dövlətinin memarı və qoruyucusu ulu öndər Heydər Əliyev bütün həyatını xalqımızın hərtərəfli inkişafına və çiçəklənməsinə, mədəniyyətimizin və incəsənətimizin bütün dünyada tanınması sahəsində misilsiz xidmətlər göstərmişdir.

**Ədəbiyyat siyahısı**

1. Bakının Ədəbiyyat Muzeyləri. Bələdçi. AMEA N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi. B. 2002
2. Bayramov A. Sənət, Sənət məbədləri, Sənət fədailəri. B. 2015
3. Əfəndiyev T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. B. 2011
4. Mehdiyeva M. Heydər Əliyev və Azərbaycanda muzey işi. Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin əsərləri. Cild 10, B., 2001

**Inara Safiyeva**

**HAYDER ALIYEV'S ROLE IN PROTECTING OUR CULTURAL HERITAGE**

**Summary:** National Leader H. Aliyev has entered a period of continuous development in all areas of our republic since he started leading Azerbaijan. Possessing material and cultural wealth, Azerbaijan was an ordinary republic in the former union until that time. It was necessary to reveal its wealth at the appropriate level, to correctly assess the realities. Including, our cultural heritage, literature and art were waiting for their real patron. H. Aliyev paid special attention to many areas of culture and became a leader who introduced them to the world. The development of museum work in Azerbaijan is also connected with the name of Heydar Aliyev.

**Key words:** Heydar Aliyev, cultural heritage, culture and art, Azerbaijani literature, Azerbaijani museums

**UOT 74**

**Vəfa Yüzbaşıyeva**
**Odlar Yurdu Universiteti,**
**baş müəllimi**
**E-mail: kenanvefainci@mail.ru**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RƏSSAMLARI

**Xülasə:** Heydər Əliyev hələ sovet dövründə Azərbaycanda mədəniyyətin maddi-texniki bazasının möhkəmlənməsinə xüsusi diqqət yetirirdi. Belə ki, bir çox mədəniyyət mərkəzləri, muzeylər inşa olunurdu. Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edir, mədəni-mənəvi dəyərlərin qorunması, təbliği, yeni estetik düşüncəyə malik əsərlərin yaradılması üçün şərait yaradırdı. Heydər Əliyevin vaxtilə rəssamlıq təhsili alması sonralar onun fəaliyyətində yüksək yaradıcılıq əzmini, qurub-yaratmaq şövqünü həmişə qüvvətləndirirdi. Azərbaycanın tanınmış sənət adamlarına göstərdiyi diqqət və qayğı, yaradıcı şəxslərlə yaxın dostluq əlaqələri Heydər Əliyevə böyük sənət adamları arasında dərin hörmət və nüfuz qazandırmışdı.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan mədəniyyəti, təsviri sənət, rəsm, rəssamlıq

Azərbaycan mədəniyyət xadimləri üçün yubileylərin keçirilməsi, ev muzeylərinin təşkili, əsərlərinin hazırlanması, dünya dillərinə tərcümə olunub yayılması üçün Heydər Əliyevin gördüyü tədbirlər neçə-neçə tədqiqatların mövzusu ola bilər. Təsviri sənətimiz, heykəltəraşlıq və rəssamlığımız, xalça sənətimiz bugünkü inkişafında onun dəyərli ideyalarından bəhrələnib. Ulu öndər çıxışları zamanı söyləyirdi: "Milli dövlətçilik dəyərlərinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir. Sabahkı uğurlara yeganə təminat isə sağlam cəmiyyət quruculuğuna diqqət artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaqdır".

Heydər Əliyev hələ sovet dövründə Azərbaycanda mədəniyyətin maddi-texniki bazasının möhkəmlənməsinə xüsusi diqqət yetirirdi. Belə ki, bir çox mədəniyyət mərkəzləri, muzeylər inşa olunurdu. Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edir, mədəni-mənəvi dəyərlərin qorunması, təbliği, yeni estetik düşüncəyə malik əsərlərin yaradılması üçün şərait yaradırdı. Heydər Əliyevin vaxtilə rəssamlıq təhsili alması sonralar onun fəaliyyətində yüksək yaradıcılıq əzmini, qurub-yaratmaq şövqünü həmişə qüvvətləndirirdi. Azərbaycanın tanınmış sənət adamlarına göstərdiyi diqqət və qayğı, yaradıcı şəxslərlə yaxın dostluq əlaqələri Heydər Əliyevə böyük sənət adamları arasında dərin hörmət və nüfuz qazandırmışdı.

Ulu öndərin portretini yaratmış fırça ustaları içərisində dünya şöhrətli rəssamımız Tahir Salahovun xüsusi yeri var. Sənətkarın ulu öndər təsvir olunan, yağlı boya ilə işlənmiş iki portret əsəri daha məşhurdur. Hər iki əsər rəssamın yaradıcılığına xas olan canlı, emosional üslub tərzinə, yüksək peşəkarlığa, zəngin, kontrastlı kolorit həllinə malikdir. Heydər Əliyev yaşadığı dövrün siyasi durumundan asılı olmayaraq, Azərbaycan incəsənətinin, bütövlükdə mədəniyyətimizin rifahı naminə səmərəli işlər həyata keçirib. Dahi siyasətçi Azərbaycan mədəniyyətinin inkişafına töhfə verən sənətkarların həmişə qayğısına qalıb. Təsadüfi deyil ki, respublikamızın ayrı-ayrı yerlərində Azərbaycanın görkəmli şəxsiyyətlərinin heykəllərinin qoyulması Heydər Əliyevin rəhbərliyi dövrünə aiddir.

Akademik İsa Həbibbəylinin sözləri ilə desək, "Heydər Əliyev yaşadığı dövrün siyasi quruluşunun sərt qadağalarına baxmayaraq Azərbaycan anlayışına geniş müstəvidə baxışlar sistemi formalaşdırmışdır" [2, s.16]. Ümummilli lider özü də bu barədə qeyd edirdi ki, "Mənim işlədiyim həmin illərdə milli mədəniyyətimizə, tariximizə aid olan bir çox tədbirlərin həyata keçirilməsinə Moskvanın qadağalarını, hətta müqavimətini hiss etmişdik" [3 s.17].

Heydər Əliyev heç vaxt rəssamları zamanın sərt sınağa çəkməsinə imkan verməyib. Ulu öndər rəssamlar üçün Prezident təqaüdü təyin etmişdi. Rəssamların əsərlərin satın alınmasına görə müəyyən olunmuş qonorarların həcmini artırmış, yaradıcılıq ezamiyyətləri, xarici ölkələrdə sərgilərin sayının çoxalmasına görə göstərişlərini vermişdir. Bir sözlə, təsviri sənət sahəsində çalışanlara yönəli imzalanan hər bir qərar və sərəncamlar bütünlükdə Azərbaycan incəsənətinin yaşamasına, daha da inkişafına və beynəlxalq təbliğinə köklənmişdi.

Rəssamların yeni nəslinin yetişməsi həmişə ölkə başçısının diqqət mərkəzində olan məsələlərdən idi. Bakıda Rəssamlıq Kolleci və Mədəniyyət və İncəsənət Universiteti mövcud olsa da o, uzun illər idi ki, ali təhsil ocağının açılmasını arzulayırdı. Nəhayət, bu istəyini 2000-ci ildə gerçəkləşdirə bildi. Həmin ildən fəaliyyətə başlayan Azərbaycan Dövlət Rəssamlıq Akademiyası ötən bu müddətdə yetişdirdiyi istedadlı tələbələrlə yaradıcı nəsillər arasında mənəvi körpünün artıq arzulanan səviyyədə möhkəmləndirildiyini nümayiş etdirməkdədir.

Heydər Əliyev yaradıcı adamların Azərbaycan incəsənətinə verdiyi bədii töhfələri dəyərləndirməyi də önəmli hesab edirdi. Onun ölkəyə rəhbərlik etdiyi müddətdə yüzlərlə fırça və tişə ustası fəxri adların daşıyıcısı olmuş, onlarla yaradıcı isə Dövlət mükafatına layiq görülmüşdür. Sənətkarların milli mədəniyyətimizin inkişafı naminə göstərdiyi xidmətlər də Heydər Əliyevin nəzərindən qaçmamış və onların xatirəsi layiqincə əbədiləşdirilmişdir. Bu gün Bakının və digər yaşayış məntəqələrinin küçələri Sultan Məhəmməd, Ə.Əzimzadə, S.Bəhlulzadə, K.Kazımzadə, T.Şıxəliyev, S.Salamzadə və b. sənətkarların adını daşıyır. Onların yaşadıqları binaları xatirə lövhələri bəzəyir. Paytaxtda və Əmircan qəsəbəsində Ə.Əzimzadə və Bəhlulzadənin abidlərinin ucaldılması və ev-muzeylərinin təşkili də bu görkəmli sənətkarların xatirəsinə hörmətin nümunəsidir.

Ulu Öndərin 1994-cü ildə dünya şöhrətli xalq rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 85 illiyinə həsr edilmiş təntənəli yubileyinin keçirilməsi ilə bağlı imzaladığı sərəncam onun rəssamlara olan diqqət və qayğısını bir daha göstərirdi. Görkəmli fırça ustasının yaradıcılıq yolunu gözəl təhlil edən H.Əliyev sonda demişdi: "Biz Səttar Bəhlulzadənin yubileyini qeyd edərkən bütün incəsənət xadimlərinə, rəssamlarımıza öz hörmət və ehtiramımızı göstəririk. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, XX əsrdə Azərbaycan rəssamlıq məktəbi, Azərbaycan rəssamları dünya miqyasında görkəmli yer tutmuşlar. Bunu bütün dünya rəssamlarının işləri ilə tanış olan bir adam kimi, onlarla müqayisə edərək tam əsaslı deyə bilərəm. Biz bununla fəxr edirik. Bütün rəssamlarımızın əsərlərinə qayğı ilə yanaşmalıyıq və gözəl əsərlər yaratmalarına şərait təmin etməliyik" [1, s.3].

Müasir Azərbaycanın yaradıcısı olan Heydər Əliyevin dövlətçilik siyasətində cəmiyyət həyatının bütün sahələri nəzərə alınsa da, ulu öndər ölkədə təsviri incəsənətin inkişaf etdirilməsi işinə xüsusi diqqət yetirmiş, istər 1970-1982-ci illərdə, istərsə də 1993-cü ildən sonra təsviri incəsənətə qayğını dövlətçilikdə prioritet səviyyəyə qaldırmışdır. O, ölkə rəssamlarının, heykəltəraşlarının daha ciddi uğurlara imza atmaları üçün dövlət səviyyəsində hər cür şəraitin yaradılmasını vacib və gərəkli bilirdi. Azərbaycan mədəniyyətinin, incəsənətinin bilicisi olan Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi dövrlərdə daim rəssamların, heykəltəraşların, memarların yaradıcılığını yüksək qiymətləndirib. Tahir Salahov, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Ömər Eldarov, Lətif Kərimov, Kamil Əliyev kimi yaradıcı insanlarla söhbətlərində o, Azərbaycan təsviri incəsənətinin real vəziyyəti və gələcək inkişaf perspektivlərinə dair konkret müddəalar irəli sürmüşdür. Dahi rəhbər Heydər Əliyev bütün həyatı boyu Azərbaycan mədəniyyətinin, o cümlədən Azərbaycan təsviri incəsənətinin ən fədakar təbliğatçısı missiyasını sevə-sevə həyata keçirmişdir. Ulu Öndərin şəxsi və rəsmi təşəbbüsü ilə Tahir Salahova hələ 1973-cü ildə vaxtilə sovetlərin ən üstün mükafatlarından biri olan SSRİ Xalq rəssamı fəxri adı verilmişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycanın bütün dünyaya tanıdılması işində görkəmli rəssamların, memarların, heykəltəraşların əsərlərini mühüm vasitə kimi dəyərləndirmişdir. Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafı naminə sənət adamlarının yaradıcılıq əlaqələrinin genişləndirilməsinə xüsusi

önəm vermişdir. Təsadüfi deyildir ki, SSRİ Rəssamlıq Akademiyasının 1981-ci il tarixli qurultayı Bakıda keçirilmişdir. Qurultayda çıxış edən Heydər Əliyev Azərbaycan rəssamı qarşısında dövlətçiliyə, xalqa, ölkəyə xidmət baxımından ciddi vəzifələr qoymuşdur. Həmçinin o, mədəniyyət sahəsində yüksək ixtisaslı kadr potensialının formalaşdırılması məsələsinə də xüsusi diqqət yetirmişdir. Faktdır ki, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası 2000-ci ildə məhz dahi rəhbərin təşəbbüsü və dəstəyi ilə fəaliyyətə başlamışdır.

1973-cü ildə Səttar Bəhlulzadə əsərinə Dövlət mükafatı verməklə Heydər Əliyev Azərbaycan sənət adamının daim dövlət qayğısı ilə əhatə olunacağını elan edirdi. Bu gün fəxrlə deyə bilərik ki, dünya rəssamlığı və heykəltəraşlığının ən qiymətli sənət inciləri sırasında Ulu Öndərə həsr olunmuş örnəklər fəxri mövqe tutmaqdadır.

Heydər Əliyevin hakimiyyəti illərində Naxçıvan rəssamlığı, memarlığı və heykəltəraşlığı sözün həqiqi mənasında, özünün intibah dövrünü yaşamışdır. 1971-ci ildə Naxçıvan Rəssamlar Təşkilatı məhz dahi rəhbərin təşəbbüsü və sərəncamı ilə yaradılmışdır. Məhz həmin dövrdə bölgədə Mikayıl Abdullayevin, Maral Rəhmanzadənin, Elmira Şahtaxtlının, Rəcəb Rəcəbovun, Şəmil Mustafayevin, Sabir Qədimovun yaradıcılıq sərgiləri keçirilmiş, muxtar respublikanın mədəni həyatında yeni bir mərhələnin əsası qoyulmuşdur.

Belə ki, təsviri sənət ustalarımızın beynəlxalq miqyasda tanınmalarına – onların yaratdıqları gözəl sənət nümunələri ilə yanaşı, doğma Azərbaycanımıza Heydər Əliyev kimi sənətə və sənətkara dəyər verən görkəmli bir şəxsiyyətin rəhbərlik etməsi zəmin yaradıb. Odur ki, onun vaxtilə gördüyü bütün xeyirxah işlər incəsənətimizin inkişafına, bütünlükdə isə Azərbaycanımızın tanınmasına və təbliğinə xidmət etdiyi üçün o, zaman-zaman xatırlanacaq, heç vaxt yaddan çıxmayacaqdır. Onun milli mədəniyyət tariximizə saldığı izlər də bu mənada silinməz və əbədidir.

### Ədəbiyyat siyahısı:

1. Cəfərli Toğrul. Təsviri sənətimizin əzmkar və yenilməz müdafiəçisi. 13 dekabr 2017. “Kaspi” qəzeti, s.3.
2. Həbibbəyli İ.Ə. Azərbaycançılıq idealına sədaqət nümunəsi // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri. Xüsusi buraxılış. 2013, s.16.
3. Qətiyyətin təntənəsi. Sənədli xronika. Bakı, 1995, s.438.

**Vafa Yuzbaşyeva**

## HAYDER ALIYEV AND AZERBAIJAN ARTISTS

**Summary:** Even in the Soviet era, Heydar Aliyev paid special attention to strengthening the material and technical base of culture in Azerbaijan. So, many cultural centres and museums were built. Heydar Aliyev considered culture to be a great wealth of the people, he created conditions for the protection and propagation of cultural and spiritual values, and the creation of works with new aesthetic thinking.

The fact that Heydar Aliyev received art education at the time always strengthened his high creative determination and zeal to create in his activities. The attention and care shown to well-known artists of Azerbaijan, and their close friendships with creative people earned Heydar Aliyev deep respect and prestige among great artists.

**Key words:** Heydar Aliyev, Azerbaijani culture, fine art, drawing, painting

**UOT 008**

**Ellada Hajiyeva**
**Azerbaijan Technical University,**
**Senior Lecturer**
**E-mail: ellada.gadjieva@mail.ru**

# HEYDAR ALIYEV AND THE AZERBAIJANI MODEL OF MULTICULTURALISM

**Key wods:** Heydar Aliyev, Azerbaijan, Ilham Aliyev, multıculturalısm

The founder of the modern Azerbaijani state, the former president of our republic, the late Heydar Aliyev played an indispensable role in the development and progress of our country. Heydar Aliyev, one of the founders of Azerbaijanism, did an important job of preparing, promoting and disseminating the idea of Azerbaijanism. It goes without saying that Heydar Aliyev saw the multinational, multi-confessional population of Azerbaijan, as well as Azerbaijanis living abroad, in Azerbaijanism.

Heydar Aliyev and the Azerbaijani model of multiculturalism will serve as an example from time to time. It is known that multiculturalism has deep roots in Azerbaijan, and the role of Heydar Aliyev in this area should be emphasized. Experts note that the merits of Heydar Aliyev in the formation of the traditions of multiculturalism in our country and the creation of this model are multifaceted. Kamal Abdullayev, State Counselor for Interethnic, Multiculturalism and Religious Affairs, in one of his speeches stated that Heydar Aliyev chose a clear ideological goal for the future successful development of Azerbaijan. He emphasized that Heydar Aliyev, with his far-sighted and wise policy, developed the centuries-old tradition of Azerbaijani multiculturalism and raised it to a qualitatively new level: “The great leader clearly said this in his speech at the international religious conference “Peace and Tolerance”, held in Istanbul in 1994 ."

Regarding multiculturalism in Azerbaijan, Heydar Aliyev said: “Citizens of Azerbaijan, regardless of their religious, racial, political or linguistic affiliation, all have the same rights, and their rights are protected by Azerbaijan. You can be sure that we will always be loyal to these goals and principles, and in the future we will not allow the citizens of Azerbaijan to come into conflict, regardless of their religious, linguistic or political affiliation.”

The most important point in the state's protection of multicultural traditions in Azerbaijan is the reflection of this issue in legal documents, including the Constitution, at the initiative of national leader Heydar Aliyev. Thus, the principle of tolerance, which underlies the policy of multiculturalism, is enshrined in a number of articles of the Constitution. Therefore, Heydar Aliyev can be considered the political founder of Azerbaijani multiculturalism. The great leader Heydar Aliyev, first of all, demonstrated to the whole world that the political model of Heydar Aliyev is superior to other models, such as assimilation and isolation. “The multi-ethnic composition of the population of Azerbaijan is our wealth and advantage, we value it and will protect it”, said the great leader, directing all his subsequent political activities to make this wealth eternal.

Under the leadership of the national leader Heydar Aliyev, President Ilham Aliyev is successfully developing the political direction in the field of protection and development of the multicultural traditions of the Azerbaijani people in our country. In the implementation of this policy, special importance is attached to cooperation with the UN, OSCE, Council of Europe, European Union, Organization of Islamic Cooperation and other influential international organizations. The Heydar Aliyev Foundation implements important projects related to the preservation and promotion of multicultural traditions of Azerbaijan. Special mention can be made of the projects "Expanding the

role of women in intercultural dialogue", "The role of cultures in globalization", "Peaceful coexistence in a multicultural world", and "Azerbaijan - a place of tolerance" initiated by the president of the foundation, UNESCO and ISESCO goodwill ambassador Mehriban Aliyeva. ".

The State Counselor said that in modern times Azerbaijan is an example for the countries of the world, including for Western countries, known for their rich experience in this area, their policy of multiculturalism and their achievements in this area.

“Over these years, Azerbaijan has made a great contribution to the development of multiculturalism in the world,” President of the Republic of Azerbaijan Ilham Aliyev said.

It is clear that for centuries, representatives of all cultures, religions and ethnic groups lived as one family in peaceful conditions in Azerbaijan. President of the Republic of Azerbaijan Ilham Aliyev said: “I believe that this is one of our greatest assets. We are proud of this and hold various international events to promote the values of multiculturalism, peace, cooperation and mutual understanding.”

Let us emphasize that adherence to the ideas of multiculturalism, such as tolerance, has always been strong in Azerbaijan and remains the same today. Azerbaijaniism and multiculturalism, which bring people closer together, unite people for the sake of peace, stability, kindness, and mutual respect, are very important values in Azerbaijan. The researchers note that after Heydar Aliyev returned to power in 1993, at the insistence of the people, he called on the people to “preserve our sovereignty and state independence forever, regardless of where he or she lives, today, every Azerbaijani is required to have unity of deeds and beliefs, unshakable solidarity around the holy rock of Azerbaijan.” In a word, the ideology of Azerbaijanism, laid down by the great leader Heydar Aliyev, is a general historical experience of the harmony of national life, the peaceful coexistence of confessions, the interaction and influence of all ethnic groups living in the country, their common destiny and the joint struggle for the integrity, development and prosperity of the future of independent Azerbaijan.

The formation and organization of Azerbaijanis around a single idea remains relevant in all congresses of world Azerbaijanis held in Baku, in events that serve to strengthen the relations of friendship, brotherhood and cooperation between Turkish states and societies, and in summit meetings of the heads of state of Turkic-speaking countries.

As our esteemed President Ilham Aliyev stated at the III Congress of World Azerbaijanis, our commitment to national values is an expression of the will of the Azerbaijani people. This ideology, which was given to our independence by the national leader Heydar Aliyev, the savior of the people and the state of Azerbaijan and is of exceptional importance, is being developed today at the level of the most progressive and modern requirements. The strengthening of the Azerbaijani diaspora, which has expanded opportunities to influence not only the Turkic world, but also the processes taking place in the international world, its joint activities with friendly nations serve to strengthen our positions in the world. The number of our diaspora organizations is increasing as a result of the creation of the State Committee for Work with the Diaspora and the acceleration of organizational work as a result of ongoing activities. “I am very glad that our diaspora organizations are strengthening qualitatively, their activities are becoming more purposeful and effective,” Mr. Ilham Aliyev said, highly appreciating the activities of our compatriots.

Actions with the participation of many people in different countries of the world in connection with the national holidays and significant days of the Azerbaijani people, January 20 and the Khojaly tragedies indicate that our diaspora organizations, which carry out coordination work between organizations, are recognized as political forces in the countries where they operate. Diaspora organizations, working together with our embassies, consulates and diplomatic missions, which are part and symbol of the Azerbaijani state in foreign countries, are actively involved in supporting and promoting the foreign policy of our country in the world. The diaspora organizations of Azerbaijan and

Turkey, which are "one nation, two states", join forces and take a unified position in the discussion of political and economic issues.

The strengthening of our diaspora means that we are a great nation whose voice is heard from all continents of the world. Azerbaijan, which is getting stronger today, is our source of pride. Now we can proudly say that we have a large family living abroad, with numerous members actively promoting our national interests, traditions, history, truths, and development concept. This family, which unites many thousands of our compatriots, has one homeland – Azerbaijan! Interest in the Azerbaijani language, which unites more than 50 million of our compatriots, is growing. Our national ideology and thinking, formed and improved by the great leader Heydar Aliyev, serves to strengthen the ideology of Azerbaijaniism. Acknowledging its irreplaceable role in the solidarity of the Turkic world, and the guarantor of the unity of Turkic-speaking peoples, Azerbaijan maintains and will protect its loyalty to its role in such an important mission as the main priorities of state policy. The formation of the national idea, the support of the purposefulness of the nation, being the basis of our economic success, is also the main factor for the unity and solidarity of our compatriots.

The transformation of Azerbaijan into an important place where international events are held is an expression of the strengthening of confidence in our country and its growing reputation on the world scale. This confidence in our country once again confirms that in our country, located at the junction of Europe and Asia, distinguished by its strategic importance, two strong forces are developing as double wings: Eastern foundation and Western influence. In recent years, the strengthening of Azerbaijan's position in the world community benefits from the commitment to the values that unite civilizations.

Of course, all these successes are the result of a policy based on a solid foundation. Honorable President Ilham Aliyev calls attention to the continuation of the ideas of the great leader Heydar Aliyev as a success of the purposeful policy, and emphasizes that every countryman has a share in the development path of our country: "As a result of the purposeful policy, today our diaspora organizations promote the truths of Azerbaijan in the countries where they operate, our national interests defense and contributes to the deepening of mutually beneficial relations of our republic with other states".

Experts who appreciate Heydar Aliyev as the founder of multiculturalism in Azerbaijan believe that the healthy environment created during his leadership sowed the seeds of stability, friendship and unity among religions, peoples and societies. Thanks to the same view of Heydar Aliyev on all peoples and religions, representatives of each nation living in our country live in peace and tranquility.

**Literature:**

1. Бакинский рабочий.-2018.- 16 мая.- С.4.
2. http://www.anl.az/down/meqale/bakrabochiy/2018/may/591803.htm
3. http://www.anl.az/down/meqale/baki_xeber/2016/may/492398.htm

**UOT:008**

**Elza Fərzəliyeva**
**Naxçıvan Dövlət Universiteti,**
**baş müəllimi**
**E-mail: gulxareehmedova1966@gmail.com**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

**Mədəniyyət başqa aləmdir. Mədəniyyət uşaq kimidir; həmişə tumar və qayğı istəyir. O, həssasdır: Əlinin tumarı, ürəyinin qayğısı azca azalan kimi, o hiss edir, küsür, inciyir. Siyasi rəhbər, dövlət xadimi bunu bilməlidir, bir an yadından çıxarmamalıdır.**
**Heydər Əliyev**

**Xülasə:** Məqalədə Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin respublikamızdakı birinci və ikinci hakimiyyəti dövrlərində bütün sahələr kimi milli mədəniyyətimizin də dirçəldilməsi, inkişaf etdirilərək tərəqqi yollarına çıxardılmasında böyük, əvəzedilməz və danılmaz xidmətlərindən söhbət açılır.

Burada ulu öndərimizin sovet dövründə görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileylərinin keçirilməsinə, onların yüksək dövlət təltifləri ilə mükafatlandırılmasına, ev-muzeylərinin yaradılmasına göstərdiyi yüksək diqqət və qayğıdan bəhs edilir, mədəni irsimizin qorunması, təbliğ olunması, dünyada tanınması yolunda göstərdiyi fədakarlıqdan və əzmkarlıqdan bəhs edilir.

**Açar sözlər:** Heydər Əliyev, mədəniyyət, elm, ədəbiyyat, incəsənət, ev-muzey, yubiley

1969-cu ilin 14 iyulundan, Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etməyə başladığı tarixdən Azərbaycanda incəsənətin və mədəniyyətin inkişafına geniş meydan açıldı, əlverişli imkanlar yarandı. Sonralar "Azərbaycan xalqının maraq və mənafelərinin real təmsilçisi, fəal qurucusu olmuş. Bütün qüvvə və enerjisini, təcrübə və zəkasını milli inkişafa, xalqımızın rifahının yüksəlməsinə və ictimai tərəqqiyə sərf edən Heydər Əliyev" mənəvi və fiziki qüvvəsindən əzəmi dərəcədə istifadə edərək milli mədəniyyət və incəsənətimizin inkişafı yolunu işıqlandırdı. Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin görkəmli nümayəndələrinin həqiqi qiymətini verdi.

"Keçmiş SSRİ-də "dissident" ovu başlananda Heydər Əliyev hər vasitə ilə Azərbaycan ziyalılarını qoruyurdu. O dövrdə bir-iki yazıçının yaxud şairin əsərini mikroskopla oxuyub nə isə tapmaq, əlbəttə, o qədər də çətin iş deyildi. Lakin millətin gen fondunun qorumağı həmişə özünün əsas vəzifəsi sayan Heydər Əliyev heç vaxt buna imkan vermirdi. Belə bir vaxtda o, təkcə ziyalıları qorumaqla kifayətlənmirdi, ən cəsarətli fikirlər bir çox hallarda onun öz dilindən səslənirdi. Təkcə elə Azərbaycan yazıçılarının 1981-ci ildə keçirilən XII qurultayında Heydər Əliyev yazıçıları onun şəxsi nüfuzuna, şəxsi müdafiəsinə arxalanmağa xalqımız üçün tale yüklü məsələlərdən daha böyük cəsarət və prinsipiallıqla söz açmağa, daha sərt barışmaz mövqe tutmağa ruhlandırırdı" (1, s.10).

"Heydər Əliyev dünyaya Azərbaycanı tanıtmışdır. Bu heç kəsə sirr deyil ki, Azərbaycanı da Heydər Əliyevə görə tanıyırlar. Ümumiyyətlə, Heydər Əliyev Azərbaycanı doğma bir ananın tikib, əziz övladına ərməğan etdiyi isti paltar kimi həmişəlik əyninə geyindirmişdir. Bu qeyri-adi geyim nağıllarımızdakı sehrli xalat kimi Heydər Əliyevə güc, cəsarət, dəmir iradə, uzaqgörənlik, vətənsevərlik bəxş etmiş, çox möcüzələrin açılmasına səbəb olmuşdur. Heydər Əlirza oğlu Əliyev deyirdi: "Mən

Azərbaycan xalqına həyatım boyu sadiq olmuşam, ömrümün son dəqiqəsinə qədər də sadiq olacağam" (1, s.14).

Heydər Əliyev hələ gənclik çağlarından məşhur ingilis filosofu Herbert Spenserin müdrik fikrindən doğan bir həqiqəti dərk etmişdi ki, "xalqın ləyaqətli olmayınca, sən də özünü ləyaqətli saya bilməzsən, xalqın azad olmayınca, sən də özünü azad saya bilməzsən, xalqın xoşbəxt olmayınca, sən də özünü xoşbəxt saya bilməzsən"

"Dünyanın ən böyük zəka sahiblərinin, mütəfəkkirlərin və mədəniyyət xadimlərinin xalq üçün döyünən ürəklərinin, müqəddəs amallarının, cəsarət və fədakarlıqlarının pərəstişkarları kimi Heydər Əliyev də bütün varlığında xalqa məhəbbət bəsləyir, ömrünün hər anından əzəmi dərəcədə istifadə edərək, yorulmadan, çəkinmədən vətəndaşlıq rəşadəti ilə xalqa xidmət göstərir, hər yerdə hər zaman böyük Nizami Gəncəvinin:

"Xidmət etmək sayılır, kişilikdən, nişanə,
Xalqına xidmət etmək bir şərəfdir insana".

fikirlərinə tapınmışdır" (1, s.15).

70-80-ci illərdə Azərbaycan incəsənəti və ədəbiyyatı daha da inkişaf etdi. Bakıda Üzeyir Hacıbəyovun, S.Vurğunun, C.Cabbarlının, Bülbülün, 1981-ci ildə Naxçıvanda Hüseyn Cavidin ev-muzeyləri fəaliyyət göstərməyə başladı. Hər il orta hesabla 1300 adda kitab nəşr edilirdi.

Respublika Televiziyası və Radiosu milli və bəşəri dəyərlərə söykənərək milli oyanışa əhəmiyyətli dərəcədə təsir göstərirdi. Bu illərdə Azərbaycan ədəbiyyatı Anarın "Ağ liman", "Şəhərin yay günləri", Elçinin "Ağ dəvə", "SOS", İ.Əfəndiyevin "Büllur sarayda", Y.Səmədoğlunun "Qətl günü" və b. əsərlərlə daha da zənginləşdi.

1981-ci ilin iyulunda Azərbaycan KP Mərkəzi Komitəsi dahi şair-dramaturq Hüseyn Cavidin 100 illik yubileyinin keçirilməsi haqqında möhtəşəm bir qərar qəbul etdi (2). Nəşriyyatlar görkəmli dramaturq, şair Hüseyn Cavidin ayrı-ayrı əsərlərini nəşr etməkdən belə çəkinəndə Heydər Əliyev əsərlərində sosializmin, sovet quruluşunun xeyrinə bir cümlə belə işlətməyən, həyatının sonuna qədər türkçülük, millətçilik ideyalarını tərənnüm edən Hüseyn Cavidin cəsədini uzaq Sibirdən Azərbaycana gətirtmiş, şairin vətəni Naxçıvanda böyük təntənə ilə dəfn etdirmişdi.

Elə həmin günün axşamı 100 illik haqqında qərarın bir maddəsinə uyğun olaraq yaradılmış "Cavid" Poeziya Teatrının təntənəli açılışı olmuşdur (2, s.5). Amerikalı azərbaycanşünas, professor Odri Aldstadtın yazdığı kimi, milli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin cənazəsinin Sibirdən gətirilməsi və Azərbaycanda dəfn olunması yalnız Heydər Əliyevin sayəsində gerçəkləşə bildi və bu hadisə mühüm rəmzi məna daşıyırdı.

H.Ə.Əliyev Azərbaycanın istər müasir, istərsə də klassik sənətkarları – ədəbiyyat, mədəniyyət, incəsənət xadimləri haqqında məhəbbətlə, ürək dolusu, ustalıqla çıxış etmişdir. Nizami, Füzuli, Nəsimi, Vaqif, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun və başqaları haqqında danışarkən ən mütəfəkkir, ustad bir filoloq təsiri bağışlayırdı. Teatr sənəti barədə mahir teatrşünas kimi çıxış edirdi.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının mədəni, mənəvi həyatında mühüm dəyişikliklər baş vermişdir. Müharibə, erməni işğalçıları tərəfindən yüzlərlə sosial-mədəni obyektin məhv edilməsi, postsovet respublikaları ilə mədəni əlaqələrin zəifləməsi incəsənətə də öz mənfi təsirini göstərirdi.

Bütün bunlara baxmayaraq, bu dövrdə Azərbaycan mədəniyyəti mübarizliyi, mənəvi qüvvələrin öz kökünə və ümümbəşəri dəyərlərə daha möhkəm bağlanması ilə səciyyələnirdi.

Belə ki, 1993-cü ildən başlayaraq respublikada mədəni-maarif inkişafı üçün bir sıra tədbirlər həyata keçirildi. M.F.Axundov adına Respublika Kitabxanası 1998-ci ilin aprelindən Milli Kitabxana statusu aldı. Ali təhsil müəssisələrinin həyatında yeniliklər baş verdi. 1993-cü ildən ali məktəblərdə iki

bakalavr və magistr pilləli təhsilə keçildi. Özəl təhsil müəssisələri meydana gəldi. Minlərlə gənc xarici ölkələrdə təhsil almaq imkanı qazandı. Bakıda Cəlil Məmmədquluzadənin, Niyazinin, Hüseyn Cavidin ev-muzeyləri yaradıldı. N.Nərimanovun Ev-Muzeyi yenidən quruldu. “1998-ci ildə Ordubadda M.S.Ordubadinin Ev-Muzeyi əsaslı təmirdən sonra fəaliyyətini davam etdirdi. 1999-cu ildə Naxçıvanda Cəlil Məmmədquluzadənin Ev-Muzeyi Prezident Heydər Əliyev tərəfindən təntənə ilə açıldı” (4).

Xalqın mənəvi aləmini zənginləşdirmək, onu özünə və başqalarına daha yaxşı tanıtmaq üçün elm, təhsil, ədəbiyyat və incəsənətin bütün mümkün vasitələrindən istifadə edilirdi. 1997-ci ilin noyabrında qəbul olunmuş “Mədəniyyət haqqında” Qanun bu sahədə fəaliyyət istiqamətlərini müəyyənləşdirmişdir.

1996-cı ilin payızında Füzulinin 500 illik yubileyinə, demək olar ki, dünyanın hər yerindən qonaqlar ədəbiyyatşünas alimlər, yazıçılar gəlmişdi. Həmin il Əliağa Vahidin, bəstəkar Müslüm Maqomayevin, görkəmli alimlər Yusif Məmmədəliyevin, Sara Aşurbəylinin, alim və dövlət xadimi Vəli Axundovun, xalq şairləri Bəxtiyar Vahabzadənin, Qabilin, xalq rəssamı Maral Rəhmanzadənin, 1997-ci ildə ölməz xalq şairi Səməd Vurğunun, görkəmli alim, dövlət xadimi, səhiyyə təşkilatçısı Əziz Əliyevin, akademik Həsən Əliyevin, görkəmli opera müğənniləri Şövkət Məmmədovanın, Bülbülün, dünya şöhrətli musiqiçi, Azərbaycanda böyüyüb boya-başa çatmış Mstislav Rastropoviçin, 1998-ci ildə dahi bəstəkar Qara Qarayevin, böyük şair Məmmədhüseyn Şəhriyarın, Mikayıl Müşfiqin, Aşıq Ələsgərin, yazıcı Mir Cəlalın və başqalarının yubileyləri geniş qeyd olundu.

2000-ci ilin aprelində möhtəşəm ədəbi-tarixi abidənin “Dədə Qorqud dastanı”nın 1300 illik yubileyi Bakıda böyük təntənə ilə keçirildi. Həmin yubiley tədbirinin bir böyük əhəmiyyəti də ondan ibarət oldu ki, əlyazma nüsxəsi Almaniyanın Drezden Kitabxanasında saxlanılan bu dastanın yarandığı ölkənin məhz Azərbaycan olduğu bütün Dünyaya çatdırıldı.

Yeni əsrin ilk illərində mədəniyyətin inkişaf etdirilməsinə, maddi-mədəniyyət abidələrinin qorunmasına yönəldilmiş bir sıra qanunlar qəbul edilmişdir. Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış “Mədəni irsin qorunmasına yardım haqqında” sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksinin, Şəkidə Xanlar sarayının, “Naxçıvan Muxtar Respublikasında Möminə xatın və Qarabağlar türbəsinin, bərpa və yenidənqurma işlərinə başlanılmışdır” (5, s.212).

2002-ci ildə respublikamız Abidələrin Bərpası Konservasiyası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar Saray Kompleksi və Qız qalası da daxil olmaqla İçəri şəhər Dövlət Tarixi-Memarlıq Kompleksi YUNESKO-nun “Dünya mədəniyyət irsi” siyahısına daxil edilmişdir.

Ümummilli liderimizin keçdiyi yola, hətta ötəri belə, nəzər saldıqda görür və duyursan ki, Heydər Əliyev 1969-cu ildən bəri özü bir tarix yaradıb, cəfakeşliklə, qəhrəmanlıqla dolu əhəmiyyətli, qüvvətli, əzəmətli, həm də hər cəhətdən ibrətamiz bir tarix. Bu tarix içərisində öz ləyaqətini yüksəldən, güclü, qüvvətli xarakter bütövlüyünü büruzə verən Heydər Əliyev, eyni zamanda cəmiyyətin qanunauyğun inkişafına yeni estetik və ideyaya sahib olduğunu sübut etdi.

“Mövcud quruluşdakı gerçəkliyi dərindən dərk edib, qabaqcıl dünyagörüşünə, humanizmə söykənərək, şəxsi təcrübəsini zənginləşdirə-zənginləşdirə, təfəkkürünün parlaqlığına, təxəyyülünə fəaliyyət genişliyinə nail oldu və sübut etdi ki, o “insan səadətini özünün xüsusi, yeganə dəyişməz və şərtsiz prinsipi meyarı hesab edir” (L.Feyerbax).

Hikmət Paşanın yazdığı kimi:

“Ayinəsi işdir kişinin, lafə bakılmaz,
Şəxsin görünər rütbeyi əqli – əməlində”” (1, s.35).

**Ədəbiyyat siyahısı:**

1. Kərimov İ. “Heydər Əliyev. Sənət, sənətkarlar və sənətkarlıq haqqında. Bakı: Ulu, 2005, 228 səh.
2. “Kommunist” qəzeti. 22 iyul 1981-ci il.
3. Qasımov Ə. “Cavid” Poeziya Teatrı. Bakı: AFpoliqrAF, 2017, 84 səh.
4. Naxçıvan Şəhər XDS İcraiyyə Komitəsinin sənədlər qovluğu, 1990. Naxçıvan Mərkəzi Dövlət Arxivinin fondu.
5. Salamzadə Ə., Məmmədzadə K. “Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri”. Bakı: Elm, 1985, 268 səh.

**Elsa Farzaliyeva**

**HAYDER ALIYEV AND THE CULTURE OF AZERBAIJAN**

**Summary:** The article talks about the great, irreplaceable and undeniable services of the national leader of the Azerbaijani people, the world-famous political figure Heydar Aliyev, during the first and second periods of power in our republic, in reviving and developing our national culture, as well as in all other fields.

Here, the great attention and care that our great leader paid to celebrate the anniversaries of prominent science, literature and art figures during the Soviet era, awarding them with high state awards, and the creation of their house museums, the sacrifice and perseverance he showed in the way of protecting, promoting, and recognizing our cultural heritage in the world.

**Key words:** Heydar Aliyev, culture, science, literature, art, house-museum, jubilee

**UOT 008**

**Solmaz Əliyeva**
**Milli Aviasiya Akademiyası,**
**baş müəllim**
**E-mail: solmaz2021@mail.ru**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV AZƏRBAYCAN MULTİKULTURALİZMİN SİYASİ BANİSİ KİMİ

**Xülasə:** Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda ictimai-bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi, xüsusilə sovet ideologiyasının hökmranlıq etdiyi illərdə kifayət qədər sistemsiz mahiyyətə malik idi. Bu gün Azərbaycan öz multikulturalizm modelini dünyaya təqdim etməkdədir. Azərbaycanın bu sahədəki təcrübəsi kifayət qədər zəngindir və qədim tarixə malikdir. Tarixən müxtəlif etno-mədəni qrupların və dini konfessiyaların birgə yaşadığı məkan olan ölkəmizdə siyasi multikulturalizmin banisi ulu öndər Heydər Əliyevdir. Heydər Əliyev ikinci dəfə xalqın dəvəti ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanı nəinki vətəndaş müharibəsindən qurtardı, eyni zamanda ölkəmizdə mövcud olan bütün milli azlıqları vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi.

**Açar sözlər:** multikulturalizm, humanizm, tolerantlıq, çoxmədəniyyətlilik, din, ənənəvi

Azərbaycan humanizm və tolerantlıq prinsiplərinə sadiq olan bir dövlətdir. Burada müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin nümayəndələri sülh və dostluq şəraitində yaşayırlar. Azərbaycanda həyata keçirilən multikulturalizm dövlət siyasəti millətlərarası münasibətlərin inkişafı və qorunub saxlanılmasına yönəldilmişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda ictimai-bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi, xüsusilə sovet ideologiyasının hökmranlıq etdiyi illərdə kifayət qədər sistemsiz mahiyyətə malik idi. "Kitabi-Dədə Qorqud" dastanından, şifahi və yazılı ədəbiyyatımızdan keçən bariz nümunələr uzaq keçmişdən bu günümüzədək multikultural ənənələrin mövcudluğunu aşkar şəkildə sübut edir. Bunun fonunda müasir dövrdə həllini tapası yalnız bir əsas məsələ qalırdı: hüquqi və siyasi müstəvidə multikulturalizmin yerini müəyyən etmək. Və bunu ulu öndər Heydər Əliyev etdi. O, Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Bu mərhələ siyasi mərhələ idi. Əslində, ulu öndər Azərbaycan multikulturalizmin siyasi banisi oldu. Ulu öndər Heydər Əliyev bununla ilk növbədə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq" deyən ulu öndər bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi. Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Azərbaycanda formalaşan yeni demokratik cəmiyyət müstəqil dövlət quruculuğunda fəal iştirak edir. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Bununla bağlı "Bərabərlik hüququ", "Milli mənsubiyyət hüququ", "Ana dilindən istifadə hüququ" və başqa maddələri göstərmək mümkündür. Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan

ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu Öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi. Ulu Öndərin dediyi kimi, həqiqətən də "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir". Bu sözlər bu gün də son dərəcə qiymətlidir.

Bu gün Azərbaycan öz multikulturalizm modelini dünyaya təqdim etməkdədir. Azərbaycanın bu sahədəki təcrübəsi kifayət qədər zəngindir və qədim tarixə malikdir. Klassiklərimizin əsərlərində, şifahi xalq ədəbiyyatında və s. kifayət qədər multikulturalizm dəyərlərinə dair misallar tapmaq olar. Azərbaycanda katolik kilsəsi, pravoslav kilsəsi, yəhudi sinaqoqu, məscidlər azad, sərbəst, təhlükəsiz, qarşılıqlı hörmət əsasında tolerantlıq şəraitində fəaliyyət göstərir. Təbii ki, bu mühiti dövlətin apardığı siyasət və xalqın unikal daxili birgəyaşayış normalarını, həyat tərzinə çevirməsi yaradıb. Tarixən müxtəlif etno-mədəni qrupların və dini konfessiyaların birgə yaşadığı məkan olan ölkəmizdə siyasi multikulturalizmin banisi ulu öndər Heydər Əliyevdir. Heydər Əliyev ikinci dəfə xalqın dəvəti ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanı nəinki vətəndaş müharibəsindən qurtardı, eyni zamanda ölkəmizdə mövcud olan bütün milli azlıqları vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi.

Azərbaycan multikultural ölkədir. Dərin tarixi köklər üzərində olan və inkişaf edərək cəmiyyətin gündəlik həyat tərzinə çevrilmiş birgə yaşama Azərbaycanda dövlət siyasəti kimi multikulturalizmin ictimai əsasını təşkil edir.

Azərbaycan tarixən iki sivilizasiyanın qovuşuğunda yerləşib. Şərqi Qərblə birləşdirməklə qədim zamanlardan bu günə qədər özünü bütünlüklə nümayiş etdirən çoxmədəniyyətlilik və tolerantlıq ənənələri burada formalaşmışdır.

Ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması va inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqamət yeni mərhələdə onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. O, daima ölkəmizin bu təşkilatlar tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının vacibliyini qeyd edir. Məhz bu siyasi xəttin nəticəsi kimi Azərbaycan Prezidentinin göstərişi ilə ölkəmizin 26 noyabr 2009-cu il tarixli qanunla "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqinə dair" YUNESKO Konvensiyasına qoşulmasını göstərmək olar. Azərbaycanın mənəvi-siyasi yüksəlişində son dərəcə vacib məqamlardan biri isə Prezident İlham Əliyevin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən bəri mütəmadi olaraq Bakıda Beynəlxalq Humanitar Forumun keçirilməsidir. Artıq ənənəyə çevrilmiş bu forumun son açılışı zamanı etdiyi çıxışında Prezident İlham Əliyev multikulturalizmi "alternativi olmayan, gələcək inkişaf üçün ən məqbul variant" kimi dəyərləndirməklə təkcə Azərbaycanda deyil, müasir dünyada multikulturalizm meyllərinin gücləndirilməsinin vacibliyini xüsusi olaraq qeyd etmişdir. Belə bir siyasi kontekstdə Prezident İlham Əliyev 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşavirinin xidmətini yaratdı. Bu gün bu xidmət ölkənin ideoloji həyatının önəmli istiqamətlərini əlaqəli şəkildə öyrənən, obyektiv səbəbdən özünü göstərən müəyyən boşluqların doldurulmasını təmin edən vacib bir orqan kimi fəaliyyətini qurmaqdadır.

Prezident İlham Əliyevin multikulturalizm siyasətinin növbəti əhəmiyyətli addımı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasına dair 15 may 2014-cü il tarixində imzaladığı fərman oldu. Bu mərkəzin yaradılmasının əsas məqsədi ölkəmizdə əsrlər boyu formalaşmış

tolerantlığın, etnik-mədəni, dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modellərini tədqiq və təşviq etməkdir. Bu gün Azərbaycan multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı Heydər Əliyev Fondu olduqca əhəmiyyətli, möhtəşəm layihələr həyata keçirir. Fondun prezidenti, YUNESKO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının birinci Vitse Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama", "Azərbaycan – tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 yanvar 2016-cı il tarixli sərəncamı ilə 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan edilmişdir. O, Nazirlər Kabinetinin iclasındakı nitqində qeyd etmişdir ki, "...bir çox siyasətçilər multikulturalizmin dağıldığını iddia etsələr də, haradasa, bir yerdə multikulturalizm çökmüş ola bilər, ancaq o Azərbaycanda yaşayır, bu tendensiya, bu fikirlər daha da güclənir, getdikcə daha çox ictimai dəstək qazanır. Biz bu yolla gedəcəyik" Azərbaycan xalqı birgəyaşayış təcrübəsi və həyat tərzi ilə sübut edir ki, multikulturalizm yaşayır və onun gələcəyi də vardır.

**Ədəbiyyat siyahısı:**

1. Mehdiyev R. "Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi". / "Azərbaycan" qəz., 7 noyabr 2007.
2. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015.
3. Əliyev V. Ümummilli lider Heydər Əliyevin milli siyasətində multikulturalizm faktoru – XXI əsrdə Azərbaycanı sivilizasiyalararası dialoq mərkəzinə aparan yol. // "Heydər Əliyev və multikultural dəyərlər" mövzusunda keçirilən konfransın materialları, Bakı, Azərnəşr, 2016.
4. Prezident İlham Əliyevin BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunda çıxışı/www/president.az
5.Prezident İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində İlham Əliyevin nitqi.
6. Prezident İlham Əliyevin V Bakı Beynəlxalq Humanitar Forumunda çıxışı/www.president.az
7. Mehdiyev R. "Multikulturalizmə giriş", Bakı – 2019.

**Solmaz Aliyeva**

## NATIONAL LEADER HAYDER ALIYEV IS A POLITICAL FOUNDER OF AZERBAIJAN MULTICULTURALISM

**Summary:** Multiculturalism under the leadership of the national leader Heydar Aliyev, is a set of values that have been formed in Azerbaijan for centuries, and at the same time does not go beyond the social-artistic, psychological-spiritual level, had a rather unsystematic nature, especially in the years when the Soviet ideology dominated. Today, Azerbaijan is presenting its model of multiculturalism to the world. Azerbaijan's experience in this field is quite rich and has an ancient history. The founder of political multiculturalism in our country, which is historically a place where different ethnocultural groups and religious denominations live together, is Great Leader Heydar Aliyev. Heydar Aliyev, after returning to power for the second time at the invitation of the people, not only saved Azerbaijan from the civil war but also united all the national minorities in our country around the single ideology of Azerbaijaniism.

**Key words:** Multiculturalism, humanism, tolerance, multiculturalism, religion, traditional

**UOT: 008**

**Sevinc Muxtarova**
**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,**
**kiçik elmi işçi**
**E-mail: seva_mukhtarova@mail.ru**

# AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN SİYASİ BANİSİ

**Xülasə:** Ulu öndər Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisi idi. Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan Respublikası, multikulturalizm, tolerantlıq, mədəniyyətlərarası əlaqə

Azərbaycan tarixinin son yarım əsrlik dövrü dünya miqyaslı dövlət xadimi, ümummilli lider Heydər Əliyevin adı və şəxsiyyəti, dövlətçilik təfəkkürü və yorulmaz fəaliyyəti ilə sıx bağlıdır. Heydər Əliyev öz xalqının tarixi taleyində, onun mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətlər göstərən dahi bir şəxsiyyətdir. Heydər Əliyev hələ ötən əsrin 70-ci illərində Azərbaycanda sağlam millətçilik ideyalarının yayılmasında, xalq arasında milli mənlik və milli şüur hissinin tərbiyə olunmasında nəhəng işlər görmüşdür. Multikulturalizm və tolerantlıq siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edən Heydər Əliyev Azərbaycan ərazisində yaşayan milli azlıqların etnik-mədəni və dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndər 16 noyabr 1999-cu ildə Azərbaycandakı dini konfessiyaların başçıları ilə görüşündə cəmiyyətdə tolerantlıq və multikultural dəyərlərin vəziyyətini şərh edərək demişdir: "Azərbaycan Prezidenti olaraq mən məmnunam ki, ... ölkəmiz ictimai-siyasi sabitliyi qoruyub saxlayır, müxtəlif millətlərdən, müxtəlif dinlərdən olan, müxtəlif adətlərə, müxtəlif mədəniyyətə mənsub olan insanlar arasında dostluq münasibətlərini təmin edir. Elə bunun özü tolerantlıqdır, baxmayaraq ki, tolerantlıq çox geniş anlayışdır, özündə çox mənaları birləşdirir. İndi burada başqa sahələr haqqında danışmaq istəmirəm. Tolerantlıq münaqişələrin, terrorizmin, ekstremizmin, separatizmin olmamasını tələb edir. Bunlar hamısı tolerantlıq anlayışına daxildir".

Azərbaycançılıq məfkurəsini müasir Azərbaycan dövlətçiliyinin ideoloji təliminə çevirən Ulu Öndərin 13 avqust 2001-ci il tarixdə milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı verdiyi bəyanatda səslənən fikirlər kifayət qədər aktual, xəbərdaredici və ibrətamizdir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, yaxud onları qəsdən təhrif edirsə, əgər vəziyyət o dərəcəyə çatırsa ki, Azərbaycanın dini rəhbəri təhqir olunur, onda, təbiidir ki, bu, bizi narahat etməlidir... Biz Azərbaycanda demokratiyanın bütün tələblərini tətbiq etmişik, edəcəyik də. Ancaq Azərbaycanın milli-mənəvi dəyərlərinə qarşı, Azərbaycanın milli mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin hamısının qarşısı alınacaqdır" [2, s.45 ].

Beynəlxalq aləmdə etimadsızlıq mühiti formalaşmaqda, irqçilik, millətçilik, ksenofobiya genişlənməkdə, etnik və milli dözümsüzlük az qala həyat tərzinə çevrilməkdə olduğu bir reallıqda

Azərbaycan Respublikasında multikulturalizm, dinlərarası və mədəniyyətlərarası dialoq, tolerantlıq və harmonik etnik müxtəlifliyin özünəməxsus birgəyaşayış modeli formalaşmışdır. "Kitabi-Dədə Qorqud" dastanından, şifahi və yazılı ədəbiyyatımızdan keçən bariz nümunələr uzaq keçmişdən bu günümüzədək multikultural ənənələrin mövcudluğunu aşkar şəkildə sübut edir. Bunun fonunda müasir dövrdə həllini tapası yalnız bir əsas məsələ qalırdı: hüquqi və siyasi müstəvidə multikulturalizmin yerini müəyyən etmək. Və bunu ulu öndər Heydər Əliyev etdi. O, Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Bu mərhələ siyasi mərhələ idi. Əslində, ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisi oldu. Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Bununla bağlı "Bərabərlik hüququ" (maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bəndlər 1, 2), "Ana dilindən istifadə hüququ" (maddə 45, bəndlər 1, 2) və başqa maddələri göstərmək mümkündür. Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi. Təbii olaraq, ulu öndər etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O, qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndərin dediyi kimi, həqiqətən də "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır" [1, s. 3].

Ulu Öndərin ölkə rəhbərliyinə qayıdışı dini dəyərlərə münasibətdə, dövlət-din münasibətlərində yeni mərhələnin başlanğıcı oldu. Çox keçmədi ki, bu sahədə həyata keçiriləcək siyasətin mahiyyəti xalqa açıqlandı, din sahəsinə qayğı, dini abidələrin bərpası, milli-mənəvi dəyərlərin qorunması və təbliği dövlətin din siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Onun həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan Respublikası dövlət-din münasibətlərində həssas nəzarətlə bərabər, ölkədə etiqad azadlığı üçün şərait yaradıldı, dini dəyərlərə, ibadət yerlərinə və din adamlarına xüsusi qayğı göstərilməyə başlanıldı. Əsas məqsəd isə dövlət və din arasında qarşılıqlı anlaşma və əməkdaşlığı gücləndirmək idi. Ölkəmizdə bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir. Bundan savayı, dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində mühüm addım olaraq ulu öndər Heydər Əliyevin 21 iyun 2001-ci il tarixli 512 saylı Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Bunun ardınca, Ulu öndərin təşəbbüsü ilə 20 avqust 1992-ci ildə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqamət yeni mərhələdə onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı,

İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. O, daima ölkəmizin bu təşkilatlar tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının vacibliyini qeyd edir. Məhz bu siyasi xəttin nəticəsi kimi Azərbaycan Prezidentinin göstərişi ilə ölkəmizin 26 noyabr 2009-cu il tarixli qanunla "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqinə dair" YUNESKO Konvensiyasına qoşulmasını göstərmək olar. Prezident İlham Əliyevin multikulturalizm siyasətinin növbəti əhəmiyyətli addımı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasına dair 15 may 2014-cü il tarixində imzaladığı fərman oldu. Bu mərkəzin yaradılmasının əsas məqsədi ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlığın, etnik-mədəni, dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modellərini tədqiq və təşviq etməkdir. Dünyanın multikulturalizm sahəsində aparıcı mütəxəssislərinin, görkəmli ictimai və siyasi xadimlərinin Bakıda beynəlxalq səviyyədə belə bir mərkəzin açılmasını son dərəcə təbii və işgüzar şəkildə qəbul etmələri məhz Azərbaycanın bu gün dünya multikulturalizminin mərkəzinə çevrilməsi reallığını aydın şəkildə nümayiş etdirir [1, s.7].

Bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsinə böyük önəm verən ümummilli lider Heydər Əliyev bu sahədə mühüm qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirilməsinə xüsusi diqqətlə yanaşmışdır [3].

## Ədəbiyyat siyahısı:

1. Abdullayev K. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir //Azərbaycan. – 2014. – 23 iyul. – s.7.
2. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015, 408 səh.
3. Sarıyeva İ. Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli // Bakı xəbər. – 2016. – 21-23 may. - s.15.

**Sevinj Mukhtarova**

## POLITICAL FOUNDER OF AZERBAIJAN MULTICULTURALISM

**Summary:** The great leader Heydar Aliyev was the political founder of Azerbaijani multiculturalism. The most important thing in the case of protection of the multicultural heritage of Azerbaijan by the state is the reflection of this issue in legal documents, including the Constitution of the Republic of Azerbaijan, on the initiative and instructions of national leader Heydar Aliyev. Thus, the principle of tolerance, which is the basis of the policy of multiculturalism, is established in several articles of the Constitution of the Republic of Azerbaijan. The great leader rightly considered the policy of multiculturalism as an integral part of the country's democratic development. He saw the protection of the rights and freedoms of national minorities living in the territory of Azerbaijan, including ethnic-cultural and religious values, in the context of basic human rights and freedoms, which is an important principle of democracy.

**Key words:** Heydar Aliyev, Republic of Azerbaijan, multiculturalism, tolerance, intercultural communication

**UOT 741**

**Pərvanə Muradi**
**Odlar Yurdu Universiteti,**
**müəllim**
**E-mail: perish_1988@mail.ru**

# AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ

**Xülasə:** Ümummilli Heydər Əliyevin obrazı təsviri sənətdəki multikultural mühitin ən parlaq ortaq mövzusudur. Dünyanın bir çox ölkələrinin rəssamları və heykəltəraşları da azərbaycançılığın daim canlı, əbədi simvolu olan Heydər Əliyev mövzusuna müraciət edirlər. Bir çox ölkələrin şəhərlərində Heydər Əliyevin adını daşıyan parklarda heykəlləri ilə qarşılaşırıq. Türkiyədə, Rusiya, Böyük Britaniya Ukrayna, Gürcüstan, Rumıniya və digər ölkələrdə ən böyük azərbaycanlı, ulu öndər Heydər Əliyevin heykəlləri vardır. Bu da həmin ölkələrin multikultural dəyərlərə ehtiramını göstərir.

Ümummilli liderin obrazı bir çox təsviri incəsənət nümunələrində öz əksini tapmışdır.

**Açar sözlər:** təsviri sənət, Heydər Əliyev, "Heydər Əliyevin portreti, müasir rəngkarlıq məktəbi, Azərbaycan rəssamları

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin bədii obrazı müasir təsviri sənətimizin çox maraqlı, aktual mövzularındandır. Azərbaycanlı rəssamlar Ulu öndərin bədii-estetik baxımdan mükəmməl portretlərini yaradıblar. Heydər Əliyevin portretini rəssamlar yağlı boya və qrafika ilə, müxtəlif bədii texnikalarda və üslublarda işləyiblər. Onun mükəmməl obrazı qrafika sənətinin müxtəlif növlərində yaradılıb, xalçalarda toxunub, spesifik sənət sahələrində canlandırılıb. Ulu öndərin portreti maraqlı, bənzərsiz materiallarla, qeyri-adi üsullarla işlənilib. Dahi şəxsiyyətin portretləri qiymətli daşlarla, muncuqlarla, zərif ipliklərlə, güllər ilə yaradılıb. Dünyada bu qədər əlvan vasitələrlə obrazı yaradılan ikinci bir şəxsiyyət tapmaq çətindir. Bu təsviri sənət əsərləri Ulu öndərin şəxsiyyətinə olan sonsuz məhəbbəti göstərir.

Təsviri sənətdə Heydər Əliyev mövzusu təkcə Azərbaycan məkanı və incəsənəti ilə məhdudlaşmır. Bu mövzu çağdaş dünya incəsənətində xüsusi yer tutmuşdur. Çünki Heydər Əliyev mövzusu təkcə milli olmayıb, həm də bəşəri xarakter daşıyır. Bu mənada 2007-ci il dekabrın 15-də Böyük Britaniyanın London şəhərində dünyaca məşhur Madam Tüsso Muzeyinin "Dünya liderləri" salonunda nümayiş olunmuş dahi fenomen şəxsiyyət, ümummilli lider Heydər Əliyevin mumdan hazırlanmış heykəl-fiquru xüsusi diqqətəlayiqdir. Mum-fiqurun müəllifi Stiv Sueys belə söyləmişdir: "Mən heykəl-fiqur üzərində işə başlayanda bu şəxsiyyət haqqında geniş informasiya əldə etmək üçün Bakıya getdim. Heydər Əliyev Fondunda oldum, xeyli arxiv materialını öyrəndim, minlərlə fotoşəkilə baxdım. Mən onu şəxsən tanıyan adamlarla görüşdüm". Heykəltəraş bildirib ki, Heydər Əliyev obrazını həm Prezident, həm də adi insan kimi təsvir etməyə çalışıb. Fiqur üzərində iş 6 aydan çox çəkib. Ümummilli liderin heykəl-fiquru boyu hündürlüyündə hazırlanıb. Portretdə Heydər Əliyevin müdrik baxışları uzaqlara dikilib, üzündə ona məxsus olan isti, sirli təbəssüm təsvir olunub. Xatırladaq ki, həmin muzeydə indiyədək Rusiyadan savayı, MDB ölkələrinin heç birinin liderinin fiquru qoyulmayıb.

Ulu öndərin çoxcəhətli məqsədyönlü fəaliyyəti və düşünülmüş siyasəti müasir Azərbaycan dövlətçiliyinin təməl prinsiplərindən biri olan multikulturalizmin formalaşmasında mühüm rol oynayıb. Multikulturalizmin bir böyük təzahürünü də Heydər Əliyevin müxtəlif xalqların nümayəndələri tərəfindən yaradılmış parlaq obrazında görürük. Heydər Əliyevin obrazı təsviri sənətdəki multikultural mühitin ən parlaq ortaq mövzusudur. Dünyanın bir çox ölkələrinin rəssamları və heykəltəraşları da Azərbaycançılığın daim canlı, əbədi simvolu olan Heydər Əliyev mövzusuna müraciət edirlər. Bir çox ölkələrin şəhərlərində Heydər Əliyevin adını daşıyan parklarda heykəlləri ilə qarşılaşırıq. Türkiyədə, Rusiya, Böyük Britaniya Ukrayna, Gürcüstan, Rumıniya və digər ölkələrdə ən böyük azərbaycanlı, ulu

öndər Heydər Əliyevin heykəlləri vardır. Bu da həmin ölkələrin multikultural dəyərlərə ehtiramını göstərir.

Ümummilli liderin obrazı bir çox təsviri incəsənət nümunələrində öz əksini tapmışdır. Böyük rus rəssamı Nikas Safronovun "Heydər", Tahir Salahovun "Heydər", Rafael Abbasovun "Düşüncə" portretləri Ulu öndərə həsr olunmuşdur. Azərbaycanın Xalq rəssamı, heykəltəraş Ömər Eldarovun Bakıdakı "Heydər" heykəli və Naxçıvandakı "Heydər" büstü [2, s.3]. Ulu öndərə həsr olunan gözəl heykəltəraşlıq nümunələrindən biridir.

Heydər Əliyevin incəsənətimizin inkişafı və tərəqqisi naminə atdığı səmərəli addımlar onun apardığı uğurlu siyasətin tərkib hissəsi idi. Eyni zamanda onun ölkəmizdəki yaradıcılıq ittifaqlarının maddi-texniki bazalarının yaxşılaşdırılmasına, sənət adamlarının – şair, yazıçı, bəstəkar, rəssam, rejissor, aktyorların Prezident təqaüdlərinə, yüksək orden və medallara layiq görülməsinə, onların yubileylərinin keçirilməsinə, incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsinə dair imzaladığı sərəncamları olmuşdur. Təsviri sənətimizin inkişafı ilə bağlı ulu öndərin siyasətində Azərbaycanın tanınmış sənət adamlarına göstərdiyi diqqət və qayğı, yaradıcı şəxslərlə yaxın dostluq əlaqələri danılmaz faktdır. Azərbaycanın tanınmış sənət adamları olan Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Böyükağa Mirzəzadə, Oqtay Sadıqzadə, Nadir Əbdürəhmanov, Mirəli Mirqasımov, Ömər Eldarov və başqa rəssamlarla şəxsən görüşərək onların yaradıcılıqları ilə yaxından maraqlanmışdır. Onun sənət adamlarının yaradıcılığını yüksək qiymətləndirməsi, yaradıcı insanlara yüksək fəxri adlarının verilməsi dediklərimizi bir daha sübut edir. Digər tərəfdən, bəlkə də yaradıcı adamlara bu qədər xüsusi münasibətin göstərilməsi Heydər Əliyevin rəssamlıq təhsili alması, onun incəsənətin – bədii yaradıcılığın çətin və özünəməxsus incəliklərindən praktiki xəbərdar olmasından irəli gəlirdi.

Tahir Salahovun çox canlı tərzdə yaratdığı "Heydər Əliyevin portreti" əsəri təqdirəlayiqdir. Əsərdə Heydər Əliyev obrazı çox real şəkildə kətan üzərində əbədiləşdirilib. Eləcə də Xalq rəssamı Ömər Eldarovun ağ mərmərdən hazırladığı "Heydər Əliyev" əsərində ümummilli liderin uzun illər boyu ünsiyyətdə olduğu sənət adamlarının yaradıcılığında önəmli yer tutduğunun bir daha şahidi oluruq.

Heydər Əliyev Avropa Şurasının Baş katibi Valter Şvimmerlə görüşü zamanı Xalq rəssamı Sakit Məmmədovun "Babadağ" rəsmini ona hədiyyə etmişdir. Heydər Əliyev rəsmdə təsvir olunan dağı Azərbaycanın ən hündür dağlarından biri olduğunu Valter Şvimmerə bildirmişdir.

Əməkdar rəssam Şərif Şərifov yaradıcılığı dövründə bütün mövzularda əsərlər yaratmışdır. Belə ki, onun zehin məhsulunun əsas mövzusu ulu öndər Heydər Əliyev olub. Ümummilli liderlə ilk dəfə Şuşada görüşən və bundan ilham alan Şərif Şərifov daha sonra bu tarixi şəxsiyyət barədə 10-a yaxın obraz yaradaraq əbədiləşdirib. Əməkdar rəssam həmişə ümummilli lider Heydər Əliyevi yaradıcılığında klassik obrazda dayanan heykəl obrazında təsvir etmişdir. Məhz elə bunun üçün də ulu öndərin özünün bir abidə olduğunu yaradıcılığında əks etdirib. Onun obrazı heykəltəraşın ilham mənbəyi olub. O həmişə dahi şəxsiyyətə baxıb ondan ilhama gələrək onun obrazını yaradıb. Ən çox da onun dayanan, baxan, xalq içində olan rəhbər obrazlarını ərsəyə gətirib. Bu obrazlar lakonik və aydın obrazlar olub. Heydər Əliyevlə dəfələrlə görüşən əməkdar rəssamın əsərləri sırasında ən yadda qalanı 1982-ci ilin yanvarında Şuşada olub.

Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov deyirdi ki, "Heydər Əliyev sənəti daxilən sevən insan idi. Onun şəxsən rəssamlığa münasibəti və bu sahəyə diqqəti nəticəsində bizim sənət tariximizdə misilsiz əsərlər yarandı. O, yaradıcı insan idi, incəsənətin bütün sahələrinə maraq və diqqət göstərirdi". Heydər Əliyevin müasir Azərbaycanın rəngkarlıq məktəbinin formalaşmasında əvəzsiz rolu olub. Heydər Əliyev bu əsərlərin bir çoxu ilə bilavasitə tanış olub, onların yaradılması prosesində öz tövsiyələrini verib [3, s.7]. Bu əsərlərin sırasında portret, natürmort, mənzərə janrlarını görmək olar.

Ulu öndər Azərbaycanın mədəniyyət siyasətinin əsas prioritetlərini özündə əks etdirən çoxsaylı qərar və qanunların müəllifidir. "Mədəniyyət haqqında qanunun təsdiq edilməsi haqqında" sərəncamın, mədəniyyət sahələrinin fəaliyyətini tənzimləyən qanunların təsdiq edilməsi böyük əhəmiyyət kəsb edirdi.

Heydər Əliyev xalqın inkişafında ədəbiyyatın, kinonun, teatrın, təsviri sənətin, musiqinin, mədəniyyətin digər sahələrinin rolunu çox düzgün qiymətləndirirdi. Təbii ki, işıqlı sabaha gedən yol təhsildən, mədəniyyətdən keçir. Ümummilli liderin mədəniyyətimizə göstərdiyi diqqət və qayğı da bu həqiqətə söykənirdi. Dünyasını dəyişən görkəmli sənətkarların xatirələrinin əbədiləşdirilməsi üçün ev muzeylərinin yaradılması, əzəmətli heykəllərinin ucaldılması, yubileylərinin təntənəli şəkildə qeyd edilməsi, həmçinin onların adının küçə, məktəb və mədəniyyət ocaqlarına verilməsi məhz bu dahi şəxsiyyətin adı ilə bağlıdır [1, s.5].

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Sənət adamlarına xüsusi dəyər verən ulu öndər həmişə demişdir ki, "mədəniyyət xalqların və dövlətlərin simasıdır". Bu gün özünün intibah dönəmini yaşayan Azərbaycan mədəniyyəti ulu öndər Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir. Yaradıcı insanları həmişə Heydər Əliyevin özünəməxsus yumorla, konkret sözlərlə və faydalı nəsihətləri ilə səsləndirən ulu öndər Heydər Əliyevi hörmət və ehtiramla anırıq.

## Ədəbiyyat siyahısı:

1. Qarayev Ə. Azərbaycan ruhunun simvolu. Azərbaycan". – 2009. – 12 dekabr. – N 276.– s.5.
2. Quliyev Ə. Heydər Əliyev – Azərbaycan incəsənətinin misilsiz himayədarı. Xalq qəzeti.- 2012. – 9 dekabr. – s.3.
3. Tağızadə G. "Heydər Əliyev və sənət müasirləri". 525-ci qəzet. – 2013. – 9 may. – s.7.

**Parvana Moradi**

# HAYDAR ALIYEV PHENOMENON IN AZERBAIJAN FINE ART

**Summary:** The image of national Heydar Aliyev is the brightest common theme of the multicultural environment in fine art. Artists and sculptors from many countries of the world also address the subject of Heydar Aliyev, who is a living and eternal symbol of Azerbaijanism. In the cities of many countries, we encounter statues of Heydar Aliyev in parks named after him. There are statues of the greatest Azerbaijani leader Heydar Aliyev in Turkey, Russia, Great Britain, Ukraine, Georgia, Romania and other countries. This shows respect for the multicultural values of those countries.

The image of the national leader is reflected in many fine art examples.

**Key words:** fine art, Heydar Aliyev, portrait of Heydar Aliyev, modern painting school, Azerbaijani artists

UOT. 02

**Baxış Ələsgərov**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı,**
**tarix üzrə fəlsəfə doktoru**
**E-mail:elesgerovl963@mail.ru**

**Yaqub Səmədov**
**tarix üzrə fəlsəfə doktoru**
**E-mail: ayaqub.semedov63@mail.ru**

# AZƏRBAYCANDA KİTABAXANA-İNFORMASİYA SAHƏSİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Açar sözlər:** kitabxana, qloballaşma, informasiya əsri, kompüterləşmə, biblioqrafiya

Bəşər tarixinə nəzər salsaq, belə bir qanunauyğunluq özünü qabarıq şəkildə göstərir ki, hər bir dövr özünəməxsus mühüm inkişaf prosesləri ilə yanaşı, həm də böyük elmi və mədəni əhəmiyyətə malik hadisələri ilə diqqəti cəlb edir. Dünya alimləri XX əsrin sonuncu onilliyindən başlayaraq XXI əsri “kompüterləşmə əsri” və “informasiya əsri” hesab etmişlər.

1993-cü ildə Azərbaycanda yaranan çox mürəkkəb tarixi şərait mühüm informasiya sahələrindən olan kitabxana şəbəkələrini də məhv olmaq təhlükəsi qarşısında qoydu. Məhz bu dövrdə Ulu Öndərimizin xalqın tələbi ilə yenidən Azərbaycana rəhbərlik etməyə başlaması bütövlükdə elmimizi, mədəniyyətimizi tamamilə dağılmaqdan xilas etdiyi kimi, kitabxana şəbəkələrinin də məhvinin qarşısını aldı. Bu dövrdə ulu öndər müstəqil Azərbaycan Respublikasında kitabxana işini daha da canlandırmaq üçün 1995-ci ildə Nazirlər Kabinetinə xüsusi tapşırıq verdi. Bu göstərişə müvafiq olaraq 1996-cı ildə Nazirlər Kabinetində kitabxana işçilərinin Respublika müşavirəsi keçirildi və orada kitabxana işinin inkişafının yeni istiqamətləri müəyyən olundu, yeni vəzifələr müəyyənləşdirildi.

1998-ci ildə Prezident Heydər Əliyev tərəfindən Azərbaycan kitabxana tarixində dönüş mərhələsi hesab olunan “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi [9]. Müasir dövrdə Azərbaycanda kitabxana-informasiya sahəsindən bəhs edərkən bir cəhəti xüsusi vurğulamaq lazımdır ki, məhz bəhs edilən dövrdə bu istiqamətdə olduqca mühüm uğurlar da əldə edildi.

Bəşər tarixinə nəzər salsaq, belə bir qanunauyğunluq özünü qabarıq şəkildə göstərir ki, hər bir dövr özünəməxsus mühüm inkişaf prosesi ilə yanaşı, həm də böyük elmi və mədəni əhəmiyyətə malik hadisələri ilə də diqqəti cəlb edir. Dünya alimləri XX əsrin sonuncu onilliyindən başlayaraq XXI əsri “kompüterləşmə əsri” və “informasiya əsri” hesab etmişlər. Bunun əsas səbəbi informasiyanın cəmiyyətin əsas aparıcı qüvvələrindən birinə çevrilməsi, sənaye cəmiyyətindən informasiya cəmiyyətinə sürətlə keçidlə əlaqədar idi. İlk kitabxanaların tarixindən 5 min il keçir. Bu beş min ildə milyonlarla oxucuya xidmət edən kitabxanalar öz ilk forma və strukturlarını əsasən saxlamış, ancaq daimi təkmilləşmiş, dövrlə, zamanla ayaqlaşmağa çalışmışlar [6, s.107].

Azərbaycan kitabxanalarının flaqmanı, milli mənəvi dəyərlərimizin etibarlı saxlanc yeri və tarixi yaddaşımız hesab olunan Milli Kitabxananın müasir dövrün tələblərinə uyğun inkişafı və yenidən qurulması işlərinin bünövrəsi də 90-cı illərin ikinci yarısında Ulu Öndərin rəhbərliyi altında, bilavasitə onun iştirakı ilə həyata keçirilmişdir. M.F.Axundov adına Milli Kitabxanaya üçüncü dəfə gələn və 1997-ci il noyabrın 5-də “Azərbaycan qaçqınları” fotoalbomunun təqdimat mərasimində iştirak edən Heydər Əliyev həmin mərasimdə Baş nazirə göstəriş verdi ki, Milli Kitabxanaya xarici dillərdə yeni ədəbiyyatın alınması məqsədilə 1997-ci ildən başlayaraq hər il 5000 ABŞ dolları həcmində əlavə vəsait ayrılsın. Bir

cəhəti xüsusi vurğulamaq lazımdır ki, 1995-1997-ci illərdə ulu öndər Milli Kitabxananı 4 dəfə ziyarət etmiş və ilk gəlişində bu kitabxanaya öz şəxsi kitabxanasından 300 nüsxəyə yaxın kitab hədiyyə etmişdir (Milli Kitabxanada "Ulu öndər Heydər Əliyevin Həyatında Kitab Və Mütaliənin Rolu" mövzusunda tədbir. Azərbaycan Milli Kitabxanası, Xəbərlər: Link. https://www.millikitabxana.az/news/ulu-onder-heyder-eliyevin-heyatinda-kitab-ve-mutalienin-rolu)

Bunun ardınca, yəni 1998-2000-ci illərdə Heydər Əliyevin ciddi tapşırığı ilə Nazirlər Kabineti Milli Kitabxananın və sahəvi elmi kitabxanaların, rayon və şəhər kitabxanaların statusu və əsasnamələrinin təsdiqi, fondlarının uçotu və mühafizəsi haqqında qərarlar qəbul etdi (Tahirov K. "Heydər Əliyev müstəqil Azərbaycanda kitabxana quruculuğunun banisidir". "525-qəzet", 09 may 1921-ci li).

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan Respublika Prezidenti İlham Əliyev tərəfindən verilən 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli Sərəncam da kitabxana-informasiya sahəsinin inkişafında olduqca mühüm rol oynadı və bu sərəncamla "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" təsdiq olundu. Sərəncamda xüsusi olaraq qeyd olundu ki, "Azərbaycan Respublikasında kitabxana-informasiya şəbəkəsinə daxil olan kitabxanaların 90 faizi müasir tələblərə cavab vermir. Bir neçə kitabxana istisna olmaqla, kitabxanaların əksəriyyəti yararsız vəziyyətdədir. Kənd və qəsəbə kitabxana filiallarının 79,2 faizinin sahəsi darısqal olduğundan, oxu zalları təşkil etmək qeyri-mümkündür. Bu səbəbdən əhalinin 66,8 faizi kitabxanalardan istifadə edə bilmir. Mingəçevir, Şəki, Naftalan, Sumqayıt, Yevlax, Şirvan şəhər, Ağcabədi, Astara, Beyləqan, Bərdə, Qazax, Qobustan, Zaqatala, Yardımlı, Lerik, Neftçala, Biləsuvar, Samux, Xaçmaz, Cəlilabad, Ucar, Kürdəmir və digər rayon kitabxanalarının müxtəlif sahələrə aid yeni nəşrlərlə təminatına, fondlarının mühafizəsinə, binalarının əsaslı təmirinə, avadanlıqla təmin edilməsinə və kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasına ciddi ehtiyac vardır" [1].

Məlum olduğu kimi, müasir dövrdə kitabxanaların inkişafı informasiya xidmətinin məqsədyönlü təşkilindən daha çox asılıdır. İnformasiyalaşdırılmış cəmiyyətdə, xüsusilə də bu cəmiyyətin əsas atributlarından olan kitabxana işi zamanın tələblərinə uyğun qurulmalı, kompüterləşdirilməli, informasiyalaşdırılmalı və informasiya xidmətinin mərkəzinə çevrilməlidir. Bu isə ilk növbəsində, kitabxanaların kompüterləşdirilməsini, kompüter texnologiyasının sürətlə kitabxana işinə tətbiq edilməsini, kitabxanaların. İlk növbədə böyük kitabxanaların regional və qlobal kompüter şəbəkəsinə qoşulmasını tələb edir" [3, s.184-185].

Kitabxanaların xidmət növləri içərisində "kitabxana xidməti", "biblioqrafiya xidməti", "informasiya xidməti" həmişə mədəni və elmi səviyyəyə malik insanların diqqət mərkəzində olmuş, bilik və zəka daşıyıcıları kimi nəsildən-nəslə ötürülməklə elmi-texniki tərəqqinin sürətlənməsinə xidmət etmişdir" [5, s.81]. Xidmət növlərinə gəldikdə isə zamandan asılı olaraq müxtəlif dövrlərdə fərqli xarakter daşısa da, bu fərq özünü göstərsə də, lakin mahiyyət dəyişmir.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununun 29-cu maddəsində kitabxanaların avtomatlaşdırılmasının hüquqi əsasları müəyyən edilmişdir. Bundan başqa "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi" haqqında, "EHM-lər və məlumat bazaları üçün proqramın mühafizəsi" haqqında Azərbaycan Respublikasının Qanununda informasiya sistemlərinin sənəd bazası kimi kitabxanaların roluna diqqət verilmişdir. Respublika Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması" haqqında 21 aprel 2007-ci il tarixli sərəncamında ölkənin iri kitabxanalarının elektron kataloqu və elektron kitabxanaların müasir standartlar səviyyəsinə qaldırılması da [7, s.87] müasir dövrdə kitabxanaların ictimai həyatda informasiya vasitəsi kimi necə mühüm rol oynadığını tam şəkildə göstərir.

Müasir dövrdə Azərbaycanda kitabxana-informasiya sahəsindən bəhs edərkən bir cəhəti xüsusi vurğulamaq lazımdır ki, bu istiqamətdə mühüm uğurlar da əldə edilmişdir. Belə ki, müstəqillik illərində respublikamızda milli dəyərlərə söykənən kitabxanaşünaslığın bir elm kimi inkişafı sahəsində ciddi

addımlar atılmış, bir çox qiymətli elmi-tədqiqat əsərləri, məqalələr, monoqrafiyalar, dərsliklər meydana çıxmış, yeni ümumbəşəri, dünya kitabxanaşünaslığına söykənən müasir kitabxanaşünaslıq formalaşmağa başlamışdır [4, s. 9].

Kitabxana-informasiya sahəsində əldə olunan dəyişikliklər nəticəsində:

– Kitabxanalar informasiyanı davamlı şəkildə (hər gün, hər saat) təqdim edə bilir;

– İnformasiya təminatı İKT-nin tətbiqi vasitəsilə həyata keçirilir;

– İnformasiyanın çox istifadəliliyi təmin edilir;

– İnformasiyanın etibarlılığına zəmanət verilir (İnternetdə toplanmış əksər informasiya massivlərindən fərqli olaraq);

– Qloballaşmanın və informasiyalaşdırmanın tələblərinə tam cavab verir;

– Milli özünəməxsusluğu mühafizə etməklə yanaşı, həm də mədəni yeknəsəqliyi aradan qaldırır [2, s.143-144].

Azərbaycanda kitabxana-informasiya sahəsində dövlət siyasətini həyata keçirən, ölkənin ən böyük kitabxanası M.F.Axundov adına Milli Kitabxanadır. Ulu öndərimizin Milli Kitabxanamıza xüsusi qayğısının bariz nümunələrindən biri 2000-ci ildə kitabxananın binasında əsaslı yenidənqurma işlərinin aparılması və texniki təchizatının gücləndirilməsi barədə verdiyi tapşırıq oldu. Hətta, 2000-ci ilin may ayında Avropa Şurasının ayırdığı dövlət qrantı hesabına Ərazilərin Bərpası və Yenidən qurulması Agentliyinin xətti ilə bərpa olunması nəzərdə tutulan 3 ən mühüm müəssisə seçilib Ulu Öndərə təqdim olunarkən, O, M.F.Axundov adına Dövlət Kitabxanasının bərpasını ön plana çəkdi. Milli Kitabxanada oxucular üçün əlverişli şəraitin olması, kitabxanamızın saytının, elektron kataloqunun, elektron kitabxanasının yaradılması və onun virtual rejimdə bütün dünyaya yayılması məhz Ulu Öndərin kitabxanaya qayğısı və diqqətinin nəticəsi hesab oluna bilər.

Prezident Heydər Əliyevin tapşırığına əsasən M.F.Axundov adına Milli Kitabxana, həm Azərbaycanda keçirilən beynəlxalq mədəni tədbirlərin (TÜRKSOY, Humanitar Forum) mərkəzinə çevrildi, həm də ölkəmizin mədəni həyatında mühüm rol oynamağa başladı. Hətta, M. F.Axundov adına Milli Kitabxana türk dünyasının böyük mütəfəkkiri Nizami Gəncəvinin 870 illiyinə, yazıçı, publisist Abdulla Tuqayın 125 illiyinə, yazıçı-dramaturq Sabit Rəhmanın 100 illiyinə həsr olunmuş tədbirlərin [8] təşkilatçısına çevrildi.

Yuxarıda deyilənləri yekunlaşdırıb belə nəticəyə gəlmək olar ki, Heydər Əliyev müasir dövrdə Azərbaycanda kitabxana – informasiya sahəsinin inkişafına böyük töhfələr vermiş və onun bu istiqamətdəki fəaliyyətinin daha dərindən araşdırılmasına, təbliğinə zəruri ehtiyac vardır.

## Ədəbiyyat siyahısı:

1. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı". Prezident Sərəncamı. Bakı şəhəri, 6 oktyabr 2008-ci il № 3072. https://e-qanun.az/framework/15493.

2. Cəfərov C. Kitabxana-informasiya xidmətində elektron kataloq. Bakı: Proqres, 2012.

3. Xələfov A. Kitabxanaçılığa giriş.Dərslik. III hissə. Bakı, Bakı Universitet Nəşriyyatı. 2003.

4. Xələfov A. Kitabxanaşünaslıq fəlsəfəsi. Link. Jurnal_ 1_ 2008. pdf.

5. İsmayılova N. Kitabxanalarda informasiya kommunikasiya texnologiyaları vasitəsilə oxuculara xidmətin təşkili. Kitabxanaşünaslıq və informasiya, Elmi-nəzəri jurnal. № 3(24). Bakı, 2017.

7. Məmmədova Y. İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların rolu. İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların rolu. Kitabxanaşünaslıq və informasiya, Elmi-nəzəri jurnal. № 2(5). Bakı, 2011.

8. Sarıyeva İ. Azərbaycanda kitabxana-informasiya sisteminin inkişafına dövlət qayğısı. 15 dekabr 2015-ci il. Link: https://www.baki-xeber.com/layihe/30682.html.

9. Tahirov K. Azərbaycanda kitabxana işinin inkişafına Heydər Əliyev qayğısı. Xalq qəzeti. – 2010. – 7 may. – s.8.

**Bakhish Alasgarov,**
**Yagub Samadov**

## LIBRARY - INFORMATION FIELD IN AZERBAIJAN THE ROLE OF HAYDER ALIYEV IN THE DEVELOPMENT

**Summary:** If we look at human history, such a regularity is evident that each period attracts attention not only with its own important development processes, but also with events of great scientific and cultural importance. Starting from the last decade of the 20th century, world scientists have considered the 21st century as the "age of computerization" and "the age of information". In 1993, the very complicated historical conditions that arose in Azerbaijan put the library networks, which are important information fields, in danger of destruction. It was during this period that our Great Leader began to lead Azerbaijan again at the request of the people, as well as saved our science and culture as a whole from being completely destroyed, and also prevented the destruction of library networks. In 1998-2000, with the strict instructions of Heydar Aliyev, the Cabinet of Ministers adopted decisions on the approval of the statutes and regulations of the National Library and regional scientific libraries, district and city libraries, accounting and protection of their funds. The National Library named after M.F. Akhundov is the largest library of the country, which implements the state policy in the field of library and information in Azerbaijan. One of the clear examples of our great leader's special care for our National Library was the task he gave in 2000 to carry out fundamental reconstruction works in the library building and to strengthen its technical equipment. Summarizing the above, we can conclude that Heydar Aliyev made great contributions to the development of the library and information field in Azerbaijan in modern times. and there is an urgent need to investigate and promote his activities in this direction.

**Key words:** library, globalization, information age, computerization, bibliography

**UOT 008:323.17**

**Günel Kərimli,**
**Gülnarə Qurbanova,**
**Mingəçevir Dövlət Universiteti,**
**müəllim**
**E-mail: Mirzoyeva_86@mail.ru**

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN HİMAYƏDARI

> **"Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur"**
> **Heydər Əliyev**

**Xülasə:** Heydər Əliyevin hakimiyyəti dövründə Bakının görkəmli yerlərində Azərbaycan xalqının keçmişində dərin iz qoymuş görkəmli şəxsiyyətlərin heykəlləri ucaldılmış, ev muzeyləri yaradılmışdı. Heydər Əliyev çox gözəl bilirdi ki, böyük şəxsiyyətlərin abidəyə çevrilməsi xalqın milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcək.

Xalqın istəyi ilə hakimiyyətə qayıdan ulu öndər ölkəmiz müstəqillik qazandıqdan sonra bir müddət çətinliklər qarşısında qalan Azərbaycan mədəniyyətinə yeni abı-hava gətirdi, onun tərəqqisinə yeni təkan verdi. Xaricə üz tutmuş incəsənət xadimləri vətənə qayıtdılar, bir sıra sənət adamlarına fəxri ad, müxtəlif mükafatlar verildi.

**Açar sözlər:** Azərbaycan mədəniyyəti, Heydər Əliyev, mədəniyyətimizin inkişafı, milli kino, kino istehsalı

Yaşadığı bütün həyatı boyu xalqını, vətənini düşünən, ürəyi doğma xalqının xoşbəxtliyi üçün çırpınan, ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini möhkəmləndirmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəmizi bəlalardan qurtarmağı bacarmışdır. Müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrin məşhur siyasi xadimləri arasında həmişəlik və layiqli yerini tutan Heydər Əliyev bir sıra siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmişdir. Ən böyük amalı Azərbaycanı şöhrətləndirmək olan bu dahi insan tükənməz enerjiyə malik idi. Zəngin düşüncələrə malik dahi şəxsiyyət qarşıya konkret məqsədlər qoyur və insanları bu məqsədlər naminə səfərbər edirdi. Elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı ilə yanaşan Heydər Əliyev vətəninin tərəqqisinin yeganə yolunu xalqın maariflənməsində görürdü. Fundamental və humanitar elmlərə böyük əhəmiyyət verən ümummilli liderimiz belə hesab edirdi ki, ölkənin iqtisadi bazasının gücləndirilməsi ilə elm və təhsilin inkişafı paralel aparılmalıdır [3].

Heydər Əliyev dövrü Azərbaycan tarixinə elmin, təhsilin və mədəniyyətin tərəqqi dövrü kimi həkk olundu. Heydər Əliyevin hakimiyyəti dövründə nəinki paytaxtda, eləcə də ölkəmizin müxtəlif rayon və şəhərlərində çoxsaylı uşaq bağçası, məktəb, mədəniyyət evləri, kitabxanalar açıldı. Milli-mənəvi dəyərlərimizi beynəlxalq aləmdə tanıdan Heydər Əliyev sayəsində mədəniyyətin bütün sahələrində görünməmiş uğurlar qazanıldı. İnsanların əməyini yüksək qiymətləndirən ulu öndərin qayğısı sayəsində çox sayda görkəmli bəstəkar, rəssam, şair, yazıçı, heykəltəraş yetişdi. İncəsənətə meyli olan Heydər Əliyev Azərbaycanda mədəniyyətin maddi-texniki bazasının möhkəmlənməsinə xüsusi diqqət yetirirdi. Azərbaycan gəncləri Sankt-Peterburq, Moskvanın incəsənət yönümlü ali təhsil müəssisələrində təhsil alıb vətənə qayıdırdılar [2].

Heydər Əliyevin hakimiyyəti dövründə Bakının görkəmli yerlərində Azərbaycan xalqının keçmişində dərin iz qoymuş görkəmli şəxsiyyətlərin heykəlləri ucaldılmış, ev muzeyləri yaradılmışdı. Heydər Əliyev çox gözəl bilirdi ki, böyük şəxsiyyətlərin abidəyə çevrilməsi xalqın milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcək.

Xalqın istəyi ilə hakimiyyətə qayıdan ulu öndər ölkəmiz müstəqillik qazandıqdan sonra bir müddət çətinliklər qarşısında qalan Azərbaycan mədəniyyətinə yeni abı-hava gətirdi, onun tərəqqisinə yeni təkan verdi. Xaricə üz tutmuş incəsənət xadimləri vətənə qayıtdılar, bir sıra sənət adamlarına fəxri ad, müxtəlif mükafatlar verildi.

Milli kinomuzun inkişafında danılmaz xidmətləri olan Heydər Əliyev bir sıra filmlərin yaranmasında təşəbbüs göstərmişdir. İncəsənətin bütün sahələrində olduğu kimi, Azərbaycan kinosunun inkişafı Ulu Öndərin adı ilə bağlıdır. Heydər Əliyevin səyləri nəticəsində kino istehsalı bərpa olundu, bir neçə film yaradılıb Sovet senzurasından keçdi. Arxiv sənədlərini araşdıran kinoşünaslar kino tarixinin 2 avqust 1898-ci il tarixinə aid olduğunu aşkar etmişlər. Həmin gün kino işçilərinin peşə bayramı kimi qeyd olunur. Hakimiyyətə gəlişi ilə fəaliyyətində canlanma hiss olunan Azərbaycanfilm maraqlı sənət nümunələrini tamaşaçıların ixtiyarına təqdim etdi.

Eldar Quliyevin Rüstəm İbrahimbəyovun ssenarisi əsasında çəkdiyi "Bir cənub şəhərində" filmi daxili baxışdan sonra tənqid olunaraq, onun kütləvi nümayişinə qadağa qoyulur. Azərbaycan SSR Mərkəzi Komitəsinə birinci katib təyin olunan Heydər Əliyev "Bir cənub şəhərində" filmini tamaşaçıya qaytarır.

"Bir cənub şəhərində" filmindən başqa tamaşaçılara qaytarılan digər film isə "İstintaq" filmi oldu. Bu film də sovet senzurasından keçmədiyinə görə onun ekranlara çıxmasına maneələr olsa da, Heydər Əliyevin gördüyü tədbirlər sayəsində "İstintaq" filmi də şöhrət qazandı.

Kino sahəsini xüsusi qayğı ilə əhatələyən siyasi xadim tarixi filmlərin yaranmasına şərait yaratmışdır. Azərbaycançılıq ideologiyasına xüsusi önəm verən Ulu Öndərin təşəbbüsü ilə "Kitabi-Dədə Qorqud" motivləri əsasında bədii film çəkildi. Milli düşüncə, azərbaycançılıq ideologiyası geniş əks olunduğu üçün Heydər Əliyev qədim yazılı abidə olan "Kitabi-Dədə Qorqud" dastanının araşdırılması və tədqiq edilməsinə görə alimlərə şərait yaratmış, 15 may 1999-cu ildə isə "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin layiqincə keçirilməsi barədə fərman imzalamışdır [1].

1979-cu ildə Ənvər Məmmədxanlının ssenarisi əsasında çəkilən "Babək" filmi Sovet kino tarixinin ən bahalı filmləri sırasına daxil edilmişdir. Belə ki, Heydər Əliyevin qayğısı sayəsində ümumittifaq büdcəsindən filmin çəkilişlərinə xeyli miqdarda vəsait ayrılmışdır. Qeyd olunanlar, "Ulduzlar sönmür", "Nəsimi", "Nizami" filmlərinin çəkiliş proseslərini nəzarətdə saxlaması Heydər Əliyevin elmə, mədəniyyətə verdiyi yüksək qiymətin təcəssümünü əks etdirir.

Teatrı çox sevən Heydər Əliyevin teatrların fəaliyyətlərinin genişləndirilməsində xüsusi rolu olmuşdur. Ulu öndər həmişə tamaşadan sonra yaradıcı kollektivlə görüşərək öz tövsiyyələrini verirdi bu da sənət adamlarının məsuliyyətlərini daha da artırırdı.

"Əsl məhəbbət haqqında", "Xüsusi təyinat", "Birinci", "Lider", "Patriot", "General", "Moskva, Kreml", "Tale", "Bir həsədin tarixi", "Professional" filmləri Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən uğurlu filmlərdir. ümummilli liderin fəaliyyətini əks etdirən bu cür filmlər, sənət əsərləri, ədəbi əsərlərdən gələcək nəsillər çox şey öyrənəcəklər.

Ulu öndərin mədəniyyətimizin inkişafı ilə bağlı ideyaları müasir dövrdə də davam etdirilir. Mədəniyyət obyektlərinin təmir olunması və yenilərinin tikintisi, kinoteatrların, teatr binalarının təmir olunması buna əyani sübutdur. Bakı şəhərində bütün teatr binaları təmir olunmuşdur. Azərbaycan mədəniyyətinin dünyaya inteqrasiyası istiqamətində ən mühüm hadisələrdən biri isə Bakının İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi oldu. Milli mənəvi dəyərlərimizə qayğısında Heydər Əliyev fondunun prezidenti YUNESKO və İESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri danılmazdır. 2005-ci ildə görkəmli muğam ustaları ilə birgə keçirilmiş dəyirmi masadan sonra

Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınır və 2008-ci ildə Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mərkəzin açılışını etdilər. Mərkəzin ümumi sahəsi 7.5 min $m^2$ olmaqla Azərbaycanın qədim musiqi aləti tarın hissələrini xatırladır.

**Ədəbiyyat siyahısı:**

1. Əl-Fəlah Adil Abdulla. Heydər Əliyev və milli mənəvi dəyərlər / A. A. Əl-Fəlah; elmi red. A. Paşazadə; rəy. V. M. Məmmədəliyev, F. Qasımzadə. – Bakı: Qismət, 2007. – 108 səh.
2. Hüseynova İradə Mehdiqulu qızı. Müstəqil Azərbaycan dövlətinin qurucusu: monoqrafiya /İ. M. Hüseynova; elmi red. Ə.M.Həsənov. – B.: Təhsil, 2004. – 472 səh.
3. Ülvi Almaz. Ədəbiyyat ömrü yaşayan əbədiyyət memarı /A.Ülvi; red. N.Süleymanov. – Bakı: Nurlan, 2004. – 80 səh.

**Gunel Karimli,**
**Gulnara Gurbanova**

## PATRON OF AZERBAIJAN CULTURE

**Summary:** During the reign of Heydar Aliyev, statues of outstanding personalities who left a deep mark on the history of the Azerbaijani people were erected in prominent places in Baku, and house museums were created. Heydar Aliyev knew very well that the transformation of great personalities into monuments will have an extremely positive effect on strengthening the national feelings of the people.

The great leader, who returned to power at the request of the people, brought a new atmosphere to the Azerbaijani culture, which faced difficulties for a while after our country gained independence, and gave a new impetus to its progress. Artists who went abroad returned to their homeland, and a number of artists were given honorary titles and various awards.

**Key words:** Azerbaijani culture, Heydar Aliyev, development of our culture, national cinema, film production

**UOT 72:94[479.24]**

**Nurlana Bağırova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş müəllim**
**E-mail: nurlana.baghirova@admiu.edu.az**

# QARABAĞIN MEMARLIQ ABİDƏLƏRİ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏDƏNİYYƏT KONSEPSİYASININ TƏRKİB HİSSƏSİ KİMİ

**Xülasə:** Məruzədə Qarabağın memarlıq abidələri ulu öndər Heydər Əliyevin mədəniyyət konsepsiyası kontekstində araşdırılır. Xalqın milli sərvəti olan bu maddi-mədəniyyət abidələrinin mədəni irsimizdəki əhəmiyyəti təhlilə cəlb olunur. Qarabağın bütünlüklə tarixini, maddi-mənəvi sərvətlərini özündə minilliklər boyu qoruyub saxlayan tariximizin, mədəniyyət və mənəviyyat abidələrimizin yenidən bərpasının vacibliyi əsaslandırılır. Milli-mədəni irsimizi mahiyyətcə yeni inkişaf mərhələsinə yüksəldən, ümummilli liderimizin hakimiyyəti dövründə yaradılmış Qarabağın memarlıq abidələrinin təbliğinin əhəmiyyəti və zəruriliyi göstərilir.

**Açar sözlər:** mədəniyyət, memarlıq, mənəvi dəyərlər, muzey, eksponat

Hər bir xalqın mədəni irsi nəinki daşınmaz tarix və mədəniyyət abidələrini, eyni zamanda tarixə şahidlik edən bütün sənədlərə və milli-mənəvi dəyərlərə aid daşınan abidələri də əhatə edir. Mədəniyyətin nəhəng resursu olan tarix və mədəniyyət abidələri onun mədəni irsinin özəyini təşkil edir. Milli Məclisdə qəbul edilmiş 10 aprel 1998-ci il tarixli "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunda göstərilir: "Tarix və mədəniyyət abidələri arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri, əşyalar, xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir" [1, s.12]. Deməli, mədəni irs, mədəni dəyər, tarix və mədəniyyət abidəsi biri-birindən fərqli fenomenlərdir.

Sadalanan anlayışların fərqli xüsusiyyətlərində mühafizəçilik amili əsas rol oynayır. Mühafizəçilik, mədəni irs obyektinin dəyərliyi arqumentindən çıxış edərək, məhz həmin obyekt üçün xüsusi mühafizə rejimini müəyyən edir. Bu isə öz növbəsində həmin obyektin "tarix və mədəniyyət abidəsi" adlı hüquqi statusda tanınmasını təmin edir. Hüquqi sənədlərdə tarix və mədəniyyət abidələrinin növləri arxeoloji, memarlıq, tarix, sənədli, incəsənət, qoruqlar, abidələrin mühafizə zonası kimi müəyyən olunmuşdur. Bu araşdırmada tədqiqat obyekti olan bu növlərdən mühüm əhəmiyyətə malik memarlıq abidələrinin muzeyşünaslıq aspektində sistemli təhlilinə üstünlük verildiyindən və Heydər Əliyevin mədəniyyət konsepsiyasında Qarabağın memarlıq abidələrinin yeri, əhəmiyyəti və təbliği məsələlərinə həsr olunduğundan mühüm aktuallıq kəsb edir.

Ötən yüzilliyin 70-80-ci illəri Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında özünəməxsus və spesifik xüsusiyyətləri ilə səciyyələnən bir tarixi zaman kəsiyidir. Ümummilli lider Heydər Əliyevin müdrik rəhbərliyi, həyata keçirdiyi düşünülmüş, məqsədyönlü tədbirləri hesabına 1969-1982-ci illər Azərbaycanın intibah dövrü kimi tarixə çevrilmişdir. "Sovet dövründə Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi zamanda Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdır" [2, s.37]. Hər şeydən əvvəl, Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən ümummilli liderimiz Qarabağın incisi Şuşanı abadlaşdırmaq, tarixi abidələri qoruyub saxlamaq və böyük bir muzeyə çevirmək üçün əhəmiyyətli işlər görmüşdür.

Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi Şuşa şəhərinin tarixi keçmişini yaxşı bilən Heydər Əliyev şəhərə çox böyük qayğı göstərərək onun inkişafına çalışmışdır. Eyni zamanda, ulu öndər Şuşanı

adi bir şəhər deyil, zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi qiymətləndirmişdir. Şəhərdəki "Qala divarları"nın və "Gəncə qapısı"nın bərpasına təkcə 1975-ci ildə 25 min manat (rubl) vəsait xərclənmişdir. Azərbaycanın mədəniyyət, incəsənət və elm xadimlərinin, o cümlədən XIX əsrin görkəmli ədibi Qasım bəy Zakirin məzarı qaydaya salınmışdır.

Şuşa şəhərində Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına qayğı göstərilməsi barədə xüsusi göstəriş verən ümummilli lider eyni zamanda, Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmışdır. Azərbaycan poeziyasının klassikləri Molla Pənah Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdur. Şuşa rayonunun rəhbərləri ilə keçirdiyi görüşdə Heydər Əliyev tövsiyə edərək bildirmişdir ki, Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır. Məhz onun bilavasitə səyləri nəticəsində, az sonra Şuşa şəhərini tarix-memarlıq qoruğu elan edən qərar qəbul olunmuşdur.

Həmin illərdə Ulu öndərin Qarabağa göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdır. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında, soyuqda Heydər Əliyev Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdır. Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən, milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən, diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı olmuşdur. Əslində bu məqbərə, eyni zamanda gözəl memarlıq abidəsi idi. Ümummilli lider abidənin tikintisini böyük, əlamətdar hadisə hesab etmişdir. Ona görə də, açılışa gedərkən yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdır. Bu addımı ilə o, ziyalıları Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirmiş, bölgəyə tez-tez səfərə gəlmələrini tövsiyə etmişdir.

Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada Poeziya evini açaraq, Vaqif poeziya günlərində iştirak etmişdir. Ulu öndər Üzeyir bəy Hacıbəyovun və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini vermişdir. "Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdir" [3, s.28]. Ümummilli liderin eyni zamanda Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən, azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə olmuşdur.

Heydər Əliyevin göstərişi ilə Qarabağda, xüsusilə Şuşada yaşamış digər elm və mədəniyyət xadimlərinin də xatirəsi əbədiləşdirilmişdir. 1982-ci il avqustun 2-də Şuşada şairə Xurşidbanu Natəvana abidə qoyulmuşdur. Nəticədə, məhz Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illərdə Şuşa şəhərinin və Qarabağın azərbaycanlılar yaşayan digər məntəqələrinin siması əsaslı şəkildə dəyişmiş, yeni iş yerləri açılmış, yerli əhalinin milli ruhu daha da yüksəlmişdir. Bundan əlavə, ümummilli liderin göstərişi ilə Xankəndində Pedaqoji İnstitutun açılması, orada Azərbaycan bölməsinin yaradılması ilə azərbaycanlı ziyalıların daimi işlə təmin olunması, Qarabağda yeni elmi-mədəni mühitin formalaşmasına, yerli əhalinin ali təhsil almasına və doğma yerlərə daha sıx bağlanmasına əlverişli şərait yaratmışdır.

Beləliklə, erməni əsirliyindən azad edilmiş və ulu öndərimiz Heydər Əliyevin mədəniyyət konsepsiyasında mühüm yer tutan Qarabağın milli-mədəni dəyərləri müasir dövrdə Azərbaycanın tarixi-mədəni irs potensialının əsası kimi gənc nəslin diqqətinə çatdırılmalıdır. Bu sahədə İnternetdən, müasir informasiya-kommunikasiya texnologiyalarından və innovativ həllərdən istifadə olunması üçün muzeylərdə müvafiq tədbirlərin görülməsi zəruridir. Özünəməxsus milli-mənəvi dəyərlərimizi sivilizasiyanın ilkin mərhələsindən müasir dövrədək mühafizə edən Qarabağın mədəni-tarixi və memarlıq abidələrinin respublikamızda və xaricdə geniş miqyasda təbliği istiqamətində görülən işlər gücləndirilməlidir. Tövsiyə edirik ki, bu abidələrlə bağlı aparılmış tədqiqatların nəticələrini özündə əks etdirən nəşrlər, foto-albomlar əcnəbi dillərə tərcümə olunsun, rəqəmsal variantları virtual mühitdə yerləşdirilərək geniş oxucu auditoriyasına çatdırılsın.

**Ədəbiyyat siyahısı:**

1.Qarabağlı R. Qarabağın memarlıq irsi. Monoqrafiya / R.Qarabağlı; elmi red. Ə.Salamzadə. – Bakı: Gənclik, – 2021. – 352 s.
2.Məmmədov S. Qarabağ: mif və həqiqət. Dərs vəsaiti / S.Məmmədov, T.Məmmədov; elmi məsl. N.Tağısoy; red.: Y.Alxasov, İ.Quliyev. – Bakı: Təhsil, – 2022. – 480 s.
3. Məsud A. Qarabağın incisi Şuşa / A.Məsud; arxiv materiallarının topl. üzrə məsul H.Nərimanoğlu; red. Y.Əliyev. – Bakı: Azərbaycan Dövlət Tərcümə Mərkəzi, – 2010. – 164 s.

**Nurlana Baghirova**

## ARCHİTECTURAL MONUMENTS OF KARABAKH AS A PART OF THE CULTURAL CONCEPT OF THE GREAT LEADER HAYDER ALİYEV

**Summary:** The article examines the architectural monuments of Karabakh in the context of the great leader Heydar Aliyev's concept of culture. The importance of these material and cultural monuments, which are the national wealth of the people, in our cultural heritage is involved in the analysis. The importance of the restoration of our historical, cultural and spiritual monuments, which have preserved the entire history, material and spiritual wealth of Karabakh for thousands of years, is justified. The importance and necessity of promoting the architectural monuments of Karabakh created during the reign of our national leader, which elevates our national-cultural heritage to a new stage of development, is shown.

**Key words:** culture, architectura, spiritual values, museum, exhibit

**UOT 82.[091]**

**Yeganə Hüseynova**
**Gəncə Dövlət Universiteti,**
**filologiya üzrə fəlsəfə doktoru, baş müəllim**
**E-mail: yeganesabirhuseynli@gmail.com**

# HEYDƏR ƏLİYEV VƏ ƏDƏBİYYAT

**Açar sözlər:** ulu öndər, Heydər Əliyev, şair, şəxsiyyət

Tarixdə yalnız o adamlar qalır ki, zaman onların izini itirməyə və silməyə qadir deyildir. Belə adamlar şəxsiyyətdir. Şəxsiyyəti isə şəxsiyyət edən millətinə, xalqına xidmətdir, Müdrikliyə xas olan keyfiyyətlər belə şəxsiyyətlərdə qədərindən çoxdur və mübarizə meydanını özlərinə şərəf sayır. Əqidəsindən geri çəkilməyən, gələcəyi görən belə adamlar mübarizə meydanına girəndə ölümdən qorxmur, təhlükələrə daim hazır olur. İnsan və zaman anlayışında zaman bu insanları şəxsiyyət sayır. Ulu öndər Heydər Əliyev belə fenomen ŞƏXSİYYƏTdir.

Azərbaycan dövlətinin möhkəmlənməsi, dünyada nüfuz qazanması və inkişafı Azərbaycanın böyük oğlu, Azərbaycanı dünya miqyasında tanıdan Heydər Əliyevin siyasi fəaliyyətini təsdiqləyən faktlardandır. Heydər Əliyevin bioqrafiyası və siyasi fəaliyyətində güclü qətiyyətlik və müdriklik hakimdir. Əslində yaşamağı, işləməyi, ünsiyyət mədəniyyətini, Vətəni, torpağı və xalqını sevməyi və bütün bunların uğrunda mübarizə aparmağı biz ulu öndər Heydər Əliyevdən öyrənməli və özümüzdən sonra gələcək nəslə öyrətməliyik. Ulu öndərin bioqrafiyası – şəxsi həyatı, istərsə də siyasi fəaliyyəti böyük, ideoloji bir məktəbdir. Bu məktəb insana, Vətənə və xalqa məhəbbəti öyrədir. Onun bioqrafiyası və siyasi fəaliyyəti cəmiyyət və onun müxtəlif təbəqələri tərəfindən nə qədər dərindən öyrənilsə bir o qədər də kamilləşər. Dövlətçiliyimizin və şəxsi həyatımızın daha da möhkəmləndirilməsində, nümunəvi olmasında Heydər Əliyevin ideologiyasının öyrənilməsi vacib olan qiymətli xəzinədir. Bu xəzinəni gənc nəslə çatdırmaq hava və su qədər vacib və lazımdır.

Ulu öndər Heydər Əliyevin portretini sözlə yaratmağa cəhd göstərəndə "deyilən söz yadigardır..." – misrası istər-istəməz yada düşür və bu böyük şəxsiyyətin bütün mənəvi zənginliyinin, hərtərəfliliyinin sözlə təsvirini "canlandırmaq" cəhdlərinin əbəs olduğunu başa düşürsən. Həm də təkcə ona görə yox ki, "deyilən söz yadigardır...", ona görə ki, sözə üz tutan və həmin sözü ulu öndərə yaraşdıran gərək unutmaya ki, söz mərhum prezidentimiz Heydər Əliyevin ən böyük və güclü, kəsərli silahıdır. O, sözlə həm natiq, həm diplomatdır. O, ən yüksək dilçi-alimlər səviyyəsində sözə, söz mülkünə, ədəbiyyat aləminə bələddir. Onun siyasi portretini yaratmağın böyük çətinliklərinə baxmayaraq, Heydər Əliyev tarixçiləri, siyasətçiləri, ədəbiyyatçıları... heyrətdə qoyan fövqəlparlaq siyasi simadır.

Zaman keçdikcə illər arasına uzaq məsafələr dolduqca Heydər Əliyev dühasını, əzəmətini, ucalığını daha çox anlayırıq. "Mən fəxr edirəm ki, azərbaycanlıyam," – deyən dahi şəxsiyyətin siyasi fəaliyyəti ideoloji bir məktəbdir. Xalqını sevməyi, vətənini dünyada tanıtmağı, eli üçün əlindən gələnin daha çoxunu etməyi ulu öndərimizdən öyrənməliyik. Dahi şəxsiyyət fenomendir, idealdır, məktəbdir və bu ideal fenomen məktəb insana, vətənə və xalqa məhəbbət öyrədir, sevgi aşılayır. Bu ideologiya tükənməz xəzinədir və xəzinəni gələcək nəslə olduğu kimi çatdırmaq bizim borcumuzdur. Azərbaycan dövlətinin dünyada nüfuz qazanması, möhkəmlənməsi, tərəqqisi ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətini təsdiqləyən faktlardandır. Çingiz Aytmatov təsadüfən "Heydər Əliyev tarixi, hətta əfsanəvi şəxsiyyətdir," – deyə yazmayıb. Bu tarixi və əfsanəvi şəxsiyyət ədəbiyyatdan danışarkən sanki bir ədəbiyyatşünas danışır sanırsan. Ensiklopedik hafizəyə malik müdrik şəxsiyyət Azərbaycan ədəbiyyatının

istər klassikləri, istərsə də müasiri olduğu yazarlar haqqında öz fikrini demiş, milli-mənəvi, tarixi keçmişinə hörmətlə yanaşmış və sonsuz xidmət göstərmişdir.

Ulu öndərin hərtərəfli fəaliyyətində Azərbaycan ədəbiyyatına xidməti və töhfəsi sonsuzdur. İstər sovet dövründə, istərsə də müstəqillik illərində əfsanəvi şəxsiyyət Heydər Əliyevin ölkəmizə rəhbərliyi zamanında milli dəyərlərin inkişaf etdirilməsi, elm, təhsil, mədəniyyət və ədəbiyyata qayğı və diqqət həmişə öndə olmuşdur. Hələ 1972-ci ildə Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncam, 1981-ci ilin avqustunda Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında imzaladığı qərar, 1982-ci ildə Hüseyn Cavidin nəşinin uzaq Sibirdən gətirilməsi doğma torpaqda dəfn edilməsi, 2000-ci il fevralın 7-də "bütöv bir xalqın qəhrəmanlıq eposu" ("Kitabi-Dədə-Qorqud" ensiklopediyası, 2000) "Kitabi-Dədə-Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncam və s. dediklərimizə sübutdur.

Azərbaycan mədəniyyətinin ən böyük himayədarı və qoruyucusu əfsanəvi şəxsiyyət Heydər Əliyev idi. Dahi şəxsiyyət özü deyirdi ki: "Düzdür, mən şeir yazmıram, roman və hekayələr yazmıram. Ancaq 1969-cu ildən başlayaraq 1987-ci ilə qədər Kommunist Partiyasında ən böyük dissident mən idim" (Anar, 2020). Bu əfsanəvi şəxsiyyət Bəxtiyar Vahabzadəyə də hamilik etmiş, onu həbsə düşməkdən xilas etmişdir.

1959-cu ildə Gülüstan adlı müqavilənin 150 illik yubileyinin keçiriləcəyi, sovetlərin bu müqaviləyə böyük hazırlıq gördüyü bir dönəmdə Bəxtiyar Vahabzadə "Gülüstan" adlı əsərini yazdı və "Nuxa fəhləsi" qəzetində bu əsərin nəşrinə nail oldu. Əsər qəzetdə çap olunsa da tez bir zamanda qəzetin yayılmasının qarşısı alındı, "Nuxa fəhləsi" qəzetinin redaktoru işdən çıxarıldı. Bu zaman şairi "gözəgörünməz, sirli" bir qüvvə daha ağır cəzadan, həbsdən xilas etdi. Həmin vaxt ulu öndər Heydər Əliyev şairlə təkrar-təkrar söhbətlər aparır, özünün ağıllı məsləhətləri ilə Bəxtiyar Vahabzadəni bilgiləndirir. Bu haqda Heydər Əliyev danışarkən qeyd etmişdir ki: "O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Belə bir insan o vaxtlar fəlakətlər qarşısında idi. Nəyə görə? Heç bir cinayət yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı".

Ulu öndər, Bəxtiyar Vahabzadəyə məsləhət görür ki, uzunmüddətli məzuniyyət götürərək doktorluq dissertasiyasını yazsın və bir müddət auditoriyalarda görünməsin. Məsləhətə əməl edən alim-şair tez bir müddətdə doktorluq dissertasiyasını yazıb başa çatdırmışdır. Bundan əlavə Heydər Əliyev "Demişdi ki, sənin əleyhinə olanların ağzını bağlamaq üçün Vladimir İliç Lenin haqqında bir əsər yaz" (Hüseynov, 2017). Şair də 1974-cü ildə "Leninlə söhbət" poemasını qələmə alır və əsər dövlət mükafatına layiq görülür. Ulu öndərin məsləhəti ilə yazılan bu əsərlə şair, əslində özünə qarşı inamsızlığı aradan qaldırmağa çalışmışdır. Deyə bilərik ki, "Şairlər çox zaman Lenin mövzusundan bir zireh, özlərini qoruma vasitəsi kimi istifadə etmişlər" (Yusifoğlu, 16). Şairin tarixə yanaşması və filosofluğu ona imkan vermişdir ki, ideoloji meyllərdən təmizlənsin. Əslində zamanında əsər dövrün ideoloji meylləri kontekstində təhlilə cəlb olunsa da poemanın bədii dəyərləri, zora, köhnə dünyaya, milli mücadilə missiyası da qeyd olunurdu. Əsər haqqında Qulu Xəlilov yazırdı ki: "...həmin poemanı ("Leninlə söhbət") müasir hadisələrlə nəfəs alan istedadlı bir şairin dahi rəhbərə hesabatı, onun əməlləri barədə monoloqu da adlandırmaq olar. Döyüşlərdə mərdlik, hünər göstərmək üçün şair Leninin söhbətindən "maya tutur" qüvvət və ilham alır, çünki inqilab cəsurluq, döyüşkənlik, hünər tələb edir. Leninin fikirlərindən ilhamlanan şair elə bil ki, yenidən doğulur, müşkül məsələləri dərk edir, güc-qüvvə toplayır" (Xəlilov, 1977).

"Azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən" (Vahabzadə, 2000) şairin yaradıcılığını ulu öndər Heydər Əliyev yüksək qiymətləndirmiş və demişdir: "Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkkürünün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır" (Vahabzadə, 2000).

## Ədəbiyyat siyahısı:

1. Anar. Yaşamaq haqqı, Bakı, “Qanun,” 2020
2. Əliyev Heydər. Milli varlığımızın mötəbər qaynağı // “Kitabi-Dədə-Qorqud” ensiklopediyası, I cild, Bakı, 2000
3. Hüseynov R. Bəxtiyar Vahabzadənin arzuladığı bəxtiyar gələcək – IV hissə, 525 qəzet, 2017.
4. Xəlilov Q. Lenin zəkasının işığı ilə // Vahabzadə B. Açıq söhbət, Bakı: Gənclik, 1977.
5. Vahabzadə B. Foto-kitab, Bakı, 2000.
6. Yusifoğlu R. (Əliyev). Azərbaycan poeması: axtarışlar və perspektivlər (XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri). Bakı: Elm, 1998.

**UOT 7.01**

**Günel İsrafilova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti,**
**müəllim**
**E-mail:** israfilova899@mail.ru

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN İNCƏSƏNƏTİ

**Xülasə:** Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyevin qayğısından bəhrələnməsin. Musiqimiz, teatrımız, kino sənətimiz, heykəltəraşlıq, rəssamlıq və xalça sənətimiz də bugünkü inkişafında ulu öndərin çox dəyərli ideyalarından bəhrələnib.

Azərbaycan mədəniyyətinin təbliğini həmişə diqqət mərkəzində saxlayan ulu öndərin hakimiyyəti illərində çox səmərəli tədbirlər reallaşdırılıb. Ümummilli lider Azərbaycanın sivil dünya ilə inteqrasiyasına, xalqların iqtisadi-siyasi, humanitar yaxınlaşmasına dövlətçiliyi möhkəmləndirən, xalqı inkişaf etdirən ən vacib vasitələrdən biri kimi baxırdı. Və bu zaman dünya ilə dil tapmağın ən sınanmış və optimal yollarından biri olaraq, mədəni dəyərlərin qarşılıqlı dərkini və təbliğini əsas götürürdü. Bu mənada xarici ölkələrdə keçirilən Azərbaycan mədəniyyət və incəsənət günləri, eyni zamanda Azərbaycanda keçirilən belə tədbirlər mədəniyyətlərarası dialoqun inkişafına çox gözəl yol açırdı.

**Açar sözlər:** ulu öndər, mədəniyyət, şəxsiyyət, inkişaf, Azərbaycan incəsənəti, mədəniyyətin təbliği

Ulu öndər, dünyanın görkəmli siyasətçisi və dövlət xadimi mərhum Heydər Əliyevin həyatı və ictimai-siyasi fəaliyyəti əsl tərbiyə məktəbidir.

Dahi şəxsiyyət ensiklopedik bir şəxsiyyət idi. Hansı sahədə danışmağından asılı olmayaraq, elə bilirdin ki, o, bu peşənin sahibidir. Hər bir sənət sahibi ilə məhz o sənətin peşəkarı kimi söhbət edirdi. Milli və professional musiqimizin gözəl bilicisi idi. İstənilən musiqi əsəri, incəsənət xadiminin yaradıcılığı haqqında elə dəqiq fikirlər söyləyirdi, təhlillər edirdi ki, sənətşünaslar həsəd aparırdılar.

Qeyd etmək lazımdır ki, Əliyevlər ailəsində musiqini çox sevirdilər. Həyat yoldaşı Zərifə xanım gözəl piano çalırdı. Zərifə xanımın bacısı, Gülarə Əliyeva istedadlı pianoçu, "Dan ulduzu" ansamblının rəhbəri, qızları Sevil Əliyeva yadda qalan, gözəl melodiyaları ilə qəlbləri oxşayan mahnıların müəllifidir. Görkəmli rejissorumuz Vaqif Mustafayevin ulu öndər haqqında çəkdiyi silsilə filmlərin birində Heydər Əliyevin Zərifə xanımın müşayiəti ilə T.Quliyevin, R.Rzanın sözlərinə yazdığı "Sənə də qalmaz" mahnısını unutmaq mümkün deyil.

Xalqımızın milli-mənəvi dəyərlərinin kökləri çox-çox qədim zamanlara gedib çıxır. XX əsrdə isə xalqımızın mədəni həyatında yeni bir dövr başlanmışdır. Bu, ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan bir dövrüdür. Ulu öndər deyirdi ki, "xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". Məhz ona görə də Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə xalqın mədəniyyətinin inkişafını həmişə diqqət mərkəzində saxlamışdır.

Ulu öndər yaxşı bilirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir. Sabahkı uğurlara yeganə təminat isə sağlam cəmiyyət quruculuğuna diqqət artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaqdır.

Heydər Əliyev şəxsiyyətini onun elmə, maarifə, mədəniyyət sahəsinə diqqət və qayğısından kənarda təsəvvür etmək mümkün deyil.

Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyevin qayğısından bəhrələnməsin. Musiqimiz, teatrımız, kino sənətimiz, heykəltəraşlıq, rəssamlıq və xalça sənətimiz də bugünkü inkişafında Ulu Öndərin çox dəyərli ideyalarından bəhrələnib.

Azərbaycan mədəniyyətinin təbliğini həmişə diqqət mərkəzində saxlayan ulu öndərin hakimiyyəti illərində çox səmərəli tədbirlər reallaşdırılıb. Ümummilli lider Azərbaycanın sivil dünya ilə inteqrasiyasına, xalqların iqtisadi-siyasi, humanitar yaxınlaşmasına dövlətçiliyi möhkəmləndirən, xalqı inkişaf etdirən ən vacib vasitələrdən biri kimi baxırdı. Və bu zaman dünya ilə dil tapmağın ən sınanmış və optimal yollarından biri olaraq, mədəni dəyərlərin qarşılıqlı dərkini və təbliğini əsas götürürdü. Bu mənada xarici ölkələrdə keçirilən Azərbaycan mədəniyyət və incəsənət günləri, eyni zamanda Azərbaycanda keçirilən belə tədbirlər mədəniyyətlərarası dialoqun inkişafına çox gözəl yol açırdı.

Hələ 1969-1982-ci illərdə Heydər Əliyevin uzaqgörənliyi, millətinə sonsuz məhəbbəti sayəsində Azərbaycan musiqisi təkcə SSRİ-də deyil, həmçinin bütün dünyada tanındı.

Neçə-neçə bəstəkarlarımız SSRİ xalq artisti adına layiq görüldü. SSRİ-nin ən yüksək orden və medalları ilə təltif olundular. Elə onu demək kifayətdir ki, üç böyük bəstəkarımız – Qara Qarayev, Niyazi, Fikrət Əmirov Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər.

Dövlət müstəqilliyimizin ilk illərində bazar iqtisadiyyatına keçidlə əlaqədar yaranmış sosial problemləri dövlət səviyyəsində müvəffəqiyyətlə həll edən cənab H.Əliyev yaradıcı ziyalıların, o cümlədən Azərbaycan Bəstəkarlar İttifaqının görkəmli üzvlərinin, xüsusi xidmətləri olan bəstəkar və musiqişünasların əməyini yüksək qiymətləndirdi. Onun Prezident təqaüdü təsis etməsini incəsənətimizin inkişafı yolunda tarixi addım kimi dəyərləndirmək olar.

Azərbaycanın xarici ölkələrlə sıx musiqi əlaqələrinin yaranması və inkişafı daim diqqət mərkəzində saxlayan, görkəmli sənətkarları respublikamıza dəvət edən dahi şəxsiyyət Heydər Əliyev bununla da Bəstəkarlar İttifaqının beynəlxalq əlaqələrinin daha da genişlənməsinə şərait yaradırdı. Heydər Əliyevin Azərbaycan Bəstəkarlarının və musiqişünaslarının əməyini təqdir etməsi, onların yaradıcılığını yüksək fəxri adlar və mükafatlarla dəyərləndirməsi bilavasitə Bəstəkarlar İttifaqının fəaliyyətinə verdiyi qiymətin bariz təzahürüdür.

Heydər Əliyev bəstəkarlara daha artıq diqqət yetirməyi, onların püxtələşməsinə, kamilləşməsinə kömək etməyi, səhv və qüsurlarını vaxtında göstərməyi məsləhət görürdü. Bu barədə çox dəyərli bir fikri indi də aktualdır: "Bəzən ayrı-ayrı gənclər nə isə fövqəltəbii bir şey axtarmağa başlayır və elə dolaşıb qalırlar ki, müəllifin öz əsərində nə ifadə etmək istədiyini başa düşmək çətin olur. Gənclərin tərbiyəsində İttifaqın rolu xüsusilə böyükdür. Lakin təcrübəli bəstəkarlarımız, ustad sənətkarlarımız da bu işdə az rol oynamamalıdırlar".

Bu gün Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev onun siyasətini davam etdirərək mədəniyyət və incəsənət xadimlərinə öz diqqətini və qayğısını əsirgəmir. Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliğində H.Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın da müstəsna rolu vardır. O, mədəniyyətimizin inkişafı və dünya miqyasında təbliği üçün əvəzsiz işlər görür.

**Ədəbiyyat siyahısı:**

1. Heydər Əliyev və mədəniyyət / [III cilddə] – Bakı: – c.3 – 2008.
2. Hüseynova İ. Liderlik nümunəsi // Dirçəliş – XXI əsr, – 2009, № 130-131, – s.90-98.
3. Qasımova X. Milli mədəniyyətimizin xilaskarı // Xalq qəzeti – 2019. № 124, – s.13.

**Gunel Israfilova**

**HEYDAR ALİYEV AND AZERBAİJANİ ART**

**Summary:** No area of our culture does not benefit from Heydar Aliyev's care. Our music, theater, film art, sculpture, painting, and carpet art have also benefited from the valuable ideas of the Great Leader in their development today.

During the reign of the Great Leader, who always focused on promoting Azerbaijani culture, very effective measures were implemented. The national Leader considered the integration of Azerbaijan with the civilized world and the economic-political and humanitarian rapprochement of nations as one of the most important means of strengthening statehood and developing the government. And at that time, as one of the most tested and optimal ways to find a language with the world, it was based on mutual understanding and promoting cultural values. In this sense, the days of Azerbaijani culture and art held in foreign countries and such events held in Azerbaijan paved the way for the development of intercultural dialogue.

**Key words:** Great Leader, culture, personality, development, Azerbaijani art, promotion of culture

UDC 342.5

**Gulshan Nasirova**
**Mingachevir State University,**
**teacher**
**E-mail: gul-nasirova@mail.ru**

# MULTICULTURAL POLICY OF THE REPUBLIC OF AZERBAIJAN AND FOREIGN POLICY OF THE COUNTRY DURING HEYDAR ALIYEV'S PRESIDENCY

**Key words:** Heydar Aliyev, Azerbaijan, multiculturalism

Multiculturalism policy is based on the principles of mutual cooperation, tolerance and conflict prevention. In Azerbaijan, a country where different cultures meet, representatives of different nations and religions lived in peace and harmony for centuries. The idea of multiculturalism, whose political founder was the great leader Heydar Aliyev, has been formed in our country for centuries.

It should be noted that in the late 1980s and early 1990s, on the eve of the collapse of the Soviet Union, the concept of "nationalism" was the only category uniting various groups, and this led to dramatic conflicts both in the countries of the former Soviet Union and in our region, unlike European countries. One of these countries, Azerbaijan, reached the threshold of civil war. However, with the coming to power of the great leader Heydar Aliyev, radical changes took place in the domestic and foreign policy of Azerbaijan. The policy of the national leader saved Azerbaijan from civil war and established multicultural values as a model.

Today, this policy is the national policy of Azerbaijan, and the reforms and measures carried out in the field of multiculturalism after gaining independence made an important contribution to strengthening this aspect and opening new perspectives. The Republic of Azerbaijan aimed to ensure the implementation of obligations arising from international agreements and the compliance of normative legal regulations of the Republic of Azerbaijan with international legal documents.

Since 1991, Azerbaijan has created an independent foreign policy course that makes multiculturalism an important part of its foreign policy. Today, Azerbaijani multiculturalism has emerged as a model and this model has already been exported to the world.

During the reign of Heydar Aliyev, the multicultural policy of the Azerbaijani government, which includes ethnic minorities and religious groups, attracted the attention of the world. Multiculturalism, which is an important direction of the internal policy of the Republic of Azerbaijan, has had a positive impact on the country's foreign policy. First of all, this showed itself in the increase of the image of our country in the international world. As a result of its experience in the field of multiculturalism and tolerance, Azerbaijan has gained its national reputation worldwide for its tolerance, along with its oil and natural gas. In short, multiculturalism has been the main factor in the successful foreign policy of the Republic of Azerbaijan.

Heydar Aliyev attached special importance to cooperation with UN, OSCE, European Union, Council of Europe, Organization of Islamic Cooperation and other influential international organizations in the implementation of multiculturalism policy. Azerbaijan expressed its attitude to the legal documents accepted by international organizations in the field of multiculturalism and tolerance, and signed and ratified them when these documents corresponded to the national interests of the state. After restoring its political independence under the leadership of Heydar Aliyev, the Republic of Azerbaijan signed the following laws and joined international agreements adopted by international organizations for the protection and development of the rights and cultural values of national and religious minorities:

1. The Framework Convention for the Protection of Ethnic Minorities (signed by the Government of Azerbaijan on February 1, 1995 and ratified by the Law dated June 16, 2000) [17]

By signing the document, Azerbaijan said that territorial integrity and sovereignty, the country's internal and external security should not be harmed.

2. On December 21, 2001, the Republic of Azerbaijan signed The European Charter for Regional or Minority Languages (1992). But it was not confirmed.

3. Law of the President of the Republic of Azerbaijan dated October 8, 1996 "On the approval of the Agreement on issues related to the restoration of the rights of those in exile, national minorities and citizens".

4. Law of the President of the Republic of Azerbaijan dated May 31, 1996 "Application of the International Convention on the Elimination of All Forms of Racial Discrimination" [18]

In the International Convention on the Elimination of Racial Discrimination, the term racial discrimination includes the recognition, expression or exercise of human rights and freedoms based on equality in political, economic, social, cultural and other fields. It shall be understood, however, that this Convention shall not apply to any distinction, exception, limitation or preference established by a Contracting Party between its own nationals and foreign nationals. It should be noted that the ideas and principles expressed in this agreement belong to the main political directions implemented by the Republic of Azerbaijan

Today, the Council of Europe is one of the main international organizations with which Azerbaijan cooperates. On July 13, 1996, national leader Heydar Aliyev sent a letter to the Secretary General of the Council of Europe and asked to recognize Azerbaijan as a full member of the Council of Europe. However, on January 25, 2001, our country was elected a full member of this organization. In his historic speech at the meeting of the European Council in Strasbourg, Heydar Aliyev defined the main aspects of relations between our country and this institution. On June 13, 2000, the Republic of Azerbaijan joined the Framework Convention on the Protection of Minority Rights of the Council of Europe. [11, s. 138-147]

The Framework Convention is the first international treaty protecting the rights of indigenous minorities and provides the highest level of protection for the existence, culture and identity of minorities in a country. The fundamental rights in the Convention were also regulated by the International Convention on Human Rights. At the same time, the Convention established guaranteed rights that apply only to indigenous minorities. These include the right to speak one's own language, the right to communicate freely with people belonging to the same ethno-cultural, linguistic or religious identity, etc. The Framework Convention on the Protection of the Rights of National Minorities essentially defines the following principles:

- Prohibition of discrimination;
- To help ensure unity between national minorities and the majority of the population;
- Creating favorable conditions for the preservation and development of beliefs, religion, language and ethnicity of national minorities;
- Freedom of speech, thought, conscience and religion;
- Right to education;
- Cross-border relations and cooperation;
- Participation in economic, cultural and social life, etc. [12, s. 127-133]

Although states have assumed great obligations in relation to national minorities with this Convention, none of its provisions or principles allows anyone to act contrary to the principles of international law, especially the principles of sovereign equality, territorial integrity and political independence of peoples.

The "Declaration on the Principle of Tolerance" adopted on November 16, 1995 under the leadership of the great leader Heydar Aliyev, announced the importance of the principles of tolerance for the expansion of peace in our society and the provision of the economic and social well-being of the people. In the 1st article of the declaration, tolerance is defined as follows: "Tolerance is the acceptance, recognition and respect of cultures existing in the world, with their richness and diversity."

Tolerance is the harmony of diversity, and it is not only a moral duty, but also a political and legal necessity. Tolerance at the state level requires the protection of the principle of justice in legislative, administrative and judicial activities, as well as the creation of equal socio-economic opportunities for every person.

Thus, at a time when the multicultural environment is under pressure in various societies, Azerbaijan's emphasis on multiculturalism policy based on the policy of national leader Heydar Aliyev, acceptance of multicultural security as an integral part of state security, and expansion of this policy are appreciated by the international community even today. Even the most influential international organizations recognize that Azerbaijan is an example of tolerance.

**Ədəbiyyat siyahısı:**


1. "Azərbaycan Respublikasənən Dцvlət mьstəqilliyi haqqənda" Konstitusiya aktэ. Bakэ, 1991.
2. Abbasbəyli A. Nəcəfov E. Beynəlxalq mьnasibətlər nəzəriyyəsi. Bakэ, 2005
3. Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanənda. Bakэ, 2000.
4. Abdullayev K.M. Ulu Цndər Azərbaycan multikulturalizmin siyasi banisi kimi. Azərbaycan qəzeti, 23.07.2014
5. Azərbaycan beynəlxalq aləmdə. I-V cildlər. Bakэ, 1996-1999.
6. Azərbaycan Respublikasэ 1991-2001. Bakэ, 2001.
7. Azərbaycan Respublikasənən Konstitusiyasэ. Bakэ, 1996.
8. Azərbaycan multikulturalizmi. Ali məktəblər ьзьn dərslik. Bakэ, BBMM, 2017.
9. Əliyev H.Ə. Mьstəqilliyimiz əbədidir. I-XIII kitablar. Bakэ, 1996-2005.
10. Əsgər Əhməd. XII-XV əsrlərdə Azərbaycanən mənəvi mədəniyyəti. Bakэ, 2012.
11. Heydər Əliyev, "Mьstəqillik yolu", Seзilmiю fikirlər. Bakэ, 1997, http://ebooks.preslib.az/pdfbooks/azbooks/independ.pdf
12. Heydər Əliyev Azərbaycanэ dьnyaya tanэdэr. Bakэ, 1994.
13. Həsənov Ə.M. Mьstəqil Azərbaycan dцvlətinin xarici siyasəti (əsas istiqamətlər, prinsip və xьsusiyyətlər) //Heydər Əliyev siyasi məktəbini цyrənirik. Bakэ, 1997. s.126-142.
14. Həsənov Ə.M. Mьasir beynəlxalq mьnasibətlər və Azərbaycanən xarici siyasəti. Bakэ, 2005
15. Mehdiyev Ramiz Ənvər o. Gələcəyin strategiyasənэ mьəyyənləюdirərkən: modernləюmə xətti. Bakэ, 2008.
16. Mehdiyev R.Ə. Azərbaycan: Qloballaюma dцvrьnьn tələbləri, Bakэ, 2012.
17. http://diaspora.gov.az/index.php?options-content&id=270
18. http://www.justice.gov.az/viewhr.php?id=15

**UOT 32+01**

**Cəmilə Əzizova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**müəllim**
**E-mail: azimovajamila@gmail.com**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN TƏBLİĞİNDƏ BİBLİOQRAFİK VƏSAİTLƏRDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Xülasə:** Müasir Azərbaycan tarixinin böyük bir dövrü Heydər Əliyev fenomeni ilə sıx bağlıdır. Heydər Əliyev yeni Azərbaycanın qurucusudur, Azərbaycan xalqının, Azərbaycan dövlətinin xilaskarıdır. Belə bir görkəmli şəxsiyyət haqqında yüzlərlə əsərin yazılması, xalqımızın tanınmış ziyalılarının ümummilli lideri tərənnüm edən dəyərli sənət nümunələrinin, elm və siyasət adamlarının ümummilli liderin çoxşaxəli fəaliyyəti haqqında elmi-tədqiqat əsərlərinin yaratması təsadüfi deyil. Yalnız biblioqrafik informasiyanın köməyi ilə yaradılmış geniş sənəd kütləsini ümumiləşdirmək və ümummilli lider haqqında yazılmış bütün əsərlər haqqında oxucuların biblioqrafik informasiya təminatını həyata keçirmək olar.

Dünya şöhrətli siyasi xadim, xalqımızın xilaskar lideri Heydər Əliyevə həsr olunan biblioqrafik informasiya mənbələri cəmiyyətimizin inkişafı üçün ciddi ideologiya və informasiya məxəzləridir. Bu dəyərli qaynaqlar dahi rəhbərin zəngin ictimai-siyasi irsinin mənimsənilməsində mühüm vasitə rolunu oynayır. Ulu öndərimiz Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən biblioqrafik mənbələr içərisində informasiya potensialının zənginliyinə görə onun 80 illik yubileyi münasibətilə çapdan çıxmış "Heydər Əliyev: biblioqrafik məlumat kitabı" xüsusilə fərqlənir.

**Açar sözlər:** Heydər Əliyev, azərbaycançılıq məfkurəsi, əliyevşünaslıq, biblioqrafik göstərici, nəzəri irs

Elə nadir şəxsiyyətlər vardır ki, onlar öz xalqının həyatında unudulmaz tarixə çevrilir, faydalı əməlləri ilə əbədiyyət qazanırlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev belə şəxsiyyətlərdən idi. Onun taleyinə xalqının xilaskarı missiyası yazılmışdı. Bu tarixi missiyanı yerinə yetirmək üçün ona səxavətlə hər şey verilmişdi: fenomenal yaddaş, yaraşıqlı sima, dövlətçilik təfəkkürü, insanı fəth edən nitq qabiliyyəti, cəsarət, dönməz siyasi iradə və ən başlıcası öz vətəninə sonsuz məhəbbət! Ulu öndərimiz Azərbaycanı dünyanın siyasi sistemində layiqli yerlərdə olmasını təmin etmiş, tarixə həm müvəffəqiyyətli regional layihələrin müəllifi, həm də iqtisadi islahatların təməlini qoyan bir şəxsiyyət kimi düşmüşdür. Dahi siyasi xadimin yürütmüş olduğu güclü strategiya bu gün Azərbaycan Respublikasını ən dinamik, inkişaf edən, tam müstəqil siyasət yeridən bir ölkəyə çevirmişdir.

Ümummilli lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, təbliği və onun azərbaycançılıq məfkurəsi ideyasının yaşadılması, daha da gücləndirilməsi hər zaman aktual məsələdir. Bu elə bir mövzudur ki, ona müraciət edən hər bir şəxs mühüm informasiya tələbatçısına çevrilir. Ona görə də, Azərbaycanda fəaliyyət göstərən iri kitabxanalar və digər informasiya müəssisələri Ulu öndərimizin zəngin irsini özündə əks etdirən sənəd-informasiya resurslarının biblioqrafik vəsaitlərini hazırlamış [1; 2; 5; 6] və geniş oxucu auditoriyasının diqqətinə çatdırmışdır.

Əliyevşünaslığın müxtəlif məsələlərinin öyrənilməsində mühüm qaynaqları özündə birləşdirən bu mənbələrin hərtərəfli araşdırılması tədqiqat işinin əsas məqsədidir. Bu məqsədə nail olmaq üçün ümummilli liderə həsr olunmuş iri həcmli fundamental biblioqrafik resurslardan biri olan və 2003-cü ildə çap olunmuş "Heydər Əliyev: biblioqrafik məlumat kitabı" təhlilə cəlb olunmuşdur. Çünki, dünya şöhrətli siyasi xadim Heydər Əliyevə həsr olunan mükəmməl şəxsi biblioqrafik resurslar cəmiyyətimizin inkişafı

üçün çox ciddi ideologiya və informasiya qaynağı olaraq onun yaradıcı irsinin öyrənilməsində mühüm vasitə rolunu oynaya bilər.

**Problemin həlli.** Müasir Azərbaycan tarixinin böyük bir dövrü Heydər Əliyev fenomeni ilə sıx bağlıdır. Heydər Əliyev yeni Azərbaycanın qurucusudur, Azərbaycan xalqının, Azərbaycan dövlətinin xilaskarıdır. Belə bir görkəmli şəxsiyyət haqqında yüzlərlə əsərin yazılması, xalqımızın tanınmış ziyalılarının ümummilli lideri tərənnüm edən dəyərli sənət nümunələrinin, elm və siyasət adamlarının ümummilli liderin çoxşaxəli fəaliyyəti haqqında elmi-tədqiqat əsərlərinin yaratması təsadüfi deyil. Yalnız biblioqrafik informasiyanın köməyi ilə yaradılmış geniş sənəd kütləsini ümumiləşdirmək və ümummilli lider haqqında yazılmış bütün əsərlər haqqında oxucuların biblioqrafik informasiya təminatını həyata keçirmək olar.

Dünya şöhrətli siyasi xadim, xalqımızın xilaskar lideri Heydər Əliyevə həsr olunan biblioqrafik informasiya mənbələri cəmiyyətimizin inkişafı üçün ciddi ideologiya və informasiya məxəzləridir. Bu dəyərli qaynaqlar dahi rəhbərin zəngin ictimai-siyasi irsinin mənimsənilməsində mühüm vasitə rolunu oynayır. Ulu öndərimiz Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən biblioqrafik mənbələr içərisində informasiya potensialının zənginliyinə görə onun 80 illik yubileyi münasibətilə çapdan çıxmış "Heydər Əliyev: biblioqrafik məlumat kitabı" [6] xüsusilə fərqlənir.

Nəzəri mənbələrdə biblioqrafik nəşrlər sənəd axınının inkişafını biblioqrafik şəkildə ümumiləşdirin müəyyən bir mövzu üzrə konkret dövr üçün bu mövzunun öyrənilməsi vəziyyətinin elmi işlənmiş, etibarlı mənzərəsini yaratmaq kimi nəzərdən keçirilir. Belə biblioqrafik əsərin yaradılması biblioqrafiyalaşdırmaya cəlb olunan materialların müəyyənləşdirilməsi, seçilməsi və elmi sistemləşdirilməsi kimi çoxlu tədqiqat işləri tələb edir. Ciddi elmi biblioqrafik göstərici yaratmaq üçün onun tərtib üsulu və material toplamaq üçün istifadə olunan mənbələrin çeşidi vacibdir.

Ulu öndər Heydər Əliyevin nəzəri irsi bizim üçün tükənməz ibrət məktəbidir. "O, bu dövlətə rəhbərlik etdiyi müddət ərzində böyük dövlətçilik siyasəti ilə yanaşı, intibah və milli şüurun oyanışı sahəsində də Azərbaycanı dünya səviyyəsinə qaldıran saysız işlər görmüşdür" [4, s.8]. Heydər Əliyev milli-mədəni məsələlərin həllinə xüsusi önəm verirdi. Xalqın aparıcı məfkurəsini təmsil edən ədəbiyyatın insanlar üçün gələcək yollarına çıraq tutaraq, işıqlandıran bir məktəb olduğunu çıxışlarında xüsusi olaraq qeyd edirdi. Ulu öndərin ədəbiyyat məsələlərinə aid çox qiymətli fikirləri vardır. O, dünya və Azərbaycan klassikləri haqqında, ədəbiyyatın ümumi məsələləri, Azərbaycan ədəbiyyatı, Azərbaycan dili, milli-mənəvi irsimizə dair mötəbər fikirlər söyləmişdir.

Dərin məzmunlu bu mülahizələr ümummilli liderin məruzə və çıxışlarında, geniş xalq kütləsi ilə görüşlərində söylədiyi dərin məzmunlu kəlamlarında öz əksini tapmışdır. "Azərbaycan milli mətbuatının yaradılmasının 125 ili", "Nəriman Nərimanov abidəsinin açılışı", "Nəbi Xəzrinin "Burla Xatun" pyesi milli dram teatrının səhnəsində", "Mənəvi-psixoloji mövzuda dəyərli əsər", "Milli birliyimizi və dövlətçiliyimizi qorumağa səsləyən əsər", "Görkəmli sənətkarın yubileyi" və s. kimi mövzuları özündə əks etdirən biblioqrafik resursda materiallar müxtəlif bölmələrdə qruplaşdırılmışdır.

Təsadüfi deyildir ki, Heydər Əliyevin hakimiyyətinin istər Sovet dövrü (1969-1983), istərsə də hakimiyyətinin müstəqillik (1993-2003) Azərbaycanın ictimai həyatının hər bir sahəsində olduğu kimi xalqımızın zəngin ədəbi və mədəni irsinin də beynəlxalq səviyyədə tanıdılması mərhələsi hesab edilir. Ulu öndərin bu istiqamətdə 5 kitabı nəşr olunmuşdur: "Xalqların dostluğu ədəbiyyatların dostluğudur" (1980), "Sovet ədəbiyyatının yüksək borcu və amalı" (1981), "Ədəbiyyatın yüksək borcu və amalı: nitqlər, məruzələr, çıxışlar" (1999, 2000), "Deyilən söz yadigardır" (2008).

Tədqiqat illərində Azərbaycan ədəbiyyatı, Azərbaycan dili və mədəniyyətinin inkişafına diqqət artırılmış, ana dilinin, ədəbiyyatın sosial-siyasi və ideoloji problemləri ilə bilavasitə bağlı olan müxtəlif fərmanlar verilmişdir. Ulu öndər Heydər Əliyevin ədəbiyyatşünaslığın inkişafındakı xüsusi xidmətlərini və sahənin inkişafı ilə bağlı xüsusi fərmanlar verdiyini nəzərə alaraq "Heydər Əliyev: biblioqrafik məlumat kitabı"nın təhlilini verməyi qərara aldıq.

Ümummilli liderimizə həs olunmuş "Heydər Əliyev: biblioqrafik məlumat kitabı"nın tərtib edilməsi ilə onun zəngin irsi, eləcə də haqqında yazılmış kitablar biblioqrafik üsulla sistemləşdirilərək istifadəçilərin diqqətinə çatdırılmışdır. Müstəqil Azərbaycan dövlətinin xilaskarı, dünya şöhrətli siyasətçi və böyük şəxsiyyət olan ulu öndər Heydər Əliyev haqqında biblioqrafik məlumat kitabının hazırlanması şərəfli və məsuliyyətli bir işdir. Doğrudur, Heydər Əliyevin fəaliyyət sferası o qədər geniş və zəngindir ki, onun irsinin qısa zaman kəsiyində tam şəkildə biblioqrafiyalaşdırılması çətin prosesdir. Lakin bu biblioqrafik vəsaitin tərtibçi müəllifləri belə mühüm bir işin öhdəsindən məharətlə gəlmişlər.

Bu barədə kitabxanaşünasıq elmimizin görkəmli nümayəndəsi, Əməkdar elm və mədəniyyət xadimi, "Şöhrət" və "Şərəfli" ordenli, tarix elmləri doktoru, professor Abuzər Xələfovun fikirləri maraq doğurur. "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı kitabında alim haqlı olaraq qeyd etmişdir: "Heydər Əliyevin əsərləri, zəngin elmi-nəzəri irsi Azərbaycan kitabının qızıl fonduna daxildir. Nəşr olunmuş kitablardan biri və demək olar ki, birincisi – müasir ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin 80 illik yubileyi münasibətilə yüksək poliqrafik səviyyədə çap olunmuş biblioqrafik məlumat kitabıdır" [7, s.19].

Xüsusi vurğulamağı zəruri hesab edirik ki, biblioqrafik göstərici Bakı Dövlət Universitetinin (BDU) Elmi Şurasının qərarı ilə "Dünyanın görkəmli dövlət xadimləri" seriyasında ilk dəfə olaraq hazırlanaraq nəşr olunmuşdur. Bu səbəbdən, biblioqrafik vəsait ulu öndərimiz Heydər Əliyevin çoxaspektli və zəngin ictimai-siyasi fəaliyyətini əks etdirən dərin məzmunlu materialların biblioqrafiyalaşdırılması sahəsində ilk fundamental resurs kimi mühüm əhəmiyyətə malikdir. Azərbaycan, rus və ingilis dillərində tərtib edilən "Heydər Əliyev: biblioqrafik məlumat kitabı" sanballı biblioqrafık tədqiqat əsəri kimi diqqəti cəlb edir.

Şübhəsiz, bu dəyərli biblioqrafik mənbənin ərsəyə gəlməsində tərtibçi-müəlliflərin – Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, professor Abuzər Xələfovun və BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqovanın elmi-nəzəri bilikləri və tədqiqatçılıq təcrübəsinin əvəzsiz rolu vardır. Təqdirəlayiqdir ki, biblioqrafik vəsaitin 2003-cü il 7 may tarixində BDU-da baş tutan təqdimat mərasimində ümummilli liderə həsr olunmuş biblioqrafik məlumat kitabının əsas məziyyətləri sadalanmış və nəşrin ölkə kitabxanaları ilə yanaşı, dünyanın bir çox mühüm kitabxanalarına göndərilməsinin vacibliyi qeyd edilmişdir.

Məlum məsələdir ki, biblioqrafik göstəricinin mövzusu biblioqrafik məlumatın əhatə etdiyi məsələlərin əhatə dairəsi ilə xarakterizə olunur. Bu dairə indeksin tematik profilini və məlumatın təqdim edilməsi vasitələrinin seçimini müəyyənləşdirən birliyi təşkil edən hədəf və oxucu məqsədindən asılıdır. Təhlil etdiyimiz biblioqrafik göstəricinin mövzusunun aktuallığının meyarı onun elm, istehsal və mədəniyyət sahəsinin əsas inkişaf istiqamətlərinə uyğunluğudur. Retrospektiv xarakterli belə bir şəxsi biblioqrafik göstəricinin məqsədi geniş oxucu kütləsi üçün informasiya mənbələri haqqında məlumat yaymaqdır.

Əslində, "Heydər Əliyev: biblioqrafik məlumat kitabı" kimi dəyərli bir mənbə informasiya istehlakçısına müəyyən ədəbiyyatı təklif edir və ya deyə bilərik ki, tövsiyə edir. Buna görə də, biblioqrafik resursun retrospektiv indeks hədəfi və oxucu məqsədləri məsləhət xarakterli ola bilər. Eyni əsasda bu biblioqrafik nəşr elmi-köməkçi xarakterinə də malikdir. Çünki onun tərtibində məqsəd həm nəzəri, həm də praktika sahəsində mütəxəssislərin informasiya ehtiyaclarına uyğun olaraq elmi və istehsalat fəaliyyətini təşviq etməkdir. Bu səbəbdən, məlumat kitabı müvafiq ədəbiyyat haqqında informasiya topladığından elm, istehsal və mədəniyyət sahəsində mütəxəssislərin fəaliyyəti üçün informasiya-biblioqrafik baza təşkil edir.

Biblioqrafik məlumat kitabında materialların sistemləşdirilməsi üçün tərtibçilər tərəfindən xüsusi metodika tətbiq edilmişdir. Burada Ulu öndərin irsinə dair sənədlər dörd hissə, səkkiz bölmə daxilində qruplaşdırılmış və mənbələr xronoloji ardıcıllıqla düzülmüşdür. Göstəricinin hazırlanması təcrübəsi sübut edir ki, burada ən optimal struktur olan materialın sxem üzrə qruplaşdırılmasından istifadə olunmuşdur.

Kitabda sənədlərin biblioqrafik təsvirləri QOST 7.1 – 2003-cü il standartının tələblərinə uyğun hazırlanmışdır.

Məcburi elementlərlə yanaşı, biblioqrafik nəşrin əhəmiyyətini artıran mühüm əlamətlərdən biri kitabın sonunda köməkçi məlumat aparatı – biblioqrafik qeydlərdə göstərilən bütün şəxslər (müəlliflər, tərtibçilər, redaktorlar və şəxsiyyətlər) haqqında məlumatları ehtiva edən adlar göstəricisinin verilməsidir. Burada şəxsiyyət işarəsinin köməyi ilə qeydin məzmunu açılır, soyadın yanında nömrələmə isə mötərizədə verilir. Bundan əlavə, nəşrə daxil edilmiş sənədlər ənənəvi olaraq 3 məlumat qrupunu ehtiva edir:

• bioqrafik (həyat, ailə və rəsmi status haqqında məlumat);
• faktiki (hadisələrin tarixi, faktlar, müsahibələr, çıxışlar və s.);
• biblioqrafik (əsərlərin göstəricisi).

Fundamental biblioqrafik informasiya mənbəyinin "Heydər Əliyev şəxsiyyəti" adlanan ilk hissəsi dörd bölməyə ayrılır. Həmin bölmələr aşağıdakılardır:

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin həyat və fəaliyyətinin qısa salnaməsi.
2. Dünyanın görkəmli siyasətçiləri, elm və mədəniyyət xadimləri Heydər Əliyev haqqında.
3. Azərbaycanın görkəmli siyasətçiləri, elm və mədəniyyət xadimləri Heydər Əliyev haqqında.
4. Heydər Əliyevin fikir dünyasından seçmələr.

İlk bölmədə dövlət başçısının 1923-cü ilin may ayının 10-dan 2003-cü ilin mart ayının 12-nə kimi həyat və fəaliyyətindəki bütün tarixi hadisələr xronoloji ardıcıllıqla əks olunur. Burada qeydə alınan son tarixi hadisə 2003-cü ildə 12 mart tarixində ABŞ səfərindən vətənə qayıtması və hava limanında kütləvi informasiya vasitələrinə müsahibə verməsidir.

Biblioqrafik resursun ilk hissəsinin ikinci bölməsində dünyada məşhur elm və siyasət xadimlərinin ulu öndərimiz Heydər Əliyev haqqında olan bir-birindən dəyərli fikirləri yer almışdır. Bölmə ABŞ-ın keçmiş prezidenti Corc Buşun Heydər Əliyev haqqında olan maraqlı fikirləri ilə başlayır: "Siz bizim, Amerikanın yaxın dostusunuz və Sizi belə də qəbul edirik" [6, s.118]. Bu bölmədə Amerikanın keçmiş prezidenti ilə yanaşı bir sıra tanınmış şəxsiyyətlərin düşüncələri yer almaqdadır. Belə ki, burada Fransa prezidenti Jak Şirak, İtaliya prezidenti Oskar Luisçi Skalfaro, Yaponiya imperatoru Əlahəzrət Akixito, Pakistan islam Respublikasının prezidenti Fərrux Əhməd Xan Leqari, Hindistan prezidenti Keçeril Narayana, Rumıniya prezidenti Emil Konstantinesku, Çexiya prezidenti Vatslav Havel, Polşa prezidenti Aleksandr Kvasnevski, Bolqarıstan prezidenti Jelyu Jelev, Macarıstan Respublikasının prezidenti Arpad Hents, Ukrayna prezidenti Leonid Kuçma, Gürcüstan prezidenti Eduard Şevardnadze, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Qırğızıstan prezidenti Əsgər Akayev kimi tanınmış siyasətçilərinin ulu öndərimiz haqqında bir-birindən dəyərli fikirləri öz əksini tapmışdır. Bu altbölmə Gürcüstan katolikosu patriarx II İlyanın Heydər Əliyev haqqında olan fikirləri ilə yekunlaşır: "Heydər Əliyev cənabları başda olmaqla Azərbaycan dövləti düzgün, xalqların arzu və istəyinə uyğun milli siyasət yeridir" [6, s.136].

Biblioqrafik məlumat kitabının ilk hissəsinin üçüncü bölməsi Azərbaycanın tanınmış şəxsiyyətlərinin Heydər Əliyev haqqında düşüncələrini əhatə edir. Bölmə Milli Məclisin keçmiş sədri Murtuz Ələsgərovun ulu öndər haqqında dəyərli fikri ilə başlayır: "Tarix Heydər Əliyev xəttinin düzgünlüyünü, onun bütün düyünləri aça bilən dərin siyasi zəkasını bir daha sübuta yetirdi" [6, s.137]. Bununla yanaşı, bölmədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyev, Azərbaycan Respublikası Prezidentinin Milli münasibətlər üzrə keçmiş dövlət müşaviri Hidayət Orucov, Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov, eks müdafiə naziri Səfər Əbiyev, Azərbaycan Respublikasının sabiq Təhsil Naziri, AMEA Mexanika İnstitutunun baş direktoru, professor Misir Mərdanov, Xalq yazıçısı Elçin, Xalq şairləri Mirvarid Dilbazi, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Xalq artistləri Zeynəb Xanlarova, Ramiz Quliyev və başqa tanınmış şəxsiyyətlərin ümummilli lider haqqındakı fikirləri toplanmışdır.

Biblioqrafik göstəricinin "Heydər Əliyevin fikir dünyasından seçmələr" adlanan birinci hissəsinin sonuncu bölməsində ulu öndərmizin hikmətli sözləri, düşüncə və fikirləri toplanaraq oxuculara təqdim edilmişdir. Bölmə Ulu öndərin "Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir" [6, s.143] fikri ilə başlayır. Burada yer alan son hikmətli fikir isə xalqın, vətən torpağının ümummilli liderimiz üçün nə qədər əhəmiyyətə malik olduğunu bir daha sübut edən: "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, Vətənimdir, mənim torpağımdır" [6, s.152] müdrik kəlamıdır.

Qeyd etdiyimiz kimi fundamental biblioqrafik nəşrin "Heydər Əliyevin kitab şəklində nəşr edilmiş əsərləri" adlı ikinci hissəsinə dəyərli materiallar salınmışdır. Bu hissə özlüyündə "Sovetlər Birliyi dövründə Azərbaycanın tərəqqisi və inkişafına yönəlmiş siyasət (1969-1990-cı illər)" və "Müstəqillik yollarında (1991-2003-cü illər)" adlanan iki bölməyə ayrılır. Bu bölmələrin hər biri də özlüyündə yarımbölmələrə ayrılır.

İlk bölmədə Heydər Əliyevin müxtəlif dillərdə nəşr edilmiş əsərlərinin biblioqrafik təsviri xronoloji ardıcıllıqla öz əksini tapmışdır. Göstəricinin bu bölməsində rus dilində olan ədəbiyyat əhatə edilmişdir. Burada 83 adda ədəbiyyat əksini tapmışdır ki, bu yarım bölmədə də digərində olduğu kimi ədəbiyyat 1970-ci ildən etibarən əhatə olunmağa başlanmış, lakin 1983-cü ilin materialları ilə yekunlaşmışdır. İlk olaraq 10 cildlik əsərlərinin, sonra 4 cildlik kitablarının biblioqrafik təsviri verilmiş və ayrı-ayrı cildlərin məzmununun açılmasına nəzər salınmışdır. Bu da biblioqrafik resursun elmi potensialını daha da artırır. Materialların xronoloji ardıcıllıqla qruplaşdırılması və nömrələnməsi göstəricidən istifadəni olduqca asanlaşdırır. Bölmədəki xronoloji ardıcıllıq 1970-ci ildən başlayır və 1985-ci ildə yekunlaşır. Bu bölmədə ümumilikdə 68 adda ədəbiyyat əhatə olunmuşdur.

Biblioqrafik göstəricinin "Heydər Əliyevin kitab şəklində nəşr edilmiş əsərləri" adlanan ikinci hissəsinin ikinci bölməsi qeyd etdiyimiz kimi "Müstəqillik yollarında (1991-2003-cü illər)" adlanır. Bu bölmədə də ədəbiyyat dillər üzrə qruplaşdırılmışdır. Azərbaycan dilində olan əsərlər də, çoxcildli əsərləri və ayrı-ayrı əsərləri olmaqla iki hissəyə ayrılır. Bu bölmənin "Çoxcildli əsərlər" adlı yarımbölməsində Heydər Əliyevin çoxcildli əsərləri əks olunmuşdur. Burada əksini tapan ilk kitab "Müstəqilliyimiz əbədidir" çoxcildliyidir.

Ümumiyyətlə, biblioqrafik məlumat kitabının ikinci hissəsində 1969-2003-cü illər ərzində Ulu öndərimizin 209 adda kitabı əks edilmişdir ki, onlardan 118-i Azərbaycan, 83-ü rus, qalanları isə müxtəlif xarici dillərdə olan nəşrlərdir.

Biblioqrafik məlumat kitabının "Heydər Əliyev haqqında ədəbiyyat" adlanan III hissəsi özündə 8 bölməni əhatə edir. "Böyük həyat yolundan səhifələr" adlanan ilk bölmə daxilində kitablar 4 dil (Azərbaycan, rus, ingilis, türk) üzrə qruplaşdırılmışdır. Bu bölmədə ümumilikdə 65 adda ədəbiyyat yer almışdır ki, bunlardan 51-i Azərbaycan dilində, 9-u rus dilində, 3-ü ingilis, 2-si isə türk dilindədir.

"Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır" adlı ikinci bölmədə Heydər Əliyev haqqında 5 dildə olan ədəbiyyat qruplaşdırılmışdır. Bu bölmə daxilində əksini tapan 80 ədəbiyyat Azərbaycan dilindədir. Həmin bölmədəki ədəbiyyatın 9-u rusca, 4-ü ingiliscə, 1-i türk, biri isə farscadır. Bölmə daxilində ümumilikdə 95 adda ədəbiyyat əksini tapmışdır.

Biblioqrafik göstəricinin III hissəsinin 3-cü bölməsi "Azərbaycanın sosial-iqtisadi inkişafında Heydər Əliyev mərhələsi" adlanır. Bu bölmədə ulu öndərin Azərbaycan iqtisadiyyatının inkişafında gördüyü işləri işıqlandıran ədəbiyyat əhatə olunmuşdur. Bu bölmədə 27 ədəbiyyat yer almışdır.

Heydər Əliyev Azərbaycanda neft strategiyasının inkişafında əvəzolunmaz xidmətlər göstərmişdir. Bu sahədə onun gördüyü işləri işıqlandıran onlarla ədəbiyyat nəşr olunmuşdur. Həmin ədəbiyyat biblioqrafik göstəricinin "Heydər Əliyev və Azərbaycan Respublikasının neft strategiyası" adı altında 4-cü bölmə toplanmışdır. Burada ümumilikdə 35 adda ədəbiyyat toplanmışdır ki, bunlardan 21-i Azərbaycan dilindədir. Qalan 14 kitabdan 6-sı rus dilində, 8-i isə ingilis dilindədir.

Göstəricinin III hissəsinin 5-ci bölməsi "Heydər Əliyev və Azərbaycanın neft strategiyası" adlanır. Burada 5 kitabın biblioqrafik təsviri əks olunmuşdur.

"Heydər Əliyev və Azərbaycanda elm, təhsil, mədəniyyət və incəsənətin inkişafı" adlanan VI bölmədə ədəbiyyat iki dildə qruplaşdırılmışdır. Həmin ədəbiyyatdan 25-i Azərbaycan, 1-i isə rus dilindədir.

Üçüncü hissənin "Azərbaycan ədəbiyyatında Heydər Əliyev surəti" adlanan VII bölməsi 22 adda Azərbaycan dilində olan ədəbiyyatdan, cəmi 1 türk dilində olan kitabdan ibarətdir.

Nəhayət, göstəricinin III hissəsinin sonuncu 8-ci bölməsi "Heydər Əliyev beynəlxalq aləmdə" adlanır. Burada ulu öndərin xarici ölkələrə səfərlərinə dair materiallar toplanmışdır. Burada qeydə alınmış 65 ədəbiyyatdan 45-i Azərbaycan, 11-i rus, 6-sı ingilis, 1-i fransız, 1-i türk, 1-i isə gürcü dilindədir.

Biblioqrafik məlumat kitabının dördüncü hissəsi yardımçı göstəricilərdən ibarətdir. Bunlar "Heydər Əliyevin əsərlərinin əlifba göstəricisi" və "Müəlliflərin əlifba göstəricisi" adlı yardımçı aparatdır. Nəşrdə belə göstəricilərin verilməsi biblioqrafik məlumat kitabından istifadəni asanlaşdırır və istənilən mənbənin operativ müəyyənləşdirilməsinə kömək göstərir. Ümumilikdə, bu fundamental biblioqrafik kitabda 544 mənbənin biblioqrafik təsviri verilmişdir.

Bu sanballı biblioqrafik informasiya resursunun yaradılması bir daha sübut edir ki, biblioqrafiyalaşdırma prosesi kitabxanaların elmi və biblioqrafik işinin əsas istiqamətlərindən biridir. Bu fəaliyyət növünün nə qədər zəhmət tələb etdiyi hamıya məlumdur. Kompüter texnologiyalarının işə salınması ilə kitabxanaların ənənəvi kataloqlardan və fayl şkaflarından elektron sistemlərə keçməsinə imkan verən kitabxana proqramları vasitəsi ilə biblioqrafik göstəricilərin tərtibi prosesi xeyli sadələşdirilmiş və sürətləndirilmişdir. Avtomatlaşdırılmış rejimdə biblioqrafik göstəricilərin və siyahıların tərtib edilməsi imkanları artmışdır.

"Müstəqillik dövründə milli ədəbi dilin formalaşması şəraitində vətəndaşların mədəni, elmi və mənəvi informasiya tələbatını ödəmək məqsədilə müxtəlif elm sahələrinə, eləcə də humanitar elmlərə dair ədəbiyyat nümunələrinin yaradılması və çap olunması vacib məsələdir" [3, s.6]. Bu ədəbiyyatlar vasitəsilə Azərbaycan dilinin zənginliyini, tarixini, mədəniyyətini öyrənmək mümkündür. Humanitar elmlər üzrə milli ədəbiyyatın nəşri milli şüurun inkişafı, millətin, bütünlüklə xalqın təşəkkülü ədəbi dilin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Təsadüfi deyildir ki, milli müstəqillik şəraiti ölkəmizdə müxtəlif elm sahələri, o cümlədən humanitar elmləri əhatə edən mövzularda müxtəlif çap məhsullarının hazırlanmasına, özəl nəşriyyat sisteminin formalaşması və inkişafına əsaslı təsir göstərmişdir. Buna təsir göstərən ən mühüm məqam müasir dövrümüzdə ümummilli lider Heydər Əliyevin layiqli siyasi davamçısı, Prezident İlham Əliyevin ölkəmizdə bütün elm sahələrinin, eləcə də humanitar elmlərin inkişafına xüsusi diqqət göstərməsidir. Cənab Prezident İlham Əliyevin Azərbaycanda kitab və kitabxana mədəniyyətinin inkişafı sahəsində apardığı uğurlu siyasət təqdirəlayiqdir. Məhz bu şəxsiyyətin xüsusi qayğısının nəticəsidir ki, respublikamızda 8 minə yaxın kitabxana, 400-dən çox dövlət, özəl nəşriyyat, 1000-ə qədər qəzet və jurnallar öz fəaliyyətlərini daha da genişləndirməkdədirlər.

Ölkəmizdə yaranan belə bir şəraitin insanın mənəvi cəhətdən formalaşması, azərbaycançılıq məfkurəsinin bərqərar olması, ədəbiyyat, incəsənət və mədəniyyətdə əhəmiyyətli uğurların əldə olunmasına müsbət təsiri bu gün də hiss olunmaqdadır. Bir sözlə, xalqımızın zəngin kitab mədəniyyətinin tərəqqisi ölkə başçısının idarəçilik fəaliyyətində xüsusi mövqeyə malikdir.

Əliyevşünaslığın tədris və elmi-tədqiqat proseslərinin informasiya təminatı, kitabxana istifadəçilərinin müxtəlif növ məlumatlara geniş çıxışı üçün şəraitin yaradılması hər bir qurumun əsas missiyasıdır. Hazırda kitabxananın əsas vəzifələri bu sahədə fondun toplanması, mühafizəsi və əlçatanlığının təmin edilməsi, müasir kitabxana məhsul və xidmətlərinin formalaşdırılması, optimallaşdırılması, təbliği və oxucuların informasiya mədəniyyətinin yüksəldilməsidir. Kitabxana xidmətlərinin və məhsullarının populyarlaşdırılması və reklamı, elektron informasiya bazalarının yaradılması, kitabxana fondlarının açıqlanması oxucunun tələbatının ödənilməsi üçün rahat şərait yaradır.

**Nəticə.** Beləliklə, tədqiqatımızın nəticəsi olaraq belə bir qənaətə gəlmək olar ki, "Heydər Əliyev: biblioqrafik məlumat kitabı" tövsiyə xarakterli ən mühüm biobiblioqrafik göstəricilərdən biridir. Ümummilli liderimizə həsr edilmiş bütün biobiblioqrafik göstəricilər müxtəlif formaları, o cümlədən şəxsi, həmçinin bioqrafik və biobiblioqrafik lüğətləri ilə seçilir. Son zamanlar istər müxtəlif iri kitabxanalarda biblioqrafik işçilər, istərsə də universitetlərin professor-müəllim heyəti tərəfindən bu istiqamətdə şəxsi biblioqrafik göstəricilərin tərtibinə xüsusi diqqət yetirilir.

Ulu öndərin irsini əks etdirən bütün şəxsi göstəricilər bir növ biobiblioqrafik vəsaitlər kimi onunla bağlı nəşrlər haqqında biblioqrafik məlumatları, sənədləri və haqqında olan bioqrafik məlumatları birləşdirir. Belə şəxsi biblioqrafik göstəricilər bu gün də ümummilli lider Heydər Əliyevin çoxillik zəngin ictimai-siyasi fəaliyyətini təbliğ etmək üçün səmərəli istifadə olunur. Bu baxımdan, çox vacibdir ki, dahi siyasi xadimə bundan sonra həsr olunacaq şəxsi göstəricilərin köməyi ilə təkcə onun həyat və fəaliyyəti deyil, həm də Heydər Əliyev irsinə dair kitabxana fondlarını açmaq, kitabxanada saxlanılan xüsusi kolleksiyaları əks etdirmək lazımdır.

## Ədəbiyyat siyahısı:


1. Əliyeva-Kəngərli A. Heydər Əliyev və Azərbaycan elmi. Biblioqrafik göstərici / A.Əliyeva Kəngərli. – Bakı, – 2010. – 425 s.
2. Əliyeva-Kəngərli A. Heydər Əliyev: müstəqilliyimiz əbədidir çoxcildliyinin elmi biblioqrafik göstəricisi: [2 cilddə] / A.Əliyeva Kəngərli. – Bakı: Şərq-Qərb, c.1. – 2013. – 632 s.
3. Əliyev H. Dövlət xalq üçündür / H.Əliyev. - Bakı: Adiloğlu, - 2008. - 400 s.
4. Əliyev H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, c.1. – 1997. – 612 s.
5. Əliyev H. Müstəqilliyimiz əbədidir çoxcildliyin I-X cildlərinin köməkçi göstəricisi / H.Əliyev. – Bakı, – 2010. – 512 s.
6. Heydər Əliyev. Biblioqrafik məlumat kitabı/ tərt. ed.: A.Xələfov, S.Sadıqova.- Bakı: Bakı Universiteti Nəşriyyatı, - 2003. - 430 s.
7. Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi/ A.Xələfov. – Bakı: Azərnəşr, – 2006, 312 s.


**Jamila Azizova**

## THE IMPORTANCE OF USIG BIBLIOGRAPHIC RESOURCES IN THE PROPAGATION OF THE IDEOLOGY OF AZERBAIJANISM OF THE GREAT LEADER HAYDER ALIYEV

**Summary**: The significant period of modern Azerbaijani history is closely connected with the phenomenon of Heydar Aliyev. Heydar Aliyev founded the new Azerbaijan, the savior of the Azerbaijani people and the Azerbaijani state. It is no coincidence that hundreds of works have been written about such a prominent personality, that famous intellectuals of our people have created valuable works of art glorifying the national leader, and scientists and politicians have created scientific and research works about the multifaceted activities of the national leader. Only with the help of bibliographic information is it possible to summarize the large mass of documents created and provide readers with bibliographic information about all the works written about the national leader.

The bibliographic information sources dedicated to the world-famous political figure, leader of the savior of our nation, Heydar Aliyev, are severe sources of ideology and information for the development of our society. These valuable sources play an essential role in mastering the rich socio-political heritage of the genius leader. "Heydar Aliyev: bibliographic information book," published on his

80th anniversary, stands out among the bibliographic sources that reflect the life and activities of our great leader Heydar Aliyev due to the wealth of information potential.

**Key words:** Heydar Aliyev, the ideology of Azerbaijanism, Aliyev studies, bibliographic index, theoretical heritage

**UOT 62**

**Nadir Xalıqov**
**Milli Aviasiya Akademiyası,**
**baş müəllim**
**E-mail: nadir_1961@mail.ru**

**Səidə Əhmədova,**
**Milli Aviasiya Akademiyası,**
**müəllim**
**E-mail: saidaahmedovabaku@gmail.com**

# AZƏRBAYCAN MÜLKİ AVİASİYASININ MEMARI

**Açar sözləri:** aviasiya, əsrin müqaviləsi, beynəlxalq hava limanı

Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövrünü əhatə edən mərhələ, ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrindəki dirçəliş illəri ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Təqribən bir qərinəlik bu dövr Azərbaycan tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunub. Bu illərdə ümummilli liderin dəst-xətti ilə Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr yazılmışdır. Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətli artması, əlbəttə, Heydər Əliyevin misilsiz fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyətli və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, ən yüksək zirvəyə – Azərbaycan xalqının ümummilli lideri səviyyəsinə yüksəlmişdir [1]!

Bütün həyatı boyu öz xalqına sədaqətlə xidmət edən Heydər Əliyevin gerçəkləşdirdiyi quruculuq salnaməsinin ən mühüm hissələrindən biri də Azərbaycan dövləti və xalqımız üçün çox böyük və zəruri əhəmiyyət kəsb edən mülki aviasiya olmuşdur. Azərbaycan Mülki Aviasiyası onun diqqətindən heç vaxt yayınmamışdı. Mülki aviasiyadan digər keçmiş müttəfiq respublikalar kimi, Azərbaycanın da payına düşən və ötən əsrin 90-cı illərinin əvvəlində istifadə olunan “TU-154”, “YAK-40”, “AN-2” təyyarələri, “Mİ-6” və “Mİ-2” vertolyotları oldu. Digər tərəfdən, SSRİ-nin süqutundan sonra Azərbaycanda hökm sürən xaos, özbaşınalıq, sözün əsl mənasında, hakimiyyətsizlik mülki aviasiyaya da mənfi təsir göstərməyə başladı. Xalqımız 1993-cü ilin ağır günlərində yeganə çıxış yolunu Heydər Əliyevin hakimiyyətə qayıtmasında gördü. Xalqın davamlı təkidi ilə onun hakimiyyətə qayıdışı ölkəyə təzə ruh, təzə nəfəs, yeni bir abı-hava və canlanma gətirdi. Heydər Əliyev nəinki Azərbaycanı dağılıb məhv olmaqdan xilas etdi, eyni zamanda, milli qurtuluşun və tarixi inkişaf mərhələsinin əsasını qoydu [2]. Ən önəmlisi isə müstəqilliyimizi dönməz və əbədi yola çıxardı. “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin möhkəmlənməsi üçün güclü və əsaslı zəmin yaratdı. Bu uzaqgörən şəxsiyyət eyni zamanda mülki aviasiyanın inkişaf proqramını da müəyyənləşdirdi. Beləliklə, mülki aviasiyanın tərəqqisi və formalaşması xüsusilə prioritet məsələyə çevrildi. Azərbaycan Mülki Aviasiyasının yaranma tarixi 1938-ci ilə təsadüf etsə də, mülki aviasiyamızın inkişafının yeni mərhələsi ulu öndər Heydər Əliyevin respublikamızda rəhbərliyə qayıdışından sonra başladı.

Heydər Əliyev 1982-ci ildə SSRİ rəhbərliyinə təyinat alanda Azərbaycanda çox böyük yadigar tikililər qoyub getmişdi. Onlardan biri də tikintisi yarımçıq qalmış Bakı hava limanı idi [3]. Dünyaya sürətlə açılan, fəal inteqrasiya edən müstəqil Azərbaycan üçün hava limanını genişləndirmək və təyyarə parkını təkmilləşdirməklə yanaşı, ölkənin “səma qapısı” sayılan aeroportun yenidən qurulmasının

zəruriyyətinə əmin olan Heydər Əliyev o vaxt üçün ən müasir tələblərə cavab verən yeni aerovağzal kompleksinin tikintisini nəzarətinə götürdü və doxsanıncı illərin ortalarından başlayaraq şəxsi təşəbbüs göstərərək mülki aviasiyaya investisiya qoymaq barədə uzaqgörən qərar qəbul etdi. Beləliklə, 1981-ci ildən tikintisi yarımçıq qalmış hava limanı Heydər Əliyevin bilavasitə şəxsi təşəbbüsü, göstərişi və xüsusi qayğısı sayəsində 15 il sonra – 1998-ci ildə nəinki Azərbaycanın, hətta Xəzər regionunun nəhəng obyektinə çevrildi. Müharibə şəraitində olan ölkəmiz üçün təkcə mülki aviasiya sisteminə böyük məbləğdə xarici investisiya qoyuluşunda yalnız Heydər Əliyev nüfuzunun böyük rol oynaması danılmazdır. Məhz 1996-2002-ci illərdə Azərbaycan Mülki Aviasiyasında təxirəsalınmaz tədbirlər geniş vüsət aldı. 1996-cı il oktyabrın 2-də Gəncə aeroportuna Beynəlxalq hava limanı statusu verildi. Bakı Beynəlxalq Hava Limanının Aerovağzal Kompleksi də Azərbaycan Prezidenti Heydər Əliyevin yaxından köməyi və xüsusi nəzarəti sayəsində Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İKAO) tələbləri səviyyəsində iki il müddətində tikilib başa çatdırıldı. 1999-cu il sentyabrın 30-da aerovağzal kompleksinin açılış mərasimi oldu. Açılış mərasimində nitq söyləyən Prezident Heydər Əliyev dedi: "Bu gün mən özümü çox xoşbəxt hiss edirəm ki, bu aerovağzal kompleksinin təməlini 1981-ci ildə mən qoymuşam, 1985-ci ildə onun inşasının təmin olunmasını mən təşkil etmişəm və ondan sonrakı dövrdə burada heç bir iş görülmədiyi halda, son iki il müddətində bu kompleksin tikilib yüksək səviyyədə istifadəyə verilməsini də mən təmin etmişəm". Heydər Əliyev Bakı Hava Limanında aviaparkın təzələnməsini, yeni təyyarələr alınmasını ən mühüm vəzifələrdən biri kimi qarşıya qoymuşdu [4]. Məhz buna görə də 2000-ci il oktyabrın 9-da ilk "Boeing-757-200" təyyarəsi Bakıya gətirildi. Bir ay sonra isə 2-ci "Boeing-757-200" hava gəmisi "Azərbaycan Hava Yolları" QSC-nin aviaparkına daxil oldu. Müasir tipli bu təyyarələr ilə Bakıdan London, İstanbul, Təl-Əviv və Dubaya beynəlxalq reyslərin həyata keçirilməsinə başlanıldı. Bu, yeni və müstəqil Azərbaycan üçün çox böyük nailiyyət idi.

## Ədəbiyyat siyahısı:


1. "Bioqrafiya". Heydər Əliyev fondunun saytı (az.). heydar-aliyev-foundation.org. 2015-03-23 tarixində orijinalından arxivləşdirilib. İstifadə tarixi: 2015-02-06.
2. "Heydər Əliyev muzeyi". Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin saytı (az.). dmx.gov.az. 2015-04-15 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2015.
3. Jump up to:[1] [2] Azərbaycan Sovet Ensiklopediyası. IV cild. Bakı –1980. səh.178.
4. "HEYDƏR ƏLİYEV". Heydər Əliyev Mərkəzinin saytı (az.). heydaraliyevcenter.az. 2018-10-13 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2015-02-25.


**Khalygov Nadir**
**Akhmedova Saida**

## ARCHITECT OF CIVIL AVIATION OF AZERBAIJAN

**Summary:** The stage of the history of modern Azerbaijan, covering more than 30 years, the years of renaissance in all spheres of public, political, economic and cultural life of our country are connected with the name of the great leader Heydar Aliyev. This period lasting about a century forever entered the history of Azerbaijan as the era of Heydar Aliyev. In these years, the most vivid pages were written in the handwriting of the national leader in the annals of the foundation of Azerbaijan. Restoration and enrichment of traditions of statehood in Azerbaijan at the end of the XX century, strengthening of state independence, its eternal and irreversible character, confident progress of our country due to dynamic economic development, rapid growth of its international authority. We became possible, of course, thanks to the unparalleled activity of Heydar Aliyev. Thanks to his wise leadership, political foresight,

determination and persistence, Heydar Aliyev was recognized as an outstanding political figure of our time and rose to the highest peak - the level of the general leader of the Azerbaijani people!

**Key words:** aviation, contract of the century, international airport

**UOT 32**

**Aysu Bülbülzadə**
**Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin**
**Elmi Araşdırmalar, Ekspozisiya və fond şöbəsinin əməkdaşı**
**E-mail: bulbulzadaysu@gmail.com**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QURUCULUĞU

**Açar sözlər:** Azərbaycan Respublikası, Heydər Əliyev, dövlət quruculuğu, siyasi lider, müstəqillik

Yaxın keçmişimizə, dövlətçilik ənənələrimizə nəzər saldıqda aydın olur ki, Azərbaycan xalqının XX əsr tarixinin ən parlaq səhifələri ümummilli lider Heydər Əliyev fenomeni ilə bağlıdır (1969-1982, 1992-2003).

Ümummilli lider Heydər Əliyev ölkənin milli maraqlarına və dövlət quruculuğu xəttinə əsaslanan milli dövlətçilik konsepsiyasını irəli sürərkən tarixi ənənələrlə müasir inkişaf meyllərinin optimal vəhdətinə nail olmuş, Azərbaycan Respublikanın dinamik inkişaf strategiyasının əsasını qoymuşdur. Ona görə də bu gün əminliklə deyə bilərik ki, müstəqil Azərbaycanda müasir, demokratik cəmiyyətin formalaşması onun ideyalarının bəhrəsidir.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışından sonra milli və bəşəri dəyərlərə əsaslanan hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində real addımlar atıldı, ölkənin gələcək demokratik inkişafı müəyyən olundu, siyasi şərait yaradıldı.

Ulu öndərin formalaşdırdığı azərbaycançılıq milli dövlətçiliyimizin ideya əsasını təşkil etmiş, dünya azərbaycanlılarının həmrəyliyinin əsasını qoymuşdur. Heydər Əliyevin gərgin və ardıcıl fəaliyyəti nəticəsində son yüz ildə çox ciddi məsələ kimi gündəmə gələn milli dövlətçilik problemi elmdən, nəzəriyyədən, fəlsəfədən praktiki siyasətə və praktik həyata keçir [1, s.128].

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsinin ən mühüm cəhətlərindən biri də ölkəmizdə demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas istiqamətlərinin müəyyən edilməsi oldu [2, s.64].

Konstitusiyanın qəbulu və demokratik şəkildə formalaşmış Milli Məclisin mövcudluğu Azərbaycanda vətəndaşların siyasi azadlıqlarının təmin olunmasına imkan yaratdı. Bütün fəaliyyəti boyu humanizm prinsiplərini rəhbər tutan Heydər Əliyev demokratik və vətəndaş cəmiyyəti quruculuğunun fundamental əsaslarından biri olan qanunun aliliyinin təmin edilməsinə daim xüsusi diqqət yetirmişdir. Bu baxımdan o, islahatların həyata keçirilməsi istiqamətində konkret addımlar atmış, imzaladığı hüquqi sənədlərlə vətəndaş cəmiyyətinin formalaşmasında mühüm nailiyyətləri təmin etmişdir [3, s.44].

Siyasi lider Heydər Əliyevin qətiyyətli addımları sayəsində insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən ən mühüm islahat yaşamaq hüququnun təmin edilməsi olmuşdur. Belə ki, 1993-cü ildə ölüm hökmünün tətbiqi məhdudlaşdırılmış, 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradılmış, 1998-ci ildə Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm hökmü ləğv edilmişdir. Azərbaycan Respublikası İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmuş, seçki sistemi təkmilləşdirilmiş, mətbuat və ifadə azadlığının daha etibarlı müdafiəsi təmin edilmişdir. 1998-ci ildə "İnsan hüquqlarının müdafiəsi üzrə Dövlət Proqramı"nın təsdiq edilmişdir [3, s.100].

Ümummilli lider Heydər Əliyevin siyasi irsində demokratik dövlət quruculuğu məsələlərindən danışarkən, əlbəttə ki, siyasi sistemin inkişafına mühüm töhfələr verən proseslərə xüsusi diqqət yetirmək lazımdır. Onun səmərəli daxili siyasətinin mühüm nəticələrindən biri də siyasi plüralizmin təmin edilməsidir. Azərbaycanda siyasi plüralizm ən yüksək səviyyədə təmin olunub. Ölkədə 55 siyasi partiya

var və hazırda ölkə parlamentində 10 partiya təmsil olunur. Əsası 1992-ci il 21 noyabrda Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyası demokratik dövlət quruculuğuna töhfə verən ən mühüm amillərdən biridir. 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində ölkəmizdə hökm sürən mürəkkəb siyasi vəziyyətin daxili məntiqinin, dövrün aktual tələbatının, eləcə də Azərbaycan xalqının arzularının ifadəsi kimi yaranan Yeni Azərbaycan Partiyası hər zaman öndə olub. İlk gündən YAP-ın əsas məqsədi Azərbaycanın dövlət müstəqilliyini qorumaq və möhkəmləndirmək, ərazi bütövlüyünü təmin etmək, demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, qüdrətli və güclü dövlət quruculuğu yaratmaqdan ibarət olmuşdur. 30 ildən artıqdır ki, öz proqram məqsədlərinə uyğun fəaliyyət göstərir. Bu gün Azərbaycan bu prinsiplər əsasında inkişaf edir. Qürurverici faktdır ki, Yeni Azərbaycan Partiyası ölkədə ictimai-siyasi mühitin yaxşılaşdırılması, əhalinin sosial rifahının yüksəldilməsi üçün ideoloji bazaya çevrilib [4, s. 54].

Heydər Əliyev müasir Azərbaycan tarixində müstəsna rolu olan şəxsiyyətdir ki, Azərbaycanın tarixinin 40 ili onun adı ilə bağlıdır. Ulu öndər xalqımızın tarixinə Azərbaycanla bağlı gördüyü işlərlə böyük qurucu şəxsiyyət və xilaskar kimi yazılmışdır [5].

Böyük dövlət xadimi, görkəmli siyasətçi, müstəqil Azərbaycan dövlətinin memarı, zəmanəmizin nadir şəxsiyyətlərindən olan Heydər Əliyev tarixə çox zəngin irs qoymuşdur. Xalqımızın mənəvi sərvəti olan bu irsi öyrəndikcə bir daha əmin olursan ki, ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan Respublikasının hərtərəfli inkişafı prosesinə güclü təkan vermiş bu böyük şəxsiyyətin müasir Azərbaycan dövlətinin quruculuğunda müstəsna rolu var. Ümummilli lider Heydər Əliyevin başladığı dövlət quruculuğu prosesi məhz demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş, hazırda isə həmin proses Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir.

**Ədəbiyyat siyahısı:**

1. Abdullayev V. Azerbaijan in the new diplomatic space. Baku: Azerneshr, 2000, 412 p.
2. Kazimli X. Continuation of the great policy. Baku: Nurlan, 2007, 768 p.
3. Mehdiyev R. National statehood in the XXI century. Baku: Azerneshr, 2003. -340 p.
4. Mehdiyev R. New policy: towards development. Volumes I-II. Baku: Oscar MTM, 2008, 581, 343 p
5. Talıblı S.Ə. "Heydər Əliyevin Azərbaycan hakimiyyətinə ikinci dəfə qayıdışının dövlətçilik tariximizdə yeri" / https://azadmedia.az/gundem/57202-dr-subhan-talbl-heydr-liyevin-azrbaycan-hakimiyytin-ikinci-df-qaydnn-dovltcilik-tariximizd-yeri.html

UDC: 811.512.162.

**Leman Zeynalova-Memmedzade,**
**Mingachevir State University.**
**teacher**
**E-mail: leman.zeynalova.1997@mail.ru**

**Turkanbayim Ahmadli**
**Mingachevir State University,**
**teacher**
**E-mail: Turkanbayim.ahmadli@mdu.edu.az**

## THE ROLE OF HEYDAR ALIYEV'S SPEECH IN OUR LANGUAGE

**Key words:** Heydar Aliyev, constitution, the great leader

Our great leader Heydar Aliyev, who said that "it is the language that keeps alive and develops the nationality and moral values of every people", was one of the prominent speakers of his time. He was a unique person, a thoughtful statesman who stood guard over this language with his wise and intelligent decisions as well as with his speech. People were amazed by his speech's beauty, richness, fluency, and logic and were happy to listen to him. His speech was a truly creative activity. The structure of the sentences, originality and ingenuity in using words and expressions were always noticeable.

The mother tongue is the main factor confirming the existence of every nation. The nation's language and alphabet are considered necessary conditions for its formation as a nation. The historical path of a people, its cultural level, is first of all reflected in its native language. The mother tongue is also considered a primary means of maintaining the nation's existence in difficult historical and political times [1].

The current level of development of the Azerbaijani language confirms that our nation is one of the oldest nations in the world. National leader Heydar Aliyev used to say that our country has gone through great trials and difficulties for centuries, but it has not lost its identity, nationality, and language. In 1995, the Azerbaijani language was once again established as the state language in our first Constitution. On June 18, 2001, President Heydar Aliyev signed a decree "On improving the development of the state language". According to the legislation, from August 1, 2001, all printed products in the Azerbaijani language in the country switched to the Latin alphabet. August 1 - Azerbaijani Alphabet and Azerbaijani Language Day were established. In general, it is a historical fact that among world leaders, including in the Turkic world, no leader raised the language issue to the level of state policy as much as the great leader Heydar Aliyev.

Heydar Aliyev spoke in front of the most diverse audiences. Conquering these audiences with brilliant orations is possible only with a speech filtered from a solid logical mind. Achieving all this is the result of relying on extensive encyclopedic knowledge. Halls where people of various disciplines gather to hear valuable words related to their jobs, witness the refinement of the inner content specific to those professions and not hide their admiration. In all these auditoriums, we see Heydar Aliyev's speech, which is not written down anywhere and has not been repeated by anyone. Such speeches are permanent and memorable. Clarity is intrinsic merit to Heydar Aliyev's speech.

The great leader's speeches during his visit to our region when we were still schoolchildren, which we later witnessed on high stands, have not been erased from our memories. Sincerity, determination, optimism, logical consistency, etc., in speech principles, brought him closer to the audience. The political leader was able to explain with his speech. He always prioritised philosophical ideas in his speech and built introductions and endings perfectly. All these features always made him memorable.

The great leader touched on the issues of spirituality in all his speeches. He said: "A young person who does not know our national values and traditions well, who does not know our history well, cannot be a patriot. Every young citizen should be a patriot. Patriotism is a significant concept. It is not just serving in the army, but being loyal to the country, loving the country, being attached to the land; this is patriotism."

We all know well that philosophers have given unique definitions of morality at different times, which is the main line of their speeches. According to Heydar Aliyev, ethics is a matter of moral education. At another point, morality is our national and righteous value, according to the great orator. Morality has a path of development. The great leader had his view and his explanation of the concept of morality, which has an important place in the dictionary of moral philosophy and was manifested in various audiences.

There was no unfathomable audience for Heydar Aliyev's speech. The power of a political leader's speech is determined by many speech elements - sincerity, determination, optimism, and poeticism, one of which is the philosophical ideas in the speech of a great speaker. Philosophy, which is considered to be the love of wisdom, has been enriched by the words of eminent personalities throughout history. Heydar Aliyev wisely defines wisdom. Wisdom is not only related to people's science, knowledge, and education. It is an innate talent, a person's understanding of life, and the ability to correctly evaluate the ongoing processes and take the necessary benefits from them [2].

Such a point always manifests itself in speech culture. The speech and ordinary conversations of people with a broad outlook, perfect knowledge, and high intelligence are simple and pleasant in modesty. As a rule, they present their work on behalf of the public. For example, "Our results in this field are beneficial", and "Let's try to clarify this issue". From here, sobriety and humility are the main qualities of cultural speech. One should not boast of one's advantages. "If you can, be smarter than everyone else, but don't tell anyone about it." Smart people rarely use the personal pronoun "I". They hesitantly talked about their successes and tried to give them in the name of the common. All these human characteristics are reflected in the speech of the political leader. Not every speaker can skillfully use ethical and aesthetic texts in order to increase expressiveness in speech. The great leader achieved these in his speeches.

Today, mastering speech culture has an influential role in forming our young people as personalities and leaders of the future. The way to achieve eloquence is to know our mother tongue perfectly and to have extensive knowledge and reading. The main thing is perseverance and persistence in mastering the art of public speaking because being a good speaker is like being successful. People preparing to speak in front of audiences should keep in mind some nuances in their speech, knowing that modern listeners can receive information. The speech of the propagandist should be short, concise, clear, understandable, and scientifically robust. In short, lectures, conversations, and speeches should be born from the demand of life and endorse its voice. Our young people can learn all these features related to the art of public speaking from Heydar Aliyev's speech examples.

**References**

1. Higher school pedagogy. Baku, Nurlan, 2007.
2. Khudiyev N. Heydar Aliyev and the Azerbaijani language. Baku, "Science and education", 2014.

UOT: 791-5

**Konul Mammadzadeh**
**Azerbaijan State Pedagogical University,**
**Doctoral student**
**E-mail: konul.kesa@yahoo.com**

# HEYDAR ALIYEV'S VIEW OF FILM ART

**Summary:** Great achievements were made in the economic and social sphere of the country during the leadership of the prominent political figure Heydar Aliyev. The great leader, who has a broad worldview, is knowledgeable and experienced in all fields, has done everything in his power to make our national values recognized all over the world, and has created ample conditions for the promotion of our cultural and artistic figures. As in all fields of art, his services in the development of our national cinema are undeniable.

**Key words:** Azerbaijani cinema, Azerbaijani cinematography, Azerbaijani films, modern film art, cinema art

**Introduction.** Since its inception, the art of cinema, which has shaped people's outlook, kept alive the history and national traditions of every nation, and permeated all spheres of life, is the greatest discovery of mankind. Cinema is the only art form that combines several areas of culture. One of the advantages of cinema is its visibility, power of persuasion and influence.

**Main paragraph.** Azerbaijani cinematography, as a whole, played an important role in shaping the audience's aesthetic taste and outlook, and served to preserve the national spirit of our people. National leader Heydar Aliyev, who highly appreciated Azerbaijani film art, said: "Many generations of the Azerbaijani people have been brought up by film art, formed, developed and assimilated to culture under the influence of cinema. The services of Azerbaijani cinema are invaluable in the development of our nation." By the Decree of Heydar Aliyev dated December 18, 2000, August 2 was declared "Azerbaijani Cinema Day". [2]

During the first period of national leader Heydar Aliyev's leadership of our country, attention and care was also paid to the development of national cinema. In the years of independence, special attention was paid to the art of cinema under the leadership of the Great Leader. By the Decree of our national leader dated August 19, 1998, the Law "On Cinematography" was adopted in Azerbaijan. In addition, a number of Azerbaijani films have been awarded high state awards, actors, directors and screenwriters have received awards at international film festivals and competitions. "General", "First", "Moscow, Kremlin", "Leader", "Fate", "About True Love", "History of Envy", "Professional", which tells about the life and activities of the great leader Heydar Aliyev. [1]

The films "Patriot", "Special Assignment" and "State" have been welcomed by movie lovers as the most valuable art examples of our modern era. The films of Huseyn Mehdiyev, Javanshir Mehdiyev, Yavar Rzayev, Nijat Feyzullayev, Ayaz Salayev, Eldar Guliyev, Rasim Ojagov, Oktay Mirgasimov, among the modern directors who continue the cinema art of Azerbaijan, are interesting in terms of subject matter. Films made by director Gulbeniz Azimzade have been awarded prizes at several film festivals.

The work done by the National Leader for the development of cinema is successfully continued by the President of the country Mr. Ilham Aliyev. On February 23, 2007, the head of state signed orders "On the development of cinematography", and on August 4, 2008, on "The State Program on the development of Azerbaijani cinema for 2008-2018". The state program envisages increasing the production of films, as well as equipping with modern cinema equipment and techniques, expansion of

joint film production with foreign countries, reconstruction of cinemas. The material and technical bases of film studios in our country have already been strengthened, new films have been shot, and our cinematography has entered the modern stage of development. In recent years, Azerbaijani films have been represented at more than 40 international festivals held in foreign countries. Along with the pavilions of many countries, the Azerbaijan pavilion was also organized for the first time at the traditionally held International Cannes Film Festival. Azerbaijani cinema was represented at the festival with the state-ordered feature films "Actress" and "Field". Short films made by our young cinematographers were also shown at international festivals held in Denmark, USA, Russia, Ukraine, India, Germany, Turkey and other countries. [3]

One of the main topics addressed by our national cinema was the Karabakh conflict. The displacement of Azerbaijanis from their homes, the atrocities committed by Armenians on the lands of Azerbaijan formed the main plot line of the films. "Faryad", "White Horse Boy", "Hope", "The Future Left Behind", "We Will Return", "Khoja", "Dolu" and other movies were filmed during the period of independence.

**Results.** Even today, there is great interest in the art of cinema and our films. Because every film, every created screen work preserves the history and culture of our nation and conveys it to future generations.

### Ədəbiyyat siyahısı:

1. Mədəniyyət qəzeti, 20 dekabr 2003-cü il
2. Sinematoqraf nəşri, 2002, səh.5
3. https://azerbaijan.az/related-information/179

**Könül Məmmədzadə**

## HEYDƏR ƏLİYEVİN KİNO SƏNƏTİNƏ MÜNASİBƏTİ

**Xülasə:** Görkəmli siyasi xadim Heydər Əliyevin rəhbərliyi dövründə ölkənin iqtisadi-sosial sahəsində böyük nailiyyətlər əldə edilib. Geniş dünyagörüşlü, məlumatlı, hər sahədə təcrübəli olan ulu öndər milli dəyərlərimizin bütün dünyada tanınması üçün əlindən gələni etmiş, mədəniyyət və incəsənət xadimlərimizin təbliğ olunmasına geniş şərait yaratmışdır. İncəsənətin bütün sahələrində olduğu kimi, milli kinomuzun inkişafında da onun xidmətləri danılmazdır.

**Açar sözlər:** Azərbaycan kinosu, Azərbaycan kinematoqrafiyası, Azərbaycan filmləri, müasir kino sənəti, kino sənəti

**УДК 1{091}**

**Гезяль Гусейнова**
**Бакинский Государственный Университет**
**докторант**
**E-mail: gozel.huseynova.1995@mail.ru**

# РОЛЬ ГЕЙДАРА АЛИЕВА В СПЛОЧЕНИИ ТЮРКСКОГО МИРА

**Ключевые слова:** Гейдар Алиев, тюркские государства, тюркские народы, тюркский мир, культура, сотрудничество.

В настоящее время в условиях глобализации во всем мире среди различных народов и государств налаживаются тесные связи, расширяется сотрудничество. В таких условиях существенное значение на международной арене занимает тюркский мир, отличающийся динамичностью и способностью внести весомый вклад в развитие человеческой цивилизации. Общенациональному лидеру Гейдару Алиеву отводится важная роль в деятельности, совершенной в интересах тюркских народов. Налаживание тесного сотрудничества с тюркскими государствами в различных сферах служило усилению единства и дружбы между тюркскими народами.

После распада СССР большое значение имело определение направления внешнеполитического курса. На VII съезде дружбы и братства тюркских народов и государств, пройденном в 1999 году в Баку, общенациональный лидер уверенно заявлял о том, что такого рода съезды способствуют сближению тюркских народов, обладающих едиными этническими корнями, общностью истории, культуры, а также обеспечивают развитие всестороннего сотрудничества и усиление национально-духовного единства тюркского мира [5]. Сегодня традиция проведения такого рода собраний продолжается по инициативе как глав тюркских государств, так и международных тюркских организаций, занимающих важное место в сплочение тюркских народов. Значимость тюркского мира растет с каждым днем. Роль главного интегратора тюркских народов выполняет Организация Тюркских государств, созданная еще в 2009 году по предложению Н.Назарбаева.

Гейдару Алиеву как одному из лидеров всего тюркского мира удалось вывести свою страну из изоляционного состояния от общетюркского мира: налаживались тесные связи с Турцией, Казахстаном, Узбекистаном, Кыргызстаном, Туркменистаном. При этом в качестве основания для сотрудничества определились принципы единства исторических корней, общности обычаев и традиций, языка и т.д. [1]. Гейдар Алиев искренне верил в то, что тюркский мир, вставший на путь нового развития, при условии сплочения независимых тюркских республик, ждет прекрасное будущее: «Современный тюркский мир, переживающий новый период взлета, способен предоставить человеческой цивилизации новые неоценимые образцы. То, что сегодня многие тюркские республики, обретшие суверенитет, сошлись воедино, дает надежду на светлое будущее тюркского мира…» [2]. Веру в неограниченные возможности тюркского мира выражал и другой инициатор тюркской интеграции – Нурсултан Назарбаев, отмечая, что тюркские народы, будучи единым целым, смогут участвовать в культурных мировых отношениях, действуя не пассивным образом, а выступая в качестве равноправного субъекта, что и возможно пронаблюдать сегодня [3].

Тюркские республики, получившие независимость после распада Советского Союза, встали на путь укрепления национальной независимости. Документы, подписанные между тюркскими

государствами служат основой сотрудничества в различных областях (экономика, наука, культура и т.д.), на основе чего формируется общее многогранное тюркское пространство. Гейдар Алиев в свое время заявлял, что это сотрудничество служит восстановлению, изучению общей культуры и истории тюркских народов: «Наши саммиты заложили основу еще одной благородной традиции. Она заключается в совместном праздновании знаменательных годовщин наших гениальных личностей, корифеев нашей национальной культуры, наших национальных эпосов, считающихся жемчужинами общечеловеческой культуры, важных и исторических событий в жизни наших народов…» [6].

Прогнозы и высказывания дальновидного политика оказались правдивы: в нынешнее время тюркские государства и организации осознают важность и ценность общего культурного наследия тюркских народов, на изучение, сохранение и пропаганду которого ориентированы их действия. Шуша, являющаяся символом культуры и истории для всего азербайджанского народа, по решению Международной Организации тюркской культуры – ТЮРКСОЙ была объявлена культурной столицей всего тюркского мира 2023 года, в то время как в 2022 году ею был турецкий город Бурса.

Благодаря дальновидной политике Гейдара Алиева был внесен весомый вклад в восстановление Великого шелкового пути, являющегося исторически важным для тюрков. Азербайджан, находящийся на стыке Востока и Запада, превратился в место реализации важного проекта «ТРАСЕКА», в рамках которого осуществляется реализация торговых отношений по транспортному коридору Европа-Кавказ-Азия. Общенациональный лидер на VI Саммите глав тюрко-язычных государств, пройденном в Баку в 2000 году, отмечал, что данный проект приведет не только к сближению тюркских народов и улучшению экономического состояния тюркских государств, но и к улучшению благосостояния тюркских народов: «Выполняя программу ТРАСЕКА и реализуя транспортный коридор Европа-Кавказ-Азия, мы не только создаем возможности для экономического развития и открытия новых рабочих мест, но и способствуем сближению и взаимному обогащению наших народов, укрепляем обстановку мира и стабильности в нашем регионе» [4].

Развитие многосторонних отношений между тюркскими народами представляет ныне особую важность для многих тюркских республик, в том числе для Турции и Азербайджана, осуществляющих, в связи с этим активную деятельность. С момента распада СССР наблюдаются частые попытки укрепления взаимоотношений с тюркскими народами со стороны Турции, укрепление позиций которой на Кавказе и в Средней Азии расценивается как угроза со стороны многих стран, стремившихся не допустить усиления сотрудничества. На долю Азербайджана же выпала почетная миссия – благодаря деятельности великого общенационального лидера он определился в качестве связывающего звена между крупной тюркской республикой – Турцией и странами Центральной Азии, обеспечивая при этом мир и стабильность в регионе.

В настоящее время тюркские республики придают динамизм сотрудничеству, что требует постоянного тщательного изучения. В последние годы начала осуществляться подготовка молодых тюркологов, умеющих разбираться во всех тонкостях процессов, происходящих во всем тюркском мире. Образовательная программа «Турция и тюркский мир», осуществляемая сотрудниками Института классического Востока и античности, предполагает обучение и подготовку молодых тюркологов с целью обеспечения глубокого изучения турецкого и других тюркских языков, а также культуры и истории тюркских народов.

## Литература:

1. Гурбанова С.А. Гейдар Алиев и внешнеполитический курс Азербайджанской Республики. Баку, «Şərq-Qərb», 2010, 72 стр. с.17-19

2. Джаваншир Эйюб оглу Фейзиев, Союз тюркских государств: Евразийская модель глобальной интеграции, Баку, 2014, 409 с., с.262-269
3. Назарбаев Н.А. В потоке истории, Алмааты: Атамура, 1999. – 296 с.112-116
4. Речь Президента Азербайджанской Республики Гейдара Алиева на VI саммите глав тюрко-язычных государств // Возрождение – XXI век. Баку, 2000, № 4, с.4-7, с.6
5. VII съезду дружбы, братства и делового единства тюркских государств и народов – Баку, 29 июня 1999 года – Электронный ресурс: https://lib.aliyevheritage.org/ru/9998406.html, дата обращения: 28.03.2023
6. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 2009, 512 səh. s.68-70

UOT 32

**Aynur Yusif qızı Ələkbərova**
**AMEA Memarlıq və İncəsənət İnstitutu**
**Kiçik elmi işçi**
**E-mail: aynurA@gmail.com**

# HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİNİN KONSEPTUAL TƏHLİLİ

**"Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri**
**onun həm bu günüdür, həm də sabahıdır, ümididir"**
**Ulu öndər Heydər Əliyev**

**Xülasə:** Ümummilli lider Heydər Əliyev gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bütün dünyaya nümunə olacaq bir addım atmışdır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxmışdır.

Qəbul olunan qanun və fərmanların, görülən işlərin, aparılan siyasətin nəticəsi kimi deyə bilərik ki, bu gün Azərbaycan gəncliyi ən öncül sıralardadır. Uğurla və müvəffəqiyyətlə aparılan gənclər siyasətinin müsbət nəticələri göz önündədir.

Belə ki, Azərbaycan hakimiyyəti gənclərin bilik və bacarıqlarının hərtərəfli formalaşmasını, ölkədə səriştəli kadr və mütəxəssis ordusunun yetişməsini, bir sözlə, neft kapitalının insan kapitalına çevrilməsini – ən əsas prioritetlərdən biri olaraq elan etmişdir. Dövlətin bu yöndə həyata keçirdiyi siyasət çox uğurludur və artıq bu uğurların nəticələri gənclərin həyat və fəaliyyətində açıq-aşkar nəzərə çarpmaqdadır.

**Açar sözlər:** Azərbaycan gəncləri, gənclər siyasəti, forumlar, inkişaf, fərmanlar

Bir xalqın inkişafında, demokratik dövlət və cəmiyyətin qurulmasında, onun iqtisadi-siyasi, mədəni həyatında və müstəqilliyinin möhkəmləndirilməsində gənclərin rolu əvəzolunmazdır. Ümumiyyətlə, cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya məhz gənclərlə birgə addımlayır.

Ölkəmizin gənclərinin yüksək potensiala, intellektual səviyyəyə, müasir dünyagörüşünə malik olduğunu və cəmiyyətin gələcəyini gənclərdə görən ümummilli lider Heydər Əliyev gənclərin sağlam ruhda böyümələri, ölkəyə layiqli vətəndaşlar kimi yetişmələri üçün gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə bu sahənin dövlət siyasətinin prioritet sahələrindən biri kimi formalaşdırılmasını təmin etdi.

Bu əlamətdar tarixi gün gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir. Bu siyasət müasir müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirən ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Gənclərin inkişafı ilə bağlı görülən ilk mühüm və əhəmiyyətli işlərdən biri ümummilli liderin 1994-cü il 26 iyul tarixli fərmanı ilə Gənclər, İdman və Turizm Nazirliyi (indiki Gənclər və İdman Nazirliyi) yaradılması oldu. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirilməyə başladı, nazirliyin yerli strukturları formalaşdı, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görüldü, bir sıra dövlət proqramları hazırlandı.

Bununla yanaşı Ulu öndərin təşəbbüsü ilə 1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə ümummilli lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüşdür. Beləliklə də, 2 fevral 1996-cı ildə gənclərin I Forumu keçirilmişdir. Forumda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etmişdir. İlk Forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadı. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunmağa başlanıldı.

1997-ci il fevralın 1-də Azərbaycan Gənclərinin I Forumunun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən ulu öndər Heydər Əliyev 2 fevral – "Azərbaycan Gəncləri Gününün" elan edilməsi haqqında Sərəncam imzalamışdır. Qürur hissi ilə deyə bilərik ki, bu sahədə də Azərbaycan bir çox ölkələri qabaqladı. Məhz ilk dəfə bizim ölkədə bu sərəncamın qəbul olunması, bütün dünyaya nümunə olacaq daha bir addım oldu. Belə ki, "MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanmışdı" (11).

Yeri gəlmişkən qeyd etmək istərdim ki, dünya üzrə gənclər günü Azərbaycanda Gənclər Günü təsis edildikdən xeyli sonra "gənclərin işləri üzrə nazirlərin Lissabonda keçirilən ümumdünya konfransının (8-12 avqust 1998-ci il) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli 54/120 saylı qətnaməsi ilə 12 avqust – Beynəlxalq Gənclər Günü elan edilib" (12).

2 fevral 1996-cı ildə gənclərin I Forumundan sonra, artıq bu hal bir ənənəyə çevrildi. "II forum 1999-cu il martın 2-3-də Bakı şəhərində keçirildi. Forumda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etmişdir. Forumda plenar iclaslarla yanaşı 11 istiqamət bölmə iclaslarının təşkili, onun işində gənclərin daha fəal iştirak etməsinə şərait yaradıldı. Keçirilən bu forum görülmüş işləri müsbət qiymətləndirdi və dövlət gənclər siyasətinin keyfiyyətcə yeni mərhələsinin başlanğıcını qoydu (1, s.230)." Bu cür forumların keçirilməsi, yeni-yeni fərmanların qəbulu gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsində müstəsna rol oynayır.

"Gənclərin II Forumu, (1999-cu il) həmçinin imzalanmış "Dövlət gənclər siyasəti haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Gənc istedadlar üçün təqaüdlərin təsis edilməsi haqqında" fərmanlar, sərəncamlar, eyni zamanda, qəbul edilmiş "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc ailə", "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu", "Gənclər siyasəti haqqında" proqramlar, qanunlar Azərbaycan gəncliyinin inkişafı yolunda çox mühüm faktora çevrildi" (1, s.231).

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi gənclər siyasəti özündə bir neçə mühüm istiqamətləri ehtiva edirdi. Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək, gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək, gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək, gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq, Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq ümummilli liderin müəyyən etdiyi strateji hədəflər olub.

Bu gün də ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinə diqqət və qayğı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı dəfələrlə gənclərlə görüşərək, onların fikirlərini dinləmiş və öz tövsiyələrini vermişdir. Bu, prezidentimizin gəncliyimizə böyük dəyər verdiyinin bariz nümunəsidir. Onu da vurğulamaq istərdim ki,

hər dəfə bu cür görüşlərdən sonra, sözün əsl mənasında gənclərin fəaliyyətində bir təkan, ruh yüksəkliyi olur.

Belə ki, “2005-ci il avqustun 30-da İlham Əliyev “Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında” Sərəncam imzalamışdır. Dövlətin gənclər siyasətini müasir tələblərə uyğun şəkildə həyata keçirmək məqsədilə Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən qurulmuşdur. Növbəti addım kimi 2007-ci il prezidentimiz tərəfindən ölkədə “Gənclər ili” elan edilmişdir. 16 aprel 2007-ci ildə prezidentimiz tərəfindən imzalanan Sərəncamla təsdiq olunan “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində yüzlərlə gənc təhsil almaq üçün xarici ölkələrə göndərilmişdir. 2003-cü, 2005-ci, 2008-ci, 2011-ci, 2014-cü, 2018-ci, 2020-ci illərdə Bakıda gənclərin növbəti forumları keçirildi. “2011-ci il tarixində prezident İlham Əliyev tərəfindən “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı haqqında sərəncam imzalanmışdır” (10).

Sözügedən proqram çərçivəsində həyata keçirilən ən uğurlu layihələrdən biri Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılmasıdır. Təsadüfi deyil ki, məhz Gənclər Fondunun fəaliyyətə başlaması ilə kütləvi sayda gənclərin fəaliyyət və təşəbbüsləri dövlət tərəfindən dəstəkləndi.

“Azərbaycan Respublikasının Gənclər Fondu – 7 mart 2018-ci il tarixində yenidən yaradılan, ölkəmizdə gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətlərin stimullaşdırılmasını, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirilməsini təmin edən qurumdur. Gənclər Fondu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 fevral 2011-ci il tarixli 826 nömrəli fərmanı ilə təsis olunmuşdur. Fond Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 7 iyul 2011-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 6.1.4-cü bəndinə əsasən yaradılmışdır. Fond daha öncə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında fəaliyyət göstərmişdir. 2018-ci ilin mart ayının 7-də isə adı Azərbaycan Respublikasının Gənclər Fondu olaraq dəyişdirildi” (7).

Bundan başqa, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində 2015-ci ilə qədər 5 minə qədər gənc inkişaf etmiş xarici ölkələrdə mükəmməl ali təhsil aldı” (8).

Fond həmçinin gənclər tərəfindən irəli sürülən layihələri də reallaşdırır. 2012-ci il iyun ayında ilk qrant müsabiqəsi elan olundu. Gənclər Fondunun əsas missiyası vətənpərvər, sağlam düşüncəli yeni nəslin formalaşmasına, gənclərin ictimai fəallığının artırılmasına və onların ideyalarının, təşəbbüslərinin dəstəklənməsinə xidmət etməkdir. Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclərin formalaşması bu məqsədyönlü siyasətin nəticəsidir. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır.

“Son sözü ümummilli liderimizin kəlamıyla bitirmək istərdim: “Hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır” (4).

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan gənclərinin II Forumu, 2-3 mart 1999-cu il. Bakı, “Azərbaycan”, 2000, 224 səh.
2. İbrahim Mustafayev, Zaur Adıgözəlov. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi . Bakı, “QAPP-POLİQRAF” Korporasiya, 2003, 368 səh.
3. İradə Hüseynova. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, “Təhsil”, 2004, 472 səh.

**İnternet resursları**

4. http://terter-ih.gov.az/az/news/275.html
5. https://www.mys.gov.az/gnclr-siyasti/gnclr-forumlari/7/azrbaycan-gnclrinin-forumlari
6. https://az.wikipedia.org/wiki/G%C9%99ncl%C9%99r_v%C9%99_%C4%B0dman_Nazirliyi_(Az%C9%99rbaycan)
7. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_G%C9%99ncl%C9%99r_Fondu
8. https://youthfoundation.az/9686/?lang=en
9. https://web.archive.org/web/20180904040439/https://youthfoundation.az/decree
10. https://president.az/az/articles/view/2721
11. https://az.wikipedia.org/wiki/G%C9%99ncl%C9%99r_G%C3%BCn%C3%BC_(Az%C9%99rbaycan)
12. https://azertag.az/xeber/2_fevral___Azerbaycan_Gencleri_Gunudur-1702347

**Aynur Yusif gizi Alakbarova**

## CONCEPTUAL ANALYSIS OF HEYDAR ALIYEV'S YOUTH POLICY

**Summary:** National leader Heydar Aliyev took a step that will become an example for the whole world in the successful implementation of the state policy in the field of youth. The state youth policy, founded by the national leader Heydar Aliyev and successfully continued today by the President of the Azerbaijan Republic – Ilham Aliyev, has left a deep mark on the progressive development of the youth of Azerbaijan.

As a result of the adopted laws and decrees, as well as the work done, the policy pursued, it can be said that today the youth of Azerbaijan is among the pioneers. The positive results of the successfully pursued youth policy are visible.

Thus, the Azerbaijani authorities proclaimed the comprehensive formation of knowledge and skills among young people, the formation of an army of competent personnel and specialists in the country, that is, the transformation of oil capital into human capital, has become one of the country's most important priorities. The policy pursued by the state in this direction is very successful, and the results of these successes are clearly visible in the life and work of young people.

**Key words:** Azerbaijani youth, youth policy, forums, development, decrees

**UOT 021 (09)**
**(0000-0003-1144-5083)-ORCID**

**Kəmalə Məmmədova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,**
**müəllim**
**E-mail: kamalamammad@gmail.com**

# HEYDƏR ƏLİYEV İRSİNİN TƏBLİĞİ KİTABXANALARIN MARKETİNQ FƏALİYYƏTİNDƏ
## (M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının iş təcrübəsi əsasında)

**Xülasə:** Məqalədə M.F.Axundov adına Milli Kitabxananın iş təcrübəsi əsasında H.Əliyev irsinin təbliği məsələləri araşdırılmış, bu işdə istifadə edilə biləcək marketinq, reklam və PR texnologiyalarından istifadə mexanizmi göstərilmişdir.
**Açar sözlər:** Heydər Əliyev, kitabxana, kitabxana marketinqi, kitabxana reklamı və PR, biblioqrafiya, elektron məlumat bazaları

**Giriş.** Müasir kitabxana sənədləşdirilmiş informasiya resurslarını toplayıb mühafizə edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət edən adaptasiya oluna bilən, çoxfunksiyalı açıq sosial institutdur. O cəmiyyət qarşısında müəyyən sosial funksiyalar daşıyır və bu funksiyalar vasitəsilə dövlət əhəmiyyətli bir sistem formalaşdırır.

Kitabxanaların həyata keçirdiyi sosial funksiyalar bir qayda olaraq, ölkənin həyatında baş verən sosial-iqtisadi və siyasi dəyişiklər fonunda formalaşır və informasiya tələbatına birbaşa təsir edir. Bu da istifadəçilərin dünyagörüşünün, informasiya mədəniyyətinin formalaşmasında, şəxsiyyətlərarası ünsiyyətin inkişafında mühüm yer tutur, eyni zamanda da kitabxanaların dövlət və vətəndaş qarşısında məsuliyyətini artırır.

Müasir kitabxanaları təkcə sənədləşdirilmiş informasiya resurslarını nəsildə-nəslə ötürən, resurs-informasiya tələbatçısı arasında vasitəçi rolu oynayan bir təchizat kimi deyil, həm də dövlətçilik ideyalarının təbliğatçısı və mənəvi dəyərlərin yaradıcısı kimi dəyərləndirmək lazımdır. Bu gün ölkə kitabxanalarının, xüsusilə də M.F.Axundov adına Azərbaycan Milli Kitabxananın iş təcrübəsinə əsaslansaq bu fikirlərin nə dərəcədə doğru olduğunun şahidi olarıq, çünki Milli Kitabxananın sənəd-informasiya fondlarında bu gün dövlətçiliyin, milli ideologiyanın təbliğinə dair kifayət qədər informasiya resursu mövcuddur. Təqdirəlayiq halda odur ki, bu resursların böyük əksəriyyəti məhz kitabxananın özü tərəfindən hazırlanmışdır. Bunların içərisində Heydər Əliyev irsinin təbliği ilə bağlı informasiya resursları xüsusi yer tutur.

**Problemin qoyuluşu.** M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası Qafqazın, Avropa qitəsinin, eləcə də dünyanın ən böyük milli kitabxanalardan biridir. O eyni zamanda da Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətinin ən layiqli təbliğatçısı, milli nəşrləri, xarici ölkələrdə nəşr olunmuş Azərbaycan haqqında və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə qiymətli və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsidir.

Kitabxananın son illərdə əldə etdiyi marketinq istiqamətli uğurları isə kitabxananın imic və resurs reklamı baxımından xüsusilə diqqət çəkir. Bunların içərisində kitabxananın saytı, biblioqrafik vəsaitlər, elektron məlumat bazaları və kütləvi tədbirlər mühüm rol oynayır.

**Problemin həlli.** Milli Kitabxananın Heydər Əliyev irsinin təbliğində bu marketinq vasitələrindən necə və hansı formada istifadə etdiyini nəzərdən keçirək:

1. **Kitabxananın saytı.**

Bu gün kitabxana saytı virtual informasiyaya istənilən vaxtda, istənilən həcmdə və dünyanın istənilən nöqtəsində əlyetərliyi təmin edə bildiyi üçün günümüzün zərurətinə çevrilmişdir [3, s.213]. Kitabxana saytı həm də ən geniş auditoriyaya malik marketinq kommunikasiya vasitəsi hesab edilir.

Tədqiqat prosesində 3 əsas meyardan-məzmun, dizayn və əlyetərlik meyarlarından istifadə etməklə Heydər Əliyev irsinin təbliği ilə bağlı Milli Kitabxananın və onun saytının monitorinqi keçirtdim. Araşdırmanın gedişatı zamanı müşahidə etdim ki, kitabxana marketinq kommunikasiyalarından, xüsusilə də reklam və PR texnologiyalarından istifadə məsələlərinə xüsusi diqqət yetirir. Belə ki, kitabxananın saytında https://www.millikitabxana.az [6] yer alan "Xəbərlər", "Nəşrlərimiz", "Layihələr" və digər bölmələr daimi olaraq yenilənməklə yanaşı, eyni zamanda da kitabxana reklamına qoyulan tələblərin düzgün və planlı şəkildə həyata keçirilməsini təmin edir. Aşağıda sadaladığım meyarlar bunu sübut edir:

- Heydər Əliyev irsinin təbliği prosesinin kitabxananın real və potensial istifadəçi kütləsini tam əhatə etməsi;
- Heydər Əliyev irsinin təbliği ilə bağlı istifadəçilərə təklif edilən informasiya resurslarının onların informasiya tələbatına uyğunluğu;
- Kitabxanada Heydər Əliyev irsinin təbliği prosesinin intensivliyi və inandırıcılığı;
- Heydər Əliyevin irsinin təbliği ilə bağlı təklif edilən informasiya resurslarının daimi olaraq yenilənməsi;
- Heydər Əliyev irsinin təbliğində kitabxananın lakoniklik, dinamiklik, tamlıq nümayiş etdirməsi və s.

Bundan başqa, Milli Kitabxananın sosial şəbəkə hesabları və PR (ictimaiyyətlə əlaqələr) fəaliyyəti də Heydər Əliyev irsinin təbliğində reklam vasitəsi kimi çıxış edir.

2. **Biblioqrafik və metodik vəsaitlər.**

Kitabxananın son 8 il (2015-2023-cü illər) ərzində nəşr etdiyi iki sanballı vəsaiti nəzərdən keçirək. Yeri gəlmişkən, Heydər Əliyev irsinin biblioqrafik və metodik kitabxana məhsulları vasitəsilə təbliğatı bu iki vəsaitin mənbə sərhədləri ilə məhdudlaşmır. Kitabxananın mövzu baxımdan adıçəkilən mövzuya yaxın olan bütün vəsaitləri dəyərli araşdırma obyektidir.

"Heydər Əliyev: biblioqrafiya (Layih. rəhb. Ə.Qarayev; tərt.ed.: M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva. – Bakı, 2018. – 680 s.). M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "Heydər Əliyev" fundamental biblioqrafik göstəricisi Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının sabiq Prezidenti (1993-2003), Azərbaycan xalqının ümummilli lideri, Müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmişdir [1, s.3].

Biblioqrafiya ulu öndərin 1969-2018-ci illərdə Azərbaycan, rus, ingilis, türk və digər xarici dillərdə nəşr olunmuş kitablarını, elmi konqres, sessiya, konfrans materiallarında və elmi məcmuələrdə dərc edilmiş ictimai-siyasi məqalələrini, çıxışlarını və ulu öndər haqqında yazılmış materialları əhatə edir. "Əsərlərinin biblioqrafiyası" və "Haqqında materiallar" adlanan iki əsas bölmədə yer alan materiallar hər bölmədə mövzuya uyğun olaraq yarımbölmələr şəklində qruplaşdırılmışdır.

"Heydər Əliyev irsinin kitabxanalarda təbliği (tərt. ed. L.Əhmədova; elmi red. K.Tahirov; red. A.Abdullayeva. – Bakı, 2018. – 54 s.).

Ulu öndərin 95 illik yubileyi münasibətilə hazırlanmış metodik vəsaitdə Heydər Əliyevin həyatı və ictimai-siyasi fəaliyyəti, Azərbaycanda kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsi, kitabxanalarda Heydər Əliyev irsinin təbliği ilə əlaqədar tövsiyələr, "Əlavələr" bölməsində isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi

haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, həmçinin, ulu öndərin kitab və kitabxana haqqında müdrik kəlamları, Azərbaycanın və dünyanın görkəmli elm, mədəniyyət və siyasi xadimlərinin ümummilli lider haqqında söylədikləri fikirlər və s. məlumatlar verilmişdir [2, s.3].

"Azərbaycanda kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsi" adlanan bölmədə milli mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxana işinin inkişafı sahəsində Heydər Əliyevin rolundan və gördüyü işlərdən bəhs olunur. "Heydər Əliyev irsinin təbliği sahəsində kitabxanaların rolu" adlı bölmədə isə həm yubiley ili çərçivəsində, həm də Heydər Əliyevin zəngin siyasi və ictimai irsinin, dövlətçilik fəlsəfəsinin dərindən öyrənilməsi və geniş təbliğ olunması məqsədilə keçiriləcək tədbirlər planının təxmini modeli verilir.

Onu da qeyd edim ki, dünya təcrübəsində biblioqrafik xidmətlərin (xüsusilə də biblioqrafik vəsaitlərin) informasiya tələbatçılarına pullu əsaslarla göstərildiyi bir vaxtda Milli Kitabxananın bu resurslara əlyetərliyi təmənnasız olaraq təmin etməsi onun intellektual biblioqrafik məhsul reklamı sahəsində atdığı ən uğurlu addımdır.

### 3. **Elektron məlumat bazaları.**

Heydər Əliyev irsinin təbliğində elektron məlumat bazalarının da rolu böyükdür. Elektron məlumat bazaları kitabxanaların reklam fəaliyyətinin aparıcı qüvvəsi hesab edilir.

Kitabxananın hazırladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev" adlı elektron məlumat bazası [7] özündə aşağıdakı bölmələri və yarımbölmələri əks etdirir:

- Rəsmi sənədlər (bölmə 2004-2022-ci illəri əhatə edir: cəmi 22 mənbə);
- Heydər Əliyev – əbədiyaşar şəxsiyyət (Biblioqrafiyası; Heydər Əliyevin həyatı və ictimai fəaliyyətinin əsas tarixləri; Azərbaycana rəhbərlik etdiyi dövrlər; Çıxışları, məruzələri, nitqləri, təbrikləri; Görkəmli şəxslər H.Əliyev haqqında; Müdrik kəlamları; Təltiflər);
- Əsərləri (Azərbaycan dilində, rus dilində, ingilis dilində);
- Haqqında nəşrlər (Kitablar, məqalələr, musiqi əsərləri, dissertasiyalar);
- Heydər Əliyev Milli Kitabxanada (Heydər Əliyevin Milli Kitabxanaya hədiyyə etdiyi kitablar; Nitqlər; Fotoalbomlar);
- Heydər Əliyev dünya kitabxanalarında (Türkiyə Milli Kitabxanası, Rusiya Dövlət Kitabxanası, Belarus Milli Kitabxanası, ABŞ Konqres Kitabxanası, Yaponiya Milli Kitabxanası, Koreya Milli Kitabxanası, Gürcüstan Milli Kitabxanası, Niderland Milli Kitabxanası, Argentina Milli Kitabxanası, Belçika Milli Kitabxanası, Çexiya Milli Kitabxanası, Almaniya Milli Kitabxanası, Fransa Milli Kitabxanası, Litva Milli Kitabxanası, Bolqarıstan Milli Kitabxanası, Estoniya Milli Kitabxanası, Böyük Britaniya Milli Kitabxanası, Avstriya Milli Kitabxanası, Bavariya Dövlət Kitabxanası, Polşa Milli Kitabxanası, Ukrayna Milli Kitabxanası, Şotland Milli Kitabxanası, Danimarka Milli Kitabxanası);
- Xatirəsinin əbədiləşdirilməsi (Orden, medal və mükafatlar; Xatirə sikkələri; Heydər Əliyev Filateliyada (markalar); Heydər Əliyev Fondu; Heydər Əliyev Mərkəzləri; Azərbaycanda Heydər Məscidləri; Heydər Əliyev Sarayı; Heydər Əliyev Beynəlxalq Hava Limanı; Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Neft Boru Kəməri; Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu; Azərbaycan Respublikası MTN-nin Heydər Əliyev adına Akademiyası; Heydər Əliyev adına Müasir Təhsil Kompleksi; Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi; Heydər Əliyev adına Lisey; Heydər Əliyevin Xatirə Muzeyləri; Parklar və abidələr; Xatirəsinə ithaf edilmiş möhtəşəm xalça);
- Foto-qalereya (Ailə albomu; Heydər Əliyev Milli Kitabxanada; Heydər Əliyev və mədəniyyətimiz; ulu öndər Heydər Əliyev (fotoşəkillər); ulu öndərin abidələri; Heydər Əliyev Filateliyada (markalar));
- Video-qalereya (Heydər Əliyev Milli Kitabxanada (cəmi 6 video-resurs); Heydər Əliyev və mədəniyyətimiz (cəmi 6 video-resurs); Dahi şəxsiyyət (cəmi 6 video-resurs)).

Heydər Əliyevin Milli Kitabxananın sənəd-informasiya fondunun formalaşdırılmasında da mühüm xidmətləri vardır. Belə ki, şəxsi kitabxanasından Milli Kitabxanaya qiymətli kitab kolleksiyaları hədiyyə

edən ziyalılarımız içərisində ulu öndərimiz Heydər Əliyevin adı ön sıradadır və bu barədə kitabxananın saytında "Şəxsi kitabxanasından Milli Kitabxanaya qiymətli kitab kolleksiyaları hədiyyə edən ziyalılarımız" [8 ] bölməsində məlumat yerləşdirilmişdir.

Heydər Əliyev irsinin təbliğində reklam vasitəsi kimi kütləvi tədbirlərin rolu da əhəmiyyətli yer tutur. Bu baxımdan 2023-cü ildə kitabxanada təşkil edilən 3 irimiqyaslı tədbirin adını qeyd etmək istərdim:

- Milli Kitabxanada ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda Elmi konfrans (30 mart 2023-cü il) [9];
- Milli Kitabxanada "Biz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik" illik siyasi məktəbinin növbəti dərsi (27 fevral 2023-cü il) [10];
- Heydər Əliyev adına Hərbi İnstitutun kursantları Azərbaycan Milli Kitabxanaya səfəri (22 fevral 2023-cü il) [11].

Milli Kitabxana müntəzəm olaraq "Açıq Kitabxana" layihəsi, ənənəvi və virtual kitab sərgiləri çərçivəsində də Heydər Əliyev irsinin təbliği ilə bağlı aksiyalar və layihələr həyata keçirilir.

**Nəticə.** M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında Heydər Əliyev irsinin təbliği prosesinin kitabxana reklamı kontekstində öyrənilməsi belə bir qənaətə gəlməyə əsas verir ki, kitabxanada bu istiqamətdə kifayət qədər iş görülmüşdür. Kitabxana Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı [4] və "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı [5] rəhbər tutaraq 2023-cü ildə də bu işləri davam etdirmək əzmindədir. Buna bu il nəşri planlaşdırılan iki irimiqyaslı işi – "Heydər Əliyev: biblioqrafiya" və "Heydər Əliyev irsinin Milli Kitabxanada tədqiqi: elmi-tədqiqat işi"ni misal göstərə bilərik:

Ümumiyyətlə, kitabxananın Heydər Əliyev irsinin təbliği ilə bağlı öz marketinq strategiyasını gələcəkdə aşağıdakı istiqamətlərdə inkişaf etdirməsini və həyata keçirməsini məqsədəuyğun hesab edirəm:

- Heydər Əliyev irsinə dair Azərbaycan Respublikasının ərazisində çap olunmuş informasiya resurslarının tam dəstinin toplanması;
- Heydər Əliyev irsinə dair elmi, mədəni və bədii dəyərə malik xarici nəşrlərin əldə edilməsi;
- Heydər Əliyev irsinə dair dissertasiya, əlyazma, xəritə, not, təsviri və audiovizual və digər materiallardan ibarət müstəqil sənəd-informasiya fondunun formalaşdırılması; bu fondların saxlanması, restavrasiya və mühafizəsinin təşkili; fondların elmi və işlənilməsi və müxtəlif daşıyıcılarda olan kataloqlar sistemi vasitəsilə məzmunun açılması;
- Heydər Əliyev irsinə dair retrospektiv xarakterli toplu elektron biblioqrafik informasiya resurslarının yaradılması;
- Milli Kitabxanada Heydər Əliyev irsinin təbliği ilə bağlı xüsusi kitabxana, biblioqrafik, bibliometrik, informasiya və məsləhət xidmətinin təşkili;
- Milli Kitabxanada Heydər Əliyev irsi ilə bağlı elmi-tədqiqat, elmi-metodiki və elmi-informasiya fəaliyyətinin təşkili;
- Heydər Əliyev irsinin kitabxanada təbliği və kitabxananın mədəni-maarif və nəşriyyat fəaliyyətindəki rolunun tədqiqi;
- Heydər Əliyev irsinin kitabxanalarda təbliği ilə bağlı ixtisasartırma kurslarının təşkili və gənc kadrların maarifləndirilməsi və s.

## Ədəbiyyat siyahısı:

1. Heydər Əliyev: biblioqrafiya / Layih. rəhb. Ə.Qarayev; tərt.ed.: M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva. – Bakı, 2018. – 680 s.

2. Heydər Əliyev irsinin kitabxanalarda təbliği /tərt. ed. L.Əhmədova; elmi red. K.Tahirov; red. A.Abdullayeva. – Bakı, 2018. – 53 s.
3. Туранина Н.А., Сергеева А.Ю. Библиотечная реклама и возможности современных веб-сайтов. – Вестник БГТУ им. В.Г. Шухова 2015, № 4. – с.213-217.
4. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/az/articles/view/57413
5. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://e-qanun.az/framework/52817
6. https://www.millikitabxana.az
7. http://anl.az/el/emb/H.Aliyev/index.html
8. https://www.millikitabxana.az/about-us/relationships/relationships-intellectuals
9. https://www.millikitabxana.az/news/milli-kitabxanada-ulu-onder-heyder-eliyevin-100-illik-yubileyine-hesr-olunmush-heyder-eliyev-ve-azerbaycanchiliq-mefkuresi-movzusunda-elmi-konfrans-kechirilib
10. https://www.millikitabxana.az/news/milli-kitabxanada-biz-azerbaycan-xalqinin-umummilli-lideri-heyder-eliyevin-elmi-siyasi-irsini-oyrenirik-illik-siyasi-mektebinin-novbeti-dersi-kechirilib
11. https://www.millikitabxana.az/news/heyder-eliyev-adina-herbi-institutun-kursantlari-azerbaycan-milli-kitabxanasinda-olublar

**Kamala Mammadova**

## PROMOTION OF HEYDAR ALIYEV'S HERITAGE IN THE MARKETING ACTIVITIES OF LIBRARIES
## (based on the experience of the Azerbaijan National Library named after M.F.Akhundov)

**Summary:** In the article, based on the experience of the National Library named after M.F. Akhundov, the issues of popularization of the legacy of G. Aliyev are investigated, and the mechanism of using marketing, advertising and PR technologies that could be used in this work is also shown.

**Key words:** Haydar Aliyev, library, library marketing, library promotion and PR, bibiography, electronic databases

**UDC 92**

**Ali Sidibe**
**Republic of Mali**
**E-mail: alisidibe@gmail.com**

## HEYDAR ALIYEV, THE LEADER WHO DID NOT STACK OFF RESPONSIBILITIES

**Summary:** Leadership skills are the key to success. What is eternal is not only the fields successfully led by H. Aliyev, but also the energy and selflessness showed him to serve and protect and develop society. The people of Azerbaijan call him "Great leader Heydar Aliyev" for his unparalleled service to his nation and people. Being a perfect personality characterizes his successful activities as the architect of the modern state of Azerbaijan.

**Key words:** Heydar Aliyev, great leader, politics, Azerbaijan

Leadership in it meaning of sacrifice for people, organization, company, or a state is the key magic to the greatness.

Started from May 1923 to December13, 2003; Heydar Alirza Aliyev as source of energy, personality who served communities he presents during his entire life. Graduated at age $16^{th}$ in 1939 from Architecture, and because of WWII's outbreak his higher education has been interrupted.

The son of Alirza, was born in Nakhchivan, the Republic of Azerbaijan in $10^{th}$ May 1923, and served in 1941-1944 as head of secret division at the Archive department of the people's commissariat of internal affairs of Nakhchivan, then general department of the same council under soviet socialist Republic until he was sent to work at state security bodies in 1944.

Aliyev's courage, energy and willing to share his potential experience was not just appreciate; however, it also illustrates strength points in favor, which opened up doors to his nomination in key political positions such as head of the state security committee of Azerbaijan SSR in 1950.

In 1957, Aliyev was graduate of Baku state University, faculty of history then he was pointed for head of the counter-intelligence of Azerbaijan SSR, also in 1964 got promoted for deputy chairman of the committee.

What should be remain, is not just how many positions he successfully led, but how energies, sacrifice he was to serve and protect community around; which is why people of Azerbaijan call him **"Ulu önder Heyder Aliyev"** as respect to his service for the nation.

Although there is not perfect personality, his successful efforts made him stand as the great leader of modern Azerbaijan state; Aliyev always believed in Azerbaijan emergency, and hardly worked each single day of his life to lead people from civil wars and compound critical conflicts in 90s to a political key player as regional, and global leading state of 20s;

Heydar Aliyev knew that in order to succeed as political leader, corruption as well as injustice must be band, particularly those heritage negatives from the USSR. A known phrase from Heydar Aliyev is: "Azerbaijan is my life, Azerbaijan soul, Azerbaijan is my heart…"; This is what the world needs to know about Aliyev not critics from western or eastern hidden agendas.

As a type lifetime gratitude, people of Azerbaijan built a worldwide architectural center on his name, in addition to public parks, sculpture monuments, as well as mausoleum to honor his soul; as a foreign citizen who lived in Baku, learning from the kindly people of Azerbaijan, I have been honored to attend a high-level meeting inside the national center, listened from office stuffs regional representative in May 2022 about (Heydar Aliyev and Culture).

The great leader of Azerbaijan, Heyday Alirza Aliyev withdrew his presidential candidature cause of health issues in October 2003 in favor of new generation to lead through strategical visions which protect high interests of Azerbaijan for long period of time.

As person, the great leader Heydar Aliyev left this world on December 13, and buried on $15^{th}$ 2003; his endless efforts for Azerbaijan and for humanity will continuous to shine in the entire world.

Through unanimous voting process, Ilham Heyday Aliyev has trustfully chosen by people of Azerbaijan to run the office for collective benefits.

Heydar Aliyev, the leader who scarified for his belonging nation, has to be an example of a leadership style, the style which do not stack off a single year out of dreams to share and care humans lives in the long eight decades of his life.

**Literature:**

1. Heydar Alirza oglu Aliyev; at president.az/en
2. National leader Heydar Aliyev; at nk.gov.az/en

**Ali Sidibe**

## HEYDƏR ƏLİYEV, UZAQGÖRƏN VƏ MƏSULİYYƏTLİ LİDER

**Xülasə:** Liderlik bacarığı uğurun açarıdır. Əbədi olan təkcə H.Əliyevin uğurla rəhbərlik etdiyi sahələr deyil, cəmiyyətə xidmət etmək və qoruyub, inkişaf etdirmək üçün sərf etdiyi enerji, göstərdiyi fədakarlıqdır. Millətinə və xalqına misilsiz xidmətinə görə Azərbaycan xalqı onu "Ulu öndər Heydər Əliyev" adlandırır. Kamil şəxsiyyət olması, onun uğurlu nəticə verən fəaliyyəti müasir Azərbaycan dövlətinin memarı kimi səciyyələndirir.

**Açar sözlər:** ümummilli lider, Heydər Əliyev, siyasət, Azərbaycan

Çapa imzalanıb: . 2023
Format: 60x84 1/8. Qarnitur: Times.
Həcmi: __ ç. v. Tiraj: 100. Sifariş № __.

---

**ADMİU-nun mətbəəsində çap edilmişdir.**
**Ünvan:** Bakı şəhəri, H. Zərdabi küç. , 39a

**Telefon:** (+994 12) 434-50-04